ETİBAR QULİYEV
AYTƏN QULİYEVA
DİLQƏM QULİYEV

# AZƏRBAYCAN VƏ ANADOLU TÜRKLƏRİNƏ QARŞI SOYQIRIM

Ax 2012/2341

**ETİBAR QULİYEV**

**AYTƏN QULİYEVA**

**DİLQƏM QULİYEV**

95906

# AZƏRBAYCAN VƏ ANADOLU TÜRKLƏRİNƏ QARŞI SOYQIRIM

## TARİXİ HƏQİQƏTLƏR

**Kitaba Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi» şöbəsi (23 iyun 2008 - ci il, 5 saylı protokol ) və Azərbaycan DBTİA-nın elmi şurasının protokolundan çıxarış və rəy verilmişdir (« 25 dekabr 2008-ci il «2» saylı protokol)**

**Kitabın nəşrinə mənəvi və maddi yardım göstərdiyi üçün Azərbaycan Respublikası Gənclər və İdman naziri Azad Arif oğlu Rəhimova öz dərin minnətdarlığımızı bildiririk.**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

ARXİV

95436

**Bakı – «Təknur» – 2012**

T3(2Az)7 99 +T3(5Ty) 99

**Elmi redaktor:** Bəhramov Cəbi Əmirvar oğlu – tarix elmləri üzrə fəlsəfə doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini

**Rəyçilər:** Məmmədov İsrafil Süleyman oğlu – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanlılara qarşı deportasiyalar və soyqırım tarixinin şöbə müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru

Məhərrəmov Elmar Əli oğlu – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun İnformasiya mərkəzinin rəhbəri, tarix elmləri üzrə fəlsəfə doktoru

**Redaktor:** Əliyev İsfəndiyar Hacəhməd oğlu

**Quliyev Etibar Dilqəm oğlu, Quliyeva Aytən Dilqəm qızı, Quliyev Dilqəm Qasım oğlu. «Azərbaycan və Anadolu türklərinə qarşı soyqırım» tarixi həqiqətlər. – Bakı, Təknur: 2012. 576 səh. (şəkilli)**

Monoqrafiyada ermənilərin Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırım, deportasiya siyasəti, çar Rusiyasının Qafqaz siyasəti və Şimali Azərbaycanın işğalı, Türkiyə və Qafqaz türklərinə qarşı əsrlər boyu aparılmış amansız soyqırım fakt və hadisələrinin, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci ilin avqustunda yaradılmış Fövqəladə Tədqiqat Komissiyasının tərtib etdiyi 36 cildlik materiallar, Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı (1917-1920), Azərbaycan Ordusunun yaranma tarixi, Azərbaycanın dövlət müstəqilliyinin bərpası və başqa tarixi hadisələr öz əksini tapmışdır.

Monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-445-03-8**

**© Etibar Quliyev, 2012**
**© Aytən Quliyeva, 2012**
**© Dilqəm Quliyev, 2012**



## YADDA SAXLA!

Qoy bütün dünya görsün, bütün bəşəriyyət şahid olsun, bilsin ki, XIX-XX, XXI əsrin əvvəllərində onları dəhşətli bir taun – erməni vandalizmi hədələyir.

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş şəhər və rayonları:

**1813-1828-ci ilə** qədər Azərbaycanın sahəsi təxm. 410 min kv.km.

**1813-1828-ci illərdə** işğal edilmiş Azərbaycan əraziləri; İran əsarəti altındakı Cənubi Azərbaycan sahəsi – təxm. 280 min.kv.km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan – təxm. 130 min kv.km.

**1918-ci ildə** Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9 min kv.km.

Rusiya əsarəti altında olan Dərbənd xanlığı – sahəsi 7 min kv.km.

**1918-1920-ci illərdə** Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi təxminən 114 min kv.km.

**1920-ci ildə** ADR-i işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göycə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən Borçalı (Gürcüstan Sovet Sosialist Respublikası) – birlikdə sahəsi təxm. 27.4 min kv.km.

**1920-1991-ci** illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – 86,6 min kv.km.

Azərbaycanın **1988-1994-cü illərdə** işğal edilmiş əraziləri (cəmi: 13,110 kv.km. keçmiş Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrud). İşğal tarixi – **1988-1994-cü illər**. 274 yaşayış məntəqəsi, sa-

həsi 4400 kv.km.

**Laçın** – (17 may 1992-ci il) – 1835 kv.km., 120 yaşayış məntəqəsi, əhalisi 30000 nəfər;

**Kəlbəcər** – (3-4 aprel 1993-cü il) – 1936 kv.km, 120 yaşayış məntəqəsi, əhalisi 50000 nəfər;

**Ağdam** – (23 iyul 1993-cü il) – 1094 kv.km. 83 yaşayış məntəqəsi, əhalisi 150000 nəfər;

**Cəbrayıl** – (18 avqust 1993-cü il) – 1050 kv.km., 76 yaşayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Füzuli** – (23 avqust 1993-cü il) – 1386 kv.km., 62 yaşayış məntəqəsi, əhalisi 110000 nəfər;

**Qubadlı** – (31 avqust 1993-cü il) – 802 kv.km., 94 yaşayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Zəngilan** – (29 oktyabr 1993-cü il) – 707 kv.km., 81 yaşayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Naxçıvan MR** – (1991-ci il) – 1 yaşayış məntəqəsi.

Ermənistanın Azərbaycana təcavüzü xalqımızı olduqca ağır itkilərə məruz qoymuşdur. 20 faizdən çox torpağımız işğal olunmuş, 900 mindən çox yaşayış məntəqəsi, 4366 sosial obyekt, 1145 məktəbəqədər müəssisə və uşaq bağçası, 1831 kino qurğusu, 982 kitabxana, 862 klub, 690 məktəb, 556 ambulatoriya və tibb məntəqəsi, 76 aptek, 10 doğum evi, 10 poliklinika, 13 muzey, 4 texnikum, 1 ali məktəb, 300-ə qədər idman qurğusu və s. yerlərə yeksan edilmişdir.

Maddi və mənəvi abidələrlə bərabər yeraltı və yerüstü sərvətlərimiz də düşmən tərəfindən talan edilmişdir. İşğal olunmuş Azərbaycan ərazisində 44 məbəd (türbə, mədrəsə, sərdabə), 31 məscid, 2 mağara-ibadətgah, 13 qala-bürc, 22 kurqan-təpələr, mağara abidələri, 8 körpü, 9 saray, imarət, hamam və karvansara kompleksi, 2 bulaq-abidə, 4 qızıl mədəni, 3 civə mədəni, 2 qranit, 2 mərmər, 4 daş karxanası və 5 müxtəlif tikinti materialları yataqları, mineral su mənbələri – istisu və 2 dövlət qoruğu ermənilər tərəfindən dağıdılmışdır.





4852 soydaşımız əsir düşüb: onlardan 54-ü uşaq, 323-ü qadın, 410-u qocadır:

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 4852 Azərbaycan vətəndaşı müqayisə zonasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Məlumata görə, onlardan 54-ü uşaq, 323-ü qadın, 410-u qocadır. 1988-2005-ci illərdə 1368 Azərbaycan vətəndaşı erməni əsirliyindən azad edilib. Bunlardan 169 nəfəri uşaq, 338 nəfəri qadın, 286 nəfəri qocalardır.

Təkzibolunmaz faktlar göstərir ki, itkin düşmüş 4852 vətəndaşdan ən azı 783 nəfəri ermənilər tərəfindən əsir, yaxud girov götürülmüş, lakin bu faktlar beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilib. Onlardan 18 nəfəri uşaq, 46 nəfəri qadın, 69 nəfəri qocadır. Həmin şəxslərin siyahısı erməni əsirliyindən qayıtmış vətəndaşlarımızın və digər mənbələrin şahid ifadələri əsasında tərtib edilib.

## ÖN SÖZ

**«Azərbaycanlıların soyqırmı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir».**

*Heydər ƏLİYEV*

Soyqırım nədir? Beynəlxalq hüquq sənədlərində bu anlayış öz əksini necə tapmışdır və bunu Azərbaycan tarixinin hər hansı dövrünə hansı əsaslarla aid etmək olar?

İlk növbədə soyqırım anlayışının nə olduğunu, onun müasir beynəlxalq hüquq elmində necə müəyyənləşdirildiyini dəqiqləşdirmək lazımdır. Soyqırım ifadəsi ilk dəfə olaraq, 1949-cu il dekabrın 9-da BMT BA-nın İnsan Hüquqları Komissiyasının «Soyqırımı siyasəti üçün xəbərdarlıq edilməsi və ona görə cəzalandırma konvensiyası»nın II maddəsində bir beynəlxalq hüquqi termin kimi qəbul edilərək istifadə olunmuşdur. Həmin maddəyə görə soyqırımı bir millətin dil, din, məzhəb və milli fərqləri ilə əlaqədar olaraq bir dövlət və ya hərbi-siyasi qurum tərəfindən məqsədli şəkildə yox edilməsi prosesini nəzərdə tutur. Bu prosesin hər hansı ölkənin hökuməti və ya hərbi siyasi təşkilatı tərəfindən həyata keçirilməsi əsas şərt olaraq qəbul edilir. Ümumiyyətlə, «Soyqırım hər hansı milli, etnik, irqi və ya dini mənsubiyyətə görə, hər hansı bir xalqın və etnik qrupun qəsdən məhv edilməsi məqsədini güdən hərəkətə deyilir.» (95).

Belə hallara Azərbaycan xalqının XX əsr tarixinin bütün mərhələlərində rast gəlinir. Bu qeyri-insani hərəkətləri törətməkdə ermənilər və onların himayədarlarının son məqsədi nədir? Bu suala cavab vermək üçün tarixi faktlara dönə-dönə müraciət etmək lazımdır. Artıq inkaredilməz bir həqiqətdir ki, ermənilər bütün tarix boyu azərbaycanlılara və türklərə qarşı xəyanət və düşmənçilik mövqeyi tutmuşlar.





Azərbaycan Cənubi Qafqazın və Ön Asiyanın ən qədim tarix və zəngin mədəniyyətə malik bir ölkəsidir. Bu zəngin tarix iki milyon ildən çox bir dövrü əhatə edir və bəşər tarixinin bütün mərhələləri Azərbaycan torpağında öz silinməz izini qoymuşdur. Qədim Azərbaycan tarixinin hər bir səhifəsi çox qiymətli hadisələrlə zəngindir. Bu qədim və zəngin tarix isə ümumiləşdirilmiş şəkildə tarixçi alimlər tərəfindən Azərbaycan xalqına yalnız XX əsrin ikinci yarısında və XXI əsrin başlanğıcında çatdırılmışdır. Onu da qeyd etmək lazımdır ki, bu zəngin tarixin həm də qanlı səhifələri vardır. Məlumdur ki, Azərbaycan öz geosiyasi vəziyyətinə görə bütün dövrlərdə nəhəng imperiyaların mübarizə obyekti olmuş, əraziləri işğal edilmiş, müəyyən mərhələdə öz dövlətçiliyindən məhrum olmuş, əhalisi isə dəfələrlə deportasiyaya, etnik təmizləmələrə və soyqırıma məruz qalmışdır. Bütün bəşəriyyət üçün ən ağır cinayət olan bu proseslər Azərbaycan xalqına qarşı XVIII-XX əsrlərdə çar Rusiyası, onun varisi olan SSRİ və onların hər ikisinin əlində alət olan ermənilər, 1918-ci ildən isə Qərbi Azərbaycan torpaqlarında yaradılan Ermənistan tərəfindən həyata keçirilmişdir (95).

XVIII əsrin I yarısında çar Rusiyasını imperiyaya çevirən I Pyotrun xarici siyasətində ən mühüm istiqamətlərdən biri Türkiyə və Qafqazı ələ keçirmək idi. Bu vəzifələrin həlli üçün Rusiya imperiyasına bu ərazilərdə həm keçmiş, həm də müasir Rusiya hakim dairələri nümayəndələrinin dedikləri kimi, hərbi-siyasi qüvvə-forpost lazım idi və bu rolu isə Türkiyə və Qafqazın xristian əhalisi oynaya bilərdi. Lakin qeyd etmək lazımdır ki, hələ XVIII əsrdə İran və Osmanlı Türkiyəsi ərazilərində yaşayan və Cənubi Qafqaza heç bir aidiyyatları olmayan ermənilər öz «zülmkarlarından» azad olmaq üçün Qərbi Avropaya ümid bəsləyirdilər. Bu məqsədlə 1678-ci ildə Azərbaycan Səfəvilər dövlətinin üçüncü paytaxtı olan İsfahan şəhəri yaxınlığında I Şah Abbas tərəfindən ermənilər üçün salınmış Culfa şəhərində katalikos Akopun sədrliyi ilə erməni Qriqoryan kilsəsinin və tacirlərinin xüsusi müşavirəsi keçirilir və yeddi nəfərlik nümayəndə heyəti

Avropaya göndərilir. Avropada heç bir nəticə əldə edə bilməyən ermənilər Avstriya imperatorunun məsləhəti ilə Rusiya çarı I Pyotra müraciət edir və onun tərəfindən böyük razılıqla qarşılanırlar. Avstriya monarxı I Pyotra yazdığı məktubunda ermənilərin əsas məqsədini belə izah edir: «Ermənilər mənim yanıma Beros nəslindən olan Uri adlı bir məlikzadəni və vartapet Minası göndərmişlər. Onların əsas məqsədi Ermənistanı (C.B) İran zülmündən azad etməkdir...». Belə bir fürsəti çoxdan gözləyən 1 Pyotr Qafqazın işğalı üçün hərbi-strateji planların hazırlanmasına 21 il vaxt sərf etdi. Bu hazırlanan planların əsas mahiyyətini Cənubi Qafqazın böyük hissəsi və İranın şimalını əhatə edən bütöv Azərbaycanı ələ keçirərək, buraya Türkiyə və İrandan erməniləri köçürmək və paytaxtı Xəzər dənizi sahilində yerləşən, Rusiya imperiyasının Ön Asiya, Yaxın Şərq ölkələrinə və Hind okeanına çıxışını maneəsiz təmin edə biləcək qondarma bir erməni «dövlətinin» - forpostun yaradılması təşkil edirdi. Məlumdur ki, o zaman bu planların həyata keçirilməsinə I Pyotrun ölümü mane olsa da, onun 1724-cü ilin oktyabrında gələcəkdə işğal ediləcək ərazilərə ermənilərin köçürülməsi ilə bağlı verdiyi fərman mühüm rol oynadı. Məhz bu dövrdən azərbaycanlı əhaliyə qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasətinin əsası qoyuldu (95).

Bütün bəşəriyyət üçün ən ağır cinayət hesab edilən bu hərəkətlər, dünya mədəniyyətini yaradan xalqlardan biri olan azərbaycanlılara qarşı tətbiq edilibmi və onu törədənlərə qarşı belə bir ağır ittihamı irəli sürməyə həm tarixi, həm də hüquqi əsas varmı? Azərbaycanın XVIII-XX əsrlər tarixinə nəzər saldıqda, azərbaycanlılara qarşı törədilmiş cinayətlərin ağırlığı və miqyası bu ittihamın ilk növbədə, beynəlxalq hüquq normaları baxımından əsaslı olduğuna heç bir şübhə qalmır. İlk növbədə bu fikri qeyd etmək lazımdır ki, çar Rusiyasının və Sovet Rusiyasının Azərbaycana müvafiq olaraq 1722-1723, 1796-1797, 1801-1803, 1804-1813, 1826-1828, 1920, 1990-cı illərdə etdikləri hərbi təcavüzlər xalqımızın iki yerə parçalanmasına, deportasiya və soyqırıma məruz qalmasına və nəticə etibarilə, öz tarixi və etnik torpaqlarının itirilməsinə səbəb olmuşdur (95).





Rus alimi F.Semyonovun «Orta əsrlər tarixi» əsərində (256) qeyd etdiyi kimi, XI-XIII əsrlərdə Roma papalarının çağırışı ilə İsa peyğəmbərin xilas edilməsi pərdəsi altında türklərə qarşı təşkil edilən xaç yürüşlərinin əsas bələdçiləri yenə də ermənilər olmuşdur. Uzun müddət Səfəvi və Osmanlı imperiyaları kimi qüvvətli dövlətlərin təbələri sayılan bu bədnam kütlə xəyanət üçün fürsət axtarırdı.

II Dünya müharibəsi illərində alman faşistlərinin yəhudilərə, 1992-1993-cü illərdə Bosniya-Hersoqvinada serblərin müsəlmanlara qarşı törətdikləri qanlı cinayətlər, Azərbaycanda isə ermənilərin azərbaycanlılara qarşı soyqırım faciələri dedikdə, hər kəsə yaxşı bəlli olan tarixi ardıcıllıq yada düşür: 1905-1907, 1915-1918-1920, 1948-1953, 1988-ci ildən bu günə qədər (1988-1994-cü illərdə Xocalı və başqa yerlərdə Ermənistan dövləti tərəfindən həyata keçirilən qırğınları soyqırım adlandırmaq olar). İndi diqqət yetirək: tarixdən məlum olan hansı soyqırım hadisəsində belə bir vəziyyət müşahidə olunur? Demək olar ki, heç birində. Azərbaycan xalqına qarşı törədilən cinayət-deportasiya, etnik təmizləmə və soyqırımının ümumi sahəsi 46.7 min $km^2$ ərazisini əhatə etsə də, buna yalnız Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında qiymət verilmişdir. Buradan aydın olur ki, zaman, faktiki şərait, siyasi mühit dəyişmiş, lakin ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti dəyişməmişdir. Bəzən cəmiyyətdə elə təsəvvür yaranır ki, bu məsələ yalnız tarixçilərin işidir. Əslində bu belə deyil, soyqırımla bağlı məsələlər ümummilli mahiyyət daşıdığından təkcə tarixçilərin, psixoloqların, hüquqşünasların deyil, həm də hərbçiərin və bir sıra digər sahələr üzrə mütəxəssislərin iştirakı ilə araşdırılmalıdır. Aşkara çıxan acı həqiqət ondan ibarətdir ki, Azərbaycan xalqı bir əsrdə həm obyektiv, həm də subyektiv səbəblərdən onun varlığına qarşı yönəlmiş soyqırım kimi dəhşətli faciənin qarşısını almağa hazır olmamışdır.

Lakin XX əsrin sonunda Azərbaycanın dövlət müstəqilliyinin bərpası və xalqımızın öz taleyinin, torpaqlarının və milli sərvətlərinin sahibinə çevrildikdən, xüsusilə də milli lider Heydər Əliyevin bu həlledici tarixi mərhələdə milli dövlətçiliyə rəhbərlik etməyə başlamasından sonra azərbaycanlılara qarşı törədilmiş cinayətlərin üstünü açmaq, onlara siyasi və hüquqi qiymət vermək mümkün oldu. Çar Rusiyası dövlət orqanlarının, 1918-ci ildə AXC Fövqəladə Təhqiqat Komissiyasının və Sovet dövlət orqanlarının tərtib etdikləri sənədlər əsasında 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən «Azərbaycanlıların soyqırımı haqqında» fərman verildi. Bu fərman həm hüquqi, həm də siyasi cəhətdən əsas bir sənəd olaraq azərbaycanlılara qarşı törədilən cinayətlərin aşkara çıxarılması və onları törətdikləri beynəlxalq hüquq baxımdan mühakimə olunması üçün zəmin yaratmışdır. Azərbaycanlıların soyqırımı haqqında milli dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan tarixşünaslığında çoxsaylı əsərlər yazılmışdır. Lakin oxuculara təqdim olunan pedaqoji elmlər namizədi, professor Dilqəm Quliyevin «Azərbaycan və Anadolu türklərinə qarşı soyqırım: tarixi həqiqətlər» adlı əsəri çox gərgin elmi axtarışların və zəhmətin bəhrəsidir. Əsərin diqqəti cəlb edən xüsusiyyətlərindən biri də odur ki, burada müəllif ermənilərin və onların himayədarlarının təkcə azərbaycanlılara qarşı deyil, həm də Anadolu türklərinə qarşı törətdikləri cinayətlərdən bəhs edir və bu mənfur siyasətə öz elmi münasibətini bildirir.

Əsər zəngin arxiv sənədləri, çap olunmamış sənədlər və nəşr olunmuş elmi ədəbiyyata istinad edilərək yazılmışdır. D.Quliyevin çapa təqdim etdiyi bu əsər Azərbaycan tarixi elminə bir töhfə kimi qiymətləndirilməlidir.

*C.B.Bəhramov t.e.n., professor,*
*AMEA A.A. Bakıxanov adına Tarix*
*İnstitutunun elmi işlər üzrə direktor müavini*





## GİRİŞ

**Dövlətimizi, torpaqlarımızı qorumaq lazımdır. Torpaqlarımızı qorumaq üçün şübhəsiz ki, şəhid də verməliyik. Əgər qan tökülməsə o Vətən vətən deyil, Şəhid olmasa o Vətən müstəqil dövlət ola bilməyəcək. Bunlar təbiidir. Hər bir itki, hər bir vətəndaşımızın şəhid olması qəlbimizi sıxır, bizdə kədər hissi doğurur. Eyni zamanda şəhidlik səviyyəsinə çatmış insanların qəhrəmanlığı bizdə qürur hissi doğurur.**

*Heydər ƏLİYEV*

Müasir Azərbaycan tarix elminin ən aktual problemlərindən biri XIX-XX əsrlərdə azərbaycanlılara qarşı çar Rusiyasının Şimali Azərbaycanı işğal etdikdən sonra ermənilərin əli ilə törətdikləri cinayətlərin – deportasiya, etnik təmizləmə və soyqırım siyasəti tarixinin araşdırılması və tədqiqi problemidir. Bu problemin tədqiqinə Azərbaycan milli tarixşünaslığında artıq 20 ilə yaxın bir müddətdir ki, müraciət edilir və bunun nəticəsi olaraq, mövzuya dair bir neçə ümumiləşdirici əsərlər, monoqrafiya, kitabça və elmi məqalələr çap olunmuşdur. Bundan əlavə, ilk dəfə Azərbaycan milli tarixşünaslığında ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən deportasiya, etnik təmizləmə və soyqırımı siyasətini əks etdirən xəritələr tərtib edilərək, AMEA A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən 2007-ci ildə nəşr etdirdikləri «Azərbaycan tarixi atlası»nda öz əksini tapmışdır. Problemin tədqiqi ilə bağlı AMEA A.Bakıxanov adına Tarix İnstitutunun 2003-cü ildə nəşr etdirdiyi VII cildlik «Azərbaycan tarixi»nin IV, V, VI, VII cildlərində və «Ermənilərin Azərbaycan torpağında törətdikləri cinayətlərə dair tarixi faktlar» kitabında və 2008-ci ildə Azərbaycan Milli Ensiklopediyasının çap olunmuş xüsusi cildinin «Tarix» bölməsində irihəcmli mətnlər verilmişdir. Qeyd etmək

lazımdır ki, mövzu ilə bağlı materiallar Azərbaycan, rus və ingilis dillərində Azərbaycanla bərabər, dünya ictimaiyyətinə də çatdırılmışdır. Lakin bütün bu görülən işlərin geniş miqyasına baxmayaraq, azərbaycanlılara qarşı ermənilər və onların himayədarlarının törətdikləri cinayətlərin beynəlxalq səviyyədə ifşası Ermənistanın Azərbaycan Respublikasının 17 min km$^2$ ərazilərini işğal altında saxladığı bir şəraitdə daha çox aktuallıq kəsb edir. Hazırki şərait problemə dair çoxsaylı əsərlərin – monoqrafiya, elmi məqalələr, qısa və uzun metrajlı sənədli filmlərin çəkilişini və beynəlxalq səviyyədə təbliğini tələb edir.

Doğrudur, Azərbaycanın görkəmli tarixçi alimlərinin elmi ictimaiyyətə təqdim etdikləri elmi əsərlər Ermənistan və onun himayədarlarının ifşa edilməsi istiqamətində mühüm rol oynamışdır. Akademiklər İ.H.Əliyevin «Dağlıq Qarabağ: tarix, hafizələr, faktlar» (Bakı 1989), T.Köçərlinin «Qarabağ» (Bakı 2003), AMEA-nın müxbir üzvləri M.Ə.İsmayılovun «Pravda ob Armyanskoy aqressii» (Baku 1990), «Popıtka opravdanie aqressii» (Baku, 2003), Y.M.Mahmudovun «Qarabağ: real tarixi faktlar və sənədlər (Bakı 2005), t..e.d. prof. T.H.Musayevanın, A.Ə.Məmmədovun, t.e.n. C.Ə.Bəhramovun, G.N.Məmmədovanın, E.Ə.Məhərrəmovun Azərbaycan, rus, ingilis dillərində nəşr olunmuş elmi məqalə və əsərləri bu qəbildəndir.

Oxucuların müzakirəsinə təqdim olunan «Azərbaycan və Anadolu türklərinə qarşı soyqırım: tarixi həqiqətlər» əsəri öz elmi strukturu, məzmun və mahiyyəti ilə Azərbaycan tarixşünaslığına böyük bir töhfədir.

Əsərin strukturunda problem bütün aspektləri ilə öz əsasını tapmışdır. Burada Azərbaycan Respublikası haqqında qısa tarixi oçerk, çar Rusiyasının XVIII, XIX və XX əsrin əvvəllərində yeritdiyi Qafqaz, Sovet hakimiyyətinin antiazərbaycan siyasəti, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və onların əli ilə azərbaycanlılara qarşı deportasiya etnik təmizləmə və soyqırımı siyasətinin həyata keçi-





rilməsi və digər məsələlər geniş analiz edilmişdir. Vəsaitdə soyqırım probleminə çox geniş aspektdə yanaşılmış, azərbaycanlılarla yanaşı, Anadolu türklərinə qarşı da Rusiya, İngiltərə, Fransa və ABŞ dövlətlərinin təhriki ilə ermənilərin törətdikləri cinayətlər konkret faktlar əsasında analiz edilmişdir.

Əsərin yazılışı zamanı ADA-nin, MTN Arxivinin AR Prezidentinin İşlər İdarəsi Dövlət Siyasi və İctimai Hərəkatlar Arxivinin materiallarından və nəşr olunmuş çoxsaylı elmi ədəbiyyatdan istifadə olunmuşdur.

Əsərin ərsəyə gəlməsində xüsusilə böyük zəhməti olmuş AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru, Akademiyanın müxbir üzvü, t.e.d., professor Y.M.Mahmudova, həmin institutun elmi işlər üzrə direktor müavini, t.e.n. C.Ə.Bəhramova, Azərbaycanlılara qarşı deportasiyalar və soyqırım tarixinin şöbə müdiri, t.e.n., İ.S.Məmmədova, İnformasiya mərkəzinin rəhbəri, t.e.n. E.Ə.Məhərrəmova, kitabın redaktoru İ.H.Əliyevə və başqalarına öz dərin minnətdarlığımızı bildiririk.

# I FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASI
## (qısa tarixi oçerk)

**«Müasir dünyada Günəş altında daha geniş yer axtaranlar, «Böyük Ermənistan» xülyası ilə başqa xalqlara nifrət və total müharibə ideologiyasını təbliğ edənlər, qonşularına qarşı təcavüzkar siyasəti yeridənlər nə zamansa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar».**

*Heydər ƏLİYEV*

Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Onun tarixi ərazisi Cənubi Qafqazın şərq, İranın şimal-qərb hissələrini əhatə edir. Arxeoloji araşdırmalar Azərbaycan ərazisində hələ ən azı 1,5 milyon il, bəlkə ondan da əvvəl insan yaşadığını iddia etməyə imkan verir. Keçmiş Sovetlər birliyi ərazisində ən qədim arxeoloji mədəniyyət hesab edilən, Afrikanın Olduvay mədəniyyəti ilə eyniləşdirilən Quruçay mədəniyyətinin öyrənilməsi bəşər tarixinin Azərbaycan ərazisində məhz bu dövrdən başlamasını sübuta yetirmişdir. Quruçayın sol sahilində yerləşən Azıx mağarasının orta aşel təbəqəsində 350 min il əvvəl yaşamış qədim insanın-azıxantropun çənə parçası tapılmşdır. Azıxda aşkar edilmiş dünyanın ilk ocaqlarından biri hələ 6-7 yüz min il əvvəl qədim Azərbaycan sakinlərinin süni oddan istifadə etdiklərini təsdiq edir. Bakı yaxınlığında, Qobustanın mezolit-neolit düşərgələrində yaşamış insanların 12 min il əvvəldən başlayaraq yaratdıqları qayaüstü təsvirlər Yer üzündə açıq səma altında yerləşən ən qədim şəkil qalereyalarındandır. Eramızdan əvvəl IV minilliyin ortalarından III minilliyin son rübünədək xronoloji çərçivəni əhatə edən ilk tunc dövrü Kür-Araz mədəniyyətinin əhatə dairəsi Kür-Araz çayları arasından çıxaraq daha geniş ərazilərə yayılmış, Qafqazdan tutmuş Şərqi Anadoluyadək uzanmışdır. Bu dövrün son mərhələsində qədim Azərbaycan sakinlərinin sosial-iqtisadi həyatında mühüm dəyişikliklər baş verir, hakimiyyət və mülkiyyət qəbilə başçılarının əlində cəmləşir.





Eramızdan əvvəl III minilliyin son rübündə Kür-Araz mədəniyyətinin süqutu nəticəsində bu mədəniyyətin daşıyıcılarının, o cümlədən qədim azərbaycanlıların tarixində yeni mərhələ başlandı. Arxeoloji materiallar bu dövrdə maldarlıq və əkinçiliyin inkişafı ilə yanaşı, hərbi toqquşma və müharibələrin də artdığını, Cənubi Qafqazın hər yerində yaşayış məskənlərinin və qalaların sayının çoxaldığını göstərir. Məhz bu dövrdən, daha dəqiqi e.ə. XXIII əsrdən, Azərbaycan ərazisinin bir hissəsi (Urmiyanı hövzə) öz sakinləri-kutilər, lullubilər, hurrilər və s. adlanan tayfalarla birlikdə Şumer-Akkad yazılı mənbələri orbitinə düşür. İlk böyük tayfa ittifaqlarının yaranması və onların dövlət qurumu halında birləşməsi cəhdləri də bu dövrə aiddir. Şumer-Akkad mixi yazılarında Mesopotamiya (İkiçayarası) ilə qədim Azərbaycan tayfaları arasında baş verən siyasi münaqişələr və iqtisadi əlaqələr əks olunmuşdur. Bu yazılara görə, Urmiya gölünün qərb və cənub-qərb hissəsində yaşayan kutilər, Akkad hökmdarlarının işğalçılıq siyasətinə cavab olaraq, başçıları (hökmdarları) Enridavazirin (e.ə. təqr. 2225-2205) rəhbərliyi ilə Akkad hökmdarı Naram-Suenin (e.ə. 2236-2200) ordusunu darmadağın etmiş, şumerlərin dini mərkəzi olan Nippur şəhərinədək irəliləmiş, burada kuti hökmdarının şərəfinə akkad dilində kitabə qoydurmuşlar. Bu kitabədə Enridavazir özünü «qüdrətli Kütium və dünyanın dörd ölkəsinin hökmdarı» elan edir. Tədqiqatlara əsasən, Mesopotamiyada təqribən 100 il davam edən hökmranlıqları ərzində kutilərin iyirmi hökmdarı hakimiyyət başında olmuşdur. Lakin onlar Mesopotamiyada mövcud idarə sistemini dəyişməmiş, ölkəni canişinlər vasitəsilə idarə etmişdilər. Umma şəhərindən tapılan kitabədəki mətnə görə, on doqquzuncu Kuti hökmdarı Siumul dövründə Azərbaycanın qədim sakinlərinin Me-

sopotamiyanın cənubundakı mövqeləri hələ də möhkəm idi. Lakin artıq son Kuti hökmdarı, hakimiyyətdə cəmi 40 gün qalmış Tirikanın dövründə, Uruk şəhəri hökmdarı Utuhenqalın adına çıxılan kitabədə «dağ əjdahaları» adlandırılmış kutilər həmin hökmdar tərəfindən məğlub edildilər. Bundan sonra Urmiyayanı əraziyə qayıdan kutilər burada yaşamağa davam etsələr də, həmin ərazi «kuti torpaqları» adını artıq etnik və ya dövlət quruluşu adı kimi yox, ənənəvi coğrafi termin kimi saxlayırdı.

E.ə. III minilliyin sonlarına aid akkad mənbələrində Urmiya gölündən cənubda və cənub-şərqdə yerləşən Lullubilər (Lullubum) ölkəsinin adı çəkilir. Akkad hökmdarı Naram-Suenin kitabəsində «Lullubum dağlılarını öz ətrafına toplamış Sidurri» üzərində qələbə ilə öyünülür.

Lullubi hökmdarlarının özlərinin ilkin yazılı mənbələri e.ə. XXIII əsrə aiddir. Bunlardan lullubi hökmdarı Anubaninin əski akkad dilində olan qayaüstü yazısı (Sarıpulda, Zöhab şəhəri yaxınlığında) xüsusi əhəmiyyət daşıyır. Kitabədə deyilirdi: «Anubanini, qüdrətli hökmdar, Lullubum hökmdarı, öz təsvirimi və İştar ilahəsinin təsvirini Batır dağında qoydurdum.» Barelyefdə yazı ilə yanaşı ilabə İştarın önündə əsirləri tapdalayan hökmdarın özünün də təsviri verilmişdir.

Anubanininin kitabəsinə istinadən ehtimal etmək olar ki, ona tabe olan ərazi Urmiya gölündən İran körfəzinədək uzanırdı. Ən qədim dövrlərdən Mesopotamiya ilə sıx əlaqə saxlayan lullubilər Azərbaycan və ona qonşu olan vilayətlərin tarixində mühüm mövqelərini e.ə. I minilliyin əvvəllərinə qədər qoruya bilmişlər. Güman olunur ki. e.ə. II minilliyin əvvəllərində Aşşur (Assuriya) taxtına lullubi sülaləsi sahib olmuşdur. Hett mənbələri də lullubilərin qərbə doğru irəliləməsini təsdiq edir.

Qədim Azərbaycan sakinlərindən olan hurrilərin adı e.ə. III minilliyin sonlarından başlayaraq mənbələrdə çəkilir. Onlar Mesopotamiyanın şimalından və Suriyadan tut-





muş, Urmiya gölünədək Ön Asiyanın geniş bir ərazisində yayılmışdılar. E.ə. II minilliyin II rübünün əvvəllərində hurrilər Şimali Mesopotamiya ərazisində ən böyük dövlətlərdən birini, Mitannini (hett mənbələrində; aşşur mənbələrində Haniqalbat) yaratmışlar. Tədqiqatçıların fikrincə, Mitanni adı Urmiyayanı Matiena vilayətinin adında da öz əksini tapmışdır. Mixi yazılı mənbələrin məlumatına əsasən, e.ə. II minilliyin sonu, I minilliyin lap başlanğıcında Cənubi Azərbaycan ərazisində adlarını çəkdiyimiz qədim Azərbaycan tayfalarından başqa turukkilər, nikimxilər, uruatrıər və b. yaşayırdlar. II minilliyin ikinci yarısına aid mənbələrdə Aşşur hökmdarının Turukki və Nikimxi ölkələrini tamamilə fəth etməsindən, «kutilərin geniş torpaqlarındakı bütün dağların və təpələrin hakimlərinin ram olunması»ndan danışılır.

95906

Aşşur mənbələri Azərbaycanın yalnız Urmiyayanı tayfaları haqqında məlumat versələr də, çoxsaylı arxeoloji materiallar tarixi Azərbaycan ərazisinin şimalında da yüksək inkişaf səviyyəli cəmiyyətlərin olduğunu təsdiq edir. Bu mənbələrə görə e.ə. II minilliyin sonundan etibarən əvvəlki nəslitayfa prinsipinin əvəzində dövlət hakimiyyətinin ilk fərqləndirici cəhəti olan ərazi bölgüsü meydana gəlmişdir. Naxçıvan, Dağlıq Qarabağ, Mingəçevir, Talış, Xurvin, Marlik, Həsənli zonasında aşkar olunmuş arxeoloji materialların tətbiqi bəzi fərqlərə baxmayaraq, bölgənin hər iki hissəsinin ərazisinin bu dövrdə təxminən eyni inkişaf səviyyəsində olduğunu təsdiq edir. Maraqlıdır ki, Aşşur mənbələrində Urmiyayanı ərazinin bəzi vilayətlərinin hökmdarlarını «sarrani», yəni «çarlar» adlandırırlar. Mənbələrdə bu zonaya aid «yanzu» titulu da qeydə alınmışdır ki,; bu da kaşşu (kassi) dilində «çar» deməkdir.

Mixi yazılardan görünür ki, e.ə. I minilliyin əvvəlində Cənubi Azərbaycan ərazisində aşurlarla mübarizə aparan bir neçə «çarlıq» vardı, burada ayrı-ayrı çarlıqların birləşməsi prosesi gedirdi. Həmin birləşmələrin meydana gəlməsi



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

müəyyən dərəcədə xarici təhlükə, aşşur işğalçılarına müqavimətlə bağlı idi. Aşşur qaynaqlarında Urmiya boyu ərazinin cənub hissəsi hələ e.ə. X əsrin sonunda Zamua ölkəsi adlanır. Artıq e.ə. IX əsrin əvvəlində burada bütün Zamuanı, yaxud onun xeyli hissəsini əhatə edən dövlət quruluşu əmələ gəlir. E.ə. 880-ci ildə Zamua əhalisi başda hökmdar Ameka olmaqla aşşurlara qarşı mübarizə aparırdı. Qaynaqlar onu «çar» adlandırır, ölkənin paytaxtı Zamri, möhtəşəm şəhərqalalar, yüksək dərəcədə inkişaf etmiş bədii sənətkarlıq haqqında məlumat verir.

Aşşurlara qarşı mübarizə aparan Urmiyayanı ölkələri içərisində mənbələr Allabria, Karalla, Kirruri, Gilzan, Gizilbunda, Andia və b. dövlət qurumlarının adlarını çəkir. Bunlardan e.ə. IX əsrdə Urmiyayanı ərazinin qərbində mühüm siyasi qurum kimi qeyd olunmuş Gilzan dövlətini idarə edən hökmdarlar şübhəsiz, artıq tayfa başçısı deyil, aşşur qaynaqlarının «çar» adlandırdığı süveren irsi hökmdarlar idi. Maraqlıdır ki, gilzanlılar öz müstəqilliklərini qoruyub saxlayaraq, aşşurlulara yalnız bəzi hallarda bac verir və beləliklə, ölkəni müdaxilədən qurtara bilirdilər.

Urmiyadan şərqə doğru, Qızılüzən çayı hövzəsində yerləşən Gizilbundada aşşur mənbələrində «çar» adlandırılan hökmdar Pirişatinin istilaçılara qarşı müqavimət əzminə baxmayaraq, ölkədə daxili birlik yox idi. Elə bu səbəbdən də aşşurlular «möhkəmləndirilmiş şəhər» Uraşı işğal etdilər. Bu münasibətlə yazılmış aşşur kitabəsində deyilirdi: «...Aşşur qoşunu şəhərin (Uraşın) küçələrini onun döyüşçülərinin qanına boyadı...6000 döyüşçünü qırdı, çar Pirişatini 1200 döyüşçüsü ilə birlikdə diri-diri tutdu. Əsirlər apardı, onların əmlakını, var-dövlətini, qaramalını, davarını, atlarını, gümüşdən, saf qızıldan və tuncdan qayrılmış saysız-hesabsız əşyalarını qarət etdi, dağıtdı, viran qoydu, od vurub yandırdı...»

E.ə. VIII əsrdə, təqribən indiki Marağa ilə Ərdəbil arasında yerləşən Zikertu dövrün qaynaqlarında Saqartiya ilə





eyniləşdirilir. Ərazisi demək olar ki,, gələcək Atropatenaya uyğun olan, Cənubi Azərbaycan vilayətlərinin həyatında uzun müddət mühüm rol oynayan bu dövlət qurumu haqqında da aşşur mənbələrində məlumat vardır.

Mixi yazılı mənbələrlə yanaşı arxeoloji araşdırmalar da Urmiyayanı ərazidə erkən dövlət qurumlarının hələ çox əvvəllər təşəkkül tapdığını təsdiq edir. Məhz bu dövlət qurumları burada ilk iri siyasi birləşmənin Manna çarlığının meydana gəlməsi üçün zəmin hazırlayır. E.ə. I minilliyin başlanğıcına aid olan mənbələr Lullume, Zamua və Manna anlayışları arasındakı varisliyi izləməyə imkan verir, Aşşur hökmdarı II Sarqon isə Manna çarlığının meydana gəldiyi Zamua vilayətini "Zamua adlanan Lullume ölkəsi" kimi təqdim edir. Cənubi Azərbaycan ərazisində ilk dövlət qurumu oian, mixi yazıda ilk dəfə e.ə. 843-cü ildə III Salmanasarın kitabəsində adı çəkilən Mannanın siyasi cəhətdən birləşməsinə təkan verən ən güclü amil Aşşur və Urartu dövlətlərinin yaratdıqları təhlükə idi. Mənbələr Manna dövlətinin formal da olsa, ağsaqqallar şurası tərəfindən qismən məhdudlaşdırılmış irsi hakimiyyətə malik olan hökmdar tərəfindən idarə edildiyini təsdiq edir. Tədqiqatçıların fikrincə, ölkədə hökmdar hakimiyyəti qeyri məhdudluğa doğru gedir, çarlar sərbəst hökmranlığa can atırdı. Dövlətin ərazisi hökmdarın təyin və ya təsdiq etdiyi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü. Hökmdarın tabeliyindən azad olmağa çalışan canişinlərin müqavimətinə baxmayaraq, çar hakimiyyətinin möhkəmlənməsi, onun əyanlar tərəfindən müdafiə olunması, inkişaf etmiş iqtisadiyyat Mannanın Yaxın Şərqin iri dövlətlərindən birinə çevrilməsinə imkan verdi. Onun güclənməsi və genişlənməsi, görünür, VIII əsrin 20-ci illərinin sonunadək davam etmişdi. Bu dövrdə yarımmüstəqil ucqar hakimlərin torpaqları da (Uişdiş, Messi, Andia və b.) Mannaya tabe idi. Asılı vilayətlər də daxil olmaqla, Manna Urmiya gölünün bütün cənub hövzəsini, Urmiya ilə Araz arasındakı su ayrıcınadək gölün şərq sahili-

ni, habelə, Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan cənubda yerləşən rayonları əhatə edirdi. Mənbələrdən görünür ki, Manna ərazisi gələcək Mada Atropatenası-Aturpatakana, yəni Çənubi Azərbaycana təxminən uyğun gəlirdi. Bununla yanaşı, Naxçıvan və Manna ərazilərində aşkar edilmiş arxeoloji materiallarda izlənilən sıx mədəni əlaqələr Manna sərhədlərinin müəyyən dövrlərdə Araz çayından şimala uzandığını təsdiq etməklə yanaşı, bu dövlətin qüdrətli çağlarında geniş ərazini əhatə etdiyini göstərir.

III Salmanasarın dövründən başlayaraq, mixi yazılı mənbələrdə ardıcıl olaraq Manna hökmdarlarının və onların paytaxtı Zirta (İzirtu) şəhərinin adı çəkiir. Mannanın tərəqqisi hökmdar İranzunun (e.ə. 740-719) sələflərinin hökmranlığı və onun hakimiyyətinin başlanğıcı dövrlərinə təsadüf edir. Bu dövrdə sarayları və zəngin müxəlləfatlı binaları olan, yaxşı möhkəmləndirilmiş iri şəhərlər salınır.

Lakin Mannanın çiçəklənməsi uzun sürmədi. Aşşurluların ağır işğalçılıq yürüşü mannalıları onların vassalı etdi, Manna böyük dövlət kimi öz mövqeyini itirdi. Zikertu, Uişdiş, Messi, Andia və başqa vilayətlər ondan ayrıldılar.

E.ə. VIII əsrin lap sonunda tarix meydanına yeni bir qüvvə-şimaldan gələn köçəri kimerlər çıxır. Onların adı Manna ilə əlaqədar olaraq e.ə. VIII əsrin son rübündə, VII əsrin ilk onilliklərində çəkilir. Kimmerlərdən bir qədər sonra, e.ə. VII əsrin 70-ci illərində Manna ərazisində mənbələrdə işquzay, aşquzay adlandıran skiflərin olması sübut edilmişdir. Mənbələr onların Manna ilə ittifaqda aşşurlulara qarşı mübarizələri haqqında məlumat verir. Azərbaycanda "Skif çarlığı"nın yaranması da təqribən bu dövrə aiddir. Kür çayının orta axarı ilə Urmiya gölü ətrafındakı Manna ərazisi arasında yerləşən vilayətləri əhatə edən Skif çarlığı təqribən 80 il yaşamışdır. Madanın hakimiyyəti dövründə (VII əsrin 30-20-ci illəri) bu çarlıq böyük imperiyaya çevrilmiş, Ön Asiyada Skif hegemonluğu dövrü başlamışdır.

E.ə. VII əsrin sonunda və ya VI əsrin əvvəlində yeni təşəkkül tapmış Mada dövləti Aşşurun üzərində qələbə çaldı, Mannanı, Urartunu və Skif çarlığını tabe etdi. Lakin, hələ bir müddət özünüidarə sistemini saxlaya bilmiş bu siyasi qurumlar, o cümlədən Manna, madalıların "kiçik" müttəfiqləri rolunda çıxış etmişlər. Mənbələrdə Mannanın adı sonuncu dəfə 593-cü ilə aid hadisələrlə əlaqədar çəkilmişdir. Mada işğalı Azərbaycanda yerli dövlətçiliyin mövcudluğuna bir neçə əsr ərzində ara verdi.





E.ə. VI əsrin sonunda Midiya dövlətinin süqutu ilə tarixi Azərbaycan ərazisi yeni yaranmış Əhəmənilər (Haxamanişilər) imperiyası tərkibinə daxil edildi.

E.ə. IV əsrin 30-cu illərində Makedoniyalı Aleksandrın başçılıq etdiyi Yunan-Makedoniya qoşunları İran-Əhəmənilər dövlətinə son qoyduqdan sonra Azərbaycanın dövlətçiliyi tarixində yeni mərhələ başlanır; həmin əsrin 20-ci illərinin sonunda əvvəllər rəsmi olaraq Mada (Midiya) adlansa da, çox keçmədən Atropatena (Atrpatakan, Adurbadaqan, bundan da Azərbaycan) adlandırılan yeni müstəqil dövlət yaranır. Manna dövlətinin süqutundan iki əsr yarımdan cox keçdikdən sonra meydana gəlmiş bu dövlət yunan-Makedoniya işğalçılarından siyasi müstəqillik əldə edə bilmiş ilk Şərq dövləti oldu. Strabonun "Coğrafiya"sında deyilir: "Midiya iki hissəyə bölünür. Bir hissəsi Böyük Midiya adlanır. O biri hissə Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan götürmüşdür; o Atropatdan ki, Böyük Midiyanın bir hissəsi olan bu ölkənin də makedoniyalıların hakimiyyəti altına düşməsinə yol verməmişdi. Çar elan edilən Atropat doğrudan da bu ölkəni öz qərarı ilə müstəqil bir ölkəyə çevirmişdi və onun ailəsində varislik hələ də davam edir... Atropatena hərbi qüvvə mənasında çox sanballı ölkədir, çünki o, 10 min süvari və 40 min piyada meydana çıxara bilir".

Atropatena dövlətinin meydana gəlməsinə kömək edən əsas səbəblərdən biri bütün tarix ərzində xeyli dərəcədə aparıcı region olan bu bölgənin özünün iqtisadi, sosial, mədəni və siyasi inkişaf səviyyəsinin çox yüksək olması, digəri -

regiondakı ümumi siyasi durum idi.

Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsi bu və ya digər dərəcədə Atropatın hakimiyyəti altında idi. Dövlətin paytaxtı Miandop şəhərindən şərqdə, Leylan kəndi yaxınlığında yerləşən Qazaka (Qanzaka) şəhəri idi.

Atropatena dövlətinin təşəkkülü və inkişafı Qərb və Şərq quldarlıq cəmiyyətlərinin inkişafında yeni mərhələ olan hellinizm dövrünə təsadüf etmişdir. Tədqiqatçıların fikrincə, həmin dövrün başqa dövlətlərində olduğu kimi Atropatenada da görünür, o zamanlar üçün kifayət qədər tipik olan müstəqil monarxiya siyasi quruluşu yaradılmışdı. Sonralar Atropatenanın siyasi quruluşu ola bilsin, müəyyən dərəcədə dəyişir və o Mada maqlarının dövlətdə çox böyük rol oynaması ilə əlaqədar teokratik dövlətə çevrilır. Atropat və onun varislərinin dövründə baş verən hadisələrin təhlili göstərir ki, Atropatena monarxiyası banisinin hökmranlıq etdiyi illər gənc dövlətin möhkəmləndiyi və qüvvətləndiyi bir dövr idi. E.ə. IV əsrin son onilliyində köhnə İran satraplıqlarının hamısına sahib olan Selevkin (302-281) mərkəzləşdirmə siyasətinə qarşı çıxan Atropatiler bu mübarizəni uzun müddət davam etdirməli oldular. E.ə. III əsrin 20-ci illərində, Polibinin sözləri ilə desək "Atropatilər və onlarla həmsərhəd xalqlar üzərində" "ən qüdrətli və ən müdrik hökmdar" Artabazanın adı çəkilir. Həmin müəllifə istinadən demək olar ki, Artabazanın dövləti görünür, Ermənistan və İberiyanın müəyyən hissəsi də daxil olmaqla, Kaspi dənizindən Rioni çayının yuxarılarınadək uzanırdı.

E.ə. II əsrin 60-cı illərində, bəlkə də ondan əvvəl, Selevkilər dövlətinin parçalanması ilə əlaqədar Atrapatena yenidən müstəqil dövlətə çevrildi.

E.ə. II əsrın sonuna, I əsrin əvvəlinə yaxın çoxdan bəri Selevkilərlə mübarizə aparan, dünyanın Roma ilə birlikdə iki qüdrətli, lakin rəqib dövlətindən biri olan Parfiya zəhmli qüvvəyə çevrildi. Eramızın 20-ci ilinə yaxın Atropatenada





ölkəni təqribən üç əsr yarım idarə etmiş yerli Atropatilər sülaləsinə son qoyuldu; hakimiyyət parfiyalı Arşaqilərin kiçik qolunun ixtiyarına keçdi.

Antik dövrdə Şimali Azərbaycan torpaqlarında albanlar və onlara qohum tayfalar yaşayırdı. Artıq e. ə. I minilliyin ortalarında sosial-iqtisadi münasibətlərdə baş vermiş böyük dəyişikliklər nəticəsində Albaniya şəhərlərində də əmlak bərabərsizliyi yaranmış, cəmiyyət sosial cəhətdən təbəqələşmişdi. Sosial-iqtisadi inkişafın nisbətən yüksək səviyyədə olması, sənətin əkinçilikdən ayrılması, pul tədavülünün, zərbxanaların, əyanların, tacirlərin, qulların, şəhərlərin, şəhər həyatının olması, bütün bunlar hellinizm dövrü Albaniyasında sinifli cəmiyyətin, dövlətin mövcud olduğuna parlaq sübutdur.

E.ə. III əsrdən gec olmayaraq meydana gələn və eramızın hüdudundan başlayaraq uzaq Romada Albaniyanın "birinci şəhəri" kimi tanınan, kifayət qədər möhkəmləndirilmiş böyük və zəngin şəhərin - Qəbələnin mövcud olması faktının özü ölkədə dövlətin və çar hakimiyyətinin olduğunu göstərir. Antik müəlliflərə əsasən də Albaniyanın öz basilevsləri – çarları vardı. Pompeyin yürüşü zamanından tanınan Oroysun və otuz il sonra hökmdarlıq edən Zoberin adları məlumdur. Bəzi antik müəlliflər (məs. Plutarx, Tasit və b.) albanlarda bir neçə hökmdarın olduğunu göstərsələr də, Strabon, İosif Flavi, Dion Kassi, Appian və b. artıq Albaniyada çarın təkhakimiyyətliyindən bəhs edirlər. Strabonun albanlarda "indi bütün tayfaları bir hökmdar idarə edir" sözləri tədqiqatçıların fikrincə, ən geci e.ə. III əsrə aid edilməlidir.

Antik Albaniyada basilevslərdən əlavə, hegemonlar və prefektlər də qeyd edilir. Hegemon başlıca olaraq başçı, rəhbər, habelə, sərkərdə, canişin deməkdir. Ayrı-ayrı hallarda şəhərin ərzaq təminatı rəisi, donanma komandanı, canişin, müttəfiqlərin süvari dəstəsinin komandanı da prefekt adlandırıla bilər.

Antik müəlliflər albanların piyada qoşunu və süvarilər-

dən ibarət ordusundan bəhs edirlər. Strabona görə, albanlarda "nizəatanlar və oxatanlar vardır"; onlar döyüş üçün "iberlərə nisbətən daha çox qoşun düzürlər. Onlar 60 min piyada qoşun və 22 min süvari silahlandırır. Pompey ilə döyüşə albanlar belə bir qoşunla getmişlər".

Antik Azərbaycan dövlətçiliyini sübut edən ən mühüm amillərdən biri Albaniyada və Atropatenada zərb edilən yerli sikkələrin aşkar edilməsidir. Azərbaycan ərazisində tapılan ilk pullar Makedoniyalı Aleksandrın dövrünə aiddir. Artıq e.ə. 111 əsrin ilk yarısından beynəlxalq ticarətə qoşulmuş albanlar və atropatenalılar daxili bazarın ehtiyaclarını ödəmək məqsədilə Aleksandrın gətirilmə sikkələrinə bənzər pullar zərb etməyə başladılar. Bu və sonrakı dövrlərə aid AT və ATR monoqrammalı (numizmatlar bunu Atropat və ya Atropatenia kimi oxuyurlar) gümüş dirhəmlər (draxmalar) Azərbaycan, Gürcüstan, Dağıstan ərazilərində geniş aşkar edilmişdir. Alimlər həmin sikkələrin Qəbələdə, Ərdəbildə və başqa yerlərdə olan zərbxanalarda basıldığını güman edirlər. Eramızın I əsrinin başlanğıcında Atropatenada yerli Atropatilər sülaləsini əvəz etmiş Arşaqilər, çox keçmədən (həmin əsrin II yarısında) Albaniyada da yerli Arranşahilər sülaləsini yıxaraq hakimiyyəti ələ keçirirlər.

Eramızın ilk əsrlərində quldarlıq quruluşunun böhranı ilə əlaqədar bütün Aralıq dənizi sahili və Ön Asiya ölkələrində daha mütərəqqi ictimai-iqtisadi formasiyanın-feodalizmin rüşeymləri yaranırdı. Bu proseslər tarixı Azərbaycan vilayətlərini də əhatə etmiş, lakin quldarlıq quruluşu ənənələrinin kök saldığı cəmiyyətlərə nisbətən burada feodal münasibətləri əvvəla, daha erkən formalaşa bilmiş, ikincisi isə daha intensiv olmuşdur.

Azərbaycanın siyasi tarixində orta çağın başlanğıcı şimalda Dərbənddən, cənubda Zəncanadək, şərqdə Xəzər dənizindən qərbdə Kiçik Qafqaz dağlarınadək geniş bir ərazini əhatə edən tarixi torpaqlarımızın III əsrin ikinci yarısında Cənubi Qafqazın digər vilayətləri ilə birlikdə yeni yaranmış





Sasani imperiyasının tərkibinə daxil edilməsi ilə əlamətdardır. Sasani işğalı nəticəsində Atropatenada hakimiyyət başında olan Parfiya Arşaqilərinin kiçik sülaləsi aradan götürülür; pəhləvi mənbələrində Adurbadaqan adlandırılan bu yer yeni imperiyanın artıq heç bir dövlət statusu qalmayan adi vilayətinə - dastakertinə çevrilir. Tarixi Azərbaycan ərazisinin şimal torpaqlarını özündə birləşdirən Albaniya is Sasanilərin vassal asılılığına düşsə də, Arşaqlər sülaləsindən olan hökmdarlarını qoruyub saxlayır. Bu dövrdə burada mülkiyyətin dövlət (hökmdarın şəxsində) forması onunla yanaşı, mövcud olan xüsusi feodal mülkiyyəti formasına nisbətən üstünlük təşkil edir. Feodal münasibətlərinin inkişafı, feodal sinfinin və torpaq üzərində xüsusi feodal mülkiyyətinin formalaşması ilə əlaqədar, əsas torpaq fondunun dövlətin əlindən tədricən kübar nəsillərin əlinə keçməsi prosesi baş verir. Öz dövlətçiliyini saxlaya bilmiş Albaniyada hökmdar ölkənin qanunverici və ali hakimi idi, o, dünyəvi və dini hakimiyyətin məşvərətçi və qanunverici orqanı olan məclisə-məhkəməyə başçılıq edirdi. Ölkənin bütün hərbi qüvvələrinin baş komandanı da o idi.

Alban dövləti Alban Arşaqiləri dövründə antik Albaniyanın ənənələrini davam etdirərək, heç kəsdən asılı olmayan müstəqil daxili, bəzən də xarici siyasət yürütməyə cəhd etsə də, Sasanilərdən vassal asılılıqda olmuşdu. Arşaqilərin separatçılıq meyllərini amansızlıqla qarşılayan İran üsul-idarəsi 510-cu il (Albaniyada onlara məxsus hökmdar sülaləsi ləğv etdi.) Ölkə 628-ci ilədək mərzbanlər (canişinlər) tərəfindən idarə olundu. VII əsrin yarısında Albaniyada Girdiman vilayətinin sahibləri olan feodal Mihranilər nəsli üstünlük əldə etdi. Bu nəslin ən görkəmli nümayəndəsi Cavanşirin dövründə (642-681) Albaniya 64-cü ildən başlamış ərəb yürüşlərinə və Azərbaycanın cənub hissəsinin-Adurbadaqanın başdan-başa işğalına baxmayaraq, hələ bir müddət özünün nisbi müstəqilliyini saxladı. Lakin, üçtərəfli (Xəzər, Ərəb, Bizans) xarekterli hücumların təsiri nəticəsində Albaniya 70-ci ildə

hətta vassallıq mövqeyini də əldən verdi və şimallı-cenublu bütün Azərbaycan qarışıq şəkildə böyük Ərəb Xilafətinin tabeliyinə keçdi.

IX əsrin II yarısında Xilafət daxilində gedən parçalanma prosesi tarixi Azərbaycan ərazisində də yeni feodal dövlət qurumlarının təşəkkül tapması üçün mühüm amil oldu. Çox vaxt xəlifənin yerlərdəki canişinlərinin, bəzən isə yerli hakimlərin yaratdıqları bu qurumlar quruluş etibarı ilə bənzəsələr də, təşəkkül və inkişaf baxımından özünəməxsusiyyətlərə malik idilər.

Hələ VI yüzilliyin əvvəllərində alban Arşaqilər sülaləsinin Sasanilər tərəfindən ləğv edilib Şirvan torpağında, Şabrançay və Gilgilan hövzələri ərazisində "şirvanşah" titullu adamların idarə etdiyi yeni qurumun təşəkkülü üçün zəmin yaratdı. Ərəb işğalı Sasanilərdən vassal asılıqda olan Şirvanşahları hakimiyyətdən uzaqlaşdırsa da onların bir çoxu ərəblərə tabeliyi qəbul edib, öz malikanəsində çalışmağı, öz mülkünü qorumağı davam etdirdi. 861-ci ildə hələ VIII əsrin sonlarında «Şirvan məliki" titulunu daşıyan Yəzid İbn əz-yəd əş-Şeybanının (mənşəcə ərəb rəbiə qəbiləsinin şeyban nəslindən) nəvəsi Şirvan kimi Heysəm mərkəzdəki qarşılıqdan istifadə edərək, "Şirvan işlərində müstəqilləşdi" artıq yerliləşmiş Məzyədilər arasında ilk dəfə "şirvanşah" titulunu qəbul etdi.

İlk vaxtlar ərəblərin Azərbaycandakı canişininə tabe olan Məzyədilər müstəqil siyasət yürütməyə çalışmış, bu və ya digər işğalçının hakimiyyəti altına düşdükdə vassal asılılıqda olmuş, öz süzerenlərinə vergilər ödəmişlər. Bunula yanaşı, onlar Şirvanın iqlisadi və siyasi qüdrətinin artması, dövlət sərhədlərinin möhkəmləndirilməsi üçün tədbirlər görmüş, daim bütpərəstlik inamını mühafizə edən «kafir qonşular"ın ərazilərinə yürüşlər təşkil etmişlər.

Şirvanın şəhərlərində o dövrdə inkişaf etmiş feodal cəmiyyətinə məxsus mürəkkəb sosial struktur mövcud olmuşdur. Dövlət başçısının iqamətgahı əvvəllər Şamaxıda,





1192-ci il zəlzələsindən sonra isə Bakıda yerləşmişdi. Dövrün mənbələrində, eləcə də epiqrafik abidə və sikkələrdə Şirvanşahların adlarının dəbdəbəli ləqəblərlə müşayiət olunması onların feodal dövlətinin məşhur hökmdarı kimi müstəqilliyini göstərir. Şirvanşahlar bu və ya digər hökmdardan vassal asılılıqda olduqda, adətən, sikkədə süzerenin adı da göstərilirdi. XI əsrdən başlayaraq, Şirvanşahların etdikləri sikkələrin bir üzündə dini başçı Abbasi xəlifəsi ilə yanaşı süzeren kimi Səlcuq sultanının, digər üzündə isə Şirvanşah adları yazılırdı. Öz dövlətində qeyri-məhdud hakimiyyətə malik olan Şirvanşah feodal qanunlarının rəmzi və dayağı, əmirlərinrkəzə itaət etməmək cəhdlərinin qarşısının qüvvə idi. Öz müstəqilliyi ugrunda fədakarlıqla mübarizə aparan Şirvanşahlar 1538-ci ildə Səfəvi dövləti tərəfindən süquta yetirildi.

869-cu ildə hələ VIII əsrin 1 yarısında Dərbənd şəhərinin siyasi həyatında fəal rol oynamış Haşimilərin (mənşəcə ərəb idilər) nəslindən olan Haşim əs-Suləmi bu şəhər əyaləti müstəqil elan etdi və bununla Dərbənd əmirliyinin əsasını qoydu. Uzun müddət ərəb hərbi sərkərdələrinin idarə etdiyi bu şəhər Xilafətin şimal hüdudlarını qoruyan mühüm müdafiə qalası idi. İrsi hakimiyyətə malik olan və iqamətgahları şəhər qalasında yerləşən əmirlər ictimai işlərin həllində şəhər ağsaqqalları və Dərbənd cəmiyyətində xüsusi rol oynayan şəhər rəisləri ilə hesablaşırdılar. Ayrı-ayrı vaxtlarda Sacilərin, Salarilərin, Səlcuqilərin təsir dairəsində olan Dərbənd əmirliyi XI əsrin sonunadək siyasi müstəqilliyini saxlaya bilmiş, ondan sonrakı dövrdə isə Şirvanşahların siyasi-iqtisadi asıllığını qəbul etmişdir.

IX yüzilliyin son rübündə "dağılmış Alban padşahlığını bərpa edən" Qriqor Hamam Arranın bir hissəsində, tarixi Albaniyanın vilayətlərindən olan Şəkidə hakimiyyəti ələ alır. Elə bu dövrdə Xaçın hakimi Atrnersehlə Mihranilərdən olan sərt Alban hökmdarı Varaz Tiridatın qızı Sparamanın oğul nəvəsi Səvada ləqəbli Səhək Girdimanı və Arsaxla

Şirakın bir hissəsini ələ keçirir. Səhəkin nəvəsi İşxanunun oğlu, xristian adı İohann olan Sənəkərim X əsrdə yenidən Alban padşahlığını bərpa edir. Yerli sülaləyə mənsub irsi hakimiyyətli hökmdarların idarə etdiyi Şəki məlikliyi qonşu gürcülərin və Şəddadi hökmdarlarının hücumlarına məruz qalırdı Şəki məlikliyinin sonrakı dövr tarixi bilavasitə Səlcuqilər və Şirvanşahlarla bağlıdır.

Xilafətin zəifləməyə və parçalanmağa başladığı dövrdə Azərbaycanın cənubunda mənşəcə türk olan Sacilər sülaləsinin yaratdığı yeni dövlət meydana gəldi. Bu dövlətin siyasi vəziyyətlə bağlı olaraq, Xilafətdən tam təcrid ola bilməyən nümayəndəsi Məhəmməd ibn Əbu-s-Sac mərkəzin Cənubi Qafqazdakı dayağına çevrildi (898-ci il). Sacilər sülaləsinin ən görkəmli nümayəndəsi, bütün Azərbaycan torpaqlarını ilk dəfə vahid müstəqil dövlət çərçivəsində birləşdirən Yusif ibn Əbu-s-Sac olmuşdur. 913-cü ildə o, Ermənistanı da tutub, qərbdə Ani və Dvindən şərqdə Xəzər dənizinədək, şimalda Dərbənddən cənubda Zəncanadək olan torpaqları paytaxtı Ərdəbil olan Sacilər dövlətinə tabe etdi. Bu geniş ərazidə olan vilayətlərin yerli və yerliləşmiş hakimləri (Şirvan, Şəki, Xaçın, Sünik və s.) Sacilərə vergi verirdilər.

X əsr Azərbaycanın siyasi tarixində mövcud dövlətlərin möhkəmlənməsi və yenilərinin yaranması dövrü olub. Burada hakimlik edən sülalələr müsəlmanların mənəvi-siyasi başçısı Abbasi xəlifəsinin zahiri itaətini saxlayır, siyasi baxımdan isə müstəqilliyə can atırdılar.

941-ci ildə Deyləm hakiminin oğlu Salar Mərzban ibn Məhəmməd Sacilərin hakimiyyətinə son qoydu. Sacilərə vergi verən yerli hakimlər indi də Salarilərə tabe oldular. X əsrin II yarısında mənşəcə kürd olan Şəddadilər sülaləsinin (banisi Məhəmməd ibn Şəddad) nümayəndələri Salarilərin tabeliyində olan torpaqlar uğrunda mübarizəyə başladılar. 971-ci ildə Gəncə, az sonra Arranın xeyli hissəsi, eləcə də Salarilərə tabe olan Ermənistan torpaqları Şəddadilərin





əlinə keçdi. 983-cü ildə Salarilərin son sığınacağı Dvinin hələ VIII əsrin sonlarında Yəməndən Təbrizə köçmüş ərəb əzd qəbiləsi nümayəndəsi Rəvvad ibn Musannanın nəslindən olan Rəvvadilər sülaləsinin əlinə keçməsi ilə 40 ildən artıq hakimiyyətdə qalmış Salarilər dövlətinə son qoyulur. Paytaxtı Təbriz olan Rəvvadilər dövləti X əsrin sonlarında Azərbaycanın cənubunda yüksəliş və ərazilərini genişləndirmə dövrünə qədəm qoyur. Azərbaycanın şimal-qərb torpaqları isə bu dövrdə Gəncə-Naxçıvan (Arran) və Dvin-Ani əmirliklərində hakimiyyət başında olan Şəddadilərin tabeliyində olmuşdur.

XI əsrin 1 yarısında Səlcuq yürüşlərinin başlanması ilə Azərbaycan və ona qonşu ölkələrin siyasi həyatında mühüm dəyişikliklər baş verir. Daxili mübarizə və ara müharibələri nəticəsində zəifləmiş Azərbaycan feodal dövlətləri (Şirvanşahlar, Şəddadilər və Rəvvadilər) Səlcuqilərin hücumuna məruz qalır. Əvvəllər Səlcuqi tabeliliyini qəbul etmiş, mənbələrdə Azərbaycanşah titulu ilə qeyd olunan Rəvvadilər və Arranşah adlandırılan Şəddadilər, nəhayət, XI əsrin 70-ci illərində siyasi tarix səhnəsindən çıxır, onların torpaqları isə Səlcuq dövləti tərkibinə daxil edilir. Yalnız Şirvanşah Fəriburzun siyasi çevikliyi Səlcuqilərdən vassal asılılıqda olan Şirvanın dövlət müstəqilliyini saxlaya bildi. Dövlətçilik tariximizdə böyük əhəmiyyəti olan bu dövlətlərin dağılması nəticəsində Azərbaycan Orta Asiyadan Aralıq dənizinədək, Qafqazdan İran körfəzinədək olan torpaqları birləşdirən Böyük Səlcuq imperiyası tərkibinə daxil edilir.

XI əsrin I yarısı Azərbaycan dövlətçiliyi tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Səlcuq dovlətinin tənəzzülü (1092-1157) dövründə yaranmış İraq sultanlığı (Azərbaycan bu sultanlığa daxil idi) və başqa sultanlıqların daxilində davam edən sülaləvi hakimiyyət çəkişmələri yeni növ dövlət birləşmələrinin-atabəyliklərin təşkili üçün zəmin yaratdı. 1136-cı ildə ilk əvvəl Bərdəni iqamətgah etmiş Arran valisi Şəmsəddin Eldəgiz tədricən, demək olar, bütün Azərbaycanı

tabe edə bilir. 1146-cı ildə o, Naxçıvan vilayətini də mülklərinə qataraq öz paytaxtını Naxçıvana köçürür. 1161-ci ildə Eldəgizin himayəsində olan Arslan şahın sultan elan edilməsilə Eldəgiz "əzəmətli atabəy" titulunu alaraq, İraq sultanlığının həqiqi başçısına çevrilir. Əmilərin, "iqta" saniblərinin, valilərin süzereni olan atabəy feodal iyerarxiyasında daha yüksək pillə tutur, formal olaraq sultandan sonra ikinci adam hesab edilirdi. Tarixçi Sədrəddin əl-Hüseyninin məlumatına görə, Şəmsəddin "Azərbaycana, Arrana, Şirvana, Cibələ, Həmədana, Gilana, Mazandarana, İsfahana və Reyə sahib olur». Xəlifə və sultanın adından sonra Şəmsəddinin adını cümə xütbələrində yad edən Mosul, Kirman, Fars atabəyləri, Şirvanın, Xüzistanın, Xilatın, Ərzincanın, Ərzən ər-Rumun və Marağanın hakimləri onun vassalı olurlar.

Eldənizin oğlu Cahan Pəhləvanın dövründən başlayaraq, Azərbaycan Atabəyləri dövlətinin idarə edilməsi məqsədilə, başda vəzir olmaqla ali idarə (divan əl-alə) yaradıldı. Bu idarənin nəzdində dövlət dəftərxanası, maliyyə idarəsi və ya xəzinədarlıq vardı. Dövlətin əsas idarələrindən olan hərbi idarəyə sahib divan əl-ərz başçılıq edirdi.

1191-ci ildə Eldənizlər nəslinin üçüncü hökmdarı Qızıl Arslan sonuncu Səlcuq sultanı III Toğrulu hakimiyyətdən salaraq xəlifənin razılığı ilə özünü sultan elan edir və İraq sultanlığının mütləq hakiminə çevrilir. Lakin son Eldənizlər dövründə yaranmış həm daxili, həm xarici vəziyyət dövlətin tənəzzülünə,1225-ci ildə isə süqutuna gətirib çıxarır.

Atabəylər dövlətinin tənəzzülünün gücləndiyi dövrdə Mihranilər nəslindən olan Həsən Cəlal (1215-1261) Xaçınçay və qismən də Tərtərçay hövzələrində "qədim Albaniyanın bir hissəsi olan" Arsax-Xaçın knyazlığını bərpa edir. Mənbələrdə, habelə epiqrafik yazılarda ali titullarla qeyd olunan Həsən Cəlal "knyazlar knyazı", "əzəmətli parlaq hökmdar», «Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı", "Albaniya hökmdarı», «Albaniyanın əzəmətli sahibi", "mütləq hökmdar" adlandırılmışdır. Həsən Cəlal nəsli XV əsrədək Xaçında dünyəvi hakimiyyətə malik olmuş, həmin dövrdən Alban kilsəsinin 1836-cı ildə ləğvinədək Qanzasarda yerləşən Alban müstəqil apostol kilsəsinə başçılıq etmişdir.





XIII əsrin 20-ci və 30-cu illərində baş verən dağıdıcı monqol yürüşləri bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da bir çox sülalələrin hakimiyyətinə son qoydu. 1239-1256-cı illərdə Ali Monqol xaqanlığının təyin etdiyi canişinlər bu vilayətləri idarə edirdi. 1258-ci ildə beşinci monqol ulusu hesab edilən Hülakülər (Elxanilər) dövlətinin yaradılması ilə Azərbaycan Misirdən Amudəryaya, Hörmüz körfəzindən Dərbəndədək geniş bir ərazini tutan Hülakülər dövlətinin tərkibinə daxil edildi. Lakin Azərbaycanın Hülakülərin tabeliyində olan başqa ölkələrdən fərqi onun imperiyanın siyasi-inzibati mərkəzi olması, Marağa, sonra isə Təbriz və Sultaniyyə şəhərlərinin Hülakülərin paytaxtına çevrilməsi idi. Artıq XIV əsrdə burada türk dili dövlət dili mövqeyi qazanmışdı; mənbələrin məlumatına görə, mühüm dövlət sənədləri üç dildə-turkcə, ərəbcə, farsca yazılırdı. Həmin əsrin 40-cı illərinə yaxın daxili çəkişmələr və xarici hücumlar nəticəsində Hülakülər dövləti vahidliyini itirərək parçalandı. Azərbaycanda və ona qonşu ərazilərdə Hülakülər dövlətini bir müddət (1338-1357) Çobani feodalları idarə etdi. Lakin, əməli olaraq hakimiyyəti ələ alan Çobanilər müstəqil dövləl ola bilmədilər; Şərqdə bu dövrdə dövlət rəmzi hesab olunan sikkə zərbi və xütbə oxunuşu mərasimi onların adından deyil, Hülakü şahzadələrinin adından həyata keçirilirdi.

Hülakülər dövlətinin süqutundan sonra (1357) Çobani əmirləri daha güclü rəqib olan, XIV əsrin I rübündən Rumda hakimlik edən Cəlairilərə qarşı dura bilmədilər. 1359-cu ildə Azərbaycan Cəlairilər dövlətinin tərkibinə daxil oldu; Azərbaycan şəhəri Təbriz İraqi Ərəbi və İraqi Əcəmi, eləcə də Ermənistanı və Gürcüstanı da əhatə edən bu dövlətin paytaxtı oldu.

XIV əsrin son 15 ilində Azərbaycan ərazisi Qızıl Orda və Teymuri dövlətlərinin biri digərini əvəz edən hücumlarına məruz qaldı. Nəticədə Azərbaycanın əsas ərazisi Cəlairilər dövlətinin nüfuz dairəsindən cıxdı, müxtəlif zamanlarda Teymurilərin, bir sıra yerli feodalların və diyarbəkrli Qaraqoyunlu türk tayfalarının nəzarəti altında oldu. Cəlairilərin cəhdinə baxmayaraq, 1386-cı ildən 1405-ci ilədək (Teymurun ölümünədək) onlar Azərbaycanda öz siyasi qurumlarını bərpa edə bilmədilər.

Dövrün dövlətçilik tarixində əhəmiyyətli hadisələrdən biri Şirvanşahı I İbrahimin (1382-1417) birləşdirici siyasəti oldu. Teymuri dövləti ilə bağlanılan və Şirvanın daxili müstəqilliyini təsdiq edən sülh sazişindən sonra o, Azərbaycanın digər yerli feodallarının (Qarabağın hakimi Qaramanlı tayfasından olan Yarəhmədin, Şəki hakimi Seydi Əhmədin, Ərdəbilin əmiri Cəgirli tayfasından olan Bistamın) və müttəfiqi olan gürcü çarının köməyi ilə ölkənin xeyli hissəsini düşməndən təmizlədi, öz qoşunu ilə Təbrizə daxil oldu (1406). Lakin yerli feodallar arasında birliyin olmaması, Qaraqoyunluların Teymurilərə, eləcə də Cəlairilərə qalib gəlmələri I İbrahimin birləşdirici siyasətini uğursuzluqla nəticələndirdi.

1410-cu ildə Qaraqoyunlu dövləti Azərbaycandan (Kürdən cənubdakı ərazi) başqa Ermənistanı, Şərqi Anadolunu və Bağdadla birlikdə Ərəb İraqını əhatə edirdi. Təbrizi paytaxt etmiş hökmdar Qara Yusif özü bilavasitə Azərbaycanı, onun oğlanları isə digər vilayətləri idarə edirdi. Qara Yusifin oğlu Cahanşah dövründə (1435-1467) Qaraqoyunlular dövləti özünün qüdrətli dövrünü yaşayırdı.

1468-ci ildə Qaraqoyunlu dövləti zəminində Azərbaycanla birlikdə Ermənistanı, Şərqi Anadolunu, Ərəb İraqını və demək olar bütün İranı özündə birləşdirən Ağqoyunlular dövləti yarandı. Mərkəzi vilayəti Azərbaycan, paytaxtı isə Təbriz olan bu dövlətin yaradıcısı və ən görkəmli nümayəndəsi, tanınmış dövlət xadimi və sərkərdə Uzun Həsən olmuşdur. Onun hakimiyyəti dövründə Azərbaycan ilk dəfə olaraq dünya siyasəti sisteminə daxil oldu. Həm Şərqdə, həm də Qərbdə onunla hesablaşırdılar. Uzun Həsən özünün padşah titulu daşıyan Qaraqoyunlu sələflərindən fərqli olaraq, Osmanlı və Teymuri sultanları səviyyəsində hökmdar olduğunu qeyd etmək məqsədilə sultan titulunu qəbul etmişdi. Bu dövlətin aparatında ikinci şəxsiyyət bütün müsəlman ruhanilərinə rəhbərlik edən sədr əzəm (baş sədr) idi. Dövlət gəlirlərini və maliyyə sistemini idarə edən baş vəzir ali divana rəhbərlik edir və buna görə də sahib divan adlanırdı. Qoşunun ali rəislərinə əmir, kiçik başçılara isə qibtəul deyilirdi. Ehtimala görə, Qaraqoyunlu qoşununda 50 min, Ağqoyunlu qoşununda 100 min nəfər döyüşçü vardı.





Uzun Həsənin ölümündən sonra varislər arasında hakimiyyət uğrunda başlanan amansız mübarizə Ağqoyunlu dövlətinin dağılması ilə nəticələndi.

XV əsrin II yarısında Azərbaycanın siyasi həyatında mövcud Ağqoyunlu və Şirvanşahlar dövlətləri ilə yanaşı, adı Şeyx Səfiəddinlə (1252-1334) bağlı olan Səfəvi xanədanına mənsub Ərdəbil şeyxləri də mühüm rol oynamağa başladılar. O vaxtlar Ərdəbil rəsmən əvvəlcə Qaraqoyunlu, sonra isə Ağqoyunlu dövlətlərinin tərkibində olsa da, Səfəvi Şeyxləri Ərdəbil və onun ətraf torpaqlarını müstəqil idarə edirdilər. Sünniliyin rəsmi dövlət ideologiyası olduğu həmin dövrdə onlar hakim dairələrin bidətçi məzhəb adı ilə təqib etdiyi şiəlikdən ideoloji bayraq kimi faydalanırdılar. Ağqoyunlu Uzun Həsənlə qohum olmuş Şeyx Cüneydin və onun oğlu Şeyx Heydərin təriqət rəhbərliyi dövründə (1447-1488) Səfəvilərin Azərbaycanda dövlət qurmaq cəhdləri boşa çıxdı. Yalnız Azərbaycan vilayətlərini birləşdirmək məqsədini güdən sələflərindən fərqli olaraq onların varisi Şeyx İsmayıl babası Uzun Həsənin torpaqlarını əhatə edən şiə məzhəbli dövlət yaratmaq fikrində idi. Məhz onun siyasi və hərbi fəallığı nəticəsində Azərbaycanın birləşdirilməsi və mərkəzləşdirilmiş dövlətin yaradılması uğrunda Səfəvilərin apardı-

ğı mübarizə 1501-ci ildə İsmayılın təmtəraqla Təbrizə daxil olması, adına xütbə oxunaraq sikkə zərb edilməsi, Azərbaycan taxt-tacına sahib olması ilə nəticələndi. Beləliklə, ilk əvvəl yalnız Azərbaycan torpaqlarını (Şirvan, Qarabağ, Naxçıvan, Muğan və Qızılüzən çayınadək Cənubi Azərbaycan) əhatə edən Səfəvilər dövləti yarandı. Şirvanşah Şeyxşah və Şəki hakimi Həsən bəy I Şah İsmayılın xərac ödəyən vassalları oldular. Artıq 1510-cu ildə I Şah İsmayılın uğurlu yürüşləri nəticəsində İranın bütün vilayətləri (Xorasan istisna olmaqla), Ermənistan və Ərəb İraqı Səfəvilər dovlətinə birləşdirilmişdi.

Yeni yaranmış Azərbaycan Səfəvi dövləti quruluş etibarilə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ənənələrini davam etdirirdi. Dövlətin başında ali dünyəvi və eləcə də dini hakimiyyəti özündə təcəssüm etdirən şah dururdu. Şahın yanında məşvərətçi səslə dövlət aparatında yüksək mövqe tutan şəxslərdən və Azərbaycan tayfalarının ən nüfuzlu əmirlərindən ibarət olan Dövlət Şurası-Ali məclis fəaliyyət göstərirdi. Şahdan sonra ikinci şəxs olan vəkil həm dünyəvi, həm də dini işlərdə onun tam hüquqlu müavini idi. Azərbaycan dilinin ilk dəfə dövlət dili səviyyəsinə qalxması, fərmanlarda, diplomatik yazışmalarda işlədilməsi məhz, Səfəvilər dövrünə aiddir. Sarayda, ordu içərisində Azərbaycan dili hakim idi. Bu dildə ümumdünya şöhrəti qazanmış əsərlər yaradılmışdı.Tədqiqatçılar Səfəvilər dövrünü Azərbaycan mədəniyyətinin yeni intibah dövrü hesab ediriər.

XVI əsr ərzində Osmanlı hökmdarlarının Azərbaycanı fəth etmək cəhdləri, Azərbaycan ərazisinin onlar tərəfindən viran və istila edilməsi, Səfəvi hökmdarı I Şah Abbasın (1587-1629) daxili siyasəti və Osmanlıları Azərbaycandan və istila edilmiş digər vilayətlərdən çıxarmaq üçün apardığı islahatlar, xüsusilə paytaxtın İsfahana köçürülməsi Azərbaycanın Səfəvilər dövlətində tutduğu aparıcı rolunun itirilməsinə səbəb oldu; qızılbaş əyanlarının farslar və digər İran etnik ünsürləri tərəfindən sıxışdırılması başlandı. Beləliklə,





Azərbaycan Səfəvilər dövlətinin İran dövlətinə çevrilməsinin əsası qoyuldu.

XVII əsrin sonu XVIII əsrin əvvəlləri də Səfəvilər dövlətini bürüyən siyasi-iqtisadi böhran hələ də onun tərkibində olan Azərbaycanı da zəiflətdi. Bundan istifadə edən Osmanlılar Cənubi Qafqazı və Qərbi İranı, çar Rusiyası isə Ənzəliyədək Xəzərsahili ərazini ələ keçirdilər. 1736-cı ildə istedadlı sərkərdə, türk əfşar tayfasından olan Nadir Qulu xan Muğan qurultayında özünü şah elan edərək Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu. İstilaçı müharibələr nəticəsində böyük dövlət yaratmış Nadir şahın dövründə Azərbaycan ərazisi də İran dövlətinə daxil edilmişdi. Səfəvilər dovrü bəylərbəyiliklərini (Şirvan, Qarabağ, Cənubi Azərbaycan, Təbriz və Çuxur-Səd) ləğv edən Nadir şah İrəvandan Dərbəndədək torpaqları əhatə edən Azərbaycan adlı vilayət təşkil etdi.

Nadir şahın ölümündən (1747) sonra onun dövləti əslində dağılır; şah hakimiyyəti uğruda qanlı müharibələr başlayır. Zor gücünə İran dövləti tərkibinə qatılmış ölkələr özlərini keçmiş müstəqilliyini bərpa etməyə çalışırdılar. Bu tarixi şəraitdə Azərbaycanda da müstəqil dövlət olan xanlıqların yaranması prosesi gedirdi. Zəngəzur dağlarından Araz çayınadək olan ərazidə Naxçıvan xanlığı, Azərbaycanın şimal-qərb torpaqlarında İrəvan xanlığı, Murovdağ silsiləsindən Kür çayınadək uzanan ərazidə Gəncə xanlığı, Araz və Kür çayları arasında Qarabağ xanlığı, Şirvan yaylasında Şamaxı xanlığı, Azərbaycanın şimal-şərqində Şəki xanlığı, Xəzər dənizinin qərb sahilində Quba xanlığı, Abşeron yarımadasında Bakı xanlığı, ondan cənubda Salyan, Cavad və Talış xanlıqları yarandı. Azərbaycanın cənubunda Təbriz, Urmiya, Ərdəbil, Xoy, Qaradağ, Marağa, Maku və Sərab xanlıqları meydana gədi. Daha kiçik olan Qutqaşın, Qəbələ, Ərəş, Qazax, Şəmşədil və İlisuda sultanlıqlar yarandı. Azərbaycanın şimal-şərqində, İlisudan şimalda Car-Balakən camaatı yerləşirdi. Qarabağ xanlığının dağlıq hissəsində Vərəndə,

Xaçın, Gülüstan, Dizaq, Caraberd məlikləri mövcud idi.

Azərbaycanda yaranmış bu müstəqil və yarımmüstəqil dövlət qurumları İranda hakimiyyət uğrunda vuruşan feodal qrupları ilə mübarizədə meydana gəldi. Azərbaycan feodallarını öz tərəflərinə çəkməyə çalışan həmin qruplar bu yolla mövqelərini möhkəmləndirməyə, şah taxl-tacına yiyələnməyə çalışırdılar. Bunlardan özünü Səfəvi şahzadələri kimi qələmə verən və Səfəvilər dövlətini bərpa etmək şüarı ilə mübarizə aparan III Sam Mirzənin, Nadir şahın əmisi oğlu Əmiraslan xanın, qardaşı oğlu Adilşah adını qəbul etmiş Əliqulu Mirzə Əfşarın, onun qardaşı İbrahim şahın Azərbaycan xanlarını ram etmək cəhdləri xanların İran əleyhinə ittifaqı ilə qarşılandı.

Əsasən qapalı həyat sürən, müstəqil dövlət qurumu olan xanlıqların siyasi tarixi arasıkəsilməz müharibə və qanlı saray çevrilişləri ilə dolu idi. Xanlıqlarda ali hakimiyyət xana məxsus idi. Başqa müsəlman dövlətlərində olduğu kimi, Azərbaycan xanları da şəriət qanunlarına tabe olur, əsasən təsərrüfat, hərbi və polis məsələlərinə aid fərman və sərəncamlar verirdilər. Xanlıqların çoxunda divan-şura mövcud idi; divan üzvləri divanboyu adlanırdılar. Belə divanlar dövlətin idarə olunmasında xanlara kömək, həm də onların işlərinə nəzarət edirdi. İnzibati baxımdan xanlıqlar mahallara bölünür, onlar da naiblər tərəfindən idarə edilirdi, şəhər məmurları-canişinlər də naib vəzifəsini daşıyırdılar. Bununla yanaşı, qalabəyi (qalanın komendantı), darğa (şəhər daxilində qayda-qanuna nəzarət edən), əsas başı (şəhərin gecə mühafizəsinə cavabdeh olan) da şəhər məmurlarına aid idilər.

Xanlıqların silahlı qüvvələri əsasən çəriklərdən (süvarilərdən) və piyadalardan ibarət idi. Xan muzdlu qoşundan da istifadə edirdi. Şəki xanlığında 2000, Şamaxı xanlığında 7000, İrəvan xanlığında 5000, Bakı xanlığında 500, Naxçıvan xanlığında 1000, Təbriz xanlığında 10000 nəfərlik qoşun vardı.





Bu dövrdə ayrı-ayrı xanlıqlardan ibarət Azərbaycanda təbii ki, vahid pul sistemi yox idi. Demək olar bütün böyük şəhərlərdə hər xanın xüsusi mis və gümüş pulu zərb olunurdu. Bu pulların sabit qiyməti də yox idi; hər bir xanlığın pulu demək olar yalnız öz ərazisində əsas pul kimi işlədilirdi; başqa ərazidə o öz dəyərini xeyli itirirdi.

Xanlıqların idarə edilməsində çox şey xanın özünün şəxsi keyfiyyətindən asılı idi. Qarabağ, Şəki, Quba və Urmiya xanlıqları öz qüdrətləri ilə fərqlənirdi. Onların bir-birlərinin torpaqları hesabına öz ərazilərini genişləndirmək cəhdləri obyektiv olaraq Azərbaycan torpaqlarının birləşdirilməsi prosesinə çevrilirdi. Lakin, şəkili Hacı Çələbi xanın, urmiyalı Fətəli xan Əfşarın, qubalı Fətəli xanın, qarabağlı İbrahim xanın pərakəndə Azərbaycan torpaqlarını birləşdirmək sahəsindəki təşəbbüsləri uğursuzluqla nəticələnmişdi. Ayrı-ayrı xanların öz şəxsi mənafelərindən əl çəkmək istəməməsi, xanlığı qoruyub saxlamaq naminə bir-birilərinə güzəştə getməməsi, vahid qüvvə şəklində birləşə bilməməsi bu işə əsaslı surətdə mane oldu.

XVIII əsrin 80-ci illərinin sonunda Xorasan istisna olmaqla, İranda hər yerdə hakimiyyəti ələ alan Qacar sülaləsinin banisi Ağa Məhəmməd xan Səfəvilərin sərhədlərini bərpa etmək adı ilə iki dəfə (1795,1797) Cənubi Qafqaza viranedici yürüşlər edərək, xanlıqları tabe etməyə cəhd göstərir. Azərbaycanı tutmaq planlarından əl çəkməyən Çar Rusiyası da ölkəyə qoşun göndərir. Nəticədə, Cənubi Qafqaz, o cümlədən Azərbaycan uğrunda birinci Rusiya-İran müharibəsinin başlanması üçün lazım olan tarixi şərtlər meydana çıxır.

1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya illik haqqı ilə əlaqədar birincidən asılı olan Qazax və Şəmşədil sultanlıqları da Rusiyaya qatıldı. Bununla Azərbaycan torpaqlarının işğalı başlandı. 1803-cü ildə Car-Balakən camaatı, 1804-cü ildə Gəncə xanlığı qanlı döyüşlərdən sonra çar Rusiyası tərəfindən zəbt edildi. 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiyanın hakimiyyətini qəbul etməsi haqqında Kü-

rəkçay müqaviləsi imzalandı. 1805-1806-cı illərdə Şəki, Şirvan, Bakı, Quba xanlıqları da Rusiyaya tabe edildi. 1813-cü il oktyabrın 13-də 1804-cü ildən başlayan Rusiya-İran müharibəsinə son qoyan Gülüstan müqaviləsi imzalandı. Bu müqaviləyə görə İrəvan və Naxçıvan xanlıqlarından başqa Araz çayının şimalında olan Azərbaycan xanlıqlarının ərazisi Rusiyanın tərkibinə qatıldı. Çox keçmədən bu xanlıqlar ləğv edilərək, onların yerində eyni adlı əyalətlər yaradıldı. Əyalət başında çar zabiti-mütləq hakim olan komendant durduğu üçün, yaranmış sistem komendant üsul-idarəsi adlanırdı. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanılan Türkmənçay sülh müqaviləsinə görə rus qoşunları Azərbaycanın cənub torpaqlarını tərk edərək, həmin ərazini İran dövlətinin ixtiyarına verdilər; yenicə tutulmuş İrəvan və Naxçıvan xanlıqları Rusiyanın tərkibinə qatıldı. Şimal torpaqlarının Rusiya tərəfindən zəbti ilə Azərbaycan xanlıqlarının müstəqilliyi tamam itirildi. Vahid xalq ikiyə bölündü. Azərbaycanın şimal hissəsi Çar Rusiyasının müstəmləkəsinə, onun xammal mənbəyinə çevrildi.

1840-cı ildə komendant üsul-idarəsi ləğv edildi; Azərbaycan torpaqlarının çox hissəsi baş şəhəri Şamaxı olan Kaspi vilayətinə daxil edildi. Bu vilayətə Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Dərbənd, Quba qəzaları daxil idi. Yelizavetpol (Gəncə), Balakən və Ordubad da daxil olmaqla Naxçıvan isə, baş şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına aid edildi. Sonrakı illərdə artıq Rusiya imperiyasının tərkibinə qatılmış Şimali Azərbaycan ərazisində çarizmin müstəmləkə siyasətinə uyğun yeni inzibati dəyişikliklər baş verdi. Başqa müstəmləkə ucqarlarında olduğu kimi, Azərbaycanda da dövlət hakimiyyət orqanlarını yaratmağa yol verməyən çarizm Qafqazdakı ali hakimiyyəti buradakı canişininə həvalə etdi. 1883-cü ildə canişinlik ləğv edildiyi üçün Qafqazın idarəsi baş hərbi rəisə tapşırıldı.

Rusiyanın istilasından sonra Azərbaycanda dövlətçiliyin ləğvinə baxmayaraq, XIX yüzilliyin ikinci yarısında istər





iqtisadiyyatda, istərsə də mədəniyyətdə baş verən inkişaf, milli burjuaziyanın yaranması, fəhlə sinfinin formalaşması – bütün bunlar Azərbaycan burjua millətinin təşəkkülünə səbəb oldu. Başqa millətlər kimi azərbaycanlıların da bir millət kimi formalaşması iqtisadi həyatın ümumiliyi zəminində, dilin, dinin, ərazinin, mədəniyyətin, şüur və psixologiyanın birliyi nəticəsində baş verdi. Rus və dünya mədəniyyətinin təsiri ilə Azərbaycanın şimalında müxtəlif elm sahələrinin inkişafı başladı, mədəni həyat canlandı, milli teatr yarandı, qəzetlər nəşr edildi. mütərəqqi, demokratik ideyalar meydana çıxdı.

XX əsrin əvvəlində Rusiya imperiyasında yetişməkdə olan sənaye böhranı müstəmləkə zülmünün, burjua-mülkədar istismarının artması şəraitində baş verirdi. İmperiyanın hər yerində olduğu kimi, Azərbaycanda da radikal dəyişikliklərin labüdliyi hiss olunurdu. Qafqazda «əmin-amanlıq yaratmağa» can atan çarizm burada canişinliyi yenidən bərpa edir, Azərbaycanın bir çox quberniyalarında (Bakı, Yelizavetpol və b.) hərbi vəziyyət elan edir, süni surətdə erməni-azərbaycanlı qırğınları törədir.

Azərbaycanın cənubunda da İran istibdadına qarşı çıxışlar, demokratik dövlət yaratmaq cəhdləri inqilaba çevrilir. Türkmənçay müqaviləsinə (1828) əsasən İranın hakimiyyəti altında qalan Azərbaycanın cənubunda monarxiyaya qarşı, milli hüququn müdafiəsi uğrunda mübarizə olmuşdur. Şah rejiminə, feodal-mülkədar zülmünə qarşı yönəldilmiş 1905-11-ci illər İran inqilabı dövründə Cənubi Azərbaycan və onun paytaxtı Təbriz inqilabın mərkəzinə çevrilmiş, Səttar xanın başçılıq etdiyi inqilabi qüvvələr Təbrizi, o cümlədən Cənubi Azərbaycanın bir çox vilayətlərini on bir ay əllərində saxlamışdılar. Lakin inqilabın cənubdan şimala keçərək bütün Azərbaycana yayılmasının qarşısını almaq üçün çar qoşun hissələrinin müdaxiləsi inqilabi hərəkatı yatırtdı.

1917-ci ilin fevralında çarizmin devrilməsi və onun müstəmləkə sisteminin dağılması ilə Azərbaycanda da siyasi

durum dəyişir. Fevral inqilabından dərhal sonra Müvəqqəti hökumət Zaqafqaziyada yerli dövlətçiliyin təşəkkülünün qarşısını almaq məqsədilə Xüsusi Zaqafqaziya Komitəsini təşkil edir. Bu Komitənin azərbaycanlı üzvü vaxtilə Rusiya Dövlət Dumasının deputatı olmuş M.Y.Cəfərov idi.

Rusiyadakı Müvəqqəti hökumətin bolşeviklər tərəfindən devrilməsi ilə Bakı bolşevikləri Bakı Sovetinin İcra Komitəsində hakimiyyəti ələ keçirdilər. Noyabrın 11-də ləğv edilmiş Xüsusi Zaqafqaziya Komitəsi əvəzinə Zaqafqaziya Komissarlığı yaradıldı. 1918-ci ilin fevralında isə ilk ümumqafqaz qanunverici orqanı olan Zaqafqaziya Seymi təşkil edildi. Buradakı müsəlman fraksiyasının başında Məmməd Əmin Rəsulzadə dururdu. Şimali Azərbaycana muxtariyyət verilməsi ideyasına qarşı çıxan bolşeviklər Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda və Cənubi Azərbaycanın Makuxori, Səlmas, Urmiya və başqa yerlərində azərbaycanlılara qarşı soyqırımı cinayəti törətdilər. Bütövlükdə, 1918-1920-ci illərdə Şimali və Cənubi Azərbaycan ərazilərində 750000 nəfər azərbaycanlı soyqırıma məruz qaldı.

1918-ci ilin 22 aprelində Zaqafqaziya Seyminin geniş iclasında müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikası elan edildi. A.İ.Çxenkelinin başçılıq etdiyi hökumətin tərkibindəki on iki nazirdən beşi azərbaycanlı idi. Eyni vaxtda Bakı Sovetinin başçılığı ilə Azərbaycanın Şərq qəzalarında (Lənkəranda, Qubada, Salyanda və b.) Sovet hakimiyyəti qurulması prosesi gedirdi. Bu bölgələri idarə etmək üçün əslində Sovet Rusiyası hökumətinin bu yerdəki orqanı olan Bakı Xalq Komissarları Şurası (BXKŞ) yaradıldı. İlk növbədə neft sənayesini və Xəzər ticarət donanmasını milliləşdirən BXKŞ yalnız 1918-ci ilin aprel-iyun aylarında V.İ.Leninin tapşırığı və S.Şaumyanın əli ilə Bakıdan Sovet Rusiyasına təqribən 1,3 milyon ton neft və neft məhsulları göndərdi. Beləliklə, Zaqafqaziya Seyminin yaranması da Zaqafqaziyada vahid dövlət hakimiyyətini qura bilmədi. Mayın 26-da Gürcüstan Respublikasının özünü





müstəqil elan etməsi ilə Zaqafqaziya Seyminə son qoyuldu; mayın 28-də M.Ə.Rəsulzadənin sədri olduğu Azərbaycan Müvəqqəti Milli Şurası müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul etdi. Təqribən yüz illik fasilədən sonra Şimali Azərbaycan ərazisində dövlətçilik bərpa olundu, müsəlman Şərqində ilk respublika yaradıldı. Tiflisdə keçirilən ilk iclasda yeni demokratik dövlətin yaranması faktını hüquqi baxımdan təsdiq edən «Azərbaycan istiqlalı bəyannaməsi» qəbul edildi. İlk Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyski seçildi. Azərbaycan XC-i hökuməti hakimiyyətin dövlət strukturlarını yaratmağa başladı; Azərbaycan-türk dili dövlət dili elan olundu, dövlət bayrağı təsdiq edildi, Azərbaycan vətəndaşlığı haqqında qərar qəbul olundu, nizami ordu yaradıldı və ona çağırış elan edildi.

Azərbaycanın şimalında müstəqil dövlətin yaranması da Azərbaycan ərazisində ikihakimiyyətliyə son qoymadı. Bakı və onun ətrafını Rusiyanın tərkibinə daxil etmək planını həyata keçirməyə çalışan və bu dövrdə Bakıda hakimiyyəti əlində saxlayan Bakı Kommunasının başçısı S.Şaumyan Azərbaycan Cümhuriyyətinin müvəqqəti paytaxtı elan olunmuş Gəncə üzərinə hərbi yürüş təşkil etdi. Birləşmiş Türkiyə-Azərbaycan qoşunu tərəfindən məğlubiyyətə uğradılmış bolşeviklər çox keçmədən Bakıdakı hakimiyyətlərini itirirlər. Hakimiyyət eser və daşnaklardan ibarət Sentrokaspi diktaturasının əlinə keçdi. 1918-ci il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı Türkiyəsinin birləşmiş Qafqaz İslam Ordusu Bakını azad etdi. Bundan sonra sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədən Bakıya köçür. Noyabrın 19-da Azərbaycan hökuməti Milli Şuranın əvəzinə parlament yaradılması haqqında qərar qəbul edir. Dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin açılışı olur.

Yarandığı ilk gündən bəri qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalan Azərbaycanın dövlət müstəqilliyi,

nəhayət, 1920-ci ilin yanvarında Paris sülh konfransında de-fakto tanındı. Lakin Azərbaycanın dövlət suverenitetini tanımaq istəməyən Sovet Rusiyası XI Qızıl Ordu hissələrini Bakıya göndərdi. Azərbaycan parlamentinin fövqəladə iclası 1920-ci ilin 27 aprelində hakimiyyətin Müvəqqəti Hərbi İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Beləliklə, Rusiyanın hərbi müdaxiləsi nəticəsində milli Azərbaycan hökumətinin hakimiyyəti devrildi.

Azərbaycanın cənubunda da şah hakimiyyətinin devrilməsi, respublika yaradılması, Cənubi Azərbaycana muxtariyyət verilməsi və s. uğrunda başlanan çıxışlar 1920-ci ilin yazında Təbrizdə əsas dövlət idarələrinin tutulması, Marağa, Xoy, Ərdəbil və başqa şəhərləri də əhatə edən Azadistan (Azadlıq ölkəsi) adlı dövlətin yaradılması ilə nəticələnir.

Lakin artıq sentyabr ayında ingilislərin köməyindən istifadə edən şah üsul-idarəsi Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi hökuməti devirir, özünü isə qətlə yetirir.

1920-ci ilin aprelin 28-də Azərbaycanın şimalında hakimiyyəti ələ alan Müvəqqəti Hərbi İnqilab Komitəsi (sədri N.Nərimanov) burada müstəqil dövlət olan İctimai Şura Cümhuriyyətini (İŞC) Sovet Sosialist Respublikasını elan etdi. Azərbaycan İŞC Xalq Komissarları Şurası yaradılmasına baxmayaraq, real hakimiyyət Rusiya Kommunist (bolşeviklər) Partiyasına məxsus idi. 1921-ci ilin mayın 6-da Bakıda açılan I Sovetlər Qurultayında Azərbaycan İŞC Konstitusiyası qəbul olundu. Proletar diktaturası, Moskvaya tabe olan bolşevik rəhbərliyinin hakimiyyəti, yeni siyasi və iqtisadi sistem qanuniləşdirildi. Azərbaycan Hərbi İnqilab Komitəsi ləğv edildi. Qurultay qanunverici orqan – Azərbaycan İŞC Mərkəzi İcraiyyə Komitəsini və icraedici orqan – Xalq Komissarları Şurasını seçdi. Azərbaycan İctimai Şura Cümhuriyyəti MİK-nin sədri vəzifəsinə M.Hacıyev, Azərbaycan Xalq Komissarları Şurasının sədri vəzifəsinə N.Nərimanov seçildilər.

Azərbaycanda (eləcə də Gürcüstanda və Ermənistanda)





milli hökumət devrildikdən və onunla bərabər hərbi və iqtisadi müstəqillik itirildikdən sonra hələ bir müddət yeni yaranmış Sovet Respublikası formal da olsa siyasi müstəqilliyini saxladı. Azərbaycanın özünün milli pulu, poçt markaları buraxıldı, orden və medalları təsis edildi. 1921-ci il noyabrın 3-də Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Qafqaz bürosu Azərbaycanı, Gürcüstanı və Ermənistanı özündə birləşdirən Zaqafqaziya Respublikaları Federativ İttifaqı yaranması haqqında qərar qəbul etdi. 1922-ci ilin martın 12-də isə Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı təşkil olundu. Həmin ilin dekabrın 10-da Bakıda keçirilən I Zaqafqaziya Sovetlər qurultayı ZSFSR-nin yaranması haqqında qərar qəbul etdi. ZSFSR Konstitusiyası qəbul olundu. Ali orqan – Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi seçildi. Azərbaycandan Səməd Ağamalı oğlu MİK Rəyasət heyətinin üç sədrindən biri oldu.

1921-ci il martın 16-da Moskvada RSFSR və Türkiyə arasında imzalanmış xüsusi müqavilə ilə Azərbaycanın qədim torpağı olan Naxçıvanın statusu müəyyənləşdirildi. Azərbaycanın tərkibində Naxçıvan Sosialist Şura Cümhuriyyəti təşkil edilməsi haqqında razılıq yarandı. Həmin ilin oktyabrın 13-də Rusiyanın iştirakı ilə Qarsda (bir tərəfdən Türkiyə, o biri tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları birlikdə) imzalanmış müqavilənin 5-ci maddəsinə görə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılıq əldə edildi. 1923-cü ilin əvvəllərində Naxçıvan Respublikasının muxtariyyəti ləğv olundu, ona ölkə muxtariyyəti verildi. Naxçıvan Ölkə İcraiyyə Komitəsi yaradıldı. 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan ölkəsinin Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar SSR-ə çevrilməsi haqqında qərar qəbul etdi. 1923-cü il iyulun 7-də Azərbaycan MİK Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında dekret verdi və beləliklə, Ermənistanın Dağlıq Qarabağ və

Naxçıvan torpaqlarına olan iddialarına son qoyuldu. Bununla belə, Rusiyanın bilavasitə köməyi ilə, hələ 1921-ci ilin II yarısında, Yuxarı Zəngəzur-Gorus Ermənistanın əlinə keçdi. .

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Moskvanın təzyiqi ilə Azərbaycanın qədim Borçalı ərazisi də Gürcüstana güzəştə edildi.

1923-cü ilin yanvarında Zaqafqaziya vahid pul sisteminə keçdi, vahid büdcə tərtib olundu. 1922-ci ilin dekabrın 30-da RSFSR, Ukrayna SSR, ZSFSR və Belorusiya SSR Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) «könüllü surətdə» birləşdilər. N.Nərimanov SSRİ MİK-nın dörd sədrindən biri seçildi. Beləliklə, Kommunist Partiyasının rəhbərlik etdiyi Sovet İmperiyasının əyalətlərindən birinə çevrilən Azərbaycan, bu vaxtacan formal da olsa saxladığı dövlət müstəqilliyini tam itirdi.

1936-cı ilin dekabrında qəbul edilmiş yeni SSRİ Konstitusiyasına müvafiq olaraq ZSFSR ləğv edildi. Azərbaycan SSRİ-nin tərkibinə «suveren» respublika kimi daxil olundu. SSRİ Konstitusiyasına uyğun Azərbaycan SSR KP MK-nin birinci katibləri tərəfindən idarə olunurdu (Mircəfər Bağırov 1953-cü ilədək, İmam Mustafayev 1954-1959, Vəli Axundov 1959-1969, Heydər Əliyev 1969-1982, Kamran Bağırov 1982-1988, Əbdürrəhman Vəzirov 1988-1990), Ayaz Mütəllimov (1990-1991). Həmin müddət ərzində ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə böyük nailiyyətlər qazanıldı. Bu irəliləyiş özünün ən yüksək həddinə xüsusilə, 70-80-ci illərin birinci yarısında çatdı. Lakin həddən artıq mərkəzləşmə, planlaşma və idarəetmənin imperiyanın əlində cəmləşməsi, Konstitusiyaya zidd olaraq, zahirən demək olar ki, bütün dövlətçilik atributlarına malik olan Azərbaycanın da başqa Sovet respublikaları kimi suverenliyini heçə endirmişdi.

Sovet-İran müqaviləsinə (1921) əsasən 1941-ci ildə Sovet qoşunlarının İrana daxil olması Cənubi Azərbaycanda





milli azadlıq hərəkatına yeni vüsət verdi. Azərbaycan Demokratik Firqəsinin başçılıq etdiyi bu hərəkat 1945-ci ilin dekabrın 12-də Azərbaycan Milli hökumətinin qurulması ilə nəticələndi. Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Milli hökumətin (1946-cı ilin iyunun 13-dən Azərbaycan Əyalət Əncüməninə tabe olan Azərbaycan İdarə Şurasının) fəaliyyət göstərdiyi bir il ərzində Cənubi Azərbaycanın siyasi, ictimai və mədəni həyatında mühüm dəyişikliklər baş verdi. Azərbaycan Milli hökuməti daxili işlər, xalq qoşunları, kənd təsərrüfatı, maarif, səhiyyə, ədliyyə, poçt-teleqraf və telefon, ticarət və iqtisadiyyat, iş və zəhmət nazirliklərindən ibarət idi. Azərbaycan dilində dərsliklər tərtib olundu. Təbrizdə Azərbaycan Dövlət Darülfünunu, Azərbaycan Dövlət Teatrı, Filarmoniya, İncəsənət Muzeyi, Musiqi məktəbi, Radiostansiya, Hərbi məktəb və Baş Qərargah yaradıldı. İran hökuməti Azərbaycan Milli hökumətini tanımağa məcbur oldu. Azərbaycanda Xalq Hakimiyyəti Azərbaycan Əyalət Əncuməni və Azərbaycan İdarə Şurası adı ilə 1946-cı ilin dekabrınadək fəaliyyət göstərdi. 1946-cı il noyabr ayının axırında İran hökuməti müqaviləni pozaraq, Azərbaycana hücum etdi. Dekabrda Cənubi Azərbaycanda şah hakimiyyəti bərpa olundu.

80-cı illərin sonlarına yaxın Sovetlər birliyində daxili parçalanma və dağılma prosesləri başlandı. 1988-ci ildə Azərbaycana qarşı əsassız torpaq iddiası ilə çıxış edən, mərkəzin dəstəklədiyi Ermənistan çox keçmədən Dağlıq Qarabağla birlikdə Azərbaycanın Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarını işğal edərək, bir milyon əhalini yurdundan didərgin saldı.

Azərbaycanın suveren hüquqlarının tapdanması demokratiya uğrunda hərəkatın güclənməsinə, bu isə öz növbəsində imperiyanın müqavimətinə, hərəkatı boğmaq üçün tədbirlər görməsinə səbəb oldu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiya öz qanlı planını həyata keçirdi: Bakıya və respublikanın digər yaşayış yerlərinə Sovet qoşun

hissələri göndərildi. 20 yanvar faciəsi baş verdi. Qanlı yanvardan dərs alan Azərbaycan xalqı milli demokratik hərəkatını yeni vüsətlərə qaldırdı.

Azərbaycan SSR Ali Sovetinin 1990-cı il 19 may tarixli sessiyasında prezident vəzifəsi təsis edildi və Ayaz Mütəllibov bu vəzifəyə seçildi. 21 may tarixli fərmanla 28 may 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yarandığı gün Azərbaycan dövlətçiliyinin bərpası günü elan edildi. Həmin gün demokratik qüvvələr Azərbaycan respublikasının üçrəngli bayrağını keçmiş Azərbaycan parlamenti binası üzərində yenidən qaldırdılar. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentində Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiya Muxtar Respublikanın adından «sovet sosialist» sözlərinin götürülməsi, Azərbaycan Respublikasının aypara və səkkizguşəli ulduz nişanlı üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Respublika Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən sessiyasında dövlətimizin adının Azərbaycan Respublikası olması haqqında qərar qəbul olunmuş, 1918-1920-ci illər dövrünün üçrəngli bayrağı dövlət bayrağı kimi və gerb təsdiq edilmişdir. Azərbaycanın orden və medallarının, milli pul nişanlarının təsis olunması haqqında qərar qəbul edilmişdir. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Soveti «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktını qəbul etdi. 29 dekabr 1991-ci ildə bu konstitusiya aktına münasibət məsələsi ilə bağlı referendum keçirilmiş, respublika əhalisinin böyük əksəriyyəti Azərbaycanın dövlət müstəqilliyi lehinə çıxış etmişlər.

Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesini tənzimləyən Helsinki müqaviləsinin yekun aktına, yeni Avropa üçün Paris xartiyasında irəli sürülən prinsiplərə tərəfdar oldu və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) tamhüquqlu üzvləri





sırasına qəbul edildi. 1992-ci il yanvarın 30-da Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq, müstəqil dövlət quruculuğunun əsas atributlarından olan və onun iqtisadi dayaqlarının möhkəmləndirilməsi, həmçinin, təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcək müasir gömrük orqanlarının təməli qoyulmuşdur.

1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu. Bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu. Azərbaycanın Türkiyə, ABŞ, İran, Almaniya və Fransada, Böyük Britaniya və İrlandiya krallıqlarında və b. ölkələrdə səfirlikləri açıldı. İlk gündən başqa dövlətlərlə suveren, bərabərlik əsasında münasibətlər quran Azərbaycan Respublikası beynəlxalq hüquqi öhdəlikləri yerinə yetirməyə çalışdı. Lakin, Dağlıq Qarabağ problemi həll edilməmiş qalırdı. 1991-ci ilin sentyabrında Azərbaycanın əzəli torpağı olan Yuxarı Qarabağda qeyri-qanuni «Dağlıq Qarabağ Respublikası» yaradıldı. Buna cavab olaraq Azərbaycan Respublikası həmin ilin noyabr ayında DQMV statusunu ləğv etməyə məcbur oldu. 1992-ci ilin əvvəlində erməni hərbi hissələri Rusiya (MDB) qoşunlarının köməyi ilə Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə hücumları genişləndirdi. Əsrin ən dəhşətli faciələrindən biri Xocalı şəhərində baş verdi. Ölkədə artan siyasi gərginlik 1992-ci il martın əvvəlində A.Mütəllibovun istefaya çıxması ilə nəticələndi. Həmin ilin iyunun 7-də keçirilən prezident seçkiləri nəticəsində Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy (Əliyev) hakimiyyətə gəldi.

Daxili çəkişmə və toqquşmalar 1993-cü ilin iyununda Azərbaycanı parçalamaq təhlükəsi qarşısında qoymuşdu. Ermənistanın təcavüzünün də gücləndiyi bu şəraitdə – iyunun 15-də 1992-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 1997-ci ilin iyununda Milli Məclis bu günün «Milli Qurtuluş günü» kimi bayram edil-

məsini elan etdi. 1993-cü ilin iyunun 23-də Milli Məclis prezident səlahiyyətlərini Heydər Əliyevə həvalə etdi. Oktyabrın 3-də keçirilən ümumxalq seçkilərində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Andiçmə mərasimində prezident «dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şəraiti yaratmaq» vəzifələrini üzərinə götürdü. 1994-cü ilin mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu. 1995-ci ilin noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Həmin gün Azərbaycan parlamentinə ilk seçkilər keçirildi. 11 oktyabr 1998-ci ildə Heydər Əliyev ikinci dəfə Azərbaycan Respublikasının prezidenti seçildi.

Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinin başçısı İ.H.Əliyev 2003-cü ilin əvvəlində AŞPA-nın vitse-prezidenti seçildi. 2003-cü il avqustun 4-də İ.H.Əliyev Azərbaycan Respublikası prezidentinin təqdimatı əsasında Milli Məclis tərəfindən Baş nazir təyin edildi. Heydər Əliyev səhhəti ilə əlaqədar yeni prezident seçkilərində öz namizədliyini baş nazir İ.H.Əliyevin xeyrinə geri götürdü. 2003-cü il oktyabrın 15-də İ.H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

2003-cü il dekabrın 12-də Azərbaycan Respublikasının memarı, ümummilli lider Heydər Əliyev vəfat etdi.

1993-cü ilin 2-ci yarısından Azərbaycan Respublikasının xarici siyasəti daha məqsədyönlü və uğurlu olmuşdur. Heydər Əliyev dövlətin xarici siyasətini xalqın maraqlarını, dünyada baş verən ciddi dəyişiklikləri, beynəlxalq sistemin sürətlə qloballaşması ilə əlaqədar yeniləşməsini nəzərə almaqla praqmatik əsasda qurdu. Qonşu dövlətlərlə münasibətlər nizama salındı. Ölkə 1993-cü il sentyabrın 24-də Müs-





təqil Dövlətlər Birliyinə, dekabrın 20-də Paris Xartiyasına, 1994-cü il mayın 4-də NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşuldu. 1997-ci ilin sentyabrında Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova respublikaları GUAM təşkilatı yaratdılar. Sonralar bu birliyə Özbəkistan Respublikası da qoşuldu. 2001-ci il iyunun 6-7-də Yaltada GÜÖAM ölkələri başçılarının görüşündə qəbul olunmuş «Yalta xartiyası»nda bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.

2001-ci il fevralın 23-də Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələni müzakirə etdi. ATƏT-in təklifləri əvvəlcədən ictimaiyyətə çatdırıldı. Müzakirəyə bütün siyasi partiyalar, təklifləri olan şəxslər dəvət olundular. Müzakirələr göstərdi ki, Azərbaycan cəmiyyətinin münaqişənin həlli üçün güzəşt imkanları tükənmişdir. Bu fikir Azərbaycan ziyalılarının 2001-ci il mayın 30-da yaydıqları bəyanatda daha açıq ifadə olunurdu: «Biz sülh tərəfdarıyıq, müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik, amma sülhdən daha vacib vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tətbiq edilməsi də istisna olunmamalıdır».

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İrana rəsmi səfəri zamanı 2002-ci il mayın 20-də imzalanmış «Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında» müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına mühüm təsir göstərdi.

2004-cü ildə Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu açıldı. Prezident İ.H.Əliyevin 2005-ci il yanvarın 24-26-da İrana rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına öz müsbət təsirini göstərdi.

Azərbaycan Respublikası digər dünya ölkələri, o cümlədən İngiltərə, Almaniya, Fransa, Pakistan, Çin, Yaponiya,

Rumıniya, Sloveniya və başqa ölkələrlə sıx əlaqələr qurur.

Beləliklə, dövlət müstəqilliyinin bərpa olunmasından sonra tarazlaşdırılmış və çoxşaxəli xarici siyasət kursunu həyata keçirən Azərbaycan Respublikası 1993-2006-cı illərdə Avropa strukturları ilə hərtərəfli inteqrasiya xəttini fəal surətdə həyata keçirmiş, aparıcı dünya ölkələri ilə, həmçinin etnik və dini yaxınlığı ilə seçilən Şərq ölkələri, xüsusilə, Türkiyə ilə qarşılıqlı münasibətlərin inkişaf etməsinə nail olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi 2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında fərman imzalamışdır. 2004-cü il martın 3-də daha bir mühüm sənəd - «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə sərəncam imzalamışdır.

Azərbaycan mədəniyyəti də sürətlə inkişaf edir, onun beynəlxalq əlaqələri genişlənir. 1992-ci ilin ortalarında «Türkdilli ölkələrin mədəniyyət nazirlərinin daimi konqresi», 1993-cü ildə isə onun icra qurumu TÜRKSOY fəaliyyətə başladı. 1996-cı ildə Azərbaycanla YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalandı. 1997-ci ildə Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu.

Respublikada təhsil islahatı həyata keçirilir. Heydər Əliyev 2000-ci il iyunun 13-də «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında», 2002-ci il oktyabrın 4-də isə «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» fərmanlar verdi. 2005-ci ilin iyununda Azərbaycan Respublikası Prezidenti yanında Təhsil Komissiyası yaradıldı.

Azərbaycan elmi də inkişaf yolundadır. Azərbaycan Elmlər Akademiyası 2001-ci ilin mayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır.





Respublikada KİV-lərinin inkişafı üçün böyük imkanlar yaranmışdır. Ölkədə müxtəlif siyasi yönümlü 200-dək qəzet, jurnal nəşr edilir, özəl radio-televiziya kanalları, o cümlədən İctimai Televiziya fəaliyyət göstərir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılan Heydər Əliyev Fondunun 2004-cü il mayın 10-da rəsmi açılışı oldu. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Milli Məclisinin deputatı Mehriban xanım Əliyevadır.

Fondun məqsədi Azərbaycanın tərəqqisi və xalqın rifahının yüksəlməsinə xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsinə dəstək vermək; azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliği, milli-mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək; uşaq, yeniyetmə və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət göstərmək; müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasına yönəlmiş layihələrin gerçəkləşdirilməsində iştirak etmək; Azərbaycan Respublikasının beynəlxalq nüfuzunu artıran tədbirlərin həyata keçirilməsinə dəstək vermək; ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq; təhsil, mədəniyyət və idman mərkəzlərini inkişaf etdirmək; elm, təhsil, mədəniyyət, idman mərkəzlərini inkişaf etdirmək; elm, təhsil, mədəniyyət və idman sahələrində qrantlar, nailiyyətlərə görə mükafatlar və s. təsis etmək; respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək; xüsusi istedadlı şagirdlər, tələbələr, alimlər üçün təqaüdlər təsis etmək; elmi tədqiqatların aparılmasına yardım göstərmək; xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə Azərbaycan alimlərinin elmi əlaqələr və mübadiləsinin təşkili; ictimai elmlər, xüsusilə Azərbaycan tarixi, arxeologiya, etnoqrafiya, hüquq və

politologiya üzrə tədqiqatları maliyyələşdirmək, onların nəticələrini dərc etmək, mühüm nailiyyətlər üçün xüsusi mükafatlar təyin etmək, uşaq evlərini, mədəniyyət, sağlamlıq və tibb mərkəzlərini, tibbi təsisatları inkişaf etdirmək, gələcək nəsillərin sağlamlığı üçün ekoloji təhlükəsizliyin təmin edilməsinə kömək göstərmək; ekologiya sahəsində mühüm tədqiqatları maliyyələşdirmək, sağlam həyat tərzini təbliğ etmək, sağlamlıq obyektlərinin zəruri ləvazimatlarla təmin edilməsinə yardım etmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə yaradılan və fəaliyyət göstərən qeyri-kommersiya təşkilatları ilə əməkdaşlıq etmək, onlarla birgə layihələr həyata keçirmək, Azərbaycan Respublikasının ərazisində və xaricdə elmi konfrans və seminarlar təşkil etmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə Azərbaycana həsr edilmiş tədbirlər, o cümlədən incəsənət sahəsində sərgi və eksponatların nümayişini təşkil etmək, nəşrlər buraxmaq və s.-dir.

2005-ci ildə Heydər Əliyev Fondunun Prezidenti M.Əliyevanın təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 25 müəssisə əsaslı şəkildə bərpa edildi. «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinə əsasən respublikada 132 məktəbin yenidən tikilib istifadəyə verilməsi işinə başlandı. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən müxtəlif sahələrə aid çoxlu sayda layihələr həyata keçirilir.

XX əsrin sonlarında Azərbaycan xalqının müstəqil dövlət quruculuğu, iqtisadi, siyasi və mənəvi nailiyyətləri onu XXI əsrdə daha yeni uğurlar qazanmağa ruhlandırır.

Bu gün, XXI əsrin astanasında, müstəqil Azərbaycan Respublikası bir iqtisadi sistemdən digərinə keçid dövrünü, tarixinin ən mürəkkəb, çətin və şərəfli dövrünü yaşayır. Ölkənin ərazi bütövlüyünü, qanunların aliliyini əsas tutan müstəqil dövlətimiz bu gün öz varlığını qorumaq, iqtisadiyyatını möhkəmlətmək, milli mədəniyyətini inkişaf etdirmək əzmindədir. Bunun üçün onun ən başlıca güclü - vətənpərvər insan potensialı, qədim və zəngin dövlətçilik ənənəsi vardır.





# II FƏSİL

## ÇAR RUSİYASININ QAFQAZ SİYASƏTİ VƏ ŞİMALİ AZƏRBAYCANIN İŞĞALI

I Pyotr ölümündən bir neçə ay əvvəl, 1724-cü ilin oktyabrında imzaladığı fərmanla bəyan etdi ki, gələcəkdə Rusiyanın işğal etdiyi ərazilərdə, xüsusilə Türkiyədə və Azərbaycanda ermənilərin məskunlaşmasına icazə verilir. Onlar bu torpaqlarda məskunlaşdıqdan sonra dövlətlərinin yaradılması mumkün olacaqdı.

1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya ilhaq edilməsi ilə Azərbaycan torpaqlarına Rusiya təcavüzünün yeni mərhələsi başlayır. Həmin hadisədən sonra Quzey Azərbaycanın Borçalı, Qazax, Şəmşəddil torpaqlarına iddialarını açıqdan-açığa ortaya qoyan Rusiyanın bu yönümdə siyasəti çar I Aleksandr (1801-1825) tərəfindən 1802-ci il sentyabrın 8-də P.D.Sisianovu Qafqazdakı rus qoşunlarına baş komandan və «Gürcüstana rəis» təyin edilməsindən sonra xüsusilə fəallaşdı. Siianov 1796-1797-ci illərdə Bakı şəhərindəki rus qarnizonunun komendantı olmuş, rus əsgərələrinin dinc və silahsız Bakını yandıraraq viran qoymasına başçılıq etmişdi. Azərbaycan torpaqlarının işğalı zamanı Sisianov özünü təkcə amansız hərbi başçısı, müsəlman-türk əhalisinə hədsiz nifrət bəsələyən rus şovinisti kimi deyil, həm də çox incə gedişərlə rəqiblərini parçalayan, onları bir-birinə düşmən etməklə təkləməyi, öz qarşısında duran əsas vəzifənin (işğalın) həllini asanlaşdırmağı bacaran hiyləgər diplomat kimi göstərirdi. Bir qayda olaraq, hər hansı bir xanlığı tutmağa hazırlaşan Sisianov həmin xanlıqla qonşu olan xanlıqlara çox mehriban, geniş vədlərlə dolu məktublar yazdırır, xanları bir-birinə qarşı qoymağa can atır, növbəti qurban kimi seçdiyi xanlığı tamamilə təkləyərək, onun işğalını mümkün qədər asanlaşdırmağa çalışırdı. Məsələn, Gəncənin işğalı ərəfəsində qarabağlı İbrahim Xəlil xana «səmimi»

məktublar yazan, onu Rusiyanın «Əbədi və sadiq» dostu adlandıran, Gəncə və Qarabağ xanlıqları arasında hər vasitə ilə məkrli nifaq toxumu səpən Sisianov Gəncəni tutduqdan dərhal sonra Qarabağ hökmdarı ilə yazışmalarının tonunu 180 dərəcə dəyişir. Belə yollarla qısa müddətdə uğur qazanan, Car-Balakən və Gəncəni ələ keçirən, hələ 1803-cü ildə çar tərəfindən general rütbəsinə qaldırılan Sisianov uğursuz İrəvan yürşündən Tiflisə qayıtdıqdan sonra İmeretiya və Minqreliyada Rusiya əleyhinə qalxan üsyanları boğmaqla məşğul oldu. Gürcüstanda daxili vəziyyəti silah gücünə sakitləşdirən Sisianov yenidən istilaçılıq fəaliyyətini davam etdirməyə başladı. Növbədə isə çarizmin işğal planına daxil olan Qarabağ, Şəki və Şirvan xanlıqları dururdu.

Hələ Gəncənin işğalından az sonra Sisianov Qarabağ və Şirvan xanlıqlarından Rusiya himayəsinə keçməyi tələb etmişdi. Öz işğalçılıq hərəkətlərinə diplomatik don geyindirməyi belə lazım bilməyən Sisianov həmin məktublarda öz fəaliyyətini silah gücünə davam etdirəcəyini bəyan etdirirdi. Ümumiyyətlə, bu fikirlər demək olar ki, Rusiyanın Qafqazdakı siyasətinin məzmununu açıqlamaqda idi. Qarabağ xanlığının tarixi əhəmiyyəti də onun müstəqil dövlətçiliyi qorumaq üçün göstərdiyi qəhrəmanlıq mübarizəsindədir.

XVIII yüzillikdə Qarabağın ərazisində mürəkkəb tarixi hadisələr baş verdi. Səfəvi dövlətinin inzibati bölgələrindən birini təşkil edən Qarabağ bəylərbəyliyi 1724-cü ildən etibarən Osmanlı Türkiyəsi tərəfindən zəbt edildi. Bəylərbəyliyin mərkəzi Gəncə şəhəri türk qoşunlarının əlinə keçdi.

Ön Qafqazın ərazisini türklərdən büsbütün təmizlədikdən sonra Nadirqulu xan ona kömək edənlərə və döyüşlərdə fərqlənənlərə müxtəlif mükafat və hədiyyələr verdi. Türk qoşunları ilə müharibədə fərqlənənlər arasında Qarabağın Cavanşir elinin nümayəndələri Pənahəli bəy və onun qardaşı Fəzləli (Bəzi tədqiqatçılar onun adını səhvən Behbudəli yazırlar). bəy də var idi. (136).

Pənahəli bəy əslən Sarıcalı tayfasındandır... Gəncə vila-





yəti xanlarının işi tərəqqidə olduğu zaman o, Gəncə tərəfinə gedib onların (Gəncə xanlarının) hüzurunda xidmət etdi. Uca himmət sahibi olan Pənahəli bəy qulluq etməyi özünə layiq görmədi. O, Qarabağ vilayyətinin Cavanşir oymağına (Oymaq - qəbilənin tərkibinə daxil olan tayfalardan hər birinin ümumi adıdır. Həmçinin hər hansı bir tayfanın tutduğu sahəyə də deyilir) gəldi. Şir qüvvətli cavan baxtı ona yar olub, çox varlandı. Evləndi, əziz və xöşbəxt bir oğlu oldu. O yüksəklik səması parlaq ulduzunun adını Əli qoydu. Onun Aləmi işıqlandıran Sarı bənizi ata-anasının ürəyini kəhrüba samanı çəkən kimi, özünə cəlb edirdi. Buna görə, onu «Sarıca Əli» deyə çağırırdılar.

Çox dövlət və nüfuz sahibi olduğuna görə, onun başına bir çox gəlib-keçən, naxırçı, muzdur, xidmətkar, çoban və ilxıçı toplandı və böyük bir oba oldu. O obanın adı isə «Sarıcalı» qaldı... Bu dövlət və nüfuz İbrahmxəlil ağanın ixtiyarına keçdiyi zaman daha da artdı. O, böyük dövlət sahibi olduğundan adı dillərə düşüb məşhur oldu. Onun Ağdamdakı bağı və hasar-divarı, Arasbar və Araz kənarındakı mülkü, mal-qarasının otlaq və yataqları, yaylaqda «İbrahimxəlil qalağı» adı ilə məşhur oan bir imarəti onun varlı və böyük calal sahibi olmasına adil bir şahiddir.

Nadirqulu xan belə cəsarətə və böyük nüfuza malik olan qardaşların Qarabağda qalmalarından ehtiyatlanaraq, onların hər ikisini sarayda xidmət üçün İrana dəvət etdi.

Şah sarayında Fəzləli bəy eşikağası, Pənahəli bəy isə ordu əmiri təyin olundu. (136).

1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Qarabağın hiyadoğlular, iyirmidördlər, otuzikilər, Cavanşir və başqa elləri Nadirqulu xanın namizədliyinin əleyhinə çıxdılar və İran taxtına yalnız Səfəvi sülaləsinin nümayəndələrinin oturmasını təkid etdilər. Məhz bu səbəbdən Nadir şah olduqdan sonra qarabağlıları cəzalandırmağı qərara aldı. O, Qazax, Borçalı, Şəmşəddil ellərinin Qarabağ bəylərbəyliyinin tabeliyindən çıxarıb Kartli çarı Teymurazın

ixtiyarına verdi. Cavanşir, otuz iki kəbirli ellərini Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün etdi. Eyni zamanda, Qarabağ bəylərbəyliyinə tabe olan beş erməni məlikliklərinə azadlıq bəxş etdi və onların bilavasitə şaha tabe olmaları barədə əmr verdi.

Qarabağlıların böyük bir hissəsinin Xorasan və Əfqanıstana köçürülmələri şahın sarayında xidmət edən Pənahəli bəyi və Fəzləli bəyi xeyli narahat etdi. Fəzləli bəyin qarabağlıların zorla sürgün edilmələri əleyhinə açıqdan-açığa çıxması onun şah tərəfindən edam olunması ilə nəticələndi. Nadir şah eşikağası vəzifəsinə Pənahəli bəyi təyin etmək fikrində idi. Şahın xain niyyətli olduğunu bilən Pənahəli bəy 1738-ci ildə bir dəstə öz yaxın adamları ilə birlikdə sarayı tərk edib, doğma yurdu Qarabağa çəkildi.

Nadir şah Cavanşirdən qoşun yığdığı zaman, İbrahimxəlil ağanın rəşid və böyük oğlu Fəzləli bəyi özünə naib etdi. (Naib – burada xüsusi tapşırıqları icra edən saray məmuru mənasında işlənmişdir). Eşik ağası mənsəbini ona münasib gördü və bu quluğu o mərhumə verdi. Zirəkliyinin nuru onun alnında parlayır və nəcabət asarının günəşi mübarək üzündə görünürdü. Allahın qəzavü-qədərindən və ruzgarın gərdişindən o rəhmətlik öldürüldü.

O səadət bürcünün xöşbəxlik ulduzu batdı. Nadir şah onun kiçik qardaşı Pənahəli bəyi hüzuruna çağırıb, əlinə çomaq verdi, əynini qiymətli eşik ağası xələtilə bəzədi və böyük qardaşının mənsəbini ona verdi. O, tapşırılan işləri bir neçə gün lazımi dərəcədə sədaqətlə yerinə yetirdi. Lakin, Nadir şahın ona olan qorxunc baxışından və qərəzkarlıqla etdiyi rəftarından başa düşdü ki, o (şah) mütləq belə bir zirəkmaddə cavanın kökünü kəsməkdə səhlənkarlıq və belə bir igid şəxsin vücudunu aradan qaldırmaqda kahallıq etməyəcəkdir.

Həm də əlinə çomaq alaraq, qarşıda durmağı və yasovullarla həmsöhbət olmağı (özünə) ar bilib, qaçmağı qərara aldı. O, Qarabağa gəlib öz uca nəslinə mənsub bir neçə nəfə-





ri özünə yoldaş etdi. Övlətinin Aləmi işıqlandıran günəşinin doğmasına müntəzir və riysət gözəlinin vüsalına çatmağı aramsız gözləyərək gəzib dolanırdı. Onun hünər və igidliyinin səsi, heybət və mətanətinin sədası bir dərəcədə xalqın ürəyinə lərzə, xas və avam camaatın canına qorxu salmışdı ki, əgər kaftar xasiyyətli düşmənləri onun şir tək heybətli, Aslan kimi dəhşətli vücudunu yuxuda görsəydilər, gözləri dovşan kimi rahatlıq yuxusuna həsrət qalardı. Əgər, məsələn Zal oğlu Rüstəm onunla hərb etmək məqsədilə hərəkət kəmərini belinə bağlasaydı, onun oxunun və qan içən qılıncının zərbindən qalxaq salardı.

Nadir şah Azərbaycan və Şirvan xanlarına qəzavü- qədər kimi nüfuzlu olan qələmilə çoxlu hökmlər yazdı. Bu hökmləri sürətli çaparlar vasitəsilə göndərdi ki, Pənahəlini tutub onun hüzuruna göndərsinlər. Lakin ona rəşadət səmasının qızıl quşunu tora salıb tutmaq mümkün və müyəssər olmadı. O, gah Şirvan çəmənliklərində ovla, gah da Qarabağ ovlaqlarında şikarla məşğul idi. İşi gündən-günə tərəqqi edirdi. Bu qayda ilə güzəran etməkdə ikən, ittifaq belə düşdü ki, nifaqla dolu olan fələkin hərəkətləri nəticəsində, 1160-cı ilin cəmadiyəlaxır ayında ( Hicri 1160 –cı ilin cəmadiyəlaxır ayı 1747-ci il iyunun 10-da başlanmış, iyulun 8-də qurtarmışdı) Nadir şahı Xorasan torpağında öldürdülər. Bu xəbər hər tərəfə yayılıb camaatın dilinə, ağzına düşdü. Allahın himayəsinə sığınan mərhum Pənahəli bəy bundan sonra qızmış bir şirə və coşqun bir əjdahaya öndü. Onun zərbə və hücumlarının şiddətli küləyi hər tərəfə əsdisə, düşmənin vücudunu çör-çöp kimi puç etdi. Qüvvət və əzəmətinin səsi, heybət və qüdrətinin sədası düşmənləri məğlub etdi. O, kimə hücum edirdisə, qabağında dura bilməyib məhv olurdu. Cavanşir, Kəbirli, Otuz-iki və Gürcüstan ellərini Nadir şah Xorasana sürgün etmişdi. «Vətəni sevmək də imandandır» sözünün məzmunca, onlar vətənə və yurdlarının eşq və arzusu ilə Xorasandan qayıdıb gəldilər. Bu vaxtadək Pənahəli bəyin güzaranı yuxarıda göstərildiyi kimi keçdi. Elat gəldik-

dən sonra o, gələnlərə mənzil və məskən mərhəmət etdi, onları öz qanadı altına aldı və ehtiyaclarını təmin etdi.

Bu qayda ilə cəmiyyət quruldu və o, öz istedadını göstərdi. Sonra bu səs, tam ixtiyar və səlahiyyət sahibi sərdar Əmir Aslan xanada çatmışdır. O, Əliqulu şahın sərdarı idi. Əliqulu şah da, Nadir şahın qardaşı İbrahim xanın oğlu idi. Nadir şahdan sonra taxta oturmuş və Adil şah adı ilə sikkə və mənbələri zinətləndirmişi.

Əmir Aslan xan Pənahəli bəyi görmək arzusu ilə gəlib onunla görüşdü. Həmin gecə Pənahəli bəyə sultanlıq (Sultan - XVIII əsrdə rütbə etibarilə xanlardan aşağı olan feodalara verilən ləğəbdir) və sabahı gün xanlıq mərhəmət etdi. Adil şaha itaət etməyi ona təklif etdi. Pənahəli xan da razılıq verib, vaxtın məsləhəti üçün boyun qoydu. Əmir Aslan xan bunu Adil şaha xəbər verdi. Adil şah da Pənah xana xanlıq fərmanı ilə qiymətli xələt, cəvahiratla bəzəimiş xəncər və sair hədiyyələr göndərdi. Xanlıq rütbəsi mərhum Pənah xana Adil şah tərəfindən verilmişdir. Axırda Nadir şahın nəvəsi Şahrux Mirzə taxta oturub, Adil şahı öldürdü. Qaracadağ hakimi Kazım xan da Əmir Aslan sərdarı tutub həbs etdi...

Qarabağ xanlığı XVIII yüzilliyn ortalarında Azərbaycan torpağında yaranmış on səkkiz xanlıqlardan biri oldu. O geniş bir ərazini - cənubdan Araz çayı, şimaldan Gürcüstan sərhədində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə indiki Ermənistanla həmsərəhəd olan torpaqları əhatə edirdi. Xanlıq yaranana qədər də Qarabağ bəylərbəyliyi həqiqətən geniş əraziyə malik idi. (136). Bununla əlaqədar İ.P.Petruşevski yazır: «irsiyyətlə keçən bəylərbəyliklərdən ən səciyyəvisi Ziyadoğlu sülaləsinin hakimiyyəti altında olan Qarabağ bəylərbəyliyidir. Onlar qızılbaş tayfasından, Qacar tayfasından, Ziyəddin oymağından idilər. Həmin bəylərbəylik XVI əsrin birinci yarısından başlayaraq, 300 ilə yaxın həmin sülalənin hakimiyyəti altında olmuşdur». İlk Qarabağ bəylərbəyi Kəmaləddin oğlu Qacar olmuşdur (1551). (244).





Qarabağ xanlığının əsasını birləşmiş Azərbaycan etnosları təşkil edirdi. Qarabağın aran hissəsində yaşayan otuzikilər, Cavanşir, kəbirli tayfaları Qarabağ vilayətinin köklü elatları idilər. İskəndər Münşinin fikrinə görə, otuzikilər hələ XVI əsrdən «ölkə» adlanırdılar. Cavanşir tayfasının başçısı eyni zamanda, otuzikilər tayfasının irsi hakimi idi. Cavanşirlər tayfası qızılbaş və əfşar şaxəsinə aid deyildir. Bəzi məlumatlara görə, onlar bəhmanlı tayfasından törəmişlər. Nadir şahın hakimiyyəti illərində Cavanşir, otuziki, kəbirli tayfaları güclə Xorasan vəlayətinin Sərəxs adlı yerinə sürgün edilmiş, şahın ölümündən sonra Qarabağa - öz ata-baba yurdlarına qayıtmışdılar. (136).

Qarabağ xanlığının yaranmasının öz xüsusiyyətləri vardır. Bu əsas etibarilə üç istiqamətdə gedirdi: Qarabağda ayrı-ayrı feodal hakimlərinin siyasi müstəqilliyini ləğv etməklə xanlıq hakimiyyətini bərqərar etmək, xanlığın hərbi-siyasi mərkəzini yaradıb möhkəmləndirmək, xanın hakimiyyətini qonşu feodal dairələrə yaymaq. Gələcək xanlığın banisi Pənahəli xan başda olmaqla, Cavanşir feodal əyanları bu məsələlərin həllində aparıcı qüvvə idilər.

Pənahəli Sarıcalı oymağından, Cavanşir tayfasının feodal əyanlarına mənsub idi. Otuzikilər tayfasının başçısı, Cavanşir və Qazağın 20 min heyətinin əmiri olan Pənahəli xan son dərəcə varlı və böyük təsir gücünə malik idi. Onun mövqeyi, demək olar ki, gündən-günə möhkəmlənirdi. A.Bakıxanovun fikirincə, Pənahəli xanın təhsili olmasa da, o, «cəsarətli, sadə, xoşrəftar və tədbirli idi».

Pənahəli xanın Qarabağ ərazisində xanlıq yaratmaq fikri yerli feodalların, birinci növbədə əyanların və erməni məliklərinin müqavimətinə rast gəlirdi. Qarabağ məlikləri hələ Nadir şahın sağlığında, onun Türkiyəyə qarşı apardığı müharibədə vuruşur, onun qoşununu ərzaqla təmin edir, dövlətin bütün imtiyazlarından istifadə edirdilər. Onların öz xüsusi silahlı qüvvələri də var idi. Çiləbord məliyi Allahqulu Türkiyəyə qarşı müharibədə şücaət və mərdlik göstərdiyinə

görə, şah tərəfindən sultan titulu ilə təltif edilmişdi. Bundan əlavə, Nadir şah məlikləri Gəncə bəylərbəyi II Uğurlu xanın tabeliyindən azad etmişdi. O tələb edirdi ki, məliklər özlərini sərbəst bilsinlər, öz xahiş və tələblərini şahın adına göndərsinlər və ona xərac versinlər. Ümumən Nadir şahın dövründə məliklik öz çiçəklənmə dövrünü keçirirdi. Yeni şəraitdə vəziyyət dəyişildi.

## Qarabağ Xanlığının Banisi Pənah Xan

**Pənahəli Xan Cavanşir** – (1701-1763, Şirazda ölür. Vəsiyyətinə görə o, Ağdamda «İmarət» adlı bir yerdə dəfn ounmuşdur.)- Qarabağ xanı, Qarabağ xanlığının banisi. Azərbaycanın Cavanşir elinin Bəhmənli qolunun Sarıcalı boyundan idi. Bir müddət Nadir şahın (1736-47) ordusunda xidmət etmiş və böyük nüfuz qazanmışdı. Sonralar rəqibləri tərəfindən müxtəlif vasitələrlə şahın nəzərindən salınan Pənahəli xan 1738-ci ildə yaxın adamları ilə birlikdə Xorasanda İran hərbi dəstələrinə müqavimət göstərmiş, qonşu



Gəncə, Naxçıvan, Şəki və s. Əyalətlərə basqın etmişdi. Nadirin ölümündən (1747) sonra müstəqil hakimliyə başlayan Pənahəli xan tezliklə Qarabağın Xəmsə məliklərini də özündən asılı vəziyyətə saldı. Pənahəli xan Kəbirli mahalanıda Bayat qalasını tikdirdi (1747/48) və İran hakimi Adil şahla (Nadirin qardaşı oğlu Əliqulu xan) yaxınlaşdı. Adil şah 1748-ci ildə Pənahəli xan Cavanşiri Qarabağ hakimi kimi tanıdı və xüsusi fərmanla onu xan titulu ilə təltif etdi. 1750-ci ildə Şəkili Hacı Çələbi xan Qarabağa hücum edib Bayat qalasını mühasirəyə aldı. Lakin, müvəffəqiyyətsizliyə uğradı. Pənahəli





xan Cavanşir xanlığının mərkəzini Şahbulaq, sonra isə Pənahabad qalasına köçürdü. 1757-ci ildə qacar tayfa başçısı Məhəmmədhəsən xan Qarbağa hücum etdi. Lakin Şuşa əirafında müvəffəqiyyətsizliyə uğrayıb geri çəkildi. 1759-cu ildə Urmiya hakimi Fətəli xan Əfşar Qarabağa hücum etdi. Pənahəli xan Cavanşirlə uzun sürən mübarizədə müvəffəqiyyət qazanmayan Fətəli xan hiyləyə əl ataraq, onunla qohumluq əlaqəsi yaratmaq arzusunda olduğunu bildirdi Fətəli xanın düşərgəsinə qonaq çağırılan Pənahəli xan Cavanşirin böyük oğlu İbrahimxəlil xan girov götürüldü. Şiraz hakimi Kərim Zəndin hücumu xəbərini eşidən Fətəli xan Cənubi Azərbaycana döndü. Kərim xan Zənd Fətəli xana qarşı mübarizə aparmaq üçün Azərbaycan xanlarına, o cümlədən Pənahəli xan Cavanşirə müraciət etdi. Pənahəli xan Cavanşir kiçik oğlu Mehrəli xanı öz yerinə qoyaraq Kərim xan Zəndə birləşdi. Fətəli xanı məğlubiyyətə uğradan Kərim xan Zənd hiylə işlətdi; qələbə münasibəti ilə Şirzada keçiriləcək şənliklərdə iştirak etmək bəhanəsi ilə Pənahəli xan Cavanşir də daxil olmaqla bir sıra xanları özü ilə apardı.

Bəzi tədqiqatçılara görə, vətənə dönmək imkanından məhrum olan Pənahəli xan Cavanşir özünü həlak etmişdir. Digərləri isə onun zəhərlənib öldürüldüyünü göstərirlər. (58a, 103a, 255a).



*Şuşa qalasının gümüş açarları*



Gümüş Pul



Qılınc (Rəmz)



Pənah xanın qəbir daşı

*Qarabağ xanlığının dövlətçilik rəmizlərindən*

Pənahəli xan özünü xan elan etdi (1748-1763). Pənahəli xan müxtəlif yollarla məlikləri özünə tabe etməyə çalışırdı. O, Gülüstan və Çiləbörd məlikləri arasında nifaq saldı, Göyçədən Qarabağa köçmüş və hakimiyyətə can atan Vərəndə məliyi Şahnəzər hakimiyyəti və ərazini parçalamaq niyyətində olan Çiləbörd, Gülüstan və Dizaq məlikləri ilə düşmənçiliyə başladı. Məlik Şahnəzərin dayısı Hüsnünü öldürməsi məliklərin ona qarşı mübarizədə birləşmələrinə səbəb oldu. Məlik Şahnəzər qızı Hürzəti Pənahəli xanın oğlu İbrahimxəlilə verərək, onun hakimiyyətini qəbul etdi. «Xəmsə»dən (143a) ayrılıb tamamilə xanın himayəsinə keçdi və onun vassalına çevrildi. Mirzə Camal yazırdı ki, «Xaçın mahalının əhalisi iki min tüfəngli və ailələri ilə birlikdə Ballıqaya yaxınlığında olan möhkəm bir yerə sığınıb ədavət və düşmənçiliyə başladılar. Pənah xan onların üzərinə hücum etdi, üç gün arası kəsilmədən, qızğın müharibədən sonra onların səngərini tutdu». Beləliklə, Xaçın da xanlıqdan asılılığı qəbul etdi. Onun məliyi Mirzə xan Pənahəli xanın adına pul kəsdirdi. (214).





Xəmsə»nin ərazisindən təcrid olunmuş Araz və Qarabağ arasında yerləşən Dizaq da xanın hakimiyyətini qəbul etdi. Bu isə uzun müddət davam edən mübarizəyə səbəb oldu. Loridən Qarabağa qaçıb gəlmiş Məlik-Yeqanovlar nəslinin nümayəndələri edam edildilər. Gəncə xanlığından Tərtər çayına qədər Gülüstan məlikliyinə, Tərtər və Xaçın çayları arasındakı ərazi isə Çiləbörd məlikliyinə qatıldı. Çiləbörd və Gülüstanın vassal asılılığa keçməsi ölüm, qarət, əkin və bağların məhv edilməsi ilə müşayiət edildi. (29). Çilədörd mələyi Allahqulu sultan danışıq aparmaq üçün Pənahəli xanla Ağoğlan qalasında görüşdülər. Naxçıvan xanı Heydərqulu xanın təhriki ilə Allahqulu sultan öldürüldü.

Onların məlikləri - Hətəm və Usub (əsilləri Şirvandan gəlmədir) xeyli kəndlərə malik idilər. Məlik Hətəm və Usub əvvəlcə Pənahəli xana tabe olmamaq üçün Cırmıx qalasında özlərinə sığınacaq tapdılar, sonra isə torpaqlarını, bağlarını, əkinlərini tərk edərək Şamxora köçdülər. Gəncə xanı onlara sığınacaq verdi. Məliklər öz ailələri, nökərləri, yaxın adamları və rəiyyətləri ilə birlikdə köçüb bu yerlərdə məskunlaşdılar. 7 ildən sonra Qarabağa qayıdaraq, xanın ali hakimiyyətini tanıdılar. Göründüyü kimi, naməlum səbəblərə görə, onlar Azərbaycanın müxtəlif şəhər və kəndlərində özlərinə sığınacaq tapmış, nisbətən əmin-amanlıq yaranan kimi Qarabağa gəlmişdilər. Məsələn, Dizaq məliyi Qarabağa Loridən gəlmişdi. Vərəndə məliyi Şahnəzər Göyçədən, Çiləbörd məliyi Allahqulu Mağavizdən, Gülüstan məliyi Usub Şirvandan qaçaraq Qarabağda özünə sığınacaq tapmışdı. Nadir şaha itaətə görə məliklik rütbəsi əldə etmişdilər. Xaçın isə (Mirzə xan) o dövrdə Həsən Cəlalyanın (1702-1728) övladına verilmişdi. Buradan aydın olur ki, Allahqulu, Yeganə, Şahnəzər, Usub və qaynaqlarda adı çəkilən digər Qarabağ məliklərinin əsil-nəsəbi dinini qəbul etmiş qriqoryan (xristian) albanları olmuşlar.

Beləliklə, XVIII əsrin 50-ci illərində iri feodal hakimlərin-məliklərin müqaviməti sındırıldı və onlar xanlığa tabe

edildilər. Lakin, məliklərin Qarabağ kilsə təşkilatlarının (Qandzasar katalikosu) rus sarayında yazdıqları məktublarda, erməni xronistlərinin yazılarında məliklərin ayrılma cəhdlərinə, onların mərkəzi hakimiyyətə tabe olmamalarına dini don geyindirilmişdi. Əslində isə Qarabağ məlikləri ilə mərkəzi xanlıq hakimiyyəti arasında gedən mübarizə siyasi mahiyyət daşıyırdı, hər hansı hakim feodal sinfi arasında aparılan din davası deyil, torpaq və ərazi uğrunda aparılan mübarizə idi. Bu da öz növbəsində mükəlləfiyyətli kəndli üzərində öz ağır təsirini göstərirdi.

Pənahəli xan İranda Nadir şahın xələfləri arasında ara müharibələrinin genişlənməsindən istifadə edərək, Gəncə, İrəvan, Naxçıvan xanlıqlarını, xüsusən Ərdəbil xanlığını ələ keçirməyə çalışdı. Qısa müddətdə o, həmin xanlıqları zorla və nigah diplomatiyası (qohumluq əlaqələri yaratmaq) yolu ilə öz təsiri altına salmağa müvəffəq oldu. Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə, Gəncənin Ziyadoğlu nəslinin xələflərini isə Gənəcəyə hakim təyin etdi. Pənahəli xan öz ərazisini cənub-şərqə doğru genişləndirdi. Cənub-qərbdə isə Bərgüşada qədər uzanan torpaqları –Tatev, Sisyan, Qafan, Meğri, Güney mahallarını Qarabağ və Naxçıvan hakimlərindən aldı. İrəvan hakiminə tabe olan Göyçə mahalını, Tərtər ərazisini ələ keçirdi. Xudafərin körpüsündən Kürəkçaya qədər uzanan və Gəncə xanlığına tabe olan torpaqları öz nüfuz dairəsinə daxil etdi.




*15 və 11 aşırımlı Xudafərin körpüsü*







*15 aşırımlı Xudafərin körpüsü bərpa layihəsi*

Naxçıvanın Kəngərli tayfasını, Gurcüstandakı Dəmirçi-Həsənli elini, qaraqoyunlu, cinni tayfalarını itaətə gətirdi. Zəngəzurun Hacısamlı, Kolanı, Çəlbəir mahalları da Qarabağ xanlığına tabe oldu. XVIII əsrin ikinci yarısında xanlıq artıq xeyli ərazini əhatə edirdi. Bura Qarabağın dağlıq və aran hissəsi daxil idi.

Pənahəli xan Məhəmmədəsən xan Qacarın, Fətəli xan Əfşarın işğalçılıq siyasətinə qarşı uğurlu mübarizə apardı, xanlığın mövcud olduğu müddətdə «heç kimə qulluq etmədi, heç kimin boynuna itaət boyunduruğu qoymağa çalışmadı», yalnız öz istiqlaliyyətini qoruyub saxlamaqa çalışdı.

XVIII əsrin 50-ci illərində Pənahəli xan şəhərin möhkəmləndirilməsi ilə məşğul olarkən, Qarabağ dəfələrlə qonşu feodal hakimlərinin basqınlarına məruz qalırdı. 1751-ci ildə Məhəmmədhəsən xan Qacarın qoşunu Qarabağa basqın etdi. Şuşadan bir qədər aralı düşərgə saldı və bir aya qədər orada qaldı. Qarabağ tarixçisi Mirzə Camalın məlumatına görə, Məhəmmədhəsən xan «Pənah xanı tabe etmək və beləliklə, Şuşa qalasını ələ keçirmək üçün çox düşündü, tədbirlər tökdü... lakin bu qədər çoxlu qoşunla qalaya heç yaxınlaşa bilmədi. Əksinə, Qarabağın cəsur əhalisi Məhəmmədhəsən xan ordusunun at, qatırını və başqa mal-qarasını açıq, istərsə də gizli qarət edərək, onun qoşununa çoxlu ziyan vurdu». Məhəmmədhəsən xanın qüvvələrinin dəf edilməsində Şəki hakimi Səfərəli xan da az rol oynamadı. Mə-

həmməhəsən xanın Azərbaycanda olmasından istifadə edən Kərim xan Zənd, həmin ildə onun idarə etdiyi Astarabad, Mazandaran və Gilan üzərinə hücum etdi. Bundan xəbər tutan Məhəmmədhəsən xan Şuşanın mühasirəsindən əl çəkib, tez geri qayıtmağa məcbur oldu.

Bir qədər sonra Urmiya hakimi Fətəli xan Əfşar bir sıra qonşu xanlıqları (Təbriz, Xoy, Mərənd, Qaradağ, Ərdəbil, Marağa və s.) öz ətrafında birləşdirdikdən sonra Pənahəli xanın yanına elçilər göndərərək tabe olmasını tələb etdi (1760), lakin rədd cavabı aldı. Onda Fətəli xan Əfşar böyük ordu ilə Qarabağ xanlığı üzərinə hücuma keçdi. O, Qarabağın müdafiəsiz mahal və kəndlərini zəbt edərək Şuşa qalasına qədər gəlib çatdı və qalanı mühasirəyə aldı. Şuşa altı ay mühasirədə qaldıqdan sonra, Pənahəli xan oğlu İbrahimxəlili girov verməklə şəhəri mühasirədən azad etdi.

1761-1762-ci illərdə İranın müxtəlif vilayətlərini öz hakimiyyəti altında birləşdirən Kərim xan Zənd Azərbaycan üzərinə hücuma başladı. O, Qaraçəmən kəndi yaxınlığındakı döyüşdə Fətəli xan Əfşarın qoşunlarını məğlubiyyətə uğratdı və Azərbaycanın cənubundakı bir sıra xanlıqları özünə tabe etdi. Fətəli xan Urmiya qalasına çəkildi.

Azərbaycan xanlıqları arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışan Kərim xan Zənd, vaxtılə Fətəli xanın sıxışdırdığı yerli feodallara və xanlara məktub göndərərək, onları öz tərəfinə çəkməyə çalışdı. Kərim xan Zənd Pənahəli xana göndərdiyi məktubunda yazırdı: «Fətəli xan sadəcə düşmən deyil, o eyni zamanda bizimlə qanlıdır... Gərək birləşmək uğrunda bütün qüvvəni əsirgəməyəsən. Məhz bu yolla həm intiqam almaq, həm də oğlunuzu xilas etmək mümkün olar. Bununla həm siz sevinərsiz, həm də biz öz arzumuza çatarıq». (136).

Pənahəli xan bu çağırışa cavab olaraq, kiçik oğlu Mehralı xanı öz yerinə hakim təyin etdi və qoşunu ilə zəndlərlə birləşdi. Tezliklə Urmiya şəhəri müttəfiq qoşunu tərəfindən mühasirəyə alındı. Fətəli xan bir neçə ay müqavimət göstərdikdən sonra, birləşmiş qoşunların ağır zərbəsinə davam gətirə bilmədi. 1763-cü ilin fevralında tabe oldu. Urmiya xanlığı üzərindəki qələbədən sonra Kərim xan Zənd Pənahəli xana xəyanət etdi və müxtəlif bəhanələrlə ona Qarabağa qayıtmağa icazə vermədi. Əvəzində oğlu İbrahimxəlil xanı məhbəsdən azad etdi və Qarabağa qaytardı. O, xanlığı idarə etməyə başladı. Pənahəli xan isə Şiraza aparıldı və ömrünün axırınadək (1763) orada qaldı.





İbrahimxəlil xanın (1763-1806 illər) dövründə xanlıq daha da gücləndi. Burada diqqətə layiq binalar, qalalar tikildi. (136). Məscidi xanın qızı Gövhər ağa bərpa etdirmişdi. İki dağ arasında Əsgəran, Ağoğlan qalaları, Şuşa qalasının hasarı, özünün imarəti, Xəzinə dərəsində imarət və otaqlar, Xan bağı imarətləri, Ağdam bazarının hasarı və s.

Onun nüfuzu Azərbaycanın cənub xanlıqlarına, müəyyən vaxtlarda isə Gəncə xanlıqlarına da yayıldı. Mirzə Adıgözəl bəy və Qarabağın sonrakı tarixçiləri qeyd edirdilər ki, İbrahimxəlil xanın «hökm və fərmanı Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, İraq və Azərbaycan sərhədi olan Qaplankühda belə işlərdi». Əlbəttə, müəlliflər bir qədər yanılırlar. İbrahim xanın ancaq Qaradağ, Ərdəbil, Naxçıvan və Gəncə üzərində təsiri olmuşdur. Onun etibarlı müttəfiqi Car-Balakən camaatının başçısı Nütsal xanın oğlu Ümmə xan idi. İbrahimxəlil xan onun bacısı Bikə xanımla evlənmişdi. Bu qohumluq hər iki feodal arasında hərbi-siyasi birliyin yaranmasına səbəb oldu.

İbrahimxəlil xan qızı Tuti Bikə xanımı Şəkili Səlim xana ərə vermişdi. Məhz onların gücündən istifadə edən İbrahimxəlil xan erməni məliklərinin xəyanətinə, qonşu xanlıqların Qarabağa basqınlarına son qoydu. Qarabağ xanlığının daxilində və xaricində sabitlik yaratdı, əhali dinc əməklə məşğul olmağa başladı.

İbrahimxəlil xan gürcü çarı II İrakli ilə də dostluq edirdi. Onun vəzirinin qızı ilə evlənmişdi. II İrakli ilə dostluğu

möhkəmləndirmək üçün xanlığın baş vəziri məşhur Azərbaycan şairi Molla Pənah Vaqif Tiflisə getmişdi. Onun iştirakı ilə Qarabağ xanlığı ilə Gürcüstan çarlığı arasında bağlanan sazişin siyasi əhəmiyyəti vardı.

60-80-ci illərdə Mehrəli xanla hakimiyyət uğrunda başlanmış mübarizə də İbrahimxəlilin xeyrinə qurtardı. Beləliklə, o öz daxili işlərini nizama saldıqdan sonra hərbi səfərlərə başladı. Mirzə Yusif Nersesov bu səfərin ikisi barədə məlumat verir: birinci Naxçıvan səfəridir. İgrahimxəlil xan dağıstanlı Ümmə xanın köməyi ilə Naxçıvana qoşun çəkdi, Qarabağlarda dayandı, onu mühasirəyə aldı. İrəvan xanı Zeynal Qarapapaq kürdlərini Naxçıvan xanı Kəlbəli xanın köməyinə göndərdi. Odur ki, İbrahimxəlil xan Qarabağlarda ciddi müqavimətə rast gəlib geri çəkilir. Bundan sonra o, Kəlbəli xanla dostluq əlaqəsi saxladı.

İkinci Xoy səfəri idi. İbrahimxəlil xan 1789-cu ildə müttəfiqlərin qoşunu ilə Xoya tərəf hərəkət edərək, Mərəndə daxil oldu. Xoy hakimi Cəfərqulu xan öz adamları ilə ona qarşı çıxdı. Mərənd yaxınlığında rəqib tərəflər üz-üzə gəldilər, şiddətli döyüş oldu, Qarabağ qoşunu məğlubiyyətə uğradı, xeyli əsir alındı. Onların içərisində M.P.Vaqif və İbrahim xanın əmisi oğlu Fərzi bəy də var idi. Əsirləri Xoy şəhərinə apardılar. İbrahimxəlil xan Cəfərqulu xanla danışığa girdi və öz adamlarını əsirlikdən azad etdi. Hər iki xanlıq arasında dostluq müqaviləsi imzalandı. Bu hadisə ilə əlaqədar M.P.Vaqif yazırdı:

*Fərd Vaqifəm mən bu səfərədən ki, salamat qayıtdım,*
*Tövbə gər bir də qiyamət günü çıxsam qaladan.* (136).

İbrahimxəlil xanla Gürcüstan valisi arasında ixtilaf baş verdi. Mirzə Yusif Qarabaği yazırdı ki, həmin ixtilafa görə də 1791-ci ildə Ümmə xan xeyli qoşunla Gürcüstana yürüş edib Sığınaq və Gümühxanını tutdu, qışı Axalsixidə keçirdi. Qayıdarkən knyaz Abaşidzenin ailəsi ilə yaşadığı Adxan qalasını tutdu, əhalisini qılıncdan keçirdi. Abaşidzenin qızı





Cavahiri əsir alıb İbrahim xana göndərdi, digəri ilə özü evləndi. Qarabağ xanlığında siyasi hadisələrin nisbətən sakit şəraitdə cərəyan etməsi və xarici hücumların ara verməsi çox da uzun sürmədi.

Şuşanın qəhrəman müdafiəsi. Kərim xan Zəndin ölümündən (1779) sonra, İranda baş vermiş feodal ara müharibələrində mənşə etibarilə türk-qızılbaş olan Qacar sülaləsi qələbə qazandı. Sülalənin banisi Ağa Məhəmməd xan Qacar 80-ci illərin ortalarında Xorasan istisna olmaqla, İranın başlıca əyalətlərini istila edərək Tehranı özünə paytaxt etdi. 1794-cü ildə Qarabağa səkkiz minlik qoşun göndərdi. Lakin qoşun Əsgəran qalası yaxınlığında məğlub olub geri çəkildi.

Ağa Məhəmməd xan Səfəvi şahları kimi, bütün Ön Qafqazı özünə tabe etmək istəyirdi. O, yürüşə başlamazdan əvvəl, Azərbaycanın bütün xanlarına, Kartli və Kaxetiya çarlığına, habelə Cənubi Dağıstan hakimlərinə fərmanlar göndərib girov (əmanət) tələb etdi. İbrahimxəlil xandan itaət əlaməti olaraq oğlunu girov istədi. Lakin Ön Qafqaz və Dağıstan feodal hakimlərinin əksəriyyəti yenidən İran zülmünə boyun əyməkdən imtina etdilər. Bu da Ağa Məhəmməd xanın böyük bir ordu ilə Ön Qafqaza hücumu üçün bəhanə oldu. O, qoşunlarına üç istiqamətdə –Talış, İrəvan və Şuşa istiqamətində yürüş etməyi əmr etdi. Ağa Məhəmməd xan özü sonuncu səmtə hərəkət edən qoşunun başçısı idi.

Talış və İrəvan istiqamətində hərəkət edən İran qoşunları bu yerləri darmadağın edərək, Ağa Məhəmməd xanın qoşunları ilə birləşdilər. Talış xanı Mir Mustafa xan Xəzəri dolaşan rus gəmilərinin köməyinə sığınmaq üçün Sara adasına qaçdı. Rus hərbi gəmiləri Qacar qoşununu sahilə çıxmağa qoymadı. Nəhayət, 1795-ci il iyunun sonunda Ağa Məhəmməd xan 85 minlik ordu ilə Qarabağ xanlığına soxulub Şuşa qalasını mühasirəyə aldı. Bu hücum bütün Qafqaz üçün təhlükəli idi. Odur ki, azərbaycanlılar işğalçılara qarşı inadlı mübarizəyə qalxdılar. Xanlığın 15000 nəfər seçmə əhalisi düşmənlə vuruşurdu. Qalanın mühasirəsi nəticə ver-

mədiyindən Ağa Məhəmməd xan ətraf kəndləri yandırır, mal-qaranı sürüb aparır, əhalini əsir alırdı. O, Şuşanı 33 gün mühasirədə saxladı, heç bir müvəffəqiyyət qazanmadı. Belə olduqda, Tiflisə tərəf hərəkət etdi. Cavad xanla Məlik Məcnun onu müşayiət edirdilər. Kartli-Kaxetiya sarayındakı hərc-mərclik Qacara Tiflis şəhərinə soxulmağa imkan verdi. Xan qoşunları bu döyüşdə şəhəri ələ keçirərək əhalini qırdılar və 20 min nəfər əsir apardılar. Bir müddətdən sonra düşmən ordusu qışlamaq üçün Muğana çəkildi. Ağa Məhəmməd xan burdan Azərbaycan xanlarına və Dağıstan hakimlərinə yenidən hədə-qorxu ilə dolu məktublar yazaraq onlardan tabe olmağı tələb etdi. Bu zaman Azərbaycanın bir sıra xanlıqları kömək üçün Rusiyaya müraciət etdilər.

Yerli hakimlərin II Yekaterinaya müraciəti həmin ildə rus qoşunlarının Ön Qafqaza hərbi yürüşünə səbəb oldu. Rus qoşunlarının komandanı V. Zubovun ixtiyarına Xəzər dənizindəki rus hərbi donanması da verildi. Ağa Məhəmməd xan rus qoşunlarının Azərbaycana hərəkət etməsini gördükdə, 1796-cı ilin yazında tələsik Arazın o tayına çəkildi. Həmin ildə o, özünü İranın şahı elan etdi.

Qubalı Şeyx Əli xan qısa müqavimətdən sonra, bacısı Pəricə xanımın təkidi ilə Dərəbənd qalasının qapısını V.Zubovun üzünə açdı. V.Zubov Pəricə xanımı Dərbəndin hakimi təyin etdi. Bakı xanı Hüseynqulu xan şəhəri təslim etmək istəmirdi. V.Zubov öz qoşununun bir hissəsini burada qoyub Şamaxı istiqamətində hərəkət etdi. Fitdağa çəkilən Mustafa xanın V.Zubova təslim olan yaxın qohumu Qasım xan Şamaxı xanı təyin edildi. Daha sonra V.Zubov Salyan tərəfə gedərək yaxınlıqda düşərgə saldı. Qarabağ xanı İbrahimxəlil xan öz nümayəndələrini onun yanına göndərdi. Rus generalı nümayəndələri səmimi qarşıladı. O, Qarabağ xanlığının Rusiya ilə yaxınlaşmasında Vaqifin xidmətlərini qiymətləndirərək, II Yekaterinanın adından ona qiymətli hədiyyə – əsa bağışladı.

Beləliklə, Azərbaycanın şimal xanlıqlarının bir neçəsi





Rusiyaya tabe edildi. Əvvəlki illərdə olduğu kimi, çar hökuməti Azərbaycanda geniş istehkamlar qurmaq üçün planlar hazırlayırdı. Cavad yaxınlığında böyük bir şəhərin salınması nəzərdə tutulurdu. Lakin, bu dəfə də Rusiya Azərbaycanda möhkəmlənə bilmədi. 1796-cı ildə II Yekaterinanın vəfat etməsi Qafqazda siyasi vəziyyətə təsir göstərdi. Taxta çıxan I Pavel 1797-ci ildə Azərbaycandan və Dağıstandan rus qoşununu geri çıxardı

XIX yuzilliyin əvvəllərində Qarabağ xanlığının daxili vəziyyəti yaxşı deyildi. Ağa Məhəmməd şahın çoxlu dağıntılara səbəb olmuş hücumlarından sonra əhali var-yoxdan çıxmış, məhsul qıtlığı yaranmışdı Xanlığın müdafiə qüdrəti isə xeyli zəifləmişdi. Bəzi başqa səbəblər və yerli xristianların bir hissəsinin Rusiyaya meylli olmaları da çar hökumətini zəif düşmüş Qarabağı tezliklə ələ keçirməyə şirnikləndirirdi.

Rusiya ilə İran üçün Qarabağın strateji mövqeyinin böyük əhəmiyyəti var idi. O zamankı İran sərkərdələrinin, o cümlədən şahın özünün rəyinə görə alınmaz qala olan Şuşa iranlılar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab olunurdu. Burada Qarabağ xanlığının rəyi demək olar ki, hesaba alınmırdı və ona bu işdə yalnız yardımçı qüvvə kimi baxılırdı.

Qarabağ xanlığının Rusiya himayəsinə keçməsini tələb edən məktublarına lazımi cavab almayan Sisianov bu xanlığı iqtisadi cəhətdən cəzalandırmaq üçün mayor Lisaneviçi ora göndərir. Lakin qarabağlıların mal-qara və at ilxılarını apara bilməyən Lisaneviç 250 xristian ailəsini Cəncəyə köçürür. Buna cavab olaraq qarabağlılar da Gəncədən at ilxılarını aparmağa başlayır və buna mane olmaq üçün göndərilən dəstədən 23 kazakı öldürürlər. Qarabağ tarixindən yazan Mir Mehdi Xəzani bü hadisədən İbrahim xanın xəbəri olmadığını, bunun bir para quldurların işi olduğunu qeyd edir.

Ağa Məhəmməd şahın Azərbaycana yeni hücumu. Rus

qoşununun Azərbaycandan getməsindən istifadə edən Ağa Məhəmməd şah 1797-ci ilin yazında böyük bir ordu ilə Arazı keçdi və Şuşaya yaxınlaşdı. İbrahim xan müqavimət göstərmək əzmində idi. O, öz dəstəsi ilə düşmən topxanasına hücum edib geri dönərkən qala qapısını bağlı gördü. Qalada ona xəyanət etmişdilər. Odur ki, İbrahim xan Car-Balakəndə-avar hakimi Ümmə xanın yanına qaçmalı oldu. İbrahimxəlil xan Şuşanı tərk edib Dağıstana getdikdən sonra Ağa Məhəmməd şah şuşalılara məktub göndərərək tabe olmalarını təklif etdi. Uzun sürən mübahisədən sonra Qarabağ ruhanilərinin başçısı, baş müctəhid Hacı Babək şahın düşərgəsinə getdi. Şah bildirdi ki onun gəlişi münasibətilə şuşalılar 500.000 əşrəfi 31. (31. əşrəfi-pul) təzminat toplamalıdırlar. Hacı Babək isə onu 200.000 əşrəfiyə endirə bildi.

Ağa Məhəmməd şah Şuşanı tutduqdan sonra, şəhərin şərqində İbrahimxəlil xanın böyük oğlu Məhəmməd xanın evində yerləşdi. O, İbrahimxəlil xanın əsiri və düşməni olan Məhəmməd bəyi Şuşanın xanı təyin etdi.

Ağa Məhəmməd şah Qacarın Qarabağı tutması Şimali Azərbaycanda siyasi vəziyyəti dəyişdi. Şahın tərəfdarları baş qaldıraraq hakim qüvvəyə çevrildilər. Rus qoşunu ilə əlaqə saxlayan, onlara xidmət edən xanlar təqib olundular. Gəncəli Cavad xan xanlıqda baş vermiş daxili hadisələrə başı qarışdığından şaha müqavimət göstərə bilmədi. Öz keçmiş xidmətlərinə ümid bəsləyən Cavad xan və Bakı xanı Hüseynqulu xan şahın tələbi ilə Şuşaya çağrılıb nəzarət altına alındılar. Şamaxı xanı Mustafa xan, Şəki xanı Səlim xan qasid vasitəsilə öz itaətlərini bildirdilər. Qubalı Şeyxəli xan isə Ağa Məhəmməd şahın hüzurunda idi. Çünki şah Bakı xanlığını da onun idarəsinə verməyi vəd etmişdi.

İran qoşunu isə öz növbəsində şəhərə daxil olduqdan sonra, əhaliyə divan tutur, qarət edirdi. Yüzlərlə adam zindana salındı. Vaqif də onların içərisində idi. Onu edam gözləyirdi.

Tezliklə, 1797-ci il iyulun 4-də Ağa Məhəmməd şaha





İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəyin təşəbbüsü ilə onun yaxın adamları - Səfərəli bəy və Abbas bəy tərəfindən qəsd edildi. Şahın qətlindən sonra Bakı, Gəncə xanları öz şəhərlərinə qayıtdılar.

İran qoşunu tələsik cənuba çəkildi. Bundan istifadə edən Qarabağ xanının qohumu Məhəmməd bəy Cavanşir xanlıqda hakimiyyətini möhkəmləndirdi. Onun əmrilə 1797-ci ilin yazında Vaqif öldürüldü. Lakin İbrahim xan Şuşaya qayıtdıqdan sonra Məhəmməd bəy Cavanşiri xəyanətdə təqsirləndirib həbs etdi və onu qan düşməni olan Şamaxılı Mustafa xana təhvil verdi. O, isə Məhəmməd bəyi edam etdi.

İbrahim xanın getdikcə Rusiya sərdarı ilə yaxınlaşdığını və onun yanına elçilər göndərdiyini eşidən Fətəli şah bu işlərə mane olmaq üçün Əbülfət xanı (İbrahim xanın oğlu) 1805-ci ilin yanvarında 5 min nəfərlik qoşunla Qarabağa göndərdi. Şahın bu hərəkətlərindən inciyən İbrahim xan həmin qoşunları məğlub edərək, Arazın o tayına qovmağa müvəffəq oldu.

Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının Qarabağa gözlənilən hücumu da İbrahim xanı narahat etməyə başlamışdı. Öz siyasətini əsasən İran qoşunlarının yaxına buraxılmaması üzərində quran Qarabağ xanı yaxınlaşan Rusiya təhlükəsi qarşısında da İranın köməyindən istifadə etməyi lazım bilməyib, sərdar Sisianova müraciət etməyi qərara aldı. Həmin müraciət Sisianovun Çartoriyskiyə məktubunda belə açıqlanır: «İran qoşunlarının hərəkətindən qorxan İbrahim xan öz nümayəndəsini yanımıza göndərərək bizə itaət edəcəyini bildirir. Mənə elə gəlir ki, onu qorxu buna vadar etmişdir.»

İran tarixçisi Nasir Nəcmi Ağa Məhəmməd şahin ölümündən sonra İbrahim xanın müstəqil siyasət yürütdüyünü və İranla hesablaşmaq istəmədiniyi xüsusi vurğulayır. Ümumiyyətlə, bu dövrdə Azərbaycan xanlarının yeritdiyi siyasət barədə görkəmli tarixçimiz Mahmud İsmayılovun fikirləri

reallığı olduqca dəqiq əks etdirir. O yazır: «Beynəlxalq şəraitin gərginləşdiyi bir dövrdə qonşu xanlıqların ərazisini tutmaqla ölkəni həmin xanlıq ətrafnda birləşdirmək cəhdlərinin baş tutmadığını görən xanlar, öz hakimiyyətlərini saxlamaq naminə xarici dövlətlərin nümayənədəsinə meyl göstərir, hərbi-siyasi vəziyyət və qüvvələr nisbəti dəyişdikcə bu meyl də dəyişir».

Şah qoşunlarını məğlub edən İbrahim xanın hərəkətləri rus sərdarını razı salırdı. O, Qarabağ xanlığının Rusiya himayəsinə qəbul olunması haqqında müqavilənin şərtləri ilə İbrahim xanı tanış etmək və həmin müqavilənin imzalanması üçün xanın Gəncəyə gəlişini təşkil etmək məqsədilə Lisaneviçi xüsusi təlimatla Şüşaya göndərir.

Vəziyyətin getdikcə gərginləşdiyini dərk edən Fətəli şah Kərim xanı və Abdulla xanı İbrahim xanın yanına göndərib yazmışdı: «Allah rizasına, namusi-islamı mənzur edib, hər nə təvəqqeyi var, məndən etsin, yerinə yetirim. Urus padşahına itaət etməsin. Şuşa qalası ki, toxunulmazdır və qəleyi-Xudafərin İranın giriş qapısıdır. Urus dövlətinə verib qoşunlarını daxili şəhər qalası etməsin». Lakin İbrahim xandan qaneedici cavab almayan şah, Rəhim xan da daxil olmaqla həmin nümayəndələrini yenidən aşağıdakı təkliflərlə İbrahim xanın yanına göndərir: Rusiya qoşununun qarşısını almaq üçün Əsgəran qalaları möhkəmləndirilməli, Şuşanın üç verstliyindən səngərlər qurulmalı. Şahbulaqda 2-9 min atlı dayanmalı idi. Bu məntəqələr «qızılbaş qoşununun» ixtiyarına verilməli, hamı İbrahim xanın əmrinə tabe olmalı idi. Bütün xərclərin şahın xəzinəsindən ödənilməsinə təminat verilirdi.

Lakin İbrahim xan Sisianovun arzusuna uyğun olaraq bu nümayəndələri dustaq etdi və sərdara öz sədaqətini nümayiş etdirdi.

1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, «erməni kartını» işə salmış və azərbaycanlıların tarixi torpaqla-





rında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılması barədə göstəriş vermişdi.

Rus imperiyasının isti (ılıq) dənizlərə çıxmaq bəhanəsinin təməli Birinci Pyotr tərəfindən qoyulmuşdur – desək, səhv etmərik. Azərbaycanın mühüm strateji bölgədə yerləşməsi bir sıra Avropa qəsbkarlarını, eləcə də rusları torpaqlarımıza cəlb etmişdir. Dərbəndi «qapılar qapısı» (Bab-əl Əbvab) adlandıran ərəblərin zorla zəbt etdikləri bu şəhərə rusların ilk həmləsi müsəlmanların güclü müqaviməti ilə rastlaşdığından, hiylə və kələyə əl atırlar. Dəli Petronun «Basurmanları (müsəlmanları) tamam, sakitcə, sesilmədən, özləri hiss etmədən, mümkün olduğu qədər qəhr etmək, azaltmaq lazımdır» - kəlamı buna əyani sübutdur. Rusların irticaçı xislətini N.Gəncəvinin «İskəndərnamə» əsərində də oxuyuruq. İslam Sadığın yazdığına görə, I Pyotrun gələcək nəsillərə «düzgün yol» göstərmək məqsədilə 1725-ci ildə yazdığı, lakin 1738-ci ildə elan olunan «Vəsiyyətnamə»si 1916-cı ildə Azərbaycanda, «Dirilik» jurnalında tərcümə edilərək nəşd olunmuşdur. Həmin əsər Dəli Petronun imperiyapərəst qüvvələrinin amalına işıq salır. Necə deyərlər, «görünən kəndə bələdçi» həqiqətən lazım deyilmiş. Dəyərli oxucularımıza həmin vəsiyyəti təqdim etməklə, çözülməsini öz öhdələrinə buraxırıq.

## 2.1. I Pyotrun rus xalqına «vəsiyyətnaməsi» və onun əsas mahiyyəti

«...Bütün övladlarım bir-birindən sonra Avropa ölkələrində hökmran olacaqdır. Çünki Avropanın bütün dövlət quruluşu köhnəlmiş və qocalmışdır. Lakin rus səltənəti inkişaf edir. Biz bu inkişafı ağılla tapmışıq. Mən aşağıdakı «Vəsiyyətnamə»mi vəsiyyət şəklində yazıram ki, gələcək nəsillərimizin əlində təlimat olsun:

1. Rus dövləti həmişə müharibə müvazinəti hazırlamalı və çalışmalıdır ki, bu hazırlıq Rusiyanın tərəqqisinə səbəb

olsun.

2. Mümkün qədər Avropa dövlətlərindən müharibə vaxtında hərbi sərkərdələri, sülh zamanı isə elm adamlarını Rusiyaya cəlb etməli.

3. Avropa dövlətləri arasında fitnə-fəsad törətmək, ziddiyyət salmaq və bu işdə onların biri ilə əlbir olmaq lazımdır. Xüsusilə, alman xalqı arasındakı ixtişaşlarda fəal mövqe tutmağa çalışmalı, çünki onlar bizimlə həmsərhəd və bitişikdir.

4. Polşada ixtisas və qarışıqlıq salmalı, onların əyanlarına xəsislik etmədən rüşvət verib, dəyanətini pozmalı, dövlət işlərinə zərbə vurmalı, Moskvadan ərzaq gətirib orada yerləşdirməli. Əgər başqa dövlətlər bizim bu tədbirlərimizə etiraz edərlərsə, Polşadan bir parça kəsib onlara sükut payı verməli, iş tamam olandan sonra isə o parçanı geri almalı, rus soldatını möhkəmləndirməli.

5. Mümkün qədər İsveç, Norveç ölkələrindən bir istinad məntəqəsi əldə etməli; Danimarka, İsveç, Norveçə düşmənçilik toxumu səpin.

6. Rusiya şahzadələri həmişə Almaniya əsilzadələrindən, nüfuzlu adamlardan, valilərdən, rütbə sahiblərindən qız almağı unutmamalıdır. Belə qohumluq bizə həmişə fayda verər.

7. İngilis hökumətiilə ittifaqda olub, əlaqəni möhkəmlədin. Çünki ticarət işində və dövlətin idarə edilməsində bu fayda verir. Gəmi qayırmağa gərək olan bütün ləvazımat onlardan alınacaqdır. Bu əlaqə həm silah, həm də gəmiçilik üçün faydalıdır.

8. Rusiya dövlətinin hüququ Avropadan şimala-Baltik dənizinə, cənubdan isə-Qara dənizə qədər olmalıdır. Bunu mühafizə etmək və rus sərhəddini genişləndirmək övladlarımızın vəzifəsidir.

9. Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İstanbul olsun. Tez və yerli-yerində çalışıb İstanbulun





qərb torpaqlarına sahib olmaq lazımdır. Əlbəttə, İstanbula sahib olan şah dünyada ilahi şah olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə İran arasında fitnə-fəsad törətmək, dava-dalaş yaratmaq lazımdır. Bu işdə sünni və şiyə məzhəbləri arasındakı ixtilaflar böyük, kəskin silah və basılmaz ordudur. Rusiyanın nüfuzunu Asiyada qaldırmaq üçün sünni-şiyə ixtilafları yaxşı bir vasitədir. Türkiyə və İran dövlətləri arasındakı müvazinəti fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Həm İran, həm də Türkiyəyə Avropa xalqları ilə təmas tapmağa imkan verməmək. Əgər bü ölkələrin müsəlmanları göz açıb hüquqlarını qansalar, o bizə böyük zərbə olar. Həm Türkiyə, həm də İranın din xadimlərini ələ almaq və onlar vasitəsi ilə sünni-şiyə ixtilflarını qızışdırmaq lazımdır. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq zəruridir».

## Məxfi qalsın

Bizim üləmalarımızın bu günə qədər dövlət işinə müdaxilə etməsi Rusiya dövlətinin tərəqqisinə mane olmuşdur. Mən öz səlahiyyət istiqlalımı izhar edərək onları dövlət işindən ayırdım, ruhanilərin dövlət işinə müdaxilə etməsini rədd etdim. İndi onlar adi bir dərəcədə qalmışlar və əl-qol aça bilmirlər. Mən bunu çox böyük zəhmət bahasına etdim. Ruhanilərin dövlət və millət işlərindən əllərini qısaldıb, onları kilsələrdə məhdudlaşdırdım. Bundan əlavə, cürbəcür tədbirlər etmək lazımdır ki, İran ölkəsi günü - gündən pulsuz, ticarətsiz qalsın. Xülasə, İranı həmişə tənəzzülə sövq etməli, tabe halda saxlamaq lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu zəhmətsiz öldürməyə qadir olsun, amma Türkiyə dövləti məhv olmadan İranın canını almağımız məsləhət deyildir.

Gürcüstan ölkəsi Qafqaz xəttinin, yəni İranın şah damarıdır. Rusiyanın təsəllüt neştəri həmin damara yetişərsə filfor ürəyinin zəif qanı açılacaq və onu elə bihal edəcəkdir

ki, min Əflatun dirilib gəlsə də onu islah eləyib sağalda bilməz. O vaxt İran ölkəsi Rusiya padşahlarına dəvə kimi müti olacaqdır və Türkiyənin axırıncı şöləsi sönəcəkdir. Maddi ehtiyaclar zonası olan Türkiyənin işini qurtardıqdan sonra İranı çətinlik çəkmədən məhv etmək və başını kəsmək mümkün olar. Ona görə də, siz gərək vaxtı fövt vermədən Gürcüstanı və Qafqazı zəbt və işğal edib, İranın daxili hakimlərini özümüzə xadim və müti edəsiniz.

Avstriya dövləti ilə zahirdə dost olmalı; elə bir tədbir görmək lazımdır ki, Almaniya və Avstriya get-gedə əldən düşsünlər.

Türkiyəni Avropadan ayırmalı, bu şərtlə ki, Avstriya bu yoldaşlıqdan (bizimlə olan yoldaşlıqdan) fayda hasil edə bilməsin. Bu işdə iki yol var: biri Avstriyanı başqa bir tərəfdə məşğul etmək, biri də Avstriyaya Türkiyə torpaqlarından elə bir parça verməli ki, onun geri alınması asan olsun.

10.Yunanlarla sülh və dostluqla rəftar etməli. Müharibə zamanı onlar sizə imdad edərlər (çünki, yunanlar həmişə Türkiyədən zərər görmüşlər).

11.İsveç, Norveç, Türkiyə və İranı, Polşanı istila etdikdən sonra İtaliya və Fransa ilə müttəfiq olub, əlaqəyə girin. Əgər onlardan heç birisi dostluğunuzu qəbul etməzsə, onda bir vasitə ilə o yer və əyaətləri məhv ediniz. Bu yerləri ələ keçirdikdən sonra dünya hökmranı olarsınız.

12.Əgər yuxarıda qeyd olunan ölkələrdən biri müharibəni qəbul etməzsə, elə bir tədbir görmək ki, bu iki hökumətin (Fransa və İtaliya) arasında fitnə-fəsad vaqe olsun. Bu vəchlə get-gedə onlardan biri aradan götürülüb bərbad olar. Qalmış hökumətləri tarac edib, zəhmət çəkmədən bütün Avropa üzərində hökmranlıq edərsiniz. İşin axırında sair ölkələrin hamısını öz məmləkətinizə ilhaq edib, bütün dünyaya sahib olarsınız.» («Vəsiyyətnamə» ilk dəfə 1916-cı ildə «Dirilik» dərgisində çap olunmuşdur).

Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətini təşkil etdi.





Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsus hamiliyi barədə fərman verdi. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərdi: «Ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır». Bu Azərbaycan torpaqlarının işğalına başlandığı dövr idi.

I Pyotrun da Şimal müharibəsindən (1700-1721) sonra Xəzərin qərb sahillərində Quzey Azərbaycanın bir sıra bölgələrini ələ keçirməsi tezliklə Nadir şah Əfşarın əli ilə puça çıxarılsa da 1796-1797-ci illərdə rusların növbəti dəfə Azərbaycana yiyələnmək aktı bir nəticə verməsə də, Rusiya bu niyyətlərindən əl səkmək fikrində deyildi.

## 2..2. I-II Rusiya – İran mübaribələri (1804-1813, 1826-1828) Kürəkçay (1805), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrin imzalanması və onların nəticələri

Birinci Rusiya – İran müharibəsi. Qarabağ və Şəki xanlıqlarının tabe edilməsi. Rus qoşunlarının Qafqazda hərbi nailiyyətləri Türkiyə və İranla yanaşı, İngiltərə və Fransanı da narahat edirdi. Avropalılar rus qoşunlarını Qafqazdan Türkiyə və İranın vasitəsilə çıxarmaq məqsədilə onlara hərbi yardım göstərərək, Rusiyaya qarşı müharibəyə təhrik edirdilər. İngiltərənin təhriki ilə İran Rusiyaya öz qoşunlarını Qafqazdan çıxarmaq tələbini irəli sürüb, lakin rədd cavabı aldıqdan sonra 1804-cü ilin iyununda ona müharibə elan etdi. İran öz qoşunlarını əsasən indiki Ermənistanın şərqində cəmləşdirmişdi. Buna görə də general Sisianov öz qoşunlarını həmin istiqamətə aparıb İrəvan qalasını ələ keçirməyi qətiləşdirdi. Lakin çoxsaylı İran qoşunları ilə toqquşmada qələbə qazanmayan Sisianov geri çəkilməyə məc-

bur olmuş, İran qoşunları isə itkiyə məruz qaldıqlarından hücuma keçə bilməmişdi.

1805-ci ilin yazında Gəncə yaxınlığında düşərgə salmış Sisianov İbrahimxəlil xandan, onun öz xarici siyasətində kimə arxalanması haqqında mövqeyini müəyyənləşdirməyi tələb etdi. Beləliklə, İbrahimxəlil xan Rusiyanı seçməyə məcbur edildi. 1805-ci ilin mayın 14-də Gəncə yaxınlığındakı Kürəkçay adlı yerdə Sisianovla İbrahimxəlil xan arasında andlı öhdəlik imzalandı. Bu müqaviləyə görə, Qarabağ xanı Rusiya çarının vassalı olur, xarici dövlətlərlə müstəqil münasibətlər saxlamaq hüququndan Rusiya çarının xeyrinə imtina edir, çar xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürürdü. Şuşa qalasında və xanlıq ərazisində rus qoşunlarının yerləşdirilməsinə şərait yaradılmalı, İbrahimxəlil xan isə öz nəvəsini baş komandanın qərargahında girov saxlamaq üçün Tiflisə göndərməli idi.

Çar qoşunlarının general-leytenantı hərbi rütbəsini alan xan, birbaşa çar baş komandanına tabe edilirdi. Bununla yanaşı, çar hökuməti xanın və onun qanuni varislərinin xanlığı daxili idarə etmək hüquqlarına heç vaxt toxunmayacağını öhdəsinə götürürdü.

Yeznəsi İbrahimxəlil xandan bir həftə sonra Şəki xanı Səlim xan da Sisianovun iqamətgahına gəlmiş və 1805-ci il mayın 21-də Şəki xanlığı da Rusiyanın hakimiyyəti altına keçmək barədə müqaviləni imzalamışdı. Bu müqavilənin də şərtləri Qarabağ xanlığı ilə bağlanan müqavilənin şərtləri ilə demək olar ki, eyni idi.

1806-cı ilin iyununda Şuşa qalasında çar zabiti Lisaneviçin əmri ilə Səlim xanın bacısı və onun əri İbrahimxəlil xan, bütün ailəsi ilə birlikdə vəhşicəsinə qətlə yetiriləndən sonra o, Rusiya himayəsindən imtina etmiş və Şəkidəki rus qarnizonunu Gəncəyə qovmuşdu. Bu hadisədən sonra İran şahzadəsi Abbas Mirzə Şəkiyə kömək məqsədilə 300 sərbaz, Səlim xana isə ləzgilərdən ibarət muzdlu qoşun yığmaq üçün 30000 çervon pul göndərmişdi. Sisianov 1806-cı il sentyabrın 9-da general Bulqakova yazırdı ki, «Kür boyu irəliləyərək xəyanət etmiş Şəki xanını cəzalandırmağa gedir. Bu işdə Şamaxı xanı Mustafa xan da ona kömək etməli və bu «xeyirxahlığın» müqabilində Şəki xanlığının bir hissəsi ona verilməli idi. Səlim xan nəyin bahasına olursa-olsun öz hakimiyyətini saxlamağa çalışırdı. Lakin artıq çarizm Səlim xanı kənar etməyi qətiləşdirmişdi; general Neboleinin başçılığı altındakı rus qoşunu Şəkiyə istiqamət götürmüşdü.





1806-cı il oktyabrın 22-də Şəki yaxınlığında baş vermiş döyüşdə Səlim xan basıldı və ailəsi ilə birlikdə öz xanlığının ərazisində olan Göldək kəndinə qaçdı. Nəsli isə xan olmaq hüququndan məhrum edildi. Hər şeyin əldən çıxdığını görən Səlim xan Abbas Mirzənin düşərgəsinə pənah aparmışdı. Çar hökuməti İran şahından üz döndərib Rusiyaya köçən Cəfərqulu xanı Şəkiyə hakim təyin etsə də şəkililər sakitləşməmişdi. Aşağı və Yuxarı Göynük kəndlərinin əhalisi üsyan etmiş, Cəfərqulu xana tabe olmayacaqlarını bildirmişdi. Hakimiyyət orqanları 40 nəfər üsyançını tutub edam edəndən sonra kəndlərdə narazılıq daha da artmışdı. Xalqın bu cür silahlı çıxışları çarizmin müstəmləkə siyasətinə qarşı etiraz əlaməti idi.

1807-ci ilin sonlarında Cəfərqulu xana qarşı müvəffəqiyyətsiz sui-qəsddən sonra çar hökuməti əhalini qorxutmaq üçün Şəkiyə əlavə bir batalyon göndərmişdi. Beləliklə, silah gücünə Şəkidə çar idarə üsulu bərqərar edildi.

Şirvan, Bakı və Quba xanlıqlarının işğalı. Qarabağ və Şəki xanlıqlarının Rusiya tərəfindən işğalından bir ay sonra İran qoşunları Qarabağa hücum etsə də, əvvəl burada, daha sonra isə Gəncədə müvəffəqiyyətsizliyə uğrayıb Tiflisə üz tutmuşdular. Yolüstü İrana tabe olmaq təklifini rədd etmiş Qazax camaatını ram etmək fikrinə düşsələr də, onlar tərəfindən ciddi müqavimətə rast gəlib geriyə qaçmağa məcbur olmuşdular. Bir İran tarixçisi yazır ki, «Qazax əhalisi İrəvana doğru gedən farslara müqavimət göstərdi. Qazaxlılar İrəvan düzünə qədər olan 18 fərsəxlik (hər fərsəx 6 km-ə bəra-

bərdir – ped.) məsafənin hər fərsəxində İran qoşunlarına tə-lə düzəldirdilər. Onlar o qədər həyasızlaşdılar ki, şahzadəyə (Abbas Mirzəyə – ped) silahdan atəş açdılar».

General Sisianov Rusiya-İran müharibəsində rus qo-şunları tərəfində iştirak etmək üçün yerli tayfalardan süvari dəstələri təşkil edirdi. Bu dəstələrə əsasən feodallar, onların nökərləri və maaflar daxil idi.

İranla müharibə aparmaqla eyni vaxtda çar qoşunları Azərbaycanın digər xanılqlarını da özünə tabe etmək üçün ölkənin içərilərinə doğru irəliləyirdi. General Sisianov Şa-maxı, Bakı və Quba xanlıqlarını tezliklə ələ keçirmək fikrin-də idi. «Qarabağnamə» müəllifi yazır ki, «Sisianovun indi qarşıda duran başlıca məqsədi (Kaspi və Qara) dənizlər ara-sındakı yerləri ələ keçirməkdən ibarət idi. Sisianovun qo-şunları Şamaxı üzərinə yeridi. Hələ 1804-cü ildə və 1805-ci ilin yazında Şirvanın Rusiyanın hakimiyyəti altına keçməsi barədə Sisianovla Şamaxı xanı Mustafa xan arasında danı-şıqlar olmuşdu. Sisianov Mustafa xandan Qarabağ və Şəki xanlıqlarının qəbul etdikləri şərtləri eynilə qəbul etməsini tələb edirdi. Lakin Mustafa xan gəlirinin bir hissəsinin Ru-siya xəzinəsinə verilməsi tələbindən əl çəkməyi və Şəki tor-paqlarının Şirvana qatılmasında ona köməklik göstərməyi Sisianovdan tələb edirdi. Şamaxı xanı eyni zamanda Cavad rayonunun Qarabağ xanının xeyrinə ondan ayrılmağını və Qarabağdan onun torpaqlarına keçənlərin geri qaytarılma-yacağı haqqında təminat verilməsini də ondan tələb edirdi. Bundan əlavə, ildə Rusiya xəzinəsinə xərac verməkdən bo-yun qaçırmaqla bərabər, hətta ona daimi maaş təyin etməyi xahiş etmişdi. Lakin xanın bu tələbləri çar hökumətini tə-min etmirdi. Ona görə də, 1805-ci ilin noyabrında Sisiano-vun qoşun dəstəsi indiki Mingəçevir yaxınlığında Kürü ke-çib Şamaxı üzərinə hərəkət etdi. Mustafa xan Sisianovun şərtlərini qəbul etməyə məcbur oldu. Lakin o, Şamaxı xanlı-ğının Rusiyanın hakimiyyəti altına keçməsi barədə müqavi-ləyə qol çəkmək üçün Sisianovun düşərgəsinə getmədi. Belə





olduqda, Sisianov qoşunlarını Şirvan xanlığı rayonunda cəmləşdirməyə başladı. Mustafa xan öz növbəsində Fitdağ-dakı qalada gizlənərək hücumu dəf etməyə hazırlaşdı. De-kabrın ortalarında rus qoşunu ilə Şirvan qoşunu arasında ciddi hərbi əməliyyat olmasına baxmayaraq, Mustafa xan Rusiyanın hakimiyyəti altına keçməsinə razılıq verdi. Şəxsi təhlükəsizliyini nəzərə alan xan, müqaviləni Sisianovun düşərgəsində deyil, Fitdağ yaxınlığındakı çöldə imzalamağa razı oldu. Bu müqaviləyə görə, Şamaxı xanı başqa dövlətlər-lə əlaqələrini kəsməyi, öz gəlirindən Rusiya xəzinəsinə 8 min çervon ayırmağı, Kür çayının mənsəbində ruslar üçün isteh-kam tikilməsinə şərait yaratmağı, rus qoşununu ərzaqla təc-hiz etməyi, yolların təhlükəsizliyinə təminat yaratmağı öz öhdəsinə götürürdü. Beləliklə, 1805-ci il dekabrın 25-də Şir-van xanlığı da Rusiyanın tərkibinə qatıldı. Şimali Azər-baycan xanlıqları içərisində ən böyük və zəngin xanlıqlar-dan biri olan Şirvan xanlığının Rusiya tərəfindən işğalının Rusiya üçün böyük siyasi-iqtisadi və hərbi strateji əhə-miyyəti var idi.

Sisianov Şirvan xanlığını tutduqdan sonra Bakıya doğ-ru hərəkət etdi. O öz qoşununu general-mayor Zavalşinin desant dəstəsi ilə birləşdirərək, 1806-cı ilin yanvarında Ba-kıya yaxınlaşdı və Rusiyanın hakimiyyəti altına keçmək ha-qqında müqavilə layihəsini Hüseynqulu xana göndərdi. Hü-seynqulu xan Sisianovun şərtlərini qəbul etdiyini, lakin Bakı qalası darvazalarının açarlarını ona vermək, həmçinin «bir neçə məxfi söz demək istədiyini» bildirdi.

Söhbətin səmimi qurtaracağını güman edən Sisianov or-dunu kənarda saxlayıb, podpolkovnik E.Eristavinin müşa-yiəti ilə xanın görüşünə getmişdi. 1806-cı il fevralın 8-də Ba-kı qalası davazasının qarşısında açarları təhvil verərkən Hü-seynqulu xanın əmisi oğlu İbrahim bəy güllə ilə Sisianovu vurdu, gecə isə başını kəsib Təbrizə, Abbas Mirzəyə apardı. Bu xidməti müqabilində şah ona «xan» titulu verdi və İran qoşun dəstəsinin komandanı təyin etdi. Sisianovun qətlin-

dən sonra general Zavalşin rus qoşununu Bakıdan geri çəkib Sara adasında yerləşdirmişdi.

Həmin il iyunun 22-də Dərbənd işğal edilmiş və Rusiyaya rəğbəti olan Əlipənah bəyə mayor rütbəsi verilib, şəhərin idarəsi ona tapşırılmışdı.

1806-cı il sentyabrın 5-də general Bulqakovun komandanlığı ilə rus qoşunu yenidən Bakıya yürüşə başlamışdı və əhalidən təslim olmağı tələb etmişdi. O, yerli əhaliyə toxunmayacağını bildirmiş və sözünə təminat məqsədilə oğlunu Bakıya göndərmişdi. Lakin şəhər əhalisi onun sözlərinə inanmayıb dağlara çəkilmiş, xan isə əvvəl Qubaya, oradan da İrana qaçmışdı. Beləliklə, 1806-cı il oktyabrın 3-də Bakı işğal olunmuşdu. Bakı xanlığı isə ləğv edilmişdi. Bundan bir qədər sonra Quba xanlığı da döyüşsüz təslim olmuş, Şeyxəli xan dağlara qaçmışdı.

Bakı və Quba xanlıqlarının işğalından sonra rus qoşunu Şəkidəki üsyanı yatırmağa göndərildi. Oktyabrın 22-də Səlim xanın silahlı qüvvələri məğlub edildi, xan özü isə İrana pənah apardı. Bunun ardınca ruslar üsyan etmiş Car-Balakən camaatının üzərinə hücuma keçdilər. Car-Balakənlilərin köməyinə gəlmiş avar xanını və Dağıstan feodallarının süvarilərini də mühasirəyə alıb, onları təslim etdilər.

Azərbaycanın şimal xanlıqlarındakı üsyanları yatırdıqdan sonra rus qoşununun baş komandanı general Qudoviç bəzi yerli feodal hökmdarları dəyişdi. Məsələn, Dərbənd və Quba xanlıqları müvəqqəti olaraq Tarku şamxalına verildi, bir müddət sonra isə bunlar imperiyanın əyalətlərinə çevrildi. İbrahimxəlil xanın oğlu Mehdiqulu xan isə Qarabağ xanı təyin oundu. Talış xanlığının da istila edilməsinə baxmayaraq, çox keçmədi ki, həmin ərazi İran qoşunları tərəfindən işğal olundu.

Gülüstan müqaviləsi. 1806-cı ilin sonlarında Türkiyə Rusiya əleyhinə müharibəyə başladı. Hərbi əməliyyatlar Balakan yarımadasında və Qafqazda gedirdi. 1810-11-ci illərdə Rusiya Balkan və Qafqaz hərbi əməliyyat meydanlarında





qələbələr qazanaraq sultanı 1812-ci il mayın 16-da Buxarestdə Rusiya ilə müqavilə imzalamağa məcbur etdi. Həmin müqaviləyə əsasən Türkiyə Qafqazın böyük hissəsinin Rusiya tərəfindən işğal edilməsi faktını təsdiqləməli oldu.

1812-ci ilin yayında rus xalqı Napoleon ordusuna qarşı Vətən müharibəsinə qalxdı. Napoleon yalnız fransız qoşunlarını deyil, ona tabe olan bir sıra dövlətlərin hərbi qüvvələrini də Rusiya üzərinə yeritmişdi. Rusiya-Fransa müharibəsindən istifadə edən İran ordusu Qafqazda fəal hərbi əməliyyatlara başlayaraq, 1812-ci ilin iyununda Xudafərindən keçib Qarabağa soxulmuş və Şahbulağı tutmuşdu. Lakin P.Kotlyarevskinin qoşunu Abbas Mirzənin 20 minlik qoşununu geri çəkilməyə məcbur etmişdi. Həmin ilin iyulunda 2 minlik İran süvarisi Gəncəyə basqın etsə də, yeri əhali tərəfindən məğlubiyyətə uğramışdı. Bunun ardınca 4 minlik İran qoşunu Şəki xanlığına soxulmuş, lakin oktyabrın 19-dan 20-nə keçən gecə general P.Kotlyarevski 2 minlik ordu ilə Aslandüz təpəsində Abbas Mirzənin böyük ordusuna hücum edib qələbə qazanmışdı. Bu döyüşdə İran qoşunundan ölənlərin və yaralananların sayı 120 nəfər idi; 16 nəfər zabit əsir alınmışdı. Rus ordusundan da xeyli ölən və yaralanan var idi.

1813-cü il yanvarın 1-də Lənkəran qalası ruslar tərəfindən alındı.

Rusların bölgədəki hərbi-siyasi müvəffəqiyyətlərindən və İranın içərilərinə doğru irəliləməsindən qorxuya düşən ingilis məsləhətçiləri şahı sülh bağlamağa təhrik etdilər. Beləliklə, birinci Rusiya-İran müharibəsi İranın tam məğlubiyyəti ilə qurtardı.

1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Bu müqaviləni İran tərəfindən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazi, Rusiya tərəfindən isə Qafqazın yeni baş komandanı Ratişev imzaladılar. Gülüstan sülhünün şərtlərinə görə Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyası tərkibinə

qatıldı. Beləliklə, vahid Azərbaycan iki yerə bölündü. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Lakin İrəvan və Naxçıvan xanlıqları hələlik şahın hakimiyyəti altında qalırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi. Bu maddə Rusiya-İran ticarəti üçün əlverişli şərait yaradır, rus tacirlərini daxili gömrük vergisindən azad edirdi.

Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu.

### Azərbaycanın iki hissəyə parçalanması

İkinci Rusiya-İran müharibəsi. Türkmənçay müqaviləsi. Qafqazın əldən verilməsi faktı ilə heç cür razılaşmayan İran Rusiya ilə yeni müharibəyə hazırlaşırdı. Bu işdə İngiltərə bütün vasitələrlə ona yardım edirdi. 1814-cü ildə bağladıqları müqaviləyə əsasən, İngiltərə hökuməti İrana ingildis hərbi müşavirləri göndərir, silahla təmin edir. Təbrizdə və başqa şəhərlərdə silah zavodlarının inşasına köməklik göstərirdi. Şah hökuməti bu tədbirlərdən sonra özünü dirçəlmiş hesab edib, Rusiya hökumətinə Gülüstan müqaviləsinin şərtlərinə yenidən baxmağı təklif etdi. Lakin danışıqlar nəticə vermədi. Bundan sonra İran Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün Türkiyə hökuməti ilə danışıqlara başlayaraq, Türkiyənin Rusiya ilə münasibətlərini kəskinləşdirmək üçün bütün vasitələrə əl atdı. Həmçinin, şah hökuməti öz xanlıqlarını itirdikdən sonra İrana pənah gətirmiş xanlardan da istifadə etmək, onların vasitəsilə Azərbaycan əhalisinin Rusiyaya qarşı qaldırmaq fikrində idi. (20a).

1826-cı ilin əvvəlində baş vermiş dekabristlər üsyanının Rusiyada daxili çəkişmələr yaradacağını, bununla da rus dövlətinin zəifləyəcəyini zənn edən şah müharibə hazırlığını daha da sürətləndirmiş və 1826-cı il iyulun 16-da 60 minlik ordusu ilə Azərbaycanın şimal torpaqlarına soxuldu. Həmişə olduğu kimi, bu dəfə də ilk hədəf Qarabağ, Şuşa qalası oldu. İran qoşunlarının bir-birinin ardınca edilən həmlələrinə, şəhərin top atəşinə tutulmasına baxmayaraq, Şuşanın müdafiəsi yarılmadı. Qala 48 gün mühasirədə qalsa da, təslim olmadı. İran qoşunları vəziyyətdən istifadə edib, Azərbaycanın digər torpaqlarına da hücuma keçmiş, Lənkəranı, Səlyanı işğal edərək, əhalinin xeyli hissəsini əsir aparmışdı. İran qoşunları ilə Azərbaycana gəlmiş qaçqın xanlar əhalinin köməyilə Gəncə, Şamaxı, Şəki və s. şəhərləri ələ keçirib öz xanlıqlarını bərpa etmiş, rus qoşun dəstələrini geri oturtmuşdular. Azərbaycan ərazisinə girmiş şah qoşunları əhaliyə amansız divan tutur, cavan kişiləri, qız-gəlinləri əsir aparırdılar. Bir müşahidəçi yazırdı: «Şirvan əyalətini tamamilə dağılmış gördüm. İran süvariləri dəhşətli qarətlər törətmişdilər...Bir çox kəndlər boşalmışdı».

Müharibə başlanandan bir neçə ay sonra Qafqazdakı Rusiya ordusu əlavə kömək aldıqdan sonra əks-hücuma keçib, 1826-cı il sentyabrın əvvəllərində Şamxor yaxınlığındakı döyüşdə İran qoşunlarını ağır məğlubiyyətə uğratmışdı. Beləliklə, Abbas Mirzə məcbur olub Şuşa qalasının mühasirəsindən əl çəkmiş və Gəncə istiqamətində hərəkətə başlamışdı. Gəncə yaxınlığında da ruslar üstünlük qazandılar. İran qoşunlarının məğlubiyyəti Azərbaycan torpaqlarının bəzi yerlərini ələ keçirmiş qaçqın xanların da müqəddəratını həll etdi. Gəncə əhalisi yenidən çar Rusiyasının əsarəti altına düşməmək üçün üsyan qaldırsa da, qüvvələr bərabər olmadığından rus qoşunları üsyanı boğmuş, əhaliyə amansız divan tutmuşdular. Yalnız Lənkəran xanlığı hələlik İran qoşunlarının tabeçiliyində idi. Çox keçmədi ki, rus qoşunları İrəvan və Naxçıvan xanlıqlarını da işğal edib, 1827-ci ilin sonlarında buradan Azərbaycanın cənub torpaqlarına hücuma keçdilər. Rus qoşunlarının köməyilə hakimiyyəti ələ keçirmək istəyən feodallar, həmçinin İran zülmündən cana gəlmiş əhalinin bir qismi, onların Xoy və Təbrizə yürüşünə təkan verirdilər. Rus qoşun dəstələrindən birinin başçısı ya-

zırdı: «Əhali hər yerdə...qoşunlarımızı düşmən kimi deyil, öz himayəçiləri kimi qəbul edərək, qarşılamağa çıxırdı». Rus qoşunları tezliklə Urmiya və Ərdəbili də tutdular. Vəziyyətin gərginləşdiyini hiss edən şah danışıqlar aparmaq fikrinə düşdü və 1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə müqavilə imzaladı. Türkmənçay danışıqlarında rus yazıçısı A.S.Qriboyedov və Azərbaycan maarifçisi A.A.Bakıxanov da iştirak etmişdilər. Müqaviləyə görə çar Rusiyasının qoşunları Azərbaycanın cənub torpaqlarından çıxarıldı. Yenicə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibinə qatılırdı. Şah isə bu müqavilə ilə şimal xanlıqlarının Rusiyanın tərkibinə qatılmasını təsdiq edirdi. Müqavilədə həmçinin Gülüstan müqaviləsi ilə rus tacirlərinə verilmiş imtiyazların, Xəzər dənizində yalnız rus hərbi donanmasının saxlanması hüququ da təsdiqlənirdi. Bunlar az imiş kimi, İran Rusiyaya 20 mln. manat təzminat verməli və təzminat ödənib qurtarana qədər zəbt edilmiş Azərbaycanın cənub vilayətləri Rusiyanın himayəsində qalmalı idi. Müqavilədə əhalinin İrandan Qafqaza və Qafqazdan İrana sərbəst keçməsinə icazə verilirdi.

Rusiya-İran müharibəsi qurtaran ərəfədə Rusiya-Türkiyə münasibətləri kəskinləşməyə başladı və 1828-ci ilin aprelində müharibəyə gətirib çıxardı. Qafqaz cəbhəsində rus qoşunlarının tərkibində dörd Azərbaycan süvari alayı iştirak edirdi. Bu alaylar əsasən, çara can-başla qulluq edib torpaq sahələri, vəzifələr almağa can atan bəylərdən, onların nökərlərindən və maaflardan təşkil edilmişdi. Müharibədə qənimətlər ələ keçirib varlanmaqla şirnikləndirilmiş bu alaylar bir sıra şəhərlərin alınmasında şücaət göstərmişdilər. Türkiyə hökuməti rusların ölkənin içərilərinə doğru yeriyəcəyindən ehtiyatlanıb müqavilə bağlamağa tələsdi. 1829-cu ildə Ədirnədə imzalanan müqavilə ilə Türkiyə Ön Qafqazın çar Rusiyası tərəfindən zəbt olunmasını təsdiqləməli oldu.

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən





zəbt edilməsilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirmiş və zorla iki hissəyə bölünmək kimi tarixi ədalətsizliyə düçar olmuşdur. Beləliklə, Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazası, tacirlərin satış bazarına çevrilmiş, iqtisadiyyatı müstəmləkə xarakteri almışdı.

## Cənubi Azərbaycan (1828-1917)
### Cənubi Azərbaycanın inzibati-siyasi quruluşu

Türkmənçay sülh müqaviləsi və «Cənubi Azərbaycan» siyasi məfhumunun meydana gəlməsi. XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya tərəfindən zəbt ediləndən sonra Azərbaycanın cənub torpaqları İranın hakimiyyəti altına düşdü. Bu gün Cənubi Azərbaycan adlandırdığımız ərazi İranla istər əhali, istərsə də rəsmi dairələr tərəfindən sadəcə olaraq, Azərbaycan və ya İran Azərbaycanı, orada və ölkənin bütün başqa rayonlarında yaşayan, etnik mənşəyi, dili, dini və adət-ənənələrinə görə Şimali Azərbaycanda yaşayan azərbaycanlılarla eyniyyət təşkil edən əhali isə türklər və ya İran türkləri adlandırılır. Hazırda əhalinin milli mənsubiyyətini təyin edən bu adlar (türklər və ya azərbaycanlılar) şərti xarakter daşıyır. Belə ki, İranda yaşayan türklər Şimali Azərbaycanda yaşayan azərbaycanlıları türk, sonuncular (azərbaycanlılar) isə onları azərbaycanlı adlandırırlar. 1918-ci il mayın 28-də Qafqazda yeni milli dövlətin – Azərbaycan Demokratik Respublikasının yarandığı gündən sonra, onun dövlət parlamenti özünün ilk rəsmi bəyannaməsində Azərbaycan adını işlətmişdir. Bu isə İran tərəfin etirazına səbəb oldu. Tehran rəsmi dairələri belə hesab edirdilər ki, yeni respublika rəhbərləri başda Təbriz olmaqla, İran Azərbaycanını Türkiyəyə vermək məqsədi güdürlər. Azərbaycan Demokratik Respublikası hökuməti İranın bu qorxusunu aradan qaldırmaq üçün rəsmi dövlət sənədlərində «Qafqaz Azərbaycanı» adını işlətməli oldu. 1920-ci il aprel ayının 28-

dən sonra (burada sovet hökuməti elan olunduqdan sonra) bu ad «Sovet Azərbaycanı» ilə əvəz edildi və beləliklə də «Sovet və ya Şimali Azərbaycan», «İran və ya Cənubi Azərbaycan» terminləri siyasi məna kəsb etməyə başladı. Siyasi status qazanmış «Cənubi Azərbaycan» məfhumunun sovet rəsmi dairələrində, elmi ədəbiyyatlarda və mətbuat orqanlarında işlədilməsinə Tehran rəsmi dairələri müsbət yanaşmır, bunu «sosialist inqilabının ixracı və yaxud da «İranın daxili işlərinə qarışmaq» kimi qiymətləndirirlər.

Həqiqətdə isə «Cənubi Azərbaycan» (eləcə də «Şimali Azərbaycan») termini eyni etnik mənşə, dil, din və adət-ənənəyə malik xalqın məskunlaşdığı ərazinin ikiyə bölündüyü gündən (10 fevral 1828-ci il) meydana gəlmiş, ilk öncə coğrafi məna kəsb etsə də, yenə də siyasi xarakter daşımışdır. Nəticə isə mövcud tarixi şəraitə görə müxtəlif tərəfdən qiymətləndirilə bilər.

Cənubi Azərbaycanın inzibati-ərazi bölgüsü, əhalinin sayı. İrana qatıldıqdan sonra ölkənin dörd əyalətindən birini təşkil edən Azərbaycan əyaləti ərazisinə ilk dövrlərdə cənubda Həmədan, cənub-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri daraldılmış və 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miyandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdir.

Say etibarilə həmişə farslardan sonra ikinci yerdə dayanan (İranın rəsmi statistika idarələrinin məlumatına görə) azərbaycanlılar XIX əsrin sonuna doğru əsasən Cənubi Azərbaycan ərazisində yaşayırdılar. Bu zaman Azərbaycanda 2 mln.-a qədər azərbaycanlı yaşayırdı ki, bundan 1 mln. nəfəri kənd əhalisi, təqribən 0,5 mln. nəfəri şəhər əhalisi və 0,5 mln. nəfəri isə yarımköçərilər idi.

Siyasi idarəetmə sistemi. Gülüstan müqaviləsindən sonra İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra





nüfuzlu və qüvvətli xanların hakimiyyətini tanımaqla, onları ayrı-ayrı xanlıqların hakimi təyin etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi. Qacarların hakimiyyəti dövründə (1736-1925) İran ordusunun əsas piyada və atlı hissələri məhz Cənubi Azərbaycanın müxtəlif təbəqələrindən toplanan qüvvələr idi.

Cənubi Azərbaycanda Maku, Urmiya, Nəmin və Gərgər kimi güclü xanlıqları istisna etməklə, qalanları tamamilə ləğv olundu. Dövlət keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim təyin edirdi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakimlərinədək şəxslər əsasən mərkəzdən göndərildiyinə görə, yerli xanların, Qacarların narazılığına səbəb olurdu.

Fətəli şahdan başlayaraq, Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Cənubi Azərbaycan «vəliəhdneşin» (vəliəhd əyləşən yer) hesab edilmiş, «darüssəltənə» (səltənət evi) adlandırılan Təbrizdə isə bundan sonra həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Bu isə, şübhəsiz, Azərbaycanın İran üçün iqtisadi, xüsusilə də siyasi əhəmiyyətindən doğurdu. Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində mühüm rol oynayırdı. Belə ki, vəliəhd burada oturduğu və Təbriz bir növ ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin də iqamətgahı ilk dövrdə Təbriz hesab edilirdi.

1828-ci ilin fevralında Türkmənçay müqaviləsi bağlandıqdan və İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildikdən sonra İrana göndərilən Rusiyanın səlahiyyətli səfirinin iqamətgahı ilk dövrdə Təbriz şəhərində idi. Bundan əlavə, Rusiya və Türkiyənin baş konsulluqları da Təbrizdə yerləşirdi.

Əyalətin idarə olunmasına rəhbərlik rəsmən vəliəhdin ixtiyarında idi, əslində isə bu işi, adətən, şahzadələr içərisindən təyin olunan vali (qaimməqam) aparırdı. Valinin sərən-

camında olan böyük idarə aparatında Təbriz şəhərinin bəylərbəyi, əyalətdə yerləşən bütün nizami qoşun hissələrinin başçısı – əmir, nizam vergilərin toplanması və ümumiyyətlə, əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və b. daxil idi. Yerlərdə, yəni ayrı-ayrı vilayətlərdə isə bu göstərilən idarə aparatı nisbətən kiçik miqyasda təkrar edilirdi.

Əyalətin mərkəzi Təbrizə, vilayət və mahallara təyin olunan şahzadələr, onların ətrafındakı vəzir, mustofi, məmurlar, fərraşlar və s. öz vəzifələrinə gəlir mənbəyi kimi baxır və xalqı soyudurlar. Ucqar dağlıq rayonda yerləşən, yaylaq və yarımköçəri təsərrüfatına malik olan Maku kimi yarımmüstəqil xanlıqda qəbilə birliyinin başında duran tayfa başçıları bütün inzibati-maliyyə işlərini, hərbi-siyasi hakimiyyəti öz əllərində cəmləşdirmişdilər. Onlar təsərrüfat işlərinə rəhbərlik edir, vergi toplayır, lazım gəldikdə isə öz silahlı dəstələri ilə dövlətin xidmətində olurdular.

## Cənubi Azərbaycanda siyasi vəziyyət

Hakim dairələrin Azərbaycanda zülm siyasəti. Babilər hərəkatı. Vəliəhdin iqamətgahının Cənubi Azərbaycanda yerləşməsi bir tərəfdən bu vilayətin ölkə miqyasında xüsusi mövqeyə malik olmasını şərtləndirirsə də, digər tərəfdən də yerli əhalinin yaşayış tərzinin ağırlaşmasına, mənəviyyatının ətalətinə səbəb olurdu. Belə ki, başda vəliəhd olmaqla əyalətin müxtəlif inzibati-idarə orqanlarına təyin olunmuş şahzadələrin hər biri öz ətrafında böyük bir müftəxorlar dəstəsi toplamışdı. İran tarixçisi Ələsgər Şəminin verdiyi məlumata görə, Qacar şahzadələri öz ad, məqam və malik olduqları ixtiyardan istifadə edərək, şahın özünün istibdadından daha şiddətli və daha qəddar bir istibdadla xalqı incidirdilər. Azərbaycan valisi və onun ətrafına toplaşan məmurları dövlət və idarə işləri deyil, vergilərin artıqlaması ilə yığılması və daha çox varlanmaq maraqlandırırdı. Nəticədə onlar Azərbaycanı fəlakətli bir vəziyyətə gətirib çıxarmışdılar.





Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin qarşı-qarşıya durduğu əsas istismarçılar yerli feodallar idi. Bir çox xanlar Türkmənçay müqaviləsindən sonra siyasi hakimiyyətdən kənar edilsələr də, onların kütlələr üzərində ağalığı toxunulmaz qalırdı. Beləliklə, əhali həm yerli xanların, həm də hakim sülalənin getdikcə möhkəmlənən hakimiyyətinin zülmünə məruz qalırdı. Azərbaycanda hakim dairələrin zülm siyasəti – qanunsuzluq, soyğunçuluq yerli əhalinin müxtəlif təbəqələri içərisində narazılığın artmasına, kütləvi həyəcan və çıxışların baş verməsinə səbəb olurdu.

30-cu illərin sonu, 40-cı illərin əvvəllərində Təbrizdə, tez yatırılsa da, bir neçə dəfə həyəcan və çıxışlar baş verdi.

1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacir və şəhər yoxsulları hakimə qarşı çıxmış və onu şəhərdən qovmuşdular. 1848-ci ildə yenə də Təbrizdə şəhər yoxsulları və sənətkarların çıxışları baş verdi.

1850-ci ildə Zəncanda babilər üsyana qalxdılar. Şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı. Bundan əlavə, yaxınlıqdakı kəndlərin əhalisi də onlara qoşulmuşdu. Babilər şəhər qalasını tutdular. Şəhər iki hissəyə bölündü və babilər onun yarıdan çox hissəsini ələ keçirdilər. Vuruşlarda babilərin ailə üzvləri də iştirak edirdilər. Əsas etibarilə kəndli və sənətkarlardan ibarət olan babilərin içərisində çoxlu tacir və xırda ruhanilər də var idi. Ətraf kəndlərdən olan əhali üsyançıları gizli şəkildə ərzaqla təmin edirdilər.

Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilən qoşun dəstələri iyunun əvvəlində Zəncanı mühasirəyə aldılar, lakin üsyançılar tərəfindən ciddi müqavimətə rast gələrək geri çəkilməli oldular. Dekabr ayında 30 minlik şah qoşunu və feodal dəstələri Zəncanı yenidən mühasirəyə alaraq, hər tərəfdən hücuma keçdilər. Üsyançıların çoxu həlak oldu, onun başçısı Məhəmmədəli isə ağır yaralandı və üç gündən sonra vəfat etdi. Babilərdən yalnız 100 nəfəri sağ qalmışdı və onlar daha beş gün vuruşduqdan sonra şəhəri tərk etməyə imkan vermək şərti ilə mübarizəni dayandır-

mağa razı olduqlarını bildirdilər. Bu təklifi qəbul etmələri haqqında Qurana and içmiş şah ordu başçıları, silahı yerə qoyan üsyançıların hamısını qırdılar. Beləliklə, 1850-ci il dekabrın sonunda Zəncan üsyanı yatırıldı.

1848-1852-ci illərdə bütün İranda babilər hərəkatı məğlub edilsə də, ölkədə, o cümlədən Cənubi Azərbaycanda babi tərəfdarlarının sayı daha da artdı. Əhalinin bütün narazı hissələrində babiliyə rəğbət çox güclü idi və şah hökuməti bunun qarşısını ala bilmirdi.

Babi üsyanları öz ictimai-siyasi məzmunu və kütləviliyi ilə İranda və Azərbaycanda baş vermiş ayrı-ayrı çıxışlardan fərqlənir və özünəməxsus yer tuturdu. Təsadüfi deyil ki, babilər hərəkatı zamanı gələcəyin bir çox inqilabçıları yetişmiş, onun inqilabi-demokratik hissəsi ölkədə baş verən xalq çıxışlarında, xüsusilə 1905-1911-ci illər İran inqilabında fəal iştirak etmişdilər.

XIX əsrin sonu – XX əsrin əvvəllərində geniş xalq kütlələrinin imperializmə qarşı ilk çıxışları. XIX əsrin sonu və XX əsrin əvvəllərində Cənubi Azərbaycanda xarici imperialistlərə və onlarla əlaqədə olan yerli irtica qüvvələrinə, onların ölkədəki özbaşınalığına və çapqınçılıq siyasətinə qarşı xalqın narazılığı artmağa başlayır, bəzi yerlərdə kütləvi çıxış və tətillər baş verir. 8 mart 1890-cı ildə Nəsrəddin şah bütün İranda tütün almaq, satmaq və emal etmək üçün ingilislərə konsessiya verilməsi barədə müqavilə imzalayır və bu xalqın böyük narazılığına səbəb olur. Etiraz əlaməti olaraq, 19 avqust 1891-ci ildə Təbriz bazarı bağlanır, 20 min nəfərə yaxın adam silahlanır və şaha teleqram vururlar ki, heç bir halda bu müqaviləni qəbul etməyəcəklər. Onlar teleqramda bildirirdilər ki, əks təqdirdə Təbrizdəki ingilis konsulluğunu məhv edəcəklər. Şah verilmiş imtiyazları tezliklə ləğv etməyə məcbur oldu və avqust ayının 30-da bu haqda Təbrizə rəsmi teleqram göndərildi.

Cənubi Azərbaycandakı bu hərəkat ingilislərə qarşı İranın başqa yerlərində də xalq mübarizəsinin güclənməsinə





bilavasitə təsir göstərirdi. İran xalqlarının, o cümlədən azərbaycanlıların mübarizə tarixində «Tənbəki üsyanı» kimi məşhur olan bu hərəkatda Azərbaycanın ticarət burjuaziyası, sənətkarları, onlara qoşulmuş ruhanilər, digər təbəqələrin nümayəndələri iştirak edirdilər. Bu hərəkat İranda, o cümlədən Cənubi Azərbaycanda xarici kapitala, yerli irtica qüvvələrinə və onların hökmranlığına qarşı yönəldilmiş milli azadlıq mübarizəsinin ilk və çox təsirli mərhələsini təşkil etmiş və xalq arasında siyasi, milli şüurun oyanmasına, formalaşmasına və inkişafına güclü təkan vermişdi.

1901-ci ildə Tehranda təşkil edilmiş gizli cəmiyyət və ya inqilabi komitə, 1905-ci ildə isə Tehranda yaranan «Əncümən-e məxfi («Gizli əncümən») iranlıları, o cümlədən azərbaycanlıları, xaricilərin zorakılığı və yerli hakim dairələrin özbaşınalığı əleyhinə mübarizə aparmağa çağırır, həmçinin burjua ruhunda islahatlar keçirmək tələbini irəli sürürdülər.

XX əsrin əvvəllərində bir neçə il qıtlıq olması və bundan istifadə edən mülkədar və alverçilərin taxıl möhtəkirliyinə başlaması nəticəsində İranın, o cümlədən Azərbaycanın bir sıra şəhərlərində aclıq və bahalığa qarşı həyəcanlar baş verdi.

1903-cü ildə belçikalılarla bağlanmış yeni gömrük sazişinə qarşı çıxışlar başlandı.

Göstərilən dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılması, milli və siyasi şüurun oyanması, xarici imperializmə və yerli feodal zülmünə qarşı xalq mübarizəsinin güclənməsində bir sıra başqa amillər də böyük rol oynamışdır. Belə ki, 1904-cü il dekabr ayının 13-də Bakı və onun Balaxanı, Sabunçu, Bibi-Heybət kimi ətraf rayonlarında başlanan və dekabrın 31-də qələbə ilə nəticələnən fəhlə tətilləri nəinki bütün Bakı proletariatını siyasi mübarizəyə çağırdı və Rusiyanın fəhlə hərəkatı tarixində ilk fəhlə – sahibkar müqaviləsinin bağlanmasına gətirib çıxardı, onlar həm də qonşu İranın və xüsusilə Cənubi Azərbaycanın siyasi mühitinə təsir göstərməklə, orada həyəcan və çıxışların

güclənməsinə, inqilabi hərəkatın başlanmasına təkan verdi. Bununla Şimali və eləcə də Cənubi Azərbaycanda inqilabi hərəkatın və siyasi mübarizənin sonrakı inkişafında Rusiyada baş verən 1905-ci il 9 yanvar hadisələri («Qanlı bazar») və ümumiyyətlə, 1905-1907-ci illər inqilabının da əhəmiyyətli təsiri olmuşdur. Xalqın təzyiqi altında çar Rusiyası hökumətinin 1905-ci ilin 17 oktyabrında demokratik azadlıqlar verilməsi haqqında dərc etdiyi «Manifest» Şimali Azərbaycanda (xüsusən Bakıda) «Müsəlman konstitusiya (Məşrutə) partiyası»nın yaranmasına, demokratik azadlıq və hüquqlar uğrunda mübarizənin genişlənməsinə gətirib çıxardı və bu hərəkat öz davamını həmin ilin dekabrında İranda, o cümlədən Cənubi Azərbaycanda başlayan «Məşrutə inqilabında» tapdı.

Cənubi Azərbaycan 1905-1911-ci illər Məşrutə inqilabında. 1905-1911-ci illər inqilabı gedişində Cənubi Azərbaycanda İranın başqa rayonlarına nisbətən sosial ziddiyyətlər, siyasi vəziyyət daha gərgin olmuşdu. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi. Hərəkatın hərəkətverici qüvvələri sənətkarlar, yenicə meydana gələn fəhlələr, tacirlərin xarici rəqabətdən ən çox iflas olan xırda alverçi təbəqələri, dözülməz istismara məruz qalan kəndlilərin qabaqcıl dəstələri və ictimai mövqelərinə görə onlara yaxın xırda ruhanilər idi.

Artmaqda olan hərəkatın təzyiqi altında İran şahı xalqın tələblərini yerinə yetirməyə söz verdi. 1906-cı il avqustun 5-də konstitusiya verilməsi haqqında şah fərmanı elan olundu.

1906-cı ilin sonunda Təbrizin gizli siyasi qrup və cəmiyyətləri tərəfindən əsası hələ 1904-cü ildən qoyulmuş, RSDFP-nin Bakı təşkilatı və «Hümmət» qrupu ilə yaxın əlaqə və hərəkat birliyi olmuş «İctimaiyyune-amiyyun», yəni sosial-demokrat partiyası yarandı. Partiyanın proqramı kimi RSDFP-nin proqramı əsas götürüldü və o yerli siyasi, sosial-iqtisadi şəraitə uyğun şəkildə işlənib hazırlandı. Öz mərkəzini «Mərkəz-e qeybi» («Gizli mərkəz») adlandıran





Təbriz sosial-demokrat təşkilatının başında Əli Müsyö dururdu. (20a).

1906-cı il sentyabrın 9-da Məclisə seçkilər keçirilməsi haqqında əsasnamə imzalandı. Sentyabrın 20-də Təbriz üsyançıları öz tələblərinə saraydan müsbət cavab aldılar. Bu uğurlar xalqı daha da ruhlandırdı, onlar hərəkat başçıları qarşısında mübarizənin davamı üçün zəruri olan siyasi bir mərkəzin yaradılmasını, kütlələri bu mərkəz ətrafında birləşdirməyi ən vacib məsələ kimi qoydular. Hərəkat başçıları içərisindən 20 nəfər ilk rəsmi siyasi əncümənin əsasını qoydu və həmin əncümən rəsmən «Azərbaycan əyalət əncüməni» adlandırıldı. 1906-cı ilin noyabr-dekabr aylarında əyalət əncümənin rəhbərliyi ilə Azərbaycanın başqa şəhərlərində (Urmiya, Salmas, Marağa, Ərdəbil, Zəncan, Xalxal, Xoy, Maku, Binab, Astara və b.) vilayət əncümənləri yaradılmağa başladı və beləliklə, əncümənin nüfuzu əyalətin bütün rayon və şəhərlərində yayıldı.

1906-cı il oktyabr ayının 20-dən noyabrın 5-nə kimi Azərbaycan seçkilərində qələbə qazanmış nümayəndələr 1907-ci ilin fevral ayının 8-də Azərbaycan elçiləri adı ilə Tehrana gəldilər və əyalət əncüməninin saraya verdiyi tələblərin məclisdə müzakirəsi zamanı möhkəm dəlillərlə onların həyata keçirilməsi haqqında razılıq əldə etməyə nail oldular. Bu qələbə demokratik qüvvələri ruhlandırmaqla yanaşı, şahı qorxudaraq mütləq monarxiyanı bərpa etmək fikrinə saldı. Ölkənin hər tərəfində feodalların silahlı dəstələri tərəfindən əhaliyə, demokratik qüvvələrə qarşı basqınlar təşkil edilməyə başlandı. Həmin basqınların qarşısını almağa çalışan demokratik qüvvələr məclis tərəfindən xalq üçün əhəmiyyətli maddələrin olduğu «Konstitusiyaya əlavələr»in qəbul edilməsini ciddi tələb etdilər. Bununla yanaşı sosial-demokratlar irtica qüvvələri qarşısında inqilabın əsas məqsədlərini, qəbul edilmiş konstitusiyanın həyata keçirilməsini təmin etməyin yolunu kütlələrin gücündə, onların silahlanmasında görürdülər.

Artıq 1907-ci ilin iyun ayında Urmiya şəhərində yüzlərlə silahlı mücahid əncümənin göstərişlərini həyata keçirməyə hazır idi. Azərbaycandakı bu təcrübə İranın başqa şəhərlərində, o cümlədən Tehranda da tətbiq olunmağa başladı.

1907-ci ilin oktyabrında şah tərəfindən məhdud burjua azadlıqlarını nəzərdə tutan Konstitusiyaya «Əlavələr» qəbul edildi və sənədin təsdiqi inqilab cəbhəsində sinfi qüvvələrin təbəqələşməsini sürətləndirdi. İrtica qüvvələri xalq və inqilab cəbhəsinə qarşı hücuma hazırlaşmağa başladı və bu yolda bütün vasitələrdən – Türkiyə, İngiltərə və çar Rusiyası dövlətlərinin hakim dairələrinin köməyindən istifadə etməkdən də çəkinmədi.

1907-ci ilin noyabrında şah başda olmaqla, əksinqilabi irtica qüvvələri tədbirlər görməyə başladılar. Demokratik hərəkata qarşı hücum hazırlamaq məqsədilə Tehranda «Fetovvat» və «Səadət», eyni zamanda Təbrizdə «İslamiyyə» adlı irticaçı əncümənlər təşkil edildi. İrticaçılar 1908-ci ilin əvvəllərindən Azərbaycanda və İranın başqa yerlərində öz fitnəkarlıqlarını qüvvətləndirdilər. Şah və onun ətrafında toplanmış mürtəce qüvvələr tərəfindən hələ 1908-ci ilin aprel-may aylarından hazırlanmaqda olan hökumət çevrilişi həmin il iyun ayının 23-də həyata keçirildi. Əksinqilab bütün İranda hücuma keçdi. Lakin Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, burada Azərbaycan əyalət əncüməni, Təbriz sosial-demokrat təşkilatı və məhəlli əncümənlər yeni inqilabi mübarizəyə, qəti döyüşlərə hazırlaşmağa başladılar. İnqilabi mübarizənin mərkəzi Tehrandan Təbrizə keçdi.

İrticaçılar Əmirxiz məhəlləsi istisna olmaqla Təbrizin şimali-şərq hissəsini tutdular. Əmirxiz məhəlləsini Təbriz üsyanının görkəmli rəhbəri Səttar xanın dəstəsi, şəhərin cənub-şərqində yerləşən Xiyaban məhəlləsini isə Bağır xanın başçılıq etdiyi hissələr müdafiə edirdilər. Üsyanda kəndlilər, fəhlələr, şəhərin xırda burjuaziyası və milli burjuaziya iştirak edirdi.

Təbrizin müqaviməti irtica qüvvələrini və şahı çox narahat edirdi. Buna görə də 1908-ci ilin avqustunda buraya 40 min nəfərdən artıq silahlı qüvvə göndərildi. Sentyabrın 25-dən Təbriz üzərinə iki günə qədər davam edən hücum başlandı, lakin irtica qüvvələri heç bir uğur qazana bilməyərək, oktyabrın 12-də şəhəri tərk edib qaçmağa məcbur oldular.





Təbriz üsyançılarının qələbə xəbəri tezliklə İrana, Qafqaza və Avropanın bir çox ölkələrinə yayıldı. Paris, İstanbul, Nəcəf, Tiflis, Bakı və digər mühüm şəhərlərdən Azərbaycan əyalət əncüməninə, Səttarxanın ünvanına təbrik teleqramları göndərildi. Xalq Səttar xanı «Sərdar-e milli», Bağır xanı «Salar-e milli» adlandırdı, sonra isə Azərbaycan əyalət əncüməni bu adları rəsmiləşdirmək üçün qərar verdi.

1909-cu ilin fevralına qədər Cənubi Azərbaycanın bütün qərb vilayətləri (Maku istisna olmaqla) inqilabçıların əlinə keçdi. Azərbaycanın şərq vilayətlərində də əksinqilaba qarşı etiraz güclənirdi. Lakin bütün bunlara baxmayaraq, Məhəmmədəli şah İranın bütün əyalət və vilayətlərindən silahlı qüvvələr toplayır, Təbriz üzərinə göndərməkdə davam edirdi. Artıq 1908-ci ilin dekabrında əksinqilab yenidən 40 min silahlı adam toplamışdı. 1909-cu il yanvarın axırlarında Təbriz şəhəri yenidən mühasirəyə alındı. Fevral-mart aylarında Təbriz üzərinə əksinqilabın hücumu başladı, lakin bu hücumlar da inqilabçıların qələbəsilə nəticələndi. Bununla belə, mühasirədə olanlar aclıq və qıtlıqdan çox əziyyət çəkirdilər. Aprelin 14-də uzun müddət Marağa şəhərinin qubernatoru olmuş Səməd xanın qoşunları Təbrizə hücum etdilər. Yenə də müvəffəqiyyət əldə edilmədi. Belə bir şəraitdə ingilislər və çar Rusiyası açıq müdaxiləyə əl atdılar. Çar Rusiyası xarici konsulluqları və təbəələri müdafiə etmək və guya Təbrizə ərzaq daşınmasını təmin etmək bəhanəsilə 1909-cu il aperlin 29-da öz qoşunlarını Təbrizə yeritdi. Bununla da Təbriz üsyanı yatırıldı.

Təbriz üsyanı və Azərbaycandakı demokratik hərəkat bütün İranda inqilabi hərəkatın yenidən yüksəlişinə təkan verdi. Təbriz üsyanı Rəşt və İsfahanda üsyanların uğurla

başa çatmasına, üsyançıların Tehrana yürüşünə, eyni zamanda Məhəmmədəli şahın hakimiyyətdən devrilməsinə (16 iyul 1909) və Konstitusiyanın bərpa olunmasına səbəb oldu.

Fədailəri tərk-silah etmək məqsədilə Tehranın rəsmi dairələri tərəfindən Səttar xan və Bağır xan 1910-cu il martın 11-də paytaxta dəvət olundular. Tərk-silah haqqında əldə edilmiş razılığa baxmayaraq, Səttar xan və onun ətrafındakılara Tehranda xaincəsinə basqın edildi. Vuruşma nəticəsində 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttar xan yaralandı. Bununla da inqilabın son səngəri dağıdıldı. Səttar xan və Bağır xana Təbrizə qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu, lakin Cənubi Azərbaycanda yerləşən çar Rusiyasının qoşunları əhalinin fəal çıxışına imkan vermədilər. Çar hökuməti Təbrizə yeni hərbi qüvvələr göndərməklə, dekabrın 28-dək Təbriz fədailərinin müqavimətini qırdılar. Ələ keçən fədailər və Təbriz əncüməni rəhbərlərinə divan tutuldu. İrticaçılar Təbrizə qayıtdılar. Bütün Azərbaycanda terror və irtica hökm sürməyə başladı.

1905-1911-ci illər inqilabının yatırılması nəticəsində çar Rusiyası və İngiltərə tərəfindən İranın, o cümlədən inqilabda mühüm rol oynamış Cənubi Azərbaycanın əsarət altına alınması və istismarı qüvvətləndi.

Cənubi Azərbaycan birinci dünya müharibəsi dövründə. İran Məşrutə inqilabı məğlub edildikdən sonra, 1912-ci ilin əvvəllərində imperialistlər 1907-ci il ingilis-rus sazişinin İran hökuməti tərəfindən rəsmən qəbul edilməsinə nail oldular. Sazişə əsasən, İranın qəsri-Şirin-İsfahan-Yəzd-Zülfüqar xəttindən şimaldakı 790 min kv.km sahəsi Rusiyanın nüfuz dairəsi, İranın Bəndər, Abbas, Kirman, Bircənd, Qazik xəttindən cənub şərqdəki 355 min kv.km hissəsi İngiltərənin, İranın bu xətlər arasındakı ərazisi isə «bitərəf» zona elan edildi. Bundan sonra İran birinci dünya müharibəsini doğuran imperialist ziddiyyətlərin düyün nöqtələrindən birinə çevrildi. Müharibə başlayanda İranın rəsmi surətdə öz bitərəfliyini elan etməsinə baxmayaraq, xarici dövlətlər onun bitərəfliyini kobudcasına pozaraq, ərazisində hərbi əməliyyatlara başladılar. Bu əməliyyatlar nəticəsində dəfələrlə işğala məruz qalmış və ən çox zərər çəkmiş əyalətlərdən biri də Azərbaycan idi. Cənubi Azərbaycan 1914-cü il dekabrın axırlarında türk ordusu, 1915-ci il yanvarın 15-də Rusiya qoşunları tərəfindən işğal edilərək, hərb və zorakılıq meydanına çevrildi. Əldə olan məlumata görə, sosial, iqtisadi və maddi çətinliklər qarşısında qalan yerli əhalinin 15 faizi həlak oldu. Bu vəziyyət xalq kütlələrinin böyük narazılığına və tez-tez baş verən həyəcanlarına səbəb olmuşdu. Bu zaman İran Demokrat Partiyasının Təbriz təşkilatı xalq kütlələrinin mübarizəsinə başçılıq edirdi. Demokratların Azərbaycanda nüfuzu artır və onların mütəşəkkil qrupları ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərirdilər. Beləliklə, Cənubi Azərbaycan İranı müharibə meydanına çevirən xarici dövlətlərə və mürtəce şah hökumətinə qarşı mübarizənin ən güclü mərkəzinə çevrildi.





1917-ci ildə Rusiyada baş verən fevral burjua-demokratik inqilabının təsiri ilə İran Demokrat Partiyası (İDP) və onun Azərbaycan əyalət komitəsinin fəaliyyəti xeyli canlandı. Əyalət komitəsi əsasən orta və xırda burjuaziya, orta mülkədarlar, ziyalılar və ruhanilərdən ibarət idi. Azərbaycan demokratları ölkədə bir sıra dəyişikliklərin yerinə yetirilməsini, o cümlədən məclisə seçkilər keçirilməsini, Azərbaycan əyalətinin irticaçı valisi Sərdar Rəşidin işdən götürülməsini, xarici qoşunların İrandan çıxarılmasını tələb edirdilər. İDP-nin Azərbaycan əyalət komitəsi Azərbaycana muxtariyyət almaq uğrunda mübarizəyə çağırırdı. Demokratlar tərəfindən Təbrizdə milli azadlıq ideyalarını təbliğ edən «Azərbaycan himni» yaradılmışdı.

1917-ci ilin mayından sonra İran hökumətinin fəaliyyətsizliyi və onun tərkibinə Qəvamüssəltənə, Vüsuqqüdövlə kimi mürtəce siyasi dövlət xadimlərinin daxil olması ölkədə demokratik dairələrin böyük etirazına səbəb oldu. Elə bu

vaxtdan başlayaraq, Cənubi Azərbaycan əyalət komitəsi müstəqil hərəkət etməyi və bir partiya (Azərbaycan Demokrat Partiyası) halında birləşməyi qərara aldı. ADP-nin yaranması və xalq arasında nüfuz qazanması sahəsində «Təcəddüd» qəzetinin mühüm rolu oldu. 1917-ci il avqust ayının 24-də əyalət komitəsinin geniş konfransı oldu və Şeyx Məhəmməd Xiyabani başda olmaqla ADP-nin MK-sı seçildi, partiyanın qarşısındakı vəzifələrini müəyyənləşdirən qətnamələr qəbul edildi.

Rusiyada oktyabr hadisələrinin İrana və Cənubi Azərbaycana çox böyük təsiri oldu. Bu hadisələr İranın dövlət müstəqilliyinə və suverenliyinə əhəmiyyətli dərəcədə ziyan vurdu. Belə ki, 1917-ci il dekabrın 15-də Brestdə Rusiya hökuməti, Kayzer Almaniyası və onun müttəfiqləri arasında İrandan xarici qoşunların çıxarılması barədə sülh müqaviləsi imzalanması haqqında danışıqlar başlandı. 1918-ci il yanvarın 5-də rus qoşunlarının İrandan çıxarılması barədə proqram elan edildi. Bununla belə, 1918-ci ilin yayında ingilis hərbi hissələri Cənubi Azərbaycanın Zəncan, Miyane, Urmiya və Xoy şəhərlərinə daxil oldu. Cənubi Azərbaycan ərazisinin çox hissəsi Osmanlı Türkiyəsinin qoşunları tərəfindən işğal edildi. ADP belə gərgin vəziyyətdə ingilis və türk qoşunlarına, yerli irtica hökumətinə qarşı mübarizə aparırdı. ADP-nin rəhbərləri, o cümlədən Xiyabani dinc yolla mübarizə taktikasının lazımi nəticə verməyəcəyini yəqin edərək, silahlı üsyana başladılar. (20a).

## Gülüstan Müqaviləsi

İranın savaşı uduzması, beynəlxalq münasibətlərin köklü dəyişdirilməsi barış işini tezləşdirdi. Yaranmış şəraitdən istifadə edən İngiltərə Rusiya-İran arasında danışıqlarda vasitəçilik etməyə nail oldu. 1813-cü il oktyabrın 12-də Qarabağda müqavilə imzalandı. "Gülüstan müqaviləsi" adlanan barışın mətni budur; "1813-cü il oktyabrın 12-də Zeyvə





çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında hər iki tərəfin səlahiyyətli Müvəkkilləri vasitəsilə Bütün Rusiya İmperiyası və İran dövləti arasında bağlanmış və 1814-cü il sentyabr ayının 10-da Tiflisdə hər iki dövlətin səlahiyyətli Müvəkkilləri bir-biri ilə dəyişdikləri ratifikasiyalarla təsdiq edilmiş əbədi sülh və dostluq

## Müqaviləsi

Qədir Allahın adı ilə.

İmperator əlahəzrətləri, bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran Dövlətinin sahibi, hökmdarı Əlahəzrət Padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan savaşın fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İmperatorluğu və İran Dövləti arasında mövcüd olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğu möhkəm əsas üzərində bərpa etməyi səmimi-qəlbdən qarşılıqlı surətdə arzulayaraq, bu ədalətli və nicatverici iş üçün aşağıdakıları və səlahiyyətli Müvəkkilləri t'əyin etməyi faydalı bilmişlər; Əlahəzrət Bütün Rusiya İmperatoru – öz General – leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz Quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri...zati – aliləri Nikolay Rtişçevi, Əlahəzrət İran şahı isə – özünün Türkiyə və İngiltərə Saraylarında fövqəladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş... Məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksək rütbəli və Çoxhörmətli Mirzə Həsən Xanı, bu səbəbdən də biz yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığında Gülüstan kəndində toplaşaraq, Vəkalətnamələrimizi bir – birimizə təqdim etdikdən sonra, hər birimiz öz tərəfindən bizim Böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid

olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

**Birinci maddə.**

İndiyədək Rusiya İmperiyası və İran dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa bu Müqavilə ilə bu gündən və gələcəkdə son qoyulur və qoy imperator Əlahəzrətləri Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və qarşılıqlı olaraq, onların Yüksək Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah andlaşma olsun.

**İkinci maddə.**

Bir halda ki, hər iki Yüksək Dövlət arasında ilkin əlaqələr vasitəsilə status quo ad prezenten*, yə'ni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması özülündə sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda bu gündən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran dövləti arasında sərhəd aşağıdakı xətt olsun; Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzündən Araz çayında Yeddibulaq keçidinədək, oradan üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerdə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərkəzi ilə davam etdirərək, Alagöz dağları silsiləsilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığı Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin Torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı yönündə, Həmziçəmən yolu ilə, Pənbək dağları silsiləsi ilə Şurakel mərzinin küncünədək, bu küncdən də qarlı Alagöz dağının başınadək, buradan da Şurakel mərzi





ilə, dağlar silsiləsi ilə, Mastaras və Artkin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan hüdudları daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin gerçək hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələr, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda (Status quo ad prezenten) əsasında Talış xanlığının sərhəd xətti ilə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, sərhədd xəttindən kənara nə isə çıxarsa, hər iki Ali dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf status quo ad prezenten əsasında təminat verəcək.

**Üçüncü maddə.**

Şah Əlahəzrətləri Əlahəzrət Bütün Rusiya İmperatoruna səmimi dostluq hisslərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Yüksək Vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyası hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla yanaşı Dağıstan, Gürcüstan (Şurakel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya və Abxaziya, eynən də indi bərqərar edilmiş Qafqaz sərhəd xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə ) arasındakı bütün mülk və torpaqların Rusiya İmperatorluğu mülkiyyətinə mənsub olduğunu qəbul edir.

**Dördüncü maddə.**

Əlahəzrət Bütün Rusiya İmperatoru Əlahəzrət İran Şahına öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda –

ona qonşu olan bu Dövlətdə, möhkəm özül üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi – qəlbdən təsdiq etmək üçün, bununla, öz adından və öz Vəliəhdləri adından İran Şahı tərəfindən İran Dövlətinin varisi təyin ediləcək Vəliədə lazım gəldikdə kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran Dövlətinin işinə qarışa bilməsin və Yüksək Rusiya Sarayının köməyi ilə Sarayı möhkəmlənsin. Bununla belə, İran Dövləti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperatorluğu hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.

**Beşinci maddə.**

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onlara yan almaq hüququ verilir, həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq, əvvəlki qayda üzrə, Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı qarşılıqlı surətdə iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, savaşdan öncə, habelə sülh vaxtı və hər zaman Xəzər dənizində Rusiya hərbi bayrağı təkcə yellənmişdir. Həmin ehtiram daxilində keçmiş ixtiyar indi də yalnız Rusiyaya verilir ki, Xəzər dənizində ondan başqa heç bir Dövlətin hərbi bayrağı dolaşa bilməz.

**Altıncı maddə.**

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, xristian dininə və sair dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə tə'min edilərək, buraxılsınlar. Özbaşına, qanunu pozaraq hər birinə, milliyyətdən asılı olmayaraq, öz





könlü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla yanaşı hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

**Yeddinci maddə.**

Bütün yuxarıda deyilənlərə əlavə olaraq, Əlahəzrət Bütün Rusiya İmperatoru və Əlahəzrət İran Şahı buyururlar ki, lazım olduqda Əlahəzrətlərin İgamətgahlarına göndərilən, Onların Yüksək saraylarının qarşılıqlı Nazirləri və ya Elçiləri Rütbələrinə və onlara tapşırılmış işlərin dəyərinə uyğun qəbul edilsinlər; şəhərlərdə ticarətə himayəçilik üçün qoyulmuş Müvəkkillərin və Konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş mə'murlar kimi vəzifələrinə layiq hörmət və şərafətə malik olmalıdırlar, bir də Əmrnamə üzrə onları bundan sonra nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürvətlə razı salmaq gərəkdir.

**Səkkizinci maddə.**

Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki yüksək dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür gecikdirilmədən oradan çıxıb getməyə, Rusiya İmperatorluğuna mənsub olan yerlərdə İran Dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək, hər iki Yüksək Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və sair ilə bağlı şikayətlərinə adi qayda üzrə baxılması Konsula, yaxud Müvəkkilə, onlar olmadıqda

isə yerli Rəisə tapşırılır. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminat verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.

Rusiya təbəəliyindən olan İrana gəlmiş tacirlər istəsələr oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə və sərbəst gedəcəklər; bundan ötrü İran hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları pasportlarla təyin edəcəkdir; buna ticarət işləri ilə bağlı Rusiyadan, Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.

Rusiya təbəələrindən İrana gəlmiş kimlərinsə ölümü baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşınan əmlakı və mülkləri, dost Dövlətin təbəələrinə məxsus olduğu üçün saxlanılmadan və gizlicə mənimsənilmədən, Rusiya İmperiyasından və bütün mədəni Dövlətlərdə icra edildiyi kimi, kimin hansı Dövlətə mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasda, qəbzlə ilk növbədə onların yoldaşlarına, yaxud qohumlarına verilməli, həmin qohumlara bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

**Doqquzuncu maddə.**

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallar üçün yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrindən Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

**Onuncu maddə.**

Malları Müqavilə bağlanmış hər iki Dövlətin sahillərinə





və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə nəzarət altında olduqları gömrük hakimlərindən və ya intizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolu ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun, həmçinin satıcıdan və ya alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərtilə qanuni rüsumlar yığılsın.

**On birinci maddə.**

Bu müqavilə imzalandıqdan sonra hər iki Yüksək Dövlətin müvəkkilləri tə'xirə salınmadan bütün yerlərə onun haqqında lazımi xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Yüksək tərəflərin yuxarıda göstərilmiş Müvəkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi Əlahəzrət Bütün Rusiya İmperatoru Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu Müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Yüksək Saraylardan, qarşılıqlı surətdə göndərilməklə, onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çatdırılacaq.

Müqavilə 1813-cü il oktyabr ayının 12-ci günü, İran sayması ilə 1128-ci il Şəvval ayının 29-cu günü Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır. (20a).

İmzalamışlar;

| | |
|---|---|
| **Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişçev** (M.Y) | **Alişöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbdül Həsən Xan** (M.Y) |

## Rusiya ilə İran arasında danışıqlar. Türkmənçay Müqaviləsi

Gələcək sülh müqaviləsinin başlıca müddəaları artıq 1826-cı il sentyabrın 16-da Rusiyanın ayrıca bir "Bəyannamə" sində bildirilmişdi. Yermolovun və Menşilovun bir ay sonra Rusiya Xarici İşlər Naziri qraf K.V Nesselrodeyə təqdim etdikləri yazılı təklifləri və nəzərə alınmaqla barış və ticarət müqaviləsinin lahiyəsi hazırlanmışdı. Gələcək müqavilənin şərtləri haqqında çar fərmanı 1827-il mayın 24-də Cəlaloğlu yanındakı rus düşərgəsinə gətirildi. Rus komandanlığı danışıq aparmaq üçün tam hazır idi.

Qaraziəddin danışıqlarında A.S Qriboyedov İran məmurlarının "təxəyyülünə təsir göstərmək" fikri ilə bildirdi ki, biz irəli gedib, Azərbaycana sahib olaraq bu geniş vilayətin müstəqilliyini tə'min edəcəyik.

Noyabr ayının 6-da Dehkarqanda danışıqlar yenidən başlandı. Təzminat məsələsi üzrə bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Rus qoşunları irəli atıldı. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Müqavilənin bağlanması sürətləndi. Fevralın 10-na keçən gecə Təbriz yaxınlığında Tükmənçay kəndində müqavilə imzalandı.

Türkmənçay müqaviləsi 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin bəzi maddələrinin məzmunu burada saxlanılmış, təzminat və s. haqqında yeni maddələr əlavə edilmişdi. (20a).

Birinci maddə ilə tərəflər arasında əbədi barış elan olunurdu. Müqavilə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçdiyini (III maddə) təsbit edir, sərhədləri ayırır (IV maddə), İranın Rusiyaya iyirmi milyon gümüş rubl təzminat ödəyəcəyi bildirilirdi (II maddə), Abbas Mirzənin vəliəhd kimi tanınmasına ayrıca yer verilir (VII maddə) Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququ təsdiq edilirdi (VIII maddə). Onuncu maddə konsulluqların





açılmasından, on birinci maddə qarşılıqlı olaraq savaş ilə dayandırılmış işlərin bərpasından bəhs olunurdu. XII, XIV, XV, maddələr iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunurdu. On beşinci maddə ermənilərn İrandan Transqafqaza köçürülməsi (müqavilədə konkret deyilməsə də ümumi razılıq belə olmuşdur) ilə bağlı idi. Sonuncu maddə barış haqqında yerlərə bilgi verilməsi, onun ratifikasiyası məsələlərinə toxunurdu.

Müqavilə Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən iyun ayında ratifikasiya edildi.

Türkmənçay müqaviləsi XIX yüzillikdə İranın İngiltərə, Fransa, Rusiya və Türkiyə ilə bağladığı müqavilələr içərisində ən ağırı idi. Bu müqavilə İranı Rusiyadan asılı duruma gətirdi.

## 1828-1829-cu illər Rusiya-Türkiyə savaşı

Çarlıq Rusiyası İranla savaşı qazandıqdan sonra işğalçılıq istəklərinin yeni nöqtəsinə keçdi. Qafqazın Qara dəniz sahillərini ələ keçirməyə başladı. Rusiya taxılının demək olar ki, üçdə ikisi Qara dənizdən ixrac olunurdu. Yaxın Şərqə Rusiya mallarının göndərilməsi də genişlənmişdi. Satış üçün Asiyaya mal çıxarılması 1802-1827-ci illər arasında 3,3 faizdən 30,4 faizə qalxmışdır. Qafqazın Qara dəniz sahillərinin, Cənub-qərbi Gürcüstan bölgələrinin ələ keçirilməsi və bunun strateji əhəmiyyəti də nəzərə alınırdı. Rusiya Qafqazda öz ağalığını bərqərar etmək və möhkəmləndirmək üçün çox əlverişli imkan bulmuşdu.

Buna görə də İran ilə savaşı başa vuran kimi, Rusiya aprel ayında Türkiyəyə savaş elan etdi. Müharibə Balkanlarda və Qafqazda gedirdi. Qafqazda gedən döyüşlər çox önəmli yer tuturdu.

İlkin Qafqaz döyüşlərində türklərin hücum planları pozuldu. Ruslar Qafqazın Qara dəniz qalalarını, onun cənub-qərb bölgələrini tutdular. Anadolu ordusuna güclü zərbə

vurdular. 1829-cu ilin qış və yazında Axalsix və Bayazitdə, Liman, Diqur altında və Quzey Qafqazda Osmanlı ordusunun əks hücumu baş tutmadı. Rusiyanın güney müdafiə xəttini yarmaq ümidləri doğrulmadı. Rus ordusu öz xeyrinə döyüş yaratdı. Türklərin Anadolu birləşməsi dağıdıldı, bə'zi şəhərləri tutuldu. 1829-cu ilin sentyabrında Ədirnə müqaviləsi imzalandı. Rusiya Transqafqazın işğalının hüquqi baxımdan tanınmasına nail oldu. Qara dəniz sahillərini, Axalsix vilayətini Axalsix və Axalkalaki şəhərləri ilə birgə ələ keçirdi. (20a).

## Türkmənçay Müqaviləsinin mətni

**I maddə.**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır. (20a).

**II maddə.**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış savaş ilə Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

**III maddə.**

İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığı və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəşt edir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi və'd edir.





**IV maddə.**

Müqaviləyə qoşulan yüksək tərəfin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır; sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətə ən yaxın nöqtədən başlayaraq, o dağların zirvəsindən keçir; buradan maillik üzrə kiçik Araratın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında, onun Araza töküldüyü yerə qədər davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yə'ni 31/2 Rusiya versti enində bütün istiqamətdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq, bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; buradan İran torpaqları Araz çayının yatağı üzrə 3 ağac, yə'ni 21 Rusiya versti uzanacaqdır; sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış birləşməsindən 3 ağac, 21 verst aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı, adları çəkilən kiçik, yəni Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələri ilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o

biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkuhun zirvəsinədək keçir. Suların açarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə, Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla, Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd su axınının yuxarıda qeyd olunan qaydalarına daim uyğun olaraq, Velgic dairəsi sərhədindən Kloputanın zirvəsi və Velgic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarının İrandan ayrılması olan sərhəd xətti qurtarır.

**V maddə.**

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətləri öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında, Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

**VI maddə.**

İran şahı həzrətləri hər iki dövlət arasında yaranmış savaş ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə, ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı Traktata daxil ediləbiləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.





**VII maddə.**

İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzəni öz vəzifəsi və taxt-tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya İmperatoru həzrətləri İran şahı həzrətlərinə öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü, bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.

**VIII maddə.**

Rusiya tacir gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərinə də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

**IX maddə.**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa

olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökümətlərin – Red.) səfirlərinin, nazirlərinin və işlər müvəkkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.

**X maddə.**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasına və genişlənməsini sülhün bərqərar olunmasının Ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq nəticəsində hökm verdilər ki, ticarətə hamilik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər birinin müəyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan – şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətlərində tam qarşılıqlığa əməl etməyə vəd verir. İran hökumətinin Rusiya agentinə və konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri – Red.) və ya şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.





**XI maddə.**

Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və savaş ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə təəhhüdləri dərhal və tamamilə tə'min edilməlidir.

**XII maddə.**

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır; onlardan Arazın hər iki tərəfindən tərpənməyən əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperator həzrətləri ona aidiyyatı olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

**XIII maddə.**

Axırıncı və ya bundan qabaqkı savaşın gedişində əsri alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa qarşılıqlı əsir düşmüş təbəələri azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzunluğuna və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda, qarşılıqlı surətdə onları qaytarsınlar.

**XIV maddə.**

Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı savaşın başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilməsini tələb etməyəcəkdir. İran hökuməti, bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperator həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.

**XV maddə.**

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrində müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış savaşda törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı





dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya savaş ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə, mə'ruz qalmamalıdır. Bundan başqa, o mə'mur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beş il müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

**XVI maddə.**

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifikasiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir. Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır. (20a).

1805-ci il mayın 14-də Cəncə yaxınlığındakı Kürəkçayda Sisianovla İbrahim xan arasında bağlanan müqaviləyə görə, Qarabağ xanı yalnız Rusiyanın hakimiyyətini tanıyır və qonşu hökumətlərlə müstəqil əlaqə saxlamaqdan məhrum olunurdu. Məsələnin belə asan həll olunacağını gözlə-

məyən Sisianov I Aleksandra göndərdiyi rabortunda yazırdı: «Sizi Rusiya imperiyasının yenidən genişlənməsi münasibətilə təbrik edirəm. Rusiyanın bir əyalətinə çevrilən bu ərazi nə qılınc, nə də hərbi yolla ələ keçirilmişdir».

## Kürəkçay Müqaviləsi

Qadir Allahın Adı ilə

Biz, Şuşa və Qarabağın xanı İbrahim xan və Ümumrusiya qoşunları infanteriya generalı, Qafqaz infanteriya təftiş inspektoru knyaz Pavel Sisanov bütün gücü və hakimiyyəti ilə, İ.Ə. tərəfindən mənə verilən mərhəmətli zati-aliləri Q.İ.Aleksandr Pavloviçə Allahın köməyi ilə Şuşa və Qarabağın xanı İbrahim xanın işlə bağlı çıxışları, ailə üzvlərinin, varis vəliəhdlərinin Ümumrusiya imperiyası əbədi təbəəliyi və çox xöşbəxt dahi çar Q.İ.Aleksandr Pavloviç və Onun yüksək vəliəhdləri qərar verdi və aşağıdakı maddələri imzaladı:

**Birinci maddə.**

Mən, Şuşa və Qarabağ xanı İbrahim xan öz adımdan, varislərin və vəliəhdlərin adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm.

**İkinci maddə.**

İ.Ə. tərəfindən qəbul edilən zati-alilərin səmimiqəlbli vədi İmperator öz sözü ilə özünə və vərəsələrinə bərabərlik, arxayınçılıq vədi verir ki, Onlar zati-alilərin Şuşa və Qarabağ xanı İbrahim xanı vərəsələrindən, həmçinin sadiq təbəələrindən heç zaman ayırmayacaq, İ.Ə. onun mülkünün bütövlükdə ərazisinin qorunmasına və vərəsələrinin mülkünün saxlanılmasına İmperator təminatı verir.





**Üçüncü maddə.**

Haqqın təmizliyi, zati-alilərin vərəsələrini, Şuşa və Qarabağ xanı İbrahim xan ali və vahid hakimiyyət olan Birinci Rusiya İmperatorunu özündən yuxarı tanıyır, qərara alır ki, adı çəkilən xan, Ondan sonra böyük oğlu və ondan sonra nəslində yaşa görə böyüyü xan olarsa, xanlığın mülkiyyətinin, verilən fərmanları, təsdiqlənmiş Gürcüstan Baş hakiminin razılığından sonra ala bilər, bütün bunları almış yeni xan Rus İmperiyasının təbəəliyinə sadiqliyini, öz vəzifə borcunu alanda təntənəli surətdə Rus İmperiyasına sədaqətinə And içməlidir.

Andiçmənin forması yeddi maddədə müəyyən olunur, hazırda hakim Şuşa və Qafqaz xanı İbrahim xan bu əbəti Gürcüstanın Baş hakiminin iştirakı ilə, həmçinin general infanteriya knyzı Sisyanovun qərarlarının təminatçısıdır.

**Dördüncü maddə.**

Mən, Şuşa və Qarabağ xanı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etdiyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi (rus qoşunlarının baş komandanı) ilə qabaqcadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanlar haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma tə-yin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

**Beşinci maddə.**

İ.Ə.-i Şuşa və Qarabağ xanı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir:

1) həmin ölkənin xalqlarını Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır.

2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır.

3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı, ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətlərində qalacaqdır.

4) Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridəcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsini Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

**Altıncı maddə.**

Mən, Şuşa və Qarabağ xanı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm:

1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelzavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamailə qeyri-mümkündür.

2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm.

3) Şuşa qalasına Yelizavetpol tərəfindən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm.

4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazım olan işlər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.





**Yeddinci maddə.**

İ.Ə.-nin zati-aliləri Şuşa və Qarabağ xanı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq, onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, bayraq onun yanında saxlanılmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparmalıdır.

**Səkkizinci maddə.**

Mən, Şuşa və Qarabağ xanı İ.Ə.-nin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İ.Ə.-nin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətdə, yəni bir hissəsi fevralın I-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın i.ə.tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə And içməklə yanaşı, mən böyük oğlum Məmmədhəsən Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

**Doqquzuncu maddə.**

İ.Ə. özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

**Onuncu maddə.**

Bağlaşma əbədi olaraq edilir və heç bir təbəddüar onu Bizdən həmişəlik ala bilməz.

**On birinci maddə.**

İ.Ə. özünün təsdiq edilmiş indiki traktatı Əlahəzrət, Onun fərmanı təsdiqlənmiş dövlət möhürü, 6 ay müddətində çatdırılmalı, imzalanması bundan sonra və tez bir zamanda

mümkün olacaq.

Yelizavetpol dairəsi düşərgəsində, Kür çayının yaxınlığında, yayda R.X.1805-ci il (müsəlman təqvimi ilə 1220-ci il) may (səfər) ayının 14-cü günü. Etibar edilmiş aşağıdakı imzaedənlər artikula imza edirlər və möhürünü qoydular.

Qarabağ xanlığının aqibəti bütün ölkə üçün mənəvi zərbə oldu. Bu hadisə başqa xanların da təslimçiliyi üçün bir növ «yol» açdı və qalan ərazilərin işğalını sürətləndirdi.

XVIII əsrin son illərində mürəkkəb daxili və beynəlxalq şəraitdə Qarabağ və Quba xanlıqları Rusiyaya elçilər göndərərək kömək istədilər. Çar hökuməti Azərbaycan xanlıqlarını Rusiya təbəəliyinə qəbul etməyə cəhd göstərdi. İranla danışıqlar zamanı Rusiya hökuməti şahdan Azərbaycanın Xəzərsahili vilayətlərindən və Gürcüstana olan iddialarından əl çəkməyi tələb etdi. (66).

İbrahim xandan bir qədər sonra şəkili Səlim xanın elə oradaca buna bənzər müqaviləyə imza atması, bu hadisələrdən az sonra Şirvan hökmdarı Mustafa xanın bu müqavilələrə bənzər müqaviləni qəbul etməyə vadar olunması, 1806-cı ildə Bakı və Quba xanlıqlarının işğalı, 1809-cu ildə isə Lənkəran xanlığının tutulması ilə əslində İrəvan və Naxçıvan istisna olmaqla, Quzey Azərbaycanda xanların real hakimiyyətinə son qoyulmuş, Rusiyanın burada XX yuzilliyin sonunadək davam etmiş (AXC dövrü çıxılmaqla) müstəmləkə ağalığı dövrü başlamışdı (140).

XVII əsrin sonu XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin zəifləməsindən istifadə edən xəyanətkar ermənilər əvvəlcə Avstriya imperatoruna, sonra isə onun məsləhəti ilə Rusiya imperatoru I Pyotra müraciət edərək, onlardan «Səfəvi və Osmanlı zülmündən azad olmaqda kömək etməyi» xahiş edirlər. 1701-ci il iyunun 30-da erməni kilsəsinin və tacirlərinin nümayəndələrini qəbul edən I Pyotr, onlara hərtərəfli yardım edəcəyinə və nəhayət, paytaxtı Xəzər dənizinin sahilində olacaq erməni dövlətinin yaradılmasında yardımçı olacağına söz verir. Qeyd etmək lazımdır ki, ermənilərin I Pyotrun Azərbaycanın Xəzərsahili vilayətlərinin işğal edil-





məsində də xüsusi xidmətləri olmuşdur.

Rusiya dövləti I Pyotrun zamanından etibarən isti dənizlərə çıxmağı, Qara və Xəzər dənizlərinə yiyələnməyi, Asiya və Avropanı birləşdirən tranzit ticarət üzərində nəzarəti ələ keçirməyi, Hind okeanı sahillərinədək torpaqlara sahib olmağı öz xarici siyasətinin başlıca qayəsinə çevirmişdi.

1721-ci ildə Qafqazda yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, «erməni kartını» işə salmış və azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılması barədə göstəriş vermişdi.

Azərbaycanlıların öz tarixi və etnik torpaqlarından deportasiya olunmaları, etnik təmizləməyə və soyqırıma məruz qalması prosesi Azərbaycan ərazilərinin Rusiya və İran arasında 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsinə əsasən iki hissəyə parçalandıqdan sonra kütləvi xarakter aldı. Bu müqavilənin 15-ci maddəsinə əsasən İran və Türkiyə ərazilərindən ermənilərin Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycan ərazilərinə köçürülməsinə başlanıldı. 1826-1828-ci illərdə Rusiya-İran müharibəsi gedişində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərinə 18 min erməni ailəsi köçürüldü. 1828-1830-cu illər ərzində isə Cənubi Qafqaza İrandan 40000, Türkiyədən isə 84000 nəfər erməni köçürüldü və onlar Yelizavetpol (1868) (keçmiş Gəncə xanlığı) və İrəvan (1849) quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı. Bu torpaqlar azərbaycanlıların əlindən alınmış torpaqlar idi. Yararlı torpaqların köçkünlərə verilməsi yerli azərbaycanlı kəndliləri narahat etməyə bilməzdi. Bu hadisələrin şahidi olan rus səfiri A.S.Qriboyedov yazırdı: «Biz onunla, həmçinin müsəlmanları onların uzunmüddətli olmayacaq indiki ağırlaşmalarla barışdırmaq və onlardan ermənilərin ilk vaxtlarda köçürüldükləri torpaqları həmişəlik tutacaqları barədə qorxunu çıxarmaq üçün müsəlmanlara olunacaq təlqin barədə çox

mülahizələr etdik. Bu mənada mənim yanımda olmuş xanla danışılmışdı». (95).

1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdilər. 1832-ci il kameral təsvirlərinin materiallarına görə, Qarabağ əyalətinin ərazisindəki 20546 ailədən 13965 – azərbaycanlılar, 6491-i isə ermənilər idi. Beləliklə, çarizmin XIX əsrin 20-30-cu illərində Şimali Azərbaycan ərazilərində apardığı köçürmə siyasəti nəticəsində yerli azərbaycan əhalisinin sayı 64,8%-ə endi, bu ərazilərə köçürülən ermənilərin sayı isə 34,8%-ə qalxdı. Əgər 1827-ci ildə Rusiyanın İrəvan xanlığını işğalına qədər burada məskunlaşmış ermənilər əhalinin 20%-ni təşkil edirdilərsə, 1834-1835-ci illərdə onların sayı 46%-i keçmişdi. Qərbi Azərbaycanın mərkəzi olan Naxçıvan diyarında da əhalinin etnik tərkibində köçürmə siyasəti nəticəsində böyük dəyişiklik baş verdi. Belə ki, 1827-ci ilə qədər Naxçıvan diyarında cəmisi 434 erməni ailəsi yaşayırdısa, köçürmə nəticəsində buraya əlavə 2551 ailə yerləşdirilmişdi. (95).

İngilis səyyahı Vilsion yazır: «Azərbaycanlılara qarşı soyqırımı siyasətinin kökləri XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq Azərbaycanda ermənilərin kütləvi şəkildə yerləşdirilməsi vaxtına təsadüf edir».

## 2.3. XIX-XX əsrin əvvəlində Şimali Azərbaycanda Çarizmin azərbaycanlılara qarşı deportasiya və etnik təmizləmə siyasəti

XX əsr bəşər tarixində çox görkəmli yer tutur. XX əsrdə Azərbaycan xalqının həyatında çox böyük hadisələr baş vermişdir. Bu əsr Azərbaycan xalqı üçün sürətli bir inkişaf dövrüdür. XX əsrdə Azərbaycan iki dəfə öz müstəqilliyini yaratmışdır. Azərbaycan öz coğrafi, siyasi vəziyyətinə, öz təbii sərvətlərinə görə bir çox dövlətlərin daim maraq dairəsində olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, «Azərbaycan hələ tam oxunmamış kitabdır».





(196).

XX əsr «müharibələr əsri» kimi yaddaşarda qalacaq. Bu yüzillik insan zəkasının gizli olan bir sıra sirlərini tarix səhnəsində açıqladı Əsrin sonuna doğru bəşəriyyət bu vaxta qədər yaşamadığı növbəti bir faciə ilə qarşılaşdı.

XIX əsrin sonlarına yaxın, XX əsrin əvvəllərində azəri qəzetləri ilə yanaşı müxtəlif vaxtlarda erməni dilində çıxan «Nor dar», «Ports», «Murc» adlı mətbuat orqanları da Ermənistan azrbaycanlılarının həyatına öz səhifələrində müəyyən yer verirdilər.

Vaxt ötdükcə Ermənistanın mətbuata verdiyi mövzuların mündəricəsi də genişlənirdi. Burada sənaye yenicə inkişaf yoluna qədəm qoyurdu. 1883-1894-cü illərdə Afrikovun, Gözəlovun, Saraçevin şərab-konyak zavodları işə düşmüşdü. 1899-cu ildə Tiflis-Aleksandropol, 1902-ci ildə Aleksandropol – İrəvan dəmir yolu çəkilib başa çatdırılmışdı. 1900-cu ildə İrəvan quberniyasında 8280 fəhləsi olan 3469 «Fabrik» və «Zavod» işləyirdi.

Gəlmə kapitalistlər yerli sahibkarları, burjuaziyanı sıxışdırır, onları «Milli qrupa» əl atmağa vadar edirdilər. Bir parça çörək dalınca minlərlə kəndli öz doğma ocağından didərgin düşərək Bakıya, Tifisə, Batuma yollanırdı. Yerli fəhlələrin sayı İrandan, Türkiyədən gələn ermənilər hesabına artırdı. Bir tərəfdən fəhlələrin sayı çoxalmaqda idi, digər tərəfdən də torpaqdan əlini yzən kəndlilərin. Təkcə Zəngəzurun Xndzoresk kəndindən 1902-ci ildə 1300 kəndli Bakıya «iş axtarmağa»» getmişdi.İrəvan quberniyasında öz ev-eşiyini tərk edənlərin sayı 20 min nəfərdən artıq idi. (158, 207)

Fəhlələr 1895-ci idəAxtalada işi dayandırıb, sahibkarlara qarşı mübarizə bayrağı qaldırdılar. 1899-1901-ci illərdə İrəvanda, Aleksandropolda I May nümayişinə çıxdılar. 1903-cü ilin may və noyabr aylarında Naxbat kəndlərinin çıxışlarından qopan səda bütün Ermənistana yayıldı. Qafan mədənçilərinin, onların ardınca Tatev, Xndzoresk, Şinuhayr kəndlərinin silahlı çıxışı başlandı.

Təşvişə düşən hökumət orqanarı qabaqcıl ziyalılara

qarşı «ciddi sayıqlıq» göstərdilər. «Məxvi» təliqələrin, məktubların sayı getdikcə artırdı. «Şübhəli», «təhlükəli» kəlmələri yazışmalarda daha çox işlədilirdi. Tələbələr, müəllimlər haqqında şəhərdən-şəhərdə, quberniyadan-quberniyaya belə gizli məktublar, təliqələr göndərilməsi adət şəkili almışdı. 1902-ci il nöyabrın 11-də Zaqafqaziya maarif orqanları tərəfindən İrəvan quberniyası xalq məktəblərinin direktoruna göndərilən 1127 saylı məktub da məhz elə həmin məqsədlə yazılmışdı. Məktubda qeyd edilirdi ki, Zaqafqaziya müəllimlər seminariyasını bitirən Süleymanovun (Rəhimov), Orucovun (Xəlilovun) və Rəhim Şıxlinskinin işə qəbul edilməsi əlahəzrətin verdiyi tapşırığa əsasən məsləhət görülmür. Əksinə, bütün il ərzində onların hər bir addımını ciddi nəzarət altında saxlamaq tələb olunur. Ona görə ki, adları çəkilən bu şəxslər, xüsusən Rəhim Şıxlinski həmin ilin baharında «müxalifətdə» fəal iştirak etmişlər.

Birinci rus inqilabı ərəfəsində vəziyyət belə idi. Qafqazda düyün düşər dərin ziddiyyətlərin dalğası anbaan Ermənistanı bürüyürdü. Milli məsələ bu ziddiyyətlərin həllində başlıca halqaya çevrilmişdi. İnqilab fırtınasını qovmaq üçün torpağı qonşu xalqların qanı ilə boyamağa tələsən çar da, millətlər arasında çaxnaşma salaraq bu yerlərə sahib olmaq istəyən xarici işğalçılar da, hakim mövqe tutmağa can atan daşnaklar,hncaqlar və digər millətçi partiyalar da yeganə çıxış yolunu milli qırğında görüurdülər. Eyni halqadan bərk-bərk yapışan, hərəsi öz qarşısında ayrıca məqsəd qoyan bu tərəflər üçün Milli ədavəti qızışdırmaq başlıca çıxış yoluna çevrilmişi.

Belə gərgin şəraitdə, 1903-cü il iyunun 12-də çar hökuməti erməni kilsəsinin torpaqlarını, əmlakını zəbt etmək haqqında qanun qəbul etdi. Müstəmləkəliçilik, ruslaşdırma siyasətinin bu yeni təfəkürü ümumxalq qəzəbi və etirazına səbəb oldu. Kəndli də, fəhlə də, ziyyalı da, ruhani də ayağa qalxdı. Xalq mübarizəsi alovu bütün Ermənistana yayıldı. Şəhərdə, kənddə kütləvi nümayişlər, hətta silahlı toqquşmalar başlandı.





Qəribədir ki, daşnak partiyasının tor-töküntüləri hələ indi də döşlərinə döyür, çarizmin mürtəce Milli müstəmləkəçilik siyasətinə qarşı qalxan bu ümumxalq hərəkatını öz xidmətlərinin bəhrəsi kimi qələmə verməyə çalışırlar. Tehranda çıxan «Alik» qəzeti «Mübarizə yolu» başlığı altında dərc etdiyi məqalədə 12 iyun hadisəsi ilə əlaqədar olaraq yazır: «Daşnaksütyun elə bir sıx və sarsılmaz Milli müdafiə səddi yaratdı ki, hətta çar Rusiyası öz möhtəşəm əzəməti ilə geri çəkilməyə və daşnaksütyunun gücü ilə hesablaşmağa məcbur qaldı» (30).

1904-cü ildə «Listok borbı proletariata» qəzetində dərc edilən «Yerevandan, erməni həyatından» məqaləsində S.Şaumyan yazırdı ki, daşnaksütyun erməni millətinə şovinizm zəhəri yoluxduran ən prinsipsiz, ən mürtəce partiyadır. Daşnakların siyasətini ifşa etmək, həqiqəti erməni zəhmətkeşlərinə çatdırmaq gərəkdir. (278). Həmin ilin mayında hətta Qafqaz bolşeviklərinin üçüncü qurultayı da qeyd etdi ki, Ermənistanda daşnakların fəaliyyəti genişləndirilməkdədir. Buna qarşı erməni kəndlərində kütlələri burjua millətçi partiyaların hər cür təsirindən xilas etmək gərəkdir. Lakin qabaqcıl ictimaiyyətin bütün səylərinə baxmayaraq, bu fitnəkarlıq baş tutdu. Martın əvvəllərində İrəvanda və onun ətrafındakı kəndlərdə, Naxçıvanda kütləvi qırğın başlandı. Fevralın 6-9-da Bakıda baş verən qanlı hadisələrin davamı olan bu soyqırım haqqında xəbər yenidən ildırım sürəti ilə bütün Qafqaza yayıldı. Daşnaksütyun partiyası milli ədavət alovunu, etnik münaqişə tonqalını aravermədən körükləməyə başlamışdı. Qafqazın bütün bölgələrində, ən çox da indiki Ermənistan ərazisində mauzerçi xmbapetlər qadın və kişi, uşaq və qoca demədən azərbaycanlıiara qarşı amansızlıq və qəddarlıqla terror, soyqırımı törətdilər. «İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi». (242).

Davakar daşnak dairələrin silahlı dəstələri Türkiyə əra-

zisindəki məğlubiyyətin əvəzini çıxmaq üçün Qazax və Gədəbəy bölgələrindən hücuma keçmişdilər. Məqsədləri Yelzavetpol quberniyası, Nova Bayazet qəzası və Göyçə mahalınadək bütün müsəlman kəndlərini tutmaq idi. Həmin kəndlərin əhalisinin bir qismini qılıncdan keçirir, bir qismini də didərgin saldılar. İrəvandan «Novoe vremya» qəzetinə göndərdiyi məktubunda Qriqoryev familiyalı bir müxbir etiraf edirdi ki, müsəlmanlara divan tutanların 80 faizi Türkiyədən gələn ermənilərdir. Şavrov da bu faktı təsdiq edərək yazırdı ki, 1896-cı ildən sonra Cənubi Qafqaza 400 min erməni gəlmişdir. Türkiyə ərazisində əldə etdikləri cəlladlıq təcrübəsini də elə onlar özləri ilə Qafqaza gətirmişlər. (182)

1905-1907-ci illərdə erməni daşnakları xalqımızı məhv etmək, torpaqlarımızı ələ keçirmək üçün Azərbaycanın bir çox bölgələrində – İrəvanda, Göycə mahalında, Zəngəzurda, Qarabağda, Naxçıvanda, Şamaxıda və Bakıda ağlasığmaz qırğınlar törətmişlər.

1905-ci il soyqırımının ilk qığılcımı Bakıda alışıb. Fevralın 6-da 9 yanvar bağında ermənilər Ağarza Babayev adlı bir nəfəri öldürdülər. Bunun qisasını müsəlmanlar Artyom adlı vaqon bələdçisndən aldılar. Sanki neftə od vuruldu. Ara qızışdı, qisas dalınca qisas... Axşam xəstəxanaya on üç meyid gətirildi. Kütləvi qırğın belə başladı. Yanğın alovu sürətlə yayıldı. Naxçıvanı, Şuşanı, İrəvanı, Zəngəzuru bürüdü...

Qeyd etməliyik ki, Maştağa camaatı 1905-ci il müsəlman qırğını zamnı da çox böyük mətanətlə düşmənə qarşı vuruşmuşdur, onun məkrli niyyətinin qarşısını almışdır. Deyilənə görə, həmin dövrdə kənd camaatını ermənilərə qarşı ayağa qaldıran, onların mübarizəsinə başçılıq edənlər arasında axund Mir Əbdülqəni ağa böyük rol oynayıb. Onun uzaqgörənliyi, müdrik məsləhətləri sayəsində ermənilər qovulub, kənd əhalisinə böyük xətər dəyməyib. (123a).

1905-ci il erməni-müsəlman davasında Maştağada xalqı səfərbər edənlər arasında Mir İbrahim ağanın, Əziz Əbdüləzim oğunun (Qoçu Əziz), Məşədi Cəbrayıl Əbülhəsən oğlunun Kərbəlayi Fəraməz Əbülhəsən oğlunun, Məşədi Hüseynbala Hacı Məhəmmədəli oğlunun, Mola Cəfərqulu, Qurbanqulu, Dərmanqulu və Hacı Əlimirzə Talıb oğlanlarının, Əliməhəmməd Kərbəlayı Heybətqqulu oğlunun və başqalarının adı bu gün də böyük ehtiramla yad edilir. (182).





Maştağa kənd ağsaqqallarının verdiyi məlumata görə, 1905-ci il erməni-müsəlman hadisələrində Maştağa cavanlarının bir qrupu Azərbaycanın başqa bölgələrində də ermənilərə qarşı mərdliklə vuruşmuşdur. 1905-ci il Xocalı ermənilər tərəfindən işğal olunanda Mir İbrahim ağa Maştağada böyük bir dəstə yığaraq, Qarabağ uğrunda döyüşlərdə iştirak edib və Xocalının geri alınmasında fəal rol oynayıb. (123a).

Həmin dövrdə Qarabağa köməyə gedənlər arasında Keşlə kəndindən İzzət xanım övladları ilə birgə silaha sarılmış, Qarabağın azad olunmasında iştirak etmişdir. (123a).

Hazırda onun şəkli Türkiyə muzeylərinin birində saxlanılmaqdadır.

Xalq daha çox «Müsavat» partiyasına inanırdı və onun ideyalarını bəyənirdi. Buna görə də hər yerdə bu partiyanın özəyi yaradılmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda çox partiyalar olub. Xüsusilə 1905-ci ildə müsəlman qırğını ərəfəsində yaranan partiyalar xalqı müdafiə etmək, Milli münaqişəni aradan qaldırmaq, bu qırğının əsl səbəbkarlarını tapıb əhaliyə tanıtmaq məqsədi daşıyırdı. Bakıda baş verən bütün ictimai-siyasi hadisələrin əks-sədası mütləq Bakı kəndlərində, ilk növbədə, Maştağada eşidildi. Bu cəhətdən XX əsrin əvvəllərində (1902) M.Ə.Rəsulzadənin rəhbərliyi altında yaradılmış «Müsəlman gənclik təşkilatı», yenə M.Ə.Rəsulzadənin təşəbbüsü ilə yaranmış «Müsəlman sosial-demokrat «Hümmət» təşkilatı», Əhməd bəy Ağayevin rəhbərliyi ilə «Difai» (müdafiə) partiyası fəaliyyət göstərirdi.

Həmin dövrün hadisələri, çox təəssüf ki, Azərbaycan tarixşunaslığında lazımi səviyyədə işlənməmişdir. Maştağa-

dan, eləcə də Bakının digər kəndlərindən Qarabağın dar günündə kömək əlini uzadan qəhrəmanların bu şücaəti hələ də tədqiq olunmamışdır.

Ələkbər bəy Rəfibəylinin qısaca tərcümeyi halı.

Ələkbər bəy Rəfibəyli Gəncənin tanınmış ailələrindən biri olan Həsən bəyin oğludur. Uzaqgörən və açıqfikirli Həsən bəy o dövrdə xalqın çox fanatik, dindar vəziyyətinə baxmayaraq, oğlunu Gəncədə rusların açmış olduğu «Progimnaziya» adlı məktəbdə oxutmuşdu. Ələkbər bəy məktəbi bitirdikdən sonra müxtəlif dövlət idarələrində çalışmış, Ağdaş qəzasının rəisi vəzifəsindən təqaüdə çıxmışdı. Bundan sonra Ələkbər bəy bütün ömrünü və gücünü yurdunun, xalqının mədəni, iqtisadi, sosial və siyasi inkişafına sərf etmişdi. İstər məmur, istərsə də təqaüddə olduğu zaman mərd davranışları ilə xalq arasında böyük hörmət qazanmış və hər zaman xalqın sevimlisi olmuşdur. Ələkbər bəy 1920-ci ildə, bolşeviklər tərəfindən Azərbaycan işğal edildikdən iki-üç ay öncə, səksən yaşında Gəncədə vəfat etmişdir. Gəncə ruslar tərəfindən işğal edildiyi zaman Gəncə quberniyasının general-qubernatoru olan oğlu Xudadat bəy Rəfibəyli vəhşicəsinə güllələnir. Yaşıdlarımdan eşitdiyimə görə, Ələkbər bəyin yaxşı cəhətlərini saymaqla bitməz. Ucaboylu, enlikürəkli, sərt baxışlı, ciddi görkəmli, gözütox, məntiqlə danışan, mərd, mədəni, vətənsevər bir xalq rəhbəri imiş. Milli mübahisələrin həll olunmasını öz üzərinə götürmüş və Gəncə camaatına olduğu kimi, Azərbaycan xalqına da çox xeyri dəymişdir. Gəncədə «Difai» partiyası yarandığı zaman partiyanın rəhbərliyini üzərinə götürmüş və yuxarıda qeyd etdiyimiz kimi, Gəncədə ermənilərə qarşı müvəffəqiyyətlə aparılan döyüşü ustalıqla və cəsarətlə idarə etmişdir.

Sovet tarixçiləri azəri xalqının qəhrəman oğullarının adlarının unudulması üçün əllərindən gələni edirdilər. Bu səbəbdən Azərbaycanda Ələkbər bəy kimi yüzlərlə igidlərin adları «adsız» şəhidlər siyahısına qarışmış və yox olmuşdur. Mən əlimdən gəldiyi qədər sənəd tapa biləcəyim şəxslərin





xatirələrini bu kitabda toplamağa çalışacağam (H.B.)

Nəhayət, qırğının qara dalğası Gəncəyə də gəlib çatdı. 1905-ci il noyabr ayının 18-də Toğana kəndinin sakinləri Bayram Məşədi Məhəmmədəli oğlu, Mehrəli Zeynal oğlu, Əmrah Həsən oğlu və Mirzə Məhəmmədəli oğlu Kolanı yolu ilə evlərinə gedərkən ermənilər tərəfindən şiddətli atəşə tutuldular.

Bayram Məhəmmədəli oğlu və Mehrəli Zeynal oğlu qətlə yetirildi. Cəsədləri götürməyə heç yaxına düşə bilmədilər. Bağlarda, küçələrdə, yol-izdə yüzlərlə silahlı erməni pusquda dayanıbmış...

Şəhərin hər yerindən bir-birinin ardınca qətl və qarətlər barədə həyacanlı xəbərlər gəldi. Abbas Həsənoğlunu beş nəfər erməni Dərəbağın başında öldürüb. Qaraçinarda Əmiraslan Əlipaşa oğlunu, Cabbar Hüseyn oğlunu, Rüstəm İsmayıl oğlunu, Rza Cəbrayıl oğlunu güllələbaran ediblər. Bağların birində başı kəsilmiş bir iranlının cəsədi tapılıb. Zurnabaddan gələn iki nəfəri qolları bağlı arxa atıblar. Dəyirmançı Kərbəlayı Fərəc Həsən oğlunu tikə-tikə doğrayıblar. Qısa bir vaxtda ermənilər otuz nəfərdən çox silahsız, günahsız müsəlmanı qətlə yetirdilər.

İyun ayının 3-də Abaran ölkəsindən Şoraqgöl, Pənbək, Aleksandropol erməniləri bir yerə yığışıb, Uşu adlı İslam kəndinə hücuma keçdilər. Səkkiz saat şiddətli müharibədən sonra ermənilər davam gətirməyib, bir çox tələfatdan sonra qaçmağa məcbur oldular Axşama iki saat qalmış erməni bölükləri hər tərəfdən yenidən hücuma başladılar. Bir qoca erməni kişisi başı üstündə hərbi bayraq müharibəyə məxsus mahnılar oxuyur, piyada bölükləri hərbə ruhlandırırdı.

Ermənilərin vəhşiliyini görən Paşa Budaq oğlu arvaduşağı məsciddən çıxarıb yolsuz keçidlərlə apararaq, yüksək yaylaqlarda Sürməli kürd tayfalarının himayəsinə tapşırır. Axşam alaqaranlıqda davam edən xəncər müharibəsində dörd nəfər: iki əlil kişi, iki qoca şəhid oldu. Müsəlmanlar xəncərlə, ermənilər isə tüfənglə müharibə ediirdilər. Bir nə-

fər müsəlmanın qarşısına on beş nəfər erməni çıxırdı. Ermənilər hər tərəfdən kəndə od vurdular.

İyunun 9-da aşağıda adları qeyd edilən kəndlər dağıdılaraq, məşhur Təkəyə adlı islam kəndi üzərinə hücum başlanır. Dağılmış kəndlər bunlardır: Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, Anpur çayının sahilində İrgu və Əngirsək.

İyun ayının 9-cu günü saat 12 radələrində erməni daşnakları tərəfindən yenidən Təkəyə adlı İslam kəndinə hücum oldu. Müsəlmanlar tamailə silahsız, ermənilər isə mükəmməl silahlı. Axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadə cənablarının böyük imarətlərinə od vurulub, iki yüz cild Quran və müqəddəs kitablar da yandırıldı. Quranları ermənilər süngülərə keçirib, məşəl kimi yandırırdılar. Məscidə o qədər güllə vurmuşdular ki, divarlar bal şanı kimi dəlik-dəlik olmuşdu. Sonralar məscidin minbərini və sair müqəddəs əşyaları da odlamışdılar. İyun ayının 10-da Eçmiədzində 9 məşhur İslam kəndi dağıdıldı, hökumət isə hes bir tədbir görmədi.

Gəncədə müsəlmanların soyqırımı başlandı. Bu qanlı olaylar noyabrın 18-dən 24-dək davam etdi. O vaxt bu haqda çox deyilib, yazıldı. «Vozrojdeniya»dan tutmuş «Kafkaz»a, «Kaspi»yə kimi. Niyə belə oldu? Kimdir müqəssir? Müqəssir isə göz qabağında idi. Elə birinci günü aydın oldu ki, toğanalılara ilk atəş açan və üç nəfər soydaşımızı qətlə yetirən Qrişa Avetisov və Qriqor Tiyunovdur. İkisi də «Daşnaksütyun» partiyasının üzvü, məxsusi bu qəfil qırğın üçün hazırlanmış qanlı cəllad! Sonrakı hadisələrin də kələfi yavaş-yavaş açıldı. Hamı əsl həqiqəti bildi, əsl qaniçəni gördü, əsl müqəssiri bir daha tanıdı. Hamı! Erməni fitnəkarı İ.Alibekovadan başqa.

«Yelziavetpolskiye krovavie dni pered sudom obşestva» adlı cızma-qara kitabı oxuduqca, düzü, adam sarsılır. Ünvanımıza nələr deyilmir?! Hər kəlməbaşı hikkə, hədə, söyüş, «vəhşilər», «nadanlar», «alçaqlar»... İlahi, adam (əgər İ. Alibekov kimilərə adam demək olarsa) bir xalq, bir millət haqqında yalandan, qəsdən nə qədər haqsız, acı söz deyə bilərmiş.





1905-ci il noyabr ayının 18-də Gəncə uyezdi Toğana kəndinin sakinləri Bayram Məşədi Məhəmmədəli oğlu, Mehrəli Zeynal oğlu, Əmrah Həsən oğlu və Mirzə Məhəmməd Əli oğlu gündüz saat 6-7 radələrində erməni hissəsi yolu ilə evlərinə üç at yükü buğda apardıqları vaxt bağların arxasından üstlərinə güllə yağdırılır. Bu gülləbaran əsasında Bayram Məhəmmədəli oğlu, Mehrəli Zeynal oğlu öldürülür.

Qatillərin Gəncə sakinləri Qrişa Santeryansın oğlu Avetis Avetisovun, Qriqor Tiyunovun və onların yoldaşlarından ibarət olduğu meydana çıxır.

Daşnaksütyun vəhşilərinin Gəncədə azərbaycanlılara qarşı soyqırımı:

-Noyabrın 8-də beş nəfər daşnaksütyunçu Bəhmənli sakini Abbas Həsən oğlunu Dərəbağın bağında öldürmüşlər.

-Qoşa çinar adlanan erməni hissəsində heç bir səbəb olmadan Əmir Aslan Əli Paşa oğlunu, Cabbar Hüseyn oğlunu, Rüstəm İsmayıl oğlunu, Rza Cəbrayıl oğlunu və Mola Cəlilli, kəndin başqa sakinlərini gülləbaran ediblər. Canilər isə Avetis Oqanesov, papaqçı Qrişa, Vaso Amospirov və başqalarından ibarət imiş.

-Kazaklar bədəni başsız, qolları dalından bağlanmış bir iranlının cənazəsini tapırlar. Ermənilər tərəfindən həlak edilibmiş.

General Malamaya bu barədə məlumat verilir. Yenə Məşədi Sadıq adlı bir müsəlmanın ermənilər tərəfindən doğranmış bədəni tapılır.

-Noyabr ayının 12-də ermənilər Amospirovun dəyirmançısı Kərbəlayi Fərəc Həsən oğlunu öldürmüşlər. Canilər isə danaksutyunçular imiş.

-Noyabrın 16-da Azad kəndinin yuxarısında, Böyük Kaloniya küçəsində Zurnabatddan gələn iki nəfər erməni Qasım Böyükkişi oğlunu və başqa adsız bir Bəhmənli sakini

tutub, qollarını bağlayıb arxaları üstə qoyublar.

-Noyabrın 18-də ermənilər Tğanlı kəndinin sakini Bayram Məşədi Məhəmmədəli oğlunu öldürürlər, necə ki, hadisələrin əvvəlində deyilmişdir. Bunlardan məlum olur ki, ermənilər indiyə kimi 30 nəfər silahsız və günahsız azərbaycanlını qətlə yetiriblər. (147).

1905-ci ildə 10 mindən çox azərbaycanlını qısa vaxt ərzində qətlə yetirdilər. 158 kənd yandırılır, qarət olunur. Yaponiyanın Rusiya üzərində qələbəsi müvəqqəti olaraq bu qırğınların səngiməsinə səbəb olur. M.S. Ordubadi bu faciələri «Qanlı sənətlər» kitabında bütün reallıqları ilə əks etdirməyə çalışmışdır.

Sözü gedən təşkilatların fəaliyyət proqramında azərbaycanlılara qarşı terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tuturdu. 1905-1907-ci illərin Rusiya inqilabı bu təşkilatların fəaliyyəti üçün «geniş imkanlar» açdı. İnqilabi qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törətdilər, 75 azərbaycanlı kəndini talan etdilər. 1905-1907-ci il inqilabından sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi örtülü şəkildə davam edirdi. Bunu Rusiya imperiyasının o vaxtkı statistik məlumatları da təsdiqləyir.

Xalqımızın arasında süni şəkildə ikitirəlik salan, sünni-şiə qarşıdurması da məkrli ermənilərin əlində böyük bir vasitə, güclü bir silah olmuşdur. Tarixi sənədlər bir daha sübut edir ki, 1905-1907-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində olan ermənilər şaiyə yayırlar ki, «ermənilərin sünnilərlə heç bir işi» yoxdur. Belə bir yalanın nə ilə nəticələndiyini gözləri ilə görmüş publisist, mollanəsrəddinçi Ö.F.Nemanzadə 1906-cı ildə «İrşad» qəzetində yazırdı: «Ağla, əzizim, ağla ki, ancaq düşmənlərimiz bizi nə qədər binamus və şərəfsiz hesab edirlər ki, araya, guya, şiə-sünnü nifaqı salıb, yenə bizi qəflət, cəhalət əksimizlə kəsmək istəyirlər...Mən məətələm ki, ermənilərin «bizim sünnülərlə işimiz yox» yalan və fitnələrinə inananlar nə cür camaat arasında qalırlar.





Nə üçün «məcnunxanalara» getmirlər? ... Kimdir deyən ki, ermənilərin sünnülərlə işi yoxdur. Ayə, Zəngəzur, Qazax mahalında ermənilərin viran etdikləri kəndlərin, şəhid etdikləri canların çoxu sünnü deyilmiydi? Ayə, Tiflisdə şəhid edilən qalayçı ləzgilər sünnü deyilmidilər? Ayə, Tiflisdə talan edilən və yanan evlərin bir xeylisi dağıstanlı, şəkili sünnülərimi deyilmi? Mən qanmıram ki, bir müsəlman öldürərkən demir ki, sən şiyəsən, ya sünnü? Noyabr vüqudatında bir erməni bir silahsız sünnünü öldürmək istəyəndə, sünnü guya, canını qurtarmaq üçün erməniyə başladı ki,a, qonşu! Siz deyirsiniz sünnü ilə işimiz yoxdur, bil ki, mən sünnüyəm, mənə dəymə! Erməni cavabında: a, bəli, Osmanlıda bizim erməni balalarını nizəyə taxanlar siz sünnülər deyildiniz? Biz sünni-şiyə bilmirik, müsəlmanların Qafqazda kökünü qazıyacağıq». (241a).

Məqaləni ürək ağrısı ilə qələmə alan müəllif, axırda üzünü bütün müsəlman əhlinə tutur və onlara bir daha erməni fərəldağını, erməni məkrini açıb göstərirdi: «Amma Şəki, Şamaxı, Dağıstan və qeyri-yerlərdəki hiyləgər ermənilər deyirmişlər ki, bizim sünnülər ilə işimiz yoxdur. Əlbət, özlərinin gücləri çatmadıqları, az olduqları yerlərdə çalışırlarmış ki, aranı qatsınlar. Ayə, bu mərhəmətli «kirvələrin», həm məzhəbləri nə üçün Zəngəzur, Qazax, Tiflisdə belə demədilər və demirlər». (241b).

Məlum həqiqətdir ki, 1902-ci il zəlzələsi Şamaxını yerləyeksan etmişdi. Şəhərdə və onun ətraf kəndlərində minlərlə insan qırılmış, bir çoxları şikəst olmuşdu.

1902-1905-ci illərdə zəlzələnin ağrı-acıları təzəcə unudulurdu ki, Şamaxıda erməni soyqurumı baş verdi.

Əldə etdiyimiz məlumatlardan bəlli olur ki, ilk əvvəl, açıqdan-açığa fəaliyyət göstərə bilməyən ermənilər gizlincə «Şamaxıda bir çox mülkləri yandırmış, «sünnü və şiyələr»i bir-birinə qarşı qoymaqla müsibətlər törətmişlər. Eləcə də Şamaxıda olan ermənilər Tiflis, Qazax, Gəncə, Şuşa və Cəbrayılda soyqırımı törədənlərə hər cür maddi köməklik göstə-

rə bilmişlər. Nəticədə «Böyük Ermənistan» xülyasının icraçıları 1905-1907-ci illərdə yüzlərlə Azərbaycan kəndini viran qoymuş, əhalisini ev-eşiklərindən didərgin salmışlar». (134a).

O zaman erməni cəlladlarının Qarabağda törətdikləri cinayətə qarşı etirazını ifadə edən görkəmli şair M.Ə.Sabir şamaxılaların Qarabağda soyqırımına məruz qalmış insanlara etdikləri köməklik haqqında məlumat verir: O, 6 avqust 1906-cı il tarixində «Həyat» qəzetində çap etdirdiyi məqaləsində yazır: «Bəli, Şamaxı əhli öz-milləti – nəcibeyi – islamiyyələrinə qarşı ürəklərində bəslədikləri məhəbbəti – qeyrəti məndanələri, təhəyyücüdən Qarabağ facineyi-müəssifəsindən əsarətlərə dücar olan sevgili qardaşlarını düşmənlərin zalimanə və biarəhmanə sui-qəsdlərindən müdafiə müqtədir olmadıqlarından yaralanmış ürəklərinə məlhəm olaraq, bir yanda ianə dəftəri açılmışdır». (271).

Çar hökuməti tərəfindən aparılan bu məqsədyönlü siyasət bütün XIX əsr boyu davam etmiş və nəticədə Şimali Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı çar məmuru və publisist N.Şavrovun 1911-ci ildə yazdığı kimi, «Cənubi Qafqazda hazırda yaşayan 1 mln. 300 min erməninin 1 mln nəfəri yerli əhali olmayıb, bizim tərəfimizdən köçürülənlərdir». Şimali Azərbaycanda onların sayı 1913-cü ildə 546,8 min nəfər idi. (95).

«Daşnaksütyun» təşkilatının terrorçuluq siyasəti 1912-1914-cü illərdən sonra daha da genişlənməyə başladı. Bu illərdə İrəvan-Zəngəzur ərazilərində meydan oxuyan qatı millətçi Andronikin başçılıq etdiyi dəstə ağlasığmaz cinayətlər törətməklə yanaşı, minlərlə azərbaycanlını öz dədə-baba yurdlarından didərgin salmış, neçə-neçə kənd və şəhəri xarabazara çevirmiş, yüzlərlə tarixi abidələrimizi məhv etmişlər. «Azərbaycanlılara qarşı mütəşəkkil soyqırımını, etnik təmizlənmə əməliyyatını ermənilər geniş miqyasda, I Dünya müharibəsinin başladığı 1914-cü ildən etibarən daha da genişləndirdilər…





I Dünya müharibəsinin başlanması XX əsrin əvvəlində bir-birinə qarşı duran iki hərbi-siyasi blokun – «Antanta» və «Dördlər ittifaqı»nın dünyanı yenidən bölüşdürmək cəhdi idi. «Antanta» blokuna daxil olan İngiltərə, Rusiya və Fransanın bu müharibədə Almaniyanın müttəfiqi olan Osmanlı Türkiyəyə qarşı hərbi və siyasi planlarında ermənilərdən təziq vasitəsi kimi istifadə xüsusi yer tuturdu. 1915-ci il aprelin 24-də 2345 nəfər erməni terrorçusunun Türkiyə hökuməti tərəfindən həbsini «soyqırımı» kimi qələmə verən erməni kilsəsi və millətçi təşkilatları türk xalqına dəhşətli böhtan atmaqla bərabər, öz himayədarları olan Rusiya, Fransa və İngiltərənin təhriki ilə gerçəkləşməsi mümkün olmayan bədnam xəyali planlar naminə öz qanlı əlləri ilə 302 min ermənini qətlə yetirdilər. Öz xalqına qarşı bu cinayəti və vəhşiliyi yalnız və yalnız ermənilər törədə bilərdi. Çünki, hələ 1907-ci ildə Eçmiədzin Sinodunun prokuroru A.Frenkel Rus Provoslav Kilsəsinin Müqəddəs Sinoduna təqdim etdiyi rəsmi məxfi sənəddə belə yazırdı: «Erməni xalqının tarixi taleyi təkzibolunmaz dəqiqliklə bu xalqın tam olaraq öz dövlətini, dövlət orqanizmini yaratmaq və sivil insanlığın yaratdığı ali dəyərləri qəbul etmək iqtidarında olmadığını sübut etmişdir…. Mənsəbpərəstlik, qonşularla düşmənçilik, xəyanət, satqınlıq, riyakarlıq və alçaqlıq elə bil ki, bu tayfaya məxsus ən başlıca milli xüsusiyyətlərdir». (95).

Təkcə onu qeyd etmək kifayyətdir ki, Andranik Ozaniyanın başçılıq etdiyi erməni hərbçiləri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda – Xoy, Salmas, Dilman əyalətlərində 130 min, Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadığı Qars, Sarıqamış, Ərdəhan, Kazıman, Ərzurum bölgələrində isə 200 min azərbaycanlı qırmışlar». (201).

1917-ci il oktyabr inqilabından sonra V.İ.Leninin göstərişi ilə «Daşnaksütyun» təşkilatının ən fəal üzvü, millətçi S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə Vəziyyət Komissarı təyin edildi. «Bakını ələ keçirməyə, burada

sovet hakimiyyətini qurmağa və qeydsiz-şərtsiz olaraq onun sərhədlərindən Rusiyanın mənafeyi üçün istifadə etməyə çalışırdı. Elə bu məqsədlə də Rusiya dövlətinin başçısı V.İ.Lenin bolşevizm maskası altında gizlənmiş Stepan Şaumyanı Bakıya xüsusi tapşırıqla göndərmiş və ona çox böyük səlahiyyət vermişdir». (238a).

Çoxdan belə bir fürsət axtaran Şaumyan gizli şəkildə işə başladı. İlk əvvəl Bolşevik Ordusunun tərkibində erməni millətçilərini daha çox cəlb etdi. Mənbələrdən bəlli olduğu kimi Şaumyanın Bakıda yaratdığı üç mindən artıq ordunun tərkibini əsasən, terrorçu ermənilər təşkil edirdi. Bundan əlavə, o, bölgələrimizdə «bolşevik ideyaları uğrunda mübarizəyə qoşulan» daha bir çox ermənini silahlandıra bilmişdi. Bakıda yaradılan bu ordunun əsgərləri elə ilk vaxtlardan azərbaycanlılara qənim kəsilməyə başladılar.

V.İ.Lenin başda olmaqla, Sovet Rusiyası Zaqafqaziyada və bütün Qafqazda öz hakimiyyətini qurmaq üçün Bakı Sovetinə hər cür hərbi, maddi və diplomatik yardım göstərirdi. İlk növbədə, Bakıda hakimiyyəti saxlamaq, möhkəmləndirmək və bütün regionda yaymaq üçün güclü ordunun yaradılmasına böyük səy göstərilirdi. 1917-ci ilin sonlarından Bakıda qırmızı qvardiya dəstələri adı altında ordu yaradıcılığına başlanıldı. Qafqaz ordusunun Hərbi İnqilab Komitəsi Tiflisdən Bakıya köçdükdən sonra Sovet hakimiyyətinin silahlı qüvvələrinin təşkili sahəsində böyük iş aparıldı.

Qeyd edək ki, Bakıda mart soyqırımı planı hələ 1917-ci ildən «Daşnaksütyun» partiyası və erməni milli komitəsi tərəfindən hazırlanırdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş qaydada həyata keçirilirdi.





1917-ci ildə Rusiyada baş verən fevral inqilabı və oktyabr çevrilişi imperiyanın süqutuna səbəb oldu. Bundan sonra öz talelərinin sahibi olmağa çalışan keçmiş müstəmləkə xalqları, o cümlədən azərbaycanlılar 1918-ci ildə Şimali Azərbaycan torpaqlarında ümumi ərazisi 114 min km$^2$ -dən çox olan Azərbaycan Xalq Cümhuriyyətinin yaratdılar. Lakin, AXC-nin yaradılmasına qədər Azərbaycan xalqı öz milli tarixində ilk dəfə rus-bolşevik və erməni-daşnakları tərəfindən törədilən geniş miqyaslı və saysız-hesabsız qurbanları ilə insanlığı lərzəyə salan ən dəhşətli cinayətə, soyqırımına məruz qaldı. 1917-ci ilin aprelindən 1918-ci ilin aprelin 1-dək Şimali Azərbaycanın Bakı, Elizavetpol və İrəvan quberniyaları ərazilərinə daxil olan, Bakı, Quba, Lənkəran, Cavad. Elizavetpol, Cavanşir, Qaryagin, Zəngəzur qəzalarında 40 mindən çox azərbaycanlı – yaşından asılı olmayaraq uşaq, qadın, kişi qətlə yetirildi. Təkcə Bakı şəhrində 1918-ci il 30, 31 mart və 1 aprel tarixlərdə AXC-i Fövqəladə Dövlət Komissiyasının 1919-cu ildə verdiyi məlumata əsasən 12 min nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. (95).

# III FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN (AXC) YARANMASI VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI MƏSƏLƏLƏRİ DÖVLƏT SƏNƏDLƏRİNDƏ

## 3.1.AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC), (1918-1920)



Azərbaycan Demokratik Respublikası, Azərbaycan Respublikası – müsəlman Şərqində ilk dəfə demokratik respublikasının əsasını qoymuş müstəqil Azərbaycan dövləti. 1918-ci il mayın 28-də yaradılmış, cəmi 23 ay yaşamışdır (1918, 28 may – 1920, 28 aprel). Olduqca qısa müddətdə, həm də ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, AXC-nin həyata keçirdiyi tədbirlər (milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquq verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, Azərbaycan dilinin dövlət dili elan olunması, demokratik dövlət quruculuğunun başlanması, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış uğurlu addımlar və s.) Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır.

Rusiyada mütləqiyyəti devirərək, Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoymuş və demokratik azadlıqlara yol açmış 1917-ci il fevral inqilabı AXC-nin yaranması üçün real şəraitin təmin olunmasında mühüm rol oynamışdı. Yeni yaranmış, yaxud fəaliyyətlərini bərpa etmiş partiyalar arasında geniş nüfuzu ilə fərqlənən «Musavat» partiyasının 1917-ci il oktyabrın 26-da Bakıda keçirilmiş I qurultayında Milli muxtariyyət tələbləri qətiyyətlə irəli sürüldükdən sonra Bakıda və Azərbaycanın bütün qəzalarında «Azərbaycana muxtariyyət» şüarı altında Milli hərəkat başlanmışdı (bu dövr Azərbaycan tarixinə «Milli Azərbaycan hərəkatı» dövrü kimi daxil olmuşdur).





1918-ci il aprelin 22-də Rusiya Müəssisələr Məclisinə Zaqafqaziyadan seçilmiş (1917, 26 noyabr) deputatlardan ibarət Zaqafqaziya Seymi Cənubi Qafqaz ərazisində müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradıldığını elan etdi. Zaqafqaziya hökumətinə daxil olan 13 nazirdən 5-i, (o cümlədən yollar naziri X.Məlikaslanov, ədliyyə naziri F.Xoyski, maarif naziri N.Yusifbəyov, ticarət naziri M.N.Hacınski, dövlət nəzarəti naziri İ.Y.Heydərov) azərbaycanlı idi. 1918-ci il mayın 26-da fraksiyalararası çəkişmələrə son qoya bilməyən Zaqafqaziya Federasiyası Gürcüstanın öz müstəqilliyini elan etməsi ilə süquta uğradı. Mayın 27-də seymin müsəlman fraksiyasına daxil olan partiyaların üzvlərindən ibarət Azərbaycan Milli Şurası (AMŞ) yarandı (sədri M.Ə.Rəsulzadə, müavini H.Ağayev). Mayın 28-də Tiflisdə Rusiyanın Qafqaz canişini sarayının Mavi Salonunda AMŞ-nin iclasında AXC-yaradıldığı (lehinə-24, bitərəf-2) elan edildi və 6 bənddən ibarət «Azərbaycanın istiqlal bəyannaməsi» qəbul olundu. Mayın 30-da bitərəf F. Xoyskinin başçılıq etdiyi hökumətin tərkibi təsdiq olundu və Azərbaycanın öz istiqlaliyyətini elan etməsi barədə məlumat dünyanın böyük dövlətlərinin paytaxtlarına çatdırıldı. AXC hökuməti iyunun 16-da Gəncəyə köçdü və öz mətbu orqanını – «Azərbaycan» qəzetini nəşr etməyə başladı. Sentyabrın 15-də Bakı şəhəri erməni-daşnak-kommunist güruhunun işğalından azad edildikdən sonra AXC hökuməti öz iqamətgahını buraya köçürdü.

1918-ci il noyabrın 19-da (noyabrın 17-də ingilislər Bakını tutmuşdular) AMŞ iclasında 120 nəfərdən ibarət parlament yaratmaq haqqında Azərbaycan hökumətinin təqdim etdiyi qanun layihəsi qəbul olundu.

Dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclası keçirildi. Parlamentin ilk tədbirlərindən biri Azərbaycanın istiqlaliyyətinin tanınmasına nail olmaq üçün Ə.M.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına nümayəndə heyəti göndərməkdən ibarət olmuşdu (nümayəndə heyətinin müstəsna səyləri sayəsində 1920-ci il yanvarın 11-də Paris Konfransının Ali Şurası AXC-nin müstəqilliyini de-fakto tanıdı). Ümumiyyətlə, mövcud olduğu dövrdə (1918, 7 dekabr – 1920, 27 aprel) parlamentin 140-a qədər iclası olmuşdur. Bu iclaslarda hökumətin təqdim etdiyi 315 qanun layihəsi (bunlardan 10-12-si rədd edilmiş, qalanları barədə onların komissiyalarda müzakirəsi davam etdirilmişdi) nəzərdən keçirilmişdi (bunlardan 82-si maliyyə nazirliyi, 32-ci ədliyyə, 24-ü daxili işlər, 19-u xalq maarif, 12-si torpaq, 10-u sosial təminat nazirlikləri, 9-u hərbi nazirlik və b. tərəfindən təqdim edilmişdi).

AXC dövründə 5 dəfə hökumət təşkil edilmişdi. Birinci üç hökumətə (28.05.1918-14.03.1919) F.Xoyski, 4-cü və 5-ci hökumətlərə (14.03.1919-30.03.1920) N.Yusifbəyli başçılıq etmişlər. Azərbaycanın ərazi bütövlüyünün qorunması AXC hökumətinin fəaliyyətində daim öncül yer tutmuş və ümdə vəzifələrdən biri sayılmışdır. Azərbaycan ərazisinin elə bir bölgəsi olmamışdır ki, ora AXC hökumətinin diqqətindən bir an belə kənarda qalsın. Bu baxımdan, Naxçıvan diyarına və Zəngəzur mahalına münasibət xüsusi qeyd edilə bilər. «Azərbaycan parlamentinin yaradılması haqqında qanun»da göstərilirdi ki, Azərbaycan ərazisini təşkil etdiyinə görə, parlamentə Zəngəzurdan iki və İrəvan quberniyasından (Naxçıvan, Şərur, Ordubad nəzərdə tutulur) üç nəfər millət vəkil seçilməlidir.

Azərbaycan parlamentinin 1919-cu il yanvarın 8-də və





25-də keçirilmiş iclaslarında Naxçıvan bölgəsinin və ümumiyyətlə, keçmiş İrəvan quberniyasının azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmiş, Ermənistan hökumətinin Naxçıvan və digər qəzaların azərbaycanlı əhalisinə qarşı yeritdiyi etnik təmizləmə siyasəti pislənmişdi. Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü (AFTK) Məmməd xan Təkinskinin 1919-cu il yanvarın 29-da İrəvana səfir təyin olunması da opada yerli azərbaycanlı əhalinin hüquqlarının müdafiə olunması zərurətindən irəli gəlmişdi.

Azərbaycan hökuməti 28 fevral 1919-cu il tarixli qərarı ilə Naxçıvan general - qubernatorluğunu yaradaraq B.Naxçıvanskini ora general - qubernator təyin etmiş və cari xərclər üçün 2 mln. manat vəsait ayırmışdı. Araz-Türk Respublikasının süqutundan (1919, mart) sonra Naxçıvan bölgəsinin ingilislərin köməyi ilə erməni idarəçiliyinə keçəcəyi barədə xəbərlərin yayılması Azərbaycan hökuməti tərəfindən ciddi etirazla qarşılaşmış və yerli əhalinin dəstəyi ilə bu idarəçiliyə son qoyulması üçün təsirli tədbirlər görülmüşdü. Naxçıvan bölgəsi əhalisinin fəal müqaviməti sayəsində iyul ayında erməni idarəçiliyi ləğv edildi. AXC hökumətinin Zəngəzur, Qarabağ, Muğan bölgələrinə münasibətdə də öz suveren hüquqlarını müdafiə etmək üçün qəti tədbirlərə əl atması ölkənin ərazi bütövlüyünün qorunmasında mühüm rol oynamışdı. Bütün bunların nəticəsi idi ki, AXC ərazisinin sahəsi 97237,67 km$^2$ mübahisəsiz, 16598,30 km$^2$ mübahisəli zonaları əhatə etməklə, 113835,97 km$^2$ təşkil etmişdi. AXC hökuməti 1919-cu ilin yazında Cənubi Qafqazın başı üstündə hərlənən «vahid və bölünməz Rusiya» tərəfdarı, çar generalı Denikinin Könüllü Ordusunun hücumunun qarşısını almaq üçün bütün tədbirləri görsə də (bu məqsədlə 1919-cu il iyunun 27-də Gürcüstanla hərbi ittifaq da bağlanmışdı), Azərbaycan neftinə susamış qırmızı, bolşevik Rusiyanın işğalçı XI Qızıl Ordusunun təcavüzünün qarşısını ala bilmədi. Yerli bolşeviklərin yalan vədləri də bu işdə az rol oyna-

madı. 1920-ci il aprelin 27-də Azərbaycan parlamenti hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə qərar çıxarmağa məcbur oldu.

1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyətinin qələbə çalması Qarabağ zəhmətkeşlərini daşnakların, müsavatçıların yeni dəhşətli cinayətlərindən xilas etdi.

Dağlıq Qarabağın zəhmətkeşləri kommunist özəklərinin rəhbər-liyi altında inqilab komitələrinin təşkilinə, yerlərdə Sovet hakimiyyətinin qurulmasına başladılar. Tezliklə XI Qızıl Ordunun hissələri öz qardaşlıq köməyi əlini Dağlıq Qarabağın zəhmətkeşlərinə uzatdılar.

Dağlıq Qarabağ haqqında məsələ dəfələrlə PK (b) P-nin Qafqaz bürosunda, partiyanın Zaqafqaziya diyar komitəsində, həmçinin AK (b) P-nin MK-da müzakirə olunmuşdur.

### 3.2. 31 mart 1918-ci ildə Şimali Azərbaycanda azərbaycanlıların soyqırımı (1918-1920)

Ermənilərin XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da azərbaycanlılara qarşı qanlı cinayətlər törətmiş və orada yaşayan əhalinin soyqırımını təşkil etmişlər. Rus və ingilis hökumətlərinə arxalanan ermənilər Naxçıvan ərazisində başdan-başa azərbaycanlılara qarşı elan olunmamış müharibə aparmış, böyük insan tələfatına və dağıntılara səbəb olmuşlar. Öz qeyri-insani hərəkətlərilə İrəvandan da yardım alan Naxçıvan erməniləri işi o yerə çatdırmışlar ki, hətta Naxçıvan şəhərinin özündə belə, aylarla və illərlə cinayətlər davam etmiş və şəhər dəfələrlə top atəşinə tutulmuşdur. Ümumiyyətlə, Naxçıvanın bütün ərazisində Sədərəkdən tutmuş Əylisə – Ordubada qədər ermənilər bütün cəbhələrdə hücuma keçmiş, minlərlə azərbaycanlını öldürmüş, yüzlərlə kəndləri dağıtmış, əkin yerlərini, tarlaları sıradan çıxarmışlar.





Bu hadisələr, Andranikin Naxçıvana hücumu ilə güclənmiş və o, Naxçıvanda daha çox vəhşiliklər törətmişdir. Belə ki, Naxçıvanda yaşayan ermənilər Andranikin hücumundan daha da vəhşiləşmiş, hətta uşaqları və qadınları belə öldürməkdən çəkinməmişlər.

Beləliklə, ermənilər 1918-1920-ci illərdə Naxçıvana da təcavüz etmiş, qırğınlar törətmişlər. 10 minlərlə insan tələfatı, kütləvi talan və dağıntılar olmuşdur.. Hadisələrin bilavasitə şahidi olmuş Mirzə Bağır Əliyevin əlyazması – gündəlik şəkilində qələmə almış olduğu «Qanlı günlərimiz. Naxçıvanda erməni-müsəlman müharibəsi» adlı əsərində həmin dəhşətli hadisələrdən geniş şəkildə bəhs olunur.

3500 yaşlı qədim Naxçıvan torpağı tarix boyu qüdrətli sərkərdələr, görkəmli elm və mədəniyyət xadimləri beşiyi kimi tanınıb. Böyük mütəfəkkir Nəsrəddin Tusi, yaratdığı qiymətli tarixi abidələrlə bütün Şərq dünyasını lərzəyə gətirmiş memar Əbubəkir Əcəmi, dünya drapmaturgiyasında Şekspirlə yanaşı dayanası Hüseyn Cavid, məşhur «Molla Nəsrəddin» jurnalının banisi Cəlil Məmmədquluzadə, nəhəng romanlar müəllifi Məmməd Səid Ordubadi kimi onlarca sənət korifeyi məhz bu torpağın ana qolları üstə pərvəriş tapmış, dünya mədəniyyəti xəzinəsini öz qiymətli əsərləri ilə zənginləşdirmişlər.

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik, ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir.Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmışdır. Azərbaycan atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi ilə bütün Şərqdə məşhurlaşmışdır.

Naxçıvan uzun illər gərgin siyasi mübarizə meydanı olmuşdur. XVI əsrdə Səfəvilər dövlətinin Osmanlı Türkiyəsinə qarşı apardığı uzun sürən müharibələrdə Naxçıvan gah Osmanlıların, gah da Səfəvilərin əlinə keçmişdir. 1747-ci ildə

İranda Nadir şah dövlətinin süqutundan sonra Naxçıvandakı Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü Naxçıvan xalqının müstəqil hakimi elan etdi. Beləliklə də Naxçıvan XVIII əsrin ortalarında Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri oldu. XVIII əsrin 80-ci illərinin əvvəllərində Naxçıvan xanı Abbasqulu xan elan edildi.



Əcəminin portreti. 1976. Rəssam Elmira Şahtaxtinskaya.

















*Naxçıvan (Kəngərli) süvari alayının bayraqları.1830,1858*




*Naxçıvan xanlığının gerbi Naxçıvan qəzasının gerbi.1840*
*Azərbaycan Tarixi Muzeyi*

XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Naxçıvan ərazisi Rusiya ilə İran arasında toqquşmalar meydanına çevrildi. Baş vermiş müharibələrdən sonra bağlanmış Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Azərbaycanın tarixi torpaqları parçalanaraq Rusiya və İran arasında bölüşdürüldü. I Nikolayın fərmanı ilə





Naxçıvan və İrəvan xanlıqları ləğv edildi.

1918-1920-ci illərdə ermənilər Bakıda və Azərbaycanın digər rayonlarında olduğu kimi Naxçıvanda da soyqırımı törətmişdilər. Həmin dövrü əks etdirən tarixi mənbələr və arxiv sənədlərindən aşağıdakılar məlum olur.

1918-ci il yanvarın 17-də Naxçıvanın Əznəburd kəndində sakinlərdən 22 nəfəri qətlə yetirmişdilər.

31 mart 1918-ci ildə Naxçıvan qəzasının Qaraxanbəyli kəndində yaşayan ermənilər azərbaycanlılara atəş açmışlar. Bu vuruşmada 25 nəfər müsəlman tələf olmuş və öz meyitlərini döyüş meydanından belə çıxara bilməmişlər. Andranikin ilk təcavüzü ilə Naxçıvan qəzasının Araz çayı kənarında yerləşən Yaycı və Aşağı Aza kəndlərində, Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə yeksan etmiş, yandırmış və əhalinin çoxunu məhv edərək, mallarını talan etmişdilər.

Lakin Ermənistanla bağlanan saziş kağız üzərində qaldı. Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi. Əhalinin 61,5 faizi, başqa məlumata görə 67 faizi azərbaycanlılar olan Naxçıvanı Ermənistan Respublikası özününkü sayırdı. Azərbaycan Respublikası elan edilən zaman İrəvan quberniyasına daxil olan Naxçıvan, dərhal Azərbaycanla birləşməyi qərara aldı. Lakin o zamankı şəraitdə bu birləşmənin qeyri-mümkünlüyünü nəzərə alaraq və Ermənistana tabe olmamaq üçün Naxçıvan 1918-ci ilin noyabrında Araz Respublikası adı altında özünün müstəqilliyini elan etdi. Ermənistan dəfələrlə Naxçıvana basqın edib onu qılıncla təslim etməyə çalışdı lakin, çoxlu qurbanlara baxmayaraq naxçıvanlılar əyilmədilər, təslim olmadılar. Naxçıvanlıların dəyanəti və Azərbaycan hökumətinin səyləri nəticə etibarilə, Ermənistanın Naxçıvana yiyələnmək niyyətlərini puça çıxartdı.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində Türki-

yənin görkəmli hərbi və dövlət xadimi, Atatürkün yaxın silahdaşlarından biri Kazım Qarabəkir Paşa mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafiəsi Osmanlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuşdu; Kazım Qarabəkir Paşanın qərargahı 1918-ci il avqustun 7-də Naxçıvan şəhərində qurulmuşdu. Naxçıvanı türk dünyasına açılan «Şərq qapısı» adlandıran Kazım Qarabəkir Paşanın komandanlıq etdiyi türk qoşun hissələri Naxçıvan mahalını erməni silahlı dəstələrinin Zəngəzur və s. yerlərdən etdikləri hücumlardan qətiyyətlə qoruya bilmişdi.



*Kazım Qarabəkir Paşa*
*(1882 İstanbul - 1948 orda)*

Mudros barışığının (1918) Osmanlı ordu hissələrinin Qafqazdan, o cümlədən Azərbaycandan çəkilməsini nəzərdə tutan 11-ci maddəsinə əsasən, Kazım Qarabəkir Paşa da Naxçıvanı tərk etmişdir. Kazım Qarabəkir Paşa Türkiyənin istiqlal savaşında (1918-23) fəal iştirak etmiş şərq cəbhəsinin komandanı kimi bir sıra əzəli türk torpaqlarının geri qaytarılması, daşnakların sülh bağlamağa məcbur edilməsi sahəsində əvəzsiz xidmətlərinə görə «İstiqlal» medalına layiq görülmüşdür.

1920-21-ci illərdə Azərbaycanda baş verən hadisələrlə daim yaxından maraqlanan Kazım Qarabəkir Paşa Qars konfransında (26.9 – 13.10.1921) onun ərazi bütövlüyünün qorunub saxlanılması üçün olduqca səmərəli diplomatik fəaliyyət göstərmişdi. Onun da imzaladığı Qars müqaviləsinin (1921) 5-ci maddəsinə və 3-cü əlavəsinə əsasən, Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında muxtar ərazi kimi təşkil edilməsi dövlətlərarası səviyyədə razılaşdırıldı.

1918-ci ildə Naxçıvanın digər bölgələrində törədilən





qanlı cinayətlərin tüstüsü Sədərəyə də gəlib çıxdı. Ermənilər «Böyük Ermənistan» yaratmaq niyəti ilə Sədərək torpaqlarına da sahib olmaq istəimişlər. Bunun üçün ermənilər geniş miqyasda tədbirlər işləyib hazırlamışlar. Lakin bu heç zaman baş tutmamışdır. Çünki, sədərəklilərin arasında onların hiyləsini hər an puça çıxarmış Tatoğlu Həbib, Dayı Süleyman, Dəli Həbib, Ələkbər Sadıqov, Qafar Əiyev kimi ölümdən qorxmayan oğullar olub.



*Naxçıvanski Kalbalı xan*
*Ehsan oğlu*
*?. Naxçıvan – 1883, orada)*

Bu qədim torpaq hərb tariximizə də dəyərli töhfələr bəxş edib. Onlardan biri də Naxçıvanın axırıncı xanı, Araz-Türk Respublikasının rəhbəri Cəfərqulu xanın oğlu, adı paytaxtımızdakı hərbi litseydə əbədiləşdirilmiş məşhur sərkərdə Cəmşid Naxçıvanskinin böyük qardaşı, 1917-1920-ci illərdə Naxçıvanda erməni-müsəlman qırğınının tüğyan etdiyi bir dövrdə, yerli əhalini vahid bir bayraq altında birləşdirib ermənilərə qarşı mübarizəyə səfərbər edən, xalqımızın dəyanətli oğlu, general – mayor Kalbalı xandır.

O zaman Azərbaycanın bu qədim güşəsinə sahiblik iddiası ilə qovulan erməni quldur dəstələri üç istiqamətdən – Şərur, Ordubad və

Şahbuz tərəfdən Naxçıvanın mərkəzinə doğru irəliləyirdilər. Onlar çapıb-taladıqları kəndlərə od vurub yandırır, heç kəsə rəhm etmədən bütün əhalini ucdantutma qılıncdan keçirir, körpələri diri-diri yanan tonqallara atır, ağsaqqal və ağbirçəklərin gözü önündə cavan qızların namusuna təcavüz edir, qaynar samovarı lüt-üryan soyundurduqları kişilərin

kürəyinə bağlayır, uşaqları ayaqyalın qızmar közün üstündə gəzməyə məcbur edirdilər. Bu iblislər sürüsünün ağlasığmaz vəhşiliyindən xəbər tutan Kalbalı xan minlərlə gənci silahlandırıb, doğma torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər etdi. Əlbəttə, o dövrdə əhalinin xeyli hissəsi silahdan istifadə qaydalarını bilmirdi. Mirzə Cəlilin «Molla Nəsrəddin» jurnalında qeyd etdiyi kimi, ermənilər ötən əsrin əvvəllərində rus qorodovoyuna pul uzadıb «Qospodin, vozmi denqi, davay rujyo», - deyə bizə qarşı mübarizə məqsədilə silah toplayanda bizim azərbaycanlılar küçələrdə it boğuşdurur, xoruz döyüşdürürdülər. Anlamırdılar ki, «Böyük Ermənistan» xülyası ilə qovrulan bu mənfur millətin silahlanması gələcəkdə müqəddəs torpaqlarımızın əldən getməsi ilə nəticələnə bilər. Elə buna görə də Kalbalı xan yerli əhalidən böyük dəstələr düzəldib hərbi təlim keçir, ömrü boyu əlləri quşatandan başqa heç nəyə öyrənməmiş gənclərə silahdan istifadə qaydalarını öyrədirdi. Qısa bir zaman çərçivəsində hərbi texnikanın sirlərinə mükəmməl yiyələnən əhali Kalbalı xanın rəhbərliyi altında erməni hərbi birləşmələrinə sarsıdıcı zərbələr endirib, onları Naxçıvan sərhədlərindən geri oturtdu. 1919-cu ilin may-iyun aylarında polkovnik Doluxanovun başçılığı altında hərəkət edən çoxsaylı erməni hərbi birləşmələri artıq Şərur mahalının Sədərək və Dəmirçi kəndlərini işğala məruz qoymuş və həmin kəndlərin özünümüdafiə dəstələri sayca onlardan qat-qat sox olan vəhşi erməni quldurlarının ağır təzyiqi altında geri çəkilmək məcburiyyətində qalmışdılar. Yalnız general Kalbalı xan köməyə gəldikdən sonra ağır itkilərə məruz qalan ermənilər işğal etdikləri həmin əraziləri qoyub qaçmaqla canlarını qurtara bildilər. Kalbalı xanın dəstəsi Ordubad-Culfa istiqamətində kəndləri dağıda-dağıda Naxçıvan şəhərinə doğru addımlayan vəhşi Andronikin təpədən-dırnağadək silahlanmış güclü ordusuna elə sarsıdıcı zərbələr endirmişdir ki, onlar nəinki geri çəkilmək məcburiyyətində qalmış, hətta Naxçıvan torpaqlarını birdəfəlik tərk edib Zəngəzura, oradan isə Qara-





bağa istiqamət almışdılar.

1919-cu ilin yanvarında ingilis müdaxiləçilərinin, həmin ilin iyununda isə ABŞ qoşunlarının Naxçıvana daxil olması vəziyyəti xeyli gərginləşdirdi. Daşnak qruplaşmaları ilə gizli sövdələşməyə girən ingilislər bu qədim Azərbaycan torpağını Ermənistana birləşdirmək üçün bütün cinayətkar aksiyalardan istifadə etsələr də, heç bir nəticəsi olmadı. Kalbalı xanın ətrafında polad sıralarla birləşən Naxçıvan əhalisinin öz and mərasimlərində söylədikləri üsyankar fikirlər ingilisləri susmaq məcburiyyətində qoydu. Naxçıvanlılar deyirdilər: «Biz tikə-tikə doğranıb, alovlar içərisində yanıb kül olsaq belə, öz ata-baba torpağımız Naxçıvanı Azərbaycandan ayrılmağa qoymarıq». Naxçıvanlılar istər Amerikanın muxtar vilayətdəki qubernatoru, pokovnik Devin, istərsə də ABŞ-ın Naxçıvanda erməni daşnakı Varşanyanın rəhbərliyi altında yaratdıqları oyuncaq hökuməti elə qoz qabığına soxmuşdular ki, onlar nəinki öz vəzifə səlahiyyətlərini yerinə yetirməyə cəsarət etmir, hətta qorxudan öz iqamətgahlarından bayıra belə çıxa bilmirdilər. Naxçıvan mahalında hakimiyyət faktiki olaraq Kalbalı xanın əlində idi. O, artıq Araz-Türk Respublikasında ərkanı-hərb, yəni hərbi nazir vəzifəsində idi. O, mütəmadi olaraq, üç tərəfdən Ermənistanla sərhəddə yerləşən və hər an erməni daşnaklarının vəhşi hücumlarına məruz qala biləcək Naxçıvanın müdafiə məsələləri ilə maraqlanır, əhalinin hər an döyüşə hazır vəziyyətdə olması üçün təxirəsalınmaz tədbirlər görür, bütün bunlarla bərabər, xalqın iqtisadi problemlərini də yaddan çıxarmır, əhalini haqq və ədaləti qorumağa, dar ayaqda bir-birlərinə kömək əli uzatmağa, torpağın hər qarışından, əkin suyunun hər damlasından səmərəli istifadə etməyə səsləyir, onsuz da ağır iqtisadi böhran şəraitində yaşayan əhalinin şəraitini heç olmasa, müəyyən qədər yaxşılaşdırmaq üçün Naxçıvan mahalının nəhəng sərvət sahibləri ilə danışıqlar aparıb, onları imkansız ailələrə dayaq olmağa çağırır, hər ay bazarlarda satılan malların qiymətini tənzimləyir, həmin

qiymətlərin artırılmaması üçün ciddi tədbirlər görürdü.

Günlərin birində Naxçıvanda döyüşən ordu əsgərləri və əhali arasında çörəkdən zəhərlənib ölənlər oldu. Bundan xəbər tutan Kalbalı xan çörəkbişirmə sexində ciddi yoxlanış aparılması barədə sərəncam verdi. Əhali və əsgərlər üç gün çörəksiz qalsalar da, yoxlamalar nəticəsiz qalmadı. Heç demə, həmin gün növbədə özlərini azərbaycanlı kimi qələmə verən üç erməni xəmirin içərisinə zəhər qatıbmış. Kalbalı xanın əmri ilə həmin xəyanətkarlar şəhərin mərkəzində, əhalinin gözləri qarşısında edam edildi.



**Naxçıvanski Hüseyn xan Kalbalı xan oğlu** (28.6.1863, Naxçıvan-1919, Petroqrad) – hərbi xadim. General-leytenant (1915). Kalbalı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir.

Kalbalı xan tacirlərə belə bir ultimatum vermişdi: «Gecələr heç kəs dükanlarını bağlamasın, Gedin, rahat yatın. Əgər həmin dükanlardan bir şey itsə, yaxud oğurlansa, cavabdehliyi şəxsən mən özüm daşıyacağam. Biz insanıq və bir-birimizə inam üstə köklənməliyik».

Sıra ilə dayanmış, qapıları taybatay açıq olan 1015 mağazanın keşiyini hər gecə bir nəfər silahlı əsgər çəkirdi. O dövrün canlı şahidləri olan ağbirçəklər və ağsaqqallar nəql edirlər ki, Kalbalı xan Naxçıvanda olduğu dövrdə dükanların qapıları qıfıl üzü görmədi, bir oğurluq hadisəsi qeydə alınmadı, təmizlik və büllurluq Naxçıvan əhalisinin əsl həyat meyarına çevrildi.

Erməni işğalçılarına bir neçə dəfə sarsıdıcı zərbələr endirib onları öz yerlərində oturmağa məcbur etdiyinə və Naxçıvan mahalının müdafiə qüdrətini artırdığına görə bu





görkəmli sərkərdə Türkiyə hökumətinin ən ali ordeni ilə təltif olundu və Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fərmanı ilə ona general-mayor hərbi rütbəsi verildi.



**Naxçıvanski İsmayıl xan Ehsan oğlu** (5.1.1819, Naxçıvan ş.-1918 orada) - hərbi xadim. General-leytenant. Sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin oğlu Kalbalı xan Naxçıvanskinin qardaşıdır. Ordudan general-leytenant rütbəsi ilə tərxis olunan Naxçıvanski vətənində abadlıq işləri ilə məşğul olmuş, Naxçıvana su çəkdirmiş, kəhrizlər qazdırmış və tarixi abidə kimi bugünədək qorunan günbəzli hamam tikdirmişdir. X.B.Natavanın qızı Xanbikə xanımı oğlu Əman xana alıb, Qarabağ xanlığı ilə qohum omuşdur.

Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid Naxçıvanski də inamla vuruşmuşdur. 1920-ci ilin martında Cəmşid Naxçıvanskinin Qafqazda (Şuşada) yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) bolşevik çevrilişindən sonra N.Nərimanov Şuşaya, Cəmşid Naxçıvanskiyə dərhal Bakıya qayıtmaq, mili ordu hissələrinin təşkilinə başlamaq haqqında teleqram göndərmişdir. O, Bakıda yaradılmış Azərbaycan Birləşmiş Komanda Məktəbinin rəisi, 1921-ci ilin dekabrında isə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı hərbi kadr hazırlığında mühüm rol oynamışdır.

**Naxçıvanski Cəmşid Cəfərqulu oğlu** (10.8.1895, Naxçıvan ş.-26.8.1938).

1920-ci il iyunun 20-də, yəni bolşeviklərin XI ordu hissələri Naxçıvanı almamışdan bir neçə gün əvvəl, Rusiya kimi güclü bir dövlətlə mübarizə aparmağın heç bir nəticə



verməyəcəyini dərk edən Kalbalı xan doğma torpağı tərk edib, İrana keçmək məcburiyyətində qalır. O, atası Cəfərqulu xanı və əmisi Rəhim xanı da özü ilə aparmaq istəyir. Lakin onlar: «Narahat olma, biz ruslarla həmişə yaxın əlaqədə olmuşuq, neçə-neçə rus diplomatı evimizdə çörək kəsib, onlardan bizə heç bir xətər toxunmaz», - deyə doğma ocağı başsız qoyub getməkdən imtina etmişlər. Həqiqətən də bu ailə təkcə Azərbaycanda yox, Rusiyanın yuxarı dairələrində də böyük nüfuz sahibi idi. Rus ordusunun generalları arasında Cəfərqulu xanın və Rəhim xanın oğulları da var idi. Məşhur rus yazıçısı Qriboyedov İrana səfir təyin olunarkən, Peterburqdan birbaşa Naxçıvana gəlmiş və bir ay Rəhim xanın və onun qızı, şairə Qönçəbəyimin qonağı olmuşdu. Hətta mürtəce qruplar tərəfindən İranda qətlə yetirilən Qriboyedovun nəşi Tehrandan Culfaya gətirilərkən, «O, vaxtilə mənim qonağım olub, evimdə çörək kəsib, mən onu unuda bilmərəm», - deyən Rəhim xanın əmri ilə hərbçilər 30 kilometrlik yol qət edib Qriboyedovun tabutunu Culfadan Naxçıvanadək payi – piyada, çiyinləri üstə gətirmiş, ilk yas mərasimi də Cəfərqulu xan və Rəhim xan nəslinin iştirakı ilə Naxçıvan çayının yaxınlığında, indiki dəmir körpünün yanında, açıq·səma altında keçirilmiş, sonra isə mərhumun tabutunu böyük ehtiramla yola salmışlar. Lakin, bolşeviklərin Naxçıvanda qurduqları İnqilab Komitəsi «keçmişin qalığı» adlandırdığı Cəfərqulu xanı, Rəhim xanı və onun oğlu İskəndər xanı bir neçə aydan sonra Naxçıvandan sürgün edir.

Qısa bir müddətdə İranın rəsmi dairələri arasında böyük hörmət qazanan Kalbalı xan çox keçmir ki, Ərdəbilə





vali, az sonra isə Təbrizə komendant təyin olunur. Onun hərbi sahədəki zəngin təcrübəsini, ən çətin məqamlarda ölkəni müdaxiləçilərin hücumlarından xilas etmək üçün ağıllı yollar düşünüb tapmaq qüdrətinə malik olduğunu görən Rza şah Pəhləvi onu İran ordusunda yüksək vəzifəyə qaldırır. Lakin bu, bəzi ordu rəhbərləri arasında böyük narahatlığa səbəb olur. Onlar Rza şahla gizli danışıqlara girib onu başa salırlar ki, Kalbalı xan adi şəxsiyyət deyil. O, açıq fikirli, cəsarətli bir insandır. Cənubi Azərbaycanda böyük nüfuz sahibidir. Onu nəzarətdən kənarda saxlamaq xalqın onun ətrafında birləşməsi və mövcud hakimiyyətə qarşı milli azadlıq hərəkatının başlanması ilə nəticələnə bilər. Buna görə də İran rəhbərliyi Kalbalı xanı aradan götürməyi qərara alır. Hətta Rza şah Pəhləvinin özü onun gizli surətdə qətlə yetirilməsi barədə hökm yazır və 1934-cü ildə Türkiyə sərhəddi yaxınlığındakı Avaçıq mahalında kürdlərə qarşı gərgin döyüşlər zamanı bu görkəmli hərbi xadim şahın adamları tərəfindən xaincəsinə öldürülür.

Ermənistana güzəşt edilən İrəvan quberniyasının ərazisi 7.913.17 kv.km təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsini iddiası ilə çıxış etdilər. Lakin, 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər, 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Ermənistan missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya ermənilər, ya da gürcülər təmsil edirdilər. Azərbaycanlılar isə nə ermənilərin, nə də ki, gürcülərin nümayəndə heyətlərinin tərkibinə daxil edilmirdilər. 1920-ci il avqustun 10-da İrəvan şəhərində Sovet Rusiyası ilə Ermənistan arasında müqavilə imzalanarkən, bir sıra diplomatik

sənədlərin də sübut etdiyi kimi, burada Azərbaycanın milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılmışdı. Bu zaman Sovet Rusiyası hökuməti S.Orconikidzenin belə bir iddiasından çıxış edirdi ki, «... məlum siyasi şəraitdə Ermənistan bizə lazımi ola bilər. İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtarır ki, həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Əslində Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi planı Leninin razılığı ilə Stalin tərəfindən hazırlanmışdı. Çünki sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması və bu ərazilərdə yaşayan əhalinin deportasiyası da Stalin tərəfindən həyata keçirilmişdi. (94).

1920-ci il noyabrın 4-də Stalin, Orconikidze, Qabrielyan, Leqran, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclasda Rusiya ilə Ermənistan arasındakı müqavilənin şərtlərinə toxunularkən, Stalinin fikri əsasında belə bir qərar qəbul edilmişdi: «Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda baş tuta bilər». (94a).

İclasda həmçinin Siyasi Büronun Naxçıvan və Zəngəzura aid fikrinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuş, habelə Stalinin bu məsələ ilə RK/b/P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarmamaq razılaşdırılmışdı. Bu qərarın özü də bir daha göstərir ki, Azərbaycan torpaqları hərraca qoyulmuşdu. V.İ.Lenindən sonra SSRİ dövlətinə rəhbərlik edən İ.V.Stalin bu hərracın təşkilatçısı kimi, «Mən Azərbaycanın müstəqilliyi tərəfdarı deyiləm» – deyə Azərbaycana öz düşmən mövqeyini bildirmişdi.

Həmin qərarın «B» bəndində yazılırdı: «Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir». Qərarın «Q» bəndində Zəngəzur və Naxçıvanın





Ermənistana verilməsi, «d» bəndində isə Qarabağın dağlıq hissəsinə öz müqəddaratını təyin etmək hüququ verildiyi göstərilirdi.

Zəngəzurun ermənilərə verilməsi, əslində isə sadəcə, Sovet Rusiyasının təzyiqi ilə «bağışlanması» istiqamətində daha bir ciddi addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən, təntənəli «tarixi» iclasında N.Nərimanov bəyanatla çıxış etdi. Lakin qeyd etmək lazımdır ki, N.Nərimanovun bəyanatı Ermənistanda yaxın və uzaq gələcəkdə Dağlıq Qarabağla əlaqədar məsələ qaldırmaq məqsədilə, İrəvanda ermənicə nəşr olunan «Kommunist» qəzetinin 1920-ci il 7 dekabr tarixli nömrəsində saxtalaşdırılmış məzmun dərc edilmişdi. Sonralar N.Nərimanov özü bəyanatda elan edilən faktların saxtalaşdırılmasına etiraz etmişdi. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın torpaqlarının Ermənistana bağışlanmasını həyata keçirən İ.V.Stalin Bakı Sovetinin 1920-ci il dekabrın 1-də qəbul etdiyi qərara münasibətini belə demişdir: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir». Göründüyü kimi, əgər XI Qızıl Ordunu Azərbaycanı işğal etmək üçün A.Mikoyan dəvət etmişdirsə, ondan sonra onun torpaqlarını siyasi hərraca qoyan İ.V.Stalin olmuşdur. 1920-ci il dekabrın 2-də İ.Stalinin «Azərbaycanın fatehi» adlandırıdığı S.Orconikidze V.İ.Leninə və İ.Stalinə Bakı Sovetində qəbul edilən qərarın məzmununu çatdırmışdı. Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi elan edilən kimi həyata keçirilmədi. N.Nərimanov ZSFSR İttifaq Sovetinin sədrlərindən biri olarkən, Leninə yazdığı məktubda «Azərbaycan tamamilə mübahisəsiz ərazilərini Ermənistana güzəştə gedir və düzəlməsi mümkün olmayan həlledici səhvdir» – deyə etiraf etmişdi.

Ermənilər Zəngəzurun ələ keçirilməsini asanlaşdırmaq

və sürətləndirmək məqsədilə qəzanın onlar tərəfindən tutulan sahələrində möhkəmlənərək, bölgənin digər hissələrində – Aşağı Zəngəzurda Kürdüstan yaradılması «ideya»sını irəli sürmüşdülər. Əslində əsas məqsəd Rusiyanın Azərbaycanda yenidən möhkəmlənməsini təmin etməkdən, bu niyyətlə də Azərbaycanın parçalanması da daim təzyiq altında saxlanılmasından, Zəngəzurun tədricən, hissə-hissə Ermənistana verilməsinə nail olmaqdan ibarət idi.

Zəngəzurun və digər ərazilərin itirilməsi o zamankı Azərbaycan rəhbərliyinin 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə verdiyi vədə öz sərvətlərinin qapılarının Ermənistanın üzünə geniş açmasına dərhal əməl etməsi, hələ müharibəyə və daşnakların ərazi iddialarına son qoyulmasının, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qurtarmamış, «qonşu və dost xalqa» hərtərəfli yardım göstərilməsindən ibarətdir. Yuxarıda qeyd edildiyi kimi, Zəngəzurun Ermənistana verilməsi rəsmən elan olunsa da, qəzanın onun idarəçiliynə keçməsi dərhal baş vermədi. Belə ki, 1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının iclasında Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar çıxardı. Nəhayə,t uzun müzakirələrdən sonra Zəngəzur qəzasının köhnə inzibati sərhədlərdə saxlanması qərara alındı. Zəngəzurla bağlı qeyri-müəyyənlik 1927-ci ilə qədər davam etdi.

Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək, sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular. Belə ki, Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi. Yenə də bu qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyadzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda





Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun üç kəndi - Nüvədi, Ernəzir və Tuğut Ermənistana verildi.

1938-1939-cu illərdə Ernəzir kənd kollektiv təssərüfatı Nüvədi kəndi, Tuğut kəndi isə ermənilər yaşayan Astazurla birləşdirildi, hər iki kəndin doğma yerlərindən Nüvədi, Əldərə və Astazura kəndlərinə köçürüldü.

Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə «bağışlanması» və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Şimali Azərbaycan parça-parça edildi, onunla Türkiyə arasında əlaqə pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin yaradıldı.

Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə müəyyən edilmiş sərhədlərinə gəldikdə isə, həmin müqavilədə Naxçıvan ərazilərinin qarantı kimi çıxış edən Türkiyə dövlətinin razılığı olmadan Zaqafqaziya Sovetləri MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə bölgənin 657 kv.km sahəsi Ermənistana verildi. Bu orqanın 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən isə Şərurun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistana keçdi. (94a).

Ermənistanda rus əsgər vəkilləri şuralarından təsirlənən kəndlərdən biri də Vedi idi. Bu vaxt (1917-ci ildə) İrəvan müsəlmanları arasında yaranan ictimai-siyasi təşkilatlardan biri də Hüseyn Şahtaxtinskinin başçılığı altında fəaliyyət göstərən "Firqeyi-məzluman" idi. Vedinin qabaqcıl adamlarından Seyfulla Süleymanov yazmışdır: "1917-ci ildə "Firqeyi-məzluman"ın üzvü idim. Təşkilatın başında Petroqraddan gəlmiş tələbə-bolşevik Hüseyn Şahtaxtinski dururdu" (52).

Baş verən inqilabi dəyişikliklər sayəsində yaranan siyasi mühit kənd əhalisinə, onun qabaqcıl, açıq fikirli adamlarına

güclü təsir göstərirdi. Abbasqulu bəy Şadlinski də belə adamlardan idi. (XIX əsrin birinci rübündə Şadlin tayfasının başçısı Kərbəlayı Sultan Naxçıvan və Qarabağ xanlıqları, həmçinin erməni məlikləri ilə əlbir olub, İrəvan xanlığının Rusiya ilə birləşməsi uğrunda şah istibdadına qarşı mübarizə aparırdı. Həmin tayfanın nümayəndəsi Abbasqulu bəy Şadlinski isə XX əsrin birinci rübündə İrəvan qəzasında qabaqcıl fikirli adamlar, Vedi əhalisi və Naxçıvan zəhmətkeşləri ilə birlikdə sovet hakimiyyəti uğrunda vuruşlarda xüsusi fəallıq göstərmişdir. İki əsrin mübarizələrini biri-birlərindən fərqləndirən cəhətlər, hər dövrün ictimai fikirinin irəli sürdüyü özünəməxsus məqsəd və vəzifələr olmuşdur).

24 fevral 1886-cu ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olan Abbasqulu bəy Şadlinski – xalq qəhrəmanı, «Qırmızı tabor»un komandiri, uşaq ikən atasını itirmiş, 1894-cü ildə anaısının köməyi ilə Vedidəki ikiillik rus-tatar (Azərbaycan) məktəbində oxumuş, lakin maddi çətinliklər ucbatından sonralar təhsilini davam etdirə bilməmiş, 1902-ci ildən atasından-qalma kiçik torpaq sahəsini əkib becərməklə məşğul olmuşdur. Rusiyada 1905-07, İranda 1905-11 illər inqilabları gənc Abbasqulunun ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynamışdır. Rusiyada mütləqiyyət rejiminə son qoymuş 1917-ci il fevral inqilabından sonra Abbasqulu bəy öz həyatını bütünlklə xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir. 1918-ci ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və s. ərazilərdə daşnak fitnəkarlıqlarının, azərbaycanlılara qarşı mütəşəkkil soyqırımı siyasətinin gücləndiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Abbasqulu bəy Vedidə, ilk vaxtlar erməni-daşnak quldur dəstələri ilə vuruşan könüllü partizan birləşməsi - gələcək «Qırmızı tabor»u təşkil etmişdi.

**Şadlinski Abbasqulu bəy Xanbaba oğlu** (24.2.1886, İrəvan quberniyasının Böyük Vedi k. - fevral 1930).







Dünya müharibəsinin vurduğu xəsarətin, mövcud hərcmərcliyin öhdəsindən gələ bilməyən Zaqafqaziya komissariatı və seym süquta uğrayır. Azərbaycanda, Ermənistanda, Gürcüstanda burjua respublikaları yaradılır. Ölkəni sahibsiz, pərakəndə görən əcnəbi qoşunlar, 1918-ci ilin may ayında gürcü menşeviklərinin marş sədaları altında Zaqafqaziyanın müxtəlif bölgələrinə və Araz boyunca Naxçıvana soxulur. Bakıya girməyə can atırlar. Bununla bərabər, kəndlərdə yerli talançılar, qarətçilər, quldurlar meydana gəlir, əhalini var-yoxdan çıxarır, müflisləşdirirdi.

Abbasqulu bəy Şadlinski və onun həmfikirləri çarizm quruluşunun yıxılması uğrunda fəhlə və kəndlilərin açıq silahlı üsyanları dövründə yaşamışlar. Ölkədəki sinfi çarpışmalar, milli istiqlaliyyət, haqq və ədalət tələbi Abbasqulu Şadlinskinin də ictimai-siyasi şüurunu formalaşdırırdı.

Başqa yerlərdə olduğu kimi, Vedibasar kəndlərində də hərc-mərcliyə, xarici işğalçılara, daxili talançılara qarşı Abbasqulu Şadlinski başda olmaqla müqavimət hərəkatı meydana gəlir. Filoloji elmlər namizədi Teymur Əhmədov həmin dövr haqqında yazır: “Ermənistanda Daşnaksütyun burjua millətçi partiyasının müsibətli siyasətindən xəbərdar olan Vedibasar kəndliləri Abbasqulu bəyin ətrafında sıx birləşir və qonşu erməni kəndlərinin hər cür yardımına arxalanaraq, oyuncaq daşnak hakimiyyətinə tabe olmurlar”. 42 Azərbaycan Milli Şurasının qərarına baş əyməyən Abbasqulu bəy oldu. Vedibasarda öz hökumətini yaradan, ermənilərə və ingilslərə qarşı mərdliklə döyüşən, milləti qırğınlardan xilas edən, Milli Şuradakı diplomatlardan daha çox diplomat olan Şadlı tayfasının igid oğlu Abbasqulu bəy.

Vedibasar mühüm strateji nöqtədə – bu günkü İran, Türkiyə, Azərbaycan və Ermənistan kimi dörd dövlətin sərhədlərinin kəsişdiyi, aranlı, dağlı geniş ərazidə yerləşən bir mahal olub.

XVIII-XIX əsrlərdə Vedibasar mahalında cəmi iki erməni ailəsi yaşasa da, 1827-ci ildə orada ilk erməni kəndi salınır. 1917-20-ci illərdə isə Vedibasar əhalisi daşnaklara qarşı əsl müharibəyə qalxır. Onların iradəsini qıra bilməyən ermənі və ingilislər bu ərazini "neytral zona" elan edirlər. ADR-nin səriştəsizliyi burada da özünü büruzə verir. 1920-ci ildə qəbul olunmuş xəritəyə Vedibasar elə "neytral zona" kimi daxil edilir. Ermənilər də bu fürsətdən təkrar yararlanır. 1920-ci ildə Vedibasar rəsmən Ermənistanın ərazisi elan olunur.

Ermənistan dövlətinin yaranması və İrəvan şəhərinin də onun paytaxtı kimi qəbul edilməsi daşnakların əl-qolunu açır. Daşnaklar rəsmi olaraq Vedibasar mahalının sərhədlərinə qədər irəliləyirlər.

Vedibasar İrəvanın 35 kilometrliyində yerləşirdi və İrəvan qəzasının bir mahalı idi. Rəsmi Bakının mövqeyi Vedibasarın taleyini həll etmişdi. Bu taleyi Abbasqulu bəy dəyişdi.

1917-ci ildə Tiflis şhəhərində Daşnaksütyun partiyası erməni milli qürultayını çağırır və məhz bundan sonra Bakı, Gəncə, İrəvan və Tiflis şəhərinin azərbaycanlı əhalisinə qarşı soyqırım başlanır. Abbasqulu bəy vəziyyətin ağırlığını görüb, təcili müşavirə çağırır və Vedibasarın müdafiəsi üçün əlindən gələni edir. Həmin müşavirədə Vedibasar Milli Müqavimət Hökuməti-Milli komitə yaradılır. Artıq o vaxta qədər Abbasqulu bəyin rəhbərlik etdiyi "Mübariz dəstə"nin kəndlərdə bölüklərinin yaranması haqqında da qərar qəbul edilir.. Vedibasar mahalının ağsaqqal və nüfuzlu nümayəndələrindən ibarət Ağsaqqalar Məclisi yaradılır. Böyük Vedi kəndində keçirimiş tarixi əhəmiyyətli bu müşavirədə yaradılan müvafiq inzibati-idarəetmə strukturu üç ilə yaxın bir





müddət ərzində yaşayaraq fəaliyyət göstərir, 1917-1920-ci illərdə bütün Cənubi Qafqaza meydan oxuyan erməni daşnak hökuməti ilə təkbaşına müharibə aparırdı. Vedibasar Milli Müqavimət Hökumətinin on bir nəfərdən ibarət Kabineti, ordusu, polisi, həbsxanası, hətta xarici işlər bölməsi də var idi.

Hətta Abbasqulu bəy Bakıya nümayəndə də göndərir. O, Vedibasarın Azərbaycan dövlətinin tərkibində qalması üçün danışıqların aparılmasını istəyirdi. Abbasqulu bəy dövlət rəhbərlərini bu məsələnin vacibliyinə inandıracağını düşünürdü. Bakıda isə hərə öz başının hayına qalmışdı. Şaumyanın rəhbərlik etdiyi daşnaklar müsəlman əhalisini son nəfərinə qədər qılıncdan keçirmək üçün bir neçə il idi ki, gizli plan hazırlamışdı və indi o planı həyata keçirməyə fürsət axtarır, münbit şərait yaradırdılar.

Vedibasarda isə özünümüdafiə dəstələrinin güclənməsi erməniləri əməllicə narahat edirdi. Vedibasarın müdafiə olunması ermənilərin Naxçıvanı Ermənistan "torpaqlarına" birləşdirmək niyyətələrini həyata keçirməyə imkan vermirdi. Digər tərəfdən, Vedibasar İrəvanla Dərələyəz-Zəngəzur mahalı arasında yerləşdiyindən həlledici məqamda o ərazilərdə yerləşən daşnakların birləşməsinə mane olurdu. Çünki İrəvan-Naxçıvan dəmir yolu Vedibasarın nəzarətindəyidi. Bu isə öz növbəsində hər iki məkanda meydan sulayan ermənilərin birləşməsinə imkan vermirdi. Naxçıvanı İrəvana birləşdirmək niyyətini həyata keçirmək üçün ermənilər iki dəfə Vedibasar üzərinə hücuma keçsələr də, heç nəyə nail ola bilmirlər. Abbasqulu bəyin komandirlik bacarığı az bir qüvvə ilə sel kimi axıb gələn erməni qoşununu geri oturtmağa imkan verir. Üstəlik müdafiə xəttini yarıb Naxçıvana yol açmaq istəyən zirehli qatar mühasirəyə düşüb məhv olmaq təhlükəsi ilə üzləşir. Bununla belə, Türkiyədən qaçıb Azərbaycanın ermənilər sıx yaşayan və artıq Ermənistan dövləti adlanan ərazilərində yuva salan qatillər müxtəlif dəhşətlər törədir. Tək bir tayfanın 27 ən yaxın qohum-əqrəbasının

məhv edildiyi Keşişdağ, Şahablı, Qədirli, Qaraxaç kəndlərində kütləvi qırğınlar törətdilər. Kəndlərin kişilərini evlərə yığıb qapılarını qıfıllayır, küləş damların üstünə neft, kerosin töküb od vururdular. Qadın və uşaqlardan tonqal çatır, körpələri süngüyə keçirib alovun içərisinə atırdılar. Abbasqulu bəy "Mübariz dəstə" ilə ermənilləri bu ərazilərdən vurub çıxartsa da, qırğının miqyası çox böyük olur. Xeyli əhalinin yaşadığı və ətraf kəndlərdən gələn qaçqınların demək olar ki, əksəriyyəti həlak olur. Minlərlə əhalidən yalnız yüzə yaxın qoca və qadın canını qurtara bilir. Bir sözlə, Vedibasar nahiyyəsnin Kərkab, Ağasıbəyli, Keşişdağ, Dəhnəz, Qaraxaç, Qədirli, Şahablı və Cimən kəndlərinin 20 mindən artıq əhalisi məhv edilir ki, bu da həmin dövrün tarixi sənədlərində də öz əksini tapıb. Bu həmin dövr idi ki, "Mübariz dəstə" iki istiqamətdə-İrəvan və Naxçıvan istiqamətlərində erməni hərbi hissələrinə güclü zərbələr endirirdi. Bu döyüşlər tezliklə ermənilərin hər iki cəbhədə məğlubiyyəti ilə sona çatır.

Türkəyə qoşunlarının Azərbaycandan çıxarılmasından sonra ingilis qoşunları Cənubi Qafqaza üz tutur. Hiyləgər erməni hökuməti tezliklə bu ingilis missiyasını öz arzularına uyğun hərəkətə keçirməyə nail olur. İngilis missiyasının fikrincə, Naxçıvan, Şərur, Ordubad, Dəhnə, Qəmərli, Qanzak və sair yerlər ermənilərin ixtiyarında qalmalıdır və müsəlmanlar da onlara tabe olmalıdır. Bir qədər dinc mübarizədən sonra ingilislər Naxçıvan və Şərur-Dərələyəz mahallarına qoşun yeridirlər. Təkcə Vedibasar onların iradəsinə tabe olmur.

1918-ci il iyun-iyul aylarında Naxçıvan və Ermənistanın azərbaycanlı zəhmətkeşlərinə ağır bəla üz verir. Bir tərəfdən Aleksandropol (indiki Leninakan) ərazisindən təcavüzkar imperialist qoşunlar, digər tərəfdən Xoy-Culfa istiqamətində amerikan-ingilis komandanlığının göndərdikləri basqınçı batalyonlar Vedi-Naxçıvan, Zəngəzur və Dərələyəz kəndlərini viran qoyur, əhalini qılıncdan keçirir, var-yoxunu talayırdı.





M.Bəktaşinin başçılığı ilə Naxçıvan demokratları, A.Şadlinskinin Vedibasar özünümüdafiə taboru xarici müdaxiləçilərə və daşnaklara qarşı mübarizələrdə təşəkkül tapıb mətinləşir, onların sıraları gündən-günə möhkəmlənir, sıxlaşırdı.

Elə bu vaxt təcavüzkarlar Ermənistanı tərk edirlər. Abbasqulu bəy öz dəstəsi ilə kəndə qayıdıb, Vedibasarın daşnak basqınlarından müdafiəsini təşkil edir.

1919-cu ilin yaz aylarında ikinci müdaxiləçilik dövrü başlanır. İngilis-amerikan-daşnak təcavüzkarları Vedi-Naxçıvan torpaqlarına hərbi ekspedisiyalar göndərirlər. Amerika polkovniki Hasgel müttəfiqlərin komissarı təyin edilir. Lakin Naxçıvan və Vedi taboru silahı yerə qoymayıb döyüşləri davam etdirir. İmperialist təcavüzkarlar ölkədən qovulur. Çox çəkmədən daxili və xarici müdaxiləçilik başlayır.

1919-cu ilin may-iyun aylarında İrəvan və Naxçıvan bölgəsində vəziyyət xüsusilə kəskinləşir. May ayının 1-də Naxçıvan hökuməti Şərur-Vedibasar və Ordubad rayonlarının Ermənistana verilməsi haqqında ingilis missiyasının rəsmi məlumatını alır. Amma ermənilər bilirlər ki, bölgənin, xüsusilə də Vedibasarın taleyini yalnız kağız üzərində belə asanlıqla həll etmək mümkündür. Bu işi həyata keçirmək üçün onların yolları üstündə Abbasqulu bəy kimi xalq qəhrəmanı dururdu. Ermənistanın o vaxtkı baş naziri Q.Xatisov raportlarının birində yazırdı: "Adı çəkilən ərazi Ermənistan hökumətinə Britaniya komandanlığı tərəfindən verilib. Mən Abbasqulu bəyə dedim ki, siz bizim əleyhimizə çıxmaqla eyni zamanda ingilislərin əleyhinə gedirsiniz. Buna gücünüz çatmaz. O, hirslənib qışqırdı: "Öz ingilislərinizlə bərabər cəhənnəm olun!"

İngilis komandanlığı yaranmış vəziyyətlə bağlı Abbasqulu bəylə şəxsən görüşüb söhbət etmək adı ilə onu həbs edib İrəvana aparır. Amma orada azərbaycanlı diplomatlar tərəfindən zəmanətə götürülən Abbasqulu bəy guya daşnak-

ların təklifini qəbul etməklə Böyük Vediyə qayıdır. İrəvandan qayıdan bəy əhalinin əli silah tutanını ayağa qaldırır, qadın və uşaqları isə Araz çayını keçirib Cənubi Azərbaycana yola salır. Vedibasar üzərinə daşnakların bu dəfəki hücumu da boşa çıxır. ADC-nin narahatlıq dolu məktublarına, ən nəhayət, notasına baş nazir Xatisov "bu Ermənistanın daxili işidir" deyə cavab verir və bildirir ki, Azərbaycan heç vaxt Vedibasarın iddiasında olmadığından indi onların müqəddaratını erməni hökuməti həll edir. Sonra da əlavə edir ki, uzaqbaşı onlara yerli əhalini köçürməyə imkan verə bilərlər. Vedibasar dördüncü ən böyük hücuma məruz qalır və tarixi sənədlərdə göstərildiyi kimi, müharibə 19 gün çəkir.

1920-ci ilin yazında təcavüzkar qoşunlar böyük bir qüvvə ilə Vedi kəndini mühasirəyə alır və Naxçıvana yürüşü davam etdirirlər. "Bölüm dəstələri" ön sıralara göndərilir, əhali vahiməyə düşür., taborçulardan bəziləri qaçmaq istəyirlər. Mətin komandir Abbasqulu bəy əmr edir ki, uzaqda mal-qaranı haylayıb kəndə gətirsinlər. Naxırın qaldırdığı toz-dumanı tabora köməkçi dəstələrinin gəlməsi kimi başa düşən düşmən komandanlığı tələsik öz qoşunlarını geri çəkməyə məcbur olur. Cəsur sərkərdə A.Şadlinski həmin döyüşlərdə xeyli ustalıq, fəndgirlik işlətmiş, axırda qalib gəlmişdir. Azadlıq, istiqlaliyyət uğrunda vuruşmalarda Fərəməz Mahmudbəyov, Məhərrəm Orucoğlu, İbrahim Eylas Aboyev, İbrahim Fərzəliyev, Əli Eyvazov, Abuzər Qəmərlili, Şəmdan Şadlinski, Şəmilbəy Mahmudbəyov, Nazlı xanım (Abbasqulu bəyin arvadı), Xəlil Pənahov, İsmayıl Şıxəlioğlu, Yetim Məhəmməd, Kalba Museyib Rzaoğlu, Ələt Şadlinli, Məşədi Paşa İsfəndiyar Kələşoğlu. İskəndər Şadlinski, Abbasqulu bəyin oğlanları və başqa qəhrəmanlar misilsiz rəşadət göstərmişlər.

Bir sözlə, 1918-1920-ci illər ərzində Abbasqulu bəyin başçılığı altında döyüşən taborun mübarizəsi erməni inqilabçıları və gizli şəraitdə işləyən bolşeviklər tərəfindən müdafiə olunurdu. Lakin Vedinin müdafiəsi güclənən hücumlara davam gətirə bilməyib, 1920-ci ilin iyul ayının ortalarında pozulur. Azərbaycanda bərqərar olan sovet hakimiyyətindən qorxuya düşən daşnak hökuməti bütün hərbi qüvvəni Vedi-Naxçıvan istiqamətinə toplayır. Vedibasar, Zəngibasar, Şərur, Dərələyəz əhalisi yurd-yuvasını tərk edib, Qarabağa, Cənubi Azərbaycana qaçmağa məcbur olur. Bu zaman Abbasqulu bəy başda olmaqla onun fədakar taboru və Vedibasar əhalisi Maku torpağına keçir. Çox çəkmədən ağqvardiyaçıların, denikinçilərin havadarlıq və rəhbərlik etdiyi daşnak qoşunları sürətlə irəliləyərək, naxçıvanlıların Qarabağlar – Xok – Şahtaxtı cəbhəsini yarır, Naxçıvan üstünə yeriyir. Bu vaxt XI Qızıl Ordu hissələrinin Naxçıvana daxil olub, inqilab komitəsi yaratdığından xəbər tutan daşnak komandanlığı hücumu dayandırmağa məcbur olur.





Naxçıvanda yeni hakimiyyət fəaliyyətə başlayan kimi, yurd-yuvasından didərgin düşmüş mühacir kütləsi yeni bir axınla öz vətənlərinə qayıtmağa başladı. 1920-ci ilin sentyabr-oktyabr aylarında Naxçıvan və Şərur ərazisində yarım milyondan çox keçmiş yerli əhali toplaşdı.

Vətənə qayıdıb gəlmiş mühacirlər adından Azərbaycan İnqilab Komitəsinə göndərilən heyət - Zəngibasardan Həbib Əli oğlu, Vedibasardan Əli Qənbərov, Şərurdan Hacı Tağı oğlu, Naxçıvandan Abbasqulu Təhməzbəyov bildirdilər ki, Naxçıvanda toplaşan mühacirlərə təcili maddi yardım göstərilməsə, onlar məhv olacaqlar. Heyətin məlumatında qeyd olunur ki, min mühacir acından, xəstəlikdən məhv olub.43. Elə bu vaxt Naxçıvanın fövqəladə komissarı Bahadur Vəlibəyovun təşəbbüsü sayəsində hərbi rəislərdən Studnevin və inqilab komitəsinin məsləhətlərinə görə, A.Şadlinskini öz taboru ilə birlikdə Naxçıvana çağırmaq qərara alındı. Bu məqsədlə sentyabrın ortalarında Naxçıvan inqilab hökuməti adından Həsən Bağırov, demokratlardan Məmməd və Seyfulla Süleymanovlar xüsusi məktubla Mərəndə göndərilir. A.Şadlinski sovet hakimiyyətini qəbul edir. Tabor mütəşəkkil qaydada əzmlə Naxçıvana gəlir. Bununla bərabər, İran-

da olan mühacirlərin Naxçıvana axını başlayır. Tabor da, mühacirlər də Culfada təntənə ilə qarşılanır və həmin ildən tabora "Qırmızı tabor" adı verilir.

Eyni zamanda Naxçıvan sərəhəd mühafizə dəsətələrinə də başçılıq ona həvalə edilir. Ermənistanın özunün Sovet Sosialist Respublikası elan etməsindən sonra Azərbaycan da fəlakətdən xilas olmaq üçün bu üsula əl atır. Bir məsələ də vardı ki, sel kimi axan bolşevik qoşunlarının qarşısında Azərbaycan çox gücsüz olduğunu anlayırdı. Bolşevikləşməkdə olan Azərbaycan fürsətdən istifadə edib, Naxçıvanın ermənilər tərəfindən tutulmuş kəndlərini və Şəruru daşnaklardan azad edir. Bu işdə Abbasqulu bəy Şadlinskinin rəhbərlik etdiyi "Qırmızı taboru" təbii ki, öndə gedir və bütün ağırlıq Abbasqulu bəyin çiyinlərinə düşür.

1920-ci ilin oktyabr ayının axırlarında "Qırmızı tabor»un qarşısında belə bir vəzifə qoyulur ki, Əznəbürd-Qarabağlar səmtindən dağ ətəkləriylə hərəkət edib, Bağırsaqdərə – Sədərək arasında mövqe tutsun və Arazdəyən – Çanaxçı tərəfə irəliləyən hissələrlə birləşsin. Bu əməliyyat planı noyabr ayı ərzində bütünlüklə həyata keçirilir, nəticədə Şahtaxtı – Xok kəndlərində daşnaklardan 1200 əsgər və zabit əsir alınır, çoxlu hərbi qənimət ələ keçirilir. Şərur qəzası bütünlüklə azad edilir və dekabrın 2-də orada qəza inqilab komitəsi təşkil olunur. Naxçıvanda fəaliyyət göstərən bolşevik dəstələri, Qəmərli kommunistləri erməni bolşevikləri ilə birləşirlər.

1921-ci ilin yanvar-fevral aylarında, "Qırmızı tabor"a tapşırıq verilir ki, daşnak Yaponun başçılığı altında Dərələyəzdən Şərur-Qəmərli istiqamətlərində başlanan təhlükəli hücumun qarşısı alınmalıdır.

Bolşevikləri İrəvandan uzaqlaşdırmaq niyyətində olan daşnak qoşunlarının qabağını kəsib, hərbi əməliyyatı pozmaq lazım idi. Komandanlıqdan belə bir göstəriş alan Abbasqulu bəy "Qırmızı taboru" Şərura gedən yolda, Danzik, Arazdəyən tərəfdə, Zəncirli – Çanaxçı kəndlərində yerləşdi-





rir, düşmənin qabağını canlı sədlə kəsir.

1921-ci il fevralın 13-də daşnaklar İrəvanda qəflətən baş qaldırır, hakimiyyəti ələ keçirir və bolşevikləri Qəmərliyə tərəf sıxışdırırlar. Onlar Ağhəmzəlidə bir bolşevik hissəsini mühasirəyə alırlar. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Dərələyəz daşnak birləşmələri fevralın şaxtalı günlərində Yelpin-Çivə divarlarından hücum edib, Şərur – Qəmərli istiqamətlərini nəzarət altına alır, bir tərəfdən Naxçıvanla İrəvanın əlaqəsini kəsmək, digər tərəfdən də boşeviklərin arxasına keçib, onların İrəvana kömək göstərməsinə imkan verməmək məqsədini qarşıya qoyur.

Daşnak liderlərinin etiraf etdiyi kimi, 13 fevral hadisəsi Ermənistanda vətəndaş müharibəsini qızışdırır, orada daşnakların baş qaldırması Naxçıvanda da əksinqlabçı qüvvələri dirçəldir. Bu münasibətlə Naxçıvanın fövqəladə komissarı Bahadur Vəlibəyov hərbi inqilab komitəsinə və Azərbaycan KP MK-ya verdiyi məlumatda göstərir ki, hökuməti ələ keçirmək məqsədi ilə üsyançılar daşnaklarla birləşmişlər, lakin, daşnaklar bunlara etibar etmirlər. (106). Bu zaman kəşfiyyat xəbər verir ki, İrandakı daşnaklar və yerli xanlar Zəngəzurda toplaşmış daşnaklara ərzaqla və digər üsullarla kömək edirlər. Ordubad əksinqilabçıları, çolaq Sadıq, culfalı Ağa, Naxçıvan rayonun Qaraçuq kəndindən Mustafa Çavuş və başqaları ilə əlaqə saxlayırlar. Naxçıvan ərazisində əksinqilabın qarşısını almaq üçün Abbasqulu bəyin taborundan və başqa alaylardan dəstələr çıxarılır. Mart ayının 18-25-də Naxçıvan, Tirkeş və Ordubadda əksiqilabçı ixtişaşlar yatırılır və hərbi dəstələr yenidən öz mövqelərinə qayıdırlar.

İrəvanda daşnakların 45 günlük hakimiyyətinə son qoyulur. Şəhərlərin bütün əmək adamları daşnakların əleyhinə qalxır. İrəvanda əksinqilabçı qüvvələr darmadağın edilərək, Dərələyəzə sıxışdırılır. Belə olduqda daşnaklar hakimiyyəti əldə saxlamaq üçün hər cür cəza tədbirlərinə əl atırlar.

"Qırmızı tabor"a qoşulan erməni bolşeviklərindən inti-

qam almaq, onların hərbi sirlərini öyrənmək məqsədiylə daşnak komandanlığı partizanların qohumlarından 53 nəfərini Arpa kəndindən döyə-döyə Yanıq (bolşeviklərlə daşnakların sərhədi) adlanan yerə gətirir, onlara olmazın işgəncələr verir.

1921-ci il iyulun axırlarında Dərələyəz əməliyyatı bütünlüklə başa çatır, daşnak qoşun tör-töküntüsü Zəngəzura çəkilir. Zəngəzur əməliyyatlarının yenidən başlanması ilə əlaqədar olaraq, digər hərbi hissələrlə yanaşı, Abbasqulu bəyin başçılıq etdiyi "Qırmızı tabor"da Karçevan-Mehri tərəfə göndərilir.

Birləşmiş qüvvələrin müştərək səyləri sayəsində Zəngəzurda daşnakların son qalıqları ləğv edilir. Yan-yörələrdən baş qaldıran ayrı-ayrı daşnak bandaları da susdurulur. Naxçıvanda və Ermənistanda, Dərələyəz və Zəngəzur rayonlarında asayiş bərpa olunur.

Ermənistan hərbi inqilab komitəsinin hakimiyyəti altında olan rayonlardan qovulan daşnaklar dağlıq Dərələyəz və Zəngəzur rayonlarına toplaşır. Sonra daşnaklar Dərələyəzdən Arpaçay boyunca hücum edib Naxçıvanı və İrəvanın arasını kəsmək, İrəvanda sovet hakimiyyətini yıxmaq planını irəli sürürlər. Lakin onlar ciddi müqavimətə rast gəlirlər. Danzik dərəsində yollar kəsilir.

1921-ci il fevralın 13-də daşnaklar İrəvanda üsyan qaldırıb, bolşevikləri kənar rayonlara sıxışdırır.

İrəvan əksinqilabına kömək məqsədiylə Dərələyəzdə daşnak dəstəsinin başçısı Yaponun rəhbərliyi altında hücum başlanır. Bu hücumun əsas məqsədi Naxçıvan ilə İrəvan arasını kəsib, əksinqilabı genişləndirmək idi.

İrəvanda ağalıq edən əksinqilabçılar bolşeviklərə qanlı divan tutur, kommunistlər həbsxanalara doldurularaq qılıncdan keçirildi. Bu zaman xidməti iş üçün İrana gedən Naxçıvan inqilab komitəsinin sədri, 23 yaşlı Gəray Əsgərov da daşnakların əlinə keçir və öldürülür.

Bu illər Şərur-Qəmərli üzərinə hücuma keçən daşnakla-





rın qarşısının alınmasında Naxçıvanda təşkil edilən beynəlmiləl dəstələrin çox böyük xidməti olur.

Doğrudan da, 1921-ci ilin qış və yaz ayları Naxçıvan ərazisində fövqəladə ağır vəziyyət var idi. Naxçıvanın yerli əhalisindən başqa burada Sürməli, Dərələyəz, Vedibasar, Zəngibasar rayonlarınıdan olan mühacirlər toplaşmışdı. Ölkənin iqtisadiyyatı tamam pozulmuşdu. Aclıq və xəstəlik əhalini biçib-tökürdü, hər yanda hökm sürən bu faciəli həyata baxmayaraq, Naxçıvan imkan dairəsində qaçqınlara yardım edir, daşnak əsarətindən qaçanlara Şərur kəndlərində sığınacaq verir və hərbi dəsətələr düzəldib, Dərələyəz daşnaklarının üstünə göndərirdi.

Bu vəziyyətdə İrəvanda daşnakların fevral, Naxçıvanda isə mart əksinqilabi qiyamı baş verir. İrəvanda daşnaklar hakimiyyəti ələ keçirib, 45 gün ağalıq edirlər. Bu zaman Naxçıvanda da əksinqilabi qiyamlar qalxır.

Fövqəladə komissar Bahadur Vəlibəyovun tədbiri və hərbi rəislərdən Studnevin, Abbasqulu bəyin bilavasitə səyi ilə Naxçıvanda, Culfada və Ordubadda qiyam dəf olunur, Cəhri-Tirkeş qiyamları yatırılır.

1921-ci ilin aprel ayında qırmızıların qüvvəsi Sədərək-Çanaxçı, Danzik-Arpa, Zəncirli-Qəmərli arasında toplanır, Dərələyəz daşnaklarının gözlənilən hücumuna əks zərbə hazırlanır. Adları çəkilən hərbi məntəqələr rus, erməni, azərbaycanlı və kürdlərdən ibarət dəstələr tərəfindən müdafiə edilir.

1921-ci ilin may-iyun aylarında Dərələyəz uğrunda qızğın vuruşmalar başlayır. Dərələyəz toqquşmalarında əsas cəbhə "Qırmızı tabor"un tutduğu Danzik-Cüvə mövqeləri idi. Burada başlıca məsələ daşnakların Şərura hücumunun qarşısını almaq, eyni zamanda əkshucumla Keşişkənddə (hazırkı Yexeqnadzor) mühasirədə qalanları xilas etmək idi.

1921-ci ilin aprel ayında daşnaklara qarşı cəbhə xətti, demək olar ki, Karçevan, Meqri, Xaçik, Əmovu, Arpa, Danzik və Vediyə tərəf uzanır. Lakin başlıca döyüş meydanı

Arpa, Cüvə, Yelpin, Rind kəndləri sayılırdı. Bununla bərabər, Çenqavur və Xaçik tərəflərdə də daşnaklar fəaliyyət göstərirdilər. Düşmənin gücünü öyrənmək üçün "Qırmızı tabor"çu Mehralı Hətəmoğlu Xaçik kəndinə göndərilir. Lakin o, daşnakların əlinə keçir və qətlə yetirilir.

Dərələyəzdə vətandaş müharibəsi getdikcə qızışdığı bir zamanda daşnakların əhaliyə tutduqları divan, etdikləri zülm yerə-göyə sığmırdı. Əhali böyük dəstələrlə Şərura tərəf qaçırdı. Onlar Şərur kəndlərində (Dizə, Mahmudkənd, Düdəngə, Zeyvə və s.) sığınacaq tapırdılar, yeməklə, paltarla təchiz edilirdilər.

1921-ci ilin iyun ayında Dərələyəz cəbhəsi həlledici xətt hesab edilirdi. Vətəndaş müharibəsinin böyük miqyas aldığını görən daşnak komandanlığı əmr edir ki, bütün qüvvələr Zəngəzur ilə Dərələyəz ərazilərində mövqe tutsun. Bu vaxt daşnakların məngənəsində sıxılan bütün əhali kütlələri onların əleyhinə qalxır.

İyun ayının ortalarında Ararat hövzəsi, Qəmərli, Vedi ətrafları daşnak qalıqlarından tamamilə təmizlənir. İndi bütün qüvvələr Zəngəzurda cəmləşən daşnaklar üzərinə göndərilir. D.Vəlixanovun komandanlığı altında qruplaşan dəstə iyun ayının 20-də Novo-Bayaziddən hücum edib, Snlimin aşrımını ələ keçirir. Yerli partizan dəstələri daşnaklara qarşı hərbi əməliyyata başlayır. Bunu da demək lazımdır ki, daşnakların Dərələyəz, Zəngəzur arasında yaxşı silahlanmış 6800 piyada, 2370 süvari qüvvəsi, 96 pulemyotu və 10-dan artıq topu var idi.

Lakin, xalq kütlələrinin onlardan üz çevirməsi nəticəsində düşmən get-gedə gücdən düşür və məngənə arasında sıxılırdı.

İyun ayının axırlarında daşnaklara qarşı ümumi hücum başlanır. Çox çəkmir düşmən sıxışdırılaraq Keşişkənddən çıxarılır və Kindovaz dağında toplanır. Daşnaklar çıxarkən orada ələ keçənlərə qanlı divan tuturdular. Bu barədə Yexeqnadzor rayonundakı "Verlek" qəzetində vaxtilə yazılmışdı ki, Azərbaycan zəhmətkeşlərinin köməkliyilə Ermənistanda daşnakların çirkin hakimiyyəti ləğv edildi. Bu işdə "Qırmızı tabor" Dərələyəz zəhmətkeşlərinə çox böyük köməklik göstərdi. Doğrudan da Dərələyəzin daşnaklardan azad edilməsində azərəbaycanlılar, ruslar, kürdlər böyük şücaət göstərdilər. Dərələyəzdə və Vedidə daşnakların məhv edilməsi, onların hakimiyyətinin devrilməsi Naxçıvan bölgəsini də böyük müsibətlərdən xilas etdi. (110).





Vedibasar elinin, Azərbaycanın igid oğlu Abbasqulu bəy Şadlinskini məhv etmək planını həyata keçirmək üçün fürsət gözləyənlər düz on il sonra niyyətlərinə çatdılar. Abbasqulu bəyin ən yaxın dostu, qəsdən incidilərək qaçaq salınmış Kərbəlayı İsmayılın əli ilə "Mübariz dəstə" və "Qırmızı Taborun" komandiri, igid Şadılı elinin böyük oğlu Abbasqulu bəy qətlə yetirildi.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq, Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəraitindən istifadə edərək, yerli müsəlman əhalisinə divan tatmağa başladılar. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlı türkünün bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşdular.

V.İ.lenin və İ.V.Stalinin imzaladıqları 13 saylı bir dekretlə Stepan Şaumyana, Kuznetsova va başqa bolşeviklərə Qafqazda sovetləşdirmə əməliyyatını həyata keçirmək tapşırılmış, həmçinin Türkiyədə rus ordularının işğalı altınıda olan torpaqlarda Ermənistan yaratmaq səlahiyyəti vermişdilər. Bu məqsədlə Şaumyan Tiflisə gələrək, 1918-ci il yanvarın 22-də çıxış edir və bütün Qafqazı sovetləşməyə çağırır. Zaqafqaziya komissarlığı bu çıxış üçün Şaumyanı 24 saat ərzində ölkəni tərk etməyə məcbur etdi. Şaumyan və yoldaş-

ları Tiflisdən Bakıya qaçdılar.

1917-ci ilin dekabr ayından başlayaraq erməni silahlı dəstələri Cavanşir qəzasının (Dəmirlər, İmarət, Qərvənd, Çarıqdar, Umudlu, Qaralar, Şirxavənd, Surxavənd, Bruc, Əli-Ağalı, Xaçın-Dorbatlı, Çıraxlı, Hacı-qərvənd) kəndlərinə ermənilər hücumlar edir, əhalini Ermənistana tabe olmağa məcbur edir, özləri üçün azərbaycanlılardan müxtəlif vergilər toplayırdılar. Azərbaycanlıların mal-qarasının oğurlanması bu vaxtdan sonra müntəzəm hal alır.

Zəngəzurun Kürdlər, İrəmis, Pöhrəli, Düyə kəndlərini ermənilər dağıtmışlar. İrəmis kəndində 8 adam, Pöhrəli kəndində 9 adam qətlə yetirilmişdir. Bu kəndlərə 520 min manat zərər vurulmuşdur (dekabr, 1917).

1918-ci ilin qışında Zəngəzurun Çilano və Mülkədari kəndlərinin erməniləri Eyvazlı kəndinə hücum etmiş, kənd sakinlərinin evlərini talamış, mal-qaranı aparmış, bir nəfəri öldürmüşlər. Eyni vaxtda Dolenlar kəndinin erməni əhalisi Şıxlar kəndini talan etmiş və yandırmış, mal-qaranı aparmışlar. Yanvarın 17-də isə Naxçıvanın Əznaburd kəndinin erməniləri, azərbaycanlıların üzərinə hücum edib 22 nəfəri öldürmüşlər və bununla da Naxçıvanda erməni-müsəlman davası başlanmışdır. (Tarixə erməni-müsəlman davası adı ilə daxil olmuş bu hadisələr mahiyyət etibarilə erməni quldur dəstələri tərəfindən dinc müsəlman əhalisinin qırılmasından başqa bir şey deyildir. Bu müdhiş cinayətləri törədərkən erməni quldurlarının güddüyü əsas məqsəd «Böyük Ermənistan» dövləti yaradılacaq əraziləri müsəlmanlardan təmizləmək idi. Həmin planları Türkiyə ərazisində həyata keçirmək cəhdləri puça çıxdıqdan sonra türk ordusnun zərbələri haqqında Zaqafqaziyaya doğru geri çəkilən erməni quldur dəsətələri bu məğlubiyyətin əvəzini azərbaycanlılar yaşayan köməksiz dinc əhalidən çıxardı. Əgər ermənilər qançıçən Andronik və Dronun başçılıq etdikləri minlərlə silahlı dəstələrə malik idilərsə, azərbaycanlıların onlara qarşı duran belə nizami dəsətələri yox idi. Məhz bu səbəbdən həmin toq-





quşumalarda məhz azərbaycanlılar müdafiə olunan tərəf idilər. «Böyük Ermənistan» şüarı altında öz işğalçılıq və qarətçilik məqsədlərini həyata keçirməyə cəhd edən erməni quldurlarından fərqli olaraq, azərbaycanlıların yeganə məqsədi öz doğma torpağını, öz evini, öz ailəsini qorumaqdan ibarət idi.)

Mart ayının 8-də ermənilərin Nehrəm kəndinə hücumu zamanı bir neçə azərbaycanlı öldürülmüş, Naxçıvanda bir nəfər qadın ermənilər tərəfindən qətlə yetirilmiş (10 mart), Naxçıvan şəhərinin Zaviya məhəlləsinə hücum etmiş, bir nəfəri öldürmüş, Qaraçuq və Bəlqan kəndlərindən köməyə gələn azərbaycanlılar atəşilə qarşılaşmış və xeyli adamın ölümünə səbəb olmuşdur (16 mart).

Bununla da imperialist müharibəsinin Şərq cəbhəsi pozuldu. Rus-türk cəbhəsində müharibə dayandı, hər iki tərəfin əsgərləri "Yaşasın inqilab, rədd olsun imperialist müharibəsi!" şüarı ilə silahı yerə atıb, rahat nəfəs aldılar. Rus ordu hissələrində əsgər deputatları sovetləri yaradıldı. Bununla bərabər, Aleksandropol, Qəmərli. Şahtaxtı, Naxçıvan və Culfadakı rus əsgərləri arasında fəaliyyətdə olan vəkillər şuraları ətraf kəndlərə də öz təsirini göstərdi.

Əsrin əvvəllərində qəzetlər yazırdı: Şuşadan "Kaspi" və "Həyat" qəzetlərinin redaksiyasına belə bir teleqram göndərilib: "Şuşa müsəlmanlarının vəziyyəti acınacaqlıdır – bütün yollar artıq yarım ildir ki, erməni quldur dəstələri tərəfindən bağlanmışdır, qida məhsulları göndərilməsi kəsilib, un, şəkər və bu kimi vacib ərzaq məhsulları yalnız poçtla gətirilir. Əsl aclıq hökm sürür, tək-tək ölüm halları qeydə alınıb."

Yekaterinodar,Volqaboyu və Xopyor alaylarından olan 200 nəfərdən artıq kazakın müşayiət etdiyi 60 furqonluq ərzaq karvanı Əskəran qalasında ermənilər tərəfindən ələ keçirilib. Kazaklar tam fəaliyyətsizlik göstəriblər. Dəstənin komandiri podyasavul Rıtakov deyib ki, Yekaterinodar alayının komandiri ona güllə açmamağı əmr edib. Beləliklə, onların gözü qarşısında ermənilər bütün ərzağı talan etmiş, atları və furqonları aparmışlar.

Ermənilər bütün uyezddə meydan sulayırlar, Malıbəyli kəndində bir neçə evi yandırmış, Xankəndindəki qərargaha hücum etmiş və kazakların gözləri qarşısında orada yaşayan müsəlmanları, o cümlədən qadın və uşaqları tikə-tikə doğramışlar. Nəcəfqulu ağanın və doktor Mehmandarovun malikanələri yandırılmış, yerlə-yeksan edilmişdir. Şuşa şəhəri ətraf aləmdən tam təcrid olunub, general - qubernatora və canişinə göndərilən şikayət və teleqramlar isə hələ ki heç bir səmərə verməmişdir. (163). Bostondan cənab Aleks Məlik "Mtsak" qəzetinin redaksiyasına göndərdiyi məktubda bildirir ki, o, erməni dilində "Qafqaz» adlı bədii toplu buraxmaq niyyətindədir. Bu topluya şer və hekayələr, povestlər, həmçinin Qafqaz və Türkiyədə erməni məsələsinə, Zaqafqaziyadakı millətlərarası qanlı toqquşmalara həsr olunmuş məqalələr daxil ediləcəkdir. Məcmuə bu ilin mayında Bostonda nəşr olunmalıdır. Topluya erməni yazıçıarından başqa, Amerikanın ermənipərəst müəlliflərinin də əsərləri salınmışdır. Toplunun satışından əldə olunan bütün vəsait erməni-tatar toqquşmalarında zərər çəkmiş Zaqafqaziya ermənilərinin nəfinə vekriləcəkdir" (163).

Martın 27-də erməni-tatar müşavirəsinin üzvlərindən S.S.Arutyunov, A.A.Kalantar, A.İ.Xatisov qraf. İ.İ.Vorontsov-Daşkovla görüşmüşlər. Onlar Şuşa uyezdində baş vermiş dəhşətli hadisələr barədə ətraflı məlumat verərək, bu qanlı toqquşmalara son qoyulmasını xahiş etmişlər. Qraf general Alftana teleqram göndərib, vəhşiliklərin qarşısının alınmasını və günahkarların məhkəməyə verilməsini tələb etmişdir. (165).

Şuşadan teleqram: Dünən səhər saat 10-11 arasında Xıdırlı, Qiyaslı, Şuxurmaxlı kəndinin müsəlman sakinləri suvarma kanallarını təmizlərkən təxminən 40 nəfər erməni tərəfindən gülləbarana məruz qalmışlar. BIr neçə adam həlak olmuşdur. Bundan başqa, 13 at da öldürülüb. (166).

«Mşx» qəzetinin apardığı dəqiqləşdirmələrə görə, Zəngəzur uyezdindəki Gələncik kəndində baş vermiş toqquşmalarda xeyli itki verilib. Belə ki, erməni tərəfindən 11 nəfər, tatar tərəfindən isə 30 nəfər öldürülmüşdür.





Yelizavetpoldan Hacı Zeynalabdin Tağıyevin teleqramına cavab veriblər: Sizin teleqramınızın məzmununu (teleqramda əsgərlər və kazakların, habelə pristavın müsəlmanlar tərəfindən öldürülməsinə təəssüf bildirilir, sakitliyə çağırış səslənirdi) müsəlmanlara elan etdim. Gücüm və imkanım çatan dərəcədə özümüzünküləri sakitləşdirmişəm. Ancaq nə qədər ki, Qoloşapov Şuşadadır, sakitlik gözləmək çətindir. Bununla yanaşı şəhərin müsəlmanları canişinə teleqram göndərib, Qoloşapovu başqası ilə əvəz etməyi xahiş etmişlər. Sizdən də eyni şeyi gözləyirik. (167).

1918-ci ilin martında sovet əsgərlərinin sayı 6 min nəfəri ötüb keçmişdi. Həmin ordunu Sovet Rusiyası hökuməti təchiz edirdi. Leninin göstərişi ilə Moskva hərbi dairəsi komandanlığı Bakıya döyüşçülər dəstəsi, iki hərbi təyyarə, iki zirehli maşın, beş min tüfəng, 31 milyon manat pul göndərdi. Bu yardım sonra da davam etdirildi.

Bolşevik maskası geymiş, qatı daşnak Stepan Şaumyan ordu quruculuğu işində antimüsəlman mövqeyində idi. Bakıdakı müsəlmanlar qəsdən orduya yaxın buraxılmırdılar. Çarın və varisi Müvəqqəti hökumətin bu istiqamətdəki siyasətini Bakı Sovetinin rəhbərləri də davam etdirdilər. Ordunun tərkibini ermənilər, ruslar və qeyri-müsəlman millətindən olanlar təşkil edirdi. Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsinin müxtəlif bölgələrindən Bakıya minlərlə silahlı erməni əsgərləri gəlmişdi. İşsiz və qeydiyyatsız yaşayan daşnak əhval-ruhiyyəli ermənilər S.Şaumyanın çağırışı ilə Sovet Ordusu sıralarına yazılırdılar. Onlar orduda üstünlük təşkil edirdilər. Əslində, Sovet Ordusunun rəhbər zabit kadrlarının əksəriyyəti də ermənilər idi. Məsələn, daşnak Avetisov ordunun qərargah rəisi, Qazarov birinci Qafqaz korpusunun, Amazasp üçüncü briqadanın komandiri idi.

Sovet Ordusundakı ermənilərdən başqa, Erməni Milli Şurasının və «Daşnaksütyun» partiyasının Bakıda 4500 sü-

vari və piyada əsgəri qüvvəsi vardı. Bunlar azmış kimi, İran və Qərb cəbhəsindən evlərinə qayıdan 7 min nəfərə qədər erməni əsgərini Qafqaz cəbhəsinə göndərmək niyyətilə Bakıya toplamışdılar. Bakı-Tiflis dəmir yolunun bəzi hissələri söküldüyü üçün onlar şəhərdə qalmaqda idi. S.Şaumyan həmin qüvvələrdən müsəlman soyqırımında istifadə etməyi planlaşdırmışdı.

Deyilənlərdən əlavə, Sovet qoşunu tərkibində rus-slavyan tayfalarının silahlı dəstələri, eser-menşevik dəstələri və Xəzər hərbi donanmasının matrosları vardı. Rus – daşnak birliyinin yaxşı silahlanmış, hərbi təlim görmüş, kifayət qədər döyüş təcrübəsi olan bu qədər qüvvəsinə qarşı mübarizədə müsəlmanların hərbi qüvvəsi yox dərəcəsində idi.

1918-ci ildə Bakı şəhərini bolşevik-daşnak birləşmələrinin törətdikləri qırğınlar hesabına ələ alan S.Şaumyan, necə deyərlər, fürsəti fövtə verməmiş, azərbaycanlılara qarşı soyqırımını bütün ölkədə həyata keçirməyə başlamışdır. Bu zaman «Musavat» partiyası Şaumyanın daşnak ordusuna qarşı imkanı daxilində müqavimət göstərsə də, heç bir nəticə hasil olmamışdır...

1918-ci ilin yazında bolşeviklər Bakını hərbi qalaya çevirmək üçün qətiyyətlə irəliləyirdilər. O vaxt Qafqaz üzrə hərbi inqilab komitəsi Bakıda yerləşdirildi. Sədri milliyyətcə erməni olan Q.N.Korqanov idi. Qırmızı Qvardiya və Xəzər Donanması Bakı Sovetinə tabe edilirdi. Cəbhədən qayıdan 8 min erməni əsgərini Bakıda saxlayan və daşnakların hərbi qüvvələrini özünə tabe edən Şaumyan mart ayında 20 minlik silahlı orduya malik idi. Bakı bolşevikləri ilə erməni millətçilərinin müştərək mübarizəsində hədəf eyni idi: «Azərbaycan Milli fikrini boğmaq, millətçi hərəkatı dəf etmək». (120a). «1918-ci ilin yanvar-fevral aylarında özgələrinə çox arxayın olan daşnak zabit və əsgərləri Bakının küçələrində belə bir mahnı oxuya-oxuya gəzirlərmiş:

*Bir-iki, Qafqaz oldu bizimki,*
*Bir-iki, Bakı oldu bizimki.*





*Dənizdən-dənizə,*
*Qara dəniz, Aralıq dənizi,*
*Üstəlik Kirit adası,*
*Şimal sərhədimiz Voronej şəhəri,*
*Paytaxtımız Tiflis şəhəri,*
*Yaşa, çox yaşa, Andronik paşa...*
*Andronik paşa, səni çox yaşa»...(22a).*

Bakıda çox güclü bir terrorçu ordu yaratmış Şaumyan müxtəlif bölgələrdə yaşayan ermənilərlə əlaqələrini daha da möhkəmləndirməyə başlayır. İlk əvvəl, «sağ əli olan» A.Əmiryanın redaktoru olduğu «Bakinski raboçi» qəzeti vasitəsilə həmfikirlərinə «bolşeviklərin sözünü» çatdırmağa cəhd göstərir.

Daşnaklar öz işlərini görməkdə idilər. Şimali Qafqazdan, Petrovskdan, Krasnovodskdan, Həştərxandan gələn ermənilər Bakıda Sovet Ordusu sıralarına qəbul edilirdi. İrandan və Krasnovodskdan gizli yolla gətirilən hərbi sursatı daşnaklar milyonçu Mantaşovun zavodunda gizlədirdilər. Ermənilər yaşayan məhəllələrdə sənəgərlər qazılırdı. 1918-ci ilin fevral ayından başlayaraq, müsəlman məhəllələrində yaşayan erməni ailələri erməni məhəllələrinə köçürülürdü. Bunlar o demək idi ki, Şaumyan başda olmaqla daşnaklar qırğına hazırlaşmaqla ermənilərin təhlükəsizliyi üçün də tədbir görürdülər. Daşnakların təbliğat maşını gecə-gündüz şəhərdə müsəlmanların silahlanması, erməniləri qırmağa hazırlaşması haqqında böhtan yaymaqda idi. Onlar təbliğatları ilə ictimaiyyətin rəyini çaşdırırdı. Sovetin rəhbərliyindən müsəlmanları tərksilah etməsini tələb edirdilər. Bakıda Sovet hakimiyyətinə rəhbərlik edən daşnak S.Şaumyan və onun həmkarları - quldur dəstələrinin başçıları Saakyan, Avakyan, Çmiryan və başqaları ermənilərin müsəlmanlar haqqındakı şantajından istifadə edərək, azərbaycanlıları təqsirləndirir və tərksilah edirdilər. Şəhərdə gərginlik gündən-günə artırdı. Martın 16-17-də şəhərə əhalini həyacanlandıran xəbərlər gəldi. Bolşevik-daşnak silahlı dəstələri Şa-

maxının Ağdərə, Noxanlı, Qarxunlu kəndlərini qarət etdikdən sonra əhalini qırmışlar. Erməni milli qoşun hissələrinin yenidən Şamaxıya hücuma keçəcəyi xəbər verilirdi.

Müsəlman Milli Şurası H.Z.Tağıyevin, Musa Nağıyevin, Şəmsi Əsədullayevin və milli burjuaziyanın digər vətənpərvər nümayəndələrinin vəsaiti ilə ordu quruculuğunu genişləndirdi. Milli Ordunun təşkilində və formalaşmasında, təlimində onlarca türk zabiti, xüsusilə Rövşən bəyin xidməti təqdirəlayiqdir. Şirvanda, Muğanda, Lənkəranda, Gəncədə milli qoşun dəstələri yaradılırdı.

S.Şaumyan çıxışlarında yaxın vaxtlarda şiddətli döyüşlərin başlanacağına işarə edirdi. Martın ortalarında çəkinmədən bildirdi ki, Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə çevrilməlidir. Lakin o, qəsdən müsəlmanların soyqırımını vətəndaş müharibəsi kimi qələmə verirdi. Faciənin mahiyyətini təhrif edirdi.

Martın ortalarında Bakının qəzalarla əlaqəsini kəsmək, sonra da şəhərdə və onun yaxınlığındakı kəndlərdə müsəlmanları asanlıqla qırmağa şərait yaratmaq məqsədilə, Əmiryanın komandanlığı ilə Şamaxıya, digər daşnak zabitlərinin rəhbərliyi ilə Muğana, Lənkərana, Şirvana sovet-daşnak qoşunu göndərildi. Kəndlər çapılıb-talandı. Astara top atəşi ilə dağıdıldı. Xəzərin sahilində, Qızılağacdan Lənkərana qədər ərazidə yerləşən müsəlmanların yaşadığı kəndlər «Aleksandr Çandar» gəmisindəki toplardan atəşə tutuldu. Lalayevin quldur dəstəsi müsəlmanları tərksilah etdi. Əhali qarət olundu.

Milli qırğın ərəfəsində Qafqaz cəbhəsinə göndərilməsi nəzərdə tutulan 7 min erməni əsgərinin Bakıda saxlanılması adamların narahatlığını daha da artırdı. Müsəlmanlar kütləvi surətdə şəhərin yaxın kəndlərinə köçürdü. Şayiələr tuğyan edirdi. Qəzalara göndərilən rus-daşnak silahlı qüvvələri həmin əraziləri «müsəlman partizanlarından» təmizlədi.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan «Evelina» gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən





tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə idi.

Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi «Everina» gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdilər. Müsəlman dəsətəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu. Təbliğat maşını bütün gücü ilə işə düşdü, şayiə yaydılar ki, müsəlmanlar şəhərdəki xristianları qırmağa hazırlaşırlar. Bu hadisələr şəhərdə müsəlmanların içərisində gərginliyi artırdı. Əsas partlayış martın 29-da baş verdi. «Evelina» sərnişin gəmisi Lənkərana yola düşməyə hazırlaşırdı. Mülki əhali ilə yanaşı, gəmidə «Vəhşi diviziya»nın 38 nəfər zabiti vardı. Onlar zabit Əli Əsədullayevin rəhbərliyi ilə Lənkərandakı milli əsgərlərin köməyinə gedirdilər. Daşnaklar qəsdən şayiə yaydılar ki, guya həmin silahlı zabitlər sovet rəhəbərlərinə qarşı qiyama hazırlaşırlar. Fitnədən məqsəd zabitləri tərksilah etdirmək idi. Sovetin rəhbərliyi gəminin kapitanına xüsusi icazə olmadan yola düşməməyi əmr etdi. Zabitlər silahlarını təhvil verməkdən imtina etdilər. Sovetin hərbi gəmisindəki matroslar onları atəşə tutdular. «Musavat» liderləri qırğına yol verməmək və məsələni aydınlaşdırmaq məqsədilə silahları alıb hökumət nümayəndələrinə verdi. S.Şaumyan və sovetin digər rəhbərləri Şamaxıdakı silahlı dəstələr gecikdiyindən həmin gün qırğına başlamadı. Martın 30-da hadisədən xəbər tutan müsəlmanlar bazar və dükanları bağlayaraq, küçələrə çıxıb etiraz nümayişinə başladılar. Məscidlərə toplaşaraq mitinq keçirdilər. Müsavat və Bakı Milli Şurasının nüfuzlu nümayəndələri əhalini təmkinli olmağa, münaqişəni dinc danışıqlar yolu ilə həll etməyə çağırırdılar. Hər an partlayış baş verə bilərdi.

N.Nərimanov sovetin daşnakpərəst rəhbərlərinin qırğına hazırlaşmalarından xəbərdar idi. Ona görə də Təzəpir məscidində əhaliyə müraciət edərək emosiyaya qapılmamağa, sayıq olmağa, düşmənin hazırladığı tora düşməməyə çağırdı. Onları başa saldı ki, təpədən dırnağa qədər silahlanmış, yaxşı təlim görmüş, müsəlmanların qanına susamış düşmənin qarşısına silahsız çıxmaq ağılsızlıqdır. «Hökumətlə hökumətlik etmək olmaz. Topu, çoxlu silahı, nizami əsgərləri, sursatxanaları var. Sizdə nə var? Var-yox beş-on dənə pas atmış dayandoldurum berdanka, otuz-qırx köhnə, sınıq əfsər tapançası, nişan almağı, atmağı da əməlli-başlı bacarmırsınız».

N.Nərimanov fitnə torunu quran S.Şaumyandan xahiş etdi ki, münaqişəni sülh yolu ilə həll etsin. Əks-təqdirdə minlərlə günahsız insanın qanı töküləbilər. Lakin daşnak başkəsəni müsəlmanlara qarşı qəzəbindən dönmədi. Gərginlik saatbasaat güclənməkdə idi. A.Aşurbəyov, Ş.Əsədullayev, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə martın 30-da günorta çağı əvvəlcə Hərbi İnqilab Komitəsində, sonra N.Nərimanovun mənzilində S.Şaumyanla, P.Çaparidze ilə alınmış silahların geri qaytarılması mövzusunda danışığa başladılar. Razılıq əldə edildi ki, həmin silahlar «Hümmət» Təşkilatı vasitəsilə geri qaytarılsın. Lakin, müsəlmanlara divan tutmağa hazırlaşan S.Şaumyan çoxdan gözlədiyi fürsəti əldən vermək istəməzdi. Əvvəlcədən hazırladığı ssenari əsasında təxribat törətdi. Onun göstərişi ilə sovet süvarilərindən 4 nəfəri öldürüldü. Arzu edilən bəhanə tapıldı. Bolşevik-daşnak silahlı qüvvələri geniş miqyasda atəşə başladı. S.Şaumyan sonralar etiraf etdi ki, «Biz süvari dəstəyə birinci basqın cəhdindən bəhanə kimi istifadə edərək, bütün cəbhə boyu geniş hücuma başladıq».

Martın 31-də düşmən qüvvələri topların, təyyarələrin, Xəzər hərbi gəmilərinin köməkliyi ilə İçərişəhərdə, Çəmbərəkənddə, Şamaxı yolunda və şəhərin digər hissələrində silahsız və günahsız müsəlmanları güllələbaran etdilər. Döyüşlər başlayarkən menşeviklərin lideri Ayollo soveti müdafiə edən bəyanat verdi. Kadetlər və eserlər də qırğına mane olmadılar. Əksinə, sovetin daşnak rəhbərlərinin mövqeyini müdafiə etdilər. «Mars» teatrının damında qoyulmuş pulemyotlardan atılan atəşlə müsəlmanlar qətlə yetirildilər. Erməni Milli Şurasının liderləri döyüşün birinci gecəsi S.Şaumyan başda olmaqla bolşeviklərlə və eserlərlə müsəlmanlara qarşı saziş imzaladılar.





Azərbaycanlı əhali silahsız olsalar da qeyrətlə müqavimət göstərirdi. Teymur bəyin, Məhəmmədhüseynin, Məhəmmədəlinin və başqa qeyrətli kişilərin Bakı kəndlərindən köməyə gələn dəstələri düşmənə layiqli zərbələr endirirdi. Ermənilər hətta Abşeronun kəndlərinə də divan tutmağa cəhd etsələr də, onların bu niyyətləri baş tutmamışdır. Kəndin sakinləri Kürdəxanı yaxınlığında yerləşən məhəmmədililərin «Ləəş» adlandırdıqları bağlrar köçürülmüş və kənddə bir neçə gözətçi qoymuşlar. Ermənilər kəndə girən zaman iki nəfəri xəncərlə doğramış, bir nəfəri güllə ilə vurmuş, bir nəfəri Zabratda yerləşən ştabın qabağında güllələmiş, bir nəfər qadın kəndin kənarında, bir nəfər azyaşlı uşağı isə kənddə öldürmüşlər. Qətlə yetirilən 14 nəfərin hamısının adları bəllidir. Bundan sonra Mürsəl Paşa öz ordusu ilə kəndə gəlmiş, xüsusi əməliyyat planı hazırılamışdır.Bu planda iştirak etmək üçün Məhəmmədi kəndinin əli silah tutan əhalisi də səfərbər edilmişdir. Ermənilərin qarşısını almaq məqsədi ilə yerli əhali Maştağa, Məhəmmədi və Fatmai istiqamətlərindən hücuma keçərək, erməniləri böyük məğlubiyyətə uğratmışlar. Maştağa böyük kənd olduğuna görə, həmin istiqamətə güclü erməni qüvvələri yeridilmiş, amma Maştağa kəndinin mərd igidləri onları kəndə çatmamış Zabrat kəndi deyilən yerdə qarşılamış və böyük fəlakətə dücar etmişlər. Məhəmmədi kəndinin sakini Rzayev Sədi Məmmədrza oğlu həmin günləri belə təsvir edir: Fatmai kəndi istiqamətində hərəkət edən erməniləri isə Fatmainin igidləri kəndin kənarında yerləşən qəbirstanlığın yaxındığında

qarşılaşaraq, kəndə girməyə qoymamış və onları məğlub etmişlər. Deyilənlərə görə, Türk qoşunlarının komandanı Mürsəl Paşa öz ordusu ilə kənddə olan zaman 2 nəfər türk əsgərini Zabrat istiqamətində kəşfiyyata göndərmişdir. Zabrat yaxınlığında ermənilərə rast gələn türk əsgərlərindən biri qətlə yetirilmişdir. Məhəmmədi kənd sakinlərindən Mərdəli Paşa oğlu Əliyaqub Kərbəlayı Hənifə oğlu birlikdə gecə vaxtı həmin əsgərin cənazəsini kəndə gətirmiş və Məhəmmədi qəbristanlığında dəfn etmişlər. Sonralar tanımaq üçün şəhid türk əsgəri İbrahimin tüfəngini şinelinə sarıyaraq qəbrə, güllələri isə papağının içində başının altına qoymuşlar. Mərdəli ilə Mürsəl paşa bir-biri ilə əhd-peyman bağlamışlar ki, öz övladlarına bir-birinin adını qoysunlar. Mərdəli dayı bu əhdi yerinə yetirib, bir oğluna Mürsəl adını, bir oğluna isə Məhəmmədi kəndi uğrunda şəhid olmuş türk əsgəri İbrahimin adını qoymuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Mərdəlinin qardaşı oğlu Məşədi Vaqif və bacısı oğlu Məşədi Ağaməli qəbrin üstünü götürən zaman içəridə olan tüfəng və patronlar yerində olmuşdur. Bu onu göstərir ki, həmin hadisədən 75 il keçməsinə baxmayaraq, qəbrin olduğu yer əhali tərəfindən unudulmamışdır. Məşədi Vaqif qəbrin üstündəki löhvəyə bu sözləri yazmışdır:

*Etdin fəda qorxmadan cavan canın,*
*Eşidib fəryadın Azərbaycanın. (123a)*

Maştağa kəndinin əhalisi 1918-ci ildə, müsəlmanların soyqırımı dövründə böyük qəhrəmanlıq göstərmişlər.

1918-ci ilin mart ayı idi. Şəhərdə azərbaycanlıların qırğını başlanmışdı. Qan su yerinə axırdı. Qiyamət o yerə çatmışdır ki, Novruz bayramı da yddan çıxmışdı.

Ermənilər şəhərdən Maştağaya tərəf üz qoymuşdular. Top onlarda, tüfəng onlarda. Üstəgəl, çar dövründə qüllüq eləmiş hərbçiləri, zabitləri də var idi. Bizim yazıqlar hərbi qayda-qanunu bilmədən berdankaynan, mauzelərlə çıxmış-





dılar qabaqlarına. Kənddəki atıb-vuran kişilərin bir hissəsi Zabrat tərəfdə, kənd üstündə səngərlərdə vuruşur, qalanı isə Dərəqılınc tərəfdə ermənilərin qabağını saxlayırdılar. Amma düşmən güclüydü, hücumun qarşısını almaq olmurdu.



*Şəhid Türk oğlu İbrahim. 1918-ci il.*

Maştağa kənd sakini Məşədi Əhməd atası Bəyəhmədin danışdıqlarını belə xatırlayır: «Qonşu Bilgəh kəndindən də Maştağaya kömək gəlmişdi. Xeyli cavan döyüşçü, bir neçə

araba silah-sursat göndərən Bilgəh camaatı, bununla öz qonşuluq-qardaşlıq sədaqətini bildirmişdir. O vaxtlar torpaqlarında pambıq əkən bilgəhlilər, Maştağaya bu məhsuldan gətirər, dərzilər isə həmin pambıqdan döyüşçülərimiz üçün pal-paltar tikərmişlər.

Bilgəhdən daha sonra zəfəran gəlirdi. Ağsaqqallar onu satdırıb, əvəzinə tüfəng, patron alırdılar. Əlbəttə, bütün bunlar düşmən qabağını uzun müddət saxlamış qəhrəman Maştağa döyüşçüləri üçün mənəvi kömək idi». (123a)

Ermənilər Kürdəxanı tərəfindən Maştağaya basqın edə bilərdilər. Bu basqının qarşısını almaq məqsədilə Seyid Aslan Mir Məhəmməd oğlu Mir Məhəmməd ağa Kürdüxanı kəndinin sözükeçən şəxsləri ilə əlaqə saxlamışdı. Onlar da ermənilərə qarşı silaha sarılmışdılar. Əgər bu addım atılmasaydı, ermənilər buradan yerli müdafiəçilərin arxasına keçə bilərdilər.

1918-ci il erməni-müsəlman davasında, xüsusilə Maştağa yaxınlığında ermənilərə qarşı döyüşlərdə böyük qol oynamış Məşədi Adil Əbdülrəhim oğlu 1868-ci ildə Kürdəxanı kəndində anadan olmuşdur.

Məşədi Adil xalq arasında haqq-ədalət tərəfində olmaqla tanınmış, dəfələrlə çar üsul-idarəsi tərəfindən təqib olunmuş, bir neçə dəfə həbs edilmiş, çar jandarmalarının əlindən dəfələrlə qaçıb xilas olunmuşdur. Buna görə də xalq arasında onu «Qaçaq Adil» deyə çağırırdılar (123a).

Şamaxı, Ağsu, Göyçay əraziləri bolşevik – daşnak ordusunun əlinə keçəndən sonra S.Şaumyan və onun əlaltıları – S.Lalayev və A.Əmiryan 20-25 mindən artıq, çoxusu da erməni cəlladlarından təşkil olunmuş ordunun Gəncəyə hücumu planlarını hazırlayırdılar.

Beləliklə, Azərbaycan ərazisinin çox hissəsi günü-gündən erməni daşnak ordusu tərəfindən işğal edilməyə başladı.

Nəticədə əhali qətlə yetirilir, kəndlər, şəhərlər xarabalıqlara çevrilir, xalqın maddi-mədəniyyət abidələri yer üzündən silinir, əhali qaçqın-köçkün vəziyyətinə düşür, ölkə qan





içində üzürdü.

Türk ordusunun komandanı Nuru paşa Məşədi Adilin bu qəhrəmanlığını yüksək qiymətləndirib, ona Adil Paşa deyə müraciət edib. Eyni zamanda hörmət əlaməti olaraq öz göy atını və papağını Məşədi Adilə bağışlayıb (123a).

Türklər Bakıdan gedərkən Məşədi Adili özləri ilə İstanbula aparıblar. O, dörd gün orada qonaq qaldıqdan sonra Bakıya qayıdıb.

Xalq qəhrəmanı Məşədi Adil 1919-cu ildə qızdırma xəstəliyndən vəfad edib.

O vaxt Türklərin komandiri Tofiq paşa səngərləri gəzib, maştağalıların necə fədakarlıqla və məharətlə müdafiə olunduğunu görüb heyranlıqla demişdi: «Yahu, şu millət kahraman, şu torpak mukaddasdır» (123a).

Həmin hadisələrlə bağlı Məmməd Nuru oğlunun Məşədi Qurban Şıxməhəmməd oğlunun dilindən qələmə aldığı xatirələrə müraciət edirik:

Nikolay vaxtı azərbaycanlılardan əsgər aparmırdılar. Kim əsgər getmirdi, ildə vergi müfəttişliyinə 1 manat 20 qəpik tovcu verirdi. Bu bədbəxt hadisə bizə 1918-ci ildə, erməni-müsəlman davasında baha başa gəldi. Döyüş silahımız olmadığı üçün Bakıda ermənilər çoxlu müsəlman qırdılar.

Kəndin günbatan hissəsini, Mirasxanı deyilən sahəni pəhləvan Ağaverdinin dəstəsi müdafiə edirdi.

İndiki dəmir yolunun sol hissəsini, Dərəqılınc bağları sahəsini, Daş karxanasını, Zabrat aeroportunu, Ramana örüşünü Kərbəlayı Məlik Əziz oğlunun dəstəsi qoruyurdu.

Ermənilər I Zabrata qədər gəlmişdilər. Novxanı, Corat, Fatmayı, Goradil və s. ətrafdakı kəndlər mühasirədə qalmışdı.

Türklər gələndən sonra ermənilər qaçmağa başladılar. 1918-ci il də Maştağa ətrafında xeyli azərbaycanlı döyüşçü həlak olmuşdur. Tədqiqatçı alim Mehman Süleymanovun «Azərbaycanda Türk şəhidləri» kitabında Maştağa döyüşlərində həlak olan şəxslərin adları verilmişdir.

Türklərin Bakıya daxil olması və ermənilərlə vuruşan azərbaycanlılara köməyə gəlməsi kəndlərin, əhalinin xilasına səbəb oldu. Deyilənə görə, türklərin Azərbaycana gətirilməsində maştağalıların da müəyyən rolu olub. Maştağadan Hacıağa bəy (başqa bir xatirə isə Abbas bəy Kazımzadə. O, əslən maştağalı idi. «Müsavat» partiyasının ilk yaradıcılarından biri olub.) adlı bir vətənpərvər bu işdə fərqlənib.

Maştağalılar türklərin köməyi sayəsində ermənilərin növbəti hücumlarından qurtulmuşlar.

Türklərin komandanı Tofiq paşa Maştağada Kərəməlinin evinə düşdü. Mürsəl paşa isə Bakıda qaldı. Türklər Maştağa kənd camatını indiki 187 saylı məktəbin yerinə yığdılar. Burada 3 gün kənd əhalisinə təlim keçdilər. Ağsaqqalların dediyinə görə, təxminən 1500 nəfərdən çox maştağalı bu dəstəyə üzv yazılıbmış. Sonra onlar Bakı şəhərinə qədər erməniləri təmizlədilər.

Xilaskar kimi xalqımızı erməni başkəsənlərinin əlindən xilas edən və bu torpaqda qəhrəmanlıqla həlak olan türk döyüşçülərinin qəbirləri də çox təəssüf ki, saxlanılmamışdır.

Maştağada yaşlı nəsil yaxşı xatırlayır ki, şəhid olmuş türklərin qəbirləri uzun müddət böyük ehtiramla əhatə olunmamışdı. Amma Sovet hakimiyyətinin tüğyan elədiyi illərdə bu qəbrlər tədricən itmiş, başdaşları və sinə daşları başqa məqsədlər üçün istifadə edilmişdir. Xilaskar Türk ordusunun şəhid olmuş döyüşlərinə qarşı bu münasibət haqlı olaraq bu gün bir çox maştağalıları hiddətləndirir. Onlar kənddə yenidən bu qəbirləri ehtiramla abadlaşdırmaq arzusundadırlar.

Maştağada Tofiq paşanın şərəfinə çoxları öz uşaqlarına onun adını qoymuşdur. Bu gün kənddə yaşayan və dünyasını dəyişmiş şəxslərin Tofiq adları məhz belə yaranıb. Xalq öz xilaskarının adını bu cür əbədiləşdirib, əzizləyib.

Bəzi məlumata görə, Tofiq paşa həmin dövrdə Maştağada Kərbəlayı Balaдəmirin də qonağı olub. Onlar dostlaşıblar. Ev sahibi ona bildirib ki, oğlu olsa adını mütləq





Tofiq qoyacaq. Elə də edib. Oğlunun adını bu məşhur Türk paşasının şərəfinə Tofiq qoyub.

Bakı qoçuları arasında 1918-ci ildə Qoçu Musa, Qoçu Teymur bəy, Qoçu Nəcəfqulu, Qoçu Əzim ermənilərə qarşı nəinki özləri vuruşublar, hətta, ermənilərin qarşısını uzun müddət alıblar. Türklər Bakıya daxil olduqda, bu igidliyinə görə Qoçu Nəcəfqulunun döşünə Nuru paşa orden taxıb, ona mükafat verib.

Maştağa kəndində Xunxalar məhəlləsi ilə Seyidər məhəlləsi uzun müddət idi ki, ədavət aparırdılar. Xunxalar məhəlləsinin başçısı qoçu Əziz Əbdüləzim oğlu, Seyidlər məhəlləsinin başçı-ağsaqqalı seyid, peyğəmbər övladı Mir Abutalıb ağa idi. İş o yerə çatmışdı ki, kiçik bir münaqişə qırğına səbəb ola bilərdi. Elə də oldu. Ertəsi gün kənddə dəhşətli bir qırğın gözlənilirdi. Gecə vaxtı Bakının tanınmış, məşhur üləması Mirzə Əbu Turab axunda xəbər çatdırırlar ki, sabah Maştağa kəndində qırğın olacaqdır.

«Millət atası», Azərbaycan xalqının fəxri H.Z.Tağıyev ilə dostluq münasibətində olan Əbu Turab axund gecə yarısı Hacıgilə gəlir. Onu hacının qapıçısı və qoruyucusu ləzgi Məhəmməd qarşılayır. O, söyləyir ki, Hacı yatıb, onu yuxudan ayıltmağa mənim hüququm çatmaz. Əbu Turab axund ona söyləyir ki, qorxma, mən cavabdehəm, Hacını yuxudan oyat. Əlbəttə, ləzgi Məhəmməd axundun sözünü yerə sala bilməzdi. Onun Hacı ilə münasibətini bilirdi. O, cəsarətini toplayıb Hacını yuxudan ayıldıb və söyləyib ki, Əbu Turab axund gəlib, təcili sizigörmək istəyir. Hacı tez geyinib axundun qabağına çıxır və təəccüblə soruşur: (123a).

- Ağa, salam, bu gəlişin xeyirdimi, bir hadisə baş verməyib ki?

Axund çox təmkinlə sözə başlayır:

- Hacı, mənə xəbər çatıb ki, sabah Maştağa kəndində böyük qırğın gözlənilir. Seyidlərlə Xunxalar bir-birlərini qıracaqlar. Buna yol vermək olmaz, Allaha xoş getməz. Bu qırğının qarşısını ancaq sən ilə mən ala bilərik. Biz dərhal

Maştağa kəndinə getməliyik.

Hacı faytonçusu Məşədi İsmayılı yuxudan qaldırır ki, faytonunu yola hazırlasın. Hacı və axund faytona minib gecə ilə Maştağa kəndinə yola düşürlər. Səhər hava işıqlanana yaxın kəndə çatırlar. Kəndin girəcəyində Məşədi İsmayıl soruşur:

- Hacı, kənddə hara gedəcəyik?

Hacı və axund faytonçunun bu sualına cavab tapmağa çalışırlar. Doğrudan da, əvvəlcədən heç fikirləşməmişdilər ki, kənddə kimin evinə düşəcəklər.

Əgər Əzizgilə düşsələr, Mir Abutalıb ağa inciyə bilər, deyər ki, mən seyid-peyğəmbər övladı ola-ola, iki nəfər hörmətli şəxs Əzizgilə düşüb. Yox, əgər Mir Abutalıb ağagilə düşsələr, Əziz onlardan inciyə bilər, deyər kəndin hörmətli qoçusu mən, məni saymayıb Seyidlər evinə düşüblər. Belə məsləhətə gəlirlər ki, yaxşısı budur məscidə düşək, necə olsa, ora müqəddəs yer sayılır. Bundan heç kim inciyə bilməz. Faytonu Maştağa məscidinə sürürlər. Əbu Turab axund Hacıya söyləyir ki, camaatı məscidə yığmaq sənin vəzifəndir. Sənin hörmətinə bütün kənd məscidə yığışar. Hacı kənd içinə adamlar göndərib, bütün kənd çamaatını məscidə dəvət edib toplayır. Məscid camaatla dolandan sonra Hacı üzünü Əbu Turab axunda tutaraq söyləyir:

- Mən vəzifəmi yerinə yetirdim, indi ağa ustalıq sənindir. Buyur, çıx minbərə.

Əbu Turab axund minbərə çıxıb, Allahın adı ilə sözünə başlayır. O, moizəsini gətirib «Qurani-şərif»in «Barışıq» ayəsinə çıxarır və söyləyir ki, əgər arada qan düşmənçiliyi olsa belə, bu ayəyə görə tərəflər barışmalıdırlar. O, Mir Abutalıb ağanı və Əziz Əbdüləzim oğlunu minbərin yanına dəvət edib, onları öpüşdürüb və onları «Quran»a and verdirir. Beləliklə qırğının qarşısı bu iki böyük şəxsiyyət tərəfindən alınır. Allah onlara min rəhmət etsin.

Maştağa kəndində bu iki nüfuzlu şəxsin barışması nəticəsində əhali silaha sarılaraq, onların rəhbərliyi altında ermənilərə qarşı mütəşəkkil qaydada vuruşmuşlar. Hafiz Sadıq bu haqda belə məlumat verir: «Kəndin bir tərəfindən böyük bir silahlı dəstə, başda «Əyriağız Əziz» olmaqla çıxır; kəndin o biri tərəfindən, başqa bir silahlı dəstə isə başda Mir Abutalıb ağa olmaqla hərəkət edir. Kəndin qurtaracağında, iki yol ayrıcında dəstələr bir-biri ilə birləşir. Mir Abutalıb ağa ilə Əziz əllərini bir-birinin çiyninə qoyub, mehriban görüşüb Bakı şəhərinə doğru hərəkət etməyə başlayırlar. Həmin dəstə Keşlə kəndini keçərək «Kərpic zavodu» tərəfə yaxınlaşır (indiki Montin körpüsü ətrafı). Pusquda duran ermənilər şəhərə kəndlərdən edilən köməyin qarşısını almaqdan ötrü dəstəni güclü top atəşinə tuturlar. Dəstədən çoxlu adam qırılır, geri çəkilməyə məcbur olurlar. Top mərmilərinin qarşısında nə etmək olar? Təəssüf ki, Bakıya gələn qeyrətli Maştağa igidləri, göstərdiyimiz səbəbdən şəhərə girə bilməyib, geri qayıdırlar». (Yenə orada).

Bu məlumatdan aydın olur ki, Qoçu Əzizin və Mir Abutalıb ağanın başçılığı altında vuruşan bu dəstələr, türklərin Bakıya gəlişindən əvvəl vuruşa-vuruşa Bakı şəhərinə yaxınlaşmış və sonra ermənilərin güclü təzyiqinə rast gələrək geri qayıtmış və Maştağa ətrafında ermənilərə qarşı müdafiə mövqeyi tutmuşlar.

S.Şaumyanın göstərişi ilə «Qars» və «Ərdahan» hərbi gəmiləri dənizdən Qız Qalasını və Təzəpir məscidini toplardan intensiv şəkildə atəşə tutdu. Döyüş gedən yerlərdə eybəcər hala salınmış, yandırılmış qalaq-qalaq meyitlər vardı.

Hadisədən bir qədər sonra S.Şaumyan Leninə göndərdiyi məktubda bildirdi ki, «bilərəkdən müsəlmanların qırğını getmişdi». Şəhərdə baş verən qarətin, qətlin, yanğının sayı-hesabı yox idi. Müsəlman bolşevik olsa da belə, ona aman verilmirdi. 36-cı Türküstan alayının və dənizçilərin ciddi tələbi ilə «Ərdahan» və «Krasnovodsk» hərbi gəmiləri şəhərin şərq limanlarına yan aldıqdan sonra Bakı Soveti İcraiyyə Komitəsinin sədri Caparidze daşnak zabitlərindən qətiyyətlə tələb etdi. ki, qırğını dayandırsınlar.

Əks-halda, ermənilər yaşayan hissəni gəmilərdən top atəşinə tutacaqdır. Bundan sonra qırğın dayandı. Döyüşlər aprelin 2-də kəsildi. Üç gün davam edən qanlı savaş nəticəsində Bakıda 12 min müsəlman qətlə yetirildi.. Qırğından sonra S.Şaumyan mərkəzə göndərdiyi məlumatda vicdan əzabı çəkmədən bildirirdi ki, «üç gün ərzində Bakıda şiddətli vuruşmalar getdi. Vuruşun nəticəsi onun üçün gözəl oldu. Düşmən (müsəlmanlar) tamamilə darmadağın edildi».




*1918-ci ilin yazında Bakı soyqırımı*

1918-ci ildə Azərbaycanın bir çox rayonlarında erməni daşnakları yerli əhalini kütləvi şəkildə qirmiş, sağ qalanlar isə qaçıb yurdlarından didərgin düşmüşlər. Təkcə Bakı şəhərində 15 mindən çox günahsız adam öldürülmüşdü. Son illərdə aparılan tədqiqatlarda bu rəqəm 30 min nəfər göstərilir. Həmin dövrdə Nərimanov baş verən faciənin qarşısını almaq üçün əlindən gələni edirdi. Lakin, hər şey Stepan Şaumyanın səlahiyyətində idi, onun işinə heç kəs qarışa bilməzdi. N.Nərimanov 1918-ci il mart qırğınları haqqında yazırdı: «Müsəlman, hətta bolşevik olsaydı belə, ona aman





vermirdilər. Daşnaklar deyirdilər: «Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir. Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular...Bolşevik bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər» (123a).

Bakı şəhərində ermənilər azərbaycanlıları qırmağa başladılar. Ermənilərə rus əsgər və matrosları da kömək edirdilər. Atışma əsasən Şamaxı yolu və şəhərin mərkəzində gedirdi. Rus əsgərləri «Metropol» mehmanxanasının (Nizami muzeyi) damından və «Qoşaqala» qapısı yaxınlığında Haşımov (Gənclər) meydanındakı mülkün damından pulemyotdan atəş açırdılar. Azərbaycanlıların evləri yandırılır və dağıdılırdı. Daşnaklar yerləşdikləri Salyan kazarmasından azərbaycanlılar yaşayan məhələri top atəşinə tutdular. Həmin günlər çoxlu azərbaycanlı öldürülmüş, mağaza və evlər qarət edilmişdi. Nikolayevski (Kommunist) küçəsində Stepan Lalayevin başçılığı ilə çoxlu adam öldürülür, mağaza və evlər qarət edilirdi. Saat 20.00-dan sonra küçələrə çıxmaq qadağan edilmişdi.

Türkiyə və İran cəbhəsindən dönən rus və erməni silahlı əsgərlərinin bir çox dəstələri Bakıda yerləşirdi. Şaumyan öncə bolşevik fikirli rus əsgərlərindən, sonra da daşnak partiyasının köməyi ilə ermənilərin türk-müsəlmanlara olan düşmənçiliyindən bacarıqla istifadə etməyə başladı. Şaumyan rus əsgərlərinə, ermənilərə arxalanaraq menşevik, eser və musavatçıların çoxluq təşkil etdikləri Bakı Bələdiyyə məclisini zorla yeniləşdirdi və bolşeviklərin çoxluğunu təmin etdi. Sonra Bakı şəhərinin idarələrində çalışan azəri türklərini tutduqları vəzifələrdən uzaqlaşdırdı. Beləliklə, Bakını və civarını bolşevikləşdirdiyini zənn edən Şaumyan erməniləri və rus əsgərlərini, xüsusilə Xəzər hərbi dəniz donanmasının matroslarını azəri türklərinə qarşı təhrik etməyə başladı. Bakıda özünün rəhbərliyi altında Sovet hökuməti quran Şaumyan azəri türklərinə «sizə Azərbaycan istiqlaliyyəti ye-

rinə bir məzarlıq bəxşiş edəcəyəm» deyə açıqcasına söyləyirdi. Bakıda az miqdarda silahlı könüllü azəri əsgərləri vardı. Şaumyan hücuma keçmək üçün bəhanə axtarırdı. Azəri könüllü alayı Lənkəranda olan könüllülərə silah göndərmək istəyirdi, ancaq Şaumyanın rəhbərlik etdiyi Sovet hökuməti bu silahaların göndərilməməsi üçün əmr verdi. Bakıda olan könüllü ordunun zabitləri bu əmrə itaət etmədilər və silahları gəmiyə yüklədilər. Gəmi hərəkət edərəkən, matroslarla erməni dəstələri gəminin qarşısını kəsib silahları əllərindən aldılar. Bu zaman baş verən atışma nəticəsində hər tərəfdən bir neçə nəfər ölən və yaralanan oldu. Şaumyan ermənilərlə rusları müsəlmanlara qarşı hücuma təşviq etdi.

Bakı Xalq Komissarları Soveti Azərbaycanda, o cümlədən Bakıda olan vəziyyətdən istifadə etməyə çalışırdı. Onlar daxili qarşıdurmaların meydana çıxmasını öz hakimiyyətlərinin davam etməsinin təminatı kimi görürdülər. V.İ.Lenin Qafqazda olan vəziyyətlə əlaqədar S.Şaumyana yazırdı ki, anarxiya və mövcud münasibətlərdən istifadə edilməsi bizə bölgədə uzun müddət qalmağımıza imkan verəcəkdir. Lenin münasibətlərin yumşadılmasına tərəfdar idi. Lakin ona bir məsələ də məlum idi ki, S.Şaumyan mövcud münasibətlər sistemində daha sərt tədbirlərə əl ata bilərdi. Buna görə də o, Şaumyana aşağıdakı nəsihətləri verirdi: «İndiyə qədər imperialistlər arasında olan münasibətlərdən, mübarizələrdən və savaşlardan özümüzü qoruduq. Bu qarşıdurmalardan faydalanmağı bilmək lazımdır. Artıq diplomatiyanı öyrənməyimizə ehtiyac var». Lakin hadisələrin gedişi S.Şaumyanın spesifik diplomatiyasının olduğunu aydın şəkildə göstərirdi.

Bakı əhalisi ermənilərin silahlanması ilə əlaqədar şəhəri tərk etməyə başlamışıdı. Bolşeviklərlə ittifaqın erməniləri daha amansız etdiyini xalq aydın şəkildə görürdü. Əhalinin Bakını tərk etməsi o qədər böyük miqyas almışdı ki, hətta şəhər əhalisinin milli tarazlığının dəyişə biləcəyi qeyd edilirdi. Ermənilərin bolşeviklərlə ittifaqda olmasını həm də onda





görmək olar ki, bolşeviklər müsəlmanların şəhəri tərk etmələri barədə heç bir tədbir görmədilər.

Bakı Sovetinin əsgəri qüvvəsi ilə azərbaycanlı milli birliklər üzərində qələbə qazanmaq mümkün deyildir. Azərbaycanlı milli birliklərin sayı 10.000, Bakı Sovetinin silahlı əsgərlərinin sayının 6000 nəfər olduğu haqqında məlumat vardı. Burada mühüm olanı ermənilərin hadisələrə münasibəti idi. O zaman Bakıda daşnakların sərəncamında 4000 nəfərdən artıq silahlı dəstənin olduğu məlum idi. Hadisələrin meydana çıxdığı vaxtda daşnak rəhbərləri tərəfsiz olacaqlarını bildirdilər.

1918-ci ilin martında azərbaycanlılara qarşı soyqırımın başlanmasını Şaumyan «Zaqafqaziyada Sovet hakimiyyəti uğrunda fəal silahlı mübarizə mərhələsinə daxil oldu» şəklində Leninə məlumat verirdi. Üç gün – 30, 31mart və 1 apreldə – Bakıda amansız döyüşlər getdi, 30.000-dən artıq azərbaycanlı öldürüldü.



*Bakı. 1918, mart. «Kaspi» qəzeti redaksiyasının ermənilər tərəfindən yandırılmış binası*

Ermənilər azərbaycanlılara qarşı qırğınları çox halda müxtəlif formalarda həyata keçirirdilər. Bu məsələnin aydınlaşdırılmasında Azərbaycan hökumətinin xarici işlər na-

ziri M.Hacınskinin 1918-ci il iyulun 15-i tarixində hökumətə təqdim etdiyi raportda ermənilərin «bolşeviklər müsəlman xalqına qarşı» adı altında yaşlı, qadın və uşaq fərqi qoymadan qırğın törətdikləri bildirilirdi.

Fövqəladə İstintaq Komissiyası ermənilərin Bakıda törətdikləri qırığınla əlaqədar bir sıra məsələlərə aydınlıq gətirir. İfadələrdə ermənilərin əvvəlcədən azərbaycanlıların qırğınına hazırlaşdıqları, bir sıra hallarda rus əsgərlərinin də onlarla birlikdə olduğu göstərilir. Alınan ifadələrdə Bakıda 1918-ci ilin martında olan qırğının erməni təşkilatçıları haqqında da geniş məlumat verilir. Bakıda müsəlmanların qırğının təşkil edənlərin və onu yerinə yetirənələrin N.Ter-Akopov, F.Antonov, J.Melikov, M.Ter-Sarkisov, S.Melikov və başqaları olduğu sənədlərin çoxunda təsdiq edilir. Bütün ifadələri ümumiləşdirən Fövqəladə İstintaq komissiyası 1918-ci ilin martında 30.000 insanın qətlə yetirildiyi qənaətinə gəlmişdir.



Martın 30-dan aprelin 1-nə qədər çəkən qırğında on mindən çox günahsız azəri öldürüldü, türklərin mağazaları talan edildi, evlər yandırıldı. Türk qadınları saç-saça bağlanaraq, çılpaq gəzdirildikdən sonra müxtəlif şəkildə təcavüzlər, öldürmələr və daha başqa cinayətlər... Təcavüzlər bununla bitmədi. Erməni, rus könüllü dəstələri Şamaxı, Salyan, Kürdəmir, Quba, Lənkərana da hücum etdilər, bu yerlərdə də Bakıda olduğu kimi qırğınlar, talanlar və tarixdə görünməyən cinayətlər törədildi. Şaumyan verdiyi sözə əməl edirdi, azərilərə «azadlıq istiqlaliyyəti yerinə məzarlıq» bağışlayırdı.





Şaumyan və onun kimi bolşevik yoldaşlarının təhrik və təşviqilə 1918-ci il mart ayının axırlarında Bakıda, azəri türklərinə qarşı rus əsgərlərinin və ermənilərin törətdikləri vəhşilikləri öz gözləri ilə görmüş İran kommunistlərindən olan Mircəfər Pişəvəri xatirələrində yazır: «Mən 1918-ci il mart ayında daşnakların vəhşiliklərini, saysız günahsız adamların, xüsusilə bitərəf iranlıların öldürülüb, karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşəm. Bu, çox faciəli və nifrətəlayiq bir hərəkət idi» (210).

Bolşeviklərin təsiri altında olan Xəzər hərbi dəniz donanması Bakının məscidlərini bombaladı, bu zaman Təzəpir məscidinin minarələri ağır yaralar aldı. Bakıda türk memarlığının şah əsəri olan İsmailiyyə binası ermənilər tərəfindən yandırıldı. Kulna adlı bir xarici turist Bakıda gördüklərini belə anladır: «Ancaq müsəlmanlar yaşayan məhəllələrə hücum edən ermənilər adamları öldürür, qılıncla parçalıyır, süngülərlə dəlik-deşik edir, evləri yandırır, uşaqları yanan evlərə atır, diri-diri yandıdırdılar. Üç-dörd günlük südəmər uşaqları süngülərinə taxırdılar».

Çuxurların birindən bir neçə gün sonra çıxarılan 87 müsəlman cəsədinin qarınları yırtılmış, qulaqları, burunları və üzvləri... kəsilmişdi. Onlar nə uşaqlara, nə də qocalara rəhm edirlər. (61).

Bu zülmləri azəri xalqına çəkdirən, Lenin və Stalin tərəfindən alinə 13 №li dekret verilən, Qafqaz və Türkiyədə bir Ermənistan yaratmaq tapşırığını alan Şaumyan və yoldaşları idi.

Rus əsgərlərinə barışıq vəd etdikdən sonra onu üç illik vətəndaş müharibəsinə sövq edən, kəndlisinə torpaq vəd edib ona sovet təhkimçi-kolxozunu gətirən, fəhləsinə fabrik və zavod vəd edərək onu ən adi tətil hüququndan belə məhrum edib, kölə vəziyyətinə salan Lenin, türk və müsəlmanlara yuxarıda göstərilən vaizlikdən sonra, özünün yaxın adamı olan Şaumyan vasitəsilə türk qadınlarını, uşaqlarını və qocalarını məscidlərə doldurub, məscid ilə birlikdə hamısını yandırırdı. Ermənilərlə bolşevik qüvvələri birləşərək Gəncəyə doğru irəliləmək və azərilərin istiqlal hərəkatını boğmaq istəyirdilər.

Amma qırğınlar martın 18-dən Şamaxıda başlamışdı. Malakanların da ermənilərlə birlikdə olduğu mənbələrdən görünür. Ermənilər Şamaxının gözəl evlərini yandırır, qiymətli şeyləri qarət edirdilər. Şamaxıda erməni qırğını nəticəsində müsəlmanlara dəyən zərəz 2 milyard rus rublu olmuşdu. İstintaq komissiyası onların siyahısını Azərbaycan Hökumətinin Fövqəladə İstintaq Komissiyasına vermişdi. Müsəlman ordusu Şamaxıya gəlib erməniləri qovmuşdu. Lakin, müsəlman ordusu bölgəni tərk etdiyindən ermənilər yenidən hücuma keçərək, qətllərini davam etdirmişdilər.

Ermənilər Qubada Hamazasp və onun köməkçisi Nikolayın rəhəbərliyi altında 2000 azərbaycanlı öldürdülər. Rəsmi məlumatlara görə Hamazasp qrupu tərəfindən müsəlman əhaliyə 2 milyon rus rublu miqdarında zərər dəymiş, 25 milyon rübl qiymətində mal və ərzaq qarət edilmiş, 100 milyon rubl dəyərində 105 ev yandırılmışdı.

Lakin ermənilərin azərbaycanlılara qarşı Bakı Soveti ilə gizli razılaşma ortaya çıxmışdı və bu qüvvələr nisbətini dəyişmişdi. Bakı Soveti ilə ermənilərin birləşmiş qüvvələri qarşısında davam gətirə bilməyən azərbaycanlı birliklərin rəhbərləri bir gündən sonra atəşkəs tələb etmişdilər.

Azərbaycan əsgəri birliklərinin vəziyyətini bildiyindən, Bakı Sovetinin tələbləri də sərtləşdirilmişdi. Bakı Sovetinin azərbaycanlı hərbi birliklərin rəhbərlərinə ultimatumunda





Bakı Sovetinin nüfuzunu qeyd şərtsiz qəbul edilməsi, əmrlərin yerinə yetirilməsi, erməni əsgəri birlikləri ilə bərabər «Vəhşi» diviziyanın və başqa müsəlman birliklərinin geri çəkilməsi, Bakı-Tiflis və Bakı-Petrovsk dəmiryolu xəttinin yendən açılması tələb edilirdi.

Bakı Xalq Komissarları Sovetinin tələbləri azərbaycanlılar arasında ciddi etirazın meydana gəlməsinə səbəb oldu. Azərbaycanlılar müsəlman diviziyasının silahlarının alınaraq gələcəkdə onlara qarşı çevrilmiş olacağını bildirdilər.

1918-ci il martın 17-21-də (1918-ci il mart hadisələrinin canlı şahidləri, Azərbaycanın görkəmli dövlət xadimləri M.Ə. Rəsulzadə və N.Nərimanovun bu hadisələr haqqında fikirlərini olduğu kimi verməyi lazım bilirik;

1.M.Ə.Rəsulzadə:

«Şaumyanın rəhbərliyi altında olan «Bakı fəhlə və əsgər Soveti» erməni alayları və Daşnaksütyun partiyasının köməyinə arxalanaraq müsəlman təşkilatlarına qarşı xətti-hərəkət götürmüşdü. Gözləri qarşısında sərbəstcə gəzən erməni alayı əsgərlərini görən müsəlman xalqı, müsəlman alayınının təşkili üçün Tiflisdən göndərilən zabitlərin Sovetlər tərəfindən həbs eilməsini görüncə təbii, hiddətlənirdi. Beləliklə, gündən-günə çoxalan narazılıqlar nəhayət, bir fəsad qığılcımı ilə nəticələndi və 1918-ci il mart ayının 17-dən 21-nə qədər davam edən qanlı Mart hadisələrinə səbəb oldu.

Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməlləri Bakıda da tətbiq etdilər. Fəhlə füqəra hakimiyyəti naminə «Musavat» firqəsi ilə «Milli Müsəlman Şurasına» qarşı müharibə elan etmiş «Bakı Soveti» erməni alayları ilə birlikdə 10.000 müsəlmanı qətlə yetirdi. Qətl edilənlərdən əksəriyyəti fəhlə və füqəralardan ibarət olub, onların da arasında çoxlu qadın, uşaq və silah gəzdirməyə imkanı olmayan qocalar vardı». (247).

M.Ə.Rəsulzadə sonralar belə yazırdı: «Əgər, bolşeviklər sözlərini tutmuş daşnaklarla birləşmiş, Müsavat elanihərb edərək, azərbaycanlılara muxtariyyat əvəzinə xaraba-

zar vermək istəmişlərdi. Hər vasitə ilə hərbin önünə keçmək istəmiş olan Musavat bir əmrivaqe qarşısında qalınca, istər-istəməz mübarizə edən millətdən ayrıla bilməmiş, haman səngərə yatmış, bacara bildiyi qədər müdafiə etmişdir. Fəqət, burjualara elani-hərb edən qatillər füqarayinası və münhəsirən müsəlman füqarasını üç günün müddətində mərhəmətsizcəsinə qılıncdan keçdikdən sonra sülh bağlamış, «İsmailyyə» binasındakı idarənizdən apardıqları Musavat bayrağını salaraq, «Türkiyənin Bakı cəbhəsi yarıldı», - demişdilər». (207a).

N.Nərimanov: «Bakıda vətəndaş müharibəsi milli qırğına çevrilmiş oldu. Erməni silahlı quldurları tərəfindən müsəlman əhalisinin vəhşicəsinə məhv edilməsini necə vətəndaş müharibəsi adlandırmaq olar? Kim iddia edə bilər ki, erməni silahlı dəstələri Bakıda vətəndaş müharibəsi aparırdılar? Mənim özümü - türk bolşevikini» erməni quldurların əlindən yalnız yoldaş Şaumyan xilas edə bildi. Tutaq ki, Bakıdakı mart hadisələri vətəndaş müharibəsi idi. Bəs bundan sonra daşnaklar – Əmirov və Stepan Lalayevin Şamaxıdakı vəhşiliklərini necə adlandıraq?

Müsəlman qadınları zorlayıb, sonra da uşaqları ilə birlikdə məscidə doldurub diri-diri yandırmış alçaq Lalayevin Şamaxıdakı bu hərəkətini də vətəndaş müharibəsi adlandırmaq olarmı? (N.Nərimanov. Əsərləri. 2-ci cild, s. 188.)

M.Ə..Sabir məqaləsində həvəskar artistləri Şamaxıda Salamovların evində N.Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasını tamaşaya qoyduqları haqqında məlumat verir. Müəllif həmin məqalədə onu da göstərir ki, tamaşadan yığılan pul Şuşaya-Qarabağa-zərərçəkənlərə göndərilmişdir. «Vüsul olan məbləğin vəzi – məxaricindən sonra təmiz məbləği 318 manat 68 qəpik pulu Orucəliyev və Şirəlibəy cənabı poçta vasitəsi ilə doktor Kərimbəy Mehmandarovun üstünə göndərdilər». (M.Ə.Sabir, Hophopnamə, III c. Bakı, 1956, səh. 163).

M.Ə.Sabirin məqalələrinin birində bir cəhəh də diqqəti





çox cəlb edir. Görkəmli şair Qarabağda bu dəhşətli qırğını göstərən, ermənilərə havadarlıq edən – «Qalosicanovun da adını bəyan edir və göstərir ki, Qalosicanovların məxsusən musəlmanlara etdiyi yaddan çıxmaz olan birəhmanə vəxanımansuzanə hərəkətindən ancaq dərgahi-əhədiyyətə şaki olub, dövlətin ədalət qanununa ona cəza verilməsinə ümidvara olmaqla təsəlliyab ola bilərlər...» Şair, o zaman Şuşada general-qubernator işləyən Qalosicanovun qatı ermənipərəst olduğunu düz təyin etsə də, «dövlətin ədalət qanunlarına» bel bağlaması onun yanıldığını göstərir. Çünki mənbələrdən məlum olur ki, general-qubernator terrorçularla həmişə əlbir işləyirmiş. Bu barədə M.S.Ordubadi «Qanlı illər» kitabında yazır: «General Qalasicanovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar...». «İslam əsgərləri isə, mərdliklə onları qarşılayıb bir qədəm də olsa, müharibədən geri durmuş, erməni dəstələrini pərişan edirdilər. Ermənilərin bu vəziyyətini görən general Qalasicanov ümumi ştabda olan rus qoşunlarının müharibəyə qoşulmasını əmr edir...». (M.S.Ordubadi, «Qanlı illər», Bakı, 1991, səh.61).

Bu döyüşlərlə bir vaxtda S.Şaumyanın razılığı və göstərişi ilə T.Əmiryan, S.Lalayan, Avetisov və başqa daşnak zabitlərinin rəhbərliyi ilə Şamaxı qəzasına erməni silahlı qüvvələri göndərildi. Erməni cəlladları Stepan Lalayanın rəhbərliyi altında Şamaxıda 7 mindən çox günahsız insanı qırmış, 58 kəni dağıtmış və yandırmışdır. Bəzi məlumatlarda isə qəzanın 40-a yaxın kəndi xarabaya çevrilmiş, evlər talandıqdan sonra yandırılmış, əhali qılıncdan keçirilmiş, 50 mindən artıq adam bu və ya digər dərəcədə zərər çəkdi.

Şamaxı Əməliyyatı – Qafqaz İslam Ordusu Şimal qrupunun Şamaxı şəhərini S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin bolşevik-daşnak qüvvələrindən azad etmək uğrunda 1918-ci il iyulun 19-22-də keçirdiyi hərbi əməliyyat.



*1918-ci ilin mart-aprel Şamaxı soyqırımı*



*Şamaxı qəzasının gerbi. 1840*
*Azərbaycan Tarixi Muzeyi*

Əməliyyat üçün münasib şərait Ağsu və Kürdəmirin azad edilməsindən sonra yarandı. Qafqaz İslam Ordusunun





komandanlığı qüvvələri yenidən qruplaşdıraraq, Şərq cəbhəsinin komandanlığı altında şimal və cənub qruplarını yaratdı. Şamaxı istiqamətində döyüşləri şimal qrupu aparırdı.

Bakı uğrunda həlledici hücumlara başlamaq üçün Şamaxı əsas dayaq bazası olduğundan, ordu komandanlığı bu məntəqənin tezliklə alınmasını zəruri hesab edirdi. Şimal qrupunun qüvvələri Şamaxının cənub kəndlərindən keçməklə, Şamaxı-Bakı yolunu bağlamalı və Şamaxıdakı bolşevik-daşnak qüvvələrini mühasirəyə almalı idilər. Bunun üçün Şamaxının cənubundakı Göylər kəndinə güclü dəstə göndərilməli idi. Dəstə kənddən keçərək, irəli hərəkət etməklə, Şamaxı –Bakı şose yoluna çıxmalı və nəzərdə tutulan planın icrasını təmin etməli idi. Lakin hücum ərəfəsində (iyulun 19-da) gecə güclü yağış yağması əməliyyatın nəzərdə tutulduğu kimi həyata keçirilməsinə imkan vermədi. Göylər kəndinə doğru hərəkət etməli olan qüvvələr Mədrəsə kəndinə istiqamət götürdülər. Hücum planının dəyişməsinə baxmayaraq, qüvəllər xeyli irəliləyə bildi. Bolşevik-daşnak qoşunları müqavimət göstərməyin əbəs olduğunu anlayaraq, günün ikinci yarısında kütləvi şəkildə Şamaxıya doğru geri çəkildilər.

İyulun 20-də şimal qrupu Şamaxıdan keçərək, onun şərqindəki Çuxanlı-Məlikçobanlı xəttinə çıxdı.

«Şamaxı faciəsini gözləri ilə görən M.Əzizbəyov hadisəni N.Nərimanova təsvir edərkən, uşaq kimi gözünün yaşını saxlaya bilməmişdi. Onun dediyinə görə, Əmiryanın və Lalayanın silahlı quldur dəstələri cinsinə və yaşına məhəl qoymadan azərbaycanlıları qətlə yetirdilər. Uşaqları süngüdən və qılıncdan keçirdilər. Adamları məscidə toplayıb neft töküb yandırdılar. Qızları təhqir etdilər. Hamilə qadınları xüsusi vəhşiliklə məhv edirdilər. Hamazaspın, Avetisovun və Petrovun dəstələri Cümə məscidindəki adamları yandırdılar. Bu da aydındır ki, erməni bandaları tərəfindən azərbaycanlı əhaliyə edilən bu qədər zülmdən sonra Azərbaycan proletariatının Sovet hakimiyyətindən üz döndər-

məyə, öz burjuaziyasının hakimiyyəti altına keçərək, ondan və Türkiyədən kömək gözləyməyə haqqı var idi» (V.Həbiboğlu. Azərbaycanlıların soyqırımının təşkilatçısı, Bakı, «Qartal», 2001-ci il, səh.69).



*Naməlum türk əsgərinin qəbri. Şamaxı rayonu, Acıdərə vadisində*

Aprelin ortalarında Erməni Milli Şurasının sədri Abram Gülxəndanyanın göstərişi ilə polkovnik Hamazasın komandanlığı ilə 1500 nəfərlik qoşun Quba qəzasına soxuldu. Ermənilər bu rayonda bütün məscidləri dağıtmış, müqəddəs «Quran» kitablarını toplayaraq burada ayaqlar altına atmış, sonra yandırmışlar. Giləzidən başlayaraq Müşkür nahiyyəsinə qədər hər yerdə evləri yandırırdı. Dinc əhalini qətlə yetirdi. Qubanın mərkəzində insan qanı su yerinə axırdı. Veluns özünü daha qəddarcasına aparırdı. Qəzada 600 baş mal-qara qarət edildi. Yüzlərlə ev yandırıldı. Əmsar, Nügədi, Alpan, Digah və s. kəndlərin əhalisi didərgin düşdü. Xucbala ilə Digah arasındakı Qozlu dərədə qəza komissarı Əlibəy Ziziqskinin dəstəsi döyüşdə 200 nəfər adam itirsə də yağıları Qusara buraxmadı. Daşnaklar 10 gün müddətində kəndləri çapıb-taladılar. Qəzada 2800-ə yaxın adam öldürül-





dü. Hamazas lovğalıqla bildirdi ki, o, erməni xalqının qəhrəmanıdır. Xəzər dənizindən Şahdağa qədər bütün müsəlmanları məhv etmək tapşırığını yerinə yetirir. Quldurlar əhalidən 58.121.059 manat (f. 1061, siy. 1, iş 95) dəyərində qızıl, gümüş, pul və ziynət şeyləri ələ keçirdilər. Qubadan Xaçmaza gedərkən ələ keçirdikləri qəniməti aparmaq üçün əhalidən 35 araba aldılar. Quba ilə Xaçmaz arasında yolda azərbaycanlıların başını kəsdilər. Öküzləri isə kəsib kabab etdilər.

Erməni daşnakları Qubada 122 kəndi dağıtmış, bəzi məlumatlara görə 30 min nəfərə yaxın günahsız insanı öldürmüşlər.

S.Şaumyanın və hərbi komissar Q.Korqanovun təklifi ilə Qubaya gələn Hamazas öz cəza dəstəsilə bu regionda çox dəhşətli qırğınlar törətmişlər. O, Qubanı işğal etdikdən sonra əhalinin qarşısında çıxış edərək demişdir: «Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya – Qubaya xüsusi cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq üçün, sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm» (V.Həbiboğlu. Azərbaycanlıların soyqırımının təşkilatçısı, s.75).

Təəccüblü görünsə də bütün bu dəhşətli qırğınlar həmin dövrdə Soevt hakimiyyətini qurmaq, Azərbaycanı millətçi - qaragüruhçu ünsürlərdən guya təmizləmək adı altında həyata keçirilmişdir.

S.Şaumyanın mart qırğınlarına, sonra isə bu vəhşiliyin Azərbaycan ərazisində genişlənməsi prosesinə, hər yerdə azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsinə, müsəlmanlara amansız divan tutulmasını planlı, düşünülmüş şəkildə etməsi, həmin dövrdə Rusiya bolşeviklərinin rəhbəri V.İ.Lenin tərəfindən çox yüksək «qiymətləndirilmişdir». O, S.Şaumyana yazdığı xüsusi məktubda Bakıda mart qırğınlarında onun möhkəm və qəti siyasətinə məftun oldu-

ğunu bildirir, həmin siyasəti davam etdirməyi məsləhət gördü. O, bu məqsədlə S.Şaumyana yazmışdı: «Sizin möhkəm və qəti siyasətinizə məftunuq. Bacarıb həmin siyasəti, indiki çox çətin vəziyyətin şəksiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin» (V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 50 c., s. 81-82).

V.İ.Lenin azərbaycanlıların soyqırımına haqq qazandırır, hətta bu cinayəti gizlətmək, ört-basdır etmək məqsədilə bolşevik maskası altında gizlənmiş daşnak liderinə «dəyərli» məsləhətlər verildi.

Bir qədər sonra isə S.Şaumyan törədilmiş soyqırğınına haqq qazandıraraq yazırdı: «Bakıda olmuş vətəndaş müharibəsi zəruri idi» («Bakinski raboçi», 11 aprel 1918).

S.Şaumyan bu qırğınlara vətəndaş müharibəsi adı verməklə öz başkəsənlərinin, cəlladlarının hərəkətlərini, cinayətlərini ört-basdır etməyə çalışırdı. Ö, «Böyük Ermənistan yaratmaq yolunda törədilən bu qırğınlara haqq qazandıraraq, Rusiya Xalq Komissarları Şurasına yazmışdı: «Zaqafqaziya Sovet hakimiyyəti uğrunda fəal silahlı mübarizə mərhələsinə daxil olub. Üç gün müddətində – 30, 31 mart 1 aprel tarixində Bakı şəhərində şiddəti döyüşlər olub. Bir tərəfdən sovet qızıl ordusu, erməni milli dəstələri, digər tərəfdən müsəlman vəhşi diviziyası, «Musavat» partiyasının rəhbərlik etdiyi müsəlman silahlı dəstələri…Bizim üçün döyüşün nəticələri həddən çox yaxşı olmuşdur. Biz onlara öz şərtlərimizi diqtə etdik, onlar da danışıqsız olaraq bu şərtləri qəbul etdilər» (V.Həbiboğlu.Azərbaycanlıların soyqırımının təşkilatçısı, s.56).

S.Şaumyan Bakı qırğınlarından sonra törətdiyi cinayətlərin əsl səbəbini gizlədə bilmədi, bu qırğınları məqsədyönlü şəkildə həyata keçirdiyini etiraf etməli oldu. O, bu haqda fəxrlə yazırdı: «Şəhərimizin milli tərkibi bizi narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakter alacağından qorxurduq. Biz hətta erməni polkunun yardımına belə əl atmalı olduq. Biz hətta onun köməyindən imtina etməyi mümkün he-





sab etmədik. Qələbə isə o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir» (V.Həbiboğlu. Azərbaycanlıların soyqırımının təşkilatçısı, s.56).

Mənbələrdə deyilir ki, 1917-ci ilin dekabrından 1918-ci ilin avqustuna qədər müddətdə daşnak bandaları İrəvan quberniyasında azərbaycanlıların yaşadığı 200-dən artıq kəndi dağıtdı və yandırdı. Təkcə Zəngəzurda 115 kənd dağıdıldı və 700 nəfərə yaxın adam qətlə yetirildi. 400 min nəfər türk silah gücünə ata-baba yurdundan qovuldu.



*Zəngəzur silsiləsi*

N.Nərimanov müsəlmanların kütləvi şəkildə soyqırımının səbəbkarı və təşkilatçısı S.Şaumyanı millətçilikdə ittiham edərək deyirdi: «Bu ləkəni təmizləməsəniz, bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir.» Fəqət, «qara ləkə» təmizlənmədi. Bakıdan sonra Şamaxıda, Qubada, Qarabağda, Naxçıvanda, Zəngəzurda, Göyçədə dəhşətli qırğınlar oldu.

1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda dinc əhaliyə amansızcasına divan tutmuşlar.

Azərbaycan Demokratik Cümhuriyyəti elə bir tarixi dövrdə meydana gəlmişdi ki, Qafqazda durum son dərəcə gərgin, qeyri-sabit idi. Azərbaycanda milli toqquşmaların qəsdən törədilməsi və kimlər tərəfindən dəstəklənməsi barə-

də çoxlu faktlar mövcuddur. Bakıda «darğalıq» edən Şaumyan bu sözləri təsadüfən deməmişdir: «Azərbaycanın müstəqil dövlət olmasını istəyən milliyətçilər sonunda xarabalar tapacaqlar». Bu söz günümüzlə nə qədər səslənir: Bakını – Beyruta, Azərbaycanı isə Livana çevirəcəyik». Onlar Qarabağda, Şamaxıda, Kürdəmirdə, Lənkəranda, Salyanda, Qubada, Gəncədə və s. yerlərdə kütləvi qırğınlar törətmiş, qısa dövr ərzində 211 yaşayış məntəqəsini xarabalığa çevirə bilmişlər (eynilə indiki kimi).

2007-ci il aprel – may ayında Qubada tapılan insan qalıqları bunu tam sübut edir ki, onların arasında uşaq sümüklərinin olması erməni millətçilərinin həm də gələcəyimizə qarşı soyqırımının göstəricisidir.

XX əsrin əvvəllərində Quba rayonunda ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilmiş azərbaycanlıların cəsədlərinin yığıldığı məzarlıq.



*Qubada tapılan insan qalıqları (2007)*

1916-cı ildə nəşr olunan məlumatlara əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq, 570 min nəfər təşkil edib. Lakin bunun muqabilində öl-





kənin azərbaycanlı sayı cəmisi 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılar idi. 1914-cü ildə başlanan I Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratdı. 1915-ci ilin əvvəllində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və turklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük miqdarda erməni əhalisi də köçüb gəlmişdi. Rusiya ordusuna arxalanan ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda, Azərbaycanın bölgələrində azərbaycanlılara divan tutmağa başladılar.

Birinci dünya müharibəsində başqa xalqlar kimi, Zaqafqaziya xalqları da böyük iztirablara məruz qaldı. Cəbhə arxası olan Azərbaycanın, Gürcüstanın və Ermənistanın əhalisi daha əzablı günlər keçirdi. İrəvan quberniyasının ağır müharibə iztirablarını görən cəbhəarxası kəndləri sırasında Vedi və Vedibasar (Vedi çayı tutan yerlər) də var idi. Bu kəndlərdən cəbhəyə çoxlu işçi və daşıyıcı qüvvə – at, qatır, mal-qara, araba, həm də azuqə toplanırdı.

Rusiyanın inqilabçı müharibəsinin törətdiyi ağır tələfatlara, məşəqqətlərə, çar mütləqiyyətinin müsibətlərinə dözməyib, 1917-ci ilin fevral ayında çar hakimiyyətini, həmin ilin oktyabrında isə Rusiyanın burjua monarxiyasını devirdilər. Bu xəbər ildırım sürətilə dünyaya yayıldı.

Bununla da imperialist müharibəsinin Şərq cəbhəsi pozuldu. Rus-türk cəbhəsində müharibə dayandı, hər iki tərəfin əsgərləri "Yaşasın inqilab, rədd olsun imperialist müharibəsi!" şüarı ilə silahı yerə atıb, rahat nəfəs aldılar. Rus ordu hissələrində əsgər deputatları sovetləri yaradıldı. Bunun-

la bərabər, Aleksandropol, Qəmərli. Şahtaxtı, Naxçıvan və Culfadakı rus əsgərləri arasında fəaliyyətdə olan vəkillər şuraları ətraf kəndlərə də öz təsirini göstərdi.

...1918-ci ilin erkən yazında havadarları tərəfindən təpədən-dırnağa qədər silahlanmış, döyüşlərə əvvəlcədən lazımi tədarük görmüş daşnaklar Göycə mahalının cənub-şərq istiqamətində azərbaycanlıları qırmağa, kəndləri yandırmağa başlayırlar, Kəvər və Qaranlıq (Kamo və Martuni) ərazisində canlarını qurtarmağa çalışan əhali yaylaqlara doğru yön çevirir. Erməni cəlladalrının əlindən xilas olub qaçanları isə gözlənilmədən başlayan qar-boran yollarda məhv edir.

1828-ci, 1905-ci və 1948-ci illərdə ermənilər tərəfindən Göycə mahalında, eləcə də Zod kəndində dəhşətli qırğınlar, talanlar, yanğınlar törədilib. 1918-ci ilin aprelində Kəvərdən gələn erməni hərbi dəstəsi Qaranlıq (Martuni) rayonunun Camurlu kəndini mühasirəyə alır. Kəndin igid oğlu Mustafa Hacı Nağdalı oğlu ermənilərlə təkbaşına atışaraq kənd camaatının qadın və uşaqların kənddən çıxarılmasına şərait yaradır. Vuruşma uzun müddət davam edir. O, üç ədəd tüfənglə atəş açdığına görə ermənilər elə bilirdilər ki, atışmada bir neçə nəfər iştirak edir. Patron qurtarır, Mustafa Hacı Nağdalı oğlu son güllə il özünü vurur.

1920-ci il aprel ayının 13-20-də Basarkeçər rayonunun əksər kəndlərinin 15 mindən artıq evi, malı-mülkü qarət edilir, Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılır. Sisyan rayonunun 15 kəndində 625 nəfər öldürülür.

Ermənilərin himayədarı Sovet hökumətinin başçısı Stalin yazırdı: «Qoy kimə aiddirsə bilsin ki, köhnə imperialist diplomatiyaların əbəs yerə başlarını sındırıb həll etmək istədikləri erməni məsələsi deyilən məsələ ancaq Sovet hökuməti tərəfindən həll edilə bildi». 1948-50-ci illərdə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı ilə Qərbi Azərbaycandan 8 mindən çox ailə Azərbaycanın aran rayonlarına köçürüldü.

Bu qədim türk diyarından yerli əhalinin ən böyük köçü





isə SSRİ-nin son prezidenti Mixail Qorbaçovun xeyir-duası ilə baş tutdu. 1988-ci ilin dakabından başlayaraq 300 mindən artıq azərbaycanla Ermənistandan deportasiy edildi.

Tarixi mənbələrdən məlumdur ki, 21 mart 1828-ci ildə Rusiya çarının qərarı ilə Ermənistan vilayəti yaradılıb. Elə o vaxtdan da başlayaraq Ermənistan viləayətindən müxtəlif yollarla azərbaycanlılar köçürülüb. Onların yerinə Türkiyədən, İrandan, Suriyadan və digər ölkələrdən ermənilər gətirilib.

1918-ci ildə daşnak hökumətinin yaratdığı 25 min nəfərlik qoşunun bir diviziyası general Andranikin komandanlığı ilə Naxçıvana, Sisyana və Qarabağın dağlıq hissəsinə, ikinci diviziyası general Arınyan və Dro Qanyanın komandanlığı ilə İravana, Zəngəzura,Vedibasara və Qəmərliyə, üçüncü diviziyası isə polkovnik S,Silikyanın başçılığı ilə Göyçə əhalisini məhv etməyə göndərildi.

1917-ci ildə çar II Nikolayın yıxılmasından istifadə edən ermənilər 36 müsəlman kəndini zəbt edərək sakinləri dağlara qovurlar. Osmanlı qoşunu Bakıya girəndə ermənilər qorxub geri çəkilirlər. Bununla yerli əhali öz- ev-eşiklərinə qayıdır.

Ermənilər türk kəndlərində ciddi müqavimətlə rastlaşırlar. Onlar 1919-cu il martın 14-də Basarkeçərə gələrək, oradan kəndləri top atəşinə tuturlar. Beləliklə, 32 kənd Göyçədən çıxarılır. Həmin qaçhaqaç vaxtı Kəlbəcərlə Zod arasında Dardərə deyilən yerdə mal-qoyun, adamlar çovğuna düşür. Ona görə həmin dərənin adı Sümüklü adlanır. Bu vəhşiliyin törədilməsində Antanta dövlətləri ermənilərin fəal yardımçısı olur. Bu barədə Sovet Ermənistanının 40 illiyi kitabında belə yazılıb: «...Antanta dövlətləri daşnaklara böyük hərbi yardım ediblər. İngiltərə 40 min nəfərlik ordunu silahla təmin etməyi, Fransa 10 min tüfəng, 10 milyon patron verməyi vəd edib».(119a)

Daşnaklar Göycə mahalının cənub-şərqini viran qoyduqdan sonra, payıza yaxın Basarkeçərə doğru hərəkət et-

məyə başlayırlar.

Abutalıb oğlu Cavadın başçılığı ilə Cil, Ardanış, Ağbulaq, Toxluca, Babacan, Pəmbək, Hacı Qərib və başqa kəndlərin əli silah tütan igid adamları Basarkeçər ətrafındakı kəndlərin camaatına kömək etmək məqsdilə bu istiqamətdə irəliləyirlər. 200 nəfərlik dəstəni Böyük Məzrə kəndində Məşədi İsa qarşılayır. Bura toplaşan əhali doğma kəndəlirinin müdafiəsi üçün böyük mütəşəkkillik nümayiş etdirir. Abutalıb oğlu Cavad bildirir ki, biz gecə Daşkənddə olmalıyıq. Razılaşmaya görə, səhər Məşədi İsanın başçılığı ilə ətraf kəndlərin cammatı da köməyə gəlir. Daşkənd, QoşaBulaq, Məzrə istiqamətində böyük xətt seçilir. Səhər tezdən Basarkeçər istiqamətində daşnaklara qarşı hücum başlayır. Döyüş çox ciddi şəkil alır. Daşnaklar təsəvvür etməzdilər ki, belə bir qüvvətli dəstə ilə qarşılaşmalı olacaqlar. Ona görə də bu döyüşdə tab gətirə bilməyib, Qaranlıq-Kəvər istiqamətində mövqelərini itirərək geri çəkilirlər. Çaxırlı, Qızıl Vəng, Yarpızlı, Zaqalı, Alçalı və başqa bir neçə azərbaycanlı kəndləri quldurlardan azad edilir. Daşnaklar xeyli itki verərək qaçmağa üz qoyurlar. Xeyli hərbi sursat və vəsait qənimət götürülür.

Həmin döyüşlərin iştirakçılarından olan Xəlif Əli o günləri belə xatırlayır: Dəstədə möhkəm nizam-intizam yaradılmışdı. Döyüşlərin qızğın çağında bir gün səhərə yaxın Möylə oğlu Şəmilgilə getdim. Böyük oğlu Xalıqverdi evdə idi. Bildirdi ki, Əli əmi, evimizdə iki təhnə təzə bişmiş çörək var. Dədəm ermənin qabağındadır.

Mən bu çörəkləri götürüb tez döyüş xəttinə qayıtdım. Hələ hava işıqlaşmamışdı. Yolüstü at tövləsinə, atımıza baş çəkməyə döndüm. Cavad, Mirismayıl ağa, Məşədi Seyid Əli ağa, Qaraqoyunludan Seyid Cəfər döyüş haqda söhbət edir və bir parça köhnə, qurumuş çörək yeyirdilər. Mən zarafatyana dedim: «Nə olub, köhnə, çörək yeyirsiniz. Patron verin, çörək verim.» Cavad gülümsünüb dedi ki, kimdir sizdən patron əsirgəyən.Təki siz patron istəyin. Çörəklərdən ver-





dim onlara. Tez döyüş xəttinə çatdım. Başçının əmrini gözləyirdik. Bu zaman Möylə oğlu Şəmil məni adamların içindən kənara çəkib və bildirdi ki, gecə Cavad səngəri yoxlayanda əmim oğlu Bayramı yatmış görüb, onun güllələnməsinə əmr verib. Düzü, həm cəsarət etmirdim, həm də vaxt az idi. Cavada yaxınlaşıb, gedib birtəhər xahiş etdim ki, bu dəfə Bayramı bağışlasın. Onun sifəti dəyişdi və mənə çox pis nəzərlə baxdı. Geri çəkilmək istəyəndə məni irəli çağırdı və soruşdu: «Kimdir bu adam?» Dedim: «Bayaqkı çörəyi bunların evindən gətirmişdim. Bunu ön xəttə göndər».

Az sonra Alçalı kəndi ərazisində, dənizin qırağında Bayram yoldaşları ilə birgə üç erməni əsir götürüb Cavadın yanına gətirmişdi.

Daşnakların bu istiqamətdəki məğlubiyyəti, qışın düşməsi bizimkilərdə arxayınlıq yaratdı. Artıq işi bitmiş hesab edib, hamı öz kəndlərinə qayıtdı. Ancaq Məşədi İsa, Cavad, digər nüfuzlu adamlar məsləhətləşdilər ki, gələcəyə hazırlıq üçün qonşu Kəlbəcər, Şəmkir, Gəncə, Tovuz və s. rayonlardan silah və sursat tədarük görülməlidir. Çünki, Quzey Göyçədəki faciələr bizə dərs olmalı idi.

Taktikanın müəllifləri Bakıda mart hadisələri ilə əlaqədar, cavabdehlikdən canlarını qurtarmaq üçün fərqli şüarlar altında İnqilabi Müdafiə Komitəsi yaratmışdılar. Fəaliyyətinə daha çox reallıq, əhalinin bütün təbəqələrini əhatə etmək kimi görüntü vermək üçün Bakı Soveti bu komitəyə bolşeviklərdən başqa sol eserləri və daşnakları da dəvət etmişdi.

Bakıda azəri tüklərinə qarşı erməni, rus bolşevikləri tərəfindən başlayan qırğın 10.000-dən çox müsəlman və türkün vəhşicəsinə öldürülməsilə nəticələnmiş və qırğın Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran qəzalarına qədər yayılmışdı. İndi isə, təcavüzün növbəti hədəfi Gəncə idi. Təcavüzkarlar bu dəfə Qarabağ erməniləri ilə qüvvələrini birləşdirərək, Gəncəyə hücum edəcəkdilər. Gəncə Azərbaycanın ikinci paytaxtı idi Bu şəhərin işğal olunması Azərbaycan istiqla-

liyyətinin sonu və azərbaycanlıların yenidən əsarət altına düşməsi demək idi. Tiflisdə yaradılan Qafqaz Seym məclisinin nümayəndələrinin üçdə bir hissəsi ermənilər olduğu üçün Seym məclisi bu hücumun qarşısını ala bilmədi, həmçinin məclisin ixtiyarında müntəzəm bir hərbi qüvvə yox idi. Azərbaycanlılar üçün tək çıxış yolu Osmanlı ordusundan yardım istəməkidi və onlar belə də etdilər.

Bu səbəbdən "Musavat" partyasının liderlərindən biri olan Nəsib bəy Yusifbəyli Azərbaycan Milli Şurasına yazdığı raportda deyirdi: "Yalnız Azərbaycanı deyil, bütün Zaqafqaziyanı istila edən böyük, dəhşətli anarxiyanı biz öz qüvvəmizlə qaydaya sala bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha da ağırlaşdırır və türk millətinə olduqca böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə olduğu halda, bizə xarici bir qüvvənin müdaxiləsini istəməkdən başqa çarə qalmır. İstiqlaliyətimizin qızğın tərəfdarı olmaqla bərabər mən, bu məsələ haqqında birinci olaraq danışmaq məcburiyyətindəyəm. Fəlakətin üzünə cəsarətlə baxmaq lazımdır. Çox fərəhli haldır ki, bizim işlərə müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş olan Türkiyədir. Bəlkə bu bizim qonşularımızın xoşuna gəlməyəcəkdir, lakin başqa çarəmiz yoxdur.

Müdhiş anarxiya qarşısında onlar da bizim kimi gücsüzdülər... Nəyinsə xatirinə xəstə yatağında yata bilmərik. Bizim heyət Batumi şəhərinə gedərək, Şərqi Zaqafqaziya türkləri adından Osmanlı dövlətindən kömək istəməlidir.

...Bununla bərabər Azərbaycanın istiqlaliyyətini də heç vaxt unutmamalıyıq..."48.

Azərbaycanın faciəli vəziyyəti Türkiyədə də məlum olmuş və ölkənin bütün ərazilərinə yayılmışdır. Türkiyənin Batumi konfransında Sülh heyətinin rəisi Xəlil bəy 1918-ci il mayın 26-da Zaqafqaziya sülh heyəti rəisinə göndərdiyi memorandumda deyirdi: "...Zati-alilərinə məlum olduğu kimi, Qafqazın vəziyyəti çox böhranlı və qarışıqdır, təhlilə möhtacdır. Bakı və civarında yüz minlərlə türk, müsəlman özlərini inqilabçı adlandıran vicdansız quldurların qanlı pəncəsində inildəyir. Bu zavallıları hədələyən fəlakət gündən-günə artmaqdadı. Mütəşəkkil quldur dəstələrinin saysız hücumlarına məruz qalan Qafqazın başqa ərazilərində yaşayan türk və müsəlmanların da vəziyyəti olduqca acınacaqlıdır.





Rəis həzrətləri, mənimlə razılaşarsınız ki, bu adı daşımağa layiq olan heç bir hökumət həmsərhəd olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq qalmasına dözə bilməz, yenə də razı olarsınız ki, Qafqazı məhv edən anarxiyaya Osmanlı dövlətinin münasibəti olduqca mülayimdir. Çünki, bu anarxiya Osmanlı xalqı ilə eyni irqə, dinə mənsub olan xalqın təhlükəsizliyinə də xələl gətirir. Digər tərəfdən Osmanlı dövləti öz ordusunu cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki məlum olmayan vəziyyətə gecikmədən son verilməsini tələb edir".

Bu memorandum mayın 11-də verilən, amma cavab alınmayan təkliflərə də üç gün ərzində cavab verilməsini istəyirdi. Memorandum verildiyi gün Zaqafqaziya Seymi istefa vermiş və dağılmışdı.

Bununla belə, yuxarıda qeyd etdiyimiz Musavat partiyasının liderlərindən olan Nəsib bəy Yusifbəylinin nitqi və Xəlil bəyin memorandumu tarixi sənəd kimi öz dəyərini mühafizə etməkdədir.

Azərbaycan Milli Şurasında fəaliyyət göstərən partiyalar bunlardı: çoxluq təşkil edən Musavat partiyası, Bitərəf demokratik qrup, Əhrar, İttihad, Eser və Sosial-demokratik partiyası. Eser və sosial-demokratik partiyaları zənn edirdilər ki, Azərbaycan Rusiyasız müstəqil yaşaya bilməz, amma tarixi hadisələr onların haqlı olmadığını sübüt etdi. Əhrar və İttihad partiyaları hər zaman Türkiyə ilə birləşmək siyasətini güdmüşlər, tarix onlara haqq qazandırsa da, amma bu baş tutmamışdır. Musavat partiyası ilə Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyat tərəfdarı olsalar da, rus inqilabının gedişi, yuxarıda qısaca anladılan Qafqaz hadisələri onları özlərinin öncədən "uzaq məqsəd" olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna tez sürükləmişdi. Azərbaycan istiqlal mübarizəsi tarixində "Azərbaycan istiqlalına"nə rast gəlinmiş, nə də baş verən siyasi

hadisə olmamışdır. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmış və Azərbaycan siyasi tarixinin taleyini əllərində tutanlar, tam zamanında siyasət adamı olduqlarını sübut edərək istiqlal hərəkatına yerində və vaxtında lazımi qiymət vermişlər. Sosialist Əkbər ağa Şeyxülislamzadə "biz, Azərbaycanın tək olması əleyhindəyik..." deyir və qonşularımız gürcü və ermənilər istiqlal elan edincə: "sosialistlər Azərbaycan istiqlalı əleyhdarlığını buraxıb, birinci planda istiqlaliyyətçi oldular..." şəkilində yazır.49. Bu müşahidəçi və Azərbaycan Milli Şurasının nümayəndəsi Azərbaycan istiqlaliyyətinin elan olunması mərasimini belə anladı: "Axşam, sabiq Qafqaz canişini Qrandükün sarayında "Seym"in müsəlman qrupuna ayrılan mavi salonda Azərbaycan Milli Şurasının nümayəndələri doktor Həsən bəy Ağaoğlunun rəhbərliyi altında toplandıq. Həsən bəy məclisi açdı və sözə başlayaraq dedi ki, indi deputatlar bizim fikrimizlə razıdırlar. Səs vermək hər deputatın vəzifəsidir, bitərəf qalanlar xahiş edirəm, məclisi tərk etsinlər. Amma heç kim yerindən qalxmadı. Həsən bəy Azərbaycanın azad və müstəqil bir dövlət olmasını səsə qoyur. Katib Mustafa Mahmud adları oxuyur, hər deputat "razıyam" cavabını verir. Hamının üzündə sevinc və nəşə vardı.

Rəis Həsən bəy ayağa qalxaraq bütün deputatlara xitab edir: "Bu saatda, yəni doqquza on dəqiqə işləmiş Azərbaycanın istiqlaliyyəti Azərbaycan Milli Şurası tərəfindən qəbul edilmişdir.

Yeni hökumətimizi təbrik edirəm". Gözləri yşaran deputatlar bir-birlərini təbrik edir, əllərini sıxırdılar.Canişinin sarayının önündə toplaşan türklər, ermənilər və gürcülər "yaşasın müstəqil Azərbaycan" deyə qışqırır, saraydan çıxan azərbaycan deputatlarını alqışlayırdılar.







*Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər kabinəsinin iclası*

***Şəkildə**: Azərbaycan Demokratik Respublikasının yeni hökumət kabinetinin üzvləri: Başda Nazirlər Şurasının sədri və daxili işlər naziri Nəsib bəy Yusifbəyli, onun sağında Səməd bəy Mehmandarov, maliyyə naziri Əliağa Həsənov, xarici işlər naziri Məmmədyusif Cəfərov, ədliyyə və əmək naziri Aslan bəy Səfikurdski, sonrakı iki nəfər tanınmadı, sağ cərgədə səhiyyə naziri Taskanov, Nazirlər Kabinetində dövlət işləri üzrə idarə rəisi Pərviz Mirzə Qacar, poçt-teleqraf naziri Camo bəy Hacinski, dövlət müfəttişi Nəriman bəy Nərimanbəyov, ədliyyə nazirinin müavini Teymur xan Makinski, dəmir yolu nazirinin müavini Yusif xan Məmmədbəyov, kənd təsərrüfatı naziri Hidafət bəy Sultanov, İran hökuməti yanında Azərbaycan nümayəndəsi Adil xan Ziyadxanov.*



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binası (indiki Əlyazmalar İnstitutu)*



*Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin açılışı. 1918, dekabr*



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin bir qrup üzvü və aparat işçiləri. 1919.*

Həmin müşahidəçi qeyd edir ki, iki gün öncə bütün partiyalardan olan Azərbaycan millət vəkilləri fasiləsiz, uzun sürən görüşlər və mübahisələr aparırdılar. Bu fikir mübadiləsi iki gün davam etdi.

Azərbaycan Milli Şurası tərəfindən 1918-ci il mayın 28-də Tiflisdə bütün dünyaya elan edilən Azərbaycanın istiqlalı





haqqındakı bəyannamədə deyilirdi: "Ümumi seçki ilə seçilən Azərbaycan Milli Şurası bütün insanlara elan edir:

1- Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi Cənubi və Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan da bütün hüquqlara malik müstəqil bir dövlətdir.

2- Müstəqil Azəbaycan dövlətinin idarə forması xalq respublikası kimi müəyyənləşdirilir.

3- Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu millət və dövlətlərlə yaxın münasibətlər saxlamaq əzmindədir.

4- Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi qoymadan hüdudları daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaşlıq hüquqlarını təmin edir.

5- Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bütün millətlərə sərbəst inkişaf etmələri üçün geniş meydan açır.

6- Müəssisələr məclisi toplanana qədər Azərbaycanı ümumi səsvermə yolu ilə seçilmiş Milli Şura qarşısında cavabdeh olan Müvəqqəti hökumət idarə edir."

Mərasimdən sonra ilk Azərbaycan hökuməti yaradıldı.



*Azərbaycan Xalq Cümhuriyyəti İV Hökumət kabinəsi*



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas zalı*

Fətəli xan Xoyskinin qurduğu ilk Azərbaycan Milli Müstəqil hökuməti koalisiyalı kabinet olmuşdur. Bu kabinetdəki səkkiz nazirdən altısı "Musavat" və "Bitərəf qrupa", biri "Hümmət", biri də "Blok"a mənsub olmuşdu. Deməli, Azərbaycan istiqlalı elan edildikdən sonra qurulan ilk koalisiyalı kabinetdə dörd partiya iştirak etmişdir. Bunlar "Müsavat", "Bitərəf demokrat qrupu", "Blok", yəni sosialistlər və bir "Hümmət" kommunist partyası olmuşdur... Qiymətli və tarixi siyasi hadisə "Hümmət" partiyasının Azərbaycan istiqlaliyyətinin elanında və ilk yaradılan hökumətində iştirak etməsidir. "Blok" da sosialist idi. Sosialist Əkbər ağa Şeyxülislamzadə deyirdi: "İstiqlal elan edilmədən öncə, iki gün ərzində davam edən müşavirə və müzakirələrin istiqlal elanı xüsusunda tam bir razılıq ilə nəticələnməsi Azərbaycan siyasəti yönündən çox, olduqca mənalıdır" Bu o deməkdir ki, Azərbaycan istiqlaliyyətinin elan olunmasında "Əhrar", "İttihad" və "Hümmət" partiyaları arasında tam bir anlaşma olmuşdur.

1918-ci il mayın 26-da Gürcüstan Zaqafqaziya Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən son-





ra, həmin ayın 28-də Azərbaycandan olan deputatlar Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul etdilər. Maraqlıdır ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin hansı ərazilərdə elan ediləcəyini gözləyirdilər. Onlar Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun türk ordusu tərəfindən tutulduğunu qeyd edir və İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi məsələsini müzakirə etməyi təklif edirlər. Müzakirələrdən sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz zərurət olduğu, Azərbaycan xalqı üçün isə qaçılmaz acı bir bəla olduğunu, Milli Şura üzvləri tərəfindən etiraf edilir. Bu baxımdan Fətəlixan Xoyskinin Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun AXC-nin xarici işlər naziri M.H.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktub çox maraqlıdır. Fətəlixan məktubunda yazırdı ki: «biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatumumuzu qəbul edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərlə güzəştə getdik». Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev 2008-ci ilin əvvəlində Ağdam rayonuna səfəri zamanı 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilən bu qərarın çox səhv və yanlış bir addım olduğunu qeyd etmişdir. Ölkə prezidenti öz fikri ilə tarixi həqiqəti təsdiqləmişdir. Bəs, bu tarixi həqiqət arxiv sənədlərində öz əksini necə tapmışdır, bu hadisələr necə baş vermişdir sualına cavab tapmaq üçün arxiv sənədlərinə müraciət edək. 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının dördüncü iclasında iki dəfə İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi ilə bağlı məsələ müzakirə olunur. Birinci dəfə məsələ müzakirə edilərkən iclasda Milli Şuranın 28 nəfər üzvü iştirak edir və səsvermə zamanı 16 nəfər lehinə, 1 nəfər əleyhinə, 3 nəfər bitərəf qalmaqla 8 nəfərin hansı mövqe tutduğu göstərilmir. Həmin gün keçirilən ikinci iclasda İrəvandan olan Milli Şuranın üzvləri M.H.Seyidov, M.B.Rzayev və N.Nərimanbəyov yazılı şəkildə Milli Şuranın İrəvanın ermənilərə güzəşt edilmə-

sinə qarşı etiraz ərizəsilə müraciət etsələr də, iştirak edən 26 nəfər Milli Şura üzvü məsələyə münasibət bildirmədən qəbul edilmiş qərarın qüvvədə saxlanılmasına razılıq verirlər. İrəvandan olan deputatların yazılı şəkildə təqdim etdikləri etiraz məktubu işə tikilsə də, indi bu sənəd arxivdə yoxdur. Milli Şura üzvlərinin bu məsələdə tutduqları belə bir mövqe bir sıra suallar doğrurur. İrəvan şəhərini ermənilərə güzəştə gedərkən şəhər əhalisinin və onları təmsil edənlərin rəyi soruşulmuşdumu? Sənədlər təsdiq edir ki, heç bir rəy sorğusu və yaxud bu istiqamətdə hər hansı bir addım atılmamışdı. Bütün bunlar bu qərarın həm siyasi, həm də hüquqi cəhətdən nə qədər səhv olduğunu bir daha təsdiq edir. Digər tərəfdən, bu şəhərin ermənilərə verilməsi məsələsi Erməni Milli Şurası tərəfindən Azərbaycan Milli Şurasına müraciətindən sonra müzakirə olunmuşdu. Buradan haqlı bir sual doğur. Müzakirələr zamanı Milli Şura üzvləri yaranmış vəziyyəti nəzərə alaraq, bu ağır bəladan imtina edə bilərdilərmi və mümkün idimi və başqa xalqların tarixində buna oxşar bir hadisə baş veribmi? XIX əsr Fransa tarixində baş vermiş mühüm bir hadisə belə bir fikir yürütməyə əsas verir ki, Milli Şura üzvləri torpaq məsələsi müzakirələri aparılarkən belə bir səhv addım atmaya bilərdilər. Çünki, onların əksəriyyəti Avropa və çar Rusiyası Universitetində təhsil almış insanlar olduqları üçün Avropa tarixini və o cümlədən, beynəlxalq hüquq məsələlərini çox gözəl bilirdilər. Odur ki, 1815-ci ildə Napoleon Bonapart məğlub edildikdən sonra Vyana konqresinə toplaşan qalib dövlətlərin başçıları bütün Avropanın və o cümlədən Fransanın taleyini həll etməli idilər. Fransanın ağır vəziyyətə düşdüyünü görən ölkənin xarici işlər naziri Taleyran çıxış yolu kimi legitimlik prinsipi deyilən bir diplomatik vasitədən istifadə etmək qərarına gəldi. Legitimlik prinsipinin əsas mahiyyəti ondan ibarət idi ki, qalib dövlətlər Avropa xalqlarının gələcək taleyini həll edərkən, Fransanın 1792-ci ilə qədər olan təbii sərhədlərinə toxunmamalı idilər. Bu uğurlu diplomatik vasitədən istifadə





edən Taleyran konsessdən əvvəl qalib dövlətlərin başçıları və xarici işlər nazirləri ilə görüşdü və demək olar ki, öz istəyinə nail oldu və beləliklə ölkənin ərazi bütövlüyünü qoruya bildi. Düşünürəm ki, Azərbaycan Xalq Cümhuriyyətini yaradanların bir çoxu bu tarixi çox gözəl bilirdi. Digər tərəfdən, 1918-ci ilin may və sentyabr aylarında Cənubi Qafqazda yaranmış siyasi vəziyyət Azərbaycanın hər halda xeyrinə olduğu halda belə, onlar bundan istifadə edib İrəvan şəhərini güzəştə getməyə bilərdilər. Amma çox təəssüf! Qeyd etmək lazımdır ki, İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 99.908.86 kv.km təşkil edirdi. 13.983.10 kv. kilometr ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq, gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu.



*İrəvan şəhərində Göy məscid. XİX əsr.*

ADC – cəmi bir gün yaşı olan dövlət, lap qulağının dibində onun qanına susayacaq bir dövlətin əsasını qoymaq üçün tarixi torpaqlarını peşkəş edirdi. Özü də o millətə ki, həmin günə gəlib çatana qədər türkü, azərbaycanlını, acarı, avarı və başqalarını yalnız türk əsilli olduğuna görə dəfələrlə soyqırımına məruz qoymuşdu.



*İrəvanda Sərdar sarayı*



***İrəvan şəhərinin görnüşü***
***Səyyahın rəsmi 1796***



***İrəvan şəhərində məscid***
***Foto. 19 əsr***



*İrəvan xanlığının bayrağı 19-cu əsrin əvvəli*





Ermənilər isə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün sınağa çəkdikləri qonşularından – Türkiyə və Gürcüstandan daha zəif görünən "humanist" Azərbaycanın yaxasını tanımışdılar. Fətəli Xan düz deyirdi ki, İrəvan güzəştə gedilmişdi. Amma ermənilərin ultimatumu qəbul etmək fikirləri yox idi. 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının İclasında İrəvan şəhərinin və İrəvan qəzasının ermənilərə güzəştə gedilməsi məsələsi müzakirə olunaraq, səs çoxluğu ilə Ermənistanın xeyrinə həll edilmişdi. Həmin gün İrəvan şəhəri "Ermənistan (Ararat) Respublikası"nın mərkəzi kimi tanındı. Əslində isə bu məsələnin Milli Şuraya çıxarılması gözdən pərdə asmaq üçün idi. Məsələ əvvəlcədən Ermənistan Milli Şurası ilə razılaşdırılmışdı.

Ermənistan Respublikasının paytaxtı İrəvan uzun yüzilliklər boyu müsəlman şəhəri olmuşdur. Bu şəhər yadellilər qarşısında möhkəm və basılmaz bir qala sayılırdı. Belə ki, İran-Rusiya müharibələrində həmin şəhərin müsəlman əhalisi çar soldatlarına qarşı misilsiz müqavimət göstərərək, dəfələrlə Rusiya imperiyası ordusunun nəfəsini kəsib, diz çökdürmüşdür. İrəvan müsəlmanlarının bu qədər şücaət və qəhrəmanlıqlarına baxmayaraq, İran-Rusiya müharibələri ayrı-ayrı səbəblər üzündən və ən önəmlisi ermənilərin xəyanəti ucbatından İran ordusunun məğlubiyyəti ilə sona çatdı. Bu məğlubiyyətin nəticəsində, Arazın qüzeyindəki 17 vilayətin ruslar tərəfindən ələ keçirilməsi və Rusiya imperiyası ərazilərinə birləşdirilməsi ilə başa çatdı. Müsəlman İrəvan şəhərinin erməniləşdirilməsi də məhz həmin dövrdən başlandı. Beləliklə də ruslar İrəvanın etnik tərkibini ermənilərin xeyrinə dəyişdirərək, onların sonrakı iyrənc məqsədlərinin həyata keçirilməsinə əlverişli şərait və zəmin yaratdılar.

Qafqazı ələ keçirmək üçün ermənilərin ruslarla gizli əməkdaşlığı I Pyotr dövründən başlamış, II Yekaterinanın hökmranlığı dövrünə qədər davam eimişdir. Beləliklə, Çar Rusiyası özünün çoxdankı məqsədinə nail olur və Arazın şimalındakı vilayətlər Rusiya ərazilərinə birləşdirilir.

Fransız alimi Mari Karzo özünün «Ermənistan 1915» adlı kitabının hər yerində ermənilərlə həmrəyliyini nümayiş etdirilməsinə baxmayaraq yazır: «Rusiya-İran müharibələri dövründə İran və Türkiyə erməniləri könüllü yaraqlı qruplar yaradaraq, Rusiyaya çox dəyərli yardımlar və xidmətlər göstərib, bu ölkənin qələbəsini sürətləndirdilər. Çünki onların fikirincə, bu bölgənin müsəlman bir hökumətdən ayrılması, erməni xalqının azadlığına və müstəqilliyinə doğru atılan ilk addım sayılırdı».

Lakin bu müharibələrdə Qafqaz müsəlmanları işğalçılara qarşı göstərdikləri misilsiz müqavimətlərinə görə rusların yalnız kin və qəzəbini qazandılar. Əbdüləzim Rzai iki müharibə arasındakı mövcud durum və şəraitə toxunaraq yazır. «Gülüstan müqaviləsi İran və Rusiya arasındakı sərhədi dəqiq müəyyənləşdirmədiyi üçün... ruhanilər cihad fitvası verib, Rusiya ilə yenidən müharibəyə girişməsi üçün dövlətə təzyiq göstərdilər. Həmin təzyiqlər nəticəsində İranla Rusiya arasındakı savaş yenidən başlandı və Abbas Mirzə özü istəmədən İran ordusunun komandanlığına təyin edildi. İlk mərhələdə ruslar özlərini itirdilər. İran qoşunu yerli müsəlman əhalinin yardımı ilə itirilmiş ərazilərdə çoxlu irəliləyişlərə nail olub, rusları Talış və Muğandan qovub Lənkəran limanını yenidən ələ keçirdilər. Bakı, Şəki və Şirvan əhalisi də rus qarnizonlarına qarşı üsyan qaldırdılar və bu vilayətlər yenidən İranın əlinə keçdi». 216. (Ə.Rzai. İranın on min illik tarixi, cild 4, səh.92).

Ruslar Arazın şimalındakı vilayətləri ələ keçirdikdən sonra burada yaşayan yerli müsəlmanlara heç vaxt güvənə bilmədikləri üçün ermənilərə qol-qanad verərək, onların Rusiyanın bütün iqtisadi, mədəni, siyasi və hərbi həyatındakı zühuruna zəmin və şərait yaratdılar. Ancaq ermənilərə verilən bütün bu dəstəklərə və onların xeyrinə İrəvan şəhərinin etnik tərkibinin dəyişdirilməsinə baxmayaraq, 1918-ci ilə qədər ermənilər nəinki Qafqazın heç bir yerində çoxluq təşkil etmirdilər, hətta, erməni muəllifi Anahid Terminasiyanın yazdığına görə müəyyən bir əraziyə də malik deyildirlər. O yazır: «Tiflis qurultayının qayğılarından biri, Qafqazda ermənilər üçün müəyyən bir milli ərazinin olmaması idi. Elə buna görə də yerli muxtariyyətin verilməsi ilə bağlı irəli sürülən tələbdən başqa, həm də dağınıq erməni icmalarını əhatə edə biləcək əyalət birliklərindən daha məhdud miqyasda bir sıra seçkili yerli idarələrin, yaxud da zemstvoların yaradılması ilə əlaqədar bir plan da hazırlanıb irəli sürülüdü» 217 (Anahid Terminasiyan. Müasir tarixdə Qafqaz. Səh. 63).





Böyük Ermənistan xülyasının gerçəkləşdirilməsi uğrunda heç bir iyrənc əməldən çəkinməyən Daşnak Partiyası sözügedən və mövcud olmayan Milli ərazi problemini son dərəcə zorakılıq və cinayət yolu ilə həll etdi: «İrəvan vilayətində azərbaycanlıların yaşadığı 211 kənd dağıdılıb, yüz mnlərlə insan qətlə yetirilib. Beləliklə İrəvan sakini olan 300 min nəfərə yaxın azərbaycanlı qətlə yetirildi...» (Mənijə Turabzadə. Qafqaz və Orta Asiyadakı dəyişikliklərin mahiyyəti, səh. 71).

Bu bölgədə yaşayan müsəlmanların soyqırımı sonralar da daha kəskin şəkildə davam etdirildi. Belə ki, bu gün artıq bu şəhərdə bircə nəfər belə müsəlman azərbaycanlı tapmaq qeyri-mümkündür.

Çuxur Səd vilayəti və onun mərkəzi sayılan İrəvan uzun əsrlər boyu Azərbaycan ərazisinin bir hissəsi olmuşdur. Burada habelə, müxtəlif sənədlərə istinad edərək İrəvanın bir Azərbaycan şəhəri olduğu, Çuxur Səd vilayətinin isə Azərbaycanın əsas dörd əyalətindən biri sayıldığı sübuta yetirilir. Təəssüflər olsun ki, bu gün Ermənistan respublikası adlandırılan ölkə, məhz həmin vilayətdə yaşayan müsəlmanların cəsədləri üzərində qurulmuşdur. Daşnakların azərbaycanlılara qarşı bütün bu cinayətlərinə baxmayaraq, bu gün ifratçı ermənilər Dağlıq Qarabağa yiyələnmək məqsədilə təcavüzkar Rusiya ordusunun birbaşa yardımı ilə Azərbaycan torpağına təcavüz edərək, bu ölkənin iyirmi faizdən çox ərа-

zisini işğal etmişlər.

İrəvan Ağrı dərəsinin Şimal hissəsində 850-1300 metr yüksəklikdə yerləşmişdir. Bu şəhərin suyunu Zəngiçay və Qırx Bulaq təmin edir. Qeyd etmək lazımdır ki, özü İrəvanın tanınmış şairlərindən biri olan Hacı Mirzə Ağasının atası Mirzə Müslüm Qüdsi, İrəvanın çayları ilə gölləri haqqında çox gözəl şeirlər yazmış, onları vəsf etmişdir.

Etimadüssəltənə «Miratülbəldan» əsərində İrəvan haqqında yazır: «İrəvan sağlam hava şəraitinə malikdir, lakin qışda havası çox soyuq olur. Əsasən ilin may ayında qar yağır... On ağaclığında isə Tiflis istiqamətində Şirin göl yerləşir. İrəvanın Quzey hissəsində yerləşən bu gölün dövrəsi isə təxminən 120 kilometrdir. Həmin göldə uzunluğu bir metrdən artıq olan Alabalıq da müşahidə edilmişdir...İrəvanın on iki ağaclığında isə şərq istiqamətində Ağrıdağı yerləşir.

Bir çoxlarının fikrincə Nuh gəmisi məhz burada quruda oturmuşdur. Dağ o qədər hündürdür ki, buludsuz sağlam hava şəraitində on ağaclıq məsafə iki ağac məsafəsi qədər görünür. Ağrıdağın hündürlüyü 17266 ingilis futu qədərdir. Üç yarım ingilis futu isə, demək olar ki, bir İran zərinə bərabərdir. Ermənilər bu dağı Masis adlandırırlar. Onların inancına görə, öz əcdadlarından sayılan və Aramın oğlu olan Masis öz adını da bu dağa vermişdir. Lakin avropalılar ona Ararat, ərəblər isə Cudi deyirlər. Nuh gəmisi bu dağda quruda oturduğu üçün Şardenin səyahəti dövründə İran əhalisi həmin dağa Əziz adı vermişdilər. Çünki bu məkan yer kürəsinin digər yerlərindən daha izzətli sayılırdı» 218. (Etimadüssəltənə. Miratülbəldan, cild 1, səh 185).

İrəvan Böyük İpək Yolu istiqamətində yerləşmişdi. Abbas İqbal Aştiyani özünün «Monqol Tarixi» əsərində yazır. «Bu yol, Çinin Tuan Hovanqından başlayıb Kansu vilayətinə, ordan isə hazırkı Şərqi Türküstanın içinə qədər uzanırdı. Buradan isə Beş Balıq, Almalıq və Ətraf yolu ilə Səmərqənd və Buxaraya gedib çıxılırdı. Burada bu yolun əsas hissəsi Mərv və Gürgən yolu ilə Reyə doğru uzanır, Reydən isə





Qəzvin, Zəncan, Təbriz və İrəvana çatırdı. Həmin yol İrəvandan Trabzona, yxud da ki, Suriya limanlarının birinə qədər davam edirdi. İpək Yolunun başqa bir qolu da Səmərqənd yolu ilə Xarəzmə, Xarəzmdən Həştərxan sarayına, ordan isə Don çayına və Azov dənizinin limanlarına qədər davam edirdi» 219. (A.J.Aştiyani, Monğol Tatixi, səh.569-farsca).

İrəvan sərhədçiik baxımından böyük əhəmiyyəti olan iki tarixi qalaya malik idi Mərvin vəziri olmuş, Məhəmməd Kazım Mərvi yazır: «İran məmləkətində istər ucalıq, istərsə də möhkəmlik baxımından tayı-bərabəri olmayan iki qala var. Bunlardan biri Rumun girəcəyində İrəvan qalası, digəri isə Tüküstanın astanasında Mərv qalasıdır. Bu sətirlərin müəllifi özü öz gözü ilə bu qalaları görmüşdür. Lakin İrəvan qalası daha hündürdü». 220 (Məhəmməd Kazım Mərvi, Aləm Ara-i Nadir, səh.210 və 613).

İrəvan qalası 50-60 bürcə malik idi. XVIII əsrin çox nadir memarlıq incilərindən sayılan tarixi İrəvan qalasında yeddi məscid, çoxlu karvansaralar və s. mövcud olmuşdur.

Keçmiş Ermənistan Sovet Sosialist Respublikasının 1930-cu ildə ölkə paytaxtının İrəvan (Yerevan) adlandırılması ilə bağlı qəbul etdiyi qərara baxmayaraq, bu şəhər həmin tarixdən əvvəl Rəvan, Ərivan adı ilə tanınır, bəzi mənbələrdə isə İrəvan kimi qeyd edilmişdir.

Bartoldun yazdığına görə, İrəvan 1-ci hicri əsrinin ərəfəsində tikilsə də, 9-cu hicri yüzilliyinə qədər kiçik bir kənd olmuş və yalnız bundan sonra böyük bir şəhərə çevrilməsi üçün bir əsrlik vaxt sərf edilmişdir. 221. (Əli Rursəfər. Qacar dövründə yerli Qafqaz hökumətləri, səh. 89).

Etimadüssəltənə isə «Sədrültəvarix» əsərində İrəvanın eramızın 661-ci ilində tikildiyini qeyd edir.

Bu məntəqədə bir şəhər olaraq İrəvan adlandırılmasından öncə sivilizasiya mərkəzlərindən biri olmuşdur.

Jan Junir yazır: «Hündür Damizdağ təpələri İrəvanın qərbi hissəsində yerləşirdi. Həmin təpələr, eramızdan əvvəl

üçüncü minillikdə metallurgiyanın mərkəzi olmuş, burada dəmir əridib, polad istehsal edərdilər. Bu təpələrdə aparılmış qazıntılar nəticəsində əldə edilmiş tarixi tapıntılar, arxeoloqların qədim dövrlərdə dulusçuluğun dəmir əritmə və metallurgiya sənayesindən əvvəl mövcudluğu barədəki nəzəriyyəsini dəyişmiş və məlum olmuşdur ki, ən azı İrəvan bölgəsində yaşayan insanlar əvvəlcə metalları əridib filiz qablar istehsal edərdilər. Həmin insanlar daha sonralar dulusçuluqla tanış olub, gil qablar istehsal etməyə müvəffəq oldular».

Övliya Çələbinin dediyinə görə, bu şəhər iki dəfə olaraq, XV əsrin əvvəllərində Əmir Teymurun xidmətində olan Xacə Xan Zahicani adlı bir tacirin təşəbbüsü ilə əvvəlcə bir kənd kimi tikilmiş, sonra isə XVI yüzilliyin ərəfəsində 1-ci Şah İsmayıl Səfəvinin vəziri olmuş Rəvanqulu xan şahın əmri ilə onu bir şəhərə çevirərək ətrafına hasar çəkdirmişdir.

Nadir şahın qətlə yetirilməsindən sonra İrəvanda müəyyən ixtişaşlar yaransa da, Osmanlı dövləti İranın daxili işlərinə qarışmadı. Öz müstəqilliyini elan etmiş İrəvan Azərbaycanın xanlıqları ilə birlikdə müstəqil bir Türk əmirliyinin mərkəzinə çevrildi...

İrəvan uzun əsrlər boyunca çeşidli türk tayfalarının, o sıradan da Qacarların bir qanadının məskəni olmuşdur.

Etimadüssəltənə yazır: «Bu tayfanın bir qrupu Yuxarıbaş, digər qanadı isə Aşağıbaş adı ilə tanınırdılar. Onlara bu iki adın verilməsi haqqında iki rəvayət mövcuddur. Belə ki, həm Avropa, həm də İran tədqiqatçılarının yazdığına əsasən, çayın yuxarı hissəsində olanlara «Yuxarıbaş», aşağı tərəfində oolanlara isə «Aşağıbaş» adı verilmişdi».

Həmin müəllif başqa bir yerdə isə yazır: «Aydın məsələdir ki, Əstərabadda məskunlaşmış Qacar tayfası qədim zamanlardan, yəni Əstərabada gəlməzdən əvvəl Qəvanlu adı ilə tanınmışlar... İrəvan həndəvərində məskunlaşmış Dollu tayfası isə hazırda həmin adı daşıyan bir qəsəbədə yaşadıqları üçün həmin ləqəblə (Dolu) məşhur olmuşdular».





222.(Miratulbəldan, səh: 69 və 72).

Abbasqulu Ağa Bakıxanov isə yazır: «Əmir Teymur özü ilə əlli min Türk ailəsini Rum və Suriyadan gətirmişdi, Gəncə hüdudlarında yaşayan Ayrum (Ayrım) tayfası da əslində Rumdan gələn ellərdəndir. Bunlar isə Holaku xanın Türküstandan İrana gətirib müəyyən zamanlarda Gəncə, Qarabağ və İrəvanda yerləşdirdiyi iki yüz min ailənin nəslindən idilər. Hazırda həmin bölgələrdəki elatların əksəriyyəti onların nəslindəndirlər »223 (A.Bakıxanov Gülüstani-İrəm. Səh. 80 və 173). Bakıxanov həmçinin başqa bir yerdə də İrəvan, Gəncə və Qarabağ əhalisi və zadəganlarının əksəriyyətinin Qacar tayfasından olduğunu qeyd edir.

Mirzə Səmia özünün «Təzkərəzülmülük» əsərində sərhəd əmirlərinin təyulundan, aldıqları aylıq maaşından və onların müşayiətində olan qulluqçuların sayından danışarkən Azərbaycanın Səfəviyyə dövründə dörd əmirlikdən ibarət olduğunu göstərir: Təbriz; Çuxur Səd; Qarabağ; Şirvan.

Beləliklə də, mərkəzi İrəvan olmaqla Çuxur Səd Azərbaycanın dörd əyalətindən birini təşkil edirdi. Bunlar isə səkkiz hökmranlıq hissədən ibarət idi:

1. Naxçıvan-Arazın sol sahilində. 2.Maku-Arazın sağ sahilində (Çaldıran səhrasına da şamil edilir). 3.Zaruzbil-Göyçə gölünün cənub-şərqində yerləşən bir qəsəbənin adıdır. 4. Sədərək-Şərur zonasında İrəvandan Naxçıvana gedən yolun ortasında yerləşir. 5. Bayazid-Türkiyə torpağında Ağrıdağın (Araratın) güneyində yerləşir. 6. Şadilu - Ağrıdağının (Araratın) yaxınlığında olan kürd soylu bir tayfadır. 7. Pənbəli kürdləri-təxmin edilir ki, bunlar türkləşməyən bir tayfanın qalıqlarıdırlar. 8. Mağazbərd-İran torpağının şimal-qərb hissəsinin son nöqtəsi olan «Ofi» xarabalıqları yaxınlığında, Arpaçayın qərbində qərarlaşan bir qaladır. 224 (Respublika qəzeti. 3 may 2007-ci il. İrəvan qədim Azərbaycan şəhəri olmuşdur).

Azərbaycan istiqlaliyyətinin elan olunması hadisəsini baş nazir Fətəli xan Xoyski Paris, Roma, Berlin, Vyana,

Vaşinqton, Buxarest, Madrid, Stokholm, Haaqa, Xristianiya, Kiyev, Kopenhagen, Tehran və İstanbul hökumətlərinə bir memorandumla bildirdi. Memorandum qısaca belədir: "Bu ayın 28-də toplanan Azərbaycan Milli Şurası Zaqafqaziyanın cənub-şərqində yerləşən Azərbaycanın istiqlaliyyətini elan etmiş və Azərbaycan cümhuriyyətini təşkil etmişdir. Vəziyyətdən öz hökumətinizi xəbərdar etməyinizi rica edirəm və mənim hörmətimi onlara yetirməklə məni şərəfdar edərsiniz. Hələlik hökumət müvəqqəti olaraq Gəncədə yerləşir. 1918-ci il 30 may. Azərbaycan cümhuriyyəti nazirlər məclisinin rəisi: Fətəli Xan Xoyski."50 (Fətəli xan Xoyskinin atası İskəndərxan əslən Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Buradan Qafqaza, Azərbaycanın Nuxa qəzasına köçmüşdür. Nuxada ailə həyatı qurmuşdur. İskəndərxan rus ordusunda general – leytenant rütbəsinə kimi yüksəlmişdir. İskəndərin Cahangir xan, Fətəli xan və Rüstəm xan adlı üç oğlu olmuşdur. Onlardan Fətəli xan ilə Rüstəm xan Moskva universitetinin hüquq fakultəsini bitirmişdilər. Hər ikisi bir müddət rus ədliyyəsində prokuror olmuş, sonra vəkil işləmişlər. Fətəli xan Bakıda vəkillik etdiyi zaman, 1906-cı il inqilabının nəticəsində yaradılan rus Dumasına millət vəkili seçilmişdir. O, Dumada Azərbaycan xalqının hüquqlarını qorumaq baxımından çox işlər görmüşdür. Sonradan Azərbaycan parlamentinə müstəqil millət vəkili seçilmiş və parlamentdə müstəqil millət vəkillərinin fraksiyasının rəhbəri olmuşdur. Öncə, ən böhranlı bir dövrdə ilk dəfə baş nazir olmuş və sonra isə xarici işlər nazirliyində çalışmışdır. 1920-ci ildə Tiflisdə erməni daşnakları tərəfindən təşkil edilən suiqəsd nəticəsində Azərbaycanın siyasi xadimi, doktor Həsən bəy Ağaoğlu ilə birlikdə öldürülmüşdü.

Sonralar dəyişdirilib Yerevan adlandırılan İrəvan quberniyasının müsəlman əhalisi Azərbaycan hökuməti sədrinin adına öz bəyanatında bildirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayınadək təkcə İrəvan quberniyasında erməni hərbi qüvvələri 200-dən çox müsəlman kəndini yerlə





yeksan etmiş və od vurub yandırmışdır. Dinc əhaliyə qarşı silah işlədilmişdir, onun bir hissəsi pərən-pərən düşərək dağlara qaçmışdır. Əzəldən azərbaycanlıların yaşadığı Sürməli, İrəvan, Eçmiədzin və Şərur qəzalarının ərazisini ermənilər tutdular.

1918-ci ildə Zəngəzurda 109, Qarabağda 117 kənd, 5410 ev dağıdılıb, bu kəndlərdə 2254 nəfər qətlə yetirilib, 304 nəfər diri-diri yandırılıb, Bakıda 12 mindən çox müsəlman vəhşicəsinə qətlə yetirilib. 1918-ci ildə 60 min azərbaycanlı öz ata-baba yurdundan qovulmuşdur. Gənəcədə, Qazaxda, Kürdəmirdə, Qubada və Azərbaycanın başqa rayonlarında qurbanlar daha çox olmuşdur. Bütün bunlar dinc millətimizə tutulan amansız divan idi.

"Azərbaycan" qəzeti qeyd edirdi ki, bunlar öz dairəsi etibarilə sosial çevriliş idi, lakin mahiyyətcə müsəlman kütlələrinə qarşı çıxış idi. "31 mart çıxışı burjua qurluşunu məhv etmək və sovet hakimiyyətini qurmaq məqsədilə törədilən sırf bolşevikcəsinə qiyam idi? Bu çıxış bütün Azərbaycanı dağıtmaq üçün cızılmış geniş planın yalnız birinci mərhələsi deyildimi?"51. Qeyd olunurdu ki, daşnak və bolşeviklərin bu qanlı planda vəzifələri birəşirdi. Həmin vəzifələrin yerinə yetirilməsi azərbaycanlıların fiziki cəhətdən mövcudluğuna təhlükə idi.52

Daşnakların partiyasına gəlincə, o, həmin qanlı sui - qəsdə rəhbərlik edirdi… Bu erməni partiyasının mənzil-qərargahı vardı, orderlər verilirdi və qarət edilmiş malla dolu çoxlu sayda avtomobillərin yükləri onun anbarlarına boşalılırdı.53.

Azərbaycan hökuməti 1918-ci il iyunun 19-da Azərbaycanda hərbi vəziyyət elan etdi. Müsəlman korpusu «əlahiddə» Azərbaycan korpusu adlandırıldı, burada xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısa müddətli kurslar açıldı.

Azərbaycan hökuməti Azərbaycan dilinə dövlət dili statusu verilməsi, kargüzarlıqda Azərbaycan dilinin tətbiq edil-

məsi məsələsi haqqında 1918-ci il 27 iyun tarixli xüsusi qərar verdi. Həmin qərarda deyilirdi: «Dövləti lisan türk dili qəbul edilərək irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair vəzifələrin başında duranlar bu lisanı bilənlər alana qədər hökuməti müəssisələrdə rus dili istimalına edilsin».

Erməni siyasi partiyaları və ictimai təşkilatları Bakı şəhərinin mühasirəsi dövründə və onun Qafqaz islam ordusu tərəfindən azad edilməsi zamanı son dərəcə özlərinə xas olan şəkildə fəaliyyət göstərirdilər. Bakı daşnaklarının "Daşnaksütyun" partiyasının MK-si ilə əlaqələrini və MK-nın göstərişilə fəaliyyətini təsdiq edən sənədlər mövcuddur (1918) 54..

Həmin dövrdə (1918) daşnakların əsas vəzifəsi Bakının təhvilinə yol verməmək və hər bir halda azərbaycanlıların məhvini davam etdirməkdən ibarət idi. Odur ki, erməni millətçiləri dinc sakinləri qətlə yetirmək üçün əllərinə düşən hər fürsətdən istifadə edirdilər. Bu qətllər təkcə Bakının özündə yox, həm də Bakı quberniyasının qəzalarında törədilirdi. Azərbaycan paytaxtının Qafqaz islam ordusu tərəfindən azad edilməsindən bir qədər əvvəl iki minlik erməni silahlı dəstəsi Lənkərana getmiş, orada daşnaklar elə ilk gündən "azadlıq etməyə və müsəlman əhalisini masqaraya qoymağa başlamışlar." 55.

Hətta türk və Azərbaycan hərbi hissələri Bakı həndəvərinə çatdığı zaman da erməni millətçiləri şəhərə, o cümlədən Balaxanı, Ramanı, Binəqədi və Sabunçu rayonları sakinlərinin evlərinə soxulur, yurd-yuvalarına, dükan-bazarlarına od vurub yandırırdılar. 56.

Eyni zamanda daşnaklar vahimə içində öz hərbi hissələrini cəbhədən çıxarır və əkilib aradan çıxırdılar. Hərbi dayaqsız qalan və yalnız bolşeviklər və sol eserlər tərfəindən dəstəklənən Şaumyan hakimiyyəti döyüşsüz-filansız təhvil verməyə məcbur oldu. 25 iyul 1918-ci ildə mürəkkəb və ziddiyyətli şəraitdə Bakı Sovetinin fövqəladə iclası keçirildi. Siyasi və hərbi vəziyyət haqqında Şaumyan məruzə etdi.





Mikoyanın etirafına görə, hələ o vaxt aydın idi ki, menşeviklər, eserlər və daşnaklar Bakıda Sovet hakimiyyətinin kürəyinə bıçaq sançmış, bizi ingilislərə satmışlar."57Bunu hadisələrin bütün gedişi və iclasdakı diskusiyaların xarakteri də təsdiq edirdi. Belə ki,bu mübahisələr zamanı pərdə arxası oyun gedirdi. Daşnaklar İranda ingilis imperialistəlri ilə danışıqlara başlayırdılar. Bakı daşnaklarının yönü, mövqeyi elə ingilislərin yönü, mövqeyi idi. Daşnaklar həmçinin alman-türk komandanlığına da öz nümayəndə heyətini göndərmişdilər. 58. İclasda sıxış etmiş daşnak Arakelyan isə ingilislərin dəvət olunmasına ona görə haqq qazandırırdı ki, yoxsa "türk qoşunları gələr və ucdantutma hamımızı qırıb-çatar", -deyirdi.59.

Lakin 30 iyul 1918-ci ildə cəbhədə vəziyyət kəskin şəkildə dəyişdi. Sovet qoşunlarının şəxsi heyətinin əksəriyyətini təşkil edən erməni milli hissələrinin daşnak komandanlığı təslim olmağı qərara aldı. Biçeraxov, Avetisov, Amazasp və digər hərbi mütəxəssislər ordunun bağlanmasına kömək göstərdilər. 60

Erməni Milli Şurasının "buyruq qulu" Avetisov bayrağı atmaq və təslim olmağı təklif etdi.61. O, "Dşnaksütyun"un Bakı təşkilatının qərarını əldə rəhbər tuturdu.

İyulun 31-də Bakı Sovetinin təcili iclası oldu. İclasda xalq komissarları öz səlahiyyətlərindən qəti surətdə əl çəkdilər.

Avqustun 4-də (1918) başda polkovnik Stoks olmaqla Britaniya qoşunlarının dəstəsi Bakıya gəldi. Bundan sonra daşnaklar bolşeviklərə qarşı mübarizəni daha da gücləndirdilər. Onların verdiyi vədlərin əksinə olaraq, Bakı şəhərində ərzaq və hərbi cəhətdən vəziyyət dəyişmədi, hətta pisləşdi. Bakı əhalisi aclıq çəkməkdə idi.

Bu dövrdə erməni siyasi təşkilatları şəhərin müdafiəsinə əsas diqqət yetirirdilər. Lakin tezliklə vəziyyət dəyişdi. Sentyabrın 15-də Azərbaycan-Türkiyə qoşunları Bakıya lap yaxınlaşırdılar və şəhər ətrafını yağı düşməndən xilas etmək

üçün döyüşə atıldılar 62.

Həmin gün dan yeri sökülərkən daşnak zabitləri və erməni milli partiyalarının bir sıra liderləri Bakıdan qaçdılar. 63. Həm də "Daşnaksütyun" partiyasının qəzetini məhv etdilər, çünki planlarının üstünü aça bilərdi. Erməni burjuaziyasının nümayəndə heyəti isə Nuru paşanın müavininin yanına gəlib, onu türklərin Bakını işğal etməsi münasibətilə təbrik etmişdi 64.

Azərbaycan hökumətinin 9 noyabar 1918-ci il tarixli qərarı ilə mavi, qırmızı və yaşıl rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq milli bayraq hesab edildi. Azərbaycanda milli- demokratik hərəkatın tarixini təbliğ etmək məqsədilə Azərbaycan parlametində «İstiqlal» muzeyi təşkil olunmuşdu.

1918-ci il oktyabrın 14-də Osmanlı Türkiyəsində Əhməd İzzət Paşa hökuməti quruldu. Yeni hökumət Brest-Litvosk müqaviləsi ilə Türkiyəyə qaytarılan Batum, Qars və Ərdəhanı əlində saxlaya bilmək üçün Azərbaycan, Dağıstan, hətta Batum müqaviləsi ilə əldə edilən yerlərin (Ahalkələk, Gümrü, Sürməli, Naxçıvan) boşaldılmasına qərar verdi.

Ermənilər Azərbaycana qarşı mübarizəni müxtəlif vasitələrlə davam etdirirdilər. Onlar müxtəlif bölgələrdəki ermənilər arasında Azərbaycandan ayrılmaları haqqında təbliğat aparırdılar. 1918-ci il noyabr ayının 15-də Gəncə valisi F.Vəkilov Daxili İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycan ərazisi olan Yeni Bəyaziddə əyalətin Azərbaycandan ayrılması barədə təbliğatın aparıldığını bildirdi.

Erməni silahlı birləşmələrinin 1918-ci il noyabrın 2-də Göyçə gölünün şimalından Azərbaycan sərhədlərini keçmələri və müsəlmanlara zülm etmələri Azərbaycanın xarici işlər naziri əvəzi Adilxan Ziyadxanovun ölkənin Gürcüstandakı diplomatik nümayəndəsinə göndərdiyi teleqramdan görünür.

Sovet dövründə tarixçilərin ən çox pərdələməyə çalışdıqları çox mühüm məsələlərdən biri də Bakı Soveti rəhbərləri ilə erməni quldur dəstələrindən birinin başçısı olan Andronikin münasibətidir. Bu haqda bir erməni müəllifi yazmışdır: «Şaumyan və Çaparidze milli demokratik qüvvələri, Andronik və onun dəstəsini Bakı Kommunasının müdafiəsinə cəlb etmişdilər».





Andranik Bakıya teleqram göndərərək, Mərkəzi Sovet hakimiyyətinin əmri ilə hərəkət etməyə hazır olduğunu bildirmişdi. A.Çaparidze Bakı Sovetinin iclasında Andranikin teleqramını oxumuş və xalq qəhrəmanı kimi alqışlamışdı. 10 minlərlə azərbaycanlının qətlinə fərman vermiş Andranik və onun dəstəsi Sovet hakimiyyəti uğrunda, əksinqilabi qüvvələrə qarşı mübarizə aparmaq və Bakını qorumaq istəyirdi.

O zaman S.Şaumyan Andranikin teleqramını Moskvaya, V.İ.Leninə göndərmiş, onun Sovet hakimiyyətinin bayrağı altına keçməyə hazır olduğu haqqında məlumat vermişdi. Eyni zamanda Şaumyan Andronikə müraciət etmiş, onunla əlaqə yaratmışdı. Şaumyan Andranikə olan müraciətində erməni silahlı dəstələrini birləşdirilməsini Sovet hakimiyyəti uğrunda mübarizə adı altında gizlətməyə çalışırdı. Əslində Şaumyanın Androniklə olan əlaqəsi quldur birləşmələrini Andronikin komandanlığı altında birləşdirmək və azərbaycanlılara qarşı qırğın törətməkdən başqa bir şey deyildi.

Şaumyan və Çaparidzenin Andraniklə əlaqədar bu faktları partiya və hökumətin mərkəzi orqanları tərəfindən bəyənilmişdi. Heç təsadüfi deyil ki, bu məsələ ilə əlaqədar «İzvestiya» qəzetində Bakı Sovetinin Andraniklə əlaqədar siyasəti alqışlanmışdı.

Ermənilərin Vedibasarda həyata keçirdiyi qırğınlar və onların bölgəni müsəlmanlardan təmizləmə siyasətinin tərkib hissəsi idi. Naxçıvan Müsəlman Şurasının sədri Azərbaycan xarici işlər nazirinə göndərdiyi teleqramda etibarlı mənbələrə əsaslanaraq bildirir ki, ermənilər Vedibasarda müsəlman qırğınını hələ də davam etdirirlər. Qatarların hərəkət etdiyi bölgə tərəfsiz olduğuna baxmayaraq, ermənilər qatarı

yolda saxlatdırır, müsəlmanları qatardan salaraq əsir götürürlər. Teleqramda əsassız olaraq Ermənistan hökuməti tərəfindən məsəlmanların liderlərinin həbs edildiyi də bildirilirdi. Şura sədri qeyd edirdi ki, iki xalqın sakit yaşamaları üçün müsəlmanların həbs olunan liderləri azad edilməlidir.

Ermənilərin Bakı, Şamaxı və Göycədə qırğınları haqqında Fovqəladə İstintaq Komissiyası Ədliyyə Nazirliyinə 1918-ci il 22 oktyabrda raport göndərmişdir. Qırğında iştirak etmiş ermənilərin cinayəti gizlətmək üçün hərbi forma geyərək xalqa hücum etdiklərini müəyyən etmişdilər. Mənbələrdə bolşeviklərin də ermənilərlə birlikdə olduqları aydın görünür.

Ermənilər Azərbaycana qarşı mübarizəni müxtəlif vasitələrlə davam etdirirdilər. Onlar müxtəlif bölgələrdəki ermənilər arasında Azərbaycandan ayrılmaları haqqında təbliğat aparırdılar. 1918-ci il noyabr ayının 15-də Gəncə valisi F.Vəkilov Daxili İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycan ərazisi olan Yeni Bəyaziddə əyalətin Azərbaycandan ayrılması barədə təbliğatın aparıldığını bildirdi.

Daşnaklar 1918-ci ilin axırlarında azərbaycanlıların Zəngəzurda 40, 1919-cu ilin yanvarında Şuşa qəzasında isə 9 kəndini dağıtdılar. Onlar İrəvan quberniyasındakı azərbaycanlı kəndlərində də talançılığa başlamış və 60-dan çox kəndi məhv etmişlər. Daşnakların basqınları 1920-ci ilin əvvəllərində də davam etdi. O zaman Zəngəzurda 26 azərbaycanlı kəndi dağıdıldı.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması elan olundu. Lakin xalqımızın bu azad və müstəqil hayatı uzun sürmədi.

Əzəli Azərbaycan torpaqları olan Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni hökuməti heç nədən-nə kütləvi qırğınlardan, nə də onlarla yaşayış məntəqəsini yer üzündən silməkdən çəkinmirdi. Hələ 1919-cu ilin yanvarında daşnak hökuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürürdü. Ermənistanda, öz dədə-baba torpaqlarında yaşay-





an müsəlmanların amansızcasına, zorakılıqla və kütləvi surətdə didərgin salınması bütün Zaqafqaziyada vəziyyəti mürəkkəbləşdirdi, iki xalq arasında ədavət və düşmənçilik saldı.65.



*İstiqlal bəyannaməsi (Əqdnamə)*

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək probleminin ən çətin və müəkkəb işi Dağlıq Qarabağ oldu. Azərbaycan Respublikası qəddini düzəltməyə macal tapan kimi, Dağlıq Qarabağda qayda-qanun yaratmağa başladı. Bu istiqamətdə hökumətin ilk əhəmiyyətli addımı 1919-cu il yanvarın əvvəlində oldu. Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Gəncə quberniyasından ayrıldı. Mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaradıldı. İyunun əvvəlində Şuşada vəziyyət gərginləşdi. General-qubernator qəti tədbirlər gördü. İngilis hərbi missiyasının sədri və başqaları Azərbaycanın hüdudlarından Tiflisə qovuldu. Şuşanın er-

məni hissəsində Sultanovla bir neçə yüz erməninin görüşü keçirildi. Görüş iştirakçıları Azərbaycan Respublikasının hakimiyyətini qəbul etdiklərini bildirdilər.

Ermənilərin qırğını nəticəsində İrəvan bölgəsindəki müsəlmanların vəziyyəti çox ağır idi. Onlar 1919-cu il yanvarın 18-də Azərbaycan hökumətinə müraciət edərək, müdafiə olunmaları ilə əlaqədar tədbirlər görülməsini istəyirdilər.

Ermənilərin quldur dəstələrinin başçılarından biri olan Stepan Lalayev çox amansızlıq nümayiş etdirmişdi. Rus keşişi Lohan Fyodroviç Boqomolovun ifadəsində göstərilir ki, S.Lalayev məsciddə çoxlu qadın və uşaq öldürdükdən sonra onları yandırmışdı. Azərbaycan hökumətinin milli siyasətinin o dövrlə müqayisə edilməsi çox çətin idi. Ermənistanın müsəlmanlara qarşı qırğın siyasəti də Azərbaycan hökumətini siyasətini dəyişməyə vadar edə bilməmişdi

A.İ.Mikoyan K (b)P MK-ya V.İ Leininə 22 may 1919-cu ildə göndərdiy məruzəsində xəbər verirdi: «Erməni hökumətinin cəsurları olan daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar. Lakin bu, Qarabağın əhalisi üçün Bakıda öz yaşayış mənbələrindən məhrum olmaq və heç bir zaman və heç nə ilə bağlı olmadıqları İrəvanla talelərini bağlamaq demək olardı. Erməni kəndləri beşinci qurultayda Azərbaycanı tanımaq və ona qoşulmaq qərarına gəlmişlər 66.

Gürcüstan nümayəndəsi də Ermənistandakı hadisələrlə əlaqədar (yalnız Azərbaycanın xarici işlər nazirindən başqa) Qafqazdakı Britaniya ordusunun komandanına 1919-cu il iyulun 12-də etiraz notası göndərmişdi. Sənəddə Ermənistan hökumətinin qırğın siyasəti haqqında, xüsusən İrəvan əyalətində müsəlmanlara təziyiq və hücumlar edildiyi bildirilirdi.. Etiraz notasında Britaniya ordusundan qırğınların dayandırılması üçün Ermənistana təkid etməsi vurğulanırdı.

Amma ingilislər sözdə ermənilərin ərazi iddiaları ilə əlaqədar fəaliyyətinə qarşı çıxdıqlarını bildirsələr də, əslində heç bir tədbir görmürdülər. Zəngəzur əyalətinin idarə rəisi





Kələntərov Bakıya göndərdiyi məktubunda yazırdı ki, Gorusda ingilis nümayəndələrinin olmasına baxmayaraq, ermənilər azırbaycanlılar yaşayan kəndləri yandırır və dağıdırlar. Zəngəzur əyalətinin idarə rəisi Namazəliyev isə teleqramında göstərirdi ki, mayor Gibbonun bölgədə olmasına baxmayaraq, Zəngəzur əyalətinin 30 müsəlman kəndi Andranikin silahlı dəstəsi tərəfindən yandırılıb.

Ermənilər Qarabağın hər yerində azərbaycanlılar yaşayan ərazilərə hücum edirdilər. Vəziyyət o qədər ciddi idi ki, Azərbaycanın xarici işlər nazirinin köməkçisi Adilxan Ziyadxanov Paris Sülh konfransında Azərbaycanı təmsil edən nümayəndə heyətinin sədri A.Topçubaşova göndərdiyi məktubda Qafqazda müsəlmanların yaşadıqları ərazilərin statusunun qorunması üçün təcili tədbirlər görülməsini vacib hesab edirdi.

Azərbaycanın tərkibində qalmaq qərarı 1919-cu ilin avqustunda Qarabağın kommunistləri tərəfindən də qəbul edilmişdir. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun, həmçinin B.Mdivaninin, A.İ.Mikoyanın və İ.Nuricaniyanın Moskvaya xalq xarici işlər komissarı Q.V.Çiçerinə və Vladiqafqaza Q.K.Orconikidzeyə məktubunda deyilirdi: «Artıq Sovet Azərbaycanının tərkibinə daxil olmuş və guya mübahisəli olan Zəngəzur və Qarabağa gəldikdə, qəti surətdə bildiririk ki, bu yerlər şübhəsiz, gələcəkdə də Azərbaycanın daxilində qalmalıdır» 67.

1919-cu ildə Ermənistan yenə hay-küy saldı. İyunun 25-də Azərbaycan Ermənistana nota verərək onun etiraz və iddialarını qətiyyətlə rədd etdi. Notada deyilirdi ki, Ermənistanın daxili işlərimizə qarışmağa haqqı yoxdur.

Ermənistan hərbi vasitələrə əl atdı. Andronik öz silahlı dəstəsi ilə Qarabağa yollandı, bütün yol boyu Azərbaycan kəndlərini dağıdıb talan edir, azərbaycanlıları qırırdı. Ermənistan hökuməti Azərbaycana bildirdi ki, həm general Andronik, həm də onun dəstəsi erməni qoşunlarının tərkibindən çıxarılmışdır. O, Ermənistan hökumətini tanımır, Andronik

və onun dəstəsinin erməni milli qoşunları ilə guya əlaqəsi yoxdur və Ermənistan respublikasının hökuməti onların məsuliyyətsiz fəaliyyətinə hec cür cavabdeh deyildir.

Tiflisdə 1919-cu il noyabrın 23-də Azərbaycan ilə Ermənistan arasında saziş imzalandı. Toqquşmalar dayandırıldı və bir daha silaha əl atılmaması haqqında, bütün mübahisəli məsələlərin, o cümlədən sərhəd məsələlərinin danışıqlar yolu ilə həll edilməsi zəruri sayıldı.

Daşnakların daim basqınları nəticəsində bir çox azərbaycanlı yurdunu tərk edib başqa yerlərdə nicat tapmağa məcbur oldu. Təkcə 1919-cu ilin yanvarından Cavanşir, Cəbrayıl, Şuşa qəzalarına 40 minə qədər, Gəncə mahalına 21 mindən çox, Şamaxı mahalına 25,8 min, Nuxa mahalına 5,1 min qaçqın gəldi, ümumiyyətlə qaçqınların sayı 100 minə çatdı.

Daşnaklar 1919-cu ilin qışında yaranmış sakitlikdən istifadə edərək Basarkeçərdə cəmləşməyə başlayırlar. Hətta özlərini hökumət nümayəndəsi kimi qələmə verərək, azərbaycanlı kəndlilərdən vergi adı altında ərzaq toplamağa başlayırlar. 1919-cu il fevralın 18-də Sulikovun başçılığı ilə Zod kəndinə gələn dəstə Məşədi İsa, Hacı Rəhim, Məşədi Qasım və başqalarının təşkilatçılığı ilə məhv edilir. Bu döyüşlərdə zodlu Kor Hümmət, Cavoy, Molla Həşim, Pullu Abbas, Mehralı oğlu Məhəmməd, Əkbər oğlu Həsən, Qaraqoyunludan Kalvayı Cəfər, Aşıq Ələsgərin oğlu Bəşir, Dəli Bayram və başqaları xüsusilə fərqlənirlər.

Sursat və tədarük üçün qışda Azərbaycana getmiş Səməd ağa ilə Aşıq Nəcəf 1919-cu ilin aprelində Göyçəyə qayıdırlar. Ermənilərin sülh təklifini müzakirə etmək üçün Şişqayaya Kor Tanrıverdinin evinə toplaşırlar. Abutalıb oğlu Cavad öz dəsətəsinin üzvlərindən Tağı oğlu Əli, Dərzi Murad, Kor Qara, Xələf Əlisi, Dəli Yəhya, Topal Qulu ilə birlikdə həmin danışıqda iştirak edirlər. Barışığa getməyə razı olmurlar. Səməd ağa isə qışı başa vurmaq üçün müvəqqəti də olsa, barışıq əldə etməyə üstünlük verir. Həm də bildirir





ki, o tay Göycəni gözünüzün qabağına gətirin. Daşnak qırğınından qaçıb canını qurtaran əhalini Ağmağan dağlarında yazın qar-boranı qırıb.

Cavad Şişqayaya toplanmış adamlar ilə Cilə yola düşür. Səməd ağa isə 11 nəfərlik dəstəsi ilə Basarkeçərə gedirlər. Hacıqəriblə Pənbəyin arasında Basarkeçərdə quldurluq edən bir qarabağlı erməni Cavadgillə qarşılaşır. Onu sorğusuala tuturlar. Erməni deyir: Azərbaycandan gəlirəm. Sonra mızıldanmağa başlayır. Yəhya istəyir bunu vursun, Cavad razı olmur ki, bizimkilər də oradadır. Görək, nə olur. Erməni Basarkeçərə çatan kimi daşnaklar Səməd ağanın dəstəsini qırırlar.

Aşıq Nəcəfə bir həftə işgəncə verdikdən sonra kürəyinə qaynar samovar bağlayıb məşəqqətlə qətlə yetirirlər. Aşıq Nəcəfin basdırıldığı yer bəlli olsa da, sovet hakimiyyəti illərində qəbrinin üsütünü götürmək, xatirəsini əbədiləşdirmək mümkün olmadı. İkili mövqe tutan imperiya nökərləri uydurma erməni qırğınına aid yüzlərlə abidə ucaltmağa, onu dünyada təbliğ etmək kimi çirkin əməllərə vasitəçilik etdikləri halda, təkcə Qərbi Azərbaycan mahallarında iki minə yaxın dağıdılmış kənd və şəhərlərin, onların sakinlərinin aqibəti haqda bir kəlmə də olsun yazmağa imkanverməmişdilər. Bu vəhşiliyi dilinə gətirə biəcək adamlar isə xalq düşməni kimi ən ağır cəzaya məhkum oluna bilərdilər.

Daşnaklar 1919-cu ilin aprelində Səməd ağanı və başının adamlarını güllələdikdən sonra həmin gün azərbaycanlı kəndlərində yardım paylamaq adı ilə silahsız adamları bir yerə toplayıb vəhşiliklə qətlə yetirirlər. Şişqaya, Bala Məzrə və digər kəndlərin hər birində 500-ə qədər adamı iri damlara yığıb, diri-diri od vurur, yaxud da quyulara doldurub üstündən daş tökürlər.

Daşnak komandiri mayor Vahran yazırdı: «Mən türk əhalisinə Basarkeçərdə heç nəyə fərq qoymadan olmazın divan tutdum. Axı bu itləri qırmaq üçün ən yaxşı vasitə odur ki, hər bir döyüşdən sonra sağ qalanları yığışdırıb, diri-diri quyulara doldurub, üstlərinə də ağır daşlar qoyasan. Mən

eləcə də etdim. Bütün kişiləri, qadınları və uşaqları diri-diri quylayaraq, onlarla birdəfəlik qurtardım».

Daşnakların Basarkeçərin kəndlərində törətdiyi vəhşiliklər barədə xəbər ildırım sürəti ilə Güney Göyçəyə yayılır. Abutalıb oğlu Cavad kəndlərin əli silah tutanları ilə birlikdə əvvəlcə Şişqaya və Hacıqərib kəndləri arasında döyüş istehkamları qurur. Lakin sonra ərazinin müdafiə üçün əlverişsiz olduğunu nəzərə alaraq, istehkamları Hacı Qərib və Dərə kəndləri arasındakı dağ silsiləsinə dəyişir.

Yaxşı silahlanmış ermənilər isə toplardan daha çox istifadə edərək əhali arasında vahimə yaradırlar. Cavad daşnakların qüvvəsini və mövcud vəziyyəti düzgün qiymətləndirərək, əhalini qırğından xilas etmək üçün müvəqqəti olaraq Gədəbəyə köçürülməsini əmr edir. 1919-cu ilin aprel-may aylarında əhalinin əksəriyəti Qaraqoyunlu dərəsi də daxil olmaqla, dağ yolu ilə Gədəbəyə, daha təhlükəsiz yerlərə köçürülür.

Əhali kəndləri tərk etdikdən sonra daşnaklar ordunun qərargahını Cil kəndində yerləşdirirlər. Bu kənd çox əlverişli strateji mövqeyə malik idi. Daşnaklara qarşı həlledici hərbi əməliyyat aparmaq üçün ciddi hazırlıq görmək lazım gəlirdi. Gədəbəydən Yaqublu Mustafa ağa, Seyid Abuzər, Mir Ələsgər, Muqa Namaz kimi cəsur insanlar ermənilərə qarşı hər yerdə müqavimət göstərirdilər.

Daşnakların Cildə yerəşdirilmiş dəstəsini məhv etmək üçün Cavad və Mustafa ağa dəqiq kəşfiyyat işi görürdülər. Düşmənin Çəlvərli yüksəkliyindəki müşahidə məntəqəsi Gədəbəylə Göyçə arasındakı Qatar qayadan müntəzəm müşahidə edilirdi.

Dəli Söyün və Mazan oğlu Məhərrəmin dəqiq kəşfiyyatlarından məlum olur ki, ermənilər gecələr səngərədə qalmır, kəndə enirlər. Gecə ikən Çəlvərli, Danauçan, Suludərə, Yemşənli və Təpə istiqamətində qövslü xətt üzrə enişə doğru hər birində iki tüfəngli olan üç atəş nöqtəsi, biri pulemyot və hərəsində 4 tüfənglidən idarət doqquz atəş nöqtəsi yaradılır. Pulemyotun arxasında isə Yaqublu Mustafa ağa dayanır.

Səhər tezdən 4 nəfər erməni səngərə tərəf qalxır. Sərrast





açılan güllə ilə onlardan ikisi öldürülür, ikisi isə təslim olur və bildirirlər ki, biz bir güllə ilə təhlükə olduğunu, ikinci güllə ilə isə təhlukəninin daha ciddi oudğunu bildirməli idik. İkinci gülləni Cavad özü havaya atır. Daşnaklar ikinci güllə səsini eşidib Çəlvərliyə tərəf qalxmağa başlayırlar. Dəstənin qabağı birinci atəş nöqtəsinə, səngərə çatdıqda ermənilər birinci nöqtədən atəşə tutuldular və itki verərək aşağıya doğru çəkilməyə başladılar. Bu zaman növbəbti atəş nöqtələrindən bir-birinin ardınca atəş açmağa başlayır. Nəhayət, dəstənin əsas gücü pulemyotun tuşuna çatdıqda, pulemyot işə salınır. Vahiməyə düşən daşnak ordusu «Bu türk əsgərlərinin işidir.,» deyərək qaçmağa başlayırlar. Bu qaçış sağa mümkün deyildi, çünki sağ tərəf açıqlıq idi. Odur ki, həmin qövs xətti istiqamətində qaçmağa başlayırlar. Daşnak döyüşçülərinin əksəriyyəti məhv edilir. Yeni sünbül açmış taxılın içindən bir nəfər erməni diri tutulur. Xeyli miqdarda hərbi ləvazimat və s. qənimət götürülür. Həmin komandirə məxsus Kof atı Cavad Mustafa ağaya təqdim edilir.

Daşnakların ikinci qərargahı Ardanış kəndi ərazisində, Topaşan keçidindəki at ağılında yerləşirdi. Topaşan olduqca əhəmiyyətli bir nöqtə idi və bu daşnak yuvası Məşədi Hümmətin başçılığı ilə dağıdılır. Dastanlarda Koroğlu nərəsi haqda çox danışılır. Adam düşünür ki, görəsən bu mümkündürmü? Bəli, Məşədi Hümmət dəstəsi ilə gecə at ağılına girərək, yatmış daşnakları öz Koroğlu nərəsi və açdıqları atəşlərlə vahiməyə salaraq məhv etmişdi. Əməliyyat Cildəki kimi aparılmışdı.

Məşədi Hümmət Ardanış kəndində çox cəsur kişi olub. 30-cu illər ərəfəsində daşnak sovet milis rəisi onu həbs etmək üçün Ardanışa gəlir və öldürülür. Məşədi Hümmət isə qaçaq düşür. O, qaçaqlıq illərində Xinna dərəsində ermənilərin ələ aldıqları bir xəyanətkar vasitəsilə qətlə yetirilir.

Cil və Ardanış kəndləri azad edildikdən sonra daşnakların Şişqaya və Hacıqərib arasında yerləşən üçüncü qərərgahı üzərinə hücuma keçlilir. Abutalıb oğlu Cavad və əvvəllər çar ordusunun zabiti olan Seyid Abuzərin başçılıq etdiyi 30 nəfərlik bir dəstə daşnakların 80 nəfərlik iki vzvodunu

məhv edir. Bu döyüşdə azərbaycanlılar xeyli sursat və xırda çaplı bir top ələ keçirirlər. Sonralar həmin top Sankt-Peterburq Universitetinin tələbəsi Zodlu Hacı Əliş ağanın oğlu Böyükağanın vasitəsilə Gənəcəyə aparılır və orada daşnaklara qarşı mübarizədə istifadə olunur.

Beləliklə, Göyçənin güney tərəfi daşnaklardan tamamilə təmizlənir və doğma yerlərini tərk etmiş əhalinin bir qismi (Cildən, Ardanışdan və s.) 1919-cu ilin sentyabrından sonra öz doğma ocaqlarına qayıtmağa başlayırlar. Əlbəttə, bu qələbə Göycə camaatının əlbir qeyrəti sayəsində əldə edilmişdir.

1919-cu ilin sonlarında beynəlxalq vəziyyətin dəyişməsi Azərbaycanın xarici münasibətlərində müvafiq dəyişikliklər yaratdı. 1920-ci ilin yanvarında Azərbaycan Demokratik Respublikasının beynəlxalq vəziyyəti ağırlaşmışdı. RSFSR-in xalq xarici işlər komissarı K.V.Çiçerin Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə Sovet Rusiyası ilə hərbi ittifaq bağlanmasını təklif edirdi. Bu notada Azərbaycan hökuməti Denikin ilə hərbi toqquşmaya sövq edilirdi. RSFSR hökumətinin notasına cavab olaraq F.Xoyski göstərdi ki, «böyük tarixi hadisələr gedişində böyük qurbanlar və iztirablar hesabına azadlıq və istiqlaliyyət qazanmış Azərbaycan xalqı başqa xalqların daxili işinə qarışmır və ona görə də Azərbaycan hökuməti özünün daxili həyatını qorumaqda olan rus xalqının mübarizəsinə müdaxiləni yol verilməz iş hesab edir». Bununla belə, F.Xoyski Azərbaycan Respublikası hökumətinin rus və Azərbaycan xalqları arasında hər iki dövlətin suverenliyi prinsipinə əsaslanan mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazır olduğunu bildirdi.

1919-cu ilə aid arxiv sənədlərində də ermənilərin Zəngəzur əyalətində qanlı qırğınlara yenidən başladıqları görünür. Qazi Behcətin Azərbaycan parlamentinin üzvü M.S.Axundzadəyə göndərdiyi teleqramdan aydın olur ki, ermənilər Zəngəzurda 900 nəfəri qətlə yetirmiş, 400 nəfər qadın və uşağı məsciddə dinamitlə partlatmışlar.

Hadisələr Ermənistan səlahiyyətlilərinin ifadə etdiklə-





rindən fərqli şəkildə davam edirdi. Buna görə də Azərbaycanın baş naziri N.Yusifbəyov müttəfiq dövlətlərin komissarı Haskelə və Britaniyanın komissarı Vordropa göndərdiyi teleqramda silahlı qüvvələrin Zəngəzur və Zəngilan bölgələrində müsəlmanları qətlə yetirmələri barədə məlumat verirdi. Bununla əlaqədar olaraq, qırğını dayandıraraq ermənilərin tərksilah edilməsinin lazım olduğu bildirilirdi.

Erməni millətçi partyalarının fəaliyyətinə düzgün xarakteristikanı F.Maxaradze vermişdi. O yazmışdır: «1918-1920-ci illərdə bizdə baş vermiş hadisələr ilk dəfə 1905-ci ildə olmuş hadisələrin ya təkrarı, ya da davamıdı». F.Maxaradze. Zaqafqaziyada inqilabi hərəkat oçerkləri, səh.298.

1920-ci il yanvarın 11-də Fransada keçirilən Versal Sülh Konfransı Azərbaycanın müstəqil dövlət kimi tanındığını, indiki respublikamızla birlikdə Zəngəzur, Dərələyiz, Şərur mahalları da daxil olmaqla (Naxçıvan və Dağlıq Qarabağ barədə ona görə söz açmırıq ki, həmin yerlər Versal Sülh Konfransının tanıdığı sərhədlər pozulandan sonra da Azərbaycan ərazisi olaraq qalırdı) Azərbaycan dövlətinin hüdudlarının müəyyənləşdirildiyini elan etmişdi. Bu qərar olmasaydı müstəqil dövlətimizin taleyi ağır olardı. Yəni 1918-ci il mayın 28-i müstəqil Azərbaycan dövlətinin yaranması barədə qətnamə gün kimi bizim üçün əzizdirsə, 1920-ci il yanvarın 11-i ilk müsəlman demokratik dövlətinin dünya ictimaiyyəti tərəfindən tanındığı gün kimi unudulmazdır, şərəflidir.

1920-ci il yanvarın 19-25-də ermənilər Zəngəzurda 51 kəndi qarət edərək yandırmışlar. Azərbaycan Nazirlər Kabinetinin sədri F.Xoyskinin Ermənistanın xarici işlər naziri Xatisova 1920-ci il yanvarın 22-də göndərdiyi notada erməni ordusunun Şuşaya doğru hərəkət etdiyi və bu sıralarda 40 azərbaycanlı kəndinin qarət edilərək dağıdıldığı bildirildi. Hər dəfə olduğu kimi, bu dəfə də erməni səlahiyyətliləri inkar edilməsi mümkün olmayanları belə danmağa çalışırdılar. A.Xatisov Azərbaycana cavab notasında bildirir ki, erməni ordusunun Şuşaya hərəkəti və 40 müsəlman kəndinin dağıdılması haqqında məlumatı yoxdur.

Ermənistan səlahiyyətliləri nə qədər inkar etsələr də, iki

ölkənin sərhədlərində ermənilərin hazırlıq tədbirləri haqqında məlumat gəlirdi. Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur əyalətlərinin qubernator əvəzi H. Sultanovun 1920-ci il fevralın 11-də göndərdiyi teleqramda bildirilirdi ki, Ararat hökuməti tərəfindən Zəngəzur əyalətinə hücum etmək üçün hazırlıqlar aparılır. Bununla yanaşı, qeyd olunur ki, Ermənistan bölgəyə hücumlarını həyata keçirmək üçün yerli ermənilərdən də istifadə etməyə çalışır. Hücum ssenarisinə görə Qarabağda yerli ermənilər Azərbaycana qarşı çıxmalı və erməni ordu hissələri onları müdafiə iddiası ilə bölgəyə hücum etməli idi.

Aərbaycanın əsgəri birliklərinin Zəngəzur bölgəsinə gəlməsi ermənilərin planlarının həyata keçirilməsinə imkan vermədi. Artıq ordu hissələrinin fəaliyyət göstərə bilmədiyi şəraitdə ermənilərin təbliğatı başlamışdı. Erməni təbliğatı Azərbaycan ordusunun uğurlarını Nuru Paşanın adına yazırdı. Bu, təsadüfi deyildi və məqsəd müttəfiq dövlətlərin diqqətini bölgəyə cəlb etmək, ermənilərin birləşmiş türk və Azərbaycan qüvvələri qarşısında tək qalmış olduğunu dünyaya yaymaq idi. Azərbaycan xarici işlər nazirliyi isə bildirdi ki, Nuru Paşa burada olmamış və indi də yoxdu. Ermənilərin əsassız təbliğatında ən mühüm məsələlərdən biri də Ağdam-Şuşa yolunun guya ermənilər üçün bağlı olması iddiası idi. Öz növbəsində Azərbaycan xarici işlər naziri ermənilərin bu iddiasının da əsassız olduğunu qeyd edirdi. Erməni təbliğatı daha sonra iddia edirdi ki, Xankəndi yaxınlığında döyülərək öldürülən əsgər ermənidir. Amma Azərbaycan Xarici İşlər Nazirliyi tədqiqat apararaq müəyyən etmişdir ki, öldürülən əsgər erməni deyil, müsəlmandır.

1920-ci ildə Azərbaycan xarici işlər nazirinin ermənilərin əsassız təbliğatına qarşı etiraz notasında oxuyuruq: Xankəndində 2, Ağdamda 3 və Xocalıda öldürülən 3 erməninin qatilləri tutularaq həbsxanaya salınmışlar. Son hadisələrdə oduğu kimi, qatil axtarmaq, həbs etmək və xəyali qatillərlə erməniləri susdurmaq bizə düşüb. Yenə də Ağdam, Xankəndi və Xocalı üçbucağı.

1920-ci ilin yanvarında RSFSR xalq xarici işlər komis-





sarının göndərdiyi ikinci notasında Azərbaycan Respublikasının müstəqilliyinə əhəmiyyət verilmirdi.

1920-ci ilin martında Novruz bayramı gecəsi Ermənistanın daşnak dairələrinin təhriki və başçılığı ilə erməni silahlı dəstələri qəflətən Şuşada, Xankəndidə, Əsgəranda və Tərtərdə yerləşmiş Azərbaycan qoşun hissələrinə hücum etdilər. Dağlıq Qarabağda Azərbaycan əleyhinə qiyam başlandı. Lakin, tezliklə qiyamçılar məhv edildilər.

1920-ci il martın axırlarında daşnakların fəal iştirakı ilə Qarabağda başlanan millətlərarası toqquşma zamanı onlarla kənd məhv edildi və çoxlu adam qırıldı.

Azərbaycan KP və Sovet Rusiyasında yaşayan Azərbaycan bolşeviklərinin mövqeyini bir az sonra S.M. Kirov və Stalin müdafiə etmiş, Azərbaycan Respublikasını tanımamaq haqqında qəti qərar qəbul edilmişdi. Sovet Rusiyasının iqtisadi vəziyyəti çox ağır idi. Bakı nefti olmadan o öz təsərrüfatını qaldıra bilməyəcəkdi. 1920-ci il martın 17-də V.İ.Lenin Qafqaz Cəbhəsi hərbi inqilab şurası üzvləri N.Q.Smiqla və Q.K.Orconikidzeyə göndərdiyi teleqramda göstərirdi ki, «Bakını tutmaq bizə son dərəcə zəruridir. Bütün səyinizi buna verin».



*M.Ə.Rəsulzadə*
*Milli Şuranın sədri*



*Ə.M.Topçubaşov*
*Parlamentin sədri*



*F.X.Xoyski*
*Nazirlər Şurasının sədri*
*1,2,3-cü kabinə*



*N.B.Yusifbəyli*
*Nazirlər Şurasının sədri*
*4,5-ci kabinə*



*H.B.Ağayev*
*Parlament sədri*
*nin 1-ci müavini*



*M.Y.Cəfərov*
*Parlament sədri*
*nin 1-ci müavini*

Erməni ordusu 1920-ci ilin aprelində atəşkəsi pozaraq, Azərbaycanın müxtəlif yerlərindən hücuma keçdilər. Azərbaycan sərhədlərindən həyəcanlı xəbərlər gəlməkdə davam edirdi. 1920-ci il aprelin 7-də Azərbaycan Daxili İşlər Nazirliyindən Xoyskiyə göndərilən məktubda Qazaxdakı vəziyyət haqqında məlumat verildi. Məlumatda general Bağdasarov və polkovnik Vartanyan ordusunun Qazaxa doğru hərəkətə başladığı bildirildi.





Müttəfiq ölkələrin Qafqazdakı komissarlığı Azərbaycan və Ermənistan arasındakı atəşkəsin vəziyyətinin yoxlanılması üçün bir komissiya təşkil etmişdi. Lakin komissiya yalnız Qazaxda vəziyyəti yoxlamaq istəyirdi. Bununla əlaqədar olaraq, Azərbaycan Müdafiə Nazirliyinin qəbul etdiyi qərarda göstərilirdi ki, komissiyanın yalnız Qazaxa göndərilməsi yoxlamanın birtərəfli olması ilə nəticələnə bilər. Komissiyanın nəticəli işləyə bilməsi üçün yalnız Qazaxda deyil, onunla birlikdə Qars və digər əyalətlərə göndərilməsi təklif olunurdu. Belə olarsa komissiyanın daha dolğun məlumat toplamasına imkan yaranacaqdır 68. Azərbaycan Demokratik Cümhuriyyəti elə bir tarixi dövrdə meydana gəlmişdi ki, Qafqazda durum son dərəcə gərgin, qeyri-sabit idi. Azərbaycanda milli toqquşmaların qəsdən törədilməsi və kimlər tərəfindən dəstəklənməsi barədə çoxlu faktlar mövcüddür. Bakıda «darğalıq» edən Şaumyan bu sözləri təsadüfən deməmişdir: «Azərbaycanın müstəqil dövlət olmasını istəyən milliyətçilər sonuncda xarabalar tapacaqlar». Bu söz günümüzlə nə qədər səslənir: Bakını Beyruta, Azərbaycanı isə Livana çevirəcəyik». Onlar Qarabağda, Şamaxıda, Kürdəmirdə, Lənkaranda, Salyanda, Qubada, Gəncədə və s. yerlərdə kütləvi qırğınlar törətmiş, qısa dövr ərzində 211 yaşayış məntəqəsini xarabalığa çevirə bilmişlər (eynilə indiki kimi).

Belə bir şəraitdə F.Xoyski aprelin 15-də sonuncu nota ilə G.V.Çiçerinə müraciət etdi. Lakin başqa notalar kimi bu nota da cavabsız qalmışdı. 1920-ci il aprelin 26-dan 27-ə keçən gecə başda 3-cü İnternasional olmaqla 2-ci Qızıl Ordunun «№» hərbi hissələri Azərbaycan Respublikasının sərhədlərini keçib sürətlə cənuba doğru irəliləməyə başladılar. Sərhəd qüvvələrindən ibarət Azərbaycan Ordu hissələri ciddi müqavimət göstərə bilmədi. Aprelin 27-də Azərbaycan KP MK, Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvil verilməsi haqqında ultimatum verildi.



*Azərbaycan Xalq Cümhuriyyəti ordusunun əsgərləri*

Parlamentin bu son iclasında iştirak etmiş Məmməd Əmin Rəsulzadənin yazdığına görə, hakimiyyəti ələ alacaq bolşeviklər aşağıdakı şərtlərə riayət edəcəklərini bildirirdilər:

Sovet hakimiyyətinin idarə etdiyi Azərbaycanın tam müstəqilliyi qorunub saxlanılacaqdır.

Hər hansı kənar təzyiqdən asılı olmayan Azərbaycanın əsl idarə formasında, fəhlə, kəndli və əsgər deputatlarının timsalında Azərbaycanın yüksək qanunvericilik təşkilatı təyin ediləcəkdir.





Yeni yaradılmış kommunist hökuməti parlament üzvlərinin həyat və mülkiyyətinin toxunulmazlığını təmin edəcəkdir.

Qızıl Ordunun Bakı şəhərinə daxil olmasına yol verməmək üçün tədbirlər görüləcək.

Azərbaycan Ordusu olduğu kmi qalacaq.

Azərbaycanda siyasi partiyaların hürriyyət və sərbəstliyi təmin ediləcək.



*İşğalçı Xİ Qızıl ordu Bakıya doğru irəliləyir. 1920, aprel.*

Lakin, bu tələblərə əməl olunmadı. 1920-ci il aprelin 27-də axşam saat 24 -də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Beləliklə, yerli bolşeviklərin iştirakı ilə XI Qızıl Ordu Bakıya daxil oldu. Müstəqil Azərbaycan Demokratik Respublikasının 2 illik fəaliyyətinə son qoyuldu və Azərbaycan yenidən, bu dəfə də artıq sovetləşmiş formada Rusiyanın tərkibinə qatıldı.



*İşğalçı Xİ Qızıl ordu hissələri Bakıda. 1920, aprel.*



*28 aprel işğalı - Xİ Qızıl ordu hissələri Bakıda.*



*İşğalçıXİ Qızıl ordu Bakı vağzalında.*
*Şəkildə S.M.Kirov, Q.K.Orconikidze, M.Q.Yefremov, M.K.Levondovski, K.A.Mexanoşin və b.*





## 3.3.Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı (1917-1920)

Ermənilər 1905-ci ildə Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımından sonra yenə öz vəhşiliklərini davam etdirdilər. 1918-ci il martın 17-21-də (30 mart – 1 aprel) daha ağır dəhşətli faciələr baş vermişdi. Bu faciə «Mart faciə»si kimi tarixdə məşhur olmuşdur. Martın 30-u ilə aprelin 1-i arasında davam etmişdir. Bu hadisə təkcə Bakı, Gəncə, Quba, Şamaxı, Lənkəran, Göyçayda deyil, Cənubi Azərbaycanın Xoy, Urmiyə və Səlmas şəhərlərində də ermənilər tarixdə görünməmiş dəhşətli faciələr törətmişdirlər. (244a).

1918-ci ildə rus ordusunun Cənubi Azərbaycanı istila etməsindən istifadə edən ermənilər milli erməni-assori hərbi ordu təşkil edib, Maku, Xoy və Urmiyədə də qanlı faciələr törətdilər. Ermənilərin Urmiyədə törətdikləri kütləvi qırğın, hələ də Urmiya gölü ətrafında sakin olan azərbaycanlı türklərin xatirələrindən silinməmişdir. «Urmi bəlvasi» deyə yad olunan bu qanlı faciələrdə öldürülüb məhv edilən müsəlman Azərbaycan türklərinin miqdarı saya gəlməyəcək qədər çox olduğu kimi, ermənilər tərəfindən əsir alınmış gənc azəri qızlarının «alaylar halında» «keçid hərbi mərasimləri» də unudulmamışdır. Urmiyədə sakin olan ermənilər Çar Rusiyası ordusunun Cənubi Azərbaycandan çıxıb getmək istədiklərini biləndən sonra qorxuya düşmüşdülər. Çünki onlar məşrutə hərəkatına qarşı xəyanət edib, Çar Rusiyası əsgərləri ilə birlikdə məşrutəçi Azərbaycan türklərinin kütləvi surətdə öldürülməsində fəal iştirak etmişdilər. Digər tərəfdən, Urmiyədə olan ermənilər rusların Cənubi Azərbaycandakı hərbi qüvvələrinin köməyilə «Azad Ermənistan» yaratmaq istəyirdilər. Bu məqsədlə Çar Rusiyası orduları Cənubi Azərbaycanı tərk edərkən mövcud silahlarını əvəzsiz olaraq ermənilərə vermişdilər. Seyid Əhməd Kəsrəvi çox haqlı olaraq yazmışdır: «Biz dedik ki, ürək dağlayan Urmiyə dastanını ayrıca yazacağıq. Dey ayının 11-i (dekabr ayının 31-i)

idi ki, ruslar Urmiyəni tərk etməyə başladılar. Onların ordusunun bir hissəsi sərhədə doğru geri çəkildilər, sabahısı ayın 12-də qalan qoşunlar da oranı tərk etdilər. Onların bu geri çəkilməsi nəticəsində başqa bir hadisə baş verdi. Bu hadisə assori və ermənilərin köçürülməsindən ibarət idi. Çünki özlərini ruslarla bağlı olduğunu bildirib, onlara arxalanaraq öz həmvətənliləri ilə çox pis rəftar etmişdilər. Hətta son 1-2 ay ərzində qan töküb talan etməkdən belə əl çəkməmişdilər. Ona görə də canlarından qorxub onlar Urmiyədə qalmaq istəmirdilər. Rusların geri çəkilməsindən xəbər tutan kimi, qış vaxtı onlar ruslarla birlikdə Urmiyəni tərk etməyi qərara alırlar. 10 minə yaxın kişi və qadın, uşaqları ilə birlikdə, özlərinə məxsus olan əşyaları da götürüb tələsik şəhəri tərk edirlər. Araba və minik heyvanları olmadığı üçün qar və palçıqda – piyada gedirdilər. Hətta ərzaq da tapa bilmirdilər. Lakin elədikləri əməllərin nəticəsini görürdülər. O adamlar ki, 1000 il ölkədə rahat yaşayıb və dillərinin ayrı olub, müsəlmanlardan hər cür mehribanlıq görmüşlər, bəs nəyə görə duz-çörəyi itirdilər. Əcnəbilərin ayağı bizim ölkəyə dəydi, onlara qoşulub öz həmvətənlilərinə üz çevirdilər. Onlar könüllü surətdə əcnəbilərdən aldıqları silahla yerli, günahsız əhalinin qanını tökdülər. Bu törətdikləri ağır cinayət qarşısında bu cəzalar onlar üçün hələ az idi. Mənim ürəyimi ağrıdan bu idi ki, öldürülən qadın və uşaqların günahı nə idi? Bu asurilər barəsində idi. Bu döyüşlərdə ermənilər Fransa və İngiltərə tərəfində olub, daşnakların komitəsi gizli olaraq, həmin dövlət nümayəndələri ilə müqavilə bağlamışdı. Biz bu barədə onları tənqid etmirik. Lakin əsas sözümüz ermənilərin iranlılarla düşmənçilik mövqeyində durması idi. O adamlar ki, əsrlərlə İranda yaşayıb və onun bütün nemətlərindən, rahatlıqlarından faydalanıb əcnəbilərin göstərişi ilə öz həmvətənlilərinə düşmənçilik etdilər.

Bəli, özlərini ariyailərlə həmirq və qan qohumu adlandıran ermənilər Cənubi Azərbaycanın Urmiyə, Xoy, Təbriz və Salmas şəhərlərində dəhşətli cinayətlər törətdilər. Ermənilərin başçısı Ağa Petros və asurilərin başçısı Marsimon digər başçıları ilə birlikdə Salmasdan Urmiyəyə gəlirlər. Ermənilər Urmiyədə küçələri gəzir, Azərbaycan türkünə rast gəldikdə istər şəhərli, istərsə də kəndli olsun öldürürdülər. Urmiyədəki ermənilər qonşuları azəri türklərinin evlərinə girərək talan edir, sonra evlərə od vurub yandırırdılar. Ermənilər hətta qocaya, uşağa, qadına rəhm etmirdilər. Onlar şəhəri top atəşinə tuturdu. Seyid Əhməd Kəsrəvi yazır: «Onlar Urmiyədə 500 evə od vurub yandırdı, kişi, qadın, uşaqları öldürürdülər. Belə zülm və vəhşilik heç bir əsrdə eşidilməmiş və heç bir qanunda görünməmişdi». (244a).





Bu vaxt Urmiyədə 150 min əhali yaşayırdı. Ermənilər təkcə bir gecənin içində 1500 nəfər azərbaycanlı müsəlman öldürdülər. Bir sözlə, Osmanlı Ordusu Urmiyəyə gələnə qədər ermənilər 10 min nəfərdən artıq günahsız camaatı qətlə yetirmişdilər. Ondan sonra ermənilər ultimatum adlı məktub yayırlar. Həmin ultimatumda deyilir: «V.Stepanyanın əmri ilə 16 nəfərdən ibarət heyət təşkil edilmiş, müsəlmanların ixtiyarında olan silahlar 48 saat ərzində təhvil verilməlidir. Erməni başçısı Petros Urmiyədə jandarm rəisi vəzifəsində, Qafqazdan qaçmış ermənilərdən İbrahim xan polis rəisi təyin edilmişdir. Verilmiş 48 saat möhlət qurtardıqdan sonra ermənilər silah axtarmaq adı ilə müsəlman Azərbaycan türklərinin evlərinə girib talan edirdilər. Onlar ev sahiblərini öz evlərindəcə öldürürdülər. Talandan sonra ermənilər evlərə od vurub yandırırdılar. Seyid Əhməd Kəsrəvi yazır: «1918-ci ilin martında ilin axır çərşənbə günü şəhər əhalisi bir tərəfdən ərzaq qıtlığından korluq çəkir, digər tərəfdən qorxu içərisində evlərində oturduqları yerdə, ermənilər qapıları sındırıb, evlərə girib kiçik qız uşaqlarını zorlayır, sonra onlarla bərabər kişi, qadınları öldürürdülər. Evlərindən qaçmağa müvəffəq olanları isə küçələrdə güllələyirdilər. Belə ki, uşaqlarını qucaqlarına alıb qaçmaq istəyən anaların ahnaləsi, qışqırığı göyə qalxmışdı. Onlar hətta, çox vaxt uşaqlarını qana boyanmış vəziyyətdə görürdülər. Bu dəhşətli ha-

disələri, vəhşilikləri insan artıq şərh edə bilmir.

Ermənilər müsəlman azərbaycanlı türklərinin evlərini talan etmək üçün arvadlarını özləri ilə bərabər gətirmişdilər. Evlər, küçələr müsəlman azəri türklərinin meyitləri ilə dolu idi. Diri qalmış azəri türk qadınlarının həzin ağlamaq səsləri hər tərəfdə eşidilirdi. İlin axır çərşənbəsi müsəlman Azərbaycan türkləri üçün belə dəhşətli, kədərli keçdi. Bu kütləvi qırğında 10 min nəfərə yaxın müsəlman Azərbaycan türkü qətlə yetirildi. Seyid Əhməd Kəsrəvi yazır: «Çoxlu adlı-sanlı seyid və alimləri öldürdülər, bir sözlə, əhalinin illərlə topladığı mal-dövlət talan edildi. 10 min nəfər əhali qanına qəltan edildi. Öz evlərində öldürülən məşhur əmmaməli mollalardan Molla Əliqulunu qeyd etmək olar. Ermənilər Molla Əliqulunu iki oğlu – Mirzə Mahmud və Mirzə Abdulla ilə birlikdə, həmçinin Molla Əliqulunun gəlini, yəni, Mirzə Mahmudun arvadını da, ərinin cənazəsi üstündə öldürdülər. Bundan əlavə, məhəllə sədrülüləması şəhid Əli, Hacı Mirələsgər, Hacı Mirböyükağa, Urmiyə siqqətülislami Ağamirzə Sadiq, müctəhid Ağamirzə İbrahimi qətlə yetirdilər. Hacı Molla İsmayılın başını qulaqdan qulağa kəsdilər. Cəlaliyyə məktəbinin müdiri rovzəxan Ağa Mircəlal, «Qoca nökər» kimi məşhur olmuş rovzəxan molla Əli, Yurdşahili rovzəxan Mirəhməd də öldürüldü. Molla Seyfulla adlı bir nəfər Urmiyədə yaşayırdı. O, həmişə deyirmiş: «Əgər ermənilər mənim evimə daxil olsalar, özüm ölməmiş, onlardan iki nəfəri öldürməliyəm. Təsadüfən elə də oldu. Elə həmin gün ermənilər onun evinə daxil oldular, Molla Seyfulla öz tapançası ilə onları ikisini öldürür, sonra isə özü şəhid olur.

Müsəlman azərbaycanlı türklərindən evləri talan edilmiş və sağ qalanlar hökumət binasına toplaşmışdılar. Onların vəziyyəti çox acınacaqlı idi. Qadınları kiçik bir həyətə, kişiləri isə digər həyətə toplamışdılar. Qadınlar və kişilər ac halda ağlayıb zarıyırdılar. Onların sayı 800 nəfər idi. Kəsrəvi yazır: «Onların fəlakətli vəziyyəti və aclığı çox təəssüfləndirici idi. Halbuki, onların hamısı hörmətli adamlar idi. Bazar yox idi ki, çörək ala bilsinlər, evlərində isə heç bir şey qalmamışdı. Hamısını ermənilər talan etmişdi. Digər tərəfdən, bir adamın belə cürəti yox idi ki, evdən bayıra qədəm basıb, çörək və ərzaq əldə edə bilsin. Nəhayət, min bir zəhmətlə iki-üç pud un tapıb, çörək bişirib onların arasında bölüşdürdülər. Belə bir vəziyyətdə qadınların bir neçəsi uşaq doğdu.





Belə bir ağır şəraitdə, əhali aclıq çəkdiyi bir vaxtda Təbriz, Urmiyə və Salmasda vəba xəstəliyi yayılmışdı. Bir dəstə adam vəba xəstəliyinə tutularaq öldü. Urmiyədə bir az adam qalmışdı. Lakin elə gün olmurdu ki, bir neçə kişi və qadın ölməmiş olsun. Bədbəxt əhalinin yeganə çarəsi qalmışdı ki, gecə qaranlıqda öz arvad-uşaqlarının əllərindən tutub, qar və soyuqda ac-çılpaq halda çöllərə, biyabanlara üz tutsunlar. Əlbəttə, bunu bacara bilməyənlər üçün şəhərdən qaçmaq çox çətin idi. Erməni daşnakı, Zəngəzurda minlərlə azərbaycanlı türkünün qatili Andronik hələ Birinci Dünya müharibəsi başlarkən ermənilərdən ibarət «könüllü» dəstələr yaradıb ruslarla birlikdə osmanlılara qarşı vuruşurdu. 1918-ci ilin mayın 28-də Ermənistan Respublikası təşkil olunduqdan sonra Andronik 5 min nəfərlik silahlı erməni dəstəsi ilə Xoy şəhərinə hücuma hazırlaşırdı. Bu xəbər Xoy əhalisini çox narahat etmişdi. Şəhərin ətraf sakinləri şəhərə pənah gətirmişdi. Xoyda evlər, məscidlər, küçələr adamlarla dolu idi. Andronikin ordusu Səidabad ətrafına çatır. Bundan əlavə Xoy şəhərində belə bir xəbər yayılmışdı ki, ermənilər Ərzincan və Trabzonda müsəlmanların ətindən qovurma və qiymə bişirib özlərinə yedirtmişlər. Onlar qadınların namusuna təcavüz etmişdilər.

1918-ci il iyunun 24-də Andronik başda olmaqla ermənilərin silahlı qüvvələri Xoy şəhərini mühasirəyə aldılar. Şəhər sakinləri olan kişilər tüfəng əldə edərək, özlərini müdafiə etməyə qalxırdılar. Qadın və uşaqlar şəhərin müdafiəçilərinə şərbət və ərzaq aparırdı. Andronikin başçılıq etdiyi hərbçi ermənilərin toplardan atdığı atəş nəticəsində bir neçə

ev dağıldı, bir evə mərmi düşdü. İki nəfər öldü. Ölənlərin sayı 15 nəfərə çatdı. Ölənlər arasında mücahidlərdən Hacı Murtuza Əttar, Mirəsədullanın oğlu Mirhəbib var idi. Bu vaxt osmanlılar Xoy əhalisinin köməyinə çatır və Andronikin ordusunu geri çəkilməyə məcbur edirlər. Lakin, ruslara arxalanan daşnaklar yenə vuruşur, ermənilərin hərbi başçısı Petros topxana və hərbi dəstələri ilə Urmiyədən Salmasa gəlir. Neçə gün şiddətli döyüş gedir. Ermənilər və assurilər Salmasda qələbə çalırlar və Urmiyəyə qayıdırlar. Müsəlman Azərbaycan türklərinin evlərini qarət edir və öz mal-qaralarını müsəlman azəri türklərinin əkin yerlərinə buraxırlar. Urmiyədə bir neçə dükan açıq idi, onlar da bağlanır. Yenə şəhərdə adam öldürmək yayılır. Andronik ordusu yenidən Xoy şəhərinə hücum edir. O, çalışırdı Xoy şəhərini ələ keçirib, İranda kiçik Ermənistan dövləti yaradıb və Ermənistan Respublikası ərazisinə birləşdirsin. Bu vaxt osmanlıların Xoyda olan sərkərdəsi tələb etdi ki, Xoy şəhər tüfəngliləri onlarla birləşib, ermənilərin Xoy şəhərinə daxil olmasına imkan verməsinlər. Evoğlu yaxınlığında ermənilərlə döyüş başlayır. Sayca az olan müsəlman azərbaycanlı türkləri müqavimət göstərə bilmir və özlərini Xoy şəhərinə çatdırır. Xoy şəhərinin əhalisi ermənilərin şəhərə hücum edəcəyindən vahimələnərək əl-ayağa düşürlər. Bir çox varlı adamlar Xoy şəhərini tərk edib, Təbrizə doğru getdi. Lakin Xoy şəhərinin qeyrətli oğulları dayanıb, şəhəri ermənilərdən müdafiə etməyə başladılar. Onlar gecə vaxtı məscidlərdən birinə toplaşıb, hərbi komissiya yaratdılar. Şəhərin müdafiəsi hərbi komissiyaya tapşırıldı. Həmin gecə hərbi komissiya tüfənglilər dəstəsi təşkil edib, şəhər darvazalarını bağlatdırıb möhkəmləndirir, oralarda gözətçilər qoyub döyüşə hazırlaşırlar. Səhəri gün çıxan vaxtı qəflətən erməni hərbi dəstələri göründü. Onlar Xoy şəhərinin 300 metrliyinə gəlib çıxır. Ermənilər özləri ilə xeyli top və s. silah gətirmişdilər. Xoy tüfənglilərinin çoxu müharibə görmədikləri halda, çox qeyrət və namusla vuruşurdular. Ermənilər çalışırdılar ki, şəhərin ətra-





fını tutsunlar. Günorta çağının yarısına qədər şəhər ətrafının yarısını tuturlar. Xoylular cəsarətlə öz şəhərlərini müdafiə edirdilər. Onlar bu səngərdən o səngərə keçib döyüşürdülər. Qadınlar da kişilərə qarışıb, onlara köməklik edirdilər. Və döyüşən azərbaycanlı müsəlman türklərinə su, şərbət, ərzaq gətirir və bu da kişilərin döyüş cəsarətini artırırdı. Avacıq atlıları da gəlib Xoy şəhər müdafiəçilərinə kömək edirdilər. Bu vaxt Xoy əhalisindən iki nəfəri böyük qəhrəmanlıq etdilər. Onlardan birinin adı Xəlil idi. O, məşrutə hərəkatının mücahidlərindən biri idi. Xoylular şəhər darvazasının üstündə vuruşarkən görürlər ki, üç erməni osmanlı əsgəri geyimində osmanlı türkcəsində danışırlar. Onlar özlərini osmanlı əsgərləri kimi qələmə verib qeyd etdilər ki, darvazaları açın, arxadan Osmanlı ordusu gəlir. Əhali Osmanlı ordusunun gəlməsini eşidərkən çox sevindilər. İstəyirlər ki, şəhər darvazasını onların üzlərinə açsınlar. Uzaqgörən adamlar onların bu işlərinə mane oldular. Yuxarıda adını qeyd etdiyimiz Xəlil könüllü surətdə ip ilə divarı aşağı enib, həmin üç nəfəri tanımaq istəyir. O, aşağı düşüb onları gördükdə tanıyır, ermənilərin əynində hazır əbalar da var idi. Xəlil başa düşür ki, onlar osmanlı əsgəri paltarını geymiş ermənilərdir. Xəlil onların üçünü də qucaqlayıb qışqırdı: «Bunlar düşməndirlər. Bunlara atəş açın. Qoy mən də bunlarla birlikdə ölüm». Onun səsini eşitcək yuxarıdakı xoylular atəş açdılar. Həmin üç nəfər ermənini vurdular. Çox maraqlıdır ki, Xəlilə güllə dəymir. Lakin o, xəndəyə yıxıldı. Onu ip ilə çəkib darvazanın arxasına gətirdilər. Digər qəhrəmanlıq göstərən şəxsin adı Məmi idi. O çoban idi. Fətəli şah dövründən qalma bir topu Xoy anbarından çıxarıb qalanın yuxarısına çıxardır, üstəlik də onu düzəldib, mərmi əvəzinə içərisinə zəncir doldurub atəş açdı. Zəncirlərlə ermənilərə ağır zərbə endirdi.

Kəsrəvi yazır: «Bu bir nümunədir. Belə bir hadisələrdə əgər başbilən adam olub əhalini döyüşə səfərbər etsə, onlar neçə belə qəhrəmanlıqlar göstərə bilərlər». Bu vaxt Salmas

tərəfdən Osmanlı ordusu görünməyə başlayır. Osmanlı ordusunun gəlməsini eşidən Xoy şəhərinin əhalisi ürəklənib xeyli qəhrəmanlıq və şücaət göstərdilər. Başda Andronik olmaqla ermənilər məğlub olmuş halda, gəldikləri yol ilə geri qayıtdılar. Həqiqətən tarixdə xoyluların bu qəhrəmanlığı yüksək qiymətləndirilməlidir. Çünki onlar bu qəhrəmanlıqları ilə azərbaycanlı və osmanlı türklərinin qəddar düşməni olan Andronikin planlarını heçə endirdilər. Xoyluların bu qələbəsi ermənilərin Urmiyədəki hərbi planına sarsıdıcı zərbə endirdi. Məsələ bundan ibarət idi ki, Xoyda azərbaycanlı və osmanlı türkləri qələbə çaldıqları vaxt ermənilər və assurilər Urmiyədə digər bir planı həyata keçirmək istəyirdilər. Belə ki, ruslar «Çernozoyev» adlı buxar ilə işləyən bir gəmini Şahi gölündə işə salmışdılar.

Gəmidə top da var idi. Bu gəmi assurilərin əlində idi. 1918-ci il iyun ayının 24-də assuri və ermənilərdən ibarət 180 nəfər yüksək hərbi təlim görmüş adamlardan seçib, həmin buxar gəmisində, digər dəstəni isə yelkənli gəmidə yerləşdirib, onlara bir top da verib Şərəfxanaya göndərmişdilər. Onlar qəflətən sahilə çıxıb həmin ərazini işğal etməli idilər. Lakin onlar sahilə çıxarkən osmanlı və azərbaycanlı türklərinin müqavimətinə rast gəldilər. Həmin sahilə çıxanları öldürürlər. Beləliklə, ermənilərin Urmiyə planları da puça çıxdı. Bu qələbənin sədası assurilərə çatdıqda, onlar Urmiyə əhalisindən intiqam alırlar. Hər gün yüzlərlə adamı qətlə yetirirdilər. Bu bəhanə ilə ki, siz azərbaycanlı türkləri osmanlı türklərini buraya dəvət etmişsiniz. Məhz bunu bəhanə edən assurilər gündə 100-200 azərbaycanlı türkünü vəhşicəsinə öldürürdülər. Seyid Əhməd Kəsrəvi yazır: «O adamlar ki, ilk gündən səhlənkarlıq edib, özlərini düşmən qucağına atmışdı, indi onlar öz cəzalarını alırdılar və işgəncələrdən yaxa qurtara bilmirdilər. Əgər ilk günlər 100 nəfər şəhid verirdilərsə, indi isə yüz minlərlə adam şəhid verirdi. Lakin, hələ də canlarını qurtara bilmirdilər».

1918-ci il iyunun 26-da günahsız qoca Xalxallı Mir-





məhəmməd Pişnəmazın öz evində başını kəsib tikə-tikə etdilər. Ermənilər Urmiyədə belə vəhşiliklər törətdilər. Əhali 6 ay əzab-əziyyət çəkdikdən sonra Osmanlı ordusunun gəlməsi ilə özlərini azad hiss edib, qadınlar və kişilər şəhərdən kənara çıxıb, Osmanlı ordusunu qarşıladılar. Pişvaza çıxanların əksəriyyəti yarımcan idi. Özləri də bilmirdilər ki, ağlasınlar və ya sevinsinlər.

Əlbəttə, rus və ingilislərin əli ilə başda Andronik olmaqla, ermənilər Urmiyədə, Xoyda, Salmasda və Təbrizdə dəhşətli faciələr törətdilər. Bir neçə il Salmas və Urmiyənin kəndləri boş idi. Bütün bu faciələri rusların və İngiltərənin köməyilə ermənilər, assurilər törətmişdilər. Daşnaklar İranın inkişaf tarixinin istiqamətini dəyişmək, milli İran vəhdətinin icab etdirdiyi Şərq istiqamətini Qərbə və Şimala çevirmək sayəsində, İran ilə türk dünyası arasında yeni qanlar axıtmaq yolu ilə Avropa dövlətlərinin himayəsinə arxalanaraq «Böyük Ermənistanı» yoxdan, tarixlərin və əsrlərin basdırdığı məzarlardan çıxarmaq istəyirdilər. Bir sözlə, bütün bu planlar «Böyük Ermənistan» yaratmaq, xalis erməni millətindən olanları həmin xəyali «Böyük Ermənistan» ərazisində yerləşdirmək, məskunlaşdırmaq məqsədi güdürdü. Və indi də daşnaklar həmin siyasəti davam etdirirlər. (244a).

## Mir Cəfər Pişəvərinin (Cavadzadə Xalxali) həyat və fəaliyyətindən (1893-1947)

Azərbaycan xalqının sədaqətli və fədakar oğlu Mir Cəfər Pişəvərinin (Cavadzadə Xalxali) həyat və fəaliyyəti İran zəhmətkeş kütlələrinin irtica və imperializm əleyhinə mübarizəsi tarixi ilə, İran Kommunist Partiyasının şanlı tarixi ilə sıx bağlı olmuşdur. O, iranlı fəhlələr içərisində boya-başa çataraq yetkinləşmiş, İran Kommunist Partiyası sıralarında inqilabi mübarizə məktəbi keçmiş, ölkənin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə mətinləşərək, təcrübəli rəhbər, partiya və dövlət xadimliyinə qədər yüksəlmişdir.



Mir Cəfər Seyid Cavad oğlu Cavadzadə Xalxali 1893-cü ildə Cənubi Azərbaycanın Xalxal mahalındakı Zivə (Zaviyəsadat) kəndində yoxsul kəndli ailəsində anadan olmuş və ilk təhsilini həmin kənddə almışdır. Məlum olduğu kimi, XIX əsrin sonu, XX əsrin əvvəllərində yarımmüstəmləkə vəziyyətinə salınmış İranda zəhmətkeş kütlələr çox ağır və dözülməz həyat şəraitinə məruz qalmışdılar. İstibdad üsuli-idarəsinin soyğunçuluğuna, feodal istismarı və imperializm təzyiqinə dözə bilməyən yoxsul kəndlilər iş axtarmaq, çörək pulu qazanmaq məqsədilə şəhərlərə kütləvi surətdə axışıb gəlirdilər.

Sənaye cəhətcə az-çox inkişaf etmiş ölkələr, xüsusilə özünün böyük neft sənayesi ilə məşhur olan və işçi qüvvəsinə böyük ehtiyac hiss edən Bakı, həmin yoxsul kəndlilərin diqqətini daha çox cəlb edirdi. Kiçik Mir Cəfərin mənsub olduğu ailə də məhz belə bir şəraitdə xanlar və bəylər tərəfindən soyulub talandıqdan sonra, 1905-ci ildə Bakıya mühacirət etmişdir. Mir Cəfər həmin tarixdən başlayaraq, 1913-cü ilədək ilk təhsilini Abşeron yarımadasındakı Bülbülə kəndində davam etdirmiş, eyni zamanda əmək fəaliyyətinə də burada başlamışdır. 1913-cü ilin ortalarında M.C.Pişəvəri Abşeron yarımadasındakı Xırdalan kəndində məktəb təşkil etmiş və 1917-ci ilədək orada dərs demişdir. O, öz həyatının həmin dövrlərindən bəhs edərkən yazmışdır: «Məktəbi bitirdikdən sonra müəllim oldum. Təhsil etməyə, kitab oxumağa olan böyük həvəsim sayəsində iyirmi yaşa çatanadək bütün boş vaxtlarımı kitabxanalarda keçirərdim. Tarix, ədəbiyyat və fəlsəfə sahələrinə aid kitablara daha çox meyl göstərərdim. Belə bir zamanda birinci dünya müharibəsi və onun ardınca böyük Rusiya inqilabı baş verdi».





M.C.Pişəvərinin siyasi fəaliyyəti də məhz həmin dövrdən başlamışdır. Öz sözü ilə desək, ictimai inqilab okeanı dövrün digər gəncləri kimi onu da yerindən tərpədərək, siyasi mübarizə meydanına çıxarmışdır. 1917-ci ilin əvvəllərində «Açıq söz» qəzetində «Mir Cəfər Seyid Cavadzadə» imzası ilə dərc olunmuş məlumatdan görünür ki, M.C.Pişəvəri 1917-ci ildə Rusiyada baş vermiş fevral inqilabı dövründə kütləvi hərəkatda iştirak etmişdir.

Bu dövrdə o, İran Sosial Demokrat Partiyasının Qafqazdakı təşkilatlarının iclaslarında iştirak edir və fəaliyyət göstərirdi. M.C.Pişəvəri həmin dövrdəki fəaliyyəti haqqında belə yazmışdır: «Mən Rusiyada yaşayan millətlərin azadlıq mübarizəsində yaxından iştirak etmiş İran gənclərindən idim. Məni bu şərəfli fəaliyyətə cəlb edən amil azadlıq uğrunda mübarizə işinə böyük rəğbətdən başqa, bir də mənsub olduğum millət haqqındakı düşüncələrim olmuşdur.

1918-ci ilin yanvar ayında M.C.Pişəvəri İran Demokrat Partiyası Bakı təşkilatının orqanı olan «Azərbaycan cüzi layənfəkki İran» qəzetində fəaliyyətə başlayır. M.C.Pişəvəri qəzetin ilk saylarındakı məqalələrində İranın mütərəqqi ictimai qüvvələrinin fəaliyyətindən, Böyük Oktyabr sosialist inqilabının İrana göstərdiyi təsirdən, ölkədə tərəqqipərvər təşkilatların fəaliyyəti üçün yaranmış imkanlardan söz açır. O, daha sonra böyük Leninin yaratdığı ilk fəhlə-kəndli hökumətinin bütün gizli müqavilələri ləğv etməsini, İngiltərə hökumətinin İranda törətdiyi fitnəkarlıq və cinayətkarlıqlarını nəzərə çatdıraraq, yeni şəraitdə irtica və imperializm əleyhinə mübarizə üçün bütün İran xalqlarını ittihad və ittifaqa dəvət etmişdir.

Məlumdur ki, «Azərbaycan cüzi layənfəkki İran» qəzetinin dar çərçivəsi M.C.Pişəvərini heç də uzun müddət təmin edə bilməzdi. O, özü üçün daha geniş fəaliyyət meydanı tapmalı idi. Buna görə də M.C.Pişəvəri 1919-cu ilin ortalarında Məhəmməd Fətullazadə, Yusif, Yəqub və Bəhram Ağazadənin zəmanəti ilə İran Ədalət Partiyasının Bakı təşkilatı sı-

ralarına daxil olur. Bu dövrdə o, tərəqqipərvər iranlılar tərəfindən Bakıda açılmış «İttihad» mədrəsəsində müəllimlik edir, Ədalət Partiyasının bayrağı altında İran xalqlarının azadlığı yolunda gərgin mübarizə aparır. O, Azərbaycanın görkəmli inqilabçıları, o cümlədən Nəriman Nərimanovla əməkdaşlıq edir.

M.C.Pişəvərinin rəsmən partiya sıralarına qəbul edilməsi ilə əlaqədar olaraq, İran Ədalət Partiyasının Mərkəzi Komitəsi onu partiyanın orqanı «Hürriyyət» qəzetinin məsul redaktoru təyin edir. O, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinədək həmin işi müvəffəqiyyətlə davam etdirmişdir. Pişəvəri qəzetin nəşr edildiyi dövrdəki ağır siyasi şərait haqqında yazmışdır: «Hürriyyət» nəşrə başlayanda vəziyyət elə müdhiş, elə qorxulu idi ki, İngiltərə komandanlığının təqibindən idarəmizin ünvanını belə aşkar surətdə yaza bilmirdik. Lakin, biz də tutduğumuz yolda mətanət göstərdik. Lazım gəldikdə düşmənlərimizə cavab verdik».

Qeyd olunan dövrdə M.C.Pişəvəri İranda çürümüş şahlıq üsul-idarəsini, hakim dairələrin satqınlığını, imperialistlərin İrandakı müstəmləkəçilik siyasətini kəskin tənqid atəşinə tutmuş və İran xalqlarının törənmiş fəlakətdən xilas olmasının yeganə yolunu ictimai inqilabda görmüşdür. Məsələn, o, «İngiltərə və İran» sərlövhəli məqaləsində yazmışdır: «...Nə qədər ki, İran milləti əlinə silah alıb, öz hüquq və istiqlaliyyətlərinin düşməni olan İngiltərəni məmləkətlərindən ixrac etməmişlər, İrana müstəqil bir dövlət demək mümkün deyildir. Məhz bu nəzərlə biz, İran xalqını inqilaba dəvət edirik».

Həmin dövrdə M.C.Pişəvəri Böyük Oktyabr sosialist inqilabının yorulmaz təbliğatçısı kimi çıxış edərək, Rusiya inqilabını müdafiə etmək yolunda var qüvvəsi ilə çalışmışdır. O, Rusiyadakı inqilabi hadisələr haqqında belə yazırdı: «Rusiya inqilabı kommunizm dövrünü yaxşılaşdırmaqdan ötrü hər bir maneəni dağıdır, hər bir səddi ortalıqdan götürür. Onun qarşısını almaq istəyən qüvvələr isə gündən-günə





gücdən düşür, günü-gündən azalıb, məhv olub gedirlər... İndi qaranlıqdan usanmış, iyrənmiş, nifrətlənmiş bəşəriyyət artıq işıqlı bir aləmə keçmək istəyir... Dünyanı yeniləşdirib, ziyalılandıran əlbəttə ki, Qərbin qaranlıq, buludlu səması deyil, Şərqin parlaq günəşi altında yaşayanlar olacaqdır... Moskvada işıqlanmış məşəl hər bir tərəfə işıq salır».

Böyük Oktyabr inqilabının təsiri nəticəsində bir gün İranda da azadlıq günəşinin doğacağına ümid bəsləyən M.C.Pişəvəri proletariatı təhqir edənlərə, aldadıcı islahatlar yolu ilə kütlələrin gözündən pərdə asmağa çalışanlara xitabən deyirdi: «Vətənimizdə kütlələrin ən kiçik çıxışları belə böyük bir inqilabın bəşarətidir. İranın mövcud üsuli-idarəsi əsr və zəmanənin tələbinə mütabiq deyildir. Qoy İranda nəşr olunan İngiltərə qəzetləri bizi paltarı cırıq, ayaqyalın adlandırsınlar, onunla biz iftixar edirik. Gələcəkdə onlara paltarımızın da cırılmasına səbəbin kim tərəfindən olduğunu məlum edərik. Əgər onlar dünyanı bürümüş inqilab işığını görməyirlərsə, görənlərdən soruşsunlar...». Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi mübariz Mir Cəfəri artıq dərəcədə sevindirmiş və onun inqilabi ruhiyyəsini daha da yüksəltmişdir.

Bu dövrdə M.C.Pişəvəri Azərbaycan dilində «Kommunist» qəzetinin nəşr olunması işinə müəyyən müddət ərzində fəal yardım göstərir. Sonra o, yaranmış vəziyyətlə əlaqədar olaraq, vətənə qayıtmağa tələsir. Məlum olduğu kimi, o vaxt İranın hər yerində, xüsusilə Azərbaycan, Gilan və Xorasan əyalətlərinrdə demokratik hərəkat genişlənməkdə idi. Azadlıq yolunda mübarizə edən qüvvələrin təzyiqi nəticəsində işğalçı ingilis qoşunları Qəzvinə qədər geri çəkilmiş və Cəngəlilər Rəşt şəhərini tutmuşdular. Belə bir şəraitdə İran Ədalət Partiyası ölkədə daxili irticaçılar və müdaxiləçi imperialistlər əleyhinə, mənfur Vüsuqüddövlə müqaviləsinin ləğv olunması yolunda vahid mübarizə cəbhəsi yaratmağa çalışırdı. Məhz bu məqsədlə partiya Cəngəlilər hərəkatının başçıları ilə əlaqə yaradır. Mirzə Kiçik xanla danışıq apar-

maq üçün 1920-ci il may ayının 23-də Rəştə M.C.Pişəvərinin başçılığı ilə xüsusi nümayəndə heyəti göndərilir. Heyətin apardığı danışıqlar müvəffəqiyyətlə nəticələnir və 1920-ci il iyun ayının 4-də Gilan Respublikası elan olunur. M.C.Pişəvəri isə Gilan Respublikasının xarici işlər naziri təyin edilir. O, həyatının həmin dövrlərindən bəhs edərək yazmışdır: «...Vaxtı tələf etmədən oraya (Gilana) tələsdim. Orada qəzet çıxarır, nitq edir, milli məqsədləri irəlilətmək xatirinə ən çətin və məsuliyyətli işləri öhdəmə götürürdüm. O vaxt mən gənc idim. İş, fəaliyyət və inam məni irəliyə çəkir, tanıtdırır, öz istəyimdən asılı olmayaraq, azadlıq mübarizləri sıralarında mənim üçün nüfuz və etibar qazandırırdı. Bu isə məni daha da təşviq edirdi. Hazırda bir çoxları İran Xalq Partiyası sıralarına daxil olmuş səmimi dostlarımla birlikdə, o vaxt kənddə, şəhərdə, cəbhədə, top atəşləri altında irəliləyir və döyüşürdük. Ruhumuzu qidalandıran yalnız inam və əqidə idi. Ələ qələm aldıqda və yaxud hansı addımı atmaq istədikdə, həmişə mənafeyi uğrunda mübarizə etdiyim sinif gözümün önündə canlanırdı...».

Bu dövrdə bütün İranda, xüsusilə Azərbaycan, Gilan və Xorasan əyalətlərində demokratik hərəkatın güclənməsi İran Ədalət Partiyasının ölkə daxilində o vaxtadək gizli şəraitdə fəaliyyət göstərməyə məcbur qalmış təşkilatlar üçün əlverişli şərait yaratdı. Məlum olduğu kimi bu dövrdə ölkənin feodal, ruhani, burjua və xırda burjua siniflərinə mənsub bir sıra siyasi təşkilatları, o cümlədən «Etidaliyun», «İttihaditərəqqi», «İttihadi-islam», «Demokrati-ziddi-təşkili» kimi partiya və cəmiyyətlər İranın siyasi və ictimai həyatında əsaslı dəyişikliklər yaratmaq işində aciz olduqlarını artıq göstərmişdilər. Belə bir şəraitdə İrandakı mübariz qüvvələrin vahid mərkəzini, irtica və imperializm əleyhinə mübarizədə onların daha etibarlı və daha nüfuzlu qərargahını yaratmaq lazım idi. Bu məqsədə yalnız İran Kommunist Partiyasının yaradılması ilə nail olmaq olardı. Həmin zərurəti çox düzgün surətdə dərk etmiş İran Ədalət Partiyasının rəh-





bərliyi 1920-ci il may ayından etibarən geniş hazırlıq tədbirlərinə başlayır. M.C.Pişəvəri bu işdə xüsusilə böyük fəallıq göstərir. Pişəvəri 23 nəfərlik heyətlə birlikdə Ənzəli şəhərinə gedərək, İran Kommunst Partiyasının birinci qurultayını keçirmək üçün ilk hazırlıq işləri aparır. Nəhayət, 1920-ci il iyun ayının 22-də Ənzəlidə İran Kommunist Partiyasının birinci qurultayı açılır. Qurultayın nümayəndələri Ağazadəni, Əlixanovu, Sultanzadəni, Mirbəşir Qasımovu və M.C.Pişəvərini qurultayın rəyasət heyəti üzvlüyünə seçirlər. M.C.Pişəvəri qurultayda İran Ədalət Partiyasının Xarici bürosunun fəaliyyəti haqqında məruzə edir. Partiyanın rəhbər orqanlarına keçirilən seçkilər nəticəsində M.C.Pişəvəri də İran Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvlüyünə seçilir və təbliğat üzrə Mərkəzi Komitənin katibi təyin edilir. İran Kommunist Partiyasının Təbriz şəhər təşkilatının etibarnaməsi əsasında M.C.Pişəvəri 1921-ci il iyun ayının 22-dən iyul ayının 12-dək Moskvada keçirilmiş III Kommunist İnternasionalının üçüncü konqresində rəsmi nümayəndə sifəti ilə iştirak edir. Konqres öz işini qurtardıqdan sonra o, Tehrana qayıdaraq İran Kommunist Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyəti üzvü kimi fəaliyyət göstərir və partiyanın nəzdində təşkil edilmiş Həmkarlar İttifaqının mərkəzi orqanı olan «Həqiqət» qəzetini nəşr edir. M.C.Pişəvəri öz ictimai fəaliyyətinin həmin dövrləri haqqında belə yazmışdır: «Cəngəl hərəkatı sona çatar-çatmaz biz Tehranda fəal siyasi təşkilatlardan əlavə, yeddi min nəfərdən artıq üzvü olan Həmkarlar İttifaqının Mərkəzi Şurasını da yaratmışdıq. Həmkarlar İttifaqının Mərkəzi Şurası «Həqiqət» qəzetindən ibarət orqanını yarada bilmişdi. O günkü azadixah yoldaşlar tərəfindən yazılmış bir neçə məqalə istisna olmaq şərti ilə, qeyd olunan qəzetin bütün baş məqalələri mənim qələmim ilə yazılmışdır...

Biz «Həqiqət» qəzetini nəşr etdiyimiz zaman məqalə yazan, elmi mövzular haqqında rəy söyləyən adamlar olduqca az idi. Sıralarımızda elmlər doktoru, ali təhsilli adamlar,

diplom sahibləri yox idi».

Həmin dövrdə qeyd olunan bütün çətinliklərə baxmayaraq, M.C.Pişəvəri yorulmaq bilmədən çalışır, bütün qüvvəsini və zəkasını İran zəhmətkeşlərinin irtica və imperializm əsarətindən xilas olunması kimi böyük işə həsr edir. Müvəqqəti məğlubiyyətlər və Rza xan diktaturası bu mətin mübarizi məyus etmir. O, Gilan bataqlıqlarında, Mazandaran meşələrində, Təbriz küçələrində axıdılmış al qanları İran xalqlarının mübarizəsi tarixində açılmış yeni, şanlı səhifələr kimi qiymətləndirir və kütlələrin qəti qələbəsinə dərin inam bəsləyirdi.

M.C.Pişəvəri ölkədə hökm sürən mütləqiyyət əleyhinə mübarizə aparırdı. O, İranda istibdad və diktatorluğun məğlubiyyətinə qədər həmin şərəfli mübarizəni bir an belə dayandırmamışdır. M.C.Pişəvəri ölkədə baş qaldırmış yeni diktatorluğun və gündən-günə şiddətlənən istibdad üsuli-idarəsinin özbaşınalığından bəhs edərək yazmışdır: «O gün bizim vəziyyətimiz çətin və ağır idi. Lakin İran zəhmətkeş sinfinin adlı-sanlı nümayəndələrinin birliyi sayəsində keçmiş şah əleyhinə hücumlarımız gündən-günə daha şiddətli, daha dağıdıcı və daha möhkəm olurdu. Bu iftixarlı mübarizə doqquz ilə qədər davam etmişdir. İran irticasının bir-birinin ardınca qalib gəlib, qəzəblə işğal etdiyi bütün səngərlərdə öz sinəmizi qalxan etmişdik».

1922-ci ildə Tehranda polis təqibinin şiddətlənməsi və «Həqiqət» qəzetinin qapanması ilə əlaqədar, M.C.Pişəvəri İran Kommunist Partiyası Mərkəzi Komitəsinin Cənub Bürosunun məsul katibi təyin edilir və 1923-cü ilədək İsfahan şəhərində fəaliyyət göstərir. Lakin İran polisi orada da Pişəvəriyə açıq fəaliyyət göstərmək imkanı vermir. Güclü təqiblər bütün partiya üzvləri kimi, M.C.Pişəvərini də gizli şəraitə keçməyə məcbur edir. O, həmin dövrü təsvir edərək yazmışdır: «Yeni diktatorun meydana atılması ilə bizim döyüş cərəyanımız başqa yola düşdü. Rəhmsiz edamlar, həbs və sürgünlərin başlanması ilə əlaqədər olaraq, biz taktikamızı





dəyişmək məcburiyyətində qaldıq. Həbslər və basqınlar yolu ilə gizli fəaliyyət mərkəzimizi dörd dəfə dağıtdılar. Lakin azadlıq yolunun əsgərləri hesab olunan bizlər, öz postlarımızı tərk etmədən beşinci mərkəzi təşkil etdik. Öz mətbuat fəaliyyətimizi Avropaya köçürdük. Bu zaman qəzet və jurnallarımızı polisin İran sərhədlərinə çəkdiyi Çin divarından müxtəlif yollarla keçirərək, ölkənin daxilinə çatdırırdıq. Həmin illərdə gizli surətdə nəşr olunmuş vərəqələr, bəyannamələr, kitab və məcmuələr bizim ictimai həyatımızın və gizli fəaliyyətimizin ən parlaq nümunələrini təşkil edir».

Yuxarıda qeyd olunduğu kimi, həmin ağır şəraitdə İran kommunistlərinin fəaliyyəti tam doqquz il davam etmişdir. M.C.Pişəvəri bu dövrdə ictimai mübarizənin bütün cəbhələrində son imkanadək müqavimət göstərmişdir. Nəhayət, İran polisi tərəfindən 1930-cu ilin dekabr ayında İran Kommunist Partiyasının bir sıra qabaqcıl nümayəndələri ilə birlikdə M.C.Pişəvəri də həbs edildi.

Həmin tarixdən etibarən, onu on bir il müddətində həbsdə saxladılar. Lakin Qəsri-Qacar adlanan dəhşətli zindanın uca divarları və qalın dəmir qapıları mübariz Mir Cəfərin iradəsini qıra bilmədi. O, ən ağır polis təzyiqi və olmazın əzab-işgəncələrə davam gətirib, ən təhlükəli şəraitdə belə mübarizədən geri çəkilmədi. M.C.Pişəvəri öz həyatının həmin dövründən bəhs edərək yazmışdır: ...«Nəhayət, 1930-cu ildə həbsə alındıq. Sayımız çox idi. Yoldaşlarımızın əksəri zindanda böyük müqavimət və mətanət göstərdi. Biz dayandıq, vuruşduq, aclıq elan edərək həftələrlə xörək yemədik, haqq sözlərimizi dedik. Səsimiz həmişə ucalırdı. İran polisi bizimlə hesablaşırdı. 8 il müddətində qəsrdə (Qəsri-Qacar həbsxanasında) bizlərdən başqa siyasi məhbus yox idi. Siyasi polis idarəsinin bütün cəlladlıq dəstgahı tam mənasında bizim əleyhimizə yönəldilmişdi. Bizi hər an məhv etmək istəyirdilər. Ən yaxşı dostlarımızı itirdik. Özümüz də fiziki cəhətdən gücdən düşdük. Lakin əhval-ruhiyyəmiz qüvvətli olduğu üçün mübarizəni davam etdirdik. Nəhayət,

8 ildən sonra 53 nəfəri bizim yanımıza gətirdilər».

Azərbaycan xalqının qəhrəman oğlu, İran Kommunist Partiyasının görkəmli xadimi Tağı Əbülfət oğlu Erani başda olmaqla, 1937-ci ilin aprel ayında əlli üç nəfərin zindana gətirilməsi M.C.Pişəvərini heç də məyus etmədi. O, bu hadisəni İranın tərəqqipərvər qüvvələri daxilində mübarizə əhval-ruhiyyəsinin canlanması rəmzi kimi, kütlələrin siyasi şüur səviyyəsinin yüksəlməsi və İran irticasının acizliyi əlaməti kimi qiymətləndirdi. O, gənc mübarizlərə öz təcrübələrini öyrədir, polisin hiylələrindən danışır, gizli dərs keçir, zindanda necə davranmaq və işləmək yolunu göstərirdi. M.C.Pişəvəri həmin dövrü bu cür xatırlayır: «Səkkiz, doqquz, hətta on il zindanda qalmağımıza baxmayaraq, ruhdan düşmədiyimizi görən bu gənclər ruhlandılar, bizdən mənəvi qida aldılar. İran tarixində qızıl hərflərlə yazılması zəruri olan şücaət və fədakarlıqlar göstərdilər. İran ziyalılarının gözü və çırağı hesab olunan alim və mütəxəssislər yetkin siyasi mübarizlər kimi aclıq elan etdilər, döyüşdülər, döyüldülər, polisin təhqirlərini acı gülüş və istehza ilə qarşıladılar. Böyük qurbanlar onları qorxutmur, əksinə daha da həyəcanlandırdı və cəsarətləndirdi».

Nəhayət, M.C.Pişəvəri 1940-cı ildə qəsr zindanından buraxılır, lakin polis idarəsi onu dərhal Kaşan şəhərinə sürgün edir və orada qısa müddət nəzarət altında saxladıqdan sonra yenidən həbsə alır.

Məlum olduğu kimi, ikinci dünya müharibəsinin başlanması, İranın irticaçı hökumətinin ölkədə alman faşistləri üçün geniş fəaliyyət meydanı yaratması və alman faşizminin İrandakı təxribatçılığı 1941-ci ildə gərgin vəziyyət törətmişdi. İranda yuva salmış alman faşistlərinin təhlükəsini ləğv etmək antifaşist ittifaqı üçün təxirəsalınmaz zərurətə çevrilmişdi. Buna görə də, 1941-ci il avqust ayının 25-də Sovet Ordusu hissələri 1921-ci ildə bağlanmış Sovet-İran müqaviləsinin altıncı maddəsinə əsasən, İrana daxil oldu. İngilis qoşunları isə ölkənin cənub məntəqələrini tutdu. İranın keçmiş şahı Rza xan İngiltərə müstəmləkəçilərinin yardımı ilə ölkədən qaçdı və onun iyirmi illik diktatorluğu sona çatdı. Belə bir şəraitdə bir sıra siyasi məhbuslar kimi, M.C.Pişəvəri də 1941-ci ilin sentyabr ayında Kaşan zindanından buraxılıb Tehrana gəldi. Lakin iyirmi illik terror və təzyiq artıq ölkənin bütün tərəqqipərvər təşkilatlarını dağıtmışdı. M.C.Pişəvərinin dediyi kimi, onlar Süleyman Möhsün İsgəndərinin evinə toplandıqları vaxt İranda təşkilat, mətbuat, cəmiyyət adlanası heç bir şey yox idi. Hətta bir yerə toplaşmaq belə tərəqqipərvər adamlar üçün çox təhlükəli idi.





Qeyd olunan bütün çətinliklərə baxmayaraq, M.C.Pişəvəri öz tükənməz enerjisi ilə yenidən fəaliyyətə başlayır, öz məsləkdaşları və yoldaşları ilə birlikdə İran zəhmətkeşlərinin yeni qərargahını yaratmaq işində fəal iştirak edir. Digər tərəfdən o, jurnalistlik ixtisasını da unutmayıb, «Ajir» qəzetinin nəşri üçün hazırlıq işinə başlayır. Nəhayət, 1943-cü il may ayının 23-də qəzetin ilk nömrəsini İran ictimaiyyətinə təqdim edir. M.C.Pişəvəri həmin nömrədə ölkənin satqın hakim dairələrinin iyrənc təbiətini ifşa edərək, tam şücaətlə və açıq surətdə yazmışdır ki, «Ajir» qəzeti keçmiş diktator hökuməti ilə əməkdaşlıq etmiş təhlükəli siniflərə qarşı inadcıl mübarizə aparmaq yolunu zəşmətkeşlərə öyrətməyə çalışacaqdır. Qeyd etmək lazımdır ki, M.C.Pişəvəri həmin qəzet vasitəsi ilə İranda zəhmətkeşlərin irtica və imperializm əleyhinə mübarizə yolunu işıqlandırmış, faşizm ideologiyasına sarsıdıcı zərbələr endirmişdir.

Məlum olduğu kimi, bu dövrdə İran məclisinin 13-cü dövrəsinin sona çatması ilə əlaqədar olaraq, İran Xalq Partiyasının Mərkəzi Komitəsi İran məclisinin on dördüncü dövrəsinə keçiriləcək seçkilərdə iştirak etməyi, irtica və imperializmə qarşı mübarizədə parlament tribunasından da bir vasitə kimi istifadə olunmasını qərara alır.

Beləliklə, partiya M.C.Pişəvərini də öz sınanmış əsgərlərindən biri kimi məclisə deputatlığa namizəd göstərir. Bu hadisəni ictimai mübarizə meydanında daha bir səngər kimi

qiymətləndirən M.C.Pişəvəri həmin dövrdə belə yazmışdır: «İctimai vəzifələr bizim üçün məqsəd deyil, yalnız bir vasitədir...Otuz il bundan əvvəl başlayıb, şərəflə davam etdirdiyimiz məram və məqsədlərimizin ardıcıllarından bir çoxu bu gün İran məclisinə nümayəndə seçilmişlər. Doktor Rza Radməneş və başqalaları məclisə gedəcəklər. Onlar bizim arzu və istəklərimizi məclis tribunasından xalqa çatdıracaqlar. Biz də müvəffəq olduğumuz təqdirdə şübhəsiz ki, öz vəzifəmizə əməl edəcəyik. Başqa adamlar məclis və onun nümayəndəliyini ayrı cür başa düşürlər. Bizim nəzərimizdə isə ora müəyyən cəbhədən başqa bir şey deyil. Orada da mübarizə, döyüş və fədakarlıq bizim intizarımızdadır...».

İran Xalq Partiyası tərəfindən M.C.Pişəvərinin məclis deputatlığına namizəd göstərilməsi İran irticasını təşvişə saldı. Süheylilər, Tədəyyünlər, general Müqəddəmlər, bir sözlə, bütün mürtəce ünsürlər Təbriz seçki dairəsində Pişəvərinin əleyhinə fəaliyyətə başladılar. Səsləri parçalamaq məqsədilə, iki yüz nəfərdən artıq adamın namizədliyi irəli sürüldü. Lakin bütün bu fırıldaqlara baxmayaraq, Təbrizin mübariz və ayıq zəhmətkeşləri on beş min yeddi yüz səksən səslə M.C.Pişəvərini İran Məclisinə deputat seçdilər. İran irticası bu parlaq qələbə qarşısında yeni hiyləyə əl ataraq, Təbriz deputatlarının mandatlarını təsdiq etmək işini süründürməyə salıb, vaxt qazanmaq hesabına parlamentdə M.C.Pişəvərinin əleyhinə satqın ünsürlərdən ibarət müxalifət düzəltdi.

Beləliklə, İran Şura Məclisinin 1944-cü il iyun ayındakı iclasında M.C.Pişəvərinin deputatlıq mandatı 47 müvafiq səsə qarşı əlli müxalif səslə rədd olundu. M.C.Pişəvəri bu hadisəni İran irticasının şüursuzluğunun yeni təzahürü kimi qiymətləndirərək yazmışdır: «İrticaçılar əlli qərəzli səslə on altı min sadə və pak təbrizlinin rəyini puça çıxarmaqla, şüursuzluq üzündən özlərinin əleyhinə və bizim xeyrimizə böyük bir addım atmışlar».

Həmin hadisədən sonra M.C.Pişəvəri qırx dörd gündəlik qəzeti birləşdirən «Mətbuatın azadlıq cəbhəsi» adlı leqal





təşkilatda öz fəaliyyətini daha da gücləndirir, kütlələri ayıltmaq, onları mənəvi cəhətdən silahlandırmaq yolunda var qüvvə ilə səy göstərir.

Azərbaycan Demokratik Firqəsi 1945-ci ilin sentyabr ayında yarandı. M.C.Pişəvərinin rəhbərlik etdiyi firqə qısa müddət ərzində Azərbaycanın zəhmətkeşlərini və milli qüvvələri öz bayrağı altında toplayaraq, xalq hərəkatına başçılıq etdi.

Azərbaycan Demokrat Firqəsinin 1945-ci il oktyabr ayında keçirilmiş birinci qurultayında M.C.Pişəvəri yekdilliklə firqənin sədri vəzifəsinə seçildi.

Pişəvəri Azərbaycan Demokrat Firqəsinin rəhbərlik etdiyi 12 dekabr 1945-ci il hərəkatının təşkilatçısı olmuşdur. Bu hərəkatın qələbəsi nəticəsində təşkil edilmiş Azərbaycan Milli Məclisi M.C.Pişəvərini Azərbaycan milli hökumətinin baş naziri təyin etdi. İran çərçivəsi daxilində Azərbaycan milli muxtariyyət aldı, Azərbaycan dili rəsmi dil oldu, məktəblərdə dərs ana dilində keçirildi. Azərbaycanda ilk dəfə olaraq universitet təsis edildi. Fəhlələr səkkiz saatlıq iş günü, mütərəqqi əmək və sığorta qanununu əldə etdilər. Qadınlar kişilərlə bərabər hüquqa malik oldular. Təkcə İranda deyil, həm də Yaxın və Orta Şərq ölkələri üçün inqilabi əhəmiyyəti olan torpaq islahatı Azərbaycan kəndlilərinin həyatında köklü dönüş yaratdı.

M.C.Pişəvərinin başçılıq etdiyi Azərbaycan milli hökumət tərəfindən bir il ərzində həyata keçirilən ictimai, siyasi və iqtisadi tədbirlər, hətta, Azərbaycan xalqının qatı düşmənləri tərəfindən belə etiraf olunmuşdur. Qərbin irticaçı dairələrinə mənsub olan mətbuat dəfələrlə yazmağa məcbur olmuşdur ki, M.C.Pişəvərinin rəhbərlik etdiyi milli hökumət bir il ərzində yarım əsrlik iş görmüşdür.

Vətənpərvərlik ideyalarını təbliğ edərkən, M.C.Pişəvəri onu mücərrəd şəkildə deyil, inqilabi fəaliyyətlə bağlı şəkildə irəli sürürdü. Onun vətənpərvərliyi özünü Azərbaycan xalqının uzun tarixə malik zəngin milli-mədəniyyətinə, onun in-

qilabi ənənələrinə, məhsuldar və münbit torpağına, səfalı təbiətinə və xüsusilə, doğma ana dilinə olan tükənməz məhəbbət hisslərində əks etmişdir. O, 1945-1946-cı illərdə Azərbaycandakı inqilabi fəaliyyəti dövründə yazdığı məqalə və söylədiyi alovlu nitqlərində son yarım əsr içərisində İranın irticaçı hakim dairələri və imperialistlər tərəfindən Azərbaycanın və Azərbaycan xalqının başına gətirilən müsibətlərə, ədalətsizliklərə, amansız istismara, qəddar milli və ictimai zülmə kin və nifrət bəsləyərək, bütün acınacaqlı hallara qarşı üsyankar olmuş, sarsılmaz əzm, iradə və xalqın köməyi ilə mübarizə etməyə hazır olduğunu dəfələrlə bildirmişdir.

Qeyd etmək lazımdır ki, M.C.Pişəvərinin vətənpərvərlik идейалары heç vaxt milli-mədəni ayrılıq mövqeyində durmamışdır. O, öz xalqının zəngin mədəniyyətinə dərin məhəbbət bəsləməklə bərabər, fars xalqının, qabaqcıl rus və Avropa xalqlarının mədəniyyətinə də böyük hörmət və iftixar hissi ilə yanaşmışdır. Onun vətənpərvərlik ideyaları eyni zamanda, hər cür millətçilik meyllərindən tamamilə uzaq olmuşdur. M.C.Pişəvəri vətənpərvərlik ideyaları ilə birlikdə ardıcıl olaraq, xalqlar dostluğu ideyalarını da təbliğ etmişdir.

### 3.4. Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaranması və onun xilaskarlıq misiyası

Hər bir dövlətin ən mühüm atributlarından birini nizami ordu təşkil edir. Ordu quruculuğu isə dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi uzun sürən və mürəkkəb bir prosesdir. Bu proses 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin iclasında rəsmiləşdirildi. Qəbul edilən qərarda deyilirdi ki, «...Respublikanın suverenliyinin və ərazi bütövlüyünün ciddi təhlükə altında olduğunu qeyd edərək, respublikanın dövlət müstəqilliyinin elan edilməsini əsas götürərək, Azərbaycanda Milli Özünümüdafiə qüvvələrinin yaradılması haqqında Ali Sovetin qərarı nəzərə alınsın» (54a).





1991-ci il oktyabrın 9-da isə Azərbaycan Respublikasının Ali Soveti «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanunu qəbul etdi. (54a). Beləliklə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hüquqi əsası yaradlıdı. Həmin qanunun ordu quruculuğunda tarixi əhəmiyyəti nəzərə alınaraq prezidentin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə 9 oktyabr Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edildi. (55a).

Azərbaycan Silahlı Qüvvələrinin yaradılması sırf müdafiə xarakteri daşıyırdı və bunu sübut etməyə heç bir ehtiyac yoxdur. 1988-ci ildən üzü bəri təcavüzə məruz qalan respublika öz ərazi bütövlüyünü bərpa etmək və qoruyub saxlamaq üçün güclü Silahlı Qüvvələrə malik olmalı idi. Ordumuz yalnız və yalnız öz torpaqlarımızı, ərazi bütövlüyümüzü, xalqımızın dinc əməyini qorumaq naminə formalaşdırılır. Ötən müddət göstərir ki, bütün bunlara riayət edilmiş və gələcəkdə də riayət ediləcəkdir.

Ordu quruculuğunu lazimi səviyyədə həyata keçirilməsindən bütünlüklə dövlətin sabitliyi, cəmiyyətin əmin-amanlığı birbaşa asılıdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkili çox mürəkkəb bir şəraitdə həyata keçirilirdi. Bu baxımdan onun formalaşma prosesi çox kəskin məzmun və forma dəyişilikləri ilə qarşılaşmışdır.

Çar Rusiyası Türküstan və Azərbaycan kimi türklər yaşayan müstəmləkələrindən əsgər aparmırdı. Bundan əsas məqsəd türk xalqına əsgərlik adətlərini unutdurmaq və inanılmayan bu xalqın əlinə silah verməmək idi. İkinci Rusiya inqilabı hərbi qüvvəsi olmayan azəriləri çətin vəziyyətə salmışdı. Hər şeyi yenidən başlamaq lazım gəlirdi.

Azərbaycanlılara kömək etmək, xalqı qandan-qadadan, daşnak-bolşevik zülmündən xilas etmək, bu bəladan, faciədən qurtarmaq üçün Türkiyə hökumətinin hərbi naziri Ənvər Paşa Qafqaz İslam Ordusu yaradılmasını məsləhət bilir. Odur ki, ilk öncə ögey qardaşı general Nuru Paşanı təlimatlandırır. Bundan sonra o, Qafqaz İslam Ordusunun məqsəd

və vəzifələri haqqında məsləkdaşlarına izahat verir. Bu müqəddəs təşəbbüs nazirin məsləkdaşları tərəfindən alqışlanır.

«Ənvər Paşanın əsas məqsədi Türkiyə nizami qoşunlarının köməyi ilə Təbrizdən Dağıstana, Tehrandan Türküstana qədər olan bütün əraziləri nəzarət altına almaq, onları yadelli işğalçıların əlindən qoparmaq, imkan daxilində bu yerlərdə Milli hökumətin yaradılması üçün ictimai-siyasi zəminə nail olmaqdan ibarət idi». Odur ki, Nuru Paşa 1918-ci il aprel ayının 8-də öz ordusu ilə Azərbaycana yola düşür və may ayının 25-də Gəncəyə çatır, fəaliyyətə başlayır. (10).

1918-ci il iyunun 4-də Batumidə, istiqlaliyyətini yenicə elan edən Azərbaycan hökümətinin nümayəndələri M.Ə.Rəsulzadə, xarici işlər naziri Məmmədhəsən Hacınski və Osmanlı hökuməti tərəfindən ədliyyə naziri Xəlil bəy, 3-cü ordunun komandiri Vəhib paşa arasında imzalanan yardım müqaviləsinə görə, 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində Azərbaycana yardım etmək üçün hərəkət etmişdir. Bu qüvvələr iki qrup halında Qazaxa gəlmişdir.

**1-ci qrup**: Diviziya qərargahı; Onuncu Qafqaz alayı; Doqquzuncu Qafqaz alayına mənsub 26-cı batalyon; Dağ topçu batalyonu; İstehkam bölüyü; Teleqraf vzvodu; Orkestr bölüyü; Cəmi: 147 zabit, 2812 əsgər, 698 heyvan.

**2-ci qrup:** 13-cü Qafqaz alayı; Güclü dağ topçu batalyonu; Səhiyyə bölüyü; 24-cü səyyar xəstəxana; Səyyar mətbəx vzvodu; Cəmi: 110 zabit, 2763 əsgər, 668 heyvan.

Osmanlı ordusu Cəlaloğlu, Sadaxlı, Kəmərli, Aslanbəyli, Qazax istiqamətində hərəkət edərək, 11.6.1918-də birinci qrup, 12.6.1918-də isə ikinci qrup Qazaxa gəldi. Qazaxda azərilər türk ordusunu çox səmimiyyətlə qarşıladı. (151).

1918-ci ildə ölkəmiz ağır və təhlükəli günlərini yaşayırdı. Həmin ilin yanvar ayında Türkiyəyə hərbi yardım üçün gedən Azərbaycan hökumətinin əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı Türkiyənin hərbi naziri Ənvər paşa ilə görüşündə demişdir:

Paşam, Birinci Dünya müharibəsində biz azərilərdən





4 general rus ordusunda ordu komandiri olmuşdur. Yalnız bir gürcü general hərbi korpus komandiri ola bilmişdir. Azərbaycanlı ordu komandiri Səmədbəy Mehmandarov rus-yapon müharibəsində hərbi korpus komandiri olaraq rus ordusunun ən yüksək ordenini almışdır. İkinci general Əliağa Şıxlinskidir. Rus ordusunun topçu baş inspektoru idi. Üçüncü general Hüseyn xan Naxçıvanskidir, dördüncü isə Xan Ylrivanskidir.

1918-ci il iyunun 30-da rus qüvvələrilə birlikdə ermənilər Göyçaya qəfil basqın etdikləri üçün, Azərbaycandakı Osmanlı ordusunu gücləndirmək məqsədilə 38-ci alay aşağıdakı qüvvələrlə Azərbaycana göndərilmişdir:

65 zabit, 2475 əsgər, 701 heyvan, 2092 tüfəng, 16 dəzgahlı pulemyot, 4 güclü dağ topu, 1 güclü dağ batareyası.

Bu qüvvələrdən başqa 3-cü ordunun ehtiyatda olan 350 əsgərinin 9.7.1918-ci ildə Qazaxa gəldiyi və bu ehtiyat hissəsinin Bərgüşad vağzalından diviziyanın əmrinə göndərildiyi ordu komandanlığı tərəfindən bildirildi. Osmanlı ordusu tərəfindən kömək məqsədilə Azərbaycana göndərilən 5-ci qrup Bakıda döyüşlər gedən zaman gəlmişdir. (251a). Bundan başqa bir azərbaycanlı korpusu da vardı. Bu ordunun təşkili, kiçik zabitlər və zabitlərin İslam ordusu komandanlığı tərəfindən Gəncədə açılan qısa müddətli hərbi kurslarda təhsil aldıqları məlumdur. Azərbaycan korpusuna azərilərdən ibarət bir neçə nizami alayı, Dağıstan süvari alayı və bunlardan başqa Azərbaycanın hər tərəfindən gələn, arası kəsilməyən könüllülər də daxili meydanından əsla geri çəkilməyərək, «Biz bura ölməyə gəldik, dönməyə yox» deyərək vuruşur və getdikcə döyüş havasına alışırdılar. Azərbaycan korpusunun təşkili tamamlandıqdan sonra ona podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi.



*General Əlağa Şıxlinski və Turu paşa Qafqaz İslam Ordusunun əsgər və zabitləri arasında. Gəncə, 1918.*

Cəsur və döyüş texnikasını gözəl bilən, türk ordusunun yüksək zabitləri tərəfindən layiqincə qiymətləndirilən podpolkovnik Həbib bəy rus ordusunda yetişmiş azırbaycanlı zabitlərdəndir. Bu döyüşlərdə cəbhə iki yerə, cənub və şimal qruplarına ayrılır, cənub qrupuna podpolkovnik Həbib bəy komandir təyin edilir. (251b).

Şimal qrupuna isə ştab podpolkovniki Osman bəy təyin edilmişdir.

«İlk yaradılanda cənub qrupunun qüvvələri belə idi: 4-cü piyada alayı (azəri alay), 1-ci və 2-ci batalyon, iki süvari





bölüyü, azəri süvarilərindən ibarət daha bir bölük, iki qrup dağ və rus səhra topundan ibarət olmuşdur. Bundan başqa ordu alaylarına verilən Azərbaycan səhra topçu vzvodu öküzlə daşındığı üçün şosse yolundan kənara çıxa bilmirdi. Ancaq bu heyvanlar düşmənin zirehli avtomobillərini, zirehli qatarlarını qaçırmaqda və toplarını susdurmaqda çox yararlı olurudular. (151c). Əsasən toplar, Türkiyə cəbhəsini tərk edərək Rusiyaya dönən əsgərələrdən Azərbaycan partizanları tərəfindən zorla alınmışdı. Bu topların mərmiləri rus alaylarından qənimət olaraq ələ keçirilmiş və olduqca çox idi. Azərbaycan korpusunda olan silahlar Rusiyada istehsal olunmuşdu. Buna görə də mərmi sarıdan çətinlik çəkilmirdi. Amma Osmanlı ordusunda istifadə olunan silahlar üçün mərmi çatışmırdı. (151ç). Döyüş zamanı Osmanlı ordusunu Azərbaycan hökuməti və xalqı ərzaqla təmin edirdi.

İslam ordusu komandanlığından 5-ci Qafqaz diviziyası komandanlığına, Bakıya hücum zamanı verilən bir əmrdə aşağıdakı qeydlər çox əhəmiyyətlidir: «Bakıya yaxın olan müsəlman kəndlərnin silahlı yardımla bərabər, sizə ət, su, çörək və digər ərzaqla yardım edəcəkləri də şübhəsizdir. Baxmayaraq ki, indiki vaxtda siz həmin kəndlərdən 70 km aralıdasınız»(151d).

Bakıda gedən döyüşlər çox çətin keçdiyindən, Osmanlı ordusundan 15-ci diviziya qərargahı, 56-cı və 106-cı piyada alayları 1200 əsgər ilə Qaraкösədən Bakıya göndərilmişdir. Hacıqabul ilə Ələt vağzallarından Bakı istiqamətində hərəkət edən ordu susuzluqdan əziyyət çəkirdi. Buralar məhsul verməyən, şoranlıq bir ərazidir. Tiflisdən Bakıya gedən dəmir yolu buradan keçir. Ələt vağzalı Xəzər dənizinin sahilinə yaxındır. Düşmən bu cəbhədə həm dənizdən, həm də havadan ordumuza saysız-hesabsız hücumlar edirdi. Türk ordusu özünə məxsus dözümlülük göstərərək, susuzluğa və itkiyə baxmayaraq, düşmənin hücumlarını dəf edərək Bakıya yaxınlaşmış və Qobu kəndində qərargah qurmuşdu.

Böyük hərbi nüfuza malik İsmət İnönü vaxtilə bəzi xati-

rələrini yazdığı «Akis» jurnalında, Fəxrəddin Altay isə «Həyat» jurnalında 1918-ci il Birinci dünya müharibəsinin axırında Osmanlı ordusunun Azərbaycana səfərini «macəra» kimi qiymətləndirmişdilər. İstefada olan podpolkovnik Rüştünün «Bakı yollarında» adlı müfəssəl əsərində təfsilatı ilə verdiyi faktlardan görürük ki, Azərbaycana beş qrup halında göndərilən hərbi qüvvələr cəmi 10000 nəfərdən ibarət olmuşdur. Özünü yabançı bir ölkədə hiss etməyən bu ordu Azərbaycan nizami və könüllü dəstələri ilə yan-yana, çiyin-çiyinə vuruşmuşdur. Azərbaycanı azad etməyə gələn və «İslam ordusu» adı altında toplanan Osmanlı orpdusunun itkisi podpolkovnik Rüştünün verdiyi məlumata görə 800-dən 1000 nəfərə qədərdir. Azərbaycan hissələrinin hərbi təlim səviyyəsi zəif olduğundan onların itkisi türklərdən üç-beş dəfə çox olmuşdur.

1918-ci il sentyabrın 15-də Osmanlı dövlətinin orduları Azərbaycanın mövcud əsgəri və könüllü dəstələri ilə birlikdə Bakını erməni və rus əsgərlərindən azad etdi. Hərbi səfər nəticəsində Osmanlı dövləti azərbaycanlıları tamamilə məhv olmaqdan qurtardı. Tarixi əhəmiyyətə malik olan bu hadisə Azərbaycan xalqının xatirəsindən heç bir zaman çıxmayacaq və silinməyəcəkdir.



*Türk-Azərbaycan şəhidlərinin qardaşlıq abidəsi. Bakı, 2000.*





Bakının azad olmasından 39 gün öncə diviziyanın və yardımçı qüvvələrin Bakını düşmənlərdən azad etmək üçün başladıqları hücum məğlubiyyətlə nəticələnmişdi. Türkiyədən əlavə yardım istəyən və Azərbaycan könüllülərini hərbi cəhətdən hazırlayan ordu ikinci qəti hücuma hazırlaşırdı.

Bu zaman Azərbaycanda olan və Azərbaycan tarixinin hər dövründə mürtəce qüvvə kimi tanınan bir zümrə-«gerici-mürtəce», ortaya «İlhaqçılıq» məsələsi atmışdı. Yəni, Azərbaycan Osmanlı dövlətinə birləşdirilərək bu dövlətin bir vilayəti kimi idarə olunmalıdır. Azərbaycanda islam ordusunun komandiri olan Nuru Paşa (Ənvər Paşanın ögey qardaşıdır) ağıllı bir general olsa da siyasi görüşü o qədər də yetkin deyildi. Mürtəce ilhaqçılar Nuru paşanın bu vəziyyətindən istifadə etmək istəyirdilər.



*Ənvər paşa, ataları Hacı Əhməd bəy və Nuru paşa*

**Nuru Paşa** (1889, İstanbul - 1949, İstanbul) –Qafqaz İslam Ordusunun komandanı, Osmanlı ordusunun general-leytenantı. 1934-cü ildən etibarən Killigil soyadını götürmüşdür. İlk təhsilini başa vurduqdan sonra 1906-cı ildə quru qoşunları məktəbinə daxil olmuş, 1909-cu ildə həmin məktəbi bitirərək, zabit kimi xidmətə başlamışdı.



1913-cü ildə yüzbaşı, 1916-cı ildə isə yarbay rütbələri almışdı. Birinci dünya müharibəsi (1914-18) illərində Şimali Afrikada olan Osmanlı ordusunda xidmət edirdi. O, Liviya ərazisində cəbhə komandanı idi. Elə buradakı xidməti dövründə Nuru paşa özünün hərbi istedada malik oluğunu nümayiş etdirmişdi. Liviya cəbhəsində göstərdiyi igidliklərə görə Nuru paşa minbaşı rütbəsinə, 1916-cı ildə «Altun ləyaqət» medalına, Almaniyanın Dəmir xas medalına, 1917-ci ildə «Altun imtiyaz» medalına, habelə Avstriya-Macarıstan dövlətinin üçüncü dərəcəli fərqlənmə nişanına layiq görülmüşdü. Trablis qərb cəbhəsində göstərdiyi şücaətə görə, Nuru paşa Trablus qərb qəhrəmanı kimi də tanınır.

Nuru paşanın hərbi xidmətinin ən mühüm dövrü Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlıdır. Bu ordunun yaradılması 1918-ci ilin əvvəllərində reallaşmağa başladı. Azərbaycanda bolşevik-daşnak rejiminin türk –müsəlman əhaliyə qarşı törətdiyi soyqırımları dayandırmaq məqsədilə, Milli azadlıq hərəkatı fəallarının kömək üçün Osmanlı dövlətinə müraciətindən sonra Qafqaz İslam Ordusu yaradılması qərara alınmışdı. Türkiyənin hərbi naziri Ənvər paşa Azərbaycana yardım göstərilməsinin əsas təşkilatçısı idi. İlk qərara əsasən, Azərbaycana göndəriləcək türk zabitlərinin rəhbərliyi və iştirakı ilə yerli Milli qüvvələrdən ordu fomalaşdırılmalı idi. Azərbaycana göstəriləcək hərbi yardıma rəhbərlik Nuru paşaya tapşırıldı. Vəzifəsinin icrasına başlamazdan əvvəl Nuru paşaya feriq (general-leytenant) hərbi rütbəsi, bütün Qafqaz İslam Ordusu hissələrinə komandanlıq vəkaləti, Qafqazda Türkiyə sultanının siyasətini təmsil etmək hüququ verildi.





Nuru paşa 1918-ci il martın 2-ci yarısında 20 nəfərlik bir heyətlə Azərbaycana doğru hərəkətə başladı. Martın 25-də onun heyəti Mosul şəhərinə çatdı. Aprelin əvvəllərində Nuru paşa öz heyəti ilə birlikdə Mosul-Təbriz-Naxçıvan-Qarabağ-Yevlax-Gəncə yolu ilə Azərbaycana doğru istiqamət götürdü. 1918-ci il mayın 24-də Yevlaxda, mayın 25-də isə Gəncədə Nuru paşanın qarşılanması mərasimi keçirildi. O, Azərbaycandakı hərbi-siyasi vəziyyətlə tanış olduqdan sonra bolşevik-daşnak qüvvələrinin müqavimətini qırmaq üçün, qısa müddət ərzində, Milli hərbi struktur formalaşdırılmasının qeyri-mümkün olması qənaətinə gəldi. Bu barədə o, 3-cü ordu komandanı Vehib paşaya təcili məlumat göndərdi və dövlət orqanları qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırılmasını xahiş etdi. 1918-ci il iyunun 4-də Batumda iki dövlət arasında imzalanan müqavilədən sonra Nuru paşanın vəsatəti əsasında 5-ci Qafqaz firqəsi Azərbacana göndərildi. Nuru paşa türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun komandanı olmaqla bərabər, Azərbaycan hökumətinin qərarı əsasında Milli hərbi hissələrin formalaşdırılmasına rəhbərliyi də öz üzərinə götürdü. Onun qarşısında Bakı Sovetinə tabe olan bolşevik-daşnak hərbi qüvvələrinə, erməni silahlı dəstələrinə qarşı mübarizəni təşkil etmək, Azərbaycanın Milli hərbi hissələrinin formalaşdırılmasına nail olmaq, Qafqaz İslam Ordusunun komandanlığı altında olan qüvvələrin təchizat və təminat məsələlərini həll etmək kimi mürəkkəb vəzifələr dururdu. İncə və çevik hərbi duyuma malik olan Nuru paşa ona həvalə olunmuş hərbi vəzifələrin öhdəsindən bacarıqla gəldi. Azərbaycan hökumətinin və xalqın dəstəyi ilə onun komandanlığı altında olan hərbi qüvvələr qısa vaxt ərzində Gəncədən Bakıya qədər uğurlu döyüş yolu keçdilər.

Döyüşlərin getdiyi müddətdə Nuru paşa Əlahiddə Azərbaycan korpusunun komandiri Əliağa Şıxlinski ilə birlikdə üç dəfə birbaşa cəbhə xəttində olmuşdu – 1918-ci il iyunun

18-də Qaraməryəm, iyulun 5-də Ağsu, sentyabrın 10-da isə Bakı cəbhəsində olan Nuru paşanın qüvvələrin yenidən səfərbərliyə alınmasında, döyüş planlarının taktiki baxımdan təkmilləşirilməsində böyük rolu oldu.

Bakının azad olunması (1918) üçün keçirilən həlledici hücumun planı Nuru paşa tərəfindən hazırlanmışdı. Şəhərin azad edilməsindən sonra Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildirmişdi: «...Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətin, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm».

Qarabağın erməni silahlı dəstələrindən təmizlənməsinə başlamazdan əvvəl də - 1918-ci il oktyabrın 1-də Nuru paşa Ağdama gəldi, döyüşlərə hazırlaşan türk-Azərbaycan hərbi qüvvələrinin vəziyyəti ilə yaxından tanış oldu.

Mudros barışığının (1918) şərtlərinə əsasən türk hərbi qüvvələri bölgəni tərk etməyə məcbur olduqda, Nuru paşa Azərbaycanda qalıb fəaliyyətini davam etdirmək istəyirdi. Ancaq ingilis hərbi komandanlığı buna imkan vermədi. Azərbaycanı tərk etməli olan Nuru paşa 1918-ci il noyabrın sonlarında Gəncəyə gəldi.. Noyabrın 29-da Gəncə bələdiyəsində Nuru paşanın və onun xidmət yoldaşlarının yola salınması ilə bağlı ziyafət verildi. Nuru paşa bu ziyafətdə çıxış edib, türkçülük və turançılıqla bağlı geniş nitq söylədi.

Nuru paşa Batum- Artvin- Ərdəhan- Qars- Ərzurum- Trabzon yolu ilə İstanbula qayıtdı. İnglislər tərəfindən təqibə məruz qalan Nuru paşa Hərbi Nazirliyin polisləri tərəfindən həbs edilib ingilislərə təhvil verildi. O, Batum həbsxanasına gətirildi. İngilislər onlara qarşı vuruşduğuna və Azərbaycanda göstərdiyi hərbi şücaətlərinə görə Nuru paşanın edamına qərar verdilər. Azərbaycan mili azadlıq hərəkatının fəalları Nuru paşanın rəsmi yolla azad edilməsinin





mümkün olmadığını biləndə Batum həbsxanasına silahlı basqın təşkil edilməsini qərarlaşdırdılar. Bunun üçün Batuma xüsusi dəstə göndərildi. 1919-cu ilin yayında həmin dəstə Batum həbsxanasına basqın etdi. Əməliyyat zamanı itki verilsə də Nuru paşanı azad etmək mümkün oldu. O, Artvin-Sarıqamış yolu ilə Ərzuruma gəlsə də, bir müddət sonra Bakıya qayıtdı. 1920-ci ilin aprelində Sovet qüvvələrinin Azərbaycana təcavüzü ərəfəsində Nuru paşa Dağıstan ərazisində fəaliyyət göstərir, yerli Milli müqavimət qüvvələrinin yaradılmasına çalışırdı.. Sonra yenidən Azərbaycana dönən Nuru paşa 1920-ci ilin iyununda Qarabağda bolşevik rejiminə qarşı alovnanan xalq üsyanının rəhbərlərindən biri oldu. Üsyan yatırıldıqdan sonra isə Nuru paşa Türkyəyə döndü.

Hərbi xidmətdən ayrılandan sonra Nuru paşa İstanbulda dəmir-tökmə fabriki açdı. Bir sıra digər məhsullarla bərabər, bu fabrikdə hərbi təyinatlı məhsulların da istehsalı mənimsənildi. 1949-cu il martın 2-də fabrikdə naməlum səbəblər üzündən baş vermiş partlayış nəticəsində həlak olmuşdur.) (48,259,53,292, 274).

Məsələni aydınlaşdırmaq üçün Azərbaycan hökuməti adından bir heyət – M.Ə.Rəsulzadə, Fətəli xan Xoyski və Məmməd Hacınski Nuru paşa ilə danışığa getmişdilər. Görüş zamanı Nuru paşa onlara demişdir: «Mən əsgərəm, siyasəti anlamıram, ordunun siyasi müşaviri Əhməd Ağaoğludur. Onunla görüşün».Onlar başqa işlər barəsində də mülakirələr etmək istəmişlər, lakin qəbul etməmişdir. Əhməd Ağaoğlu isə görüş zamanı Azərbaycan heyətinə belə cavab vermişdir: «Siz Milli Şuranı bağlayın, hökumətdən əl çəkin. Nuru paşa istədiyi adamlardan bir Azərbaycan hökuməti qurar».

Bakı hələ azad olunmamışdı, döyüş davam edirdi. Ordu Nuru paşanın tabeliyində, Nuru paşa isə ilhaqçıların təsiri altında idi. Azərbaycan hökumətinin nümayəndələri Ə.Ağaoğlunun bu təklifini qəbul etməmişdilər. Ə.Ağaoğlu ilə nümayəndələr münaqişəli və uzun sürən danışıqlardan sonra

belə bir nəticəyə gəlmişdilər ki, Azərbaycan Milli Şurası öz fəaliyyətini dayandıracaq. Azərbaycan nümayəndələri danışıqların nəticəsi olan bu məsələni Milli Şurada aydınlaşdırdıqdan sonra fraksiya nümayəndələri «Sosial-demokratlar» və «Hümmət» qrupu Milli Şuradan istefa vermişdilər. Musavat partiyasının liderlərindən Nəsib bəyin və M.Ə.Rəsulzadənin Milli Şuradakı danışıqlarından sonra, Ə.Ağaoğlu ilə aparılan danışıqlar nəticəsində yeni bir hökumətin yaradılmasını Azərbaycan Milli Şurası qəbul etmişdir. Bunun nəticəsində ikinci Fətəli Xan Xoyski hökuməti yaradılmışdı. Bu hökumətdə on iki nazir var idi. Belə bir çətin və mücadiləli şərtlər altında, Azərbaycan xalqının və istiqlaliyyətinin taleyini hadisələrin axını içində bu hökumət qoruyacaq və qurtarmağa çalışacaqdır. Ancaq Azərbaycan milli hərəkatını dövlət halında əks etdirən, Azərbaycan istiqlal fikrini realizə edən və Azərbaycan türkünün yeni tarixini yaradan Milli Şura öz fəaliyyətini dayandırmışdı. (209).



**Ənvər Paşa Killigil** (1880, İstanbul – 4.8.1922, Tacikistan)- Türkiyənin görkəmli dövlət xadimi, Osmanlı dövlətinin hərbi naziri; 1918-ci ildə erməni-daşnakların soyqırımına məruz qalmış Azərbaycan xalqına hərbi yardım göstərilməsinin əsas təşkilatçılarından biri. Birinci dünya müharibəsində (1914-18) Böyük dövlətlərin Osmanlı imperiyasını bölüşdürmək siyasətini həyata keçirməkdə olduğu mürəkkəb tarixi şəraitdə Böyük Turan imperatorluğu yaratmaq ideyasını irəli sürmüş və əqidəsi yolunda şəhid olmuşdur. İstanbulda hərbi təhsil almışdır. 1903-cü ildə kapitan, 1907-ci ildə mayor, 1913-cü ildə qaymaqam, 1914-cü ildə polkovnik, elə həmin ildə – 34 yaşında ikən general mayor, 1916-cı ildə





isə general-leytenant rütbəsi almışdı. Osmanlı ordusunun Baş qərargah rəisi (1914) Osmanlı ordusu Baş komandanının müavini (1915), Osmanlı sultanının xüsusi yavəri (1916), hərbi nazir (1917) və Baş komandan müavini təyin edilmişdi. «İttihad və tərəqqi» partiyasının liderlərindən biri, türk xalqlarının mənəvi-siyasi birliyi ideyasının-turançılığın fəal tərəfdarlarından idi. Fevral inqilabı (1917) nəticəsində Romanovlar mütləqiyyətindən sonra Rusiya ərazisindəki türk xalqlarının milli azadlıq hərəkatının güclənməsi Ənvər paşada turançılıq ideyalarının reallaşmasına ümidi artırdı. Rusiyanın türk-müsəlman xalqlarının, o cümlədən, Azərbaycan xalqının həyatında baş verən ictimai-siyasi prosesləri yaxından izləyirdi. 1917-ci ilin sonlarında Qafqaz cəbhəsində və Cənubi Qafqazdakı hadisələr haqqında aldığı məlumatlardan sonra Ənvər paşada Rusiyanın müsəlman xalqlarına, o cümlədən Azərbaycan türklərinə konkret hərbi-siyasi kömək göstərmək meyli gücləndi. Ənvər paşa ilk vaxtlar qardaşı Nuru paşanın rəhbərliyi ilə Tehranda xüsusi bir qurum yaratmaq və həmin qurum vasitəsilə Azərbaycan, Dağıstan, Türküstan və hətta Əfqanıstanda cərəyan edən proseslərə fəal təsir göstərmək niyyətində idi. Bu planı bütünlüklə reallaşdıra bilməsə də, Qafqaz İslam Ordusunun yaradılması ilə Azərbaycan və Dağıstandakı Milli azadlıq hərəkatını dəstəkləməyə müvəffəq oldu. Ənvər paşa Qafqaz İslam Ordusu adı altında türk zabitlərinin rəhbərliyi və iştirakı ilə Azərbaycanda üç piyada diviziyadan ibarət hərbi korpus yaradılmasını planlaşdırırdı. 1918-ci ilin əvvəllərində Nağı Şeyxzamanlının başçılığı altında Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə görüşdükdən sonra Ənvər paşa qəti olaraq, Azərbaycan türklərinə hərbi yardım göstərmək qərarına gəldi. Həmin qərarın uğurla həyata keçirilməsinə, Azərbaycan türklərinin böyük ümid bəslədiyi hərbi yardımın vaxtında və yetərincə çatdırılmasına qətiyyətlə girişən Ənvər paşa bu mühüm və çətin vəzifəni yerinə yetirəcək zabitlərin seçilməsinə də xüsusi diqqət yetirirdi. Qəbul olunmuş qərara əsa-

sən, Azərbaycana göndəriləcək zabitlərin rütbəsi bir pilə artırılmalı və onlara ikiqat əmək haqqı verilməli idi.

Ənvər paşa Qafqaz İslam Ordusuna kimin başçılıq edəcəyinə də böyük əhəmiyyət verirdi. Bu vəzifəyə başqa namizədlərin də olmasına bxmayaraq, Ənvər paşa Qafqaz İslam Ordusu komandanı vəzifəsini qardaşı Nuru paşaya etibar etmişdi. Qafqaz İslam Ordusunun struktur baxımından tabe olduğu Şərq ordular qrupunun komandanı vəzifəsinə isə Ənvər paşanın yaxın qohumu Xəlil paşa təyin edildi. Bununla o, Azərbaycan türklərinə hərbi yardım göstərilməsini özünün daha çox etibar etdiyi yaxın qohumlarına həvalə etdi. 1918-ci il aprelin 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkil olunması və onun qarşısında duran vəzifələrə dair təlimnaməni təsdiqlədi. Bu təlimnamədə Qafqaz İslam Ordusunun təşkili prinsipləri və onun qarşısında duran vəzifələr konkret olaraq müəyyənləşdirildi.

Nuru paşa Gəncəyə yetişikdən sonra aydın oldu ki, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş Bakı Soveti qoşunlarının artıq Gəncə istiqamətində başladıqları hücum əməliyyatının qarşısını almaq üçün yerli qüvvələrdən qısa müddətdə güclü ordu yaratmaq mümkün olmayacaqdır. Odur ki, Nuru paşa Türkiyə rəhbərliyi, o cümlədən Ənvər paşa qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırdı. 1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Ənvər paşa Azərbaycana hərbi qüvvələr göndərilməsinə dair göstəriş verdi.

Türk hərbi qüvvələri və Azərbaycanın milli qoşun hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun təchizatını, fəaliyyətini daim nəzarət altında saxlayan Ənvər paşa Azərbaycana hərbi yardım göstərilməsinin dayandırılmasını tələb edən Almaniyanın ciddi təzyiqi ilə üzləşdi. Osmanlı dövlətinin müttəfiqi olan Almaniya Türkiyənin Azərbaycana hərbi yardım göstərilməsinə qəti etirazını bildirdi. 1918-ci il iyulun sonu-avqustun əvvəllərində Almaniya hərbçiləri





Qafqaz İslam Ordusu hissələrinin Bakıya doğru irəliləməsinin və Bakı neftinin Osmanlı hökumətinin nəzarəti altına keçməsinin qarşısını almaq üçün Ənvər paşa qarşısında sərt tələblər qoydular. Almaniyanın tələbinə görə, türk hərbi hissələri Bakıya doğru hücumu dayandırılmalı və geri çəkilməli idi. Əks tiədqirdə, türk ordusunda xidmət edən alman zabitləri geri çağırılmalı və Almaniya türk hərbi hissələrinin Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün konkret tədbirlər həyata keçirilməli idi. Odur ki, Ənvər paşa türk ordusunda kifayət qədər yüksək vəzifələrdə olan alman zabitlərinin diqqətini Bakını azad etmək əməliyyatından yayındırmaq üçün, rəsmi olaraq, 1918-ci il avqustun 4-də 3-cü ordu komandanına göndərdiyi məktubunda yazırdı: «Nuru paşaya çatdırılması lazımdır: əmri qəti edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən dücari-təərrüz (hücum) olmayacaqdır. Bundan başqa hansı çətə (silahlı dəstə) olursa-olsun və haradan gəlirsə-gəlsinlər Bakıya qarşı heç kimsənin irəliləməsi haqda təkmili-nüfuzunuzu istemal etməlisiniz...». Bununla alman hərbçilərini duyuq düşməyə qoymayan Ənvər paşa eyni zamanda, Nuru paşanın yanına şəxsi nümayəndəsini göndərib tələb etdi ki, rəsmi məktublara fikir verməsin və Bakının azad olunmasını teziklə başa çatdırsın. Bundan əlavə, Ənvər paşa Bakının azad olunması əməliyyatını qələbə ilə başa çatdırmaq üçün 15-ci türk diviziyasının da Azərbaycana göndərilməsinə nail oldu.

Ənvər paşanın Bakının azad edilməsinə nə qədər böyük önəm verdiyi onun Nuru paşaya göndərdiyi teleqramdan da aydın görünür: «Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərininin zəbti xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edirəm».

Bakı azad edidikdən sonra Ənvər paşa onun mühafizəsinin gücləndirilməsinə də xüsusi əhəmiyyət verirdi. 1918-ci il oktyabrın 1-də Nuru paşaya məktubunda o, Bakının dən-

izdən mühafizəsinin gücləndirilməsini tələb etdi. Bu məsələnin həlli və bütünlükdə Azərbaycan Milli hərbi qüvvələrinin möhkəmləndirilməsi üçün, Ənvər paşanın əmri ilə 1918-ci il oktyabrın əvvəllərində Azərbaycana çoxlu silah və sursat göndərildi. Türk hərbi qüvvələri Azərbaycanı tərk etməyə məcbur olduqda, Osmanlı dövlətinin Qafqaz siyasətinin əsas təşəbbüskarlarından biri olan Ənvər paşa Nuru paşanın diqqətini Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə yönəltməyə çalışırdı. O, 1918-ci il oktyabrın 15-də Nuru paşaya ünvanladığı məktubunda yazırdı: «Düşmənlərlə... sülh yapmaq məcburiyyətinə gəldim. ...Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür».

Birinci dünya müharibəsinin nəticələrinə əsasən, Osmanlı hökuməti istefa vermək məcburiyyətində qaldıqda, Ənvər paşa Azərbaycana gəlmək və ölkənin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət göstərmək niyyətində idi. O, 1918-ci il oktyabrın 23-də Xəlil paşaya göndərdiyi məktubda yazırdı: «Ümumi vəziyyətin sülhə getməmizi icab etdiyini yazmışdım. Bu vəziyyətdə Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla, oranın təşkilatının ikmalı üçün Adam, silah, cəbbəxana ilə həmən yardım edilsin. Buradan ora 700 min lirə göndərirəm. ...Başladığımız üçün çəkilmək üzrəyüz. Mən işsiz indi sıxılacağımdan bəlkə Azərbaycana indilik səyahət üçün, bilaxərə də orada bir həyat əsəri görərsəm, büsbütün qalmaq üçün hərəkəti düşünürəm».

Müttəfiqlər tərəfindən məğlub edilmiş Osmanlı dövləti üçün təslim olan Mudros barışığı (1918) imzalanandan sonra Ənvər paşanın həyatına təhlükə yarandı. Belə olduqda o, 1918-ci il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmək məcburiyyətində qaldı. Alman gəmisi ilə Krıma gələn Ənvər paşa Şimali Qafqazda hərbi şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilmədi və Moskvaya getdi. Ənvər paşa





burada «İslam ihtilal cəmiyyətləri ittifaqı»nı yaratdı. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəldi və 1920-ci il sentyabrın 1-7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etdi. Qurultayda iştirak edən türk kommunistlərinin tələbi ilə onun çıxışına imkan verilmədikdə, Zinovyevin təklifi ilə Ənvər paşanın çıxışının mətni bolşevik tərəfindən oxundu.

Lakin bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu anlayan Ənvər paşa 1922-ci ildə yenidən Bakıya gəldi və buradan Türküstana keçdi. Türküstanda sovet-bolşevik işğalçılarına qarşı azadlıq mübarizəsinə qoşuldu. Ənvər paşa 1922-ci il avqustun 4-də indiki Tacikstan ərazisində, Abi-Dərya çayı kənarında bolşevik qüvvələrinə qarşı döyüşdə şəhid oldu. XX əsrin 90-cı illərində onun cənazəsinin qalıqları İstanbula gətirilərək, burada torpağa tapşırıldı. (274,168).




*Ənvər paşanın məzarı. İstanbul.*



**Xəlil (KUT) Paşa (1881-1957).** Türkiyə hərbi xadimi, general.1917-ci ilin sonlarında Türkiyənin Mosulda (İraq) yerləşən 6-cı ordusunun, sonra isə Şərq orduları qrupunun komandanı. Bu ordular qrupuna Türkiyənin şimal-şərqində və Cənubi Qafqazda fəaliyyət göstərən hərbi hissə birləşmələri daxil idi. 1918-ci ilin iyunundan etibarən Azərbaycana hərbi yardıma gəlmiş türk hərbi hissə və birləşmələri də Şərq ordular qrupu komandanlığına tabe idi. Azərbaycanda yaradılmış Qafqaz İslam Ordusunun təminat və təchizat məsələlərinin həllində fəal rolu olan Xəlil paşa həmin vəzifəyə Ənvər paşanın təşəbbüsü ilə təyin olunmuşdu. Ənvər paşa Xəlil paşanın yardımı və Qafqaz İslam Ordusunun komandanı olan qardaşı Nuru paşanın rəhbərliyi altında Türk hərbi hissələrinin yerli hərbi qüvvələrlə birlikdə, Azərbaycanın müstəqilliyinə yol vermək istəməyən bolşevik – daşnak qüvvələrinə ağır zərbə vuracağına inanırdı. Bakının azad olunması ərəfəsində Xəlil paşa Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa və Əlahiddə Azərbaycan korpusunun komandanı Əliağa Şıxlinski ilə bərabər şəhər ətrafına gəlmiş, Bakının azad edilməsi münasibətilə 1918-ci il sentyabrın 16-da türk və Azərbaycan hərbi qüvvələrinin paradında iştirak etmişdi. Şərq ordular qrupu ləğv edilənədək (1918, 21 oktyabr), Xəlil paşa onun komandanı vəzifəsində qalmış, Birinci dünya müharibəsi (1914-18)bitəndən sonra həbs edilmişdi. İstanbuldakı «Bəkirağa bölüyü» həbsxanasından qaçaraq Bakıya gəlmiş, burada Sovet-Türkiyə yaxınlaşmasını və bolşeviklərin Cənubi Qafqazda (o cümlədən Azərbaycanda) möhkəmlənməsini təmin etmək məqsədilə xüsusi tapşırıqlar yerinə yetirmişdir. Sonralardan Türk milliyyətçilərinin qeyri-rəsmi





nümayəndəsi kimi bir müddət Moskvada fəaliyyət göstərmişdir.

Mürtəce mollalar və hacıların islam ordusu ətrafında fırlanaraq xaincəsinə nəsihət vermələri də orduya öz təsirini göstərmişdi. İslam ordusu daxilində müstəqil komanda və quruluşa malik olan Azərbaycan birlikləri 5-ci və 15-ci diviziya arasında bölüşdürülmüşdü.

Bundan başqa, Cənub qrupu komandiri azərbaycanlı polkovnik Həbib bəy Səlimov öz vəzfəsindən azad edilmiş, onun yerinə polkovnik Cəlil Cahid bəy (sonradan Cəlil Cahid Toydəmir ordu generalı olmuşdur) təyin edilmiş, Azərbaycan birliklərindən süvari alayları və «dikaya diviziya» ilə milis batalyonları birinci diviziyaya verilmişdi. Azərbaycan süvari bölüyü, dördüncü piyada alayının birinci və ikinci batalyonları, Azərbaycan korpusu rus səhra topları isə Cənub qrupu komandiri polkovnik Cəlil Cahidin əmrinə tabe idi. (151).

1918-ci il iyunun 17-də yaranan ikinci Fətəli xan Xoyski hökuməti,, İslam ordusunun səltənətçi və şəriətçilərin təhrikilə başladıqları siyasi intiqamnın qarşısını zahirən də olsa almışdı.

1. İslam ordusu Azərbaycana 1918-ci il mayın 28-də istiqlaliyyət elan edən Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında iyunun 4-də Batumidə imzalanan muqavilə əsasında yardım göndərilmişdir. Vəhib paşa 2.VI.1918-ci ildə Gəncədə olan Nuru paşaya «Azərbaycan hökuməti müstəqil müsəlmanların tələbinə görə müsəlmanları bolşevik təcavüzündən qurtarmaq üçün müxtəlif qüvvəli dəstəni Qazaxdan Gəncə istiqamətinə yönəldəcəyini» yazır və iyunun 7-də 5-ci Qafqaz diviziyasının bütün hissələrinə Qazax yolu ilə Gəncəyə hərəkət etməsi əmri verildiyini bildirirdi.

2. Qeyd etmək lazımdır ki, Azərbaycan bu dövrdə siyasi vəziyyətəini təyin edən Osmanlı xarici işlər nazirliyi, müttəfiqi Almaniya ilə 1918-ci ilin sentyabrın 23-də Berlində Tələt paşa vasitəsilə (Azərbaycanın istiqlalının Rusiya tə-

rəfindən tanınması şərtilə) Türkiyə ordusunun Azərbaycanı tərk edəcəyini təhəddüd edən bir müqavilə imzalamışdır.

Bütün bunlar göstərir ki, istər Azərbaycanda olan İslam ordusu komandiri, istərsə də onun siyasi müşaviri Əhməd Ağaoğlu Azərbaycan istiqlal hərəkatının obyektiv vəziyyətini heç də düzgün başa düşməmişlər. Əlbəttə ki, Osmanlı türkləri azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə oluna bilməz, bunun üçün Müsavat partiyasının federalizm prinsipi daim Osmanlı idarəsinə qarşı qoyulmalıdır. (93).

Hələ Osmanlı ordusu Azərbaycana köməyə gəlməzdən əvvəl Gəncədə kiçik zabit məktəbinin ilk sinfi qurulmuşdu. Osmanlı ordusu bu məktəbi zabit köməkçisi məktəbi adı ilə yenidən təşkil etdi.

Rus ordusundan Azərbaycanda 300-ə qədər yaxşı təlim almış zabit kadrları qalmışdı. Onların otuzdan çoxu qərargah zabiti idi. Osmanlı ordusu Mudros müqaviləsinə görə, Bakını ingilislərə təslim edib getmişdi. Buna görə Azərbaycanın hərbi nazirliyi Gəncəyə köçmək məcburiyyətində qaldı. Ağdamda pulemyotçu kiçik zabit məktəbi yaradılmışdı. Bu hərbi məktəblərdə zabitlər ilə tələbələr arasında heç bir fərq qoyulmayaraq birlikdə çalışır, onları öyrətdikləri kimi özləri də öyrənirdilər. Ağdamdakı pulemyot məktəbində general Süleyman bəy

Əfəndiyev tələbələrlə birlikdə torpağa uzanaraq təlim keçirdi. Bundan başqa «Serjant hazırlama məktəbi», bir də «İstehkam bölüyü məktəbi» açılmışdı. Bütün zabitlər və hökumət Azərbaycan ordusunu yaratmaq üçün əllərindən gələni əsirgəmirdilər. Alaylar yaradıldıqdan sonra kifayət qədər azərbaycanlı zabit olmadığı üçün Şimali Qafqazdan çərkəz, gürcü və rus zabitləri dəvət olunurdu.

Nəhayət, göstərilən səylər nəticəsində Azərbaycan ordusu aşağıdakı şəkildə quruldu:

Birinci piyada diviziyası (Diviziyanın komandiri, diviziya generalı Cavad bəy idi): 1 – Cavanşir alayı; 2 – Gəncə





alayı; 3 – Zaqatala alayı.

Birinci süvari alayı, birinci piyada diviziyasının tərkibinə daxil olmuşdu.

İuinci diviziyanın tərkibi (Diviziyanın komandiri, diviziya generalı İbrahim ağa Yusifov): 1 – Quba piyada alayı; 2 – Bakı piyda alayı; 3 – Şamaxı piyada alayı; 4 – Göyçay piyada alayı.

Üçüncü diviziyanın tərkibinə Lənkəran alayı daxil olunmuşdu. Süvari birlikləri Tatar, Qarabağ, Şəki alaylarından təşkil edilmişdi. Hər diviziyada iki topçu alayı var idi.

İki zirehli qatar, altı zirehli avtomobil, səkkiz dəniz təyyarəsi, «Qars» və «Ərdahan» adlı iki dəniz kanoner gəmisi var idi.

Hər iki alay iki min süngüdən ibarət idi. Orduda 600 zabit vardı. Bu miqdarın yarısı türklərdən ibarət idi. Zabitlərin 10 %-ni qərargah zabitləri təşkil edirdilər. Hərbi məktəb 600 leytenant rütbəli məzun hazırlamışdı. 1919-cu ildə hərbi nazirlik Gəncədən Bakıya köçür. (96a).

Gürcü və ermənilər Rusiyadan ayrılaraq, istiqlal elan etdikləri vaxt hər növ silahla təchiz edilmiş milli əsgəri hissələrə malik olduqları halda, ADR yalnız birninci dünya müharibəsinin əvvəllərində könüllü olaraq azərbaycanlılardan təşkil edilmiş 600 nəfərlik suvari polka arxalanırdı. Dövlətin suverenliyini qorumaq üçün milli ordunun ən zəruri vasitə olduğunu yaxşı başa düşən Azərbaycan hökuməti elə ilk günlərdən bu sahədə ciddi tədbirlər həyata keçirməyə başladı.

1918-ci il iyulun 11-də hökumət xüsusi hərbi səfərbərliyə başladı. Aşağıdakı məzmunda çağırış elan etdi:

a) 1894-1899-cu illərdə anadan olmuş, müsəlman dininə etiqad edən Azərbaycan Cümhuriyyətinin bütün vətəndaşları Azərbaycan Ordusuna hərbi xidmətə çağırılsınlar;

b) hərbi qulluğa çağırışa tabe olmayanlar müharibə dövrünün hərbi qanunları ilə mühakimə olunsunlar;

v) Yelizavetpol hərbi çağırışı Azərbaycan hərbi çağırışı

ilə əvəz olunsun və hərbi qüvvələr Daxili İşlər Nazirliyinə tabe olsunlar.

Orduda xidmət edən hər sıravi əsgər üçün 50 manat, yefreytor üçün 60 manat, kiçik unter-zabit üçün 90 manat, feldfebel üçün isə 120 manat miqdarında aylıq maaş müəyyən edilmişdi. Bununla yanaşı, hərbi rütbələr üçün də aylıq maaşa əlavə verilirdi. (285a).

1918-ci il avqustun 1-də Azərbaycan Respublikasının hərbi nazirliyi təsis edildi və dərhal da nazirliyi yaratmaq üçün 10 milyon manat kredit ayrıldı. Nazirlər Şurasının 7 noyabr 1918-cı il tarixli fərmanı ilə hərbi nazir vəzifəsi də təsis olundu. Dekabrın 25-də general – leytenant S.Mehmandarov hərbi nazir, dekabrın 29-da isə general – leytenant Ə.Şıxlinski nazir müavini təyin olundular. (285a).



**Səməd bəy Mehmandarov.** (16.10.1856, Lənkəran -12.02. 1931, Bakı). Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, görkəmli hərbi xadim, tam artilleriya generalı (general-leytenantdan sonra gələn hərbi rütbə). Əslən Şuşadan olan atası dövlət xidməti ilə əlaqədar olaraq Lənkəranda yaşamışdır. İlk təhsilini Bakıdakı Edadiyə məktəbində almış, 1873-cü ildə Peterburqdakı 2-ci Konstantin hərbi məktəbinə daxil olmuşdur. 1875-ci ildə həmin məktəbi bitirən Mehmandarov praporşik rütbəsi (ilkin zabit rütbəsi) alaraq, 1-ci Türküstan topçu briqadasına göndərilmişdir. Sonralar 2-ci və 38-ci topçu briqadalarında xidmət keçən Mehmandarov, 1894-cü ildə Varşava hərbi dairəsinə göndərilmiş, 1898-ci ildə isə Əlahiddə Zabaykalye hərbi divizionuna dəyişilmişdir. Həmin divizionun tərkibində Çində 1900-01-ci illərdə baş vermiş antiimperialist üsyanının





yatırılmasında iştirak etsə də, çar generalının təkidli tələbinə baxmayraq, silahsız xalq kütlələrinə qarşı atəş açmağı zabit şərəfindən kənar sayaraq, bundan boyun qaçırmışdır.

Mehmandarov 1904-05-ci illər Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, 7-ci Şərqi Sibir artileriya divizionunun komandiri, eyni zamanda, Port-Arturun Şərq cəb-həsinin artilleriya rəisi olmuşdur. Müharibədə göstərdiyi şücaətlərinə görə dördüncü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif edilmiş və general-mayor rütbəsinə layiq görülmüşdür. Onun təşkilatçılıq qabiliyyəti və peşəkarlığı təkcə xidməti yoldaşlarını deyil, yapon hərbçilərini də valeh etmişdi. Mehmandarov bu müharibədə həm də zabit prinsipiallığı və şərəfinə sədaqəti ilə müasirlərinin yadında qalsmışdı. Rus generallarının fərsizliyi və səvatsızlığı üzündən Port-Artur təslim edilləndə, yapon komandanlığının tələbi ilə gələcəkdə bir daha bu dövlətə qarşı vuruşmayacağına iltizam verən zabitlər evə buraxılır, qalanları isə əsir götürülürdü. Mehmandarov da bir sıra xidmət yoldaşları ilə bərabər əsir düşməyi həqarətli azadlıqdan üstün sayaraq, yalnız 1905-ci ilin avqustunda Portsmutda (ABŞ) bağlanmış sülh müqaviləsinin şərtlərinə görə əsirlikdən qurtarmışdır.

Mehmandarov Birinci dünya müharibəsinin də iştirakçısı olmuş, əvvəlcə birinci piyada diviziyasına, sonra isə 2-ci Qafqaz ordusuna komandanlıq etmiş, həmin vəzifələrdə də ona tapşırılan ən məsuliyyətli tapşırıqları uğurla yerinə yetirmişdir. Əməliyyatların keçirilməsi zamanı nümayiş etdirdiyi yüksək komandirlik məharəti, təşkilatçılıq vərdişləri çar Rusiyası komandanlığı tərəfindən lazımınca dəyərləndirilmiş və o, hərbi akademiya təhsilinin olmamasına bax-mayaraq, 1915-ci il martın 22-də tam general rütbəsinə layiq görülmüşdür.

Fevral inqilabından (1917) sonra rus ordusunun bolşevikləşməsi və ordu daxilində anarxiyanın artması ilə əlaqədar Mehmandarov istefa verərək, 1918-ci ilin payızında vətənə qayıtmışdır.

1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Hərbi Nazirliyi bərpa etmək barədə qərar qəbul edərkən, Mehmandarov Cümhuriyyət ordusunda xidmətə çağırılaraq, hərbi nazirin müavini təyin edildi, nazirliyin və ordunun formalaşırılması ona tapşırıldı. Mehmandarovun peşəkarlığı, təşkilatçılıq qabiliyyəti, başlıcası isə Azərbaycanın müstəqilliyinə sədaqəti yeni şəraitdə də tezliklə öz təsdiqini tapıb və 1918-ci il dekabrın 25-də o, hərbi nazir təyin edildi.

Mehmandarov Azərbaycan Xalq Cümhüriyyəti ordusu quruculuğunun memari idi. O, hər şeydən əvvəl, bu prosesin mahiyyətini, onun dövlət quruculuğundakı yerini dəqiqliklə müəyyənləşdirirdi və bütün imkanları da bu məsələlərin həllinə istiqamətləndirirdi. Mehmandarov dəfələrlə bəyan etimişdi ki, Cümhuriyyət ordusu siyasətdən kənarda qalmaqla, yalnız Azərbaycanın müstəqilliyinin keşiyində dayanmalıdır. Bu prinsipə hərbi nazir olduğu bütün müddət ərzində dönmədən riayət edən Mehmandarovun mövqeyi hakimiyyətdə təmsil olunan siyasi qüvvələr tərəfindən də yüksək qiymətləndirilirdi və bunun nəticəsi idi ki, Cümhuriyyətin mövcud olduğu dövrdə hökumətdə hərbi nazir portfeli yalnız ona tapşırılmışdı.

1918-ci il noyabrın 17-də Müttəfiq dövlətlər adından Bakıya daxil olan ingilis qoşunlarının komandanlığı Azərbaycan Xalq Cümhuriyyəti hərbi qüvvələrinin, o cümlədən Hərbi Nazirliyin Bakıdan çıxarılmasını tələb etdi. Bununla əlaqədar, nazirik Gəncəyə köçürüldü və 1919-cu ilin ortalarına kimi orada fəaliyyət göstərdi. Paytaxdan ayrı düşmək qarşıda dayanan mürəkkəb vəzifələrin həllinin operativliyinə təsir göstərsə də, Mehmandarovun işgüzarlığı, ətrafına topladığı zabitlərin və generalların iş keyfiyyətlərindən məqsədyönülü istifadə etməsi mövcud çətinliklərin həllində bir dinamiklik yaratdı. Kadrlarla işlərin düzgün qurulması Mehmandarovun hərbi nazir kimi fəaliyyətini şərtləndirən başlıca amillərdən biri idi. Böyük etimad, yüksək tələbkarlıq





və daimi qayğı Əlağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, İbrahim ağa Usubov, İbrahim bəy Vəkilov, Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Teymur bəy Novruzov və onlarca digər generalın və yüksək rütbəli milli zabitlərin təşəbbüskar fəaliyyətinə geniş meydan açdı. Zabit kadrlarının sayının artırılmasını Mehmandarov ordu quruculuğunun milli zəmin üzərində təkmilləşdiriməsinin mühüm şərti sayırdı. Məhz onun təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə Praporşiklər məktəbi, sonra isə Hərbiyyə məktəbi açıldı. Eyni zamanda, istehkamçılar məktəbi, hərbi dəmiryolçular məktəbi, Şuşa hərbi- feldşer məktəbi fəaliyyətə başladı.

Ordu quruculuğunun Milli zəmində qurulması və aparılması Mehmandarovun hərbi nazr kimi izlədiyi əsas xətt idi. Konkret tarixi şəraitdə Azərbaycanda türk və rus hərbi təcrübələrinin təsiri olmasına baxmayaraq, o, həmin təcrübələrin ən yaxşı cəhətlərindən məhz milli zəmin, şərait və ənənə əsasında istifadəsinə üstünlük verirdi. Milli məqamları Cümhuriyyət ordusu hərbi qulluqçusunu xalqına daha da yaxınlaşdıran, vətəninə daha da dərindən bağlayan dəyərlər kimi qiymətləndirən Mehmandarov orduda rəsmi dilin Azərbaycan dili oolduğunu elan edərək, azərbaycanlı döyüşçülərin Qurani-Kərimin altından keçməklə, Vətənə sədaqət Andı içmələrini vacib saydı, Azərbaycan dilinin öyrənilməsi üçün göstəriş verdi, əsgərlərin marşları Azərbaycan dilində oxunmasını tələb etdi, milli və tarixi rəmzləri özündə əks etdirən döyüş bayraqlarının və geyim formalarının layihələrini təsdiqlədi. Azərbaycan xalqının zəngin hərbi tarixinin öyrənilməsinə və hərbi qulluqçulular arasında yayılmasına, hətta əsgərlərin qidalanmasında milli xörəklərin üstünlük təşkil etməsinə göstəriş verdi.

Mehmandarov Hərbi Nazirlikdəki fəaliyyətinin ilk günlərindən qoşunlardakı vəziyyətlə tanışlıq məqsədilə hərbi hissələrdə olmuşdur. Bunun nəticəsində aşkara çıxan fərarilik, çağırış-səfərbərlik işinin düzgün qurulmaması kimi ciddi

nöqsanları aradan qaldırmaq, əhalidə orduya inam yaratmaq üçün Mehmandarov xalqa müraciət etdi. 1919-cu il fevralın 25-də Parlamentdəki proqram xarakteri çıxışında, habelə digər əmr və yazışmalarında imkanlı şəxslərin övladlarının xidmətdən yayındırılmasını sərt tənqid etdi. Əhalinin hərbi xidmət yaşı çatmış bütün kateqoriyalarının orduya cəlb edilməsi üçün çağırış və səfərbərlik işinin yeni sistemi tətbi'q olundu, bu sistemi işlək vəziyyətə gətirəcək orqanların şəbəkəsi genişəndirildi, fərarilərin, habelə imkanlı şəxslərin xidmətdən yayınan övladlarının xidmətə qaytarılması üçün daxili işlər orqanları ilə əlaqələr gücləndirildi. Fərarilik və xidmətdən yayınmanın əsas səbəblərindən biri olan xidmət şəraitinin yaxşılaşdırılması üçün mütəmadi addımlar atılmağa başlandı.

Ordunun çevik və işlək strukturları və idarəetmə orqanları yaradıldı, konkret tarixi şəraitdə Azərbaycanın hərbi təhlükəsizliyinin daha səmərəli təmin eilməsi vəzifələrinə uyğun olaraq, bu struktur idarəetmə orqanları daha da təkmilləşdirildi, ordunun maddi-texniki təhcizatının yaxşılaşdırılması və döyüş hazırlığının yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirildi.

Denikin qoşunlarının hücum təhlükəsinin qarşısını almaq məqsədilə Bakı ətrafında və şimal sərhədi boyunca güclü müdafiə sisteminin yaradılması, Lənkəran bölgəsindəki separatçılığın aradan qaldırılması üçün planlaşdırılan döyüş tapşırığının icrasının təşkili, habelə 1920-ci il martın sonlarında Qarabağda erməni təcavüzünün qətiyyətlə dəf olunması və Cümhuriyyətin ərazi bütövlüyünün təmin edilməsi Mehmandarovun hərbi nazir kimi fəaliyyətinin dəyərli nəticələri idi. Həm Qarabağ istiqamətində, həm də Qazax-Tovuz bölgəsində genişlənən erməni təcavüzünün qarşısının alınması üçün ölkənin hərbi potensialını məharətlə istiqamətləndirən Mehmandarov, strateji təşəbbüsü öz əlində saxlamaqla, Azərbaycanın hərh tarixinə layiqi səhifələr yazdı.





Aprel işğalı (1920) ilə əlaqədar Mehmandarov vəzifəsindən istefa verdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələr onu Gəncə üsyanının təşkilində günahgar bilərək, 1920-ci il iyunun 4-də Ə.Şıxlinski ilə birlikdə həbs etdilər. Yalnız Nəriman Nərimanovun işə qarışmasından sonra Mehmandarov bolşevik terrorundan xilas oldu və Ə. Şıxlinski ilə bərabər bir il Moskvada yaşamaq məcburiyyətində qaldı. Mehmandarov 1921-ci ilin yayında Bakıya qayıdaraq, Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında işə düzəlmiş, 1924-28 illərdə Birləşmiş Komandirlər Məktəbində müəllim işəmiş, 1929-cu ildə isə təqaüdə sıxmışdır. Cənbərəkənd qəbirsanlığında dəfn edilmişdir. (31,32,48,151, 241, 252)



**Şıxlinski Əlağa İsmayıl ağa oğlu** (23.4.1865, Qazax qəzasının Qazaxlı k. – 18.8.1843, Bakı) – Azərbaycanın görkəmli hərbi xadimi. Çar Rusiyası və Azərbaycan ordusunun generalı, tanınmış hərbçi alim. Tiflisdə özəl gimnaziya (1876), Tiflis hərbi gimnaziyasını (1883), Peterburqda artilleriya məktəbini (1886) bitirmişdir. Aleksandropoldakı (Gümrü) 39-cu topçu briqadasına təyinat alaraq, 1900-cu ilədək bu briqadada xidmət etmiş, kapitan rütbəsinə qədər yüksəlmişdir. 1900-cu ildə Zabaykalye əlahiddə artilleriya diviziyasına göndəriş alan Şıxinski 1902-ci ilin mayında müvvəqəti olaraq, Peterburqa 6 aylıq kursa göndərilmiş Səməd bəy Mehmandarovun yerinə 2-ci batareya komandiri vəzifəsinin icraçısı təyin edilmişdi. Şıxinski 4-cü Şərqi Sibir atıcı-topçu briqadasının tərkibində 1904-05-ci ilər Rusiya – Yaponiya müharibəsində iştirak etmişdir. Müharibənin gedişində göstərdiyi igidliyə görə Şıxlinski 4 ordenə, podpolkovnik

rütbəsinə və bir sıra qiymətli hədiyyələrə layiq görülmüşdü. Şıxlinski 1905-ci ilin mayında Odessa hərbi dairəsinin 15-ci artilleriya briqadasına, bir ildən sonra isə Sarskoye Selodakı topçu zabitlər hazırlayan məktəbə göndərildi. 1906-cı ilin avqustunda təhsilini başa vurub briqadaya qayıtsa da, 1907-ci ilin əvvəlində Şıxlinski artilleriyadan dərs demək üçün yenidən həmin məktəbə dəvət olundu. 1908-ci ildə orada işləyərkən ona polkovnik rütbəsi verilmişdi. 1912-ci ildə general-mayor rütbəsinə layiq görülən Şıxlinski 1914-cü ildə bir müddət Sarskoe Selo topçu zabit məktəbinin rəisi vəzifəsini icra etmişdir. Şıxlinski 1914-cü ilin sentyabrında Petroqradın artilleriya hücumundan müdafiəsinin rəisi olmuş, 1915-ci ilin əvvəlində Şimal-Qərb cəbhəsi komandanının sərəncamına göndərilmiş, həmin ilin mayından komandanın tapşırıq generalı vəzifəsinə təyin edilmişdi. 1916-cı ilin aprelində Şıxlinskiyə Qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsi həvalə olundu. 1917-ci ilin aprelində general-leytenant rütbəsinə layiq görülən Şıxlinski həmin il sentyabrın 10-da Qərb cəbhəsi 10-cu ordusunun komandanı təyin edilmişdi. Ancaq iki ay sonra Şıxlinski səhhəti ilə əlaqədar həmin vəzifədən azad olunaraq, Qafqaz hərbi dairəsinin ehtiyatına göndərildi.

Şıxlinskinin rus ordusu sıralarındakı xidməti «Müqəddəs Stanislav» ordeninin hər üç dərəcəsi ilə, «Müqəddəs Anna» ordeninin hər dörd dərəcəsi ilə, «Müqəddəs Vladimir» ordeninin 2-3 və 4-cü dərəcələri ilə, «Müqəddəs Georgi» ordeninin 4-cü dərəcəsi ilə, xarici orden və medallarla, qiymətli hədiyələrlə qeyd ounmuşdur.

Şıxlinski 1917-ci il dekabrın 11-dən təşkilinə başlanan Müsəlman Korpusunun komandiri təyin edildi. Onun rəhbərliyi altında korpusun tərkibinə daxil olan iki piyada diviziyasının, xüsusi süvari briqadasının, iki nişançı-topçu briqadasının zabit-komanda heyəti formalaşdırıldı, azərbaycanlı əhali arasında çağırış işinin əsası qoyuldu, qoşun hissələrində döyüş hazırlığı təşkil olundu, milli kadr hazırlığı





üçün ilk hərbi məktəbin yaradılmasına cəhd göstərildi. 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun bazasında yaradılmış Əlahiddə Azərbaycan Korpusunun da komandiri Şıxlinski idi. O, Qafqaz İslam Ordusunun tərkibinə daxil olan Azərbaycan qoşun həssələrinin və könüllü dəstələrinin döyüş fəaliyyətini izləmək və təşkil etmək üçün dəfələrlə cəbhə xəttinə getmiş, Bakının azad olunması (1918) əməliyyatının keçirilməsi zamanı da şəhər ətrafındakı qərargahdan döyüşlərin idarə olunmasında bilavasitə iştirak etmişdir.

1918-ci il dekabrın 29-da Şıxlinski Azərbaycan Xalq Cümhuriyyəti hərbi nazirinin müavini təyin edildi, artilleriya və istehkamçı hissələrinə, habelə hərbi-təhsil müəssisələrinə və texniki müəssisələrə, artilleriya və istehkam anbarına nəzarət ona həvalə olundu. 1919-cu ilin əvvəlində isə Şıxlinski qoşun hissələrinin, idarə və müəssisələrin ştatlarının maaş cədvəllərini hazırlayan komissiyanın sədri təyin edildi. Azərbaycan ordusunun şəxsi heyətinin geyim formasının layihəsini hazırlamaq da bu komissiyaya tapşırıldı.

1919-cu il yanvarın 10-da Şıxlinski hərbi nazirliyin Müvəqqəti Hərbi Şurasının üzvü təyin edildi və Hərbi Şuranın əsasnaməsini hazırlamaq ona tapşırıldı. O, 1919-cu ilin yanvarında təsdiq edilmiş kiçik və böyük hərbi şuraların üzvü idi. Böyük hərbi Şura Şıxlinskinin sədiriyi ilə toplaşırdı.

Şıxlinski Türkiyənin Aydın vilayətində ermənilər tərəfindən törədilmiş qətliama məruz qalmış minlərlə türk vətəndaşlarına yardım göstərmək məqsədilə yaradılmış ianə komitəsinə sədrlik etmiş və bununla bağlı olaraq, 1920-ci il martın 16-da Azərbaycan vətəndaşlarına müraciət etmişdir.

Aprel işğalından (1920) sonra qısa müddət qırmızı ordu sıralarında xidmətini davam etdirən Şıxlinski 1920-ci ilin iyulunda bolşevik həbsinə məruz qalsa da, Nəriman Nərimanovun müdaxiləsi ilə həbsdən azad edilmişi. 1920-ci ilin avqustunda S.Mehmandarov ilə birlikdə Şıxlinski Baş qərargahda işləmək üçün Moskvaya göndərilərkən N.Nərimanov V.İ.Leninə yazmışdı: «... Biz onları Qərargahda

işləmək üçün Sizin sərəncamınıza göndəririk, çünki bir hərbi mütəxəssis kimi onlar əvəzedilməzdir. Onlardan biri – Şıxlinski Nikolay ordusunda «artilleriyanın allahı» hesab olunurdu...». 1921-ci ilin yayında onların hər ikisi yenidən Azərbaycana qayıtmış və xalq hərbiyyə və bəhriyyə komissarlığında xidmətə qəbul edilmişdir. Şıxlinski Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin sədr müavini, 1924-cü ildə Azərbaycan birləşmiş hərbi məktəbinin rəis müavini, 1925-ci ilə Azərbaycan hərbi tərcümə kollegiyasının redaktoru təyin ounmuşdu. Səhhəti ilə əlaqədar 1929-cu ildə istefa verərək, təqaüdə çıxmışdı.

Şıxlinski artilleriya nəzəriyyəsinə yeniliklər («Şıxlinski üçbucağı», «Şıxlinski formulu») gətirmişdir. «Cəbhədə səhra toplarının işlədilməsi», «Rusca-türkcə müxtəsər hərbi lüğət» kitablarının, «Öz qoşunlarının başı üzərindən atəş», «Gələcək müharibə», «Dağlıq şəraitdə topçu atəşinin xüsusiyyətləri və s. məqalələrin müəllifidir».

1942-ci ildə görkəmli Azərbaycan filosofu, o zaman SSRİ EA Azərbaycan filalının sədr müavini olan Heydər hüseynovun təklifi ilə Şıxlinski öz xatirələrini yazmağa başlamış, 1944-cü ildə tamamlayaraq rus dilində çap etdirmişdir. «Xatirələrim» 1984-cü ildə Azərbaycan dilində çap olunmuşdur. (56,64a).








Yanvarın 9-da, səhər onda başlayan qanlı döyüş 4 gün davam etdi. 2 mindən çox rus əsgəri öldürüldü və yaralandı. 15 min tüfəng, 70 pulemyot və 20 top ələ keçirildi. Azərbaycan tərəfindən 15 nəfər, gürcülərdən isə 40 nəfər əsgər şəhid odu. Güclü müqavimətə rast gələn rus əsgər və zabitləri perrona çıxıb ağ bayraq qaldırdılar. «Lənət olsun, biz bu silahları verməyə çoxdan razıyıq, bircə evimizə sağ və salamat gedə bilək» deyib silahları təhvil verdilər.

Bu, Sovetlər hakimiyyətinə qarşı gürcü və Azərbaycan xalqının ilk silahlı mübarizəsi idi. Sonralar isə kommunistlər bu üsyanı «qardaş qırğını» və «Azərbaycan burjua hökumətinin ruslara divanı» kimi qiymətləndirdilər.

Bakıda daşnak Şaumyan başda olmaqla Qafqaz Ölkə Komitəsi bərk qəzəblənib bildirdi ki, «Şamxor cinayətkarları inqilabi məsuliyyətə alınacaq və Zaqafqaziya komissarlığını devirib, Zaqafqaziya fəhlə, əsgər və kəndli deputatları Sovetlərinin hakimiyyətini təşkil edəcəkdir».

Lakin tarixi dönüşlər daşnak Stepan Şaumyana bəd niyyətlərini həyata keçirməyə imkan vermədi. Onu 1918-ci il sentyabr ayında iyirmi altılarla birgə güllələdilər.

1919-cu il yanvarın 15-də hərbi nazirlik yanında Baş qərargah təsis olundu. Göstərilən səylər nəticəsində iki ildən də az bir müddətdə təxminən 30 min nəfərlik ordu yaratmaq mümkün oldu. Ordunun quruluşu aşağıdakı kimi idi: hər diviziya (istər piyada, istər süvari) üç polkdan və hər polk 3500 süngüdən ibarət idi. Hər polkda 3 batalyon, hər batolyonda isə 4 bölük var idi. Hər batalyon min əsgərdən ibarət idi. Xüsusi xidmət vəzifəsinə malik olanlar 80-100 adamdan ibarət idi.

Öz fəaliyyətinin başlanğıcında Azərbaycan hökuməti Xəzər dənizinə çıxışdan məhrum idi. Yarım il ərzində nəinki dəniz ticarətini qaydaya salmaq, hətta 6-7 gəmidən ibarət hərbi-dəniz donanması yaratmaq da mümkün oldu (245a). 1919-cu ilin iyulunda üsyançı ruslar tamamilə tərksilah edilərək, onlardan 24 top və 6 pulemyot zəbt edildi. Bütün

səfər zamanı hissədə heç bir intizamsızlıq baş verməd iyi kimi, hərbi nazirin orduya müraciətlə nəşr olunan əmrində ayrıca qeyd olunduğu üzrə, əhalinin hüququna da fövqəladə dərəcədə riayət edilmişdi.

Digər bir səfər Zəngəzur vilayətinə icra edildi. 1919-cu ilin oktyabrında başlanan səfər bir aydan artıq davam etdi. Azərbaycan ordusu ermənilərə qarşı güclü hücuma keçərkən, Ermənistan hökuməti Gürcüstanda olan ingilis komissarına müraciət etdi və onun məsələyə ciddi müdaxiləsi nəticəsində hücum dayandırıldı.



*Milli ordu hissələri döyüş hazırlığı düşərgəsində. 1919*

Nəhayət, Azərbaycan ordusu bütün qüdrətini Qarabağda, «Əsgəran müharibəsi» adı ilə məşhur olan döyüşdə isbat etdi. 1920-ci ilin martında Novruz bayramı gecəsi ermənilər qiyam qaldıraraq, Əsgəran keçidini tutdular. Qiyamçılara Yerevandan göndərilən nizami erməni ordusu kömək edirdi. Əsgəranı tutmaqla ermənilər Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırıb, vilayətin əhalisini əsarət altına almışdılar. Qiyamı yatırmaq üçün Azərbaycan hökuməti Əsgəran cəbhəsinə general Səlimovun başçılığı altında qüvvətli bir ordu göndərdi. Aprelin 3-də səhər tezdən Azərbaycan





ordusu hucuma keçdi. Həmin gün ermənilər tədricən geri çəkilməyə başladılar. Əsgəran qalası üzərində yenə də Azərbaycan bayrağı dalğalanmağa başladı. Ertəsi gün Şuşa qalası da qiyamçılardan təmizlənərək, gözətçi əsgərlərə təhvil verildi. Döyüş əməliyyatları qiyamçıların və nizami erməni hissələrinin tam məğlubiyyəti ilə nəticələndi.



*Azərbaycan milli ordusu zabitlərindən bir qrupu. Qarabağ, 1920*

Faktlar belə nəticəyə gəlməyə imkan verir ki, ADR mövcudluğunun cəmi 23 ayı ərzində möhkəm intizama, yüksək döyüş qabiliyyətinə malik, respublikanın suverenliyini qoruya biləcək bir milli ordu yarada bilmişdi.

### Azərbaycan ordusunun quruluşu (mart 1920)

XI Qızıl Ordu Azərbaycanı işğal etdikdən sonra general Səlim bəy güllələndi.

Çar ordusunda xidmət edən və sonradan Azərbaycan ordusuna keçən bəzi Azərbaycan generallarının adları (onların hamısı güllələnmişdir):




## Hərbi nazirlik aparatının strukturu (noyabr 1918)




1. Diviziya generalı Hüseyn Naxçıvanlı;
2. Diviziya generalı Həmid Qaydabaşı;
3. Diviziya generalı Şahzadə Qasım Qacar;
4. Diviziya generalı Yadigarov;
5. Diviziya generalı Murad Gəray Dilxas;
6. Diviziya generalı Sulkeviç Süleyman bəy;
7. Diviziya generalı İbrahim ağa Vəkilov;
8. Diviziya generalı Çxeidze (hərbi məktəbin müdiri). (245).

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun 1918-1920-ci illərdəki fəaliyyəti xalqımız qarşısında əvəzsizdir. Onun Milli Ordunun yaradılmasındakı müstəsna rolu,





1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti əsgər və zabit heyəti qarşısında ata nəsihətli (həmin il Səməd bəy Mehmandarovun 63 yaşı vardı) çıxışları və nəhayət, güclü vətən təəsübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Səməd bəy Mehmandarov haqlı olaraq yazırdı ki, düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərinsində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Resupblikasının yaranmaqda olan gənc ordusuna xüsusilə zəruridir. Yuxusundan yenicə oyanmış xalqda sağlam milli hissləri və vüqarı qaldırmaq üçün qoşunlarımızın tarixi keçmişi ilə tanış etməliyik.

Hərb tariximizi zənginləşdirən tam artilleriya generalları – Səməd bəy Mehmandarovun və Əliağa Şıxlinskinin rəhbərliyi ilə onların silahdaşları general Həbib bəy Səlimovun, Məmməd bəy Sulkeviçin, Şahzadə Əmir Kazım Mirzə Qacarın, Cavad bəy Şıxlinskinin, Murad Gəray bəy Tlexasın, Əbdülhəmid bəy Qaytabaşının misilsiz fəaliyyəti olmuşdur.

Port - Arturda, Birinci cahan savaşında və 1918-1920-ci illərdə şərəfli döyüş yolu keçən general Səməd bəy Mehmandarovun haqqında araşdırmalar apardıqca, o illərin sənədlərində və qəzetlərində onun çıxışlarına, nitqlərinə rast gəlmək olur.

1991-ci ildən başlayaraq, Silahlı Qüvvələr quruculuğu müddətini üç əsas dövrə bölmək olar: Birinci dövr 30 avqust 1991-15 may 1992-ci il, ikinci dövr 15 may 1992 – 2 noyabr 1993-cü il, üçüncü dövr isə noyabr 1993-cü ildən sonrakı illəri əhatə edir. Lakin bununla bərabər, 1991-ci ilə qədərki dövrü tarixin səhifəsindən silmək də qeyri – mümkündür. Məhz bu dövrdə yaradılan müqavimət dəstələri Azərbaycan müdafiə qüvvələrini əvəz etmiş və onun sələfi rolunu oynamışdır. Lakin Silahlı Qüvvələrin dövlət tərəfindən yaradılması və rəhbərlik edilməsi səbəbindən onun yaradılma dövrünün başlanğıcı kimi 1991-ci il götürülür.

Bu ulu diyar ta qədimdən XX əsrin ortalarınadək isti-

laçıların «məşq meydanı» olub. Bədxahlarımız bu müqəddəs diyarın bütövlüyünü heç vaxt görmək istəməyiblər. Əksinə, onun qol-budağını kəsə-kəsə, sinəsinə çalın-çarpaz dağlar çəkə-çəkə dilim- dilim doğrayıb, parça-parça qoparmaq iştahası ilə yaşayıblar. Başı bəlalar çəksə də Ulu Qorqud yurdu öz qürurunu qoruyub. Heç vaxt düşmənə diz çökməyib.

Bütün bunlara baxmayaraq, Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri Azərbaycan tarixinin qara ləkələridir. Rusiya-İran müharibəsi Gülüstan müqaviləsi ilə nəticələndi. Şimali Azərbaycan Rusiyanın işğalı altına keçdi. 1828-1829-cu illərdə Rusiya-Türkiyə müharibəsi zamanı isə İrəvan və Naxçıvan xanlıqları işğal edildi. Daha sonra Zaqafqaziya seyminin dağılması, daşnak hökümətinin yaranması, İrəvan qəzasının ermənilərə güzəştə gedilməsi və nəhayət, 20-ci illərdə Qarabağın dağlıq hissəsində ermənilərə muxtariyyət verilməsi Azərbaycan tarixinin qara səhifələridir. Tarixin qanlı cinayətləri nəticəsində Azərbaycan Cənuba, Şimala, Qərbə bölündü və bir-birindən təcrid olundu. Böyük imperiya-Rus çarizmi dövründə müxtəlif istiqamətdən Azərbaycanın köksünə və kürəyinə zərbələr tuşlandı və din düşmənlərimiz İrandan, Türkiyədən qovulmuş erməniləri qədim türk-oğuz diyarının dilbər güşələrində məskunlaşdırdılar. 70 illik keçmiş Sovet rejimi zamanı ermənilərin əl-qolu daha da açıldı. «Böyük Ermənistan» yaratmaq xülyasına düşdülər.

Beləliklə, Azərbaycan ərazisində sığınacaq tapan və əsrlər boyu süfrəmizin nemətləriylə daşnaklar qədim türk-oğuz yurdu olan Qərbi Azərbaycanı «azərbaycanlısız «Ermənistan»a çevirldilər. Əsrin əvvəlindən 90-cı illərədək soydaşlarımızın başına müsibətlər aça-aça son nəfərə kimi deportasiyaya uğratdılar. Qədim tarixi olan, VII əsrdən tanınan və Səfəvilər hakimiyyəti dövründə daha da tərəqqi edib qalalar, məscidlər, abidələr məskəni kimi məşhurlaşan İrəvan xanlığı bütövlükdə xainlər əlində qaldı... 1800-cü ildə Qərbi Azərbaycanın kəndləri hissə-hissə talan edildi, dağıdıldı və





adları saxtalaşdırıldı. 1920-ci illərdən bu iş sürətləndirilməyə başlandı və 1948-1953-cü illərdə azərbaycanlıların kütləvi surətdə köçürülməsilə nəticələndi. 1980-1990-cı illərdə deportasiya son həddə çatdırıldı. Hələ bu azımış kimi, üstəlik dünyaya car da çəkdilər ki, guya «zavallı ermənilər» blokada şəraitində yaşayırlar.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdiyi, milli istiqlal yoluna qədəm qoyduğu bir dövrdə hərbi-fiziki tərbiyənin yeniləşməsi mühüm vəzifələrdən biri kimi qarşıda durur. Müasir şəraitdə ölkədəki çətinliklərə baxmayaraq, bir an belə hərbi-fiziki tərbiyəyə laqeydlik nəticə etibarilə gənc nəslin sağlamlığına, hərbi işə, mənəviyyata böyük ziyan vura bilər.

Bu gün Azərbaycanın hərbi-fiziki tərbiyəsinə dair biliklərə, gənclərin vətənpərvərlik, milli vüqar və döyüş ənənələri əsasında tərbiyəsinə ciddi təsir göstərə bilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin fikirincə, vətənpərvər olmaq üçün üç şərt vacibdir: «Birincisi budur ki, vətənpərəst olmaq istəyən şəxs gərək öz vətəninin tarixini, ədəbiyyatını, coğrafiyasını yaxşıca bilsin. İkinci budur ki, gərək o şəxsin bir peşəsi olsun ki, əməlləri ilə vətənə bir xeyir verə bilsin. Üçüncüsü budur ki, gərək vətəninin xeyir-şərini öz xeyir-şərindən vacib hesab etsin, özünü vətənə fəda etməkdən qorxmasın. O şəxsdə ki, bu üç şərt yoxdur, onda Vətən barəsində danışmağa dəyməz».

Azərbaycan Respublikası gənclərinin I forumunda milli lider Heydər Əliyev demişdir: «Müstəqilliyimizi qoruyub saxlamaq üçün Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, qoruyub saxlamaq lazımdır. Biz bu yolda da çalışırıq. Bildiyiniz kimi Azərbaycan müstəqilliyini ağır və çətin bir dövrdə alıbdır. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz nəticəsində Azərbaycanda ictimai-siyasi vəziyyət gərginləşib. Bu təcavüz nəticəsində Azərbaycanın torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur, Azərbaycanın sərhədləri pozu-

lubdu, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Müharibə gedibdir, cürbəcür səbəblərdən Azərbaycanın torpaqları işğal olunubdur. Ancaq biz müharibəni dayandırmışıq və məsələlərin sülh yolu ilə həll olunması ilə məşğuluq.

Dövlət quruculuğunda Azərbaycanın müdafiə imkanlarının yaranmasının mühüm rolu vardır. Müstəqil Azərbaycanın müstəqil bir dövlət kimi bütün dövlət atributları olmalıdır. Onlar yaranır və yaranma prosesi gedir. Təəssüf ki müstəqillik əldə olunandan sonra bu proseslərin müvəffəqiyyətlə aparılması üçün zaman itirilmişdir, vaxt itirilmişdir, böyük fürsətlər əldən verilmişdir. Ancaq biz son zamanlar bu işlərlə ciddi məşğuluq. Bunlardan biri, dediyim kimi, Azərbaycanın müdafiə imkanlarının yaranması, Azərbaycanın müstəqilliyini təmin edən ordusunun yaranmasıdır. Ordu quruculuğunda böyük səhvlər buraxılıbdır, böyük günahlar edilibdir, hətta xəyanətlərə də yol verilibdir. Məhz bu xəyanətlərin nəticəsində, gedən müharibədən ayrı-ayrı adamların öz mənafeyi üçün istifadə etməsi nəticəsində vaxtında bizim nizami ordumuz yaranmayıbdır. Ordunun yaranması tarixi dörd ildir, (1996) ancaq həqiqi ordu, - mən bu gün bunu sizə tam qətiyyətlə demək istəyirəm, - 1993-cü ilin noyabr ayından sonra yaranmağa başlayıb. O vaxta qədər vaxt itirilibdir və keçmiş sovetlər ordusundan Azərbaycanın payına düşmüş böyük hərbi potensial, silahlar, sursatlar, hərbi texnika, böyük hərbi bazalar, - Azərbaycanın ərazisində bunlar çox olubdur, - dağıdılıb, mənimsənilib. Bunlar hamısı Azərbaycan ordusunun yaranmasına zərbələr vurubdur və Azərbaycan xalqını böyük xəyanətlərə gətirib çıxarıbdır. Açıq demək lazımdır, əgər 1991-ci ilin sonunda Azərbaycan müstəqillik aldığı zaman keçmiş sovet ordusunun, Azərbaycan ərazisində olan potensialı, Azərbaycana çatmış potensialı qorunub saxlanılsaydı, ondan səmərəli istifadə olunsaydı nə bu cür məğlubiyyətilər ola bilərdi, nə də bizim müdafiə potensialımız indi belə vəziyyətdə ola bilərdi. Ona görə də Azərbaycanda ordu quruculuğu iki tərəfdən şi-





kəst olubdur: bir tərəfdən onun sərəncamında olan o böyük hərbi-texnika, silah potensialı, baza potensialı dağıdılıbdır, ikinci tərəfdən də hərbi quruculuqla məşğul olmaq əvəzinə cürbəcür, ayrı-ayrı batalyonlar yaradaraq, o dövrdə hərə öz məqsədləri üçün istifadə edibdir.

1993-cü ilin noyabr ayından biz hərbi quruculuğa başlamışıq və hərbi quruculuq, ordu yaranmasçı prosesi gedir. Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduya xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. Ona görə də mən bunu gənclər təşkilatlarının əsas vəzifəsi hesab edirəm. Hər bir Azərbaycan gəncinə isə gənclik vaxtına çatana qədər özünü orduda xidmət etmək üçün hazırlamağı tövsiyə edirəm. Ancaq gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin. Əksinə, orduda xidmət etməmiş gənc gərək düşünsün ki, cəmiyyətdə o, hansı borcunu yerinə yetirməlidir. Dünyanın bir çox ölkələrində, o cümlədən bizə qonşu və bizə dost olan Türkiyədə hər bir gəncin orduda xidmət etməsi onun şərəfli borcudur və o gənclər çalışırlar o borcu layiqli yerinə yetirsinlər.

Bizim güclü ordumuz olmalıdır. Ona görə yox ki, biz yenidən hərbi əməliyyatlara başlamaq istəyirik. Yox, sadəcə olaraq müstəqil Azərbaycan Respublikasının özünəməxsus güclü ordusu olmalıdır. Bəli, 1970-ci ildə mən Azərbaycanın gələcəyini düşünərək, Bakıda xüsusi bir hərbi məktəbin yaranmasına nail oldum. O məktəbə Cəmşid Naxçıvanskinin – bizim qəhrəman generallardan birinin adı verildi. Artıq 25 ildir ki, bu məktəb fəaliyyət göstərir (1996).

Mən indi düşünürəm ki, - əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki, bu zabitlərimizin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra biz ildə təxminən 800-900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəb-

lərinə göndərirdik. O cümlədən Bakıda yerləşən iki ali hərbi məktəbdə, -onlar indi bizim ixtiyarımızdadır, - zabitlər hazırlayırdıq. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir.

Xalqımızın ümummilli lideri H.Əliyev beynəlmiləlçi-gənclərlə görüşdə xalqa müraciətində demişdir: «Lazımi qaydada müharibə edə bilmək üçün möhkəm və mütəşəkkil arxa lazımdır. Ön cəbhə ilə arxa cəbhənin vəhdəti, xalqın öz xilaskarına maddi və mənəvi qələbənin qazanılmasında mühüm rol oynayır».

İnsanın doğulduğu və yaşadığı əraziyə, mənsub olduğu xalqa və xalqın dilinə, mədəniyyətinə, adət-ənənələrinə məhəbbət və qayğı hissləri əsrlərdən-əsrlərə keçmiş, hamının qəlbində və şüurunda dərin kök salmışdır. Vətənə seyirçi münasibət, onun gözəlliklərindən, sərvətindən passiv surətdə zövq almaq, doğma torpağını sevmək, onun yolunda qurban olmaq istəyəni ancaq sözlə ifadə etmək vətənpərvərlik hissinə yaddır. Azərbaycan xalqı minilliklər boyu dərin mənəviyyata, yüksək mədəniyyətə malik olmuş, müxtəlif dövrlərdə bir sıra görkəmli Azərbaycan ziyalıları öz zəngin daxili mənəviyyatları ilə mədəniyyətimizi daha da inkişaf etdirmiş, eyni zamanda dünya mədəniyyətinə misilsiz töhfələrini vermişlər. Bu tərəqqi ideyalara əsaslanaraq, ömrünü şam kimi əridərək, əsl vətənpərvərlik nümunəsi göstərərək millətin tərəqqisi naminə gecə-gündüz çalışmışlar. Belə görkəmli ziyalılarımzdan biri, XX əsrin axırı XXI əsrin əvvəllərində 34 ildən artıq Azərbaycana xidmət etmiş xalqımızın ümummilli lideri Heydər Əliyevin vətənpərvərlik tərbiyəsi diqqətə layiqdir. Onun müdrik rəhbərliyi və siyasəti sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni həyatın bütün sahələrində böyük uğurlar qazanaraq, təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanınmağa başladı.

Qarabağ məsələsində də Heydər Əliyevin mövqeyi həmişə birmənalı və prinsipial olmuşdur. Onilliklər boyu ermənilər Azərbaycanın bu tarixi ərazisini Ermənistana birləşdirilməsi uğrunda çalışmış, bu məqsədə çatmaq üçün dəfələrlə keçmiş ittifaqın rəhbərliyi qarşısında məsələ qaldırmışlar. Hələ 1960-cı illərin axırında onlar növbəti dəfə baş qaldıranda, bu siyasi fitnəkarlığa qarşı o zaman dövlət təhlükəsizlik orqanında yüksək vəzifə tutan Heydər Əliyev qeyrətli, sərt və barışmaz mövqeyini bildirmişdir.





1969-cu ildə H.Əliyevin respublikaya rəhbər seçilməsi erməni təxribat və təcavüzlərinin qarşısını aldı. Onun xalqımızın milli-mənəvi köklərinə bağlılığı, tariximizə dərindən bələdliyi, siyasi sayıqlığı və milli mənafeyi hər şeydən uca tutması qana susamış erməni iddialarına sipər çəkdi.

Müstəqilliyimiz dövründə də xalqımızın ümummilli lideri H.Əliyevin müstəsna siyasi müdrikliyi, sarsılmaz qətiyyəti və fövqəladə tədbirləri sayəsində xalq daha bir faciədən xilas oldu, dövlətçilik qorunub saxlanıldı, xaricdən dəstəklənən hərbi-siyasi müxalifətin daha bir cəhdi boşa çıxdı. Dövlətimiz öz qüdrətini nümayiş etdirdi, konstitusiya quruluşuna qarşı yönəldilmiş qiyamın qarşısı alındı, ictimai təhlükəsizlik və sabitlik təmin edildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı, gənc və qətiyyətli Azərbaycan Prezidenti, Ali Baş Komandan İham Əliyev C.Naxçıvanski adına hərbi litseydəki çıxışında vurğuladı ki: «Biz Ermənistan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. İstəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın və bir milyondan artıq soydaşımız öz doğma torpaqlarına qayıda bilsin. Ancaq eyni zamanda, biz güclü ordu yaratmalıyıq. Güclü hərbi potensial yaratmalıyıq ki, istənilən anda öz doğma torpaqlarımızı azad edə bilək. Ölkəmiz bölgədə lider dövlətə çevrilib. İqtisadi potensialımız artır. Ordumuz da güclənir. Bizim siyasətimiz bundan ibarətdir. Mən sevinirəm ki, Azərbaycanda həm ordumuzun maddi-texniki bazası möhkəmlənir, həm də peşəkar ordu kadrları yetişir».

O, dövrdə qələm sahiblərinin, dövlət və hökumət xa-

dimlərimizin özlərinin türkiyəli həmkarları ilə qarşılıqlı münasibəti və qarşılıqlı ünsiyyətlərində də qabarıq şəkildə görünməkdədir. Fikrimizcə, Nuru paşa həzrətlərinin komandanlığı altında fəaliyyət göstərən Qafqaz İslam Ordusu ilə Aəzərbaycan ziyalılarının, şairlərinin görüşləri çox olmuşdur. Bundan başqa, Bakıda türkiyəli ədiblər və hərbi xadimlərlə də çox səmimi və məzmunlu görüşlər keçirilirdi. Belə görüşlərdən biri Qafqaz İslam Ordusunun komandanı Nuru paşa ilə olmuşdu.

Üzeyir bəy Hacıbəyovun «Ü» imzası ilə dərc etdirdiyi «Nuru paşa həzrətləri şərəfinə böyük bir ziyafət» başlıqlı reportajdan bir daha aydın olur ki, bu iki türk xalqı arasındakı əlaqə və münasibətlərin kökü qədim olmaqla, genetik və mənəvi bağlara əsaslanır. Təsadüfi deyil ki, Ə.Ağayev Bakıda İstanbulu, İstanbulda isə Bakını görür». (57).

Xalqımızın ümummilli lideri Heydər Əliyev Türkiyə Respublikasında növbəti səfəri zamanı Türkiyə Böyük Millət Məclisindəki çıxışında həmin günləri və turkiyəli qardaşlarımızın bu xilaskarlıq missiyasını qədrşünaslıqla xatırlayaraq demişdir: «....1918-ci ildə ermənilər Azərbaycanda azərbaycanlıları qırırdılar. Əgər o vaxtlar Kazım Qarabəkir paşa Naxçıvana gəlməsəydi, Türkiyənin Qafqaz Ordusu Bakıya gəlməsəydi, bəlkə də ermənilər azərbaycanlıların hamısını soyqırımı ilə yox edəcəkdilər». (54).

Ermənistanla problemi olan dövlət təkcə Azərbaycan deyil Qardaş Türkiyə Cümhuriyyəti ilə Ermənistan arasında da problemlər yaşanmaqdadır. Daha doğrusu, bu problemləri yaşadan Ermənistan iddiası, qondarma "erməni soyqırımı"nı tez-tez xarici ölkə parlamentlərində qaldırması və Türkiyədən bu "soyqırım"ı tanımağı tələb etməsi vəziyyəti daha da çətinləşdirir. Ermənistanın əsassız iddiaları sonda bu ölkənin gələcəkdə Türkiyə ilə münasibətlərini sual altına qoyur. Bu günün özündə də Türkiyə ilə Ermənistan arasındakı sərhədlər bağlıdır. Bu iki ölkə arasında siyasi, iqtisadi, mədəni əlaqələr demək olar ki, yoxdur. Sözügedən məsələdə





Türkiyənin Ermənistana tələbləri çox dəqiqvə konkretdir: 1. Sərhədləri güc yolu ilə dəyişməyə çalışmayın və Azərbaycanın işğal olunmuş torpaqlarından çıxın; 2. Türkiyənin beynəlxalq müqavilələrlə müəyyən olunmuş sərəhədlərini tanıdığınızı rəsmən açıqlayın. Məsələn, Türkiyənin Şərq bölgələrinə "Qərbi Ermənistan" deməkdən vaz keçin; 3. 1915-ci ildə baş verən qarşılıqlı itkiləri siyasətə qatmayın və bunu "Soyqırım" kimi qələmə verməyin.

Artıq Fransa, Danimarka və digər ölkə parlamentləri bu "Soyqırım" iddialarını qəbul etmişlər. Ermənistan bu və digər dövlətləri ikili münasibətlərinə qataraq beynəlxalq aləmdə Türkiyəyə zərər vurmağa çalışır. Bütün bu haqsızlıqlara baxmayaraq Türkiyə Cümhuriyyəti böyüyür, inkişaf edir və dünyanın aparıcı dövlətlərindən birinə çevrilir. Bunun müqabilində isə Ermənistan hökuməti və onun havadarları yürütdüyü yanlış siyasətin acı nəticələrini görürlər.

Ermənistandan fərqli olaraq, Azərbaycan Cümhuriyyəti ilə əlaqələr artan xətt üzrə inkişaf edir. Azərbaycan Respublikası ilə Türkiyə arasında iqtisadi, sosial, mədəni və digər sahələrdə əlaqələr uğurla qurulur.

Müstəqil dövlət quruculuğu yolunda Azərbaycana siyasi və iqtisadi yardım göstərən Türkiyə Cümhuriyyəti müstəqil dövlətçiliyin əsas atributlarından olan ordu quruculuğu sahəsində də öz potenisalından bəhrəlnməyə geniş imkanlar yaradır. Azərbaycan - Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənərək, Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasında, hərbi təlimlərin keçirilməsində, maddi-texniki bazanın möhkəmləndirilməsində və ordumuzun NATO standartları səviyyəsində qurulmasında mühüm rol oynayır. Bütün bunlar isə həm regional təhlükəsizliyin və sabitliyin qorunmasında, həm də Azərbaycanın Avropa dövlətləri ilə sıx inteqrasiya olunmasında Türkiyənin yardımından səmərəli şəkildə istifadə etməyə və respublikamızın dövlət maraqlarını təmin etməyə geniş imkanlar açır.

# IV FƏSİL

## SOVET RUSİYASININ HƏRBİ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTUNDAN SONRA AZƏRBAYCANLILARIN SOYQIRIMININ DAVAM ETDİRİLMƏSİ

### 4.1. 1920—1953-cü illərdə Sovet hakimiyyətinin antiazərbaycan siyasəti və onun ağır nəticələri

1920-ci ildə Şimali Azərbaycana hərbi təcavüz edən Sovet Rusiyası AXC-ni devirdikdən sonra azərbaycanlılara qarşı ermənilərin əli ilə deportasiya, etnik təmizləmə və soyqırımı siyasətinin ən iyrənc üsullarına əl atdı. Yüksək milli düşüncəyə malik insanların – AXC-ni yaratmış dövlət xadimlərinin, ziyalıların kütləvi şəkildə həbs və təqiblərə məruz qalması əslində soyqırımı siyasətinin davam etdirilməsi idi. Təkcə onu demək kifayətdir ki, 1920-ci ilin mayından 1921-ci ilin noyabrına qədər Sovet Azərbaycanında 48 min nəfər günahsız insan bolşeviklər və kommunist maskası geymiş daşnaklar tərəfindən güllələnmişdi. Bu proses XX əsrin 20-30-cu illərində daha dəhşətli şəkildə, kütləvi surətdə repressiya üsulları tətbiq etməklə həyata keçirilməyə başladı. Bu baxımdan Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N.Y.Solovyovun V.İ.Leninə göndərdiyi «Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz» adlı məlumat məktubu maraqlıdır. Onun mərkəzi hökumətin nümayəndəsi olduğunu nəzərə alsaq, Sovet hakimiyyətinin ilk iki ayında Azərbaycanda yaranmış vəziyyəti qiymətləndirməsi və bu barədə rəyi diqqəti cəlb edir. O yazırdı: «Ziyalılar və burjuaziyanın nümayəndələri həbs olunur və güllələnirdi, bunlar demək olar ki, yalnız müsəlmanlar idilər...»





Həbs edilmiş azərbaycanlıların dəstə ilə küçələrdə aparılması ermənilərdə açıq-aşkar bədxah sevinc doğururdu ki... Sovet hakimiyyətinin təntənəsinin müsəlmanların düşmənlərinin təntənəsi, ümummilli fəlakət olacağı barədə xəbərdarlıq edən müsəlman millətçilərinin irəlicədən dedikləri doğru çıxmağa başlayır.

N.İ.Solovyev daha sonra yazırdı ki, ən kədərli təsir bağışlayan Ermənistanla sərhəd rayonlarda azərbaycanlılardan silahların alınması – bu, müsəlmanların ermənilər tərəfindən qırılmağa məhkum edilməsi demək idi – və ermənilərin Qızıl Ordu tərkibinə və dəmir yollarının mühafizəsinə qəbul olunması idi. O xəbər verirdi ki, Ermənistan Respublikası yaranarkən, onun hüdudlarında 250 müsəlman kəndi var idi. Onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yoxdur.

Böyük dövlət xadimi, filosof - tarixçi M.Ə.Rəsulzadə Bakını Azərbaycanın düşünən beyni, Qarabağı isə onun ürəyi adlandırmışdır. Beyin və ürək Azərbaycan adlı bədənin yaşamasının başlıca amilidir. Xalqın azadlığını birlikdə, öz milli münasibətini dərk etməklə əldə etmək olar. Milli vicdanı olan xalqın içərisində xain tapılmaz.

AK (b) MK bürosu 10 iyul 1920-cidə Qarabağda vəziyyət haqqında xüsusi məsələ müzakirə edərək qeyd etdi ki, hələ Sovet hakimiyyətinin qələbəsinə qədər «Qarabağın kommunistləri... Qarabağı Azərbaycanla sıx bağlayan iqtisadi şəraitə görə onun Azərbaycana birləşdirilməsini zəruri hesab etmişlər».69. Büronun iclasında həmçi-nin qeyd edilmişdir ki, «erməni kəndləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər...», daşnakların başlıca dayaqları bütün vaxt ingilis-amerkan kapitalı ilə dolanan Türkiyədən gələn erməni qaçqınlarından ibraət idi (yenə orada).

Q.K.Orconikidze də bütünlüklə bu nöqteyi-nəzərə qoşulmuşdur. Onun telefonla Q.V.Çiçerinə verilmiş məktubunda deyilirdi: «Azərbaycan Qarabağın və Zəngəzurun dərhal və qeyd-şərtsiz birləşdirilməsi üzərində israr edir;

məncə, bunu etmək lazımdır, belə ki, hər iki qəza iqtisadi cəhətdən Bakıya meyl edir və Erivandan tamamilə ayrı düşmüşdür...»70. Q.K.Orconikidze özünün dəlillərinə xülasə verərək yazırdı: «Mənim fikrim budur – Qarabağ və Zəngəzur dərhal Azərbaycana birləşdirilsin və bu vilayətlərə muxtariyyat verilsin...»(yenə orada).

Bu məktubun əsas məzmunu 1920-ci ilin 19 iyununda Q.K.Orconikidzenin Vladiqafqazdan V.İ.Leninə və Q.V.Çiçerinə göndərdiyi teleqrama uyğun gəlirdi. Teleqramda deyilirdi: «Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edilmişdir və adı çəkilən hər iki ərazi özünü Azərbaycan Sovet respublikasının... hissəsi hesab edirlər... Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın sədrini Moskvaya çağırmaq və onunla birlikdə Azərbaycana və Ermənistana aid olan məsələləri həll etmək lazımdır. Və bunu Ermənistanla müqavilə bağlanana qədər etmək lazımdır».71. Elə bu fikiri Q.K.Orconikidze V.İ.Leninə, İ.V.Stalinə və Q.V Çiçerinə 16 iyul 1920-ci ildə göndərilmiş teleqramda da söyləmişdir.

Sovet respublikası arasında milli-dövlət sərhədləşməsi məsələlərinin həlli üçün əlverişli şərait 1920-ci ilin noyabr ayında Sovet hakimiyyətinin qələbə çalması yaratdı. V.İ.Lenin 1920-ci ilin 2 dekabrında Ermənistanın inqilab komitəsinin sədrinə teleqramada yazırdı:

«Sovet Azərbaycanı hökumətinin başçısı N.Nərimanovun 1 dekabr 1920-ci il bəyanatında deyilirdi ki, «indən belə heç bir ərazi məsələsi əsrlərlə bir-birinə qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların qarşılıqlı surətdə bir-birinin qanını axıtmasına səbəb ola bilməz». (72).

Bəyanatda qeyd olunmuşdu ki, «Dağlıq Qarabağın zəhmətkeş kəndlərinə tam özünü-təyinetmə hüququ verilir». (yenə orada).





## N.Nərimanovun V.İ.Leninə iki məktubu

### Birinci məktub

Əziz Vladimir İliç!

Türkiyə nümayəndə heyəti bizim nümayəndəmiz Behbud Şahtatinski ilə birlikdə Moskvaya gedir. Mən burada Türkiyə nümayəndə heyəti ilə ətraflı söhbət etdim. Mən qətiyyən şübhə etmirəm ki, türklər İngiltərəyə qarşı çıxaraq, özlərinin taleyini sidq - ürəkdən bizimlə bağlamaq istəyirlər. Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Həmin məsələni özlərinin xeyrinə həll etmək üçün maksimum cəhd göstərdilər. Mən Batum və Axaltsıxe barədə danışdım, lakin onlar dedilər: «Erməni məsələsi ölüm-dirim məsələsidir. Əgər biz bu məsələdə güzəştə getsək, kütlə bizim ardımızca get məz. Burası da var ki, həmin məsələnin bizim xeyrimizə həll edilməsi qüdrətimizi artırar».

Şübhəsiz, onlar Antantanın əleyhinədirlər; onlar bizimlə birlikdə son damla qanlarınadək İngiltərəyə qarşı vuruşmağa hazırdırlar, lakin Moskva Erməni Məsələsinə görə türkləri özündən uzaqlaşdırsa, onlar məyus olub, İngiltərəyə üz tuta bilərlər. O zaman nələr baş verə bilər:

Müsəlman Şərqində Avropa imperializminin əsarətindən xilas olmaq naminə ayağa qalxan türklərin azadlıq uğrunda mübarizlər kimi şöhrəti get-gedə artır. Muqəddəs müharibə (cihad) elan etməklə, biz özümüz də buna qismən təkan vermişik. Əgər indi türklərdən üz döndərsək, biz müsəlman Şərqində bütün nüfuzumuzu itirərik, həm də bizim üçün fəlakətli nəticələr verə biləcək Şərq cəbhəsi açmış olarıq. Əgər İngiltərə bu məqamdan istifadə edib, yenə də Polşanın və Rumıniyanın iştirakı ilə Qərb cəbhəsi açsa, dağıntılara məruz qaldığımız bir vaxtda bizim vəziyyətimizi təsəvvür etmək olar.

Əziz Vladimir İliç, fəlakəti irəlicədən görür və Sizdən heç nəyi gizlətməməyi zəruri sayıram. Mənə inanır və heç nəyi gizlətmirlər: vəziyyət barədə və bütün ucqar muxtar respublikaların bizə münasibəti barədə məndə şifahi və yazı-

lı məlumat var. Bütün məlumatlarda Sovet Rusiyasının müstəmləkəçilik siyasəti yeritdiyindən bəhs edilir.

Fövqəladə komissiyanın və Xüsusi Şöbənin agentləri həmin respublikaların hamısında yerli məsul işçiləri vahiməyə salmışlar. Bu orqanlar hər yerdə millətçi axtarır və görmürlər ki, ilk növbədə elə bu orqanların agentləri və Mərkəzdən göndərilmiş başqa işçilər ən kobud millətçilərdir. Bu işçilər Mərkəzin diqqətini cəlb etmək üçün yalan məlumatlar yayır və beləliklə, gərgin şərait yaradırlar.

Bütün bunlar yerli işçilər üçün dözülməz vəziyyət yaradır və Şərqin xilaskarı olmaq etibarilə, Sovet Rusiyasına obıvatelin inamsızlığını gücləndirir.

Hələ keçən il mən təkid edirdim ki, Əfqanıstanı öz tərəfimizə çəkək (Mərkəzi Komitəyə mənim məlumatlarım), ancaq məhəl qoymadılar, hətta Əfqanıstanı bizim əleyhimizə qaldırdılar və müəyyən istiqamətdə Hindistana təsir göstərmək imkanından bizi məhrum etdilər və beləliklə, Türkistanda da vəziyyəti pisləşdirdilər.

Bəzən fikirləşirsən ki, özlərini hər işi Sovet Rusiyasının xeyrinə görənlər kimi göstərmək istəyən yoldaşlar bəlkə də İngiltərənin agentləridir. İş o yerə çatmışdır ki, Sizdən başqa heç kəsə qətiyyən inanmırlar və indiyədək ona görə dözmüşlər ki, müharibə qurtarmaq bilmirdi.

Açığını desək, Buxarada, Xivədə və İranda inqilabdan sonra çox şey itirdik, lakin bütün bunlara baxmayaraq, Şərq Sizə hələ də inanır və öz müqəddəratını təyin etmək barədə Sizin əvvəlki fikrinizin nəhayət, haçan həyata keçəcəyini gözləyir. İndi biz türklərlə müharibəyə başlasaq, bu, bizim Şərq siyasətinin iflasının başlanğıcı olacaqdır. Əgər Qərbdə vəziyyətimiz möhkəm olsaydı, biz bundan qorxub çəkinməzdik.

Mən Sizi xəbərdar etməyə borcluyam: yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır, o, Erməni məsələsinə həddən artıq uyur və məhz Erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır. Mən qəti deyirəm – Qafqazda (Dağıstanda və Gürcüstanda) yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə





saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalayıq. Mən təkidlə deyirəm: məhz bu ittifaq bütün müsəlman Şərqini bizə verər və bunun sayəsində fərsiz Şərq siyasətimiz nəticəsində yaranmış ümumi narazılıq aradan qalxır və bu yolla biz fitnəkarlıq silahını İngiltərənin əlindən almış olarıq.

*(Fevral 1921-ci il)*
*N.Nərimanov***

*Bakıdan göndərilmişdir. V.İ.lenin məktubu 1921-ci il fevralın 19-da oxumuşdur. Sözlərin altından xətləri V.İ.Lenin çəkmişdir. Bax: Marksizm-Leninizm İnstitutunun Mərkəzi Partiya Arxivi, fond 2, siyahı 1, saxlanma vahidi 24503, vərəq 1-2.

**V.İ.Lenin məktubda dərkənar yazmışdır: «Yoldaş Stalin! Rica edirəm 2 kəlmə rəy yazasınız və məktubu MK-nın bütün üzvlərinə göndərib (məxfi) xahiş edəsiniz ki, oxusunlar və aşağı hissəsində qeyd etsinlər ki, oxumuşlar. Sonra məktubu mənə qaytarın. 19/II. Lenin».

Məktubda dərkənarlar və imzalar var: «Qaytarıram». N.Krestinski. L.Serebryakov 22/II-21-ci il. «Oxudum», Zinovyev. 22/II-Radek, A.İ.Rıkov, M.Kalinin.

«Zənnimcə, N.Nərimanov ucqarların əhvali-ruhiyyəsini səciyyələndirməkdə 3/4 qədər haqlıdır». L.Kamenev.

«Oxudum», N.Buxarin. «Əgər səhv etmirəmsə, həmin nümayəndə heyəti artıq gəlmişdir və heç yerdə qəbul edilmir. MK aparatının əməkdaşlarından kimsə mənə dedi ki, onlar gəlmişdilər. Məsələyə bütövlükdə cümə axşamı MK-da baxmaq lazımdır. N.Buxarin».

## İkinci məktub

Əziz Vladimir İliç!

Mən xahiş edirəm, yoldaş Krestinskinin məlumatına ciddi diqqət yetirəsiniz. Sizə artıq məlumdur ki, Ermənis-

tanda Sovet hakimiyyəti devrilmişdir.** Bununla əlaqədar olaraq, mən güman edirəm ki, Türkiyə nümayəndə heyəti ilə danışıqlarda Erməni məsələsi rol oynamamalıdır. Təfsilatı barədə Sizə yoldaş Kamenski məlumat verəcəkdir. Mən Xüsusi Şöbənin Azərbaycandakı fəaliyyətinə də diqqət yetirməyi Sizdən xahiş edirəm. AzK(b)P qurultayı Xüsusi Şöbənin fəaliyyətinə son dərəcə mənfi münasibət bəsləmişdir.***

Biz hazırda Tiflisin 4 verstliyindəyik.

Kommunist salamı ilə

*N.Nərimanov.*
*21/II-21-ci il.*

* Bakıdan, 21 fevral 1921-ci il – Bax: Marksizm-Leninizm İnstitutunun Mərkəzi Partiya Arxivi, fond 2, siyahı 1, saxlama vahidi 24504, vərəq 1.

** Ermənistanda 1921-ci ilin fevral üsyanından söhbət gedir.

*** XI Qızıl Ordunun Siyasi İdarəsinin xüsusi şöbəsindən söhbət gedir. Şöbənin rəisi Pankratov idi.

«Mərkəzi Komitəyə. Yoldaş Stalinə. Surətləri yoldaş Trotskiyə. Yoldaş Radekə» məlumatında Nəriman Nərimanov yazırdı:

«Biləcəridə məni bir para yoldaşlar qarşıladılar və hiss edilirdi ki, mənim gəlişimə çox şad olmuşlar» (Nərimanov Moskvadan 1920-ci il mayın 16-da qayıtmışdı. – T.K.).

«Sizdən əvvəl baş vermiş biabırçılıqlara bəlkə son qoyuldu». Onlar öz fikirlərini belə ifadə etdilər.

...«Azərbaycanı çapıb-talayırlar, ağına-bozuna baxmadan adamları güllələyirlər».

Bir para yoldaşlar məni bu sözlərlə qarşıladılar.

Mən işlərlə tanış olduqdan sonra İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasını çağırdım və o zaman əslində bütün işləri idarə edən yoldaş Pankratovu dəvət etdim.

Mən məsələ qaldırdım ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kəs güllələnməsin...»





Materialları redaksiyaya akademik Tofiq Köçərli təqdim etmişdir. Azərbaycan dilinə tərcümə edəni: Ənvər Quliyev.

**N.Nərimanovun V.İ.Leninə məktubu**

ƏzizVladimir İliç! Mənim teleqramlarımdan birində verilmiş məlumatı, demək olar ki, təkrar etmək lazım gəlir.

Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda o, Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari-ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək əhvdir. Bu barədə nümayəndəmiz ətraflı danışacaqdır.

Bizi dəhşətli vəziyyətdə qoyan Mərkəzin başqa bir münasibəti: Mərkəzdən hər gün nümayəndələr gəlib əllərində olan mandatlara əsasən, bu və ya digər səbəbə görə tanınmış xalq komissarına tabe olmaq haqqında bizə göstəriş verirlər.

Əziz Vladimir İliç, məgər «Müstəqil Azərbaycan» Sizin dilinizdən çıxmamışdırmı? Axı, məhz buna əsaslanaraq biz Musavatın qurduğu fitnəkarlığı məhv edə bildik.

İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üs respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissələri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu ko-

bud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs, bütün Azərbaycanın kəndləri?

Mən qəti surətdə bildirirəm: əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə Mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlıqla həll edənlər bura gəlsinlər. O zaman bilərik ki, bizim mənasız - Şərqə doğru - çığırtımız nə deməkdir. Belə olan halda Şərqə necə gedəcəyik?.

Yeganə ümidimiz – inqilabımızı Şərqdə siyasətlə müdafiə etmək ümidi də alt-üst oldu. Və bütün bunların müqəssiri kimdir? 1-ci Mərkəzin xəbərsizliyi və 2-ci Mərkəzdə oturmuş erməni - daşnak kommunistlərinin iyrənc işi.

Mən Sizin diqqətinizi buna cəlb edirəm.

Əgər qısa bir müddətdə Mərkəz daşnak kommunistlərin bütün bu murdar hərəkətlərinə son qoymaq iqtidarında olmasa, bütün müsəlman Şərqi bizdən üz döndərəcəkdir. Mən bu barədə ciddi surətdə bildirirəm və əgər Şərq məzlumlarının mənafeyi həqiqətən bizə əzizdirsə, Sizin də bu məsələyə ciddi yanaşmağınızı xahiş edirəm.

*N.Nərimanov*

*Azərbaycan Respublikası MEA-nın*
*Azərbaycan Tarixi Muzeyi, elmi arxiv, inv.N-2041.*

Dağlıq Qarabağ haqqında məsələnin həllində müəyyən şəkil almış ixtilafı nəzərə alaraq, RK (b) P MK-nın Qafqaz bürosunun Plenumu 1921-ci ilin 5 iyulunda ÜİK (b) P MK-nın üzvü İ.V.Stalinin və Qafqaz bürosünün üzvləri Q.K.Orconikidzenin, F.İ.Maxaradzeninin, S.M.Kirovun, N.N.Nərimanovun, A.F.Myasnikovun, A.Nazaretyanın, M.Oraxelaşvilinin, Y.P.Fiqatnerin iştirakı ilə müzakirə etmişdir. Qəbul edilmiş qərarda göstərilirdi: «Müsəlmanlar və ermənilər arasında milli sülhün, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin zəruriliyinə, onun Azərbaycanla daim əlaqəsinə əsaslanaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudları





daxilində saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan inzibati məkəzi Şuşa şəhəri olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin.» (75).

1921-ci ilin 20 iyulunda AK (b) P MK-nın Siyasi Təşkilat Bürosu Qarabağın işlənib hazırlanması üçün komissiya yaradılmasını qərara almışdır. (76).

Ayrı-ayrı erməni xadimlərinin belə bir fikri ağ yalandır ki, DQVM 1923-cü ildə «Stalinin iradəsilə» Azərbaycan SSR-in tərkibinə daxil edilmişdir. Bu məsələ prinsip etibarilə hələ 1921-ci ildə həll edilmişdir. Həmin vaxt İ.V.Stalin hələ Baş katib deyildi və hadisələrin gedişinə heç bir əhəmiyyətli təsir göstərə bilməzdi.

1918-ci ildə 10 min kv. km-ə qədər olan Ermənistan ərazisi 1920-ci ildən 1929-cu ilə qədər 29 min kv.km-ə çatdırılmışdı. Bu Azərbaycanın Göycə, Zəngəzur və digər torpaqları hesabına olmuşdu. Zəngəzurun verilməsi ilə daha bir cinayət törədildi – Naxçıvan ərazisi ayrı salındı. 1923-cü ildə heç bir hüquqi əsas olmadan Moskvanın və ermənilərin təzyiqi ilə Qarabağın dağlıq hissəsinə müxtariyyat hüququ verildi.

1923-cü ilin 7 iyulunda Azərbaycan MİK-nın «Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında» dekreti verildi. Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Lenin milli siyasətinin parlaq təzahürü idi və Azərbaycan və erməni xalqlarının» dostluğunun daha da möhkəmləndirilməsi üçün mühüm əhəmiyyətə malik idi. Bununla yanaşı Dağlıq Qarabağın muxtariyyatının yaradılması onun qarşısında iqtisadi inkişaf, əhalinin maddi rifah halının yüksəldilməsi tələblərinin hərtərəfli yerinə yetirilməsi üçün, doğma dildə onun mədəni ehtiyaclarının, tələbatının ödənilməsi üçün geniş yollar açdı.

Dağlıq Qarabağda zəhmətkeşlərin bir sıra mitinqləri və yığıncaqları keçirilmişdir ki, burada Dağlıq Qarabağın muxtariyyətini hərarətlə bəyənən qərarlar qəbul edilmişdir. Bu cür yığıncaqların birinin qətnaməsində milli məsələnin

həlli sahəsində Sovet hakimiyyətinin düzgün addımları alqışlanırdı. Dağlıq Qarabağın muxtariyyəti məsələsi üzrə yığıncağın qətnaməsində deyilirdi: «...Qarabağın muxtariyyətini erməni və müsəlman kəndlərinin dostluğu hesab edirik. Bu muxtariyyət onlara nəticədə mədəni və iqtisadi cəhətdən inkişaf etməyə, bir-birləri ilə sıx əlaqəyə girərək Sovet hakimiyyəti quruculuğunun fəal iştirakçıları olmağa imkan verəcəkdir.» (77).

AK (b)P MK birinci katibi S.M.Kirov Dağlaq Qarabağ muxtariyyətinin yaradılmasının əhəmiyyətini xakterizə edərək, 1924-cü ildə AK (b)P-nın VI qurultayında çıxışında demişdir: «Bizim bu sahədə ən böyük, nəzəri cəlb edən nailiyyətlərimiz budur ki, Qarabağ məsələsi deyilən məsələ... o qədər tam olmasa da, xeyli dərəcədə həll edilə bilər. Bu məsələni axır nəhayət, həll etdik, şübhəsiz, tamamilə düzgün iş gördük. Heç bir şübhə doğura bilməz ki, bu məsələni biz əsasən yenidən həll edəsi olmayacağıq».

## Nəriman Nərimanovun oğluna yarımçıq qalmış məktubu

Mənim 1895-ci il yanvarın 15-də Bakıda Tağıyev teatrında ilk dəfə tamaşaya qoyulan pyesim «Nadanlıq» oldu. Həmin günü ədəbi işimin başlanğıcı hesab edirəm. Bu gün – yeni stillə 1925-ci il yanvarın 28-də həmin vaxtdan 30 il keçir. Dostlarımdan bəziləri bu xəbəri eşidib həmin günü balaca şadyanalıq etməyi arzulamışlar. Artıq onlardan teleqramlar almışam. Əlbəttə, ciddi şəkildə götür-qoy etsək, demək olar, əslində heç bir iş görməmişəm. 30 il! Yəqin ki, bu müddət ərzində nəsə bir iş görmək olardı. Bu müddətdə yazdıqlarımı həmin vaxtla müqayisə etdikdə xəcalət çəkirəm... Lakin digər tərəfdən, bütün həmin vaxtı, yaşadığım bütün həmin mühiti, ömrümün bütün dolanbac yollarını təsəvvürə gətirdikdə, hər halda bununla təskinlik tapıram ki, az da olsa, bəzi sahədə çox iş görmüşəm. Təkcə məni əhatə edən





mühit, onun geriliyi, süstlüyü, fəaliyyətsizliyi, ətraf həyat hadisələrinə biganəliyi, millətlərarası mənasız didişmələr, buradan irəli gələn iztirablar: qanlar, göz yaşları, yoxsulluq, riyakarlıq və sairə mənə rahatlıq verməyib. Bunlar yazdığım bütün əsərlərdə əksini tapıb. Bəlkə də bütün bunlar bədii cəhətdən zəif qələmə alınıb, lakin qüvvəm və imkanım daxilində bütün bunlara yazılarımda təkcə münasibətimi bildirməyim onu göstərir ki, mən bir çoxları kimi ətrafımdakı mühitə laqeyd qala bilməzdim. Qəlbim narahat idi, istəyir və çalışırdım ki, bəşəriyyətə nəsə bir fayda verim. Mənə, 30 il ictimai sahədə işləmiş adama təskinlik verən yalnız və yalnız budur. Əgər sadə işimlə bu müddətdə öz «xəstəliyimi», heç olmasa, beş-on adama «yoluxdura» bilmişəmsə, hətta bu, məni və düşüncəmi o mənada rahat buraxır ki, ömrümü əbəs yerə yaşamamışam və bu geniş, həm də darısqal dünyada əbəs yer tutmamışam...

Əziz oğlum Nəcəf! Əgər ömür vəfa qılsa, çalışacağam səni elə hazırlayam ki, bəşəriyyət üçün daha çox iş görəsən. Ancaq taleyin hökmüylə tezliklə əbədi məskənə köçəsi olsam, onda səndən xahişim bu olar ki, heç olmasa daim özgələrin dərd-sərini çəkən atan kimi cüzi işləri yerinə yetirəsən.

Mənim həyatım, ömrüm qayğılarla dolu olub. Qardaşımın və bacılarımın ailələri iyirmi yaşından mənim boynumda olub. Bu 30 ildə 11 adam böyüdüb boya-başa çatdırmışam. Onlardan 8 qız uşağını ərə vermişəm, yerdə qalan üçünü cüzi məvacibimlə böyütmüşəm. Bütün bu işləri sahmana salandan sonra yenidən oxumağa başladım, 30 yaşında universitetə daxil oldum. Universiteti qurtardıqdan sonra var qüvvəmi Salman qardaşımın balalarının tərbiyəsinə sərf etdim. Bütün bunlardan yalnız indi, qardaşımın sonuncu qızı Xanımı 1924-cü ildə ərə verəndən sonra azad olmuşam. Bu məktubu isə aradan bir il keçəndən sonra, məhz 1925-ci ildə yazıram. Bütün bunları sənə ona görə yazıram ki, məni bəşəriyyət üçün az iş görməyim üstündə qınamayasan. Bu mə-

nada ümidvaram ki, sən gördüyüm işləri davam etdirib başa çatdıracaqsan.

Əziz oğlum! Əgər mənim həyatımı öyrənsən, əmin olarsan ki, mən ömrümün ən azı 1925-ci ilədək olan dövrümü başqaları üçün yaşamışam. Bəs sonrası necə olacaq? Sonrası beləcə də davam edəcək, çünki, mən yalnız belə ictimai işdə məmnunluq tapıram. Üstəlik, Rusiydakı indiki quruluş mənim ruhi aləmimə hər şeydən daha çox uyğundur.

Ümumiyyətlə, mən insanın insan tərəfindən əsarətinin əleyhinəyəm. Harada olursa-olsun, bütün varlığımla köləliyə qarşıyam. Bəşəriyyətin tezliklə nadanlıqdan və eləcə də köləlikdən azad olması üçün yollar axtarmışam, sosial-demokrat da olmuşam. Lakin bu təşkilat get-gedə idealdan daha çox uzaqlaşır.. Bolşeviklərin proqramını xüsusi məmnunluqla qəbul etmişəm, çünki həmin sənəddə tezliklə məhz öz proqramımın həyata keçiriləcəyini – Yer üzündə köləliyin məhv ediləcəyini görmüşəm və görürəm.

Bəlkə də sən bu sətirləri oxuyarkən bolşevizm heç olmayacaq. Lakin bu heç də o demək deyil ki, bolşevizm yaramır; bu o demək olacaq ki, biz onu saxlamağı bacarmadıq, onu yetərincə qiymətləndirmədik, işin qulpundan pis yapışdıq. Sözün açığı, hakimiyyətlə o qədər lovğalandıq ki, başımız boş-boş işlərə, dedi-qodulara qarışdı, vacib olanı əldən buraxdıq. Hakimiyyət çoxlarını korlayır. Belə də oldu: Hakimiyyət yetərincə yaxşı, görkəmli işçilərin çoxunu korladı. Onlar nəhəng dövlətin taleyini əllərinə alaraq və hesabat vermədən diktatorluq etmək qərarına gəldilər… Belə rəhbərlik ilk vaxlar üçün zəruri idi, lakin bu vəziyyəti indiyədək davam etdirmək bolşevizmin süqutunu yaxınlaşdırmaq deməkdi.

İndi bu sətirləri sənə yazdığım vaxt işimiz o yerə çatıb ki, ən yaxın kommunist dostlar Lenindən sonra özlərini onun qanuni varisi adlandıran şəxslərin dövləti idarə edə bilməmələrindən yaranan nöqsanlarımız barədə bir-biri ilə danışa bilmirlər…





Bunları sən mənim MK-dakı geniş məruzəmdən öyrənəcəksən. Həmin məruzə sənə bütün bunlardan baş çıxarmağa imkan yaradacaq və elə bu məruzədən də örənəcəksən ki, çoxları öz vəzifə-mənsəblərini itirə biləcəkləri qorxusundan dinmədikləri halda, sənin atan bu barədə cəsarətlə danışırdı.

Əzizim Nəcəf! Vəzifə-mənsəb dalınca qaçma, çünki o, insanı korlayır. Əgər bir adamı yaxşı tanımaq, onun bütün daxili aləminə bələd olmaq istəyirsənsə, onu bir müddətə vəzifə başına qoy. Tezliklə həmin adamın müsbət və mənfi cəhətləri üzə çıxacaq. Bu baxımdan əgər sən kütləri hiylə-siz-yalansız arxanca aparmağa hazır deyilsənsə, yaxşısı budur, ondan imtina edəsən… Əgər kütlə (fəhlə və kəndlilər) səni dəyərləndirərsə, hakimiyyətdə iştirakını zəruri hesab edərsə, sənə etibar edərsə və sən bu etibara əsasən ümumi işə müəyyən fayda verəcəyinə əmin olarsansa, onda imtina etmə. Burada yalnız bircə şərt var ki, gərək onu müəyyənləşdirəsən: yəni kütlə sənin hakimiyyətdə iştirakını öz arzusu ilə könüllümü qəbul edib, yoxsa məcburi? Əgər səndə zərrə qədər şübhə yeri varsa ki, kimlər tərəfindən olursa-olsun məcburi seçilirsən, onda yaxşı olar imtina edəsən. Əks halda, öz ləyaqətini nəinki təkcə kütlə, həm də öz qarşında itirəcəksən. Hər dəfə hakimiyyətə öz ləyaqətinə görə yox, məcburi gəldiyini dərk etdikcə, müəyyən ruhi sıxıntı, əzab çəkəcək, sistematik olaraq ləyaqətini nəinki kütlələrin, həm də öz gözündə itirəcəksən… Buradan da sənin sonrakı dünyagörüşündə pozuntu əmələ gələcək. Bu isə ictimai xadimin həyatında təhlükəli məqamdır. Sən müstəqil həyata hazır olduğun zaman bütün bunlara tab gətirmək mümkündür. Bu nə deməkdir? Yəni, özünə elə peşə və ya sənət seçməlisən ki, bu, şəxsiyyətdən yaxud idarədən az asılı olsun. Sənə aydın olsun deyə, öz həyatımdan misal çəkəcəyəm. Artıq bilirsən ki, universitetə daxil olum deyə, 30 yaşında kamal attestatı almaq üçün imtahan verdim. Sonra belə bir sual qarşısında qaldım: hara daxil olmalı? Yaşım və bütün həyat şəra-

itim mənə tezliklə universiteti bitirməyi diktə edirdi. Odur ki, elə fakültə seçmək lazım idi ki, az vaxt aparsın. Qarşımda belə bir sual dayanmışdı: hüquq (o vaxt hüquq fakültəsi asan fakültə sayılırdı), yaxud təbiyyət fakültəsinə daxil olubmu? Çünki həmin fakültələrdə 4 il oxumaq lazım idi. Bu fakültələri bitirdikdən sonra şəxsiyyətlərdən, yaxud idarələrdən daha çox asılı olmayım deyə, bu fikirdən vaz keçdim və ömrüm boyu kənar şəxslərdən az asılı olmaq üçün tibb fakultəsinə daxil oldum. Bu, bir səbəbdi, digər səbəb isə belə idi: sənin nənən, mənim anam Həlimə rəhmli, başqalarının halına acıyan, xeyirxah qadın idi. Ehtiyacı olanlara imkanı daxilində əl tutur, qohumlardakı xəstə qadınların qayğısına qalar, bir tikə çörəyini onlarla bölüşərdi. Kiçik yaşlarımdan bunları müşayiət etdiyim üçün, çox güman bütün bunlar mənə təsir göstərmişdi... Odur ki, tibb fakultəsində oxumaq uzun vaxt aparsa da, çətinlikləri çox olsa da şəxsiyyət və idarələrdən mümkün qədər asılı olmamaq və daha çox ruhi məmnunluq əldə etmək üçün mən həmin fakultəyə daxil oldum.

*Moskva,*
*28 yanvar 1925-ci il.*

**1920-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımının qısa xronikası:**

1920-ci il yanvarın əvvəlləri. Eçmiədzin mahalındakı Əxis kəndinə ermənilər hücum etmiş, əhali didərgin salınmışdır.

Zəngəzur qəzasının Udqnakji kəndinin erməniləri Saldaş kəndinə hücum etmiş və bir nəfəri öldürmüşlər.

**6 yanvar.** Naxçıvandakı Paraça erməni kəndinin silahlı əhalisi başqa erməni kəndlərindən kömək alaraq, Bilax kəndinə hücum etmişlər. 3 saatlıq döyüş nəticəsində Bilax kəndi dağıdılmışdır. 50 kişi, 50 qadın, 25 uşaq öldürülmüşdür. Hücum edənlər arasında Zəngəzur erməniləri də var idi.





**16 yanvar.** Ermənilər Şərur rayonunun Civa kəndini bombalamış, lakin bir saatdan sonra geri çəkilməyə məcbur olmuşlar. Civa kəndinə təcili kömək yetişmişdir. Kənd əhalisindən 3 nəfər həlak olmuşdur.

**18 yanvar.** Böyük Vedi yaxınlığında Dəvəli yolunu ermənilər atəşə tutmuşlar. Atəş bir neçə gün davam etmişdir. Ölənlər olmuşdur.

**20 yanvar.** Erməni qoşunları Zəngəzur qəzasının Xocaqan və Qaladərəsi arasında yerləşən kəndlərinə hücum etmiş, kəndin sakinlərini öldürmüş, soyğunçuluq etmiş, evləri yandırmışdır.

**21 yanvar.** 10 min nəfərlik erməni qoşunu Zəngəzur qəzasının 3-cü Dürdənli sahəsini tamamilə dağıtmışdır.

**22 yanvar.** Böyük Vediyə Ordubad üçün taxıl almağa gəlmiş adamlara 60 erməni hücum etmiş, 3 nəfəri öldürmüş, 21 yüklü uzunqulağı və bir atı aparmışlar.

**23 yanvar.** Ermənilər Əninçəşmaz kəndinə hücum çəkmiş, 5 nəfəri öldürmüş, 600 baş qoyunu və yolda tutduqları 2 qadını aparmışlar.

Həmin gün ermənilər Kərimqulubəyməzə kəndinə hücum etmiş, uzun atışmadan sonra geri çəkilmişlər. 2 nəfər öldürülmüş, 3 nəfər yaralanmışdır.

**24 yanvar.** Ermənilər Uniş kəndinə hücum etmiş, 2 saatlıq atışmadan sonra geri çəkilmişlər.

Həmin gün ermənilər Şava kəndini top atəşinə tutmuşlar.

**Yanvar.** Uluxanlı stansiyasında qaçqın azərbaycanlıları daşıyan qatara hücum etmiş, onların 85 nəfəri qarət edilmiş, bir nəfəri öldürülmüş, 12 nəfərini ermənilər özləri ilə aparmışlar. Zəngibasarın Şəxanşaxu kəndinə ermənilər ikinci dəfə hücum etmişlər. Kəndə və kənd əhalisinə xeyli ziyan dəymişdir. Bu ay ərzində ermənilər Zəngəzur qəzasının 26 kəndini dağıtmışlar.

**6-7 fevral.** Ermənilər Qarğabazara qəfil hücum etmiş, kəndi tutaraq qarət etmiş, evləri yandırmış, kənd əhalisin-

dən 26 uşaq, 34 qadın, 13 kişi öldürmüşlər. Ermənilər özləri ilə 38 kişi, 15 qadın aparmışlar.

**Fevral.** Bir neçə minlik erməni qoşunu Gəncə qəzasının 9-cu sahəsinin talan etmiş, Şişqaya, Sadarağac və Hacı Qəriblər kəndlərini tamamilə dağıtmış, kənd sakinlərinin çoxunu öldürmüşdür. Qaçqınların 30 nəfəri soyuqdan donub ölmüşdür. Zaruşat tərəfdən hücuma keçmiş nizami erməni hissələri yol boyu qarşısına çıxan müsəlman kəndlərini yandırmış, qarət etmiş, kişiləri qırmışdır. Şurakəni tamamilə dağıtmışlar.

**23 mart.** Ermənilər Xankəndindəki Azərbaycan ordusu hissələrinə qəflətən hücum etmiş, şəxsi heyətdən bir neçə nəfəri öldürmüşlər. Eyni zamanda Abdal-Gülablı, Malıbəyli və Əsgərana hücum olmuşdur.

**5-6 aprel.** Qazax mahalının Yaradulla, Qaraçan, Çaxmanlı kəndlərinə general Bağdasarovun komandanlığı altında nizami erməni hissələri hücum etmiş, yerli əhalinin xeyli hissəsini qırmışdır.

**23 noyabr.** Ədliyyə Komissarlığının 2 fevral 1920-ci il tarixli əfvetmə haqqındakı qərarına əsasən, 1918-ci ildə Bakıda və Şirvanda qanlı cinayətlər törətmiş Stepan Lalayev və onun əlaltılarının işinə baxan 1-ci Şamaxı istintaq komissiyası Stepan Lalayev və onun əlaltılarının törətdikləri cinayətlərin 1918-ci ildə, yəni milli ədavət üstündə meydana çıxmış vətəndaş müharibəsi dövründə baş verdiyini əsas götürərək, 1920-ci ilin 23 noyabrında işi xətm etmişdir.

**19 dekabr.** Erməni qoşunları Əliquluuşağı kəndindən Fəribcana kimi bütün cəbhə boyu Zəngəzurun müsəlman kəndləri üzərinə hücuma keçmişlər. Vəhşiliklərin həddi-hüdudu yoxdur, yüzlərlə yeni qaçqın əmələ gəlmişdir. 26 müsəlman kəndi ermənilər tərəfindən dağıdılmışdır.

Dağlıq Qarabağ haqqında məsələ 1921-ci ilin 27 iyununda AK (b) P MK-nın Siyasi və Təşkilat bürosunda da nəzərdən keçirilmişdir. AK (b) P MK-nın Siyasi və Təşkilat bürosu Sovet Ermənistanının nümayəndəsi A.Bekzadyanın təklifi ilə razılaşmış və qeyd etmişdir ki, bu məsələ «...Dağ-





lıq Qarabağın Azərbaycana qəti iqtisadi meylinin» nəzərə alınması ilə həll edilə bilər.73. AK (b) P MK-nın Siyasi və Təşkilat bürosu eyni zamanda göstərmişdir ki, «erməni və türk əhalisi olan ərazilərin müvafiq olaraq Ermənistana və Azərbaycana ayırıb verilməsi» «inzibati və iqtisadi əlverişlilik nöqteyi-nəzərindən... qəbuledilməz hesab edilsin». (74).

1930-cu illərdə azərbaycanlılara qarşı soyqırım siyasəti qeyri- insani vasitələrlə həyata keçirilirdi. Antisovet təşkilatların «aşkar edilməsi,pantürkistlərin» ifşa edilməsi pərdəsi altında Azərbaycanda kütləvi həbslər keçirilir və on minlərlə günahsız azərbaycanlı güllələnirdi. Bu baxımdan, Şamaxı faciəsi tarixə qara hərflərlə daxil olmuşdur. 1937-ci ilin iyununda Təklə kəndindəki Molotov adına kolxozun sədrinə tapşırıq verilir ki, tarla və fermalardakı Staxanovçu novatorların respublika toplanışında iştirak etmək üçün 70 nəfər qabaqcıl kolxozçunun siyahısını versin. Həmin siyahı tutulur və ona yaşı 30-dan yuxarı olan 70 kişi daxil edilir.. Onlar gecə ikən həbs olunub Bakıya XDİK-nin həbsxanasına gətirilir. Onlardan 60 nəfəri edam edildikdən sonra elan olunur ki, guya «Həmid Sultanovun başçılığı ilə Şamaxı rayonunda antisovet əksinqlabçı, üsyançı, casus-terrorçu və burjua-millətçi təşkilat aşkar edilib». Bu minvalla 1937-ci ildə Azərbaycanda, bəzi hesablamalara görə, 100 min nəfər sürgün edilmiş, üç min kəndli isə məhv edilmişdi.



*Hüseyn Cavid*



Əhməd Cavad



Mikayıl Müşfiq



Salman Mümtaz





XX əsrin 40-cı illərinin ikinci yarısında mərkəzi hökumətdəki nümayəndələrinə arxalanan erməni millətçiləri azərbaycanlıların Ermənistan SSR-dəki öz tarixi-etnik torpaqlarından qovulub çıxarılması və ilk növbədə Qarabağın qoparılıb Ermənistana verilməsi tələbini irəli sürdülər. 1945-ci ilin payızında Ermənistan SSR rəhbərliyi növbəti dəfə ÜİK(b) PMK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi məsələsini qaldırdı. Azərbaycan SSR-ə o zaman rəhbərlik edən M.C.Bağırov 10 dekabr 1945-ci il tarixdə (tam məxfidir qrifi ilə) ÜİK(b) PMK katibi G.M.Malenkova göndərdiyi cavab məktubunda Sovet hakimiyyəti illərində ilk dəfə itirilmiş Azərbaycan torpaqları problemini qaldırdı və bununla da erməni millətçi dairələrinin planlarının pozulmasına nail oldu. Lakin, rədd cavabı verilməsinə baxmayaraq, ermənilər 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə göçürülməsi ilə bağlı fərman verilməsinə nail oldular. Xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə repartasiyası «Daşnaksütyun» partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresinin qəbul etdiyi qərarlarla bilavasitə bağlı idi. Bu qərarlarda isə repartasiyanın «azərbaycanlıların yaşadığları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi» şəraitində baş verdiyi iddia edilirdi. Bu işə Qriqoryan kilsəsi də xeyir – duasını vermişdi.

Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli «Ermənistan SSR-dən kolııxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» daha bir qərarı ilə bu işi həyata keçirmək

üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə 100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər «könüllülük prinsipinə əsasən» Azərbaycana köçürülməli idi. O zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı yaşayırdı. 1948-ci ildə Ermənistan SSR-dən deportasiya edilənlərin sayı 10,504, 1949-cu ildə 15,713 nəfər, 1950-ci ildə 12,332 nəfər, 1952-1953-cü illərdə 13,760 nəfər, 1954-1956-cı illərdə isə 5876 nəfər olmuşdur. Ümumiyyətlə, Ermənistan SSR-də deportasiya və etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir.

Azərbaycandakı 57 rayondan 31-də XDİK rayon bölməsinin başında ermənilər dururdular. Böyük Vətən Müharibəsi (1941-1945) illərində də ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti daha dəhşətli formada həyata keçirilirdi. Cəbhəyə səfərbər olunan 640 min nəfər Azərbaycan əhalisinin 95 faizini azərbaycanlılar təşkil edirdilər ki, onların da böyük əksəriyyəti rus dilini ya pis bilir və ya heç bilmirdi. Bunu bəhanə edən Sovet ordusunun müxtəlif bölmələrində kök salmış ermənilər azərəbaycanlıların kütləvi güllələnməsini təşkil edirdilər. Ermənilər Stalini bütün azırbaycanlıların satqın olduqlarına inandıra bilmiş və 1942-ci il dekabrın 7-də Azərbaycan SSR əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar verilməsinə nail olmuşdular. Lakin o dövrdəki respublika rəhbərliyinin göstərdiyi səylər bu cinayətin həyata keçirilməsinə imkan verməmişdir. Bundan kifayətlənməyən ermənilər 1948-1953-cü illərdə SSRİ hökumətinin qərarı ilə dövlət səviyyəsində azərbaycanlıların öz tarixi torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiyasına nail oldular. Deportasiya nəticəsində 150 mindən çox azərbaycanlı öz vətənindən sürgün edildi.

40-cı illərin sonu, 50-ci illərin əvvəllərində ermənilər artıq Azərbaycanda neft sənayesinin iqtisadi cəhətdən qeyri-





rentabelli olduğunu iddia etməyə başlamışdılar. 1957-ci ildə isə ümumiyyətlə, Azərbaycan neft sənayesinin maliyyələşdirilməsinin dayandırılması təklifi ilə Mərkəzi hökumətə müraciət etmişdilər. Bu müraciəti hazırlayanlar isə SSRİ Dövlət Plan Komitəsinin sədr müavini Mkrtıçyan və sənaye şöbəsinin müdiri Kalantarov idi. Məqsəd isə aydın idi: müharibədən sonrakı illərdə iqtisadi cəhətdən Azəçrbaycanı zəiflətmək, SSRİ imperiyası dağılacağı təqdirdə onun torpaqlarının asanlıqla işğalına nail olmaq.

Sovet hakimiyyəti illərində Dağlıq Qarabağ zəhmətkeşləri təsərrüfat quruculuğunda və mədəni quruculuqda çox böyük müvəffəqiyyətlərə nail olsa da, «Qarabağ məsələsi» yenidən qalxdı və heç də axırıncı dəfə olmayaraq, 1945-ci ilin payızında. O zaman Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Arutyunov Dağlıq Qarabağ Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK (b)P MK-nın sərəncamına verdi. Bu barədə məktubda Arutinov yazırdı ki, Dağıq Qarabağ Muxtar Vilayəti Ermənistanın ərazisi ilə qovuşur, Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi «onun inkişafına xeyli təsir göstərə bilərdi və təsərrüfatın idarə edilməsini yaxşılaşdıra bilərdi». Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə daxil edilməsi yerli kadrlara öz ali təhsillərini Ermənistanın ali məktəblərində ana dilində almağa imkan vermiş olardı. Digər tərəfdən, Ermənistan SSR Qarabağ vilayətindən əlavə kadrlar ala bilərdi. Məktubunun sonunda Arutinov «Dağlıq Qarabağ əhalisinin arzusuna» əsaslanırdı, lakin bununla əlaqədar, əhali arasında heç bir sorğu keçirilməmişdi. (79).

Arutinovun məktubu alınan kimi ÜİK (b)P MK-nın keçmiş birinci katibi Malenkov Azərbaycan K (b)P MK-nın keçmiş birinci katibi Bağırova sorğu göndərib xahiş edir ki, Ermənistan K(b)P MK-nın təklifi barədə öz rəyini xəbər versin. Bu sorğuya cavab verərkən Bağırov Arutinovun məktubunda gətirilmiş dəlillərə qarşı çıxır, lakin cavabının

sonunda Dağlıq Qarabağ Muxtar Vilayətinin (azırbaycanlıların yaşadığı Şuşa rayonunu çıxmaqla) Ermənistan SSR-ə birləşdirilməsinə belə bir şərtlə razı olduğunu bildirib ki, Ermənistan SSR-in Azərbaycana söykənək olan və başlıca olaraq, azərbaycanlıların sakin olduqları üç rayonu Azərbaycan SSR-in tərkibinə daxil edilsin. Bağırov eyni zamnda Zaqafqaziyanın və Qafqazın Sovet respublikalarının digər dəyişiklikləri barədə də məsələ irəli sürdü. (80).

### 4.2. XX əsrin 1950-1990-cı illərində Sovet hakimiyyətinin anti-Azərbaycan etnik siyasəti

1969-cu ildə Azərbaycanda böyük dövlət xadimi Heydər Əliyevin respublika rəhbəri seçilməsindən sonra ermənilərin bəd əməllərinin qarşısı qətiyyətlə alındı. 1987-ci ilin sonundan isə SSRİ rəhbərliyinin xüsusi himayəsi sahəsində erməni ekstremizmi və separatizmi yeni və daha təhlükəli şəkildə tüğyan etməyə başladı.

Xain ermənilər Qarabağda möhkəmləndikcə tariximizə, mədəniyyətimizə olan biganəliyimizdən istifadə etdilər, gah aşkar, gah da xəlvəti şəkildə maddi – mədəniyyət nümunələrini özəlləşdirmişlər.

Əlbəttə, indiki hadisələrin çox uzun tarixi vardır. Lakin biz XX əsrin əvvəllərində xalqımızın taleyi, mübarizəsi, başına gətirilən müsibətlər haqqında vaxtında gəncliyə doğru, düzgün söz, əsl həqiqəti deyə bilməmişik, onları mə'nəvi cəhətdən tərksilah etmiş, tarixin qanlı hadisələrini unutmağa sövq etmiş və gələcək hadisələrə səfərbər olmağa hazırlamamışıq. Gec də olsa, həmin hadisələrin kökləri barədə qısaca da olsa söz açmaq faydasız olmaz. Tarix özü buna şahiddir.

XX əsrin sonlarından etibarən böyük dövlətlərin himayəsindən istifadə edən erməni millətçiləri «Böyük Ermənistan» yaratmaq xülyasına düşmüş, iddia etdikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə Qafqazda kütləvi terror aktları və qırğınları törədərək, yüz minlərlə günahsız





azərbaycanlını qətlə yetirmişlər.

Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu əhatə etmiş və əsasən azərbaycanlıların ilk yaşadıqları ərazilərdə həyata keçirilmişdir.

80-ci illərin ikinci yarısında, SSRİ-də «yenidənqurma» prosesini mərkəzdənqaçan qüvvələrin fəallaşdırdığı vaxt erməni amilindən «Bəla imperiyası»nı dağıtmaq istəyən dövlətlər də geniş bəhrələnməyə çalışdı. «Erməni genosidi» faktı 1987-ci il iyulun 18-də Avropa parlamenti tərəfindən tanındı. Erməni «genosidi» qurbanlarına xatirə günü təsis edildi.

Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri türk soyqırımına, terrora əsaslanan qanlı siyasətlərini – «Böyük Ermənistan» dövləti yaratmaq kimi sərsəm xülyanı reallaşdırmaq cəhdlərini yenidən fəallaşdırdılar. Ermənilərin tələbi ilə 1984-cü ilin oktyabr ayında Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla ərazi Ermənistana verildi (bu barədə protokolu Moskvanın təzyiqi ilə Azərbaycan SSR Ali Soveti hələ 1938-ci il mayın 2-də təsdiq etmişdi). Lakin yerli camaat müqavimət göstərir, torpaqlarını əldən vermirdi. Azərbaycanın qanunverici orqanı bu bədnam qəparı 1969-cu il mayın 7-də təsdiq etmişdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev onun icrasına yol vermədi.

Heydər Əliyev respublikaya rəhbər təyin olunan ilk gündən Dağlıq Darabağla bağlı xüsusi siyasət yürütməyə başladı. Hələ 1968-ci ildə DQMV ərazisində bir azırbaycanlının avtomobilinin içində yandırılması nəticəsində başlayan milli qarşıdurma elementlərini büruzə verən separatizm qığılcımlarının nəticəsini əvvəlcədən görən ölkə rəhbəri qətiyyətli addımlar atdı. Vilayət rəhbəri şovinist V.Şahnazaryan loyal Melkimyanla əvəzləndi Hüquq-mühafizə orqanldarında isə ciddi təmizləmə aparıldı. 1923-cü ildə Azərbaycanın altına qoyulan «gec partlayan bomba» -DQMV-də cərəyan edən və günü-gündən genişlənən ekstremist meyllər qısa müddət ərzində ölkənin yeni rəhbərinin fəaliyyəti nəticəsin-

də neytrallaşdırıldı və bu inzibati subyektin müstəqilliyinə, Bakıya saymazyana münasibətinə 1987-ci ilə qədər tam son qoyuldu. Bu ərazidə Azərbaycanın milli-mənəvi irsinin daha geniş təşəkkül tapması üçün Heydər Əliyev xüsusi tədbirlər planı hazırlayaraq onları böyük müvəffəqiyyətlə həyata keçirdi. Və 1982-ci ildə Qarabağın ən uca zirvəsində Azərbaycan varlığının canlı təcəssümü Vaqifin məqbərəsini ucaldanda Heydər Əliyev tarixi missiyasının – bu vilayətin tam olaraq azərbaycanlılaşdırıldığının təntənəsini yaşadı. Lakin həmin ilin sonlarında o, Moskvaya rəhbər vəzifəyə getdikdən sonra erməni separatçılarının vilayətdə reabilitasiya mərhələsi başladı və Heydər Əliyev 1987-ci ildə bütün vəzifələrindən istefa verdikdən sonra isə ekstremizm ən qanlı formalarda təzahür etdi.

Heydər Əliyevin vəzifələrindən uzaqlaşdırılmasından dərhal sonra erməni separatizmi ilk hücumuna - informasiya savaşına başladı. Akademik A.Aqanbekyan 1987-ci ilin noyabr ayının 18-də Fransanın «Humanite» qəzetinə verdiyi müsahibəsində vuprğulayırdı ki, «mən iqtisadçı kimi əmin edirəm ki, DQMV-inin coğrafi cəhətdən daha çox bağlı olduğu Ermənistana birləşdirilməsi düzgün olardı. Bu barədə mənim xüsusi təklifim var və onu artıq təqdim etmişəm. İnanıram ki, yenidənqurma və demokratiya şəraitində bu problem öz həllini tapacaq». Bədnam akademik müsahibəsində M.Qorbaçovun 1987-ci ilin fevral plenumunda etdiyi çıxışın əsas tezisinə – «Milli məsələlərin həllində təəssüfdoğurucu gecikmə aradan qaldırılmalıdır» fikirinə istinad edirdi. Bu müsahibə separatizm meyllərinin aşkar büruzə verilməsi üçün siqnal rolunu oynadı.

1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə dövlət başçısının əsabələrindən biri olan akademik Abel Aqenbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi





olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Aqanbekyan «Humanite» qəzetinin 18 noyabr 1987-ci il tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi.

Erməni hərəkatına bir qrup erməni millətçisi arxasından yenə də kommunist-daşnaklar, DTK agentləri rəhbərlik edirdi. Moskvada ermənilərin «Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi» və «Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi» də bu istiqamətdə fəal iş aparırdı. «Qarabağ» komitəsinin Azərbaycanda, xüsusən Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı «Krunk» adı altında açıq, fəal mübarizəyə başlamışdı, «Miatsum» (birləşmə) hərəkatı genişlənirdi. 1988-ci il martın 2-də «DQMV-nin Ermənistanla yenidən birləşdirilməsi uğrunda mübarizə komitəsi» - iri müəssisə rəhbərlərini birləşdirən 55-lər komitəsi yaradılmışdı.

Həmin ərəfədə DQMV ərazisində separatçı «Krunk» təşkilatı artıq yaradılmışdı və onun üzvləri 1988-ci ilin yanvar ayının əvvəllərində Moskvaya yardım üçün getmişdilər. Artıq separatçılıq dalğasının başlanması üçün ideoloji, təbliğat işi böyük vüsət alırdı. Bu vaxt Moskvadan qayıdan «Krunk»un rəhbərləri bəyan edirlər ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin milli məsələlər üzrə şöbəsinin müdiri V.Mixaylovla görüşlərində onlara müstəqillik tələblərinin mərkəzdən müdafiə olunması ilə bağlı göstəriş verilib. M.Qorbaçovun köməkçisi D.Şahnazaryan isə bildirib ki, baş katib ermənilərin öz müqəddəratını təyinetmə haqlarına hörmətlə yanaşır və onların tələblərini qanuniləşdirməyə hazırdır. Artıq bu ərəfədə Xankəndində mitinqlər də başladı.

Məsələ bundadır ki, DQMV-nin Azərbaycan SSR daxilində hüquqi statusu SSRİ Konstitusiyasının 86-cı maddəsinin, Azərbaycan SSR Kostitusiyasının 83-84-cü maddələrinin və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında 1981-ci

ilin 16 iyununda Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilmiş Qanunun əsasında müəyyən edilir. 78.

Bu qanun DQMV orqanlarının təşkilini və fəaliyyətini, onların səlahiyyətlərini, respublika (Azərbaycan SSR) və İttifaq orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir.

Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti Sovet hakimiyyəti illərində də davam etdirilmiş, SSRİ-nin ermənipərəst rəhbərliyinin köməyi ilə 1948- 1953-cü illərdə, habelə 1988-1989-cu illərdə qısa bir vaxt içərisində - Ermənistandan yarım milyona yaxın azərbaycanlı deportasiya edilmiş, yaxud qovulmuş, yüzlərlə azərbaycanlı milli mənsubiyyətinə görə öldürülmüşdür. Ermənilərin bu qanlı və avantürist siyasəti iki milyondan çox azərbaycanlının ayrı-ayrı vaxtlarda etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalması ilə nəticələnmişdir. Bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır.

1985-ci ilin martında Qorbaçovun hakimiyyətə gəlməsi ilə əsası qoyulmuş yenidənqurma və aşkarlıq siyasəti, bu siyasətin memarlarının həqiqi məqsədlərindən asılı olmayaraq, obyektiv surətdə keçmiş sovet imperiyası ərazisində demokratiya və azadfikirliliyin ilk rüşeymlərinin yaranmasına gətirib çıxardı. Keçmiş SSRİ-nin 1977-ci il Konstitusiyasının 6-cı maddəsində onun yeganə hakim partiya olduğu hüquqi cəhətdən də təsbit edilmişdi.

Yenidənqurma şəraitində SSRİ Konstitusiyasının 6-cı maddəsi ləğv edildi, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçildi. Keçmiş ittifaq miqyasında çoxlu yeni siyasi partiyalar, prezident üsul-idarəsi yaradıldı. Bütün siyasi təsisatın, ictimai təşkilatların fəaliyyətini təkmilləşdirmək haqqında islahatlar keçirildi. Sov.İKP-nın və onun yerli təşkilatlarının fəaliyyətləri dayandırıldı. Demokratiya və aşkarlıq genişləndirildi.

Respublikaların tam suverenliyi uğrunda güclü hərəkat başladı. Belə bir şəraitdə Pribaltika respublikaları - Litva, Latviya və Estoniya uzun sürən gərgin mübarizədən sonra





Sovet Sosialist Respublikaları İttifaqından çıxdılar və tam suveren dövlətlərini yaratdılar. Başqa respublikalar da suveren dövlətlərin yeniləşdirilmiş ittifaqını yaratmağı tələb etdilər. SSRİ dağıldı. Müstəqil Dövlətlər Birliyi yaradıldı. Bu birliyə Rusiya Federativ Respublikası, Ukrayna, Belarusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ermənistan və Moldova respublikaları daxil oldular. Azərbaycan və Gürcüstan isə müstəqil suveren dövlət kimi qaldılar.

Burada xatırlamaq yerinə düşər ki, hələ 1985-ci ilin sonlarında «Daşnaksütyun» partiyasının Afinada keçirilmiş XXIII qurultayı başlıca proqram məqsədlərindən biri kimiəzəli Azərbaycan torpaqları-Naxçıvanın və Qarabağın daxil olacağı «vavhid və müstəqil Ermənistan», Böyük Ermənistan» ideyasını irəli sürdü. Bundan bir qədər əvvəl çap olunmuş Z.Balayanın bədnam «Ocaq» kitabı da məhz həmin məqsədlərə xidmət edirdi. Təəssüflər olsun ki, bu cür fitnəkarlıqların qarşısını almaq üçün respublikada əks-təbliğat yox dərəcəsində idi. Öz kreslolarının toxunulmazlıqlarını hər şeydən uca tutan respublika rəhbərələri xalqa erməni-azərbaycanlı dostluğu haqqında bayatılar oxumağı bu fitnəkarlıqların qarşısını almaqdan üstün tutdular. Azərbaycan mətbuatında Z.Balayanın cızmaqarasını tənqid etmək belə o vaxtkı rəhbərlik tərəfindən qadağan olunmuşdu. Hətta hadisələrdən bir qədər əvvəl, 1987-ci il noyabrın axırlarında akademik A.Aqanbekyanın Parisdəki çıxışı belə rəhbərliyi təşvişə salmadı. Halbuki, Aqanbekyan faktiki olaraq yaxın gələcəkdə Qarabağ probleminin həll ediləcəyinə, başqa sözlə desək, Ermənistana veriləcəyinə ümidvar olduğunu bildirmişdi, hadisələrin sonrakı inkişafının göstərdiyi kimi, həmin çıxış Yuxarı Qarabağda separatçılıq hərəkatının başlanması üçün siqnal rolunu oynamış oldu.

Azərbaycan rəhbərliyinin qətiyyətsizliyindən daha da şirnikən ermənilər getdikcə daha artıq dərəcədə həyasızlaşırdılar. Bu isə Xankəndində kütləvi mitinqlərə və son nəticədə

vilayət xalq deputatları Soveti sessiyasının 21 fevral tarixli qərarına gətirib çıxardı. Həmin qərarda DQMV-nin Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşdiyi elan olundu.

Xankəndinin ardınca Yerevanda da eyni tələblərlə kütləvi mitinqlər başladı və fevralın 25-26-da kulminasiya nöqtəsinə çatdı, Faktiki olaraq artıq bu zaman bütün Ermənistan «Qarabağ hərəkatı» liderlərinin iradəsinə tabe oldu. Ermənistandan olan azərbaycanlı qaçqınların ilk dəstəsinin respublikamıza pənah gətirməsi də məhz bu dövrə təsadüf edir. Fevralın 24-də Ağdam-Əsgəran yolunda iki azərbaycanlının öldürülməsi ilə Qarabağ konfliktinin ilk qurbanları verilmiş oldu. Fevralın 27 –də Xankəndində ilk tətillər başlandı, martın 18-də isə AKP-nin Dağlıq Qarabağ vilayət komitəsi DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxartdı. Rəhbərliyin qətiyyətsizliyindən hiddətlənən xalq kütlələri respublikanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması tələbləri ilə kortəbii çıxışlara başladılar. Bu çıxışlardan ən izdihamlısı mayın 18-də Bakının baş meydanında keçirilmiş mitinq oldu. Vəziyyətin nəzarət altından çıxacağından təşvişə düşən Mərkəz respublika rəhbərliyini dəyişməklə xalqın qəzəbinin qarşısını almğa cəhd etdi.

Bütün ittifaqda olduğu kimi, Azərbaycanda da sosial-iqtisadi vəziyyət çox gərgin olmuşdur. Böhran iqtisadi, siyasi və mənəvi həyatın bütün sahələrinə sirayət etmişdi. Burada yenidənqurmanın son dərəcə uğursuz və kəskin ziddiyyətli illəri olmuşdur. Respublika rəhəbərliyi üç dəfə (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov) dəyişdirilmiş, demokratiyanın və qanunun dialektik vəhdəti pozulmuşdu. Bəzi respublika və muxtar vilayətlərdə yerli xalqın mədəniyyətinə, dilinə ögey münasibət bəslənirdi. Məsələn, Ermənistan, Gürcüstan və Dağıstanın azərbaycanlılıar yaşayan rayonlarında Azərbaycan dilinin və Azərbaycan tarixinin öyrənilməsi və məktəblərdə tədrisi dayandırılmışdı. Ermənistan və





Gürcüstanda Azərbaycan mənşəli toponimlər, tarixi adlar dəyişdirilmiş, tarixi saxtalaşdıran çoxlu kitab və məqalələr nəşr olunmuşdur. Belə hallara Orta Asiya respublikalarında, Şimali Qafqazda və başqa regionlarda da yol verilmişdir.. Hər yerdə ruslaşdırma siyasəti tüğyan edirdi.

Aərbaycan çoxmillətli respublikadır. Burada millətlərarası münasibətlərin kəskinləşməsi və onun yaratdığı təhlükə vaxtında dərk edilməmişdir. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr bunu aydın təsdiq edir.

XX əsr bəşər tarixində çox görkəmli yer tutur. XX əsrdə Azərbaycan xalqının həyatında çox böyük hadisələr baş vermişdir. Bu əsr Azərbaycan xalqı üçün sürətli bir inkişaf dövrüdür. Azərbaycan öz coğrafi, siyasi vəziyyətinə, öz təbii sərvətlərinə görə bir çox dövlətlərin daim maraq dairəsində olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, «Azərbaycan hələ tam oxunmamış kitabdır». XX əsrdə Azərbaycan üç dəfə dövlət yarada bilmişdir. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti, 1920-1990-cı illərdə Azərbaycan Sovet Sosialist Respublikası və nəhayət, 1988-ci ildə baş verən hadisələrin davamı olaraq 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa edə bildik. Ancaq 1918-1920-ci illərdəki müstəqilliyi qoruyub saxlaya bilmədik.

Dərələyəz mahalı Şərur düzündən Göyçəyədək, Vedibasardan Zəngəzur dağlarınadək uzanıb gedir. Bu ərazidə iki rayon yerləşirdi. Dərələyəzin yeni adı Yexeknadzor olmuşdu. Ondan yuxarı Arpa çayının sahilində Əzizbəyov rayonu idi. Hər iki rayondakı kəndlər yamaclarda, qayaların üstündə, dərənin dibində idi. Çox az münbit torpağı, çoxlu dağları, uzanıb gedən təpələri vardı. Meşə çox az idi. Aşağılarda sututar yerlərdə alma, armud, üzüm, ceviz ağacları bitirdi. Dağ kəndlərinin ərazisinin çoxu daş-qayadan ibarət idi. Adamlar taxılçılıqla, kartof və tütünçülüklə məşğul olurdu.

Dərələyəzdə on dörd azərbaycanlı kəndi vardı. Ələyəz,

Qovuşuq, Qabaqlı kəndlərindən başqa digər kəndlərin hər birində 35-40 ailə yaşayırdı. Bu mahalın sakinlərinin xeyli hissəsi 1918-20-ci illərdə daşnak hücumlarına tablaşıb dözə bilmədiər. Köçüb İrana, Türkiyəyə getdilər. O vaxt boşalmış kəndlərə ermənilər gəlib doldular. Bir də 1948-50-ci illərdə siyasi köçkünlük vaxtı milli tərkib dəyişdi. Azərbaycanlıları Mil, Muğan torpaqlarına köçürdülər. Erməniləri xaricdən gətrib onların kəndlərində yerləşdirdilər. Əvvəllər erməni iyi gəlməyən torpaqlarda indi onlar çoxluq təşkil edirdilər.

1988-ci ilin fevralında Çuxur Səd düzündə əsən qara yel bunları gec tutdu, amma sərt tutdu. İyunun 24-də gündüz saat ikidə Şadin erməniləri Qovuşuq kəndinə hücum etdilər. Bu zaman kişilər heç nədən xəbərsiz sahələrdə işləyirdilər. Xəbər tutcaq kəndə tələsdilər. Qarşılarını kəsdilər, kəndə buraxmadılar. Güclə keçmək istəyənləri döyüb ölümcül hala salırdılar. Gündüz evdən çıxa bilməyən arvad – uşaq gecə çıxıb dağlara qaçdılar, meşəyə səpələnib daş-qayanın dibində gizləndilər. Bu hadisə ilə bağlı raykomun ikinci katibi Tatevosyan, rayon icraiyyə komitəsinin sədri Davtyan, milis rəisi Karapetyan, prokuror Sarkisyan kəndə gəldilər. Onların gəlişi ilə vəziyyət yaxşılaşmadı, daha ciddi şəkilə düşdü. Kəndin ətrafında nəzarəti möhkəmləndirdilər. Tam iki ay azərbaycanlıları kənddə narahat etdilər. Evindən didərgin düşmüş adamlar gündüz çöllərdə qalır, qonşu kəndlərdən gətirilən yeməklə yola gedir, gecələr çox zaman daşların dibində yatırdılar. Kişilərin üzünü tük basmış, paltarları kirlənib boyunları sadır bağlamışdı. Sentyabr ayında məktəblərdə dərslərin başlanması ilə əlaqədar olaraq təqiblər zəiflədi, azərbaycanlıları kəndə buraxdılar. Dolu evlər talanıb aparılmışdı. Quru divarlardan başqa bir şey görməyənlər Naxçıvana, Azərbaycanın digər bölgələrinə getdilər. Kənd yarıbayarı boşaldı.. Noyabr ayının 20-də yollar bağlandı, köç dayandı. Basqınlar, talanlar şiddətləndi. Ayın 21-də gündüz saat üçdə Qovuşuq kəninə doluşub bildirdilər ki, iki saata kəndi tərk etməlisiniz. Lakin evindən çıxan olmadı.





Hər tərəf təhlükəli idi. Çıxsaydılar dərənin birində onları qıracaqdılar. Kəndin bir tərəfinə çəkilib özlərini qorudular. Üç gün mühasirdə qaldılar. İstəyirdilər acından öldürsünlər. Sovxozun direktoru neçə illər idi ki, onlarla işləyib hörmət görmüşdü. İstəmirdi hörmət gördüyü adamlar aclıqdan ölsünlər. Xəlvət yollarla Naxçıvandan bir maşın çörək, qənd, düyü gətirdib onlara çatdırdı. Noyabrın 30-da rayon icraiyyə komitəsinin sədri, prokuror kəndə gəldilər. Özləri ilə çoxlu milis, on iki KAMAZ, ZİL markalı maşın gətirmişdilər. Onların arxasınca da çoxlu saqqallı kəndə doldu. Milisdən, rəhbər işçilərdən qabaq evlərə girib adamarı döyür, ölümlə hədələyib çölə çıxarırdılar. Bir saatın ərzində hamını evdən çıxarıb, üstlərindəki varidatı alıb özlərini maşınlara dodurdular. Gətirib Şərur rayonunun Yaycı kəndinin yaxınlığında sərhəddə tökdülər.

Dərələyəz kəndinə erməniər noyabrın 23-də səhər saat 8.15 dəqiqədə girdilər və dərhal cinayətlərə başladılar. Azərbaycanlılar telefonla zəng edib rayon milis rəisi Karapetyana xəbər verib kömək istədilər. Telefonda söyüş, qışqırıqdan başqa bir şey eşidilmədi. Cöldə də həmin səslər, söyüş və qışqırıq eşidilirdi. Evlərə od vurmuşdular. Buğum-buğum tüstü havaya qalxıb səmaya yayılır, günəşin qarşısını alırdı.

Vahiməyə düşmüş adamlar kənddən çıxıb dağlara qaçdılar, qayaların arasında gizləndilər. Yubanıb qalan İsakı, Aslanı, Neməti tutub döydülər, yaralı vəziyyətdə buraxdılar. İki evə dinamit qoyub partlatdılar. On səkkiz ev tamam yanıb sıradan çıxdı. Altmış evin qapı-pəncərəsini, şifonerlərini qırıb dağıtdılar. Dörd xüsusi maşını əzib zay hala saldılar. Qaçqınlar raykomun birinci katibi Tatevosyana şikayət edəndə o, kefini pozmadan dedi: «Bizimkilərdə günah yoxdur, sizinkilərin cavblarını verirlər. Sumqayıtdakı hadisələrin».

Dərələyəzlilər bilmirdilər ki, Sumqayıtda həlak olanların dörddə birini erməni Qriqoryan qətlə yetirmişdir. Bilsəydilər, katibə cavab verərdilər.

Noyabrın 27-də raykomun katibi kəndə maşınlar gətirdi. Milisin, hərbçilərin köməyi ilə azərbaycanlıları güclə sərhədə yola saldı. Sürücülər və maşınları müşayiət edənlər Arpa dərəsində maşın karvanını saxayıb tələb etdilər ki, adambaşına 50 manat verməlidirlər. Əks halda, hamını dərəyə töküb öldürəcəklər. Çoxunun pulu əlindən alınmışdı. Pulu olanlar onların əvəzinə də verdilər. Qaçqınlarda pul gördülər, gözləri qızdı. Başladılar axtarış aparmağa ki, Ermənistanın pulunu, qızılını Azərbaycana aparmaq olmaz. Dərələyəzdən olan Cəbrayıl Rzaquliyev, Əli Məmmədov, Fərhad Gülməmmədov, Əmir Novruzov, Nəbi Nəbiyev, Səməndər Zeynalov həmin günü xatırlayıb deyirlər ki, hər daşın, hər kolun dibindən bir erməni çıxdı. On dəqiqənin içində yüzdən artıq saqqallı peyda oldu. Vəhşicəsinə hərəkət edir, zor göstərib adamları döyür, millətinə, dininə söyürdülər.... Kimin nəyi vardısa əlindən aldılar. Bundan sonra milislər yaxın gəlib onları kənarlaşdırdı və adamları pay-piyada Rüzgar kəndinə sarı buraxdılar.

Qabaxlı kəndində 1800 nəfərə qədər azərbaycanlı yaşayırdı. Bu kəndə də Qovuşuq, Dərələyəz kəndləri ilə bir vaxtda hücum etdilər. Buraya doluşanlar Qovuşuqdakılardan fərqli olaraq talan edir, soyğunçuluqla məşğul olurdular. Evlərə soxulub yorğan-döşəyi, qab-qacağı, gəbəni daşıyıb maşınlara doldururdular. Tövlələrdən mal-qaranı aparırdılar. Adamlar su içmək üçün bir stəkan da götürə bimədilər. Adamları bir-bir axtarışıdan keçirib buraxırdılar. Misir Məmmədov evini 14.000 manata satmışdı, pulunu pencəyin altından kürəyinə bağlamışdı. Soyundurub açdılar. İbad Pircanovun 5000 manatını əlindən aldılar. Prokuror Hayk Sarkisyan, rayon icraiyyə komitəsi sədrinin müavini Samvel Hayrapetyan və milis kapitanı Aram Beqlaryanın gözünün qabağında Vüqar Nəbiyevi balta ilə vurub yerə saldılar, huşunu itirdi. Üzərinə çöküb ciblərini töküşdürüb pulunu çıxartdılar, sənədlərini götürdülər. İsbət Əliyevin Qaçqınlara Yardım Komitəsinə yazdığı izahatda deyilir: «72-74 nömrəli





ZİL markalı maşının sürücüsü Balabek Balayan mənə hücum etdi. Yaxamdan yapışıb dartışdırdı, sinəimi yumruqlayıb üst-başımı axtardı. Belimə bağladığım 16 min 500 manat pulu açıb götürdü. Tanımadığım A-29-47 nömrəli maşının sürücüsü ilə bölüşdürdü. Onların başı pula qarışanda təzə pencəyimi götürüb qaçdım. Balayan əlindəki mantrovka ilə ayağımdan vurdu, yerə çöküb torpaqda qaldım.»

Amaqu, Hors, Sallı, Ağkənd, Civə kəndlərində yaşayan azərbaycanlılar az idi. Oralara az da talançı gedirdi.

Gülüdüzü kəndi dağın dibində yerləşirdi. Hər vaxt dağın sürüşüb kəndi altına alacağı qorxusu var idi. İki il əvvəl, əminamanlıq dövründə kəndi yuxarıya, yeni sahəyə çıxarmağı qərara aldılar. Yüz on evin hər biri üçün 3-5 min manat sığorta pulu verdilər. Bir neçə ailə təzə kəndə çıxmışdı. Bir hissəsi isə Azərbaycana getmişdi. Qalanı kənddə idi. Noyabrın 30-da saat 17-də iki tərəfdən kəndə girdilər. Rayon partiya komitəsinin ikinci katibi Harutunyan, rayon qəzetinin redaktoru Xoren Martunyan, sahə müvəkkili Manvel Akopyan kəndə gəlmişdilər. Qatı millətçi, ferma müdiri Asmit Pogosyanın qışqırığı, hay-küyü gələn adamları daha da qızışdırırdı.

Güldüzü kəndində erməni ailələri də çox idi. Azərbaycanlıların qovulmasında sürücü Valod Ağacanyan, Marin, Demo, onun oğlu Jiro, dükançı Qafik xüsusi fəallıq göstərirdilər Onlar boşalan evlərin əmlakını, habelə, evlərin özünü aralarında bölüşdürürdülər.

1988-ci ilin əvvəllərində Ermənistanda yaşayan azərbaycanlılara sözün əsl mənasında divan tutuldu. Qışın oğlan çağında ayaqyalın, başı açıq meşələrə, dağlara qovulan, qar uçurumları altında qalan körpələrimizin, qız-gəlinlərimizin ah - naləsi eşidilməz oldu.

Azərbaycanlıların Əsgəranda qətlə yetirilməsi, Azərbaycan əhalisinin Ermənistandan kütləvi şəkildə qovulması, açıq, həyasızcasına törədilmiş zorakılıq, psixoloji hədə-qorxu ilə müşayiət olunan yanğınlar və zorakılıq respublikada

vəziyyəti daha da pozmuşdur.

Ermənistanda zəlzələ xəbəri hələ mərkəzə çatmamış, biz mülkü-müdafiə dəstələri yaradıb, adını da qoyduq «könüllülər dəstəsi». Zəlzələdən bircə gün əvvəl həmin rayonlarda yaşayan azərbaycanlıları diri-diri yandıran ermənilərə belə aludə olduq ki, «köməyə tələsənləri» təyyarəyə mindirib yola salanda onların siyahısını tutmağı da unutduq. Həlak olanları bir neçə gündən sonra müəyyən edə bildik (1988).

Lakin 1988-ci il mayın sonlarında AKP MK-nın 1 katibi vəzifəsində K.Bağırovu əvəz etmiş Ə.Vəzriov öz sələfinin Moskvaya istiqamətlənmiş və son nəticədə iflas siyasətini davam etdirdi.. Belə üzdəniraq səyasətlə xalqın rəğbətini qazanmaq qeyri-mümkün idi. Senyabrın 21-də erməni ekstemistləri Xankəndində azərbaycanlıların mənzillərinə hücum edərək, onları şəhəri tərk edib Şuşaya köçməyə məcbur etdilər.

1988-ci ilin yayında, «Bakı alimlər klubunda» birləşmiş Azərbaycan ziyalılarının nümayənədələri tərəfindən SSRİ tərkibində suverenliyə nail olmaq şüarını irəli sürən, Pribaltika xalq cəbhələri tipli Azərbaycan Xalq Cəbhəsi yaratmaq üçün «Təşəbbüs qrupu» yaradıldı. «Təşəbbüs qrupu» bir neçə ay ərzində AXC-nin proqram və nizamnaməsini işləyib hazırladı.

Ümumiyyətlə, 1988-ci ilin yayından etibarən Azərbaycanda onlarca qeyri-formal qrup və təşkilatlar fəaliyyət göstərirdi. Məhz bunlardan biri olan «Varlıq» qrupu sonralar «Təşəbbüs qrupu» ilə birlikdə AXC-nin yaradılması üçün baza oldu. «Varlığ»ın öz qarşısına qoyduğu əsas məqsəd – respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni problemlərinin həllində geniş xalq kütlələrinin fəal iştirakını təmin etməkdən ibarət idi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 iyul 1988-ci il tarixli iclası DQMV-nin Azərbaycanın tərəkib hissəsi olduğunu təsdiq etdikdən sonra ermənilər siyasi yolla öz məqsədlərinə nail olmayacaqlarını başa düşərək, respublikamıza





qarşı elan olunmamış müharibəyə başladılar. Yaxşı hzırlıq keçmiş və müasir silahlarla silahlanmış erməni quldur dəstələri Azərbaycan ərazisində fəal hərbi əməliyyatlara keçdilər.

1988-ci ilin yanvar ayınadək Qarabağ münaqisəsinin yeni mərhələsinin startı üçün bütün hazırlıq yekunlaşmışdı. Heydər Əliyevin ittifaq rəhərəliyindən uzaqlaşdırılması ilə mərkəzdə ermənilərin xeyrinə dəyişən balans problemin həllində Moskvanın birbaşa olaraq ermənipərəst mövqe tutacağını şərtləndirirdi. Son mərhələ üçün qığılcım lazım idi. Bu isə Xankəndindən- Stepanakertdən başlamalı idi.

Beləliklə, süni surətdə yaradılmış «Qarabağ məsələsi» Qarabağın erməni xalqının xeyrinə həll olundu. Lakin çox təəssüflər olsun ki, heç kimin ağlına da gəlmirdi ki, qonşu Ermənistanda yığcam şəkildə on minlərlə azıərbaycanlı (Dağlıq Qarabağda olan ermənilərdən xeyli dərəcədə çox) yaşayır ki, onlara da muxtaiyyət vermək lazım idi.

1988-ci ildə erməni ekstremistləri, daşnaklar «Böyük Ermənistan» yaratmaq ideyasını həyata keçirməyə, Azərbaycan ərazisinin ayrılmaz hissəsi olan Daqlıq Qarabağı Ermənistana ilhaq etməyə başladılar. Azərbaycanın suverenliyinə açıq-aşkar qəsd olan bu hərəkət respublikanın diqqətini quruculuq işlərindən, vacib sosial-iqtisadi prproblemlərin həllindən yayındırdı. Nəhayət, 1988-ci ilin fevralında DQMV-də hüquqa zidd hərəkət başlamışdır. Hətta Azərbaycanın partiya- dövlət orqanlarının rəhbərləri vəziyyət kəskinləşəndən sonra da səthi, məsuliyyətsiz münasibət və acizlik göstərmişlər. Bu qətiyyətsizlik xalqımıza böyük müsibətlər gətirmiş və gətirir.

Ermənistanda azərbaycanlılara qarşı davam edən bu siyasət Lori-Pənbək vadisində Hamamlıdan (ermənilər onun qədim adını dəyişib Spitak ediblər) başlandı.

Spitak və ona bitişik hərbi şəhərcikdə 62 azərbaycanlı və türk ailəsi, təqribən 360 adam yaşayırdı. Ermənilərlə qaynayıb-qarışmış xeyli hissəsi az qala öz dilini unudub erməni dilində danışırdı. Uşaqları erməni əlifbasını öyrənir, ermə-

nicə təhsil alırdı. «Qarabağ» komitəsi onların ünvanlarını öyrənib, yaşayış yerlərini müəyyənləşdirmişdi.

Noyabr ayının 27-də gecə saat on ikinin yarısında rayon icraiyyə komitəsinin sədri Fərhad Abucyan başının adamları ilə hərbi şəhərciyə gəldi, türk və azərbaycanlıları evindən çıxarıb icraiyyə komitəsi binasının qarşısına yığdı. Spitak rayon partiya komitəsinin birinci katibi Norik Muradyan, baş həkim Rafiq Bağdasaryan, milis rəisi Sarkisyan, prokuror Arakelyan milisləri və «Qarabağ» komitəsinin üzvlərini şəhərə salıb, bütün azərbaycanlıları və türkləri yığıb gətirdilər. Saat 24-də meydanda 360 türk, azərbaycanlı qadın, uşaq, qoca, cavan vardı. Onlar mindən yuxarı saqqalı və saqqalsız ermənininin əhatəsində qalmışdı. «Turk» deyib söyürdülər, cavab qaytaranları döyür, təhqir edirdilər.

Raykom katibi Muradyan əmr etdi ki, kişiləri, uşaqları və qadınları bir-birindən ayırsınlar. Uşaqlar anasından, qadınlar ərlərindən ayrılmaq istəmirdilər. Zora keçdilər. Beş yaşından 12 yaşınacan uşaqları dartıb analarının əlindən aldılar. Yaxınlıqdakı diametri 1,5 metr, uzunluğu 27 metr olan boruya doldurdular. Hər iki tərəfdən ağzını bağlayanda kişilər hərəkətə gəldi. Heç birində silah yox idi. Gücləri yumruğa çatdı. Qarşılarına çıxanı vurdular. Əli silahlı yüzlərcə saqqallının mühasirəsində türk oğulları nə edə bilərdi? Avtomatdan güllələr açıldı. Ortada qalıb ora-bura fırlanan adamların üzərinə hər tərəfdən güllə çətənə kimi yağdı. Meyitlər bir-bir ayaq altına döşəndi. Sağ qalanların qışqırığı, zarıltısı bir-birinə qarışdı. Ölənlər bunlardır: 6 uşaq atası Kamal və arvadı Nailə Mustafayevlər, 6 uşaq atası Nazir və arvadı Lalə, 7 uşaq atası Surxay Məmmədov, 4 uşaq atası Abdulla Məmmədzadə, 4 uşaq atası, türk Aslan Həbibi, 5 uşaq atası, türk Sultan Məhərrəmli, 3 uşaq atası, hüquqşunas Rəsul Sultanov, 5 uşaq atası Arzuman Lalayev, 6 uşaq atası Polad Gözəlov, 4 uşaq atası Hacı Paşayev, 4 uşaq atası, rəssam Mərzi Hacıyev, 5 uşaq atası, kinomexanik Qorxmaz Həsənov, 7 uşaq atası Ramiz Abdulov, 4 uşaq atası, uşaq həkimi Nazir Mahmudov, 4 uşaq atası, praporşik Hicran Səmədzadə, ərəb dili tərcüməçisi, türk Məhəbbət Mobili, 6 uşaq atası, inşaatçı Həmid Həmidov və başqaları. Ölənlərin və sağ qalanların uşaqlarını boruya doldurdular, yerdə qalanları avtobusa yığıb harasa apardılar. Soruşub uşağını istəyənə dedilər: Amerikaya göndərəcəyik. 25 kişini ayırıb başqa maşına mindirdilər və bildirdilər ki, Azərbaycanda olan ermənilərdən ötrü girov saxlayacaqlar. Salamat qurtarıb Bakıya gələn Mədinə Şərəfin də səkkiz yaşlı Əruz adlı oğlunu, 6 yaşlı Aygün adlı qızını əlindən alıb boruya salmışdılar. Qadınların harayhavarının qarşısını ala bilməyən ermənilər borunu kranla qaldırıb maşının üstünə qoydular. Prokuror Arakelyan dedi ki, aparıb Türkiyənin sərhədinə atsınlar. Raykom katibi Muradyan etiraz etdi, bildirdi ki, Qursalı kəndinin altından axan çayın qırağına qoysunlar, uşaqlar oradan azərbaycanlı kəndi Qursalıya gedə bilərlər. Ağlaşıb haray qoparan analar bir qədər sakitləşdilər. Lakin borunu aparıb çayın kənarına endirəndə ağzını açmayıb o cür də qoyub getdiər... Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı, Bakı, «Gənclik», 1996. 196 səh.

Muradyan, Abuçyan gedəndənə sonra o biri vəzifəlilər də dağılışdı. Qız-gəlin saqqallıların ümidinə qaldı. Ağlayıb səsini çıxaranı döyür, təhqir edirdilər... On-on iki qız-gəlini seçib ortaya gətirdilər, paltarlarını dartıb cırıqladılar. Şaxtalı gecədə elektrik işığının altında məcbur etdilər ki, lüt oynasınlar. Qışqırıb ağlayan kim, bir-birinə qısılıb abrını qoruyan kim, vəhşiliyə etiraz edib onlara hücüm çəkən kim...Arvadlara atəş açıldı. İki qadın dərhal öldü. Mədinə Şərəfin budundan güllə dəydi, yerə çökdü. O, hamilə idi, vaxtı yaxınlaşmışdı. Kömək edən olmadı, iməkləyə-iməkləyə maşının altına keçdi. Qonşusu yəhudi Zinaida Samurova orada idi, kömək edib evinə apardı. Üç gün evində gizlədib, ot tayasında saxlayandan sonra əsgərlərə təhvil verdi. Hərbçilər onu gətirib, Azərbaycanın sərhəddinə ötürdü. «İlham»

qəzeti 1990-cı il 24 noyabr tarixli sayında, «Tanıdım» qəzeti 1991-ci il 8-ci sayında Spitak soyqırımı (genosidi) və Spitak rayon hərbi komissarının müavini işləmiş polkovnik Elçin Məmmədovun həyat yoldaşı, türk qızı Mədinə Şərəf Muradinin faciəli taleyi, 360 azərbaycanlı və türkün başına gətirilən müsibətlər haqqında geniş yazıblar. O qanlı gecədən sağ qalıb Bakı şəhərinə gələn iki qadın – Mədinə Şərəf Muradi və Fatma Həbibi oldu.

Faciəli gecədə işdə növbətçi olan Elçin Məmmədov ermənilər tərəfindən girov saxlanılmışdı. Zəlzələdə torpaq altında qalır. Fransızlar onu ölümün pəncəsindən xilas edir, xəstəxanaya göndərirlər. Onun müsəlman olduğunu bilib geri qaytarırlar. Fransızlar Elçin Məmmədovu Fransaya göndərirlər. Sağalır. Lakin əvvəlki Elçin Məmmədov deyil. Şikəstdir. Bir gözünü və bir ayağını itirib. Ailəsinin başına gətirilən fəlakəti eşitdi. Xalqın müsibətindən də xəbərdar idi. Ona görə də sovet vətəndaşlığından imtina etdi. Arvadı Mədinə və Moskva xəstəxanasında dünyaya gələn, üzünü görməyən oğlu ilə sərhəddə, Araz çayı üzərində görüşdü. Amma özü adını qoyduğu körpə Araz balasının yanına qayıtmadı. İndi şikəst, tənha ata Fransada kimsəsiz yaşayır.

Ermənistan ərazisində əsrlər boyu yaşayan bütün azərbaycanlılar qısa müddətdə vəhşicəsinə qovuldular. 200 mindən çox azərbaycanlı respublikamıza qaçdı. Qaçqınlar problemi əmələ gəldi. Azərbaycana pənah gətirmiş qaçqınları tamamilə yerbəyer etmək üçün azı 2,5 milyard manat pul lazım idi. M.S.Qorbaçov və İttifaq hökuməti isə bu işə yardım göstərmədi. Qaçqınların respublikada yerləşdirilməsi sahəsində həm də strateji səhvə yol verilmişdir. Ermənistan əslində Azərbaycanla elan edilməmiş müharibə aparmış və aparır.

1988-ci il fevralın 8-dən başlayaraq Xankəndində (Stepanakertdə) DQMV-nin Ermənistana verilməsi tələbini irəli sürən petisiyaya açıq şəkildə imza toplanmağa başlandı, fevralın 12-də isə həmin tələblə ilk mitinq keçirildi. Lakin bü-





tün bunları hadisələrin başlanğıcı hesab etmək sadəlövhlük olardı. Belə ki, Azərbaycan artıq çoxdan xaricdəki erməni mərkəzlərinin təxribatçılıq fəaliyyətinin başlıca hədəfinə, onların ideoloji diversiyalarının əsas obyektinə çevrilmişdi. Sadəcə olaraq, ermənilər uzun illər ərzində hazırlanmış və yaxşı düşünülümüş planın praktiki surətdə tətbiqinə başlamışdır.

Təəssüf ki, Əskəranda və Sumqayıtda baş vermiş hadisələr ekstremistləri və millətçiləri ayılda bilmədi. Sumqayıtdakı hadisələrin törədilməsinin əsl səbəbləri nə Sumqayıtla, nə də ki, sumqayıtlılarla bağlı olmamış, şəhər sakinləri arasında hər hansı bir ictimai-siyasi, istehsal, mənzil-məişət və s. münasibətlərdən irəli gəlməmiş və sözsüz ki, onların milli-etnik və ya dini mənsubiyyətləri zəminində ədavətləri nəticəsində baş verməmişdir, çünki belə ədavətələr bu şəhərdə yerli-dibli olmamışdır. Bununla belə, hadisələrin zahirən anti-erməni xarakter daşıdığı, zorakılıq hərəkətlərinin milliyyətcə erməni olan sakinlərə qarşı yönəldiyi nəinki gizlədilmirdi, əksinə, iğtişaşların başlandığı ilk anlardanca açıq-aydın görünürdü.

Lakin hadisələrin sonrakı gedişi, Ermənistan-Azərbaycan münasibətlərinin get-gedə kəskinləşməsi, Dağlıq Qarabağ uğrunda ümummili erməni hərəkatının geniş vüsət alması, nəhayət, müharibə və onun acı nəticələri bu görüntülərin aysberqin üzdəki hissəsi olduğunu aşkar etdi. Sumqayıt hadisələrinin Dağlıq Qarabağ problemi ilə, Dağlıq Qarabağ probleminin isə SSRİ-nin dağıdılması planları və erməni millətçilərinin uzun illərdən bəri həyata keçirməyə çalışdıqları «Böyük Ermənistan» dövlət yaratmaq xülyası ilə birbaşa bağlı olduğunu üzə çıxardı.

İstintaq nəticəsində müəyyən edilmişdir ki: «1988-ci il fevralın 27-29-da Azərbaycan SSR-nin Sumqayıt şəhərində xuliqanlıq edən şəxslər tərəfindən kütləvi ixtişaşlar törədilmişdir. Bu ixtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam (o cümlədən 26 erməni) həlak olmuş, 40 nəfərdən

çox adam müxtəlif dərəcəli bədən xəsarəti almış, 200-dək mənzil hücuma məruz qalmış və dağıdılmış, 50-dən artıq mədəni-məişət obyektinə xəsarət yetirilmiş, 40-dan çox nəqliyyat vasitəsi sındırılmış, əzilmiş, bir hissəsi yandırılmışdır. Dövlətə 7 milyon qubl (bugünkü qiymətlərlə 10 milyon dollardan artıq) həcmində maddi ziyan vurulmuşdur» (81). İstintaq materiallarında deyilir ki, 444 nəfər adam məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 gün təcridxanada saxlanılmış, bir neçəsi uzunmüddətli həbs cəzasına, bir nəfəri –Əhməd İman oğlu Əhmədov isə güllələnməyə məhkum olunmuşdur. Məlumatı olmayan oxuculara bildirək ki, hökm tez-tələsikdə yerinə yetirilmişdir.

Hadisələrlə bağlı saxlanılanlar arasında müxtəlif millətlərdən olan adamlar – azərbaycanlılar, ermənilər, ruslar, ləzgilər, yəhudilər və başqaları olmuşlar. Şəhərdə xuliqanlıq edənlər, iğtişaşları törədənlər müxtəlif əqidəli insanlar – satın alınmış cinayətkarlar, terrorçular, tüfeylilər, narkomanlar, spirtli içki düşkünləri, …30 nəfəri isə ümumiyyətlə, heç bir yerdə işləməyənlər idi.

Əvvələ onu qeyd edək ki fevralın 25-i, 26-sı və 27-si günləri kimliyi bəlli olmayan, əllərində daş-kəsək, ağac və dəmir çubuqlar tutmuş, gözləri qızmış, həddi-buluğa çatmamış yeniyetmələr dəstə-dəstə Sumqayıtın mərkəzi küçələrində, meydanlarında sanki yerin altından peyda olur, insana yaraşmayan müxtəlif əcayib səslər çıxararaq, hay-haray sala-sala insanları intiqama, qisas almağa çağırır, şəhərin erməni əhalisinə qarşı müvafiq zorakılıq aktları törətməyə səsləyir, şəhər və respublika rəhbərliyini fəaliyyətsizlikdə, laqeydlikdə, Moskvanı, Kremli, Qorbaçovu, Mərkəzi Komitəni, onun Siyası Bürosunu isə qəti tədbirlər görməməkdə, birtərəfli, ermənipərəst mövqe tutmaqda, azərbaycanlılara qarşı satqınlıqda günahlandırırdılar.

Bu mitinqə şəhər sakinləri, dinc əhali də axışıb gəlir, nə baş verdiyini, Qarabağda, Ermənistanda vəziyyətin necə olduğunu öyrənməyə, dərk etməyə çalışırdı. Çıxış edənlərin





əksəriyyəti isə özlərini Ermənistandan qovulmuş, ata-baba yurdundan didərgin düşmüş adamlar kimi təqdim edir, ermənilər tərəfindən onların başına gətirilən müsibətlərdən danışır, burada, Azərbaycanda isə respublika rəhbərliyi tərəfindən onlara heç bir qayğı, kömək göstərilmədiyindən şikayətlənirdilər, onları laqeydlikdə günahlandırır, əhalini ermənilərə qarşı qisasa qalxmağa səsləyirdilər. Mitinqlərdə çıxış edən respublika, partiya və hökumət nümayəndələri asayişə riayət etməyə, emosiyalara uymamağa dəvət edir, məsələlərin qanuni yolla, tezliklə və ədalətlə həll olunacağına inandırmağa çalışırdılar.

Ertəsi gün vəziyyət təkrar olunur, hərəkətlərin, mitinq və çıxışların miqyası genişlənir, emosiyalar daha da güclənir, təhlükəli çağırışlar səslənirdi.

Fevralın 27-də axşam saat 18 radələrində mitinq dağılandan sonRa da «qara qüvvələr», cinayətkar ünsürlər əvvəlki günlərdə olduğu kimi qeyb olmadılar. Fevralın 28-də şəhərdə ilk qan töküldü…

Axşam saat 23.45-də şəhərə ordu qüvvələri yeridildi. Ertəsi gün, fevralın 28-də səhər tezdən Sumqayıt şəhər radio şəbəkəsi ilə şəhərə ordu qüvvələrinin daxil edildiyi barədə, martın 1-də isə fevralın 29-u axşam saat 23-dən etibarən komendant saatı təyin olunuduğu barədə məlumat verildi.

DQMV haqqında partiya və hökumətin qərarlarına zidd olan məsuliyyətsiz bəyanatlar, fitnəkar əməllər, xüsusilə Şuşanın yaxınlığında olan və Azərbaycan xalqının tarixi abidəsi sayılan Topxanaya şüurlu surətdə qəsd edilməsi DQMV-nin iqtisadi və siyasi cəhətdən ilhaq edilməsi barədə aşkar planlar və bir çox digər şeylər – bütün bunlar vəziyyətin kəskinləşməsinin əsas real vasitələridir. Hər iki respublikada artıq çox minlərlə qaçqın əmələ gəlmişdi.

Sov. İKP MK-ın Baş katibi M.S.Qorbaçov 1988-ci ilin axırlarında mərkəzi televiziyanın müxbirinə verdiyi müsahibədə «Qarabağ problemi»ni belə əsaslandırmışdır: «Əlbəttə, Qarabağ problemi» var və onun kökləri dərindir. Ona görə

kəskinləşmişdir ki, Azərbaycan rəhbərliyinin müəyyən mərhələdə həmin əhaliyə Lenin ənənələri ruhuna uyğun gəlməyən səhv münasibəti olmuş, sadəcə olaraq qeyri-insani münasibət bəsləmişdir» 21. 21«Kommunist» (Ermənistan KP MK-nın orqanı), 4. 1.1989.

Respublika rəhbərliyinin seyirçi mövqeyi geniş xalq kütlələrini hiddətləndirməyə bilməzdi. 1988-ci il noyabrın 18-dən dekabrın 5-dək Bakının baş meydanında davam edən fasiləsiz mitinq bu hiddətin əzəmətli nümayişinə çevrilmiş oldu. Rəhbərlik xalqın haqlı tələblərinə qulaq asıb, onların həyata keçirilməsi üçün tədbirlər görmək əvəzinə, mitinqi rus qoşunlarının qüvvəsi ilə dağıtmağa üstünlük verdi. Bakıda və respublikanın bir sıra bölgələrində fövqəladə vəziyyət rejimi tətbiq edildi. Bununla da rəhbərlik sübut etdi ki, bütün sivilizasiyalı dünyada qəbul olunmuş normal siyasi metodlarla ölkəni idarə etmək iqtidarında deyildir, xalq isə əvvəlki qaydalarla yaşamaq niyyətində deyildir. Bu isə siyasi böhranın klassik nümunəsi idi.

1988-ci il dekabrın 5-də səhər saat 4-də meydan xüsusi təyinatlı əsgərlər tərəfindən «təmizləndikdən» sonra hərəkatın bir sıra liderləri və fəallarına qarşı başlanan təqiblə bağlı Azərbaycan milli hərəkatında zahiri sakitlik yarandı. Lakin son nəticədə hakim dairələr hadisələrin təbii gedişini və AXC-nin yaradılması prosesini dayandırmağa nail ola bilmədilər.

Ana torpağımıza uzanan xain əllər geri çəkilmək bilmir, bəd əməllərin və məkrlə yoğrulmuş çirkin niyyətlərin, yersiz iradların və amansız ittihamların ardı-arası kəsilmirdi.

1988-ci ildə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan – 185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir olundu. 15 mindən çox kürd və rus Ermənistandan çıxarıldı. Ermənistan





demək olar ki, monoetnik bir respublikaya çevrildi.

1989-cu ilə qədər Ermənistanda yaşayan 300 minazərbaycanlının aqibəti məlum idi. 1989-cu ildə DQMV-də hadisələrin kəskinləşməsi yeni mərhələyə daxil oldu. 1989-cu ilin yanvarında guya vəziyyəti normallaşdırmaq üçün A.Volski başda olmaqla yaradılmış DQMV Xüsusi İdarə etmə Komitəsi (XİK) vilayətin idarə olunmasında respublika orqanlarını faktiki olaraq kənar etmişdi. XİK-nin köməyi ilə DQMV-nin Azərbaycanla bütün iqtisadi, siyasi və mədəni əlaqələri kəsildi. A.Volskinin verdiyi fürsətdən istifadə edərək, muxtar vilayətə doluşan erməni yaraqlıları azərbaycanlıları DQMV-dən sıxışdırıb çıxarmağa başladılar.

16 iyul 1989-cu ildə Bakıda yarımleqal şəraitdə AXC-nin təsis konfrası keçirildi. Konfrans 15 nəfərdən ibarət İdarə Heyətini seçdi. Azərbaycan EA Əlyazmalar İnstitutunun əməkdaşı, tarixçi Əbülfəz Əliyev AXC-nin sədri seçildi. Konfransda AXC-nin Proqramı və Nizamnaməsi təsdiq edildi.

Məhz AXC-nin rəhbərliyi altında 1989-cu il iyulun axırı-avqustun əvvəllərindən Azərbaycan milli hərəkatında keyfiyyətcə yeni mərhələ başlandı. 29 iyul, 5 və 12 avqustda Bakının baş meydanında çorxminlik mitinqlər keçirildi. Azərbaycanın rəsmi rəhbərəliyi AXC-nin vasitəsi ilə mərkəzə və Ermənistana təsir göstərəməyə çalışırdı.

5 oktyabr 1989-cu ildə AXC Azərbaycan Nazirlər Soveti tərəfindən rəsmən qeydə alındı AXC ilə respublika rəhbərliyi arasında razılaşmaya əsasən dekabrın 24-də «Azadlıq» qəzetinin 200 minlik tirajla ilk nömrəsi çapdan çıxdı.

1989-cu ilin sonlarında AXC öz şöhrətinin zirvəsində idi. Yaxın vaxtlarda keçirilmli olan respublika Ali Sovetinə seçkilərdə AXC-nin qələbə çalacağı artıq heç kəsdə şübhə doğurmurdu. Bu vəziyyətdən ciddi təşvişə düşən mərkəz Azərbaycan milli hərəkatına ölümcül zərbə vurmaq fikrinə düşdü. Bundan məqsəd təkcə AXC-ni ictimai-siyasi təşkilat

kimi məhv etmək deyil, həmçinin Azərbaycanın timsalında SSRİ-nin digər respublikalarında da müstəqillik uğrunda genişlənən xalq hərəkatlarına «dərs» verib, onların qarşısını almaq idi.

Təəssüflə qeyd etmək lazımdır ki, AXC daxilindəki böhran mərkəzin bu məkirli planlarının həyata keçirilməsini xeyli asanlaşdırmış oldu. Məlumdur ki, yarandığı andan AXC yekcins olmayıb, müxtəlif siyasi təmayüllü qrupları birləşdirən bir təşkilat olmuşdur. Bu qrupları vahid bir təşkilatda birləşdirməyə sövq edən isə, ümumi düşmənə-totalitar kommunist rejiminə qarşı mübarizə əzmi və Qarabağ problemi idi. Şübhəsiz ki, AXC bu problemlər çərçivəsində qapanıb qala bilməzdi. Həyat özü hərəkatın qarşısına yeni-yeni vəzifələr qoyurdu ki, bunlara münasibətdə də müxtəlif qruplar bir-birinə daban-dabana zidd olan mövqelərdə dururdular. Bu isə öz növbəsində AXC daxilindəki siyasi qütbləşməni getdikcə gücləndirirdi.

AXC-də daxili böhranın kəskinləşdiyi dövrdə Dağlıq Qarabağda erməni yaraqlıqlarının azərbaycanlılara qarşı əsl müharibə əməliyyatlarını genişləndirmələri respublikadakı siyasi gərginliyi son həddə çatdırmış oldu. Uzun müddət fəaliyyətsizlik göstərmiş respublika rəhbərliyi birdən-birə olduqca şübhəli şəkildə cəsarətə gələrək açıqdan-açığa könüllü silahlı dəstələrin yaradılması uğrunda çıxış etməyə başladı. 1990-cı ilin 15 yanvarında Azərbaycan KP MK-nın I katibi Ə.Vəzirov Bakı məişət soyuducuları zavodu işçiləri ilə görüş zamanı silah tuta bilən bütün gəncləri könüllü dəstələrə yazılmağa çağırdı və eyni zamanda, onların silahla təmin ediləcəyini bildirdi. Bu görüş və Vəzirovun çağırışı Azərbaycan televiziyası ilə bütün respublikaya translasiya olunurdu. Bu cür çağırışlar partkomların adından həmin günlərdə Bakının bütün müəssisə və idarələrində asılmışdı. Məhz partiya komitələrində könüllərin siyahıları toplanırdı. Tamamilə aydın idi və ya aydın olmalı idi ki, çox böyük fitnəkarlıq hazırlanır. Lakin Xalq Cəbhəsinin radikal qanadı hakimiyyət uğrunda mübarizə eyforiyasında bu fitnəkarlığa uyaraq təkcə AXC-ni deyil, həm də bütün milli-demokratik hərəkatı zərbə altında qoydu. AXC İH-ni xəbərdar etmədən onlar Milli Müdafiə Şurası (MMŞ) yaratdılar və yeni seçilmiş İH-ni fakt qarşısında qoydular. Sonrakı hadisələr göstərdi ki, MMŞ-nin respublika rəhbərliyinin bilavasitə təhriki ilə yaradılmışdı. Belə bir fakt əlamətdardır ki, mərkəzin o vaxt Bakıda olan nümayəndələri – Y.M.Primakov, A İ.Girenko əsasən AXC İH ilə deyil, MMŞ üzvləri ilə danışıq aparırdılar, yaxud onları ayrı-ayrılıqda qəbul edirdilər. Beləliklə, MMŞ-nin yaradılması həmin böhranlı günlərdə AXC İH-nin hadisələrə rəhbərlikdən uzaqlaşdırılmasına xidmət edərək, mərkəzin qurduğu oyunda vasitələrdən biri rolunu oynamışdır. MMŞ üzvlərinin özlərinin hansı məqsəd güddüklərinin bu məsələdə elə bir əhəmiyyəti ola bilməzdi. 1990-cı il yanvarın 13-də Bakıda erməni talanları başladı. Hələ 30 dekabr 1989-cu ildə AXC-nin rəsmi orqanı olan «Azadlıq» qəzeti Bakının erməni əhalisinə qarşı qanuna zidd ayrı-ayrı faktları pisləyərək əhalini xəbərdar edirdi ki, millətlərarası zəmində hər hansı kütləvi zorakılıq aktları yaxın dövrdə keçirilməsi gözlənilən Ali Sovetə seçkilər ərəfəsində Bakıda xüsusi vəziyyətin və komendant saatının qoyulması üçün bəhanə verə bilər.





Respublikada son həddə qədər gərginləşmiş vəziyyəti SSRİ Ali Soveti Rəyasət heyətinin «Dağlıq Qarabağ və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması» haqqında 15 yanvar 1990-cı il tarixli fərmanı, xüsusilə həmin fərmanın Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinə Bakı və Gəncədə komendant saatı tətbiq edilməsini tövsiyə edən VII bəndi daha da kəskinləşdirdi. Respublika əhalisi hamılıqla həmin fərmanı ədalətsiz, ermənipərəst bir akt kimi qiymətləndirirdi. Fərman elan olunduqdan sonra hərbi hissələrin ətrafında piketlərin qurulması başlandı.

AXC İH-nin 17 yanvar tarixli qərarı ilə SSRİ Ali Soveti Rəyasət heyətinin bu fərmanı Azərbaycan xalqının milli ləyaqətini təhqir edən bir sənəd kimi qiymətləndirildi. AXC

İH-nin qərarında 20 yanvar 1990-cı ildə Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasının çağırılması və bu fərmanın Azərbaycan SSR-nin suverenliyi haqqında Konstitusiya Qanununa zidd bir akt kimi fəaliyyətinin dayandarılması tələb edilirdi. Eyni zamanda, AXC qoşunun şəhərə silahla yürüş edəcəyi təqdirdə ona müqavimət göstərməməyə çağırdı.

Yanvarın 17-də Azərbaycan KP MK-nın binası qarşısında Ali Sovetin fövqəladə sessiyasını çağırmaq və respublika rəhbərliyinin istefası tələbi ilə fasiləsiz mitinq başladı.

Moskva xalqın gözündə özünü tamamilə rusvay etmiş yerli oyuncaq rejimi xilas etmək üçün son tədbirə – silahlı qüvvə tətbiqinə əl atdı. SSRİ Ali Sovetinin Rəyasət heyəti Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında Qorbaçov M.S. tərəfindən imzalanmış fərmanı qəbul etdi və məlum olduğu kimi həmin fərman çoxdan hazırlanmış cinayətin ən vəhşi şəkildə həyata keçirilməsinə formal əsasdan başqa bir şey deyildi.

Yanvarın 19-dan 20-nə keçən gecə rus qoşunları əhalini xəbərdar etmədən Bakı üzərinə hücuma keçdilər.

Bakıya qoşun yeridilməsi və günahsız dinc əhalinin qırılmasına haqq qazandırmaq üçün SSRİ-nin ali rəhbərləri bir-birini inkar edən ziddiyyətli bəyanatlar verirdilər. Bizə elə gəlir ki, bu əməliyyata bilavasitə rəhbərlik etmiş müdafiə naziri D.Yazovun sözləri həqiqətə daha yaxındır. 20 yanvardan bir neçə gün sonra D.Yazov hələ Bakıda olarkən, «İzvestiya» müxbirinin sualına cavab olaraq bildirmişdi ki, qoşun şəhərə AXC-nin mövcud strukturunu məhv etmək üçün daxil olub. Hərbçilər tərəfindən demokratik hərəkatın 200-dən çox fəalı həbs olundu. AXC İH və rayon şöbələri gizli fəaliyyətə keçdilər. 20 yanvar faciəsindən sonra yaranmış vəziyyəti təhlil edərək, AXC İH 26 yanvar 1990-cı il tarixli qərarında bütün rayon (şəhər) şöbələri, dayaq dəstədəri və ayrı-ayrı üzvlərdən tələb etdi ki, yalnız dinc siyasi vasitələrlə təcavüzkarlara qarşı mübarizə aparsınlar.







20 Yanvar soyqırımı

Xalqımızı aldatdılar, qanına qəltan elədilər.

Əvvəlcədən düşünülmüş ssenari üzrə igid cavanlarımıza, ana-bacılarımıza, hətta körpələrimizi də qırdılar.Televiziya qurğuları dağıdıldı, radionun səsi kəsildi. Şəhərin «əməliyyat» aparılacaq masssivlərində elektrik xətlərini iflic etdilər ki, xəbərdarlıq etmədən əliyalın, dinc əhaliyə divan tutsunlar, bəd əməllərini görən olmasın, istədiklərini edə bilsinlər.



*20 yanvar soyqırımı*

Ayrı-ayrı adamların məsuliyyətsiz çıxışlarını öz suverenliyini, azadlığı uğrunda ayağa qalxan adı ilə bağlayıb «başqa çıxış yolu yox idi» deyərək qırğın törədənlər üçün əslində ən əlverişli fürsət ələ düşmüşdü.

Şəhərdə sabitlik yaratmaq əvəzinə, dörd səhv qərar qəbul edildi: 1.Ümumi tətillər. 2. Şəhəri qorumaq məqsədilə yollarda kütləvi piketlər təşkil etmək. 3. Mitinqlərin MK qarşısına köçürülməsi. 4. İstefa şüarı. Bunların hamısı böhranı dərinləşdirdi. Hərəkatın dinc xarakterini qoruyacaq yeganə doğru şüar Respublika Ali Sovetinin sessiyyasını çağırıb, Ermənistanla sərhəddəki toqquşmalara rəsmi siyasi qiymət verməyi tələb etmək idi.

Bakıda fövqəladə vəziyyət barədə fərman «Zaman» proqramında elan olunmalı idi. Amma televiziyanın enerji blokunun partladılması buna imkan vermədi. Bakı əhalisi şəhərdə fövqəladə vəziyyət elan olunduğunu ancaq səhər saat 6-ya qədər yüzlərlə adamın qanı axandan sonra bildi. Qanlı yanvar günlərində xalqımız öz yolunu müəyyənləşdirdi, qanı axa-axa, hər cür məhrumiyyətlərə sinə gərə-gərə azadlığa doğru addımladı.





Mərkəzdəki Azərbaycana düşmən qrupların və daxildəki satqınların səyi nəticəsində azərbaycanlıların Qarabağdakı dədə-baba torpaqlarından köçürülməsi həyata keçirildi, xalq hərəkatı içərisində təfriqə salındı. Nəticədə Azərbaycan öz tarixi ərazisi olan Qarabağı tamamilə əldən verdi. Bunun ardınca tarixi cinayət-90-cı ilin Qanlı Yanvar qırğını baş verdi: 744 nəfər yaralandı, 131 nəfər şəhid oldu. 400 nəfər həbs olunub, 4 nəfər itkin düşüb. Onlardan – 117-si azərbaycanlı, 6-sı rus, 3-ü tatar və 3-ü yəhudi olub.





XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan çətin sınaqlar qarşısında qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gencə Sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir.

Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Ümumittifaq şəbəkəsinə daxil olan, Azərbaycanı Naxçıvanla bağlayan dəmir yol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur.

Rus ordusunun Qorbaçovun başçılığı ilə Bakıda törətdiyi dəhşətli hadisəni bütün dünyaya bəyan etmək üçün Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlir. Xarici jurnalistlərin qarşısında Heydər Əliyev SSRİ-i





tarixində ilk dəfə olaraq, o dövrkü Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçovu Azərbaycan xalqının qətlində ittiham edərək bildirdi ki, bu gün (19-20.01.90) Azərbaycan xalqının taleyinə qanlı, faciəli gün kimi şəhid övladların qanı ilə yazılmışdır. Yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakının küçələrində, meydanlarında qan dizə çıxdı.



*Naxçıvan MR dəmir yol nəqliyyatı*

Ən müasir silahlarla xalq atəşə tutuldu, tanklar, toplar dinc əhalini amansızcasına, vəhşicəsinə məhv etməyə başladı. Bu çıxışdan sonra isə Heydər Əliyev xalqının ağır və faciəli günlərində vətənə dönməyi qərarlaşdırır. Dağılmaqda olan imperiya Heydər Əliyevin şəxsiyyətinə və bu dahi insanın siyasi baxışlarına yaxşı bələd olduğu üçün onun öz doğma vətəninə dönməsinə böyük manelər törətməyə başlayır. Amma dahi siyasətçi Heydər Əliyev bütün bu maneələri dəf edərək Bakıya dönməyə müvəffəq olur. Bu dövrdə öz çirkin əməllərini həyata keçirmək istəyənlər Heydər Əliyevin Bakıda siyasi fəaliyyətinə maneələr yaradır və onun ölkəni tərk etməsini istəyirlər. Xalqımızın fəlakətlərə sürükləndiyi bir vaxtda, erməni işğalçılarının ölkəmizin içərilərinə doğru hərəkət etdiyi bir zamanda Naxçıvan əhalisi yekdillik və uzaqgörənliklə Heydər Əliyevi Azərbaycan Respublikası Ali Sovetinə deputat və özlərinə rəhbər seçdi. Yalnız bundan sonra

taleyin ümidinə buraxılmış Naxçıvan, Qarabağ və ümumiyyətlə, bütöv Azərbaycan fəlakətdən qorunmuş oldu.

Əziz oxucu, bu hadisə necə də H.Cavid taleyinin əks-sədası kimi səslənir: «Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü» deyən bir şairin harayı ilə səsləşir.

Məhz belə ağır bir şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək, Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun müxtariyyət statusunu qoruyub saxladı. Naxçıvanın 1990-cı ilin yayında seçilmiş Ali Seveti həmin il noyabrın 27-də birinci sessiyasında muxtar respublikasının adından «sovet», «sosialist» sözləri çıxarmış, Ali Sovetin adının dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırmışdır.

AXC-nin həmin dövrdə gücü və imkanları yalnız martın 5-də AXC-nin qərarı ilə dayandarılan 40 günlük ümumrespublika tətilinin müvəffəqiyyəti əyani sübut oldu. Həmin tətil nəticəsində dövlətə yarım milyard manatdan çox ziyan dəydi.

20 yanvardan sonra rus süngülərinin köməyi ilə hakimiyyətə gəlmiş Mütəllibov rejimi Azərbaycanı milli fəlakətə gətirib çıxarmış sələflərinin xalqa zidd siyasətini davam etdirdi. «Yeni rəəhbərliyin» özündən əvvəlki rəhəbərəliyin acı təcrübəsindən nəticə çıxaracağına, respublikanı siyasi böhrandan çıxarmaq üçün müdriklik göstərəcəyinə, AXC və başqa demokratik qüvvələrlə fəal əməkdaşlıq edəcəyinə bəslənən ümidlər doğrulmadı. İlk həftələrdə müəyyən gözləmə mövqeyindən sonra Mütəllibov rejimi AXC-yə qarşı kəskin qarşıdurma siyasətinə keçdi. Azərbaycan xalqının taleyi üçün bu təhlükəli siyasətlə bağlı həyacan Azərbaycan Elmlər Akademiyasının, yaradıcılıq idtifaqları rəhbərlərinin də imza qoyduğu 75 nəfər görkəmli elm, mədəniyyət və incəsənət nümayəndələrinin bəyanatında əks olundu. «75-lər bəyanatı» adlanan həmin bəyanat «Elm» qəzetinin 1990-cı il 28 aprel tarixli sayında çap olunmuşdu. Bəyanatda göstərilirdi ki,





«Bütün məsuliyyətəimizlə bildiririk: yaxın keçmişdə buraxılmış səhvlərin təkrar olunmasına qorxulu meyl mövcuddur. Bizim fikrimizcə, respublika rəhbərliyi real şəkildə mövcud olan bütün vətənpərvər və demokratik hərəkatların birləşməsi üçün təsirli tədbirlər görmür. Hamıya aydın olmalıdır ki, indi respublikada qoşun gücünə saxlanan qayda-qanun müvəqqətidir. Əgər indi ən təcili şəkildə əsl ictimai sakitliyin möhkəm özülünün yaradılması üçün təsirli tədbirlər görülməzsə, zorla bərqərar edilmiş «sükut» sonradan daha böyük faciələrlə qurtara bilər.

1990-cı ilin yayında fövqəladə vəziyyət rejiminin bir qədər yumşalmasına baxmayaraq, AXC fəallarına qarşı təqib və sıxışdırmalar hələ də davam edirdi. «Azərbaycan» qəzetinin qeyd etdiyi kimi, «əgər yanvar faciəsinə qədər respublikada durğunluq dövrü nümunəsində partiya möcud idisə, indi Azərbaycana kobud hərbi qüvvəyə arxalanan stalinçi pariya rəhbərlik edir»82. Qəzet haqlı olaraq, respublikadakı hakim rejimi «hərbi-partokratik» rejim kimi xarakterizə edirdi. Bu baxımdan A. Mütəllibovun 1 iyul 1990-cı ildə Xankəndinə Azərbaycan televiziyası ilə translyasiya olunan çıxışı olduqca simvolik idi. Həmin çıxışında A.Mütəllibov açıqca bildirdi ki, SSRİ-də hansı proseslər baş verir versin, bizim respublikada, bizim xalqımızın öz ənənələri vardır. Onun fikrincə, bu ənənə «Azərbaycan xalqının gücə və nüfuza tabe olmaq xüsusiyyətindən ibarətdir və odur ki, Azərbaycanın «güclü» hakimiyyətə, ölkədə möhkəm qayda-qanun yaratmağa qabil «sərt ələ» ehtiyacı vardır. Mütəllibovun daxili siyasətinin ana xəttini təşkil edən bu tezisin həqiqi müəllifi Nəcibullanın keçmiş müşaviri V.Polyaniçko idi. Bütün ölkədə demokratikləşmə prosesinin günü-gündən gücləndiyi bir şəraitdə bu siyasətin Azərbaycanda müvəffəqiyyət qazanacağını güman etmək sadəlöhvlük idi. Çox tezliklə tarix özü bu siyasətin perspektivsizliyini sübut etmiş oldu.

1990-1992-ci illərdə Azərbaycanda yaranmış vəziyyətdən ermənilər kəmfürsətcəsinə istifadə etdilər.

1990-cı ildə Ə.Vəzirov Moskvaya qaçanda Azərbaycan xaos vəziyyətində idi. Sonra da AXC ilə Mütəllimov hakimiyyəti arasında çəkişmə-didişmə başladı. Dağlıq Qarabağ, demək olar ki, başlı-başına buraxıldı. Ümumiyyətlə, Qarabağ ərazisi Allah ümidinə qaldı. Əslində, 1989-cu ildə SSRİ hökuməti DQMV-da Xüsusi İdarəetmə Komitəsi yaratmaqla onu, Azərbaycanın tərkibindən çıxartdı.

Həmin vaxtlar Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən çıxmaq üzrə idi. Ermənilər 1988-ci ildən 1992-ci il fevralın 25-nə qədər olan müddətdə Dağlıq Qarabağdakı bütün Azərbaycan kəndlərini boşaldaraq işğal etmişdilər. Buna qədər isə erməni terrorunun ardı-arası kəsilmir, dinc insanlar qətlə yetirilir, yaşayış məntəqələri dağıdılırdı.

Kərkicahan, Umudlu, İmarət-Qərvənd, Qaradağlı, Cəmilli, Tuğ və başqa yurd yerlərimiz ermənilərin silahlı hücumları qarşısında tab gətirə bilmir, insanlar öz ev-eşiklərindən didərgin salınırdı. Bu biçarə insanlara isə sahib çıxan, arxa duran yox idi.





# V FƏSİL

# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI MƏSƏLƏLƏRİ DÖVLƏT SƏNƏDLƏRİNDƏ

## 5.1. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması və azərbaycanlılara qarşı soyqırımı siyasəti. Ermənistanda qərbi azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti

Azərbaycan tarixində həm fərəhli, həm də kədərli günlər çoxdur. Ancaq bunların içərisində müstəqillik bayramı xüsusi yer tutur. Biz birinci dəfə deyil ki, müstəqil dövlət yaradırıq. XX əsrdə üç dəfə dövlət yarada bilmişik.

1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti, 1920-1991-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikası və nəhayət, 1988-ci ildə baş verən hadisələrin davamı olaraq, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa edə bildik. Ancaq 1918-20-ci illərdəki müstəqilliyi qoruyub saxlaya bilmədik. Bu hadisələrin nəticəsi hamımıza tarixdən yaxşı məlumdur. Ondan sonrakı sovet dövründə, müstəqilliyimizin itirildiyi şəraitdə yaşadığımız illər də tarixdən bizə yaxşı məlumdur. Çox da uzaq olmayan tariximiz - 1988-1990-cı illər də yaxşı yadımızdadır. Belə ki, ermənilərin Dağlıq Qarabağı Azərbaycandan ayırmaq tələbləri, bunun ardınca məlum Sumqayıt hadisələri, hegomonluğunu itirmək istəməyən imperiyanın Bakıda törətdiyi Qanlı Yanvar hadisələri, bunların ardınca isə Azərbaycanın o zamankı fərasətsiz rəhbərlərinin yeritdikləri siyasət ucbatından torpaqlarımızın bir qisminin itirilməsi baş verdi. Müstəqillik zərurəti bax belə bir şəraitdə yarandı. Məlum olduğu kimi, müstəqillik asanlıqla qazanılmamışdır. O, Azərbaycanın mərd oğul və qızlarının qanı bahasına əldə edilmişdir.

Xalqımızın bir müdrik kəlamında deyildiyi kimi: «Su gələn arxdan bir də gələcək». Nəhayət, 70 il sonra XX əsrin son onilliyində Azadlıq xalqımızın üzünə yenidən güldü. 18 oktyabr 1991-ci ildə Sovet imperiyası dağıdıldı. Azadlıq sədaları yenidən eşidildi. Vətənimizdə Azərbaycan Respublikası adlı müstəqil dövlətçtliyimiz yenidən bərpa olundu. Lakin, yeni dövlətimizin bərpası kəskin qarşıdurmalar əsasında baş verdi. Azərbaycan Respublikası bir tərəfdən daxili siyasi çəkişmələrə, digər tərəfdən isə tarixi düşmənimiz Ermənistanın təcavüzünə qarşı mübarizə aparırdı...

## 5.2. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli iclasında qəbul edilmişdir

Azərbaycan Respublikası Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış, müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək, Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyini əsasları haqqında konstitusiya qanunlarına əsaslanaraq;

Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün öz müstəqilliyini dərk edərək;

Milli mənsubiyyətindən və dini etiqatlarından asılı olmadan Azərbaycan Renspublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulmuş bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək;

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq;

Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutuaraq;





Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək;

Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək;

SSRİ-yə daxil olan bütün respublikalalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək;

Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmağa hazır oolduğunu bildirərək;

Azərbayzan Renspublikasının dövlət müstəqilliyini, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq faktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyirik.

### Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir
### Bakı şəhəri, 30 avqust, 1991-ci il

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası parlamentində «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni dövrü – müstəqil inkişaf dövrü başlandı.

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə, müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, edəcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq noirmlarının qanuni təzahürü oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş, daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edir.

Sonra gənc Azərbaycan dövləti iqtisadi, sosial-siyasi və hərbi sahədə ilk əsaslı tədbirlərin həyata keçirilməsi asan olmayıb, xeyli çətinlmklərlə üzləşdi. Bu çətinliklər Sovet imperiyası dağılıb tarixə çevrildikdən sonra butun sahələrdə yaranmış gərgin vəziyyətlə və Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başladığı hərbi təcavüzlə və s. amillərlə bağlı idi. Bu, çox böyük bir tarixi hadisə, xalqımızın həyatında yeni bir dönüş nöqtəsi idi. Biz yenidən bir çox xalqlar kimi azad və müstəqillik şəraitində yaşayaraq, demokratiya yolu ilə irəliləyib, öz müstəqil dövlətimizi yaratmaq imkanı əldə etdik. Dünya dövlətləri sırasına çıxmaq, Azərbaycan adını, Azərbaycan dövlətini dünyaya tanıtmaq imkanı əldə etdik. Lakin, təəssüflər olsun ki, bu sevincimiz içərisində sox acılı, məşəqqətli günlərlə rastlaşdıq.

1991-ci ilin dakabr ayında Cəmilli kənd sakinləri adından Elman Türbəndiyev Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə teleqram göndərərək, kənd camaatının ağır vəziyyətə düşdüyü barədə məlumat verir, kömək umurdu. Təəssüf ki, həmin vaxt blokadaya alınmış Naxçıvanın özünə kömək lazım idi.









**Ermənistanın işğal etdiyi Qarabağ bölgəsinin azərbaycanlı qaçqınları. 1992-ci il.**



**Erməni cəlladları tərəfindən kürəyi qızdırılmış dəmirlə dağlanmış Qarabağ bölgəsindən olan azərbaycanlı qadın. 1992-ci il.**

18





Cəbhə gündəliyinə diqqət yetirək: «Sentyabrın 2-də gecə saat 3-də (1991-ci il) Xocalı Əsgəran rayonunun ermənilər yaşayan Mehtikənd, Noraquğ, Həsənabad kəndlərindən raket atəşinə tutulmuşdur. Sentyabrın ilk günləri ərzində Xocalı dördüncü dəfə raket zərbələrinə məruz qalmışdır. Ölənlər və yaralananlar vardır».

Elə həmin ilin sentyabr ayında Azərbaycanda prezident seçkiləri keçirildi. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar top, raket atəşləri altında seçkilərə qatıldılar. Qarabağ isə qarış-qarış ermənilərin əlinə keçirdi.

Erməni işğalının xronoloji ardıcıllığına nəzər salaq: 1991-ci ilin sentyabrında Xocalı polis əməkdaşlarından iki nəfəri Əsgəranda gülləbaran edildi, AN-2 təyyarəsi vuruldu və bu zaman yeddi nəfər şəhid oldu. 1991-ci il oktyabrın 20-də Mİ-8 vertalyotu vuruldu. Azərbaycanın qeyrətli oğulları-generallar, deputatlar, jurnalistlər həlak oldular, Ağdamdan Şuşaya uçan digər vertalyot Xankəndi səmasında vurularaq, 30 nəfər azərbaycanlı ölduruldu. İmarət-Qərvənd (oktyabr 1991-ci il), Tuğ (1991-ci il oktyabrın 31-i,) Xocavənd (1991-ci il noyabrın 18-i), Qaradağlı (1991-cii! fevralın 17-si), Kərkicahan (1991-ci il dekabrın 2-si), Cəmilli (1991-ci il dekabrın 17-si), Meşəli (1991-ci il dekabrın 23-ü), Malıbəyli və Quşçular (1992-ci il fevralın 11-i) bir-birinin ardınca erməni silahlı dəstələri tərəfindən işğal edildi, yüz minlərlə əhali məcburi köçkünə çevrildi. Təhlükə domokl qılıncı kimi bütün Qarabağın başı üzərindən asılmışdı. Belə çətin, ölüm-dirim savaşı gedən gunlərdə respublika Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafına dair 125 saylı qərar qəbul etdi. Halbuki, həmin vaxt Dağlıq Qarabağda barmaqla sayılacaq qədər azərbaycanlı qalmışdı.

1992-ci il fevralın ortalarında düşmən növbəti dəfə Qaradağlı kəndinə güclü hücuma başladı. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər Qaradağlını ələ keçirib, onun 92 müdafiəçisini və 54 sakinini vəhşicəsinə öldürüb, si-

los quyularına atdılar. Qalan əhali əsir alındı.

Təcavüzkar Ermənistan hökuməti Azərbaycana qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. 1992-ci il yanvarın 8-də «Krasnovodsk-Bakı» dəniz sərnişin bərəsində belə bir terror aktı nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər ağır yaralandı. Həmin il fevralın 28-də Qudermes stansiyası yaxınlığında «Kislovodsk-Bakı» sərnişin qatarının partladılması zamanı 11 nəfər həlak oldu, 18 nəfər yaralandı.

Rolan Dyuma cənabları martın 14-də tərəfləri müharibəyə son qoymağa çağırırdısa, martın 16-da Parisdə erməni diasporunun «Mesrop gecəsi»ndə bütün bu bəlalara bais olan akademik Aqanbekyanın və Zori Balayanın sağlığına badə qaldırır, «Böyük Ermənistan» uğrunda atılan bütün addımları alqışılayırdı.83. Əldə etdiyimiz digər məlumata görə isə, 1992-ci il martın 18-də Əsgərandakı vertolyot eskadrilyasının başçısı, mayor Leonid İvanoviç Kravtsev Bakıya, Ali Sovetə- millət vəkillərinə unvanladığı məktubda yazırdı: «Deputatlar!... Mən özüm eniş boyu yerə sərələnmiş azı iki yüz meyit gördüm. Əli silahlı adamlar bu cəsədlərin arasında vurnuxurdular... Biz meyitləri aparmaq istədik... Dörd yaşlı bir oğlanın başı parça-parça edilmişdi. Az qaldı ağlım başımdan çıxsın. Bizə atəş açmazdan qabaq, macal tapıb apardığımız başqa bir uşağın başı kəsilmişdi. Hər tərəfdə işgəncələrə məruz qalmış qadınların, qocaların meyitlərini gördüm...

Sizə müraciət etmək istəyirəm. Oyanın! Öz xalqınıza kömək edin...»

Məktuba cavab almayan mayor Kravtsev eyni məzmunda «İzvestiya» qəzetinə (RF, Moskva) müraciət edir.84

Araşdırdığımız materiallardan bu da aydın olur ki, həmin ərəfədə Bakıda ilişib qalan ermənilər Şaumyankənd istiqamətindən silah keçirməklə məşğul idilər. Həmin vaxt Bakının mərkəzində, MK-nın yaşayış evlərindən birini kirayələmiş zabit Aleks Qarunoviç Yegizaryan silah alış-verişində Bakıda yerləşən hərbi hava hücumundan müdafiə alayı





ilə əlaqə yaratmış, zabit Oleq Deyçukovla silahların alınması və daşınması ilə bağlı xüsusi proqram tərtib etmişdi. Zabit Oleq Deyçukova gəlincə, o, alayın radio mühəndislərindən biri idi. Məhz buna görə hava hücumu əleyhinə hərbi qüvvələrin baş komandanı, general-mayor Valeri Çirkov Bakıya gəlir. Bu da məlum olur ki, zabit O.Deyçukov 29 ədəd «AK» silahını və 7 min patronu, 40 bronjileti erməni A.Yegizaryana satıb və həmin silahlar da fevralın 19-da Xocalıya öturulub (Bakı şəhər Hərbi Prokurorluğunun sənədlər qovluğu, 1992-ci ilin istintaq materialları: zabit O.Deyçukovun işi üçün arayış).

Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət - aydın, ardıcıl və prinsipal bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinn qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində quruldu. XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, Milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərcmərclik, bir qarışıqlıq, «dövlət reketi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxartdı. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalan-

ma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, hətta müstəqilliyimiz üçün təhlükə törədən bir çox təzahürlərin əmələ gəldiyi bir dövr kimi səciyyələndirilə bilər.

### 5.3. Xocalı soyqırımı

**26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

*Heydər ƏLİYEV*

Azərbaycan planetimizdə insanın məskan saldığı ən qədim ocaqlardandır. Azərbaycanın dilbər güşələrindən birində, Qarabağın Dağlıq hissəsində Xocalı adlı bir yaşayış məskəni vardır. Əsrlərin dərinliklərindən gəlirdi onun səsi. Neçə-neçə arxeoloji qazıntılar nəticəsində 6000 il bundan əvvələ aparıb çıxaran sübutlar, dəlillər aşkara çıxarılmışdır.

Xocalı öz abidələrinin növləri, onların xarakterik xüsusiyyətləri və maddi-mədəniyyət qalıqlarının zənginliyi etibarilə, hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E.Resler, rus şərqşünası M.Xanıkov, ingilis F. Bayer, fransız A.Berje və başqa-





ları tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrinə apararaq, ayrı-ayrı muzeyləri bəzəməyə çalışmışlar.









Azərbaycan alimləri tərəfindən Xocalı abidələrinin tədqiqinə 1920-ci illərdə başlanmışdır. Burada ilkin tədqqiqat işləri aparmış Azərbaycanın görkəmli alimi Ə.Ələkbərov Xocalı abidələri kompleksini Azərbaycan abidələri haqqında təssəvür əldə etmək üçün açar adlandırmışdır.

Əsasən eramızdan əvvəl XII-XIII əsrləri əhatə edən Xocalı abidələri kompleksi yaşayış yerlərindən, daş qutu qəbirləri, müxtəlif tipli kurqanlardan, siklop tikililər, kromlexlərdən və menhirlərdən ibarətdir.



*Xocalı-Gədəbəy mədəniyyəti tapıntıları.*
*Son Tunc – ilk Dəmir dövrləri*

Adını çəkdiyimiz mədəniyyətə aid yaşayış yerləri bir qayda olaraq, çay kənarlarında, təbii-coğrafi cəhətdən əlverişli yerlərdə, xüsusilə strateji cəhətdən müdafiəsi qismən asan olan təpələr üzərində salınırdı. Yaşayış yerlərində evlər əksər hallarda yarımqazma halında olub, yuxarı hissəsi yonulmamış çay daşlarından palçıqla suvamaq yolu ilə tikilirdi. Evlərin əksəriyyəti çoxgözlü olub, bütün tayfa üzvlərinə aid olurdu. Arxeoloji qazıntıiar nəticəsində müəyyən edilmişdir ki, çox vaxt tayfa evləri uzunsov olub, düzbucaqlı

formada inşa edilmişdir. Bəzən uzunluğu 17-18 metr, eni isə 8-10 metr olan bu cür evlər xüsusi arakəsmələr vasitəsi ilə bir neçə hissəyə bölünmüşdür.

Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin böyük bir qismini də siklop tikililəri təşkil edir. Əsasən yüksək təpələrdə və alçaq dağlarda bina edilmiş bu abidələr yerli əhali tərəfindən hazırda «Qalaça», «Örtük daşı», «Hasar», «Düzülü daş» və s. adlanır. Məlum olmuşdur ki, bu abidələr əsasən, eradan əvvəl II minillikdə və I minilliyn əvvəllərində mövcud olmuşdur. Onların dövrü qəti müəyyən edilmişsə, lakin onların vəzifəsi, yəni nə məqsədlə tikilməsi hələ də mübahisəlidir. Bəzi alimlər onların yaşayış yeri və ya böyük ticarət yolları üzərində müdafiə məntəqələri, bəziləri siklopların böyük bir qismini müqəddəs yer olub, ibadətgah məqsədilə bina edildiyini, bəziləri bağ-bostan yeri olduğunu, daha başqaları isə bu tikililəri köçərilərin mal-qara saxlamaq üçün inşa etdiklərini söyləyirlər. Lakin son tədqiqatların nəticələrindən aydın olmuşdur ki, bütün Kiçik Qafqaz dağlarının köç yolları kənarında inşa edilmiş siklop tikililərinin heç də hamısı eyni məqsəd güdməmişdir və başlıca olaraq üç məqsəd daşımışdır.: 1) iri ticarət yolları üzərində bu yolları müdafiə etmək məqsədilə; 2) düşmən hücumları zamanı əhalini müvəqqəti mühafizə etmək məqsədilə; 3) müqəddəs yerləri əbədiləşdirmək məqsədilə bina edilmişlər.

Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin həyat tərzini və mədəni inkişaf səviyyəsini öyrənmək üçün həmin mədəniyyətə məxsus qəbir abidələri və qəbirlərdən toplanmış maddi mədəniyyət qalıqları böyük əhəmiyyət kəsb edir. Arxeoloji tədqiqatlardan aydın olmuşdur ki, bu mədəniyyət sahiblərinin bir neçə tip qəbir abidəsi olmuşdur ki, onların da böyük bir qrupunu kurqan qəbirləri təşkil edir.

Qarabağ düzlərinin bir növ təbii yaraşığı olan bu kurqanlar müxtəlif quruluşlu və müxtəlif tərkibli hündür təpələrdən ibarət olub, vaxtilə süni surətdə qəbirlərin üstünə tökülmüşdür. Kurqanlar bəzən sadəcə olaraq torpaqdan, yaxud daşdan, bir çox hallarda isə daşla torpağın qarışığından tökülmüşdür.





Kurqanların özləri müxtəlif olduğu kimi, onların altındakı qəbirlər də müxtəlif olmuşdur. Ölünü dəfn etmək üçün bəzən kurqanın altında «ev» tikilmiş, dairəvi hasar çəkilmiş, bəzən isə daş qutular düzəldilmişdir. Xocalı kurqanlarında aparılmış qazıntılar nəticəsində müəyyən edilmişdir ki, 3-4 min il bundan əvvəl bu ərazidə iki cür dəfn adəti olmuşdur. Onlardan biri ölünü olduğu kimi dəfn etmək, digəri isə ölünü yandıraraq dəfn etmək. Hər iki halda kurqanlar həm ailəvi, həm də tək-tək şəxslərə məxsus düzəldilmişdir. Ailəvi kurqanlarda bəzən 50-dən çox skelet aşkara çıxarılmışdır.

Ölüyandırma hadisəsi Qarabağda uzun ömür sürməmişdir və alimlərin ehtimalına görə bu adət, qalıqları indi də dünyanın bir çox xalqları arasında mövcud olan müqəddəs od ayini ilə əlaqədar idi.

Xocalı-Gədəbəy mədəniyyətinə məxsus gil qabların xüsusiyyətlərindən dulusçu ustalar hazırladıqları əksər qabların çiyni üzərində xüsusi göbələkvarı cığırlar düzəltmişlər.

Xocalıdakı 5 saylı kurqandan aşkar edilmiş bir ədəd gil qabın qulpu üzərində isə buğda dənələri təsvir edilmişdir. Alimlərin tədqiqatı nəticəsində məlum olmuşdur ki, 3-4 min il bundan əvvəl Qarabağın sakinləri mədəni buğda əkinçiliyi ilə məşğul olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Xocalıda qədim bağçılığın inkişafını da sübut edəcək xeyli maddi mədəniyyət qalıqları aşkar edilmişdir ki, bunların içərisində şaftalı, üzüm tumları və s. əsas yer tutur.

Xocalı abidələrinin öyrənilməsi nəticəsində burada bütün Azərbaycan üçün yeganə olan iki mühüm tip abidə də aşkar edilmişdir. Onlardan biri menhirlərdir. Menhir ingilis sözü olub, uzun daş deməkdir. Bu abidələlrin əsas vətəni Böyük Britaniyadır. Orada elə menhirlər vardır ki, ağırlığı 50-60 tona yaxın olur. Xocalı menhirləri isə nisbətən kiçikdirlər. Menhir qəbilə quruluşu dövrünün məhsulu olub, ölən adamın qəbri üzərində dik basdırılmış, bir növ heykələ ox-

şar daşdır. Adətən belə daşları qəbilə başçılarının qəbirlərinin üzərinə qoyurdular. Qədim dini əqidəyə görə, guya ölən adamın ruhu bədəni tərk edir və həmin ruh daşa keçirdi. Daşa keçmiş ruh isə orada əbədi yaşayırdı. Hətta qəbilə başçısı ölərkən uzun müddət qəbilə üzvləri onun əvəzinə qəbiləyə başçı seçmirdilər. Qəbilə başçılığını mərhumun daşa keçmiş ruhu əvəz edərdi. Hətta qəbilə üçün müəyyən təhlükələr baş verdikdə, üzvlər yığışıb menhirin (yəni qəbilə başçısının ruhu yaşayan daşın) yanına gəlir və orada müxtəlif dini ayinlər icra etməklə guya qəbiləni yaranmış təhlükədən xilas edərmişlər. Maraqlı burasıdır ki, ibtidai dini təssəvürlərin qalığı olan həmin daşlardan biri son zamanlara kimi dindarların ibadət yerinə çevrilmişdir. Onlar havalar quraqlıq və ya həddindən artıq yağmurlu keçdikdə, həmin daşın yanına gəlib ona ibadət edir, daşdan mərhəmət diləyirdilər. Bu ayinlərin icrası zamanı həmin daşı yerə yıxıb, yenidən basdırır və digər əməliyyatlar aparırmışlar.

Xocalı abidələri içərisində nadir yadigarlardan biri də kromlexlərdir. Kromlex dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarətdir. Yenə də ibtidai dini əqidənin məhsulu olan bu abidə dindarlar arsında axirət evi adlanır.

Nəhayət göstərməliyik ki, Azərbaycanda ən qədim yazı da məhz Qarabağda aşkar edilmişdir. Xocalıda tədqiq olunan 11 saylı kurqandan üzərində mixi yazısı olan bir ədəd kiçik muncuq tapılmışdır. Akademik İ.İ.Meşşaninov müəyyən etmişdir ki, bu muncuğun üzərində eramızdan əvvəl VIII əsrdə yaşamış Assuriya çarı Adadnirarinin adı yazılmışıdır. Bu yazı təkcə Qarabağın deyil, eləcə də bütün Azərbaycanın siyasi tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə məxsus abidələrə yekun vurarkən qeyd etməliyik ki, bu mədəniyyətin izi ilə məşğul olan bir çox Qafqazşünas alim təkcə Azərbaycanın deyil, ümumiyyətlə Yaxın Şərq ölkələrinin maddi mədə-





niyyət tarixi ilə əlaqədar bir sıra problemlərin həlli üçün ondan geniş istifadə edirlər. Bu problemlərdən biri, 3-4 min il bundan əvvəl Yaxın Şərq ölkələrinin bir-biri ilə mədəni və iqtisadi əlaqələrinin səviyyəsini öyrənməkədir. Xocalı abidələri sübut edir ki, belə əlaqələr geniş olmuş və müxtəlif etnik qruplar mehriban iqtisadi və siyasi təmasda yaşamışlar.

Təəssüf hissi ilə deməliyik ki, 1992-ci ilin fevralında erməni və rus ordusunun birləşmiş qoşunları Xocalı əhalisini vəhşicəsinə qırarkən, hərbi texnika ilə genosidin ən iyrənc mərhələsi olan izi məhv etmək kimi mənfur bir əmələ əl atmış və bəşəriyyət üçün nadir abidələr toplusu olan Xocalı abidələrini dağıtmışlar.

XX əsrdə Xocalı faciəsindən əvvəl iki yaşayış məntəqəsi eyni aqibətə uğramış, eyni metodla yer üzündən silinmiş, sakinləri məhv etmişdilər. Bunlardan birincisi Belarusun Xatın kəndidir. 1941-ci ildə nasistlər Xatın kəndini tamamilə yandırmış, dinc sakinləri soyuqqanlıqla məhv etmişlər. Buna bənzər ikinci hadisə Vyetnam müharibəsi zamanı Sonqmi kəndində yaşamış yankilər Sonqmi kəndini və sakinlərini partizanlara dəstək vermək bəhanəsi ilə böyükdən-kiçiyə qədər bütünlüklə məhv etmişlər.

Bu iki hadisə müharibə tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur. Lakin onlar Xocalı faciəsi ilə müqayisə oluna bilməzlər. Bu iki kənd olsa-olsa, Xocalıdan əvvəl yaxılıb-yıxılan, sakinləri qətl edilən beş Azərbaycan kəndi - Bağanis-Ayrım, Kərkicahan, Meşəli, Cəmilli və Malıbəyli ilə müqayisə edilə bilər. Çünki dünya tarixində tayı-bərabəri olmayan Xocalı soyqırımı miqyasına və böyüklüyünə görə onların hamısından daha dəhşətli, daha müdhişdir.

1990-cı ilin Qanlı Yanvarından sonra Azərbaycan xalqı 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə tarixə ən dəhşətli faciələrdən biri kimi daxil olmuş Xocalı soyqrımının şahidi oldu. Kənd ikən Şəhərə çevrildi Xocalı. Gec də olsa, bütün diqqət buraya yönəldi, quruldu , tikildi, abadlaşdırıl-

dı. Şəhər adlandırıldı Xocalı. Ermənilərə göz dağı, Qarabağın qeyrət qalasına çevrildi Xocalı. 1992-ci ildə respublika dərin siyasi böhran içində idi. Hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. Hakimiyyətə gəlmək istəyən qüvvələr siyasi vəziyyəti gərginləşdirmək üçün bütün vasitələrə əl atırdılar. Qarabağın faciəli günləri davam etməkdə idi. Kərgicahan dağıdıldı. Malıbəyli, Meşəli, Quşçular, Daşaltı viran qoyuldu. Ölənlərin, itənlərin sayı qat-qat çoxaldı, susduq dinmədik. Lakin Azərbaycan dövlətinin başında duranların tükü belə tərpənmədi. Ataların gözəl bir misalı var: «Arxalı köpək qurd basar». Özlərinin Rusiya kimi arxası olduğunu görən ermənilər dünya tarixində misli olmayan növbəti cinayəti hazırladılar.

Fevralın 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını və xeyli canlı qüvvəsi ilə Xocalını mühazirəyə aldı. Erməni faşistləri döyüş tanklarının və transportyorların köməyi ilə şəhərə soxularaq, onu tamamilə yandırdılar. Azğın düşmən bununla kifayətlənmədi. Yüzlərlə qocanın, qadının, uşağın meyiti yollarda qaldı.

- Bu faciə nəticəsində 613 nəfər şəhid oldu;
onlardan:
Uşaqlar 63 nəfər;
Qadınlar 106 nəfər;
Qocalar 70 nəfər;
-8 ailə tamamilə məhv edilmişdir;
-25 uşaq hər iki valideynini itirmişdir;
-130 uşaq valideynlərindən birini itirmişdir;
-487 nəfər yaralanmışdır;
Onlardan;
Uşaqlar 76 nəfər;
-1275 nəfər əsir götürülmüşdür;
-203 nəfər itkin düşmüşdür;
-Onlardan:





Uşaqlar 22 nəfər (8 nəfər qız);
Qadınlar 61 nəfər;
Qocalar 42 nəfər

Hadisələri ilk alaraq vidiolentə olan jurnalist Çingiz Mustafayev qeyd edirdi ki, «öldürülənlər içərisində 2 yaşından 15 yaşına qədər olan uşaqlar əksəriyyət təşkil edirdi». Faciənin şahidi olan fransız jurnalisti Jan-İv Gnet yazırdı: «Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini qırmaqla onları arxada qoydular».

Sağ qalan 6 minə yaxın Xocalı sakini respublikanın 50-yə yaxın şəhər və rayonlarında qaçqın statustu altında yaşamağa məcbur oldu, öz vətənlərində talelərinə məcburi köçkün həyatı yaşamaq yazıldı. Bundan başqa şəhərdə olan, dövlət şəxsi və əmlakı talan edilərək yandırıldı və dövlətə külli miqdarda ziyan vuruldu.

2007-ci il fevralın 24-də STV kanalının (Saman yolu) səhər verilişində saat 8.50-də Azərbaycan tədqiqatçısı Elşən Nəcəfoğlu məlumat verdi ki, keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı alay haqqında sənədlər (Xocalı faciəsi ilə əlaqədar) Kreml sarayından ermənilər tərəfindən götüurülmüşdır. Bir rəqəmi də vurğuldı ki, 63 nəfər şəhid olan uşaqdan əlavə, 36 şəhid olmuş uşaq yenidən tapılmışdır. Bu rəqəmlər getdikcə tədqiqat nəticəsində daha düzgün açıqlanacaqdır.

Xocalı sakini Tovuz Zeynalovanın dedikləri:

- Gecə gördük ki, BTR-lə, BMP ilə üstümüzə gəlirlər. Arvad - uşağın səsindən qulaq tutulurdu. Kəndin başındakı evlərin yandırıldığını, adamların amansızcasına qətlə yetirildiyini görəndə qaçmaqdan başqa əlacımız qalmadı. 7 yaşlı qızım Aynuru qucağıma götürdüm. 12 yaşlı oğlum Elşadın əlindən yapışıb camaata qoşularaq, dağlara tərəf üz tutduq. Dəhraz kəndinə çatanda erməni quldurlarının pusqusuna düşdük. Həyat yoldaşım Tofiqi, qayınlarım Eldarı və Telmanı güllələdilər...

Qarlı dağlardan əzabla keçib, Ağdama üz tutduq. Qızıma tuşlanan güllə mənim də əlimə dəydi. Qucağımdaca keçinən balamla vidalaşərkən oğlumu yanımda görmədim. Ermənilərin əlinə keçməmək üçün qaçıb qurtarmaqdan başqa çarəm qalmadı. Qaçdıqca hiss edirdim ki, qan itirirəm. Tez-tez əlimi qara toxundururdum ki, bəlkə qan dona. Minbir zülmlə sürünə-sürünə gəlib Ağdamın Şelli kəndinə çatdıq. Oradan isə köməyə gələnlər bizi Ağdama apardılar. Üç gündən sonra qızımın da meyitini tapıb gətirdilər. İndi o, şəhidlər xiyabanında uyuyur. Oğlum isə təsadüf nəticəsində sağ qalıb.

Cahan Orucovanın söylədiklərindən: -Beş uşağım ermənilərin əlindədir. Oğlumdan fərqli olaraq, iki qızımın əsir düşməsi məni çox yandırır. Aybənizin qucağında iki əkiz oğlu, Leyla isə üç ayın gəliniydi. Bilsəydim ki, onları yolda əlimdən alacaqlar, vallah, elə evdəykən özüm onları... Bizi girov götürənlər isə 30 il çörək kəsdiyim, çörəkləri dizlərinin üstündə olan ermənilərdi. 30 min manat pul, qızıl, brilyant əşyalarını o alçaqlara verdim ki, qızlarımı sağ-salamat buraxsınlar...

Ayağını don vurmuş Məruzə Abbasovanın dediklərindən:-Qonşumuzda Məhsəti türkləri olurdu. Boylu-buxunlu, yaraşıqlı oğlanları vardı. Quldurlar onlardan birinin başını erməni qəbrinin üstündə kəsdilər. Sonra da papağı ilə futbol oynaya-oynaya «türkü qurban kəsdik, ürəyimiz bir az da soyudu» deyə gülə-gülə çıxıb getdilər. Bir şeyi hes vaxt unutmayacağam. Arvadı erməni olan bir kişinin (adını belə çəkmək istəmirəm) oğlanları öz atalarına dedilər: «ata, sən burdan çıx get, səni öldürəcəklər». Sonra həmin oğlanlar öz əmilərini öldürməkdən belə çəkinmədilər. Axırda analarına qoşulub keçdilər Xankəndi tərəfə. İlanın balası ilandan artıq olmayacaq ki?

Hüseynağa Quliyevin dediklərindən: - Xocalı üç ay mühasirədə qaldı. Respublika rəhbərləri bu mühasirəni yarmaq haqqında heç nə fikirləşmədilər. Üç ay haray saldıq, dedik





bizi mühasirədən çıxarın. Eşitmədilər səsimizi. Vaxtında eşitsəydələr bu boyda facia baş verməzdi. Həmişə bizi səbrə, təmkinə çağırıbılar. Axı, nə qədər səbr etmək olar? Səbr etdik, sonu da bu. Axı düşmənə qarşı səbirli olmaq nəyə lazımdır? Azərbaycanlı kəndləri boşaldıqca, bizimkilər yenə təmkinli olmağı məsləhət bildilər. Malıbəyli əldən gedəndən sonra da Xocalı haqqında düşünən olmadı. Axır günlər heç vertalyotlar da gələ bilmirdilər. Vertalyotlardan ancaq Xocalıya çörək atırıdılar ki, heç olmasa camaat ac qalmasın. Fevralın 26-da gecə gördük erməni və rus faşistləri zirehli maşınlarla üstümüzə gəlirlər. Əliyalın adamlarımız canlarını götürüb dağlara, meşələrə qaçdılar. Quduzlaşmış faşistlər həyətlərdən maşınları çıxarır, var-dövləti maşınlara yükləyir, sonra da evlərimizə od vururdular. Gözlərimiz qarşısında Xocalı od tutub yanırdı. Əlindən heç nə gəlməyən aciz adamlarımız bu mənzərəni gördükcə ah-nalələri ərşə dirənirdi. Üç gün qarın üstündə ac-susuz qalandan sonra istədik Ağdama tərəf üz tutaq, Əsgəran rayonunun Pircamal kəndinə çatanda düşmənələrimiz bizi qabaqladılar. 50-60 nəfər qocalı-cavanlı, arvad-uşaqlı adamları əsir götürdülər. Mən, anam Südabə, həyat yoldaşım Aybəniz, iki əkiz oğlanlarım, üç yaşlı Murad və Fuad da buradaydı. Bizi mal tövləsinə saldılar. Elə həmin gün həyat yoldaşımı, iki oğlumu və başqalarını bizdən ayırdılar ki, guya kiminləsə dəyişirlər. Biz qaldıq burada. Dörd gün qalandan sonra anamı və yenə bir neçə nəfəri kimlərsə dəyişdilər. Anam Ağdama çatan kimi oradakı qohum-əqrabaya çatdırıb ki, bizi öldürəcəklər. 12 nəfər əli avtomatlı erməni quldurları gəldilər bizim yanımıza ki, sizin aranızda OMON-çular varmı? Varsa, deyin, yoxsa sizi öldürəcəyik. Dedik yoxdur. Əksəriyyətini üzdən tanıyırdım. Əskərandan olan ermənilərdi. Bunu ona görə deyirəm ki, bizimlə vuruşanların hamısı muzdla tutulan ermənilər deyildi. Düzdü, aralarında belələri olsa da, yerli ermənilər heç də onlardan geri qalmırdılar. Əli silahlı ermənilərin yarısı qapının ağzında dururdu. 5-6-sı da bizi döyürdü. Məni

döydükləri zaman kimsə əlində siyahı gəldi ki, Hüseynağa kimdi, gəlsin, onu dəyişirik. Məni dəyişdilər. Vəziyyətim ağır olduğu üçün Bakıya gətirdilər. Anamın ayaqlarını don vurub, əmim ölüb, dəfn ediblər, 70 yaşlı babamın meyidi isə meşədə qalıb. Eh, eləsi var ki, bütöv nəslini qırıblar. Heç bir nəfər də sağ qalmayıb. Belə zülm olarmı, bizə etdilər?

Xocalı sakini Kamil Hüseynov o dəhşətli günləri belə xatırlayır: Ermənilər Xocalıya girənədən sonra hər tərəfi oda qalayır, qarşılarına çıxan azərbaycanlıları sorğu-sualsız güllələyirdilər. Fevralın 26-da gecə saat 10-11 radələrində meşə ilə Abdal-Gülablı tərəfə yol aldıq. Qoca, qadın və uşaqlarda taqət qalmamışdı. Vahimə, soyuq və aclıq bizi heydən salmışdı. Şərqiyyə adlı qadın və bir yaralı əsgər gözlərimizin qarşısında keçindi, ermənilər yaşayan Dəhraz kəndi yaxınlığında mühasirəyə düşdük, 5-6 nəfər həlak oldu. İki gün bizi Dəhrazda saxladılar. Girov götürülən 12 nəfər cavanı güllələdilər. 35 gün erməni əsirliyində ən dəhşətli, işgəncəli anlar yaşadıqdan sonra Qırmızı Xaç Cəmiyyəti tərəfindən əsirlikdən azad olundum.

Xocalı soyqırımı zamanı 10 yaşı olan Ədalət başlarına gətirilənləri belə nəql edir:

-Fevralın 25-i idi. Gecə ermənilər Xocalıya qəfil hücum etdilər. Atam, anam və qardaşlarımla birlikdə meşəyə tərəf qaçdıq. 3 gün meşədə ac-susuz qaldıq. Yanımızda bir neçə nəfər soyuqdan donaraq öldü. Qəflətən ermənilər bizi atəşə tutdu. Atam və anam həlak oldu. Hər ikisinin meyiti qarın üstündə qalmışdı. Gücümüz çatmırdı ki, onların cəsədini kənara aparaq. Sonra bizi xilas etdilər. Atam və anamı Bərdə rayonunda dəfn etdik.

Vəliyyədin Quliyevin yaşı 60-ı haqlayıb. 1989-cu ildə ermənilər onları Daşbulaqdan qovduqdan sonra Xocalıda yaşayıblar. Vəliyyədin kişinin dediklərindən:

-Bizi çox aldatdılar: guya kömək gəlir, yol açılacaq. Amma nə kömək gəldi, nə də yol açıldı. Axşamdan bir az keçmiş atışma başlandı. Xankəndi tərəfdən tankların gəldiyini gördüm. Oğlum Namiqi nə qədər axtardımsa, tapa bilmədim. Ermənilər bir çox ailələri diri-diri yandırdılar. İstədim evimizə tərəf gedim, mümkün olmadı. Kənd alova bürünmüşdü. Mərmi, güllə səsindən qulaq tutulurdu. Fevralın 26-da gecə saat 3-də kənddən çıxdım.





Tahir Bəxtiyarov da öz gördüklərini danışır:

-Postdan çıxanda gördüm ki, Bozdağın yamacı tanklarla, BMP-lərlə doludur. Oradan posta gəldim. Ratsiyada ermənilər deyirdi ki, axırınız çatıb, sizi qıracağıq. Axşam kəndimiz bir neçə istiqamətdən güclü atəşə tutuldu. Kəndin kənarına yığışdıq. Təxminən 350 nəfərə yaxın adam vardı. Qadınları, qocaları, uşaqları dövrəyə alaraq, çayı keçdik Bu vaxt ermənilər bizi atəşə tutdular. Qaçmağa başladıq. Qadınların ayaqlarını şaxta vurmuşdu, yeriyə bilmirdilər. Azıb başqa istiqamətə gəlmişdik. Ermənilər bizi görmüşdülər. Atəş açıb, bir neçə nəfəri yerindəcə öldürdülər. Fevralın 26-da yenidən pusquya düşdük və böyük bir xəndəyə doluşduq. 350 adamdan 27-si qalmışdı. 2 gün meşə ilə gələndən sonra gecə Abdal-Gülbalı kəndinə çatdıq. Bu, tək xocalıların yox, bütün Azərbaycanın ürəyinə vurulmuş bir dağdır. Onun intiqamını, qisasını ermənilərdən mütləq alacağıq.

Bu vəhşiliklər haqqında xarici mətbuatın yazdıqlarından:

Krua l'Eveneman jurnalı (Paris), 25 fevral 1992-ci il: Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar minlələr ölənlər barədə xəbər verirlər.

Sandi Tayms qəzeti (London), 1 mart 1992-ci il: Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər.

Faynenşl Tayms qəzeti (London), 9 mart 1992-ci il: Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar.

Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

Tayms qəzeti (London), 4 mart 1992-ci il: Çoxları eybə-

cər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

İzvestiya (Moskva), 4 mart 1992-ci il: Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür.

Faynenşl Tayms qəzeti (London), 14 mart 1992-ci il: General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbiçisi Dağlıq Qarabağda qalmışdır.

Le Mond qəzeti (Paris), 14 mart 1992-ci il: Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır.

İzvestiya (Moskva), 13 mart 1992-ci il: Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyid gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

Valer aktuel jurnalı (Paris), 14 mart 1992-ci il: Bu "müxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.

R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.

İstintaqla sübuta yetirilmişdir ki, Xocalı şəhərində basqında 336-cı alayın Yevgeni Nabokixin başçılığı altında 2-ci batalyonu, Seyran Ohanyanın başçılığı altında 2-ci batalyonu, Valeri Çitçiyanın rəbəhbərliyi altında 1-ci batalyonu, alayda xidmət edən milliyətcə erməni olan 50-dən artıq zabit və gizir, tanklar, piyadaların döyüş maşınları, toplar və digər müasir hərbi texnika iştirak etmişdir.

Bundan başqa, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən xüsusi yaradılmış Beynəlxalq Tribunal da Xocalı şəhər





əhalisinə qarşı törədilmiş soyqırım siyasəti barədə materialları icrasına qəbul edə bilər. Beynəlxalq təcrübədə belə hallar olmuşdur. Buna BMT Təhlükəsizlik Şurasının 22 fevral 1993-cü il tarixli 808 saylı, 25 may 1993-cü il tarixli 827 saylı qərarı ilə keçmiş Yuqoslaviya ərazisində bəşəriyyətə qarşı edilmiş cinayətlərə baxılmasından ötrü Beynəlxalq Tribunalın yaradılmasını misal göstərmək olar. Bu tribunal indiyədək fəaliyyət göstərir.

Qoy bütün dünya görsün, bütün bəşəriyyət şahid olsun, bilsin ki, XX əsrin sonlarında onları dəhşətli bir taun – erməni faşizmi hədələyir.

Xocalı faciəsinin baş verməsində respublikanın o zamankı rəhbərlərinin günahı çox olmuşdur. Hələ faciədən 4 ay əvvəl 1991-ci ilin noyabr ayının 1-də Xocalının mühasirəsi başlanmış, rayon ilə bütün əlaqələr kəsilmişdi.

Həmin vaxt Xocalının müdafiəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə və məzunları da iştirak edirdilər. Təsadüfi deyil ki, onların göstərdikləri şücaət barəsində akademiyanın rektoru, professor Ağacan Abiyevə «N» saylı hərbi hissənin rəhbərliyi təşəkkür məktubu göndərmişdi. Bu idmançılar haqqında mənim «Şəhid idmançılar» kitabımda ətraflı bəhs olunur. Onlardan, Azərbaycanın Milli Qəhrəmanı İlqar İsmayılovun, Əliyar Əliyevin və 33 şəhidi olmuş akademiyanın tələbə və məzunlarının xatirəsi bu gün də hörmətlə anılır. Rektorluğun təşəbbüsü ilə 1990-91-ci tədris ilində bir qrup tələbə üç ay ərzində Xacalı, Şuşa, Ağdam və başqa rayonların məktəblərində bədən tərbiyəsi müəllimlərinə kömək etmişlər.

Respublika rəhbərliyində vəziyyət haqqında məlumat olmasına baxmayaraq, onlar nəinki Xocalıya kömək etmiş, əksinə, hətta faciədən 2 gün sonra Azərinfrom vasitəsilə guya münaqişə zamanı iki nəfərin həlak olduğu, şəhərin isə geri alındığı barədə yalan informasiya yayılmışdır. Sonrakı müddət ərzində rəhbərlik Xocalı həqiqətlərini daim gizlətməyə çalışmışdır. Yalnız 1993-cü ildə xalqımızın ümummilli



lideri Heydər Əliyevin rəhbərliyə qaydışından sonra bu ağır cinayətin açılması üçün ilk addımlar atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli iclasında məsələ geniş müzakirə edilmişdir. 26 fevral Xocalının soyqırımı və matəm günü elan edilmişdir. Hər il bu gün saat 17.00-da Xocalı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq, bütün ölkə üzrə bir dəqiqəlik sükut ean edilir. 1998-ci ildə isə xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan xalqının soyqırımı ilə bağlı yeni bir fərman imzaladı.Həmin dövrdən etibarən Azərbaycan dövləti faciənin dünyaya çatdırılması üçün məqsədyönlü iş görmüşdür.



Məlumata görə, Xocalı ərazisində, daha dəqiq desək, Xanabadla Daşbulaq kəndləri arasında ilk səyyar «ölüm ocaqları» 1992-ci il fevralın 28-i saat 14-də





salınıb. Birinci dəfə 46 meyit yandırılıb. Ertəsi gündə 28 uşaq və hamilə qadının meyitlərindən ocaq qalanıb. 1988-ci ildən 1989-cu ilədək Çuvaşiyanın Çeboksarı şəhərində, Çapayev qəsəbəsində yaşayan və V.İ.Çapayev adına hərbi zavod dəftərxanasında çalışan, ixtisasca filoloq olan Akop Arakilov (bu zavod Dağlıq Qarabağ istiqamətində erməni hərbi terrorçu birləşmələrinə «Alazan» raketi satmaqla məşğul idi. Təkcə 1992-1993-cü illəçrdə bu zavoddan Xankəndinə 98 ədəd «Alazan» raketləri satılıb) 1998-ci ildə Parisdə dərc etdirdiyi «Qarabağ qeydləri...» kitabında yazır: «...Meyitləri yandırmaq haqqında təsəvvürüm yox idi. Mən zavodda işləyərkən, yanıma gələnlər danışırdılar ki, Xocalıda ölənlər üçün qəbiristanlıq deyilən ərazi yoxdur... Dəfn olunmuş adamları... gecə çaqqallar və itlər eşib çıxarırdılar. Hərbi həkim Smbat Mirzoyanın tapşırığı ilə meyitlərin yığılıb yandırılması qərara alındı... Mən «Alazan»üçün zavoda gələn zabitə sual verdim: bəs yaralılar? Bəs əsirlər? Zabit Çebotaryan adlı ellim mənə anlatdı ki, yaralılar da öldürülmədən tonqallara atılır. Bundan sonra mən daha zavodda qala bilmədim... Erməniləri və Ermənistanı, Dağlıq Qarabağı bir daha görməmək üçün oranı tərk etdim...» (85).

Xocalı faciəsinə, misli görünməmiş genosidə bu gün biganə qalanlar sabah erməni faşizminin, erməni terrorizminin, erməni şovinizminin qara caynaqları arasında vaxtilə nəyinsə, kiminsə hesabına etiraf etmədikləri həqiqət üçün təəssüflənəcəklər və o vaxt bəlkə də çox gec olacaq.

İndi Xocalı sakinlərinin də, bütöv müstəqil Azərbaycanın da ümidlə baxdığı bir sərkərdə var. O da möhtərəm Prezidentimiz İlham Əliyevdir. Xocalıya qayıtmaq istəyənlər ondan imdad diləyirlər. İnanırıq ki, o günlər uzaqda deyil.

Erməni faşistləri Rusiya Fedarasiyasının hərbi dairələrinin köməyinə arxalanaraq, 1993-cü ildə Kəlbəcər, Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal edərək, etnik təmizləmə aparmış və nəticədə Azərbaycanın 1000 000 çox vətəndaşı öz ölkəsində qaçqına çevrildi. Hərbi

təcavüz nəticəsində 100 000 nəfər yaralanmış, 50 000 şikəst olmuş, 4853 nəfər itkin düşmüş və onlardan 439 nəfəri əsirlikdə öldürülmüş, 783 nəfər isə indiyə qədər əsirlikdədir.

Bundan əlavə, işğal Azərbaycan ərazisində 946 yaşayış məntəqəsi, 6 min sənaye, kənd təsərrüfatı və başqa müəssisə, ümumi sahəsi 9 mln. kv/m olan 150 min mənzil, 4366 sosial-mədəni təyinatlı müəssisə, 690 orta məktəb, o cümlədən 850 məktəbəqədər müəssisə, 665 tibb məntəqəsi, 927 kitabxana, 22 muzey,4 rəsm qalareyası, 6 dövlət teatrı, 44 məbəd, 9 məscidin məhvinə səbəb olmuşdur. Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz nəticəsində vurulan maddi zərərin həcmi 60 milyard ABŞ dollarından çoxdur.

Beləliklə, təkcə XX əsrdə Azərbaycan xalqına qarşı ermənilər tərəfindən edilən deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Azərbaycan 1918-1929-cu illərdə 29,8 min km$^2$ ərazisini itirmiş, 1991-1993-cü illərdə 20% ərazisi işğal edilmiş, 2,5 mln. nəfər əhalisi məhv edilmişdir. Buraxılan bir siyasi səhvin acı nəticələri budur! Belə olan şəraitdə nə etmək olar? İlk növbədə Azərbaycan Milli Məclisi AXC-nin varisi olmaq hüququndan istifadə edərək, 1918-ci il may ayının 29-dan 1991-ci ilə qədər Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq, onun əraziləri ilə bağlı qəbul edilmiş qərarları ləğv etmək səlahiyyətinə malikdir.

2012-ci il fevralın 26-da Bakıda XX əsrin ən dəhşətli və qanlı faciələrindən biri olan Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşü keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yürüşdə iştirak etmişdir.

Paytaxtın Azadlıq meydanından başlayan, 85 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad yetmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.

Ön sırada Prezident İlham Əliyevin olduğu yürüş iştirakçıları Azadlıq meydanından Xocalı soyqırımının qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyfə doğru hərəkətə başladılar. Ümumxalq yürüşünün iştirakçılarının və onların keçdiyi prospekt, küçələr boyu düzülmüş minlərlə gəncin əllərində qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 20 il bundan əvvəl baş vermiş hadisələrin dəhşətli səhnələrini əks etdirən foto-şəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə obyektiv siyasi- hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadları və transparantlar var idi. İzdihamın başı üzərində «Dünya Xocalı soyqırımını tanımalıdır», «Xocalıya ədalət!», «Xocalını unutmayın», «Rədd olsun erməni faşizmi!», «Xocalı XX əsrin soyqırımı», «Cinayətkarlar cəzasız qalmayacaqlar!» və s çağırışlar yazılmış minlərlə plakat və transparant balğalanırdı.

Bütövlükdə bu ümumxalq yürüşünü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin kulminasiya nöqtəsi hesab etmək olar. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözləri qarşısında törədilmiş bu vəhşiliyə laqeyidlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüşlər həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhiblərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

Xocalı soyqırımı qurbanlarının abidəsinin yanında fəxri qarovul dəstəsi və tər çiçəklər düzüülümüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

### 5.4. Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Xocavənd, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının işğalı və Ermənistan Ordusunun dinc əhaliyə qarşı törətdiyi soyqırımı

**ŞUŞA** - Ərazisi - 289 km$^2$, əhalisinin sayı – 241165.

*Qəsəbələr (Kəndlər)* - Malıbəyli, Yuxarı Quşçular, Aşağı Quşçular, Xəlfəli, Dükanlar, Zamanpəyəsi, Şüşılü, Mirzələr, Qaybalı, Laçmlar, Şırlan Çaykənd, Paşalar, Məmişlər, Xanalılar, İmamqulular, Əmillər, Səfixanlar, Xanlıq-pəyə, Allahqulular, Böyiik Qala dərəsi, Kiçik Qala dərəsi, Salatın kənd, Göytala, Onverst, Turşsu, Zarıslı, Nəbilər. Şuşa 1992-ci il mayın 8-də erməni qəsbkarları tərəfindən işğal olunub.








Azərbaycan musiqisinin beşiyi sayılan Şuşanın onlarla tarixi abidələri, o cümlədən, Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı "Gövhər ağa məscidi", Xurşudbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi yağmalanıb. Hətta, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəli belə düşmən gülləsinə tuş gəlib... Lakin böyükdən-kiçiyə hamı inanır ki, ən yaxın vaxtlarda Şuşanın başının üstündəki qara duman çəkiləcək, Qarabağ savaşında yüzlərlə şəhid verən Şuşa erməni işğalından azad ediləcək, elindən-obasından didərgin düşən qaçqınlar yenidən öz yurduna qayıdacaqlar. Beləcə, Şuşa köhnə yaralara məlhəm qoya-qoya yenə nəğməli-sözlü ömrünü yaşayacaq, yenə havalanacaq "Xanın səsi", "Qarabağın şikəstəsi..."

Coğrafi mövqeyi-Şuşa Qarabağ silsiləsində 1400-1500 metrdən çox yüksəkliyə malik hamar ərazidə yerləşir. Dağ-iqlim kurortudur. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu və Şırlan) var.


*Şuşa qalasının gerbi*

Şuşa Azərbaycanın musiqi və mədəniyyət beşiyidir. Tarix boyu Şuşa çox böyük intellektual potensiala malik yetirmələri ilə Azərbaycanımızı bütün dünyada şöhrətləndirmişdir. Şuşa Molla Pənah Vaqifin, Mir Möhsün Nəvvabın, Natəvan xanımın, Üzeyir bəyin, Bülbülün, Cabbar Qaryağdıoğlunun ev muzeyləri, Mehmandarovların kompleksi, Ocaqqulularm evi, Qasım bəy Zakirin məzarı, Gövhərağa məscidi və onlarca belə abidələri ilə zaman-zaman yaddaşımızı oyaq saxlayıb.

Şuşa şəhəri dörd dəfə: 1905, 1907, 1920 və 1992-ci illərdə erməni təcavüzünə məruz qalığb, budan böyük ziyan çəkib. 1920-ci ildə şəhərin ücdə iki hissəsi ermənilər tərəfindən yandırılıb. Şuşa bu vəziyyətdə 60-cı illərin sonunadək qalır.


Шуша



























Ü.Hacıbəyovun Şuşada erməni işğalçıları tərəfindən güllələnmiş büstü. Hal-hazırda Bakıda yerləşir.

Бюст У.Гаджибекова , расстрелянный армянскими захватчиками в Шуше. Ныне находится в Баку.

U.Hajibeyov's bust shooted down by the Armenian aggressors in Shusha. Nowadays it's in Baku.



Natəvanın Şuşada erməni işğalçıları tərəfindən güllələnmiş büstü. Hal-hazırda Bakıda yerləşir.

Бюст Натван, расстрелянный армянскими захватчиками в Шуше. Ныне находится в Баку.

Natavan's bust shooted down by the Armenian aggressors in Shusha. Nowadays it's in Baku.



*Seyid Şuşinskiy*



*Məşədi Cəmil Əmirov*



Natəvanın Şuşada erməni işğalçıları tərəfindən güllələnmiş büstü. Hal-hazırda Bakıda yerləşir.

Бюст Натван, расстрелянный армянскими захватчиками в Шуше. Ныне находится в Баку.

Natavan's bust shooted down by the Armenian aggressors in Shusha. Nowadays it's in Baku.

Həmin illərdən respublikaya başçılıq edən böyük öndər Heydər Əliyev Şuşa şəhərinə xüsusi diqqət yetirir. Şuşanın kurort şəhəri kimi kompleks şəkildə inkişafı haqqında qərar qəbul olunur. Bu qərarlardan sonra Şuşada böyük abadlıq işləri aparılır. Turşsu bulağından şəhərə su çəkilir. İki sanatoriya binası, 220 yerlik turist bazası, 1176 yerlik xüsusi in-





ternat məktəbi, radiozavodun filialı, minlərlə kvadratmetr mənzil sahəsi, toxuculuq kombinatı tikilib istifadəyə verilir.



*Xan Şuşinskiy, Bəhram Mənsurov, Tələt Bakıxanov*






1980-1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük abidə, türbə tikildi. Bu, Azərbaycanın həyatında böyük, əlamətdar hadisə idi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı ilə Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi.



*Cabbar Qaryağdıoğlu öz ansamblı ilə*





O illər Sovet İttifaqının çox yerlərindən buraya istirahətə gəlirdilər. Şuşaya gələnlər həm də Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə tanış olurdular. Bu qala-şəhərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı müasir tariximizin ən ağır hadisələrindən biridir. Şuşanın üstünü qara buludlar ilk təhlükə kimi, hələ 1988-ci il iyunun 21-də almışdı.







O vaxt DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayətdə yaranmış vəziyyətlə bağlı SSRİ Ali Sovetinə müraciət qəbul etdi. Bu, Dağlıq Qarabağ və Şuşa faciəsinin başlanğıcı idi. Təəssüf ki, o vaxtkı respublika rəhbərləri məkrli bir qərarın qəbul olunmasına yol verdilər. Nəticədə, vilayətə rəhbərlik Moskvanın səlahiyyətli nümayəndəsi, ermənipərəst Arkadi Volskiyə tapşırıldı. Volskinin rəhbərliyinin ikinci həftəsində, sentyabrın 18-21-də Xankəndindən 12 mindən artıq azərbaycanlı qovuldu və elə həmin gün də onların evləri yandırıldı. Bu, Şuşanın işğalına yol açan ilk addımlardan biri idi. Növbəti addım isə, 55 yaşayış məntəqəsindəki azərbaycanlılardan bütün silahların yığılması oldu. Onların silahını alıb ermənilərə verdilər. Şuşada və azərbaycanlılar yaşayan bütün kəndlərdə qadağan saatı tətbiq edildi. Goruş-Laçın yolu ilə keçmiş vilayətə külli miqdarda hərbi sursat daşındı. Bütün bu tədbirlər ermənilərin daha yaxşı silahlanmasına xidmət edirdi.

Mayın 7-də gecə saat 2-də Şuşa dörd tərəfdən top atəşinə tutuldu. Müdafiəsiz qalan şəhərin harayına özünü sərkərdə kimi aparanlardan heç biri yetişmədi. Beləcə, bir gecənin

içində topdağıtmaz, alınmaz Şuşa xaincəsinə düşmənə təslim edildi.

Ümummili liderimiz Heydər Əliyev bəyan edirdi ki, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq nöqteyi-nəzərindən Şuşa və Laçın rayonları çox böyük strateji əhəmiyyətə malikdir. Ermənilər Azərbaycanın başqa ərazilərini zəbt etmək üçün, birinci növbədə, məhz Laçın və Şuşanı ələ keçirmək istəyirdilər. Bu təbiidir. Bəs, kimdir günahkar? Hakimiyyəti saxlamağa, dövləti idarə etməyə heç bir səriştəsi və mənəvi haqqı, heç bir bacarığı və qabiliyyəti olmayan adamlar. Şuşa, Laçın yalnız Azərbaycanın o vaxtkı rəhbərliyində olan şəxslər, həm də onları yıxıb hakimiyyətə gəlmək istəyən şəxslər tərəfindən qəsdən erməni işğalçılarına təslim olunub.

Xalqımızın ümummili lideri Heydər Əliyevin Şuşa haqqında fikirərindən:

«Azərbaycanın ən gözəl güşəsində Şuşa şəhərini yaradanlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının – əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

Ona görə də Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Şuşa bu qiymətinə, Azərbaycan üçün bu qədər mühüm əhəmiyyət kəsb etdiyinə görə xüsusi qorunmalı, saxlanmalı idi. Onu qurub yaradanlar Şuşanı qoruyub saxlamaq üçün elə yerdə yaradıblar ki, onu fəth etmək mümkün deyil. Şuşanın məhz, o yüksək qayalar başında, Qarabağın ən yüksək yerlərindən birində yaranması da təsadüfi deyil. Bu o demək deyil ki,Şuşanı yaradanlar onu təsadüfi olaraq orada yaradıblar. Yox, onu məhz orada yaradıblar ki, o, bir qalaya çevrilsin və Azərbaycanın dövlətçiliyinə, torpaqlarına sahib olan adamlar orada öz dövlətini, torpağını, xalqını qoruya bilsinlər. Ona görə də, Şuşanın mövqeyinin hərbi-strateji əhəmiyyəti var. Buna görə də Şuşanı qoruyub saxlamaq bəlkə də respublikamızın başqa yerlərini erməni təcvüzündən qoruyb saxlamaqdan asandır. Ancaq bu olmayıbdır».





Amma buna baxmayaraq, Ermənistan ATƏT-in prinsiplərpini yenə də porzurdu.

1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinki şəhərində ATƏT-in (1994-cü ilə qədər ATƏM adlanırdı) yekun imzalanmasından xeyli vaxt ötür. O zaman 35 ölkənin (33 Avropa ölkəsi ilə bərabər ABŞ və Kanada) dövlət və hökumət başçıları tərəfindən bu tarixi sənədin imzalanmasından ötən müddət ərzində beynəlxalaq aləmdə böyük dəyişikliklər olmüşdlur. Belə ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində dünyada gedən tarixi proseslər beynəlxalq aləmdə yeni geosiyasi durumun yaranması ilə nəticələnmişdir.

Bu proseslərlə bağlı ATƏT-in tərkibi xeyli genişlənmiş və yeni strukturları meydana çıxmışdır. Lakin o dövrdə qəbul edilmiş bu tarixi sənədin əsas müddəaları və prinsipləri dəyişməz olaraq qalmışdır. Bunların da içində ən vacibləri ikinci Dünya müharibəsindən sonra Avropada qəbul edilmiş tarixi sərhədlərin toxunulmazlığı və yekun aktını imzalamış dövlətlərin bir-birinə ərazi iddialarının yolverilməzliyidir. Qeyd edək ki, ATƏT-in Helsinki yekun aktının bu prinsipləri, 1945-ci ildə Yalta və Potsdam beynəlxalq konfranslarından sonra Avropada yaranmış tarixi-siyasi reallıqları özündə əks etdirir.

70-ci illərin əvvəlində Avropada bir sıra dövlətlər arasında hökm sürən ziddiyyətli ərazi-sərhəd problemləri artıq öz həllini tapmışdı. Belə ki, 1970-ci ildə Almaniya Federativ Respublikası ilə keçmiş SSRİ və Polşa arasında imzalanmış müqavilələr faktiki olaraq yuxarıda adlarını çəkdiyimiz

konfransların tarixi qərarlarını bir daha təsdiq etdi. Analoji müqavilə 1971-ci ildə AFR ilə Çexoslovakiya arasında da bağlanıldı. Uzun bir dövr ərzində İngiltirə ilə İspaniyanın münasibətlərinə kölgə salan Cəbəllütariq (Gibraltar) probleminə də son qoyuldu. Belə ki, İspaniya ərazisində yerləşən bir kiçik anklavda əhali arasında keçirilmiş referendumun nəticələri Britaniyanın xeyrinə oldu. Keçmiş Yuqoslaviya ilə İtaliya arasında İstriya yaradılması və Triyest şəhəri üstündə hökm sürən ziddiyyətləri də öz həllini tapdı. Göründüyü kimi, ATƏT-in Helsinki yekun aktının imzalandığı bir dönmədə Avropada artıq heç bir dövlət digərinə qarşı ərazi iddiası irəli sürmürdü. O dövrdə soyuq müharibə hələ davam etsə də, Avropa dövlətləri qonşuları ilə dinc yanaşı yaşamaq prinsiplərinə riayət edirdilər.

Keçmiş SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış 15 dövlət də 1992-ci ildə ATƏT-ə üzv oldu və təbii olaraq, bu mötəbər təşkilatın nəzərdə tutulan bütün öhdəliklərini öz üzərlərinə götürdülər. Lakin, Ermənistan ATƏT üzvü olan ölkələr arasında yeganə dövlətdir ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir və bu təşkilatın əsas prinsiplərini kobud surətdə pozur. Belə ki, Ermənistan yaxın qonşusu olan Türkiyəyə qarşı əsassız ərazi iddiaları irəli sürür və bu cəfəng xülyaları öz konstitusiyasına daxil edib. Eyni zamanda, Ermənistan digər yaxın qonşusu olan Azərbaycanın torpaqlarını uzun müddətdir ki işğal altında saxlayır. Məlum olduğu kimi, ATƏT-in zirvə toplantılarında və digər işçi strukturlarında bütün qərarlar yalnız konsensus yolu ilə qəbul edilir. Elə bu səbəbdən də Ermənistan veto hüququndan istifadə edərək, bu günə qədər belə bir nüfuzlu beynəlxalq təşkilatın sanksiyalarından yaxa qurtara bilib. Lakin Türkiyə və Azərbaycan diplomatiyasının ciddi səyləri nəticəsində son 10 ildə bu məsələlər ATƏT-in müxtəlif səviyyəli toplantılarında dəfələrlə müzakirə obyekti olub və sonda beynəlxalq təklənməsi ilə başa çatıb (yenə veto hüququ ermənilərin dadına çatıb). Belə bir vəziyyətin yaranması





beynəlxalq miqyasda erməni təbliğatının neytrallaşdırılması və Ermənistanın öz qonşularına qarşı təcavüzkar siyasi xəttinin ifşasında mühüm rol oynayır. Məhz Azərbaycan diplomatiyasının son 3 il ərzində ciddi fəallığı nəticəsində digər bir mötəbər beynəlxalq təşkilat sayılan Avropa Şurası Parlament Assambleyasında Ermənistanın xarici və daxili siyasəti böyük səs çoxluğu ilə dəfələrlə kəskin şəkildə tənqid olunub. Avropa Şurası Parlament Assambleyasının son aprel sessiyasında Ermənistanla bağlı qəbul edilən qətnamə isə faktiki olaraq, bu ölkədə antidemokratik bir rejimin mövcud olmasına işarədir. Göründüyü kimi, Ermənistan hakim dairələrinin beynəlxalq təşkilatlar qarşısında yaratdıqları yalançı illüziyalar artıq iflasa uğramaqdadır.

1993-cü il martın 29-da erəmnilər Ağdərəni oda tutub, sakinlərini qətlə yetirdilər. Bundan 4-5 gün sonra Kəlbəcər tamamilə işğal edildi.(02.4.1993).

İşğalın, insan təlafatının qarşısını vaxtında almaq olardı, amma bir şərtlə: şəhid, şikəst olanlar, qorxu içində, göz yaşı tökə-tökə doğma torpaqlarından müvəqqəti də olsa ayrılan kəlbəcərlilər kimi, respublikanın o dövrkü rəhbərləri də hakimiyyətə sahib çıxmağa çalışan müxtəlif qüvvələri də can yandırmalıydılar. Təəssüf ki, belə olmadı. Hətta bəzi qüvvələr qan düşmənlərimizin çirkin amallarına, məkrli məqsədlərinə xidmət də göstərmişdilər.

**LAÇIN** - Ərazisi - 1875 km2, əhalisinin sayı – 61763

*Qəsəbələr (Kəndlər)* - Laçın şəhəri, Qarıkaha, Güləbird, Cicimli, Aşağı Cicimli, Qazıdərə, Səfiyan, Türklər, Xanallar, Suarası, Fərəcan, Yuxarı Fərəcan, Mığıdərə, Tərxanlı, Dəyhan, Dəyirmanyanı, Malxələf, Məlikpəyə, Mazutlu, Köhnəkənd, Qışlaq, Əyrək, Alıcan, İrçan Xumarta, Çəmbərəxaç, Fətəlipəyə, Ağanus, Unannovu, Turşsu, Kərəviz, Zerti, Xırmanlar, Tığik-1, Tığik-2, Ağbulaq, Zabux, Qızılca, Sus, Malıbəy, Hüsülü, Ziyrik, Ağoğlan, Cağazur, Qarqışlaq, Soyuqbulaq, Zeyvə, Qılışlı, Hacılar, Sadınlar, Bqzlu, Qalaça, Mirik Quşçu, Əhmədli, Min-

kənd, Ağbulaq, Qarakeçdi, Katos, Şeylanlı, alxaslı, Kamallı, Çıraqlı, Mişni, So-nasar, Mayıs, Hocaz, Uluduz, Mollalar, Bülündüz, Ayıbazar, İpək-1. İpək-2, Pircahan, Alıqulu, Seyidlər, Qaraçanlı-1, Qaraçanlı-2, Qoşasu, Bölüvlük, Alpoııd, Ağcakənd, Təzəkənd, Ərdəşəvi, Haxnəzər, Qozlu, Fingə, Vağazin, Kalafalıq, Bozgüney, Arduşlu, Ağcayazı, Fərraş, Nurəddin, Piçənis, Xaçıyalı, Çorman, Şamkənd, Nağdağı, Bozdağan, Çorman, Ələkçi, Kürdhacı, Ərikli, Hacsamlı, Aşağı Qarasaqqal, Yuxarı Qarasaqqal, Qarabəyli, Lolabağırlı, Korcabulaq, Qorçi, Zağaaltı, Oğuldərə, Ağalaruşağı, Daşlı, Hətəmlər, Vəlibəyli, Kaha, Nanşlar, Şəlvə, Imanlar. Danbulaq, Hacıxanlı, Qovuşuq, Budaqdərə, Qayğı qəsəbəsi.




*Coğrafi mövqeyi* - Laçın rayonu ən yüksək dağ rayonlarından biridir. Ən hündür nöqtəsi dəniz səviyyəsindən 3594 m. yüksəklikdə yerləşən Qızılboğaz dağıdır. Ərazidə narzan tipli bulaqlar, çoxlu miqdarda müxtəlif tikinti materialları, yataqları vardır. Rayonda 127 yaşayış məntəqəsi yerləşir. 1992-ci il rayonun ərazisi erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.









İqtisadi xarakteristikası - Rayonun iqtisadiyyatında heyvandarlıq əsas yer tutur. Kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik təşkil edir.

**KƏLBƏCƏR** - Ərazisi - 1936 km2, əhalisinin sayı – 53962.







*Qəsəbələr (Kəndlər)* -Kəlbəcər şəhəri, İstisu qəsəbəsi, Ləmbəran ərazisi, Zəylik, Zar, Mollabayramlı, Zivel, Çıraq, Şurtan, Qaraçanlı, Keştək, Yellicə, Dalqılınclı, Şaplar, Aşağı Ayrım, Daşbulaq, Milli, Hacıkənd, Çaykənd, İstibulaq, Qılmclı, Nadirxanlı, Sarıdaş, Başlıbel, Taxtabaşı, Tirkeşəvənd, Əsrik, Zülfüqarh, Abdullauşağı, Almalıq, Ağcakənd, Mərcimək, comərd, Dəmirçidam, Seyidlər, Lev, Təkəqaya, Susuzluq, Çəpli, Qamışlı, Yanşaq, Ağdaban, Bağlıpəyə, Çəraktar, Narınclar, Kərəmli. Günəşli.

*Coğrafi mövqeyi* - Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvə Kamış (3724m) dağındadır. Ərazinin çox hissəsi meşəlikdir. Rayonda 132 yaşayış məntəqələri vardı. Rayonun ərazisi 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

İqtisadi xarakteristikası -Kəlbəcər rayonunun gözəl və zəngin təbiəti, yeraltı və yerüstü sərvətləri, münbit torpaqları vardır. Kənd təsərrüfatında əsasən heyvandarlıq və əkinçilik inkişaf etmişdir.

Kəlbəcər hər tərəfdən əhatəyə alınmışdı. Ermənilərin bütün hücumları bu bölgəyə yönəldilmişdi. Düşmən işini bilirdi. Kəlbəcərin yeraltı sərvətləri dünyaya bəlli idi. Yerüstü nemətləri xainlərin gözlərinə ox olub batırdı. Bunları qorumaq üçün əli silah tutan yerli sakinlər səngərlərə girmişdilər. Ancaq onlara kömək, yardım yox idi.

İşğal ərəfəsində rayondan müdafiə naziri Dadaş Rzaye-





və zəng ediblər ki, vəziyyətimiz olduqca ağırdır. Onun cavabı qısa olub: «Tədbir görərik!».

Ermənilər qarşılarına çıxanı qırır, evlərə od vurub yandırırdılar. Silah tapan qeyrətli oğullarımız düşmən gələn yolları bağlamağa, qarşılarını almağa çalışırdı. Lakin onların gücü, silah-sursatı az idi. Kəlbəcərə qayğı, kömək olmadığı üçün də mühasirə dairəsi saatbasaat daralırdı. Bakı isə susurdu. Əvəzində qəribə-qəribə məsləhətlər, hətta tapşırıqlar, göstərişlər verilirdi. Məsələn, «Kəlbəcər təklənib. Ermənilər mütləq ora girməlidir... Kəlbəcər işğal olunarsa, dünya ictimaiyyətinə çatdırlacaq ki, ermənilər xalqımıza qarşı növbəti soyqırımı törədiblər...»

Ermənilər isə güclərindən, xarici himayədarlarının köməyindən istifadə edib irəliləyirdilər. Tank, top, «Alazan», «Qrad» atəşləri ara vermirdi. İşğalçıların əsas məqsədi strateji əhəmiyyət daşıyan yüksəklikləri zəbt etmək idi. İstədiklərinə də çatdılar. Ayazlı-şaxtalı gecədə yalnız başlarını götürüb rayon mərkəzinə doğru qaçan qız-gəlinin, uşağın, ahılın ah-naləsi, fəryadları ərşə çıxmışdı. Camaat elə bilirdi ki, burada müəyyən qədər sakitlik, dinclik olacaq. Amma tamam əksini gördülər. Rayonun özü də hər tərəfdən mühasirədə idi. Ağdərə-Kəlbəcər yolu istiqamətində heç bir maneəyə rast gəlməyən düşmən qüvvələri hücumlarını davam etdirərək, Tutquçay ərazisindəki yaşayış məntəqələrinə od vurub yandırdılar. Bakı susurdu.

Rayonun vəzifəli şəxslərindən biri yenə müdafiə naziri Dadaş Rzayevə zəng edərək, vəziyyət barədə ona məlumat vermək istəyib. D.Rzayev tələş içində zəng edənə danışmağa imkan verməyərək deyib: «Nədi, ə, iki ermənini qabağını kəsə bilmirsiniz?...Hansı tərəfdən atırlar? Gorus tərəfdən? Tədbir görərik!» Müdafiə naziri necə kömək göstərə bilərdi ki, Kəlbəcərin hansı erməni yaşayış məntəqəsi ilə həmsərhəd olduğunu bilmirdi? Gorus hara, Kəlbəcər hara?...

Vaxt ötürdü. Martın 27-də saat 9-da Əbülfəz Elçibəy rayona zəng edib vəziyyətlə maraqlandı. Cavab verdilər ki,

çox pisdir, belə getsə...Prezident həmin cavab verənin sözünü yarımçıq kəsib demişdi: «Koridoru bağlayın. Dörd ədəd texnika göndərmişəm. Əlavə kömək də gələcək». Əks tərəf sual verir: «Hansı koridoru?» Prezident əsəbləşib: «Mənimlə mübahisə etmə, əmri yerinə yetir»-deyərək dəstəyi asıb. Çox guman ki, Ə.Elçibəy Laçınla Kəlbəcəri dəyişik salmışdı. Axı, o ərazidə elə bir koridor yoxdur?! Üstündən 13 il (2006) keçməsinə baxmayaraq, hələ də məlum deyil ki, Əbülfəz Elçibəyin göndərdiyi dörd ədəd texnika nə idi və onlar hara getdi. Kəlbəcəri qorumaq, müdafiə etmək səlahiyyəti verilmiş polkovnik Ə.Qənizadənin komandir olduğu briqadanın döyüşçüləri heç bir müqavimət göstərəmədən geri çəkilmişdilər.

Martın 29-da vəziyyət bir az da kəskinləşdi. Rayonun Ağqaya, Keçiliqaya, Mərcimək kəndləri də artıq işğal olunmuşdu. Əhali eşitdikləri hər sözdən ümid işartısı axtarırdı. Bu məqsədlə yenə Bakıya-prezidentə telefon açdılar. Köməkçi cavab verdi ki, Əbülfəz bəy istirahət edir. Çarəsizlikdən Ali Sovetin sədri İsa Qəmbərova zəng etdilər... Bunun da heç bir nəticəsi olmadı. Dövlət tərəfindən Kəlbəcərin müdafiəsi üçün heç bir tədbir görülmürdü. Düşmən isə maneəsiz irəliləyirdi.

Martın 31-də düşmənlər Vardenis rayonu səmtdən Kəlbəcərin üstünə daha güclü, müasir texnika ilə silahlanmış dəstələr göndərdilər. «Qara qaya» yüksəkliyini tutandan sonra kəlbəcərlilərin vəziyyəti son həddə çatdı. Əhali daha heç kimə inanmırdı. Necə deyərlər, taleyin hökmü ilə razılaşdılar. Xəstələri, qocaları, uşaqları ərazidən çıxartmaq mümkün olmadığından onları şəhərin altındakı mağaraya və kahalara yığmışdılar. Yeganə nicat yeri olan Kəlbəcər - Murov yoluna da düşmən nəzarət edirdi. Ac-susuz, yorğun-yuxusuz, ayaqyalın-başıaçıq əhali sırsıralı, qarlı-tufanlı Murova tərəf üz tuturdu. Həmin günün, anların şahidləri arasında biz də olmuşuq. Murov dağına yaxınlaşdıqca sərt şaxta, ermənilərdən betər, adamlara qənim kəsilmişdi. Körpələr,





uşaqlar ağlaşırdılar. Təxminən yetmiş yaşlarında bir ağbirçək elə nalə çəkdi, əl atıb saçlarını elə yoldu... təsvir emək çox çətindir. Nədənsə bizə elə gəldi ki, bu haray-həşir respublika rəhbərlərinə, xüsusən hərbi qurumun səlahiyyətli sahiblərinə çatacaq. Amma yenə də çatmadı. 50 mindən artıq əhalinin aqibəti onları qətiyyən düşündürmürdü. Silah-sursat, kömək göndərilmirdi. Ərazidəki özünümüdafiə dəstələri, zabitlər, əsgərlər aradan çıxmışdılar. Qalanlar – ölümlə üz-üzə dayananlar, silahsızlar idi.

1993-cü il aprelin 2-də alınmaz, basılmaz qala-təbiət muzeyi, yeraltı, yerüstü sərvətlərlə zəngin diyarımız işğal olundu.

İşğalın nəticəsində rayon sakinlərinə məxsus 100 min baş inək və camış, 500 min baş davar, 5 min baş at, 1 milyon quş, 50 min arı ailəsi, 130 minik maşını, 135 min ədəd xalça, 390 min dəst yorğan-döşək, 39 min ədəd mebel dəsti, 26 min ədəd televizor, soyuducu və saysız-hesabsız digər məişət avadanlıqları düşmənə qaldı. Quldur ermənilər ərazidəki tarixi abidələri də məhv etdilər. Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin üçüncü ildönümü ilə əlaqədar 1996-cı il aprelin 1-də xalqımızın ümummilli lideri Heydər Əliyevin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə baş verən faciənin səbəbləri araşdırılarkən, ümummilli liderimiz demişdi: «Burada çıxışlar bir-birindən fərqli olsa da, hamısında fikir eyni idi: işğal edilmiş torpaqlar, o cümlədən Kəlbəcər sülh yolu ilə azad olunmalıdır. Əgər bu mümkün olmasa, bütün imkanlarımızı, gücümüzü səfərbər edib Kəlbəcəri işğaldan qurtaracağıq. Buna heç kəsin şübhəsi olmasın, biz qoymayacağıq ki, torpağımızın bir qarışı da qəsbkarların əlində qalsın!»86.

**AĞDAM** - Ərazis -1154 km2, əhalisinin sayı – 153154.

*Qəsəbələr (Kəndlər)*-Quzanlı, İmanqulubəyli, Çullu, Eyvazlı, Üçoğlan, Alıbəyli, Kiçikli, Usublu, Ballar, Baharlı, Ortaqışlaq, Böyükbəyli, Qaradağlı, Rzalar, Evoğlu, Zəngişalı, Mah-

rızlı, Əfətli, Hacıməmmədli, İsalar, Küdürlü, Həsənçobanlı, Hacıturalı, Qəhrəmanbəyli, Məmmədbağırlı. Çəmənli, Şükürağalı, Saraclı, Xındırıstan, Sarıçoban, Dadaşlar, Kəlbahüseynli, Paşabəyli, Yüzbaşılı-I, Yüzbaşılı-II, Baharlı, Bəybabalar, Baş Qərvənd, Orta Qərvənd, Ayaq Qorvənd, Çıraqlı, Əhmədağalı, Mirəşəlli, Kolqışlaq, Nəmirli, Təzəkənd, Mərzili, Ergi, Şahbulaq.




Ağdam aranlı-dağlı Qarabağın dörd bir tərəfinə uzanan yollar başında qərar tutan mehriban bir ürəkdi. Ağdam Qarabağın ağ günü, ağır-ağır ellərin, elatların yurdudu. Bu yerlər muğam, sənət və şirin-şirin ləhcələrə anadır. Qasım bəy Zakir, Əbdürrəhim bəy Haqverdiyev, Xudu Məmmədov, Şövkət Ələkbərova, Sara Qədimova, Arif Babayev, Ramiz Quliyev, Qədir Rüstəmov... kimi istəkli sənətkarlar, müdrik insanlar Ağdamda dünyaya göz açıblar.

*Coğrafi mövqeyi* - Rayonun relyefi əsasən düzənlik, qismən alçaq dağlıqdır. Ərazidə geniş yer tutan Qarabağ düzünün





mütləq hündürlüyü cənub-qərbdən şimal-şərqə doğru tədricən azalır. Ərazidə əhəng daşı, sement xammalı, çınqıl və qum yataqları var. Rayon ərazisində Xaçın və Qarqar çayları axır.





İqtisadi xarakteristikası - Rayon iqtisadiyyatının əsasını yeyinti, yüngül sənaye və kənd təsərrüfatı - pambıqçılıq, taxılçılıq, üzümçülük, baramaçılıq, heyvandarlıq təşkil edir. Rayonda ət kombinatı, yağ-pendir, konserv, dəzgah avadanlığı və bir neçə şərab zavodları, barama toxumu fabriki, xalça fabriki, mexanikləşdirilmiş daş karxanası, çörəkxana, quşçuluq fabriki, məişət xidmıti kombinatı və s. müəssisələr var idi

**XOCAVƏND** - Ərazisi - 1458 km2, Əhalisinin sayı – 84000.

*Qəsəbələr (Kəndlər)* - Qaradağlı, Xocavənd, Ömrallar, Muğanlı, Kuropatkin, Tuğ, Haxulu, Salaketin, Günəşli, Xətai. Dağ yamaclarına səpələnmiş beş-on Qarabağ oba sı. Məşhur Tuğ kəndi... Bir qədər əvvəl azərbaycanlılar burada ermənilərlə çəpər-çəpərə yaşayırdılar. Erməni qonşu namərd çıxdı. Xocavənd camaatı hələ ki, qoyub gəldikləri buz bulaqları, səfalı dağları xatirələrində yaşadır, ora dönəcəkləri günü səbirsizliklə gözləyirlər. Hələ ki, Xocavənddə bal kimi şah tut, buz kimi bulaq suyu, şüşə kimi saf hava qəriblik çəkir, əsil sahibləri üçün darıxır...




*Coğrafi mövqeyi* - Rayon Ağdam-Füzuli avtomobil yolu kənarında, dağətəyi düzənlikdədir. Relyefi əsasən dağlıqdır. Hündürlüyü təqribən 500 metrdən 2725 metrə (Böyük Kirs dağı) qədərdir. İqtisadi xarakteristikası - Xocavənd rayonu əsasən kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tutur.









**CƏBRAYIL** - Ərazisi - 1050 km2, əhalisinin sayı – 54430




*Qəsəbələr (Kəndlər)* – Yarəhmədli, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, İmambağı, Horovlu, Çaprand, Safarşa, Çərəkən, Papı, Əfəndilər, Balyand, Qaracallı, Doşulu, Süleymanlı, Daşkəsən, Qışlaq, Quycaq, Şəybəy, Nüzgar, Şahvəlli, Niyazqullar, G.Veysəlli, Tinli, Qovşudlu, Hacı İsaqlı. Qoşabulaq, Şükürbəyli, Şıxalıağalı, Mahmudlu stansiyası, Fuğanlı, Dəjəl, Əmirvarlı, Sarıcallı, Məzrə, Yuxarı Məzrə, Soltanlı, Yanarxaj, Alıkeyxalı, Maşanlı, Hasanlı, Böyük Mərcanlı, Aşağı Mərcanlı, Mehdili, Çaxırlı, Cocuk Mərcanlı, Minbaşılı. Sədi, Ağtəpə, Kavdar, Mirək, Hüseynalılar. Hacılı, Tulus, Dağ Tumas, Qaraağac. Sofulu, Çələbilər, Dağ Maşanlı. Qazanzəmi, Söyüdlü, A.Maralyan, Y.Maralyan, Karxulu, Cəfərabad, İsaqlı, Qalacıq, Hovuslu, Sirik, Aşağı Sirik, Şıxlar, Mollahəsənli, Əsgərxanlı, Xələfli,

Qərər, Kürdlər, Nüsüs, Tatar, Qumlaq, Məstalıbəyli, Stansiya Qumlaq, Stansiya Xudafərin, Stansiya Xələfli.





Kiçik Qafqaz dağlarının ətəklərində binə tutan bu gözəl, zümrüd meşəli, buz bulaqlı bölgənin adamları inanırlar ki, onların binələndiyi yerin adı səkkizinci yüzillikdə yaşamış Cəbrayıl atanın ismindən götürülüb. Fəqət saysız-hesabsız abidələr, mağaralar, qalaların, bürclərin, məbədlərin qalıqları tarixin daş dili ilə pıçıldayır ki, burada insanlar min illər boyu ömür sürmüşlər. Havası saf, göy üzü təmiz, adamları qədirbilən, etibarlı Cəbrayıl! Aşıq Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərimin, Aşıq Humayın ilham aldığı torpaq...

Cəbrayılda çağdaş illərdə də saysız-hesabsız sənətkarlar, ziyalılar yetişmişdir. Orada bir körpü var: Xudafərin! Bu bir qeyrət körpüsüdür, xalqımızın tarixi birliyini zaman-zaman yada salır.

Coğrafi mövqeyi - Rayonun ərazisi Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşmişdir. Rayon cənubdan İran İslam Respublikası ilə həmsərhəddir. Ərazisi əsasən dağlıqdır.

İqtisadi xarakteristikası - İşğaldan əvvəl rayonun iqtisadiyyatının əsasını heyvandarlıq, üzümçülük və baramaçılıq təşkil edirdi. Rayonda üzümün ilkin emalı üçün zavod, tikiş, xalça, cihazqayırma sexləri, ümumiyyətlə, 8 sənaye obyekti mövcud idi





**FÜZULİ** - Ərazisi – 1361 km2, Əhalisinin sayı - 110 000








*Qəsəbələr (Kəndlər)* – Əhmədbəyli, Bala Bəhmənli, Araz Zərkar. Araz Dilağarda, Birinci Mahmudlu, İkinci Mahmudlu, Qarabağ, Əhmədalılar, Qazaxlar. Mirzənağılı, Aşağı Kürmahmudlu, Yuxarı Kürmahmudlu, Alıxanlı, Böyük Bəhmənli, Kərimbəyli, Araz Yağlıkənd, Arayallı, Babı, Mollaməhərrəmli, Horadiz, Aşağı Seyidəhmədli, Şükürbəyli, Yuxarı Seyidəhmədli, Qorqan, Füzuli şəhər, Aybasanlı, Şəkərcik, Şıxlı, Gecəgözlü, Üçüncü Mahmudlu, Aşağı Veysəlli, Yuxarı Veysəlli, Qarakollu, Saracıq, Yuxarı Rəfədinli, Gorazıllı, Qaradağlı, Yuxarı Küzlək, Xatınbulaq, Qacar,

Divanlılar, Qaraxanbəyli, Merdinli, Qoçəhmədli, Arış, Mollavəli, Dsdəli. İşıqlı, Qarqabazar, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Qaraməmmədli, Dilağarda, Qobu Dilağarda, Dövlətkarlı, Zərkar, Qərbənd, Yuxarı Əbdürrəhmanlı, Kürdlər, Aşağı Əbdürrəhmanlı, Horadiz, Dördçinar, Mirzəcamallı, Seyidmahmudlu, Ələskərli, Hüseynbəyli, Pirəhmədli, Musabəyli, Mandı, Aşağı Güzlək, Aşaği Rəfədinli, Üçbulaq, Kovşad, Cuvarlı, Xələfşə, Çimən, Quraşdırma ev

Füzuli... Qədim Qarabulaq!

Bu gün o dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adını daşıyır. Bu torpağın Araz yanğısına Ərgünəşdən, Məngələn-atadan axıb gələn buz bulaqlar sərinlik gətirir. Füzuli... Yer üzünün ilk insan məskənlərindən sayılan Azıx mağarası Füzulidədir. Quruçay mədəniyyət abidələri əsrlərin sirrini açır, eyni zamanda, çox-çox sirləri də gizlədir. Füzuli başdan-başa Azərbaycan koloritinə sahibdir. Saf hava, bol günəş, bərəkətli torpaqlar, duzlu-məzəli, təmiz ürəkli insanlar. Türbələr, karvansaralar, qəsr, qala və hasar izləri bu gün də yaşamaqdadır. Füzuli ziyalılar, sənətkarlar bölgəsidir, az qala hər evbaşına bir sənətçi düşür. Müasirliyə, elmə və təhsilə can atmaq bu torpaqda doğulan adamların qanında, canındadır. El xanəndəsi Zabul Ağabala Füzulini belə oxuyürdü:

*Nə gözəl ellərin var,*
*Vətənim Füzuli.*
*Sərvətli çöllərin var,*
*Vətənim Füzuli, Ürəyim Füzuli.*

*Coğrafi mövqeyi* - Rayonda 1 şəhər (Füzuli), 1 şəhər tipli qəsəbə, 73 kənd vardı.(İşğal olunmamış 22 yaşayış məntəqəsində 55 min nəfərdən artıq əhali yaşayır. )

İqtisadi xarakteristikası Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tərəvəzçilik, taxılçılıq və heyvandarlıq təşkil edirdi. Rayonda yağ-pendir və dəmir-beton məmulatı zavodları, toxuculuq fabriki, daş karxanası, pambıqtəmizləmə zavodu, üzüm emalı müəssisələri, taxıl məhsulları kombinatı var idi. Füzuli şəhəri 1993-cü il avqustun 18-də erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdir. Hazırda rayonun işğal olunmamış 22 kəndində 50 min nəfərə yaxın əhali yaşayır.





**QUBADLI** - Ərazisi - 826 km2, Əhalisinin sayı - 31300







*Qəsəbələr, Kəndlər* – Qayalı, Abdalanı, Ləpəxeyranlı, Mahmudlu, Dondarh, Mirlər, D.Msxanlı, Saray, Dəmirçilər, Poladlı, Fərcan, Göyyal, Hərtiz, Zor, Y.Xocamsalh, Mehrili, A.Xocamsallı, Hal, Qəziyan, Məmər, Mollalı, Ballıqaya, Çərəli, Boynakər, Soldaş, Qaralar, Kavdadıq, Hüseynuşağı, Ulaşlı, Qiyaslı, Əbilcə, Xocahan, Tinli, Qilican, Tatar, Qiyaslı, Qaraqoyunlu, Zilanlı, K.Mahruzlu, Seləli, Mahruzlu, Muğanlı, Alaqurşaq, Xanlıq, Həmzəli, Əfəndilər, Yusifbəyli, Çaytumas, Y.Mollu, A.Mollu, Mollaburan, Xoçik, Mərdanlı, B.Soltanlı, Padar, Qaraimanlı, Qaracalh, Qarakişilər, Qarağac, Sanyataq, Muradxanoı, Həkərli, Xəndək, İşıqlı, Başarat, Milallı, Hat, Deşdahat, Armudluq, Çardax, Tarovlu, Xələc, Əyin, Göyərcik, Cılfır, Seytas, Göyərabas, Bəxtiyarlı, Novlu, Məzirə, Giircülii, Dovudlu, Qədili, Eyvazlı, T.Müskanh, Bala Həsənli, Xıdırlı, Aşağı Cibikli, Yuxarı Cibikli, Xallava, Məlikəhmədli, Qundanah, Əliquluuşağı.

Bir yanında Bərgüşad çağlayır, bir yanında Həkəri. Çaylar boyu ellər, obalar, ağban evlər... Bu yerlərdə Qaçaq Nəbi at oynatdı, Həcər sədaqəti igidlərə ürək verdi. Qubadlı - Azərbaycanın mərdlər, igidlər yurdu olub. Qubadlı mərd insanların əli ilə də öz övladlarına qovuşacaq. Coğrafi mövqeyi: Rayon Qarabağ yaylasının cənub-şərqində yerləşir. Ərazisində 95 yaşayış mənətəqəsi var.

İqtisadi xarakteristikası: Rayonun təsərrüfatı əsasən taxılçılıq, üzümçülük, tütünçülük, baramaçılıq və heyvandarlıq sahəsində ixtisaslaşmışdır. Rayonda yağ-pendir, üzüm emalı, cihazqayırma zavodları, toxuculuq fabriki, inkubator-quşçuluq stansiyası, daş karxanası, barama qurutma məntəqəsi, balıq yetişdirmə vətəgəsi və digər istehsalat obyektləri mövcuddur.





Rayon 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

**ZƏNGİLAN** - Ərazisi-707km2, əhalisinin sayı-33890




*Qəsəbələr (Kəndlər)* - Üzümçülər, Mincivan, Malatkeşin, Genlik, Beşdəli, Keçikli, Bartaz, Qarqulu, Ördəkli, Qaragöz, Qaradərə, Çöpədərə, Baharı, Sobu, Dəlləkli, Rəzdərə, Kollu-Qışlaq, Şatabəyli, Məşədi İsmayıllı, Zəngilan,

İçəri Muşlan, Məlikli, Qıraq Muşlan, Üdqun, Yenikənd, Rəbənd, Alıbəyli, Balabəyli, Sarılı, Xumarlı, Hacallı, Həkəri, Şərifan, Muğanlı, Xuramanlı, I Ağalı, II Ağalı, III Ağalı, Məmmədbəyli, Babaylı, Zərnəli, Havalı, Aşağı Yeməzli, Orta Yeməzli, Yuxarı Yeməzli, Sarallı Xəşdab, Quydərə Xəşdab, İsgəndərbəyli, Ağbis, Ağakişilər, Vejnəli, Muğanlı, Aladin, Dərə Girətağ, Girətağ, Şamoğlu, Vənədli, Mirzə Həsənli, Şərifan, Bürünlu, Seyidlər, Şayıflı, Gəyəli, Qaraöl, Nəcəflər, Yusiflər, Tağlı, Cahangirbəyli, Tatar, Turabat, Tiri, Vəliqulu-bəyli, Ağbənd, Əmirxanlı, Qazançı, Canbar, Günqışdaq, Dərəli, Ağkənd.





Taleyinə qaçqınlıq kimi acı bir alın yazısı yazılan altı rayondan biri. Erməni quldurları tərəfindən işğal olunana kimi əhalisi əsasən heyvandarlıq və tərəvəzçilik, üzümçülük və arıçılıqla məşğul olmuşdur. Avropada ən böyük çinar meşəliyi də Zəngilan rayonunun ərazisində yerləşir. Burada dövlət qoruğu yaradılmışdı.

Coğrafi mövqeyi: Rayon ölkənin cənub-qərbində, alçaq dağlıq və dağətəyi ərazidə yerləşir. Rayon həmçinin molibden, qızıl, qranit və digər yeraltı ehtiyatlarla da zəngindir. Rayon 1993-cü ildə tamamilə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

İqtisadi xarakteristikası: Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir və əsasən taxılçılıq, tütünçülük,





kartof əkini, meyvəçilik, bostançılıq inkişaf etmişdir. Rayonda şərab, konserv, mərmər, çınqıl zavodları fəaliyyət göstərirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları deyir: «Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Bizim soydaşlarımız işğal olunmuş torpaqlara –Dağlıq Qarabağın ətrafında yerləşən torpaqlara və Dağlıq Qarabağa qayıtmalıdırlar. Bildiyiniz kimi, danışıqlar davam edir və Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və olmayacaqdır. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır və Azərbaycan bu mövqedən bir addım da geriyə çəkilməyəcəkdir. Yəni, Azərbaycanın ərazi bütövlüyü məsələsində, gələcək illərdə Azərbaycanın ərazi bütövlüyü məsələsində heç bir güzəşt olmayacaqdır. Heç bir qərar qəbul edilməyəcək ki, nə bu gün, nə sabah, nə də yüz ildən sonra imkan yaratsın ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Bir daha deyirəm, bu məsələ danışıqlar mövzusu deyildir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində 2006-cı ildə bizim səylərimiz davam edəcək. Bəzi siyasi qüvvələrin təxribat xarakterli çıxışları Azərbycan xalqını çaşdırmamalıdır. Azərbaycan müxalifəti, əfsuslar olsun ki, istər daxili siyasətdə, istər Avropa Şurası ilə bizim münasibətlərdə, istərsə də Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində yalanın ruporuna çevrilibdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində də müxalifət çox fəal təbliğat aparır ki, o qərar qəbul edilib, bu qərar qəbul edilibdir. Birincisi, heç bir qərar qəbul edilməyibdir. İkincisi, onlarda bu məlumat haradandır? Yəni bu yalanlar nəyə xidmət edir? Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Heç vaxt-nə bu gün, nə sabah,

nə 10 ildən sonra, nə 15 ildən sonra, nə 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Hər halda mən Prezident olan dövrdə əks etdirən sazişə heç vaxt imza qoymaram. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar və bu barədə də danışıqlar aparılır. İşğal edilmiş torpaqlar işğalçılardan azad olunmalıdır. Bu mövzu ətrafında söhbət aparılır və söhbət də aparılacaqdır. Biz deyə bilmərik ki, irəliləyişə nail olduq. Çünki danışıqlarda iki tərəf iştirak edir. Biz hələ ki, danışıqlar prosesinə sadiqik. Bu prosesdə iştirak edirik, danışıqlar prosesi tükənməyibdir. Eyni zamanda, ordumuzu da gücləndiririk, iqtisadiyyatımızı da gücləndiririk. Gördük ki, danışıqlar prosesi tükəndi, onda oturarıq, fikirləşərik, qərar qəbul edərik və artıq öz fəaliyyətimizi başqa istiqamətdə daha da gücləndirəcəyik. Hesab edirəm ki, indiki mərhələdə danışıqların davam etdrilməsi lazımdır».

## 5.5. 18 dekabr 1997-ci il tarixli «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi – etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli





4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinsit dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1.1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə komissiyası yaradlısın:

Dövlət komissiyasının sədri:
Heydər Əliyev – Azərbaycan Respub-nın Prezidenti
Dövlət komissiyası sədrinin müavini:
Artur Rasizadə - Azərbaycan Respub-nın baş naziri
Dövlət komissiyasının üzvləri:
Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri
Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin sədri İzzət Rüstəmov – Azərbaycan Respublikası baş nazirinin müavini

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini

Həsən Həsənov - Azərbaycan Respublikasının Xarici Şşlər naziri

Namiq Abbasov - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri

Ramil Usubov - Azərbaycan Respublikasının Daxili İşlər naziri

Eldar Həsənov - Azərbaycan Respublikasının baş prokuroru

Südabə Həsənova - Azərbaycan Respublikası Ədliyyə nazirinin birinci müavini

Xanlar Hacıyev - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Sirus Təbrizli - Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri

Vəfa Quluzadə - Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri

Hidayət Orucov - Azərbaycan Respublikasının Milli siyasət məsələləri üzrə dövlət müşaviri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının hümanitar siyasət şöbəsinin müdiri

Şahin Əliyev - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri

Yusif Hümbətov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

Rəfael Allahverdiyev - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Nizami Xudiyev - Azərbaycan Respublikası Dövlət Te-





leviziya və Radio Verilişləri şirkətinin sədri

Fəraməz Maqsudov – Azərbaycan Elmlər Akademiyasının prezidenti

Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri

Cəmil Quliyev – Azərbaycan Elmlər Akademiyasının ictimai elmlər üzrə akademik-katibi əvəzi

İqrar Əliyev - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

Budaq Budaqov - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

Ataxan Paşayev - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

Yusif Yusifov – N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

*Heydər ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 1997-ci il*

**Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqa MÜRACİƏTİNDƏN:**

26 fevral 1992-ci ildə Xocalı şəhərində dünya misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

*1 mart 1994-cü il*

**Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqa MÜRACİƏTİNDƏN:**

Xalqımızın milli müstəqillik uğrunda mübarizə tarixində ən qanlı səhifələrdən biri olan Xocalı faciəsindən üç il keçir. Xaricdəki imperiyapərəst qüvvələrin dəstəyi ilə törədilən bu soyqırımı erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olunmuşdur. Günahsız dinc əhaliyə tutulmuş amansız divan, ağlasığmaz qəddarlıq erməni irticasının və onun xaricdəki havadarlarının iç üzünü beynəlxalq ictimaiyyət qarşısında bütün çılpaqlığı ilə açıqladı.

*25 fevral 1995-ci il*

**1995-ci il fevralın 25-də Təzəpir məscidində Xocalı faciəsinin 3-cü ildönümü ilə bağlı keçirilən matəm mərasimində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin çıxışından:**

Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş veribdir. Azərbaycana qarşı Ermənistan qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımlar xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük və ağır yaralardan biri Xocalı soyqırımıdır, altı il davam edən müharibədir.

Müharibənin erməni təcavüzkarları başladıblar, Azərbaycan xalqı öz torpaqlarını qoruyur. Şübhəsiz ki, müharibədə qan da tökülür, şəhidlər də verilir, böyük əzab-əziyyətlər də çəkirik. Ancaq 3 il bundan əvvəl xocalılılara, dinc əhaliyə qarşı, qadına, uşağa, qocaya, xəstəyə qarşı qəsbkarlar tərəfindən vəhşicəsinə aparılmış hərbi əməliyyat, soyqırımı altı illik müharibənin ən dəhşətli mərhələsidir və ən ağır, qara səhifəsidir.





Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisəsində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı din əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir.

Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. O gecə, o günlər həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır, şəhidləridir. Onların faciəli surətdə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir.

*25 fevral 1995-ci il*

1995-ci il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımı barədə həqiqətlərin dünya xalqlarına və beynəlxalq ictimaiyyətə çatdırılması və bu hadisələrin üçüncü ildönümü ilə əlaqədar dünya parlamentinə və beynəlxalq təşkilatlara müraciət qəbul etmişdir.

**Milli Məclisin dünya parlamentlərinə və beynəlxalq təşkilatlara**

## MÜRACİƏTİ:

Dövlət səviyyəsində qeyd edilən Xocalı soyqırımının (genosidinin) fevralın 26-da üçüncü ildönümü tamam olur. Keçən il parlamentin qərarı ilə Xocalı soyqırımı günü elan edilmiş həmin matəm xalqımız tərəfindən dərin hüznlə yad edilir və artıq bu tarix millətin yaddaş günü kimi daxil olmuşdur.

Erməni tarixçiləri və siyasətçiləri guya erməni genosidi olan 1915-ci il hadisələrini ildən-ilə şişirtmək və təbliğ etməklə, əslində, əsrin əvvəlindən həyata keçirilən azərbaycanlıların kütləvi qırğınını unutdurmağa, dünya ictimaiyyətini çaşdırmağa çalışırlar.

Xocalı faciəsi XX əsrdə «Böyük Ermənistan» və monoetnik dövlət yaratmaq kimi şovinist siyasət müəllifləri olan ermənilərin Azərbaycan xalqının başına gətirdiyi ən dəhşətli cinayətlərdən biridir. İndiyədək dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən dərk olunub pislənilməsi və qarşısının alınmasına cəhd göstərilməməsi nəticəsində 1905-ci ildən başlayaraq Azərbaycan torpaqlarının ilhaqını davam etdirən erməni qəsbkarları XX əsrin sonunda, sivilizasiyalı dünyanın gözünün qabağında bütün insanlığa silinməz ləkə olan dəhşətli cinayət və vəhşilik törətmişlər.

Həmin gün qısa bir vaxt ərzində erməni silahlı dəstələri şəhərin dinc əhalisindən 613 nəfəri qəddarcasına, ağır işgəncə verməklə məhv etmiş, 421 nəfərə ağır xəsarət yetirmişlər. Bu zaman 1275 nəfər itkin düşmüş və girov götürülmüş, 10 min əhalisi olan şəhər talan edilmiş, tikililər dağıdılmış və yandırılmışdır. Xocalıdan sonra bu vəhşiliyi davam etdirən erməni quldurları düşünülmüş surətdə Dağlıq Qarabağın onlarla yaşayış məntəqəsini dağıtmış, Meşəli kəndini tamamilə yer üzündən silmiş, Qarabağlı kəndində yaşayanların əksəriyyətini məhv etmişlər.

Bu dünyanın bütün parlamentlərinə və beynəlxalq təşkilatlarına müraciət edərək xalqımızın başına gətirilən bu dəhşətli





müsibət barədə, bütövlüklə əsrin əvvəlindən bu günə kimi 500 mindən artıq azərbaycanlının ermənilər tərəfindən öldürülməsi, azərbaycanlılar yaşayan 6 min kvadrat kilometrlik əzəli azəri torpaqlarının zorla boşadılması, həmin ərazidən 1 milyon nəfərdən çox azərbaycanlının qovulması, 2 minə yaxın Azərbaycan mənşəli yaşayış yerlərinin tarixi adının dəyişdirilməsi, ərazimizin 20 faizinin (12 rayonun) erməni hərbi birləşmələrinin işğalı altında olması, bunun nəticəsində 1 milyon nəfərin qaçqın kimi yaşaması faktlarını bütün dünya ictimaiyyətinə çatdırmağı və beynəlxalq prinsiplərə və hüquq normalarına uyğun olaraq bu vəhşilikləri pisləmələrini, Azərbaycanın işğalçılardan azad edilməsi üçün haqq səslərini qaldırmalarını xahiş edirik.

Qoy heç bir xalqın həyatında Xocalı faciəsinə bənzər hadisə olmasın!

*24 fevral 1995-ci il*

## Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqa MÜRACİƏTINDƏN:

Əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdi. Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi. Bu müsbət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi. Bu gün şəhidlərimizin müqəddəs ruhu işğal olunmuş torpaqlarımızın azad edilməsi və qaçqın soydaşlarımızın öz yurdlarına qayıtması uğrunda mübarizədə hər birimizi daha böyük əzmkarlıq göstərməyə səsləyir...

*24 fevral 1996-cı il*

**Xocali soyqirimi qurbanlarinin xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqinda Azərbaycan Respublikasi Prezidentinin SƏRƏNCAMI**

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımı törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə qərara alıram: Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

*Heydər ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 fevral 1997-ci il*

**5.6Azərbaycan Respublikasi Prezidentinin Azərbaycanlilarin soyqirimi haqqinda 26 mart 1998-ci il fərmanı**

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının,





tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycan və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist iddialarını pərdələmişdir.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdır-

mağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919-cu və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin sükutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri





üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSRİ ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarında kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist

ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün, tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.





Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni Silahlı Qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

*Heydər ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 mart 1998-ci il*

## 5.7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Mart Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına MÜRACİƏTİ

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazidə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu «Böyük Ermənistan» dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə etmiş, dövlət səviyyəsində davakar millətçiliyi, seperatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləmişdir. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə «Milli-mədəni», dini, siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporu və lobbisinin imkanlarını səfərbər etmişdir.

XIX əsrin birinci rübündə Rusiya və İran arasında gedən müharibənin nəticəsi kimi Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə Qarabağ ərazisinə İran və Türkiyədən ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsinə start verilmiş, burada demoqrafik vəziyyət süni surətdə dəyişdirilmişdir. 1905-ci ildə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı öz doğma yurdlarında kütləvi qırğınlar törədildi, yüzlərlə yaşayış məntəqələri dağıdıldı. 1918-ci ildə Bakı Kommunası rəhbərlərinin himayəsi ilə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirildi. Nəticəsində on minlərlə dinc insan məhv edildi, yaşayış məntəqələri, mədəniyyət abidələri, məscidlər və məktəblər dağıdıldı.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasətləri millətlərin və xalqların bərabərliyi, şuranı elan etmiş





sovet hakimiyyəti dövründə incə və məkrli metodlarla davam etdirilmişdir. 20-ci illərdə tarixi Azərbaycan ərazisi-Zəngəzur heç bir əsası olmadan Ermənistana verildi və beləliklə, Azərbaycanın qədim torpağı Naxçıvan Vətənimizin qalan hissəsindən ayrı salındı. Dağlıq Qarabağ erməni muxtariyyəti yaradıldı. SSRİ rəhbərliyinin volyuntarist qərarı ilə 1948-1953-cü illərdə ermənilər yüz minlərlə azərbaycanlının öz ata-baba yurdlarından deportasiyısına nail oldular və faktiki olaraq, Ermənistan Respublikası ərazisində monoetnik respublika yaradıldı. 80-cı illərin yarısında bədnam «prestroyka» dövründə SSRİ-nin rəhbər dairələrinin bilavasitə təhriki və yardımı ilə erməni milətçilərinin xalqımıza qarşı təzavüz və cinayətlərinin yeni dalğası başladı. Yığcam halda yaşayan 200 minə yxın azərbaycanlı Ermənistan ərazisindən amansızlıqla qovuldu. Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində azərbaycanlıılardan təmizləndi və erməni hərbi birləşmələri tərəfindən işğal olundu. M.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi təcavükarı cəzalandırmaq əvəzinə, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridərək, öz Milli və vətəndaş haqqını tələb edən yüzlərlə insanı qətlə yetirdi. 1992-ci ildə ermənilər qədim Xocalı şəhərini misli görünməmiş amansızlıqla məhv etdilər, onun dinc sakinlərini qəddar və amansız isgəncələrə və soyqırımına məruz qoydular. Soyqırımı və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxdı. Bütövlükdə, iki milyona yaxın azərbaycanlı başqa millətdən olan insnlara, qonşu xalqlara nifrət və təcavüz ideologiyaları və psixologiyası üzərində qurulmuş mənfur erməni siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşamışdır.

Bu qədər xəyanət və zərbələrə məruz qalmasına baxmayaraq, xalqımız soyqırımı və deportasiya faktlarını uzun zaman ictimai müzakirəyə çıxarmamış, beynəlxalq aləmdə ifşa etdirməmişdir. Yalnız ümummilli liderimiz Heydər Əliyevin

Azərbaycanda ali hakimiyyətə qaydışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilmişdir, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdığı soyqırımı və deportasiya siyasətinin mahiyyəti açıqlanmış və ifşa olunmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixi fərmanı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edilmiş, soyqırımı qurbanlarını anma tədbirləri keçirilməsinə, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin yayılmasına təkan verilmişdir. Məqsəd erməni milətçilərin işğalçılıq və təcavüz siyasətini faktlar əsasında dünya ictimaiyyətinə və nüfuzlu beynəlxalq dairələrə çatdırmaq, törədilmiş hadisələrin bütöv xalqa qarşı planlı surətdə həyata keçirilən soyqırım aktları kimi tanınmasına nail olmaq idi.

Lakin uydurma «erməni soyqırımı» haqqında onilliklər boyu təbliğat-informasiya müharibəsi aparan və bundan öz ərazisi iddialarını əsaslandırmaq və siyasi-hüquqi dividentlər əldə etmək üçün istifadə edən erməni millətçilərindən fərqli olaraq, biz, bu faktlardan başqa xalqlara düşmənçilik və nifrət hissləri aşılamaq üçün faydalanmaq istəmirik. Biz dövlət və xalqlararası münasibətlərdə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinin, sivil birgəyaşayış normalarının ardıcıl surətdə tətbiq olunmasının tərəfdarıyıq.

Azərbaycan dövləti erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, davakar erməni millətçilərinin və ekpensiya siyasətinin ifşası, aparıcıl dünya dövlətləri və nüfuzlu beynəlxalq dairələr tərəfindən ölkəmizin ədalətli mövqeyinin etiraf olunması və müdafiəsi istiqamətində ardıcı və məqsədyönülü iş aparır. Dövlətimizin iqtisadi potensialı və siyasi qüdrəti artdıqca, beynəlxalq nüfuzu gücləndikcə, onun ədalətli mövqeyini müdafiə edən dövlətlərin və siyasi dairələrin sayı da çoxalır. Azərbaycanın dövlət və hökumət rəhbərləri, parlament nümayəndələri Ermənistanın işğalçı siyasətini, terrorçuluğunu, tarix və mədəniyyət abidələrimizə, ekologiyamıza qarşı törətdiyi vandalizm və vəhşiliyi BMT-də, Avropa Şurası Parlament Assambleyasında, ATƏT-də, Avropa Birliyində müvəffəqiyyətlə ifşa edir. Bu işdə, eyni zamanda, ictimai təşkilatların, elmi-mədəni dairələrin, xüsusən xaricdəki Azərbaycan icmalarının üzərinə böyük və məsuliyyətli vəzifələr düşür.





Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə daha tam, dolğun və ardıcıl çatdırılmalı, Ermənistanın işğalçı siyasəti, törətdiyi soyqırımı və təcavüz aktları ifşa olunmalıdır.

Bu gün Ermənistan rəhbərliyi beynəlxalq hüquq normalarına meydan oxuyur, cürbəcür siyasi, ideoloji təxribatlardan istifadə eməklə dünya ictimai fikrini çatdırmağa, işğal faktını ört-basdır etməyə, unutdurmağa, son nəticədə beynəlxalq aləmi mövcud reallıqla barışdırmağa çalışır. Bu cür uzağı görməyən, təcavüzkar siyasi və mənəvi böhrana düçar etmişdir. Avantürist «Böyük dövlət» ideyasının girovuna çevrilmiş və çoxəsrlik qonşuları ilə uzun-müddətli münaqişə vəziyyətinə salınmış erməni xalqı bütün qlobal iqtisadi-enerji layihələrindən təcrid edilmiş və beləliklə, çox çətin vəziyyətlə üzəşmişdir. Ermənistanın bugünkü işğalçı və təcavüzkar siyasətinə yox deyəcəyi, neçə ildir ki, bütün Qarabağda yaşayan hər bir insan öz mənfi təsirini göstərmiş münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunacağı gün uzaqda deyildir.

Bir daha soyqırım qurbanlarımızın əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət diləyir, xalqımıza səadət, ümummilli vəzifələrimizin həlli yolunda uğurlar arzulayıram.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 mart 2004-cü il.*

## Xocalı soyqırımı ildönümü münasibətilə azərbaycan xalqına MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün sizə xalqımızın tarixində kədərli və ağrılı bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən olan Xocalı soyqırımı ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlardan birini yaşadı. Həmin gün qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən Yer üzündən silindi. Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur.

Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər uzağa gedən taktiki məqsədlər güdürdülər. Bununla xalqımızı qorxudaraq, mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın bir qismi-





nin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədlərinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Faciənin miqyasına və ağırlığına baxmayaraq, hakimiyyətdə olan qüvvələr o zaman bu qanlı cinayət barədə beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə vaxtında lazımi məlumat verməmiş, həyəcan təbili çalmamış, əksinə, xalqın qəzəbindən və hakimiyyəti itirəcəklərindən qorxaraq əsl həqiqəti xalqdan gizlətmişlər. Müxalifətdə olan qüvvələr isə həmin dövrdə ümumxalq müsibətindən hakimiyyətə gəlmək üçün əlverişli vasitə kimi istifadə etmişdilər. Yalnız ümummilli liderimiz Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu qanlı cinayət siyasi-hüquqi qiymətini almış, onun dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün tədbirlər görmüşdür.

Hazırda Azərbaycan rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həlli, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması uğrunda ardıcıl səylər göstərir. Beynəlxalq təşkilatlar, aparıcı dövlətlər münaqişəsinin kökləri, səbəbləri və nəticələri barədə getdikcə daha artıq məlumatlandırılır, Azərbaycanın ədalətli mövqeyini etiraf edirlər. Bu gün Xocalı faciəsi dünyanın böyük dövlətlərinin parlamentlərində müzakirəyə çıxarılır, onun təfərrüatları ictimaiyyətə açıqlanır. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri tərəfindən Ermənistanın işğalçı, təcavüzkar dövlət olduğu təsdiq edilir, ondan işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmaq tələb olunur.

Xocalı faciəsindən keçən illərin təcrübəsi göstərdi ki, xalqımız, ölkə ictimaiyyəti ayıq-sayıq olmalı, dezinformasiya və təxribat sahəsində böyük təcrübəsi olan ermənilərin planlarını daim ifşa etməlidir. Ermənistan dövlətinin və erməni millətçilə-

rinin Qafqaz bölgəsində həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının bəşəriyyət üçün təhlükəsi açılıb göstərilmişdir. Bu sahədə bizim görəcəyimiz işlər çoxdur. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması daha səmərəli və ardıcıl aparılmalıdır. Xarici ölkələrdə getdikcə öz mövqelərini gücləndirən soydaşlarımız da bu işdə yaxından iştirak etməli, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri Xocalı soyqırımı kimi hadisələrə yaşadıqları dövlətlərdə lazımi qiymət verilməsinə çalışmalıdır. Düşünürəm ki, müstəqil, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər.

Bir daha Xocalı qəhrəmanlarının və şəhidlərinin əziz xatirəsini dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyirik, xalqımıza başsağlığı verirəm.

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 fevral 2005-ci il*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətindən:**

«Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaş-





lıq və insanlıq borcumuzdur».

«Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq. Bu kədərli anın günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini ehtiramla yad edərək, Allahdan onlara rəhmət diləyir, yaxınlarına, bütün xalqımıza dərin hüznlə başsağlığı verirəm».

Xocalı soyqırımı Konqresdə müzakirə edilib. Amerikalı konqresmenlər ermənilərin törətdiyi soyqırımı barbarlıq adlandırıblar

XX əsrin ən böyük faciələrindən sayılan Xocalı soyqırımının 16-cı ildönümü ABŞ Konqresində də anılıb. Nümayəndələr Palatasının Azərbaycan üzrə işçi qrupunun həmsədri Soloman Ortis və qrupun üzvü Virciniya Foks ölkəmizin tarixinə qanlı hərflərlə yazılan bu facia ilə bağlı bəyanatlarla çıxış ediblər. Demokrat S.Ortis faciənin tarixi ilə bağlı məlumat verərək, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərinin erməni qüvvələri tərəfindən dağıdıldığını diqqətə çatdırıb. Konqresmen hücumun acınacaqlı faktları barədə söz açaraq Xocalıda qətlə yetirilən 613 nəfərdən 106-sının qadın, 63-nün uşaq olduğunu xatırladıb. Bundan başqa, 56 nəfər xocalılı xüsusi qəddarlıqla və işgəncə ilə öldürülüblər. Faciə vaxtı 1275 nəfər isə əsir götürülüb, 150 nəfər itkin düşüb, 487 nəfər, onlardan 76-sı azsaylı olmaq şərti ilə əlilə çevrilib. O cümlədən 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, 130-u isə ən azı bir valideyndən məhrum olub. Solomon Ortis Xocalı cinayətinə görə indiyədək heç kimin məsuliyyətə cəlb olunmadığını və Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilmədiyini bildirib.

Şimali Karolina ştatının Konqresdəki təmsilçisi respublikaçı Virciniya Foks isə Somali, Ruanda, Kamboca, Bosniya və Darfurda baş verən faciəvi hadisələrə Konqresin diqqətini cəlb etdiyi halda, 1992-ci ildə Qafqazda baş verənlər-

dən az insanın xəbərdar olduğunu söyləyib. Onun sözlərinə görə, üstündən 16 il keçəndən sonra belə «Xocalı» sözü Azərbaycan xalqı və bütün bölgə üçün ağrılı və kədərli xatirələrlə bağlıdır. O, ABŞ-ın «Human Rayts Votc», Rusiyanın «Memorial» insan haqları təşkilatlarının hesabatlarına, həmçinin beynəlxalq KİV-lərin o zaman yazdıqlarına istinad edib. Xanım Foks 1993-cü ilin 29 noyabrında ABŞ hökumətinin yüksək səviyyəli rəsmisinin erməni işğalının nəticələrinə dair «Nyusuik» jurnalındakı aşağıdakı sitatını xatırladıb: «Hazırda gördüklərimiz qarşılarına gələn hər bir kəndin sistematik olaraq dağıdılmasıdır. Bu barbarlıqdır».

Solomon Ortis də Xocalı qırğınına ayrıca hal kimi baxmağın tərəfdarı olmadığını dilə gətirib. Onun fikrincə, Xocalı şəhərində baş verənlər erməni hərbi qüvvələrinin Dağlıq Qarabağ müharibəsi boyu dağıdıcı əməllərinə xas hərəkətlər olub.

Azərbaycan üzrə işçi qrupunun həmsədri Ortis Ermənistan ilə Azərbaycan arasında davam edən 14 illik atəşkəs dövründə erməni hərbi qüvvələrinin Azərbaycan ərazilərini tərk etmədiyini deyib: «Sülh danışıqları prosesi tezləşdirilməlidir. Əks təqdirdə, status-kvonun saxlanılması baha başa gələr. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli regional təhlükəsizlik və iqtisadi artımı təmin edə bilər».

ABŞ Konqresinin üzvləri beynəlxalq ictimaiyyəti Xocalı qırğınına müvafiq münasibət bildirməyə, azərbaycanlılara qoşularaq bu faciəni anmağa çağırıb. Onlar dünya ictimaiyyətinin Xocalı haqqında əsl həqiqətləri bilməli və xatırlamalı olduğunu vurğulayıblar.

ABŞ Konqresinin üzvləri Solomon Ortis və Vircinia Foks Xocalı soyqırımının 16-cı ildönümü ilə bağlı Nümayəndələr Palatasının spikeri Nensi Pellosiyə müraciət ünvanlayıblar.





## Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI

Bu il fevralın 26-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların soyqırımının 15 ili tamam olur. Bu hüznlü günlərdə Azərbaycan xalqı davakar erməni millətçilərinin vəhşiliyinin qurbanı olmuş günahsız insanların əziz xatirəsini ehtiramla yad edir.

Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisidir. Bundan əvvəl azərbaycanlılar yaşayan İmarət - Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi. Şəhərdə 7 min nəfərədək adam yaşayırdı. Ermənistan Respublikasındakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş Məhsəti türklərinin 54 ailəsi də burada məskunlaşmışdı.

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı. Davakar erməni millətçiləri kütləvi informasiya vasitələrində, mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışlar edirdilər.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı. Xocalının xarici aləmlə əlaqəsi ancaq radiotelefon və mülki vertolyotlar vasitəsilə həyata keçirilirdi. 1992-ci il yanvarın 28-də Azərbaycan Hava Yolları Dövlət Konserninə məxsus Mİ-8 markalı mülki vertolyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, vertolyotun sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdur. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilməsinin qarşısı alınmışdı. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoruyurdu. Əlbəttə, bu qüvvələr ən müasir hərbi texnika ilə təchiz edilmiş, əvvəlcədən xüsusi hazırlıq keçmiş silahlı birləşmələrə müqavimət göstərməyə qadir deyildir.

Fevralın ikinci yarısından başlayaraq, Xocalı Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin dəstələr halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum başlandı. Hücumda Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş Sovet Ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayı iştirak edirdi. Heç bir hərbi zərurət olmadan şəhər bir neçə saatın içərisində yerlə-yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin – qocalar, uşaqlar, qadınlar girov götürülərək, ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir.





Beləliklə, son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarilə, XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxarmışdır.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyasında ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılırmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsiyə edilmişdir.

Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın zabitləri Seyran Ohanyan (hazırda – işğal edilmiş Dağlıq Qarabağ bölgəsində Ermənistan Respublikasının yaratdığı oyuncaq qurumun «müdafiə naziri»), Yevgeni Nabokix, Valeri Çitçyan rəhbərlik etmişlər. Dinc əhaliyə qarşı soyqırımı cinayətlərində fəal iştirak etmiş alayın hərbi qulluqçularının, habelə digər şəxslərin bir qisminin adları bu gün Azərbaycan tərəfinə məlumdur.

Xocalı şəhərində hərbi əməliyyatdan sonra 366-cı ala-

yın cinayətdə iştirakının izlərini itirmək üçün alay tələm-tələsik Dağlıq Qarabağdan çıxarılıb Gürcüstana aparılmış, bu zaman hərbi texnikanın böyük hissəsi erməni birləşmələrinə təhvil verilmiş və azərbaycanlı əhaliyə qarşı sonrakı cinayət əməllərində istifadə edilmişdir.

Xocalı sakinlərinə qarşı soyqırım aktı Dağlıq Qarabağ bölgəsinin işğalı zamanı Ermənistan Respublikasının həyata keçirdiyi etnik təmizləmə siyasətinin yeni bir mərhələsini təşkil etmişdir. Bu dəhşətli cinayət əməlinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qorxudub, onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq, Azərbaycan torpağının işğalını asanlaşdırmaq olmuşdur. Bununla birlikdə, bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikasının silahlı qüvvələri Xocalı faciəsindən sonra tezliklə özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonların zəbt edilməsi planlarının icrasına başlamışdır.

Xocalı şəhərində dinc əhaliyə vəhşicəsinə divan tutmuş erməni hərbçilərini və onların havadarlarını təmizə çıxarmaq üçün aparılan təbliğat kampaniyası bu gün də ara vermir. İddia olunur ki, guya Xocalıya hücum şəhərdəki atəş nöqtələrini məhv etmək məqsədilə həyata keçirilmiş, bu zaman dinc əhaliyə qarşı heç bir zorakılıq əməlinə yol verilməmişdir. Üzdəniraq təbliğatçıların dediklərindən az qala belə çıxır ki, guya Xocalıda azərbaycanlılar bir-birini, sonra da özlərini işgəncə ilə qətlə yetirmişlər. Bəzən onların həyasızlığı elə həddə çatır ki, Xocalı şəhərində lentə alınmış və ya təsvirləri götürülmüş qanlı qırğın səhnələrini beynəlxalq ictimaiyyətə azərbaycanlıların ermənilərə qarşı cinayət əməlləri kimi təqdim edirlər.

Yalançı erməni təbliğatının miqyası ildən-ilə daha da genişləndirilir. Erməni millətçiləri qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına





haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri işğalçılıq, soyqırım və dövlət terrorizmi siyasətini pərdələmək üçün hər vasitədən istifadə edərək, guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmaların beynəlxalq səviyyədə qəbul olunmasına cəhdlər göstərilir. Həm də bu cəhdlər bir sıra hallarda müəlliflərinə çirkli siyasi «dividentlər» gətirir. Xocalı faciəsi kimi real soyqırım aktına göz yuman ayrı-ayrı dövlətlərin parlamentlərinin təsir altına düşərək, yaxud siyasi konyukturaya əsaslanaraq erməni soyqırımı əfsanəsini müzakirə mövzusuna çevirməsi, hətta bu barədə əsassız və ədalətsiz aktlar qəbul etməsi yalnız təəssüf hissi doğurur.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Xocalı soyqırımı unudulmamalı, dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini almalıdır. Faciənin ideoloqları, təşkilatçıları və icraçıları yaxalanaraq layiq olduqları cəzalara çatdırılmalıdır.

Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Avropa İttifaqına, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görsünlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə, xüsusən onların arasında təməl rolunu oynayan dövlətlərin ərazi bütövlüyü prinsiplərinə əsasən sülh yolu ilə həllinə kömək göstərsinlər.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə

qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin həyata keçirilməsini tələb edir, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarları və yekun sənədləri, Avropa Şurası Parlament Assambleyasının 1416 saylı qətnaməsi əsasında Dağlıq Qarabağ problemini həll etməyə çağırır.

Azərbaycan parlamenti erməni tərəfini sülh prosesində konstruktiv mövqe tutmağa, silahlı qüvvələrini işğal olunmuş torpaqlardan geri çəkməyə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımağa çağırır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının suveren iradəsini ifadə edərək bir daha bildirir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, əzəli torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və mövcud imkanların hamısından istifadə edərək, ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılmasına nail olacaqdır.

*Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2007-ci il 27 fevral tarixli iclasında qəbul edilmişdir.*

## Xocalı soyqırımının 19-cu ildönümü münasibətilə Xocalı əhalisinin dünya dövlətlərinə, Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına MÜRACİƏTİ

Biz – 1992-ci il fevralın 26-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində erməni millətçiləri tərəfindən törədilmiş soyqırımının möcüzə nəticəsində sağ qalmış şahidləri Birləşmiş Millətlər Təşkilatlarına, Avropa Şurasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, eyni zamanda, dünyanın bütün mütərəqqi ictimaiyyətinə növbəti dəfə böyük





ümidlərlə müraciət edir, Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi zərurətini bir daha sivilizasiyalı beynəlxalq aləmin nəzərinə çatdırırıq.

İrandan Azərbaycana köçmələrinin 150 illiyi münasibətilə 1978-ci ildə Dağlıq Qarabağda abidə ucaltmış ermənilərin millətçi və ekstremist dairələri tarixi Azərbaycan torpaqları hesabına xəyali «böyük Ermənistan» ideyasını reallaşdırmaq məqsədi ilə son iki əsrdə xarici havadarlarının köməyi ilə Azərbaycana qarşı işğalçılıq siyasətini ardıcıl həyata keçirmiş, bu məkrli məqsədə çatmaq üçün zaman-zaman çoxsaylı terror aksiyaları və kütləvi qırğınlar, deportasiya və soyqırımı kimi bəşəri cinayətlər törətmişlər.

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Qafqazda öz tarixi ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş və dədə-baba torpaqlarından didərgin salınmışdır.

1988-1989-cu illərdə Ermənistanda öz tarixi-etnik torpaqlarında yaşayan 250 mindən artıq azərbaycanlı son nəfərinə kimi deportasiya edilmiş bu qanlı aksiya zamanı yüzlərlə günahsız insan – qocalar, qadınlar, uşaqlar vəhşicəsinə qətlə yetirilmişdir. Nəticədə Ermənistan erməni millətçilərinin illərlə arzusunda olduqları monoetnik dövlətə çevrilmişdir.

1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları yenidən baş qaldırmış, bu məqsədlə Dağlıq Qarabağda heç bir tarixi, siyasi, etnik əsası olmayan erməni separatizminə rəvac verilmişdir. Artıq 20 ilə yaxındır ki, Azərbaycan torpaqlarının 20 faizi, o cümlədən Dağlıq Qarabağ inzibati-ərazi bölgüsünə daxil olmayan və 1990-cı illərin əvvəllərinədək bütünlüklə, azərbaycanlıların yaşamış olduqları 7 rayon Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1 milyondan artıq azərbaycanlı öz əzəli yurdlarından vəhşicəsinə qovulmuş, on minlərlə adam qətlə yetirilmiş və şikəst edilmişdir. İndiyədək erməni girovluğundan 1400-ə yaxın azərbaycanlı azad

edilsə də, Ermənistanın və Dağlıq Qarabağın həbs düşərgələrində ağlasığmaz təhqir və işgəncələrdən əziyyət çəkən 4 mindən artıq Azərbaycan vətəndaşının taleyi hələ də qeyri-müəyyən olaraq qalmaqdadır. İşğal zonasında yüzlərlə şəhər və kənd, minlərlə ictimai-mədəni tikili, təhsil və səhiyyə müəssisələri, tarixi-mədəniyyət abidələri, muzeylər, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerlə-yeksan edilərək, misli görünməmiş vandalizmə məruz qalmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərində Qarabağın Kərkicahan, Meşəli, Quşçular, Qaradağlı, Ağdam və s. kimi azərbaycanlılar yaşayan kəndlərində erməni silahlarının törətdikləri kütləvi qırğınlar, Bakıda və digər şəhərlərimizdə həyata keçirilmiş qanlı terror aksiyaları, nəhayət, Xocalı soyqırımı «məzlum və əzabkeş erməni» vicdanında əbədi qara ləkə kimi yaşayacaq tarixi cinayətlərdir.

Acı təəssüf hissi ilə diqqətinizə çatdırırıq ki, XX əsrin ən dəhşətli faciələri hesab olunan Xatın, Xirosima, Naqasaki, Sonqmi kimi fəlakətləri sırasına 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımı da əlavə olunmuşdur.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus olan və o dövrdə Dağlıq Qarabağın Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə yeddi min nəfərə qədər azərbaycanlı əhalisinin yaşadığı Xocalı şəhərinə 5 istiqamətdən hücum etdilər (hücum zamanı şəhərdə 3 minə yaxın adam qalmışdı). Həmin vaxta qədər Xocalı şəhəri artıq dörd aydan çox idi ki, tam mühasirə vəziyyətində saxlanılır, əhali tibbi xidmət və ərzaq sarıdan ciddi əziyyət çəkirdi. Şəhərdə çoxlu sayda xəstələr, yaralılar, qocalar, qadınlar və uşaqlar var idi.

Həmin gecə Xocalı şəhəri yerlə-yeksan edildi. Əliyalın dinc mülki əhali kütləvi qətliama məruz qaldı – uşaqlar, qadınlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi. Erməni millətçiləri XX əsrin sonlarında sivilizasiyalı bəşəriyyət üçün üzqaralığı olan növbəti tarixi cinayəti – Xocalı soyqırımını törətdilər. Bu vəhşi aksiyada məqsəd şəhərin bütün əhalisini məhv etmək idi. Ancaq sırf təsadüflər nəticəsində xeyli Xocalı sakini tarixə şahidlik etmək üçün sağ qaldı.





Xocalı soyqırımı nəticəsində 613 nəfər məhv edildi, 1275 nəfər din sakin girov götürüldü. Onlardan 150 nəfərin taleyi bu gün də məlum deyil. Facıə nəticəsində 1000-dən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qoca idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlanlar və qızlardır.

Bu hərbi-siyasi cinayət nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideyni, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdir.

Təsəvvür etmək belə çətindir ki, tarixdə analoqu olmayan bu cür qəddarlıq və vəhşilik insan tərəfindən həyata keçirilmiş, XX əsrin sonunda, dünyanın gözü qarşısında baş vermişdir! Ancaq dünya bilib agah olmalıdır: təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə bəşəriyyətə qarşı törədilmiş bu tarixi cinayətin təşkilatçısı özünü bütün dünyaya «əzabkeş və məzlum» millət obrazında təqdim edən davakar erməni millətçiliyidir. Artıq 19 ildir ki, məcburi köçkünlük həyatı yaşayan biz xocalılar dünyanın bütün sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara ürəkağrısı ilə, eyni zamanda, böyük ümidlərlə müraciət edirik. İnanırıq ki, nüfuzlu beynəlxalq təşkilatlar olan BMT, AŞ və ATƏT, sülhsevər qüdrətli ölkələr beynəlxalq hüquqa və bəşəri dəyərlərə məhəl qoymayan təcavüzkar bir dövləti – Ermənistanı haqq-ədalət prinsipləri ilə yaşamağa və qonşu dövlətlərlə sivil münasibətlər qurmağa məcbur edəcəkdir!

İşğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin bu günədək icra edilməməsi, ilk

növbədə, həmin təşkilatın nüfuzuna ciddi zərbə və beynəlxalq aləmə meydan oxumaqdır.

Bu münaqişənin nizama salınmasında Azərbaycan dövlətinin haqlı və ədalətli mövqeyini, eyni zamanda, aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların sülhyaratma səylərini dəstəkləməklə, Ermənistanın beynəlxalq hüququnu təməl prinsiplərinə zidd olan təcavüzkar siyasi xəttini təkcə regionda deyil, bütün dünyada sülh və əmin-amanlıq üçün ciddi təhlükə hesab edirik. Bu, labüd gerçəkliyə mütərəqqi beynəlxalq ictimaiyyət laqeyd qalmamalıdır.

Bir daha əmin olduğumuzu bildiririk ki, dünya birliyi tərəfindən ədalətli və obyektiv mövqe nümayiş etdiriləcək, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə birmənalı qiymət verilərək ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, bir milyondan artıq qaçqın və məcburi köçkün öz dədə-baba yurdlarına qayıdacaqdır.

*Müraciət Xocalı məcburi köçkünlərinin Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində keçirilmiş ümumi toplantısında qəbul olunmuşdur.*

*Azərbaycan Respublikası,*
*3 fevral 2011-ci il*

## 5.8. Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI

Bu il fevralın 26-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların soyqırımının 15 ili tamam olur. Bu hüznlü günlərdə Azərbaycan xalqı davakar erməni millətçilərinin vəhşiliyinin qurbanı olmuş günahsız insanların əziz xatirəsini ehtiramla yad edir.

Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla,





XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisidir. Bundan əvvəl azərbaycanlılar yaşayan İmarət-Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi. Şəhərdə 7 min nəfərədək adam yaşayırdı. Ermənistan Respublikasındakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də burada məskunlaşmışdı.

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetiriməsi planı qabaqcadan hazırlanmışdı. Davakar erməni millətçiləri kütləvi informasiya vasitələrində, mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışlar edirdilər.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı. Xocalının xarici aləmlə əlaqəsi ancaq radiotelefon və mülki vertolyotlar vasitəsilə həyata keçirilirdi. 1992-ci il yanvarın 28-də Azərbaycan Hava Yolları Dövlət Konserninə məxsus Mİ-8 markalı mülki vertolyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, vertolyotun sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdur. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilməsinin qarşısı alınmışdı. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoru-

yurdular. Əlbəttə, bu qüvvələr ən müasir hərbi texnika ilə təchis edilmiş, əvvəlcədən xüsusi hazırlıq keçmiş silahlı birləşmələrə müqavimət göstərməyə qadir deyildir.

Fevralın ikinci yarısından başlayaraq, Xocalı Ermənistan silahlı birləşmələri tərfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin dəstələr halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum başlandı. Hücumda Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş Sovet Ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayı iştirak edirdi. Heç bir hərbi zərurət olmadan şəhər bir neçə saatın içərisində yerlə-yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin-qocalar, uşaqlar, qadınlar girov götürülərək, ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Beləliklə, son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin milli müstəsnalıq, Azərbaycan xalıqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarilə, XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxarmışdır.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyada ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılırmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş,





körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsif edilmişdir.

Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın zabitləri Seyran Ohanyan (hazırda-işğal edilmiş Dağlıq Qarabağ bölgəsində Ermənistan Respublikasının yaratdığı oyuncaq qurumun «müdafiə naziri»), Yevgeni Nabokix, Valerii Çitçyan rəhbərlik etmişəlr. Dinc əhaliyə qarşı soyqırımı cinayətlərində fəal iştirak etmiş alayın hərbi qulluqçularının, habelə digər şəxslərin bir qisminin adları bu gün Azərbaycan tərəfinə məlumdur.

Xocalı şəhərində hərbi əməliyyatdan sonra 366-cı alayın cinayətdə iştirakının izlərini itirmək üçün alay tələm-tələsik Dağlıq Qarabağdan çıxarılıb Gürcüstana aparılmış, bu zaman hərbi texnikanın böyük hissəsi erməni birləşmələrinə təhvil verilmiş və azərbaycanlı əhaliyə qarşı sonrakı cinayət əməllərində istifadə edilmişdir.

Xocalı sakinlərinə qarşı soyqırım aktı Dağlıq Qarabağ bölgəsinin işğalı zamanı Ermənistan Respublikasının həyata keçirdiyi etnik təmizləmə siyasətinin yeni bir mərhələsini təşkil etmişdir. Bu dəhşətli cinayət əməlinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qoxudub, onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq, Azərbaycan torpağının işğalını asanlaşdırmaq olmuşdur. Bununla birlikdə, bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikasının silahlı qüvvələri Xocalı faciəsindən sonra tezliklə özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonlarının

zəbt edilməsi planlarının icrasına başlamışdır.

Xocalı şəhərində dinc əhaliyə vəhşicəsinə divan tutmuş erməni hərbçilərini və onların havadarlarını təmizə çıxartmaq üçün aparılan təbliğat kampaniyası bu gün də ara vermir. İddia olunur ki, guya Xocalıya hücum şəhərdəki atəş nöqtələrini məhv etmək məqsədi ilə həyata keçirilmiş, bu zaman dinc əhaliyə qarşı heç bir zorakılıq əməlinə yol verilməmişdir. Uzdəniraq təbliğatçıların dediklərindən az qala belə çıxır ki, guya Xocalıda azərbaycanlılar bir-birini, sonra da özlərini işgəncə ilə qətlə yetirmişlər. Bəzən onların həyasızlığı elə həddə çatır ki, Xocalı şəhərində lentə alınmış və ya təsvirləri götürülmüş qanlı qırğın səhnələrini beynəlxalq ictimaiyyətə azərbaycanlıların ermənilərə qarşı cinayət əməlləri kimi təqdim edirlər.

Yalançı erməni təbliğatının miqyası ildən-ilə daha da genişləndirilir. Erməni millətçiləri qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri işğalçılıq, soyqırım və dövlət terrorizmi siyasətini pərdələmək üçün hər vasitədən istifadə edərək, guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmaların beynəlxalq səviyyədə qəbul olunmasına cəhdlər göstərilir. Həm də bu cəhdlər bir sıra hallarda müəlliflərinə çirkli siyasi «dividendlər» gətirir. Xocalı faciəsi kimi real soyqırım aktına göz yuman ayrı-ayrı dövlətlərin parlamentlərinin təsir altına düşərək, yaxud siyasi konyukturaya əsaslanaraq erməni soyqırımı əfsanəsini müzakirə mövzusuna çevirməsi, hətta bu barədə əsassız və ədalətsiz aktlar qəbul etməsi yalnız təəssüf hissi doğurur.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Xocalı soyqırımı unudulmamalı, dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini almalıdır. Faciənin ideoloqları, təşkilatçıları və icraçıları yaxalanaraq layiq olduqları cəzalara çatdırılmalıdır.

Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Avropa İttifaqına, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görsünlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə, xüsusən onların arasında təməl rolunu oynayan dövlətlərin ərazi bütövlüyü prinsiplərinə əsasən sülh yolu ilə həllinə kömək göstərsinlər.





Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin həyata keçirilməsini tələb edir, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarları və yekun sənədləri, Avropa Şurası Parlament Assambleyasının 1416 saylı qətnaməsi əsasında Dağlıq Qarabağ problemini həll etməyə çağırır.

Azərbaycan parlamenti erməni tərəfini sülh prosesində konstruktiv mövqe tutmağa, silahlı qüvvələrini işğal olunmuş torpaqlardan geri çəkməyə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımağa çağırır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının suveren iradəsini ifadə edərək bir daha bildirir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, əzəli torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və mövcud imkanların hamısından istifadə edərək, ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılmasına nail olacaqdır. (Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2007-ci il 27 fevral tarixli iclasında qəbul edilmişdir.)

**Xocalı soyqırımının iyirminci ildönümü haqqında**
**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən-26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, kesmiş soved ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amancasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynəlirinin birindən məhrum edilmiş, 487 dinc Xocalı ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı.

Birləşmiş Millətlər Təhlükəsizlik Şurasının, Avropa Parlament Assambleyasının və bir sıra beynəlxalq qurumların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində obyektiv həllini tapmasına dair qətnamə və qərarlarına baxmayaraq, bu günə qədər ATƏT-in Minsk qrupu





çərçivəsində aparılan danışıqlar heç bir nəticə verməmişdir.

Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır.

Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin xatirəsinə faciənin iyirminci ildönümü ərəfəsində dərin hüznlə bir daha yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 yanvar 2012-ci il*

5.9. BMT-nin Baş katibinə
BMT-nın İnsan Hüquqları üzrə Ali Komissarlığına
BMT-nın Qaçqınlar üzrə Ali Komissarlığına
Avropa Şurasına
ATƏT-ə
Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi Nümayəndəsinə

### 5.9 Azərbaycan Respublikası İnsan Hüquqları Üzrə Müvəkkilinin (Ombudsmanın) 31 mart Azərbaycanlıların soyqırım günü münasibətilə BƏYANATI

XIX-XX əsrlərdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırımı və deportasiya siyasəti Azərbaycan tarixinin qanlı səhifələrindəndir. Bu siyasət iqtisadi, siyasi, maddi və mənəvi baxımdan ağır nəticələrə səbəb olmuşdur. Əzəli Azərbaycan torpaqları təcavüzkar qonşular tərəfindən qəsb edilmiş, on minlərlə azərbaycanlı öldürülmüş, yüz minlərlə insan doğma torpaqlarından didərgin salınmış, qiymətli maddi-mədəniyyət abidələri məhv edilmişdir.

Xalqımızın başına gətirilən müsibətələr tarixin dərin qatlarına gedib çıxır. 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrindən sonra Azərbaycanın parçalanması prosesi başlanmışdır. Xaricdən 10 minlərlə erməni köçürülərək, tarixi Azərbaycan torpaqları İrəvan quberniyasında, Naxçıvanda, Qarabağda, habelə, digər bölgələrdə yerləşdirilmişdir. 1828-1830-cu illərdə Azərbaycan torpaqlarına İrandan 40 min, Türkiyədən isə 84 min erməni köçürülmüş, beləliklə, bölgə əhalisinin etnik tərkibi ermənilərin xeyrinə dəyişdirilmişdir. Halbuki, 1828-ci ilədək İrəvan şəhərində 7 mindən çox azərbaycanlı, 2 minədək erməni yaşayırdı. Xalqımıza qarşı tətbiq edilən imperiya siyasətinin həyata keçirilməsi üçün çar Rusiyası ermənilərdən daim bir alət





kimi istifadə etmişdir. Bunun müqabilində Azərbaycanın tarixi torpaqları zorla alınaraq ermənilərə verilmişdir. Ötən əsrin əvvəllərində xalqımıza qarşı yürüdülən bu mənfur siyasət nəticəsində azərbaycanlılar öz əzəli torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirmişlər. İyirminci yüzilliyin sonunda isə erməni işğalçıları Dağlıq Qarabağı və ətraf yeddi rayonu- Laçın, Kəlbəcər,, Ağdam,, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayılı zəbt etmişlər.

Təkcə ötən əsrdə Azərbaycan əhalisi dörd dəfə (1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə) erməni millətçiləri tərəfindən insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulması halları qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə və deportasiyaya məruz qalmışdır.

1918-ci ilin mart qırğınları da xalqımıza qarşı zaman-zaman həyata keçirilən soyqırımı siyasətinin ən dəhşətli təzahürlərindən biri kimi Azərbaycanın tarixinə qanla yazılmışdır. Stepan Şaumyanın rəhbərlik etdiyi daşnak və bolşevik qüvvələri üç gün ərzində Bakıda 12 min azərbaycanlının həyatına son qoymuşlar. Erməni daşnakları qocaları, qadınları və uşaqları amansızcasına qətlə yetirmiş, qiymətli tarixi abidələri məhv etmiş, yandırmışlar. Qubada, Xaçmazda, Şamaxıda, Lənkəranda və digər bölgələrdə də bu cür faciələr törətmişdir. Şamaxının 72 kəndində ağlasığmaz qəddarlıq törədilmiş, dinc əhali qırğına məruz qalmış, məscidlər dağıdılmışdır. Şamaxıda 7 min azərbaycanlı öldürülmüş, hətta südəmər körpələrə belə rəhm edilməmişdir.

Bakı qırğınları ilə başlanan soyqırım Astara, Salyan, Hacıqabul və digər əyalətlərdə də davam etdirilmişdir. Ümumiyyətlə, 1918-1920-ci illərdə Azərbaycanın bir çox şəhəri, yüzlərlə kəndi və yaşayış məntəqəsi dağıdılmış və yandırılmış, 50 mindən çox azərbaycanlı qətlə yetilirmişdir.

Soyqırımdan ən çox zərər çəkən bölgələrdən biri də Azərbaycanın Zəngəzur qəzası olmuşdur. Bu bölgədə azərbaycanlıların yaşadığı 115 kənd yandırılaraq yer üzündən

silinmişdir. Zəngəzurun Qarakilsə (İndiki Sisiyan) ərazisində azərbaycanlılar yaşayan kəndlərin əksəriyyəti yerlə-yeksan edilmişdir. 500-ə yaxın azərəbaycanlı azğınılaşmış erməni millətçilərindən yaxa qurtarmaq üçün məscidə pənah gətirsə də, məscid yandırılmış, inam və iman ocağına sığınanlar belə məhv edilmişdir.

Sovet hakimiyyəti illərində on minlərlə azərbaycanlı genosidin yeni dalğası ilə üzləşmişdir. Şovinizmə yoluxmuş erməni millətçiləri azərbaycanlıların öz tarixi torpaqlarından qovulmasına dövlət səviyyəsində nail olmuşlar. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin qərarı ilə 150 min azərbaycanlı Ermənistan SSR ərazisindən deportasiya edilərək, Azərbaycanın Kür-Araz ətrafı bölgələrinə köçürülmüşdür. Zor gücünə aparılan deportasiya prosesi daşnakların uzun illərdən bəri sınanmış metodlarının müşayiəti ilə həyata keçirilirdi. Öz doğma yurdlarını tərk etmək istəməyənləri hədələyir, mülkiyyətini əllərindən alır, öldürür, boşaldılmış evlərə isə Türkiyədə, Livanda və digər ölkələrdə yaşayan erməniləri yerləşdirirdilər. Həmin tarixi haqsızlıq uzun müddət siyasi-hüquqi qiymətdən kənarda qalmış, nəhayət, Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı ilə heç bir beynəlxalq normaya sığmayan qeyri-insani, ədalətsiz köçürülmə siyasətinə hüquqi qiymət verilmişdir.

1988-ci ildən başlayaraq Ermənistanda "Azərbaycanlılarsız Ermənistan" ideyası irəli sürülərək soydaşlarımıza qarşı yenidən etnik təmizləmə aparılmışdır. Bu, Ermənistanın Azərbaycana qarşı təcavüzünün yeni bədnam mərhələsi idi. Həmin dövrdə Ermənistan ərazisindən 200 mindən çox azərbaycanlı zorla qovularaq deportasiya olunmuş, 200-dən artıq soydaşımız xüsusi qəddarlıqla öldürülmüşdür.

Ermənistan SSR Ali Soveti "Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında" hüquqazidd qərar qəbul etldikdən sonra erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı başlamışdır. Bu təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 10 minlərlə insan kütləvi qırğınların qurbanı olmuş, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, yüzlərlə yaşayış məntəqəsi, kənd və qəsəbələr, təhsil və səhiyyə obyektlrəi, tarixi abidələr dağıdılmışdır.





1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarlarının Azərəbaycan xalqına qarşı törətdikləri Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 1275 dinc sakin əsir götürülmüşdür. 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu genosid aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız isgəncələr verilmişdir.

Ermənilər tərəfəindən azərbaycanlılara qarşı uzun illərdən bəri törədilən əməllərin əvvəlcədən düşünülmüş qaydada, milli əlamətinə görə, konkret bir qrupun tamamı ilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, həmin əməllərin məhz soyqırımı olduğunu sübut edir.

Beynəlxalq hüquqa görə, soyqırım ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorizm kimi cinayətlərlə yanaşı, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Bu cinayətin tərkibi bir sıra beynəlxalq – hüquqi aktlarda müəyyənləşdirilmişdir. Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyaya görə, soyqırım hər hansı milli, etnik, irqi yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən hərəkətlərdir.Soyqırım və insanlıq əleyhinə cinayətin tərki-

bini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri erməni şovinstləri tərəfindən aəzrbaycanlılara qarşı tətbiq edilmişdir.

Ermənistanın yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki, beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərəhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyinin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir. Ermənistanın bəşəriyyət üçün təhlükə törədən əməllərinə dünya birliyi tərəfindən siyasi, hüquqi qiymət verilməmiş, bu da yeni-yeni beynəlxalq cinayətlər törədilməsinə əlverişli şərait yaratmışdır.

Azərbaycanlıların soyqırımı haqqında məsələ BMT Nizamnaməsinə müvafiq olaraq, Təhlükəsizlik Şurasında müzakirə olunmalı və törədilmiş soyqırımın təhqiq edilməsi və hüquqi qiymət verilməsi üçün Yuqoslaviya və Ruandada baş verən soyqırım əməllərini araşdırmaq və cinayətkarları cəzalandırmaq məqsədilə BMT Təhlükəsizlik Şurasının 3 fevral 1993-cü il tarixli 808 saylı və 25 may 1993-cü il tarixli 827 saylı qətnamələri əsasında yaradılmış Yuqoslaviya və Təhlükəsizlik Şurasının 8 noyabr 1994-cü il tarixli 955 saylı qətnaməsi üzrə yaradılmış Ruanda tribunalları kimi beynəlxalq tribunal təsis edilməlidir.

Böyük ümidlə dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və dünya xalqlarına müraciət edərək, Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, soyqırımına, bu ağrılı münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına dəstək verləcəyinə, zəbt olunmuş torpaqların qaytarılacağına, qaçqına və məcəburi köskünə çevrilmiş yüz minlərlə soydaşımızın öz yurudlarına dönəcəyinə, onların pozulmuş hüquq və azadlıqlarının bərpa ediləcəyinə inanıram.





Ümid edirəm ki, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləyəcək, ədalət tezliklə öz yerini tapacaq, soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunacaqdır.

İnanırıq ki, siz Azərbaycan torpaqlarında əmin-amanlığın, Azərbaycan xalqının pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsində bütün imkanlarınızı səfərbər etməklə yardımçı olacaqsınız.1.

# VI FƏSİL

# XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLİNDƏ OSMANLI TÜRKİYƏSİ, BÖYÜK DÖVLƏTLƏRİN XARİCİ SİYASƏTİ HAQQINDA QONDARMA «ERMƏNİ» MƏSƏLƏSİ

## 6.1 «Şeyx Əbubalının Osman bəyə (Türk imperatoruna): vəsiyyəti Sənədlər»

Maraqçəkici hal kimi türk imperatoru Osman bəyin öyüd anlamı bildirən, ağsaqqallardan qalan mirasını da oxucuların diqqətinə yönəldirik.

Ey oğul, bəysən! Bundan sonra əsəbilik bizə, sakitlik sənə. Küsmək bizə, könül almaq sənə, günah etmək bizə, dözüm sənə. Acizlik, yanlışlıqlar bizə, xoş iş tutmaq sənə. Çəkişmələr, dava-dalaş, uyğunsuzluqlar, anlaşılmazlıqlar bizə, ədalət sənə. Pis söz, ağzıboşluq, haqsız yozum bizə, bağışlamaq sənə.

Ey oğul, bundan sonra bölmək bizə, bütünəmək sənə. Tənbəllik bizə, məlumatlandırmaq, qeyrətləndirmək, qurub-yaratmaq sənə.

Ey oğul, səbr etməyi bacar. Vaxtından öncə çiçək açmaz. Bunu da unutma, insanı yaşat ki, dövlət yaşasın.

Ey oğul, işin ağır, işin çətin, gücün tükə bağlı
Tanrı yardımçın olsun!

## 6.2. Türkiyədə erməni üsyanları

Türkiyədəki üsyanlar xaricdən təhrik, təşviq və dəstək görən komitə və cəmiyyətlərin göstərişləri ilə hərəkət edən erməni din xadimləri, müəllimləri, tələbələri və bunlardan təşkil olunmuş quldur dəstələrinin fəaliyyəti nəticəsində, Osmanlı dövlətinin bunlara verdiyi yüksək sərbəstlik, xaricilərin müdaxiləsi, hadisələri törətmiş günahkarların cəzalandırılmaması və macərapərəstlərin bu vəziyyətdən istifadə edərək cəsarətlə istədiklərini etdikləri üzündən mümkün olmuşdur.





Məktəblərdə Osmanlı gerblərinin, padşahın yazılarının əvəzinə, müstəqil Ermənistan, hiçak və daşnak partiyalarının yazılarının, silahlarının asıldığı erməni məktəblərində oxudulan tarix kitablarında türklərin ermənilərə etdikləri zülmdən bəhs edildiyi, erməni şairlərinin milləti və gəncliyi qıcıqlandıran şeirlərinin məktəblərdə və xalq arasında açıqca yayıldığı, yerli və xarici erməni mətbuatının bu kimi nəşrlərlə həm erməniləri, həm də dünyanı bu fikrə hazırlamağa çalışdığı, bu şeirlərin qəhvəxanalarda, teatrlarda, klublarda, küçələrdə ucadan oxunduğu, hər yerin, hətta kilsə və məktəblərin silah və sursat anbarlarına çevrildiyi, bunların da nəticəsi kimi vaxtaşırı müxtəlif yerlərdə, hətta kiçik basqınlar başlandığı zaman, dövlət bunlara qarşı təsirli müdaxilələr etməmiş, nəsihətlər, bağışlama yolu ilə savaşların yatırılmasına çalışmışdır. Əlbəttə ki, bu üsulu bir dövlət anlayışı, nüfuzu ilə izah etmək mümkün deyil. 1910-cu ildə erməni orta məktəbləri üçün hazırlanmış rəsmli «Erməni tarixi» adlı kitabdan bir cümləni göstərməklə, gəncləri türklərə qarşı düşmən kimi hazırlamaq səylərinin açıqca təbliğ etdiklərini göstərməyi lazım bildim:

«Türk hakimiyyəti dövründə ermənilər məşruqəyə qədər əzab içində yaşamışlar, Rusiya hökuməti də xristianları himayə etmək məqsədilə Osmanlı hökumətinə müharibə elan etmişdir».

Erməni sənətkarları xəyali Ermənistan tabloları (poçt markaları, pul, siqaret kağızı, teatr pərdəsi, yastıq üzü və s.) düzəldərək, onları hər yerdə işlədir, milləti üsyana hazırlamaq məqsədilə bunlardan istifadə edirdilər.

Osmanlı hökuməti bütün bu hadisələrə qarşı qəti tədbirlər görmək əvəzinə, bunları bir vicdan hürriyyəti, azlıqda

olanların haqqı kimi qəbul edirdi.

Osmanlı dövlətinin ən böyük günahı elə budur!

Hürriyyətin anarxiya demək olmadığını qəbul etmək lazımdır. Elə bu səbəbdən bütün üsyanlarda hökumətin də günahkar olduğu qənaətindəyəm. Əgər ilk üsyanları başlayanlara layiq olduqları cəzalar verilsəydi, bu vəziyyət davam etməz və iki tərəfdən milyondan çox insan öldürülməzdi.

Halbuki, bütün dünyaya zalım kimi tanıdılan və «Qırmızı Sultan» adı ilə xatırlanan II Əbdülhəmid həyatını təsadüfən qurtara bilmiş, «Ulduz» sui-qəsdini hazırlayan və bir çox günahsız insanın ölümünə səbəb olan macərapərəstlərdən sadəcə birinin edamına hökm çıxarmış məhkəmənin qərarına baxmayaraq onu da bağışlamışdır. Dövlət bu şəkildə idarə edilə bilməz.

Komitələrin törətdiyi üsyanları şərh etməzdən əvvəl, Zeytun hadisələri haqqında qısa məlumat verməyə çalışacağam.

Maraş bölgəsinə bağlı dağlıq bir ərazi mərkəzi olan Zeytun 1895-ci ilə qədər davam edən köhnə feodal idarəçiliyinin tipik nümunələrindən biridir. Bu gün yenə Maraşa bağlı (Süleymanlı) bucaq mərkəzi olan köhnə Zeytunun dörd məhəlləsi dörd erməni dərəbəyi-işxanı tərəfindən idarə edilirdi. Həmin dərəbəyilər ayrı kəndlərdən də vergi toplayırdılar. Bu hal 1895-ci ilə qədər davam etmişdi.

Ərazisi kimi camaatı da mürəkkəb insanlar idi. 1545-ci ildən etibarən bu bölgədə daim basqınlar baş vermişdir.

Daha əvvəl, gördüyümüz kimi, bizanslıların, daha sonra səlcuqların əlindən qaçaraq toroslara yerləşən və Səlib yürüşlərində onlara kömək edən Zeytun və Xaçın (Saimbəyli) erməniləri Zülqədər oğulları hakimiyyətindən Osmanlı hakimiyyətinə keçdikdən sonra vaxtaşırı dinc durmamış, ən sonda hiçakların aləti olmuşlar. 1780-82-86, 1808-18-19-20-29-31-32-35-36-40-42-50-53-60-61-ci illərdə daha çox vergi verməmək və quldurluq səbəblərindən baş verən hadisələr 1860-cı ildə Livana muxtariyyət verildikdən sonra mahiyyətini dəyişmişdi.





Bu hadisələr nəticəsində bölgədəki türk xalqı başqa yerlərə köçməyə məcbur olmuşdu. Harutyun Çakıryan adlı zeytunlu bir müəllimin Zeytuna gəlməsindən sonra isə hadisələr müstəqillik mücadiləsi şəklini almışdı.

1862-ci ildə Xaçından Zeytuna gələn və özünün erməni işxanı olduğunu söyləyən Levon Lusinyan adlı şəxs zeytunlulara müstəqillik verilməsi üçün Fransanın yardımını istəmiş, lakin qriqorian olan Zeytun erməniləri katolik olmağı qəbul etmədiklərindən Fransa bu məsələ ilə məşğul olmamışdır.

1865-ci ildə Zeytuna ilk dəfə bir türk qəza rəisi (kaymakan) təyin edilmişdi. Lakin üsyanlar durmadan davam edirdi. Qəza rəisi ermənilər tərəfindən həbs edilmiş, basqınlar 1865-67-78-79-da təkrarlanmışdı.

Zeytunda ən böyük üsyan 1895-ci ildə baş vermişdi. Bu üsyan hiçakların göndərdikləri adamlar və baş keşiş iqamətgahının təşviqi və köməyilə başlanmış və davam etdirilmişdi.

Zeytun qışlağındakı 600 türk əsgər və zabiti əsir edilərək öldürülmüşdü. Uzun sürən mücadilədən sonra hökumət qatilləri tam həbs edəcəyi anda, Avropa dövlətləri işə qarışaraq, dövlətin nüfuzunu aşağı salan şərtlərlə üsyanı dayandırmışdılar.

Avropa dövlətlərinin və Rusiyanın bu tərzdə müdaxiləvə yardımları Osmanlı dövlətinin üsyançılara cəza verməməsinin, dolayısı ilə komitəçilərin cürətlərinin artırmasının başlıca səbəblərindən biri olmuşdur.

Bu zaman hiçakların zeytunlulara yardım üçün İstanbul ermənilərindən topladıqları və Londondan Nazarbəgyan vasitəsilə Zeytuna göndərdikləri pulun yalnız bir hissəsi Zeytuna gətirilmiş, qalan hissəsi hiçak komitəsi rəisi tərəfindən mənimsənilmişdi.

1890-cı ildə baş vermiş Ərzurum üsyanı, ondan sonra müxtəlif yerlərdə davam edən və Avropanın diqqətini Tür-

kiyəyə və «erməni məsələsi»nə çəkməyə çalışan hadisələrin başlanğıcı olmuşdur. Həmin ildə Musa bəy adlı adi bir zabitlə əlaqədar hadisə şişirdilərək dünyaya yayılmışdı. Bunların ardınca yenə də həmin ildə İstanbulda «Qumqapı nümayişi» deyilən hadisə və onu şəxsən idarə edən Canqulyanın izahatı diqqətəlayiqdir:

«Erməni hadisəsini dünyaya unutdurmamaq və Ərzurum üsyanı ilə Musa bəy hadisəsini genişləndirmək, Avropa elçilərinin gözü qarşısında bir hərəkət düzəltmək, İstanbulun daha sıx olan erməni əhalisini hadisələrin içərisinə qatmaq, Sarayı təhdid etmək, inqilab fikrini xalq arasında yaymaq» kimi məqsədlər güdən erməni rəhbərləri Qumqapıda kilsədə duaların oxunmasından sonra başlanmış və xeyli qan tökülməsinə səbəb olmuş bir hərəkatı təşkil etmişdilər.

Bunların ardınca, 1892-93-cü illərdə Marzifon, Qayseri və Yozqatda hiçak inqilab planına uyğun hərəkat başlamışdı.

Bu hərəkatlar haqqında 27 may 1893-cü ildə Qlare Ford tərəfindən lord Roseberriyə göndərilən məktubda:

«Dr. C.Qrin, dr.Fransvort və dr. Doddun ifadələrinə görə, bölgədəki erməni komitəçilərinin qorxulu fəaliyyətləri, burada yaşayan ermənilərə daha çox zülm etdikləri, erməni məsələsinə Avropanın diqqətini cəlb etmək üçün yazda yenidən dağlara çıxıb quldurluq edəcəkləri, müsəlman əhalinin ağır vəziyyətdə olması, hərəkatı bəzi rus ziyalılarının da təşviq və təhrik etdikləri, müsəlman əhalini müdafiə edəcək qüvvələrin olmadığı» yazılmışdı.

Bu hadisələrdən sonra hiçak komitəsi İstanbulda onların gizli və çirkin fəaliyyətlərinə qoşulmayan ermənilərə qarşı bir təhdid, şantaj və sabotaj fəaliyyətinə girişmiş, vəkil Xaçik, Gədikpaşa kilsəsinin keşişi Dacad Vartapet, ruhani məclisinin üzvü Mampre Vartapet, Mkrtıç Tütünçüyan, polis Markar, Hacı Tiqran, Qəndilçi Onik, tacir Qaragözyan və Apik Unçuyan küçələrdə öldürülmüş, bir çox ermənilər də yaralanmışdılar.





Hiçaklar artıq geniş fəaliyyətə keçmişdilər. Özlərini Avropaya unutdurmamaq, zəifləyən təşkilatlarını, azalan hörmətlərini yüksəltmək və nəhayət, məqsədlərinə çatmaq üçün planlı hərəkətlərə başlamışdılar. Belə ki, 1894-cü ildə hiçakların İstanbul təşkilatının rəhbəri olan Murad adı ilə məşhur Hambarsum Boyaçıyan (1908-ci ildə Kozan deputatı) daşnakların köməyilə Sasunda üsyan təşkil etdi.

Bir çox yerli müsəlmanları öldürdükdən sonra, hiçaklar hərbi güc qarşısında davam gətirə bilmədilər. Bu hadisənin təhqiqində ingilis, fransız və rus konsulları da iştirak etmişdilər.

Hiçakların bu üsyanlardan umduqları nəticələr alınmadı.

«Nyu-York Herald» qəzeti bu münasibətlə nəşr etdiyi məqalədə avropalıların apardıqları təhqiqatlara görə üsyanın xarici dövlətlərin təşviqilə ermənilər tərəfindən törədildiyi, müsəlmanların vəhşicəsinə gözlərinin çıxarılması, qulaqlarının kəsilməsi, xristianlığı zorla qəbul etdirmək məqsədilə edilən təzyiq və qətllər, bunun qarşısında türklərin silahsız ermənilərlə çox yaxşı davrandıqları bildirilirdi.

Əsrlər boyu ermənilər kimə tabe olmuşlarsa, dinlərini dəyişdirmək üçün təzyiqə məruz qalmışlar; ilk dəfə 500 ildən bəri yalnız türklərdən bir təzyiq, hətta təklif görməmişlər, dinlərini mühafizə etmişlər. Amma indi onlar türklərin dinini dəyişdirmək üçün təzyiq və işgəncəyə əl atırlar. Həqiqətən, bu da ibrətli bir hadisədir.

Bütün bunlardan sonra, 1895-ci ildə hiçaklar İstanbulda Babi-Ali nümayişini təşkil etdilər. 5000 erməni Babi-Aliyə toplanmış, bəzi qarşıdurmalar, vuruşmalar olmuş, lakin görülmüş tədbirlərlə hadisənin böyüməsinin qarşısı alınmışdı. Ancaq hər zaman olduğu kimi, bütün dünya qarşısında bu hadisəni başqa şəkildə göstərən müraciətlər edilmişdi.

Bu münasibətlə baş keşiş İzmirliyan bir avropalı jurnalistə, bütün vasitələrdən istifadə edərək, savaşacaqlarını, bundan bəzi məsul şəxslərin də zərər çəkə biləcəklərini, la-

kin bunun fərqinə varmayacaqlarını demişdi.

Yuxarıda qeyd etdiyimiz məşhur Zeytun üsyanı Babi-Ali nümayişindən sonra baş vermişdi.

Bu qeyri-insani və həqiqətən vəhşi hərəkətlərin əsas cavabdehi olan hiçaklar hadisələrdəki müvəffəqiyyətsizliklərindən sonra etibarlarını itirdilər. 1896-cı ildə aralarında baş vermiş anlaşılmazlıqlar nəticəsində Türkiyədəki fəaliyyətlərini davam etdirə bilmədilər. 1897-ci ildə ikiyə bölünmüş və qüvvələrini itirmişdilər. Bundan sonra bir-birilə mücadilə etməyə, bir-birini öldürməyə başlamışdılar.

Erməni komitələri başqa yerlərə nisbətən Vanda daha qüvvətli idilər. Hiçaklardan başqa daşnaklar və digər erməni cəmiyyətlərinin hamısının Vanda təşkilatları var idi. Bir il əvvəl hazırlanan üsyan iyunun 1-də alovlanmışdı.

Rus konsulu general Mayevski bu üsyan haqqında:

«Avropanın diqqətini cəlb etmək üçün törədilmiş bu hərəkatdan əvvəl komitəçilər bəzi ermənilərə qarşı da təcavüz etmiş, ruhani başçısı Poğos kilsəyə gedərkən öldürülmüşdü. İnqilabçılar haqqında heç bir zaman təqib tədbiri görülmədiyindən, bunların cürəti artmış, müsəlmanların da səbri tükənmişdi».

İngilis konsulu Uilyams:

«Bütün bu hallara sərsəm ermənilər səbəb oldular. Bu ağılsız təhrikdən özlərinə bir fayda olmayacağını dəfələrlə izah etdim.

Müsəlmanların səbrlərini son həddə qədər təhrik etdilər. Amma artıq ümidləri qalmadı. Qəzetlərdə erməni məsələsinə aid yazılanlar yalandır. Üsyan edən erməni başçıları arasında Amerika, Rusiya, Bolqarıstan təbəələri var. Cəmi 600 nəfərə qədərdirlər. Rus tüfənglərilə təchiz edilmişlər. Tamamilə günahsız öldürülən türklərə aid əlimdə sənədlər var. Türklər yalnız Anadoludakı müsəlmanları deyil, digər millətlərin də ən yaxşılarıdırlar. Rus və Avropa qəzetlərinin iftiralarına layiq deyildirlər.

İnqilabçıların təşviqi nəticəsində erməni gəncləri də ha-





disələrə qatılmışdı. Erməni müəssisələri ancaq hökumətin yardımı ilə zərərdən qorunmuşdur».

Lakin araya yenə də xarici konsullar girmiş, üsyançılar yenə də cəzalandırılmamışlar. Bu vəziyyət xalqın hökumətə olan etimadını sarsıdırdı. Hadisələrdən dərs alınmır, üsyan planı isə getdikcə genişləndirilirdi.

1886-cı ilin avqustunda Osmanlı bankına edilən basqın da məşhur hadisə oldu. Hiçak, Daşnak, ŞANT və Qurban komitələri birləşərək, bu hərəkatı planlaşdırmışdılar; təcrübələr edilmiş, 753 bomba hazırlanmışdı. Basqın böyük bir cürətlə, bombalarla edilmiş, çox insan tələf olmuş, lakin sonra yenə də xarici dövlətlərin araya girməsilə üsyançılar Marselə (Fransa) qaçırılmışlar.

İngiltərənin Səlahiyyətli səfirinə S.A.Parkerin verdiyi raportda üsyançılarla görüşdüyü, Osmanlı bankına basqının planın birinci hissəsi olub, daha sonra Babi-Ali, baş keşiş iqamətgahı (patrikxana), İstanbulun bəzi məhəllələrinə basqın ediləcəyi, hökumətin hadisədən əvvəl xəbərdar edildiyi üçün istənilən nəticənin alınmadığını, yenə bu sabotaj və üsyanlara davam ediləcəyini, onlara nəsihət edib bu hərəkətin ermənilərin qorxunc şəkildə qırğınına səbəb olacağını söylədiyi halda, onu dinləmədikləri, öldürülmüş türklərin cəsədlərinin qalaqlarının qorxunc və vəhşi bir mənzərə yaratdığı bildirilirdi.

1896-cı ildə padşahın erməni komitələrilə danışıq təşəbbüsü də heç bir müsbət nəticə verməmişdi. Çünki, onların planları xaricdə hazırlanır və icra əmri komitəçilər tərəfindən verilirdi. Məqsədləri barışmaq deyil, gərginlik yaratmaq idi.

Həmin illərdə erməni komitəçiləri kürdlərlə birləşib türklərə qarşı bərabər mücadilə etməyə çalışsalar da, buna müvəffəq olmamışlar. Bu istiqamətdə çalışanların başında Vartan Vartapet adlı bir keşiş ilə Hrayr və Kevork çavuş adlı banda üzvləri olmuşlar.

Bu təşəbbüs də xeyli ibrətlidir. Erməni məsələsinin əvvə-

lindən rusların məqsədi, ermənilərlə türk əsilli qəbilələrdən olan kürdləri vuruşdurmaq və hər ikisinə qarşı da günahkar kimi türkləri göstərmək idi. Belə olduqda, bir güllə ilə iki dovşan vurulacaqdı: həm dövlət zəifləyəcək, həm də ermənilər və kürd qəbilələrini bir-birinə qırdıracaq, əhalisinin artmasına, inkişafına mane olunacaqdı.

Bundan sonra daşnaklar Türkiyədə fəaliyyətlərini gücləndirmiş, silah və sursat toplamışlar. 1895-ci ildən sonra İrandan, Qafqazdan bir sıra bandalar və rus ordusunda qulluq etmiş ermənilər gizli şəkildə Türkiyəyə gəlməyə başlamışlar. Onlar 1897-ci ildə Sasun və Muş bölgələrində yerləşmişdilər. 1901-ci ildə bunlarla bəzi kiçik çarpışmalar olmuşdu. Bu zaman (1903) Rusiyada ermənilərə qarşı təzyiq siyasəti başlanmışdı. Rusiya konsulları Türkiyədəki ermənilərə fanatik millətçi olmazlarsa, heç bir kömək almayacaqlarını deyirdilər.

1904-cü ilin 13 aprelində Sasun üsyanı bu şərtlər əsasında başlanmışdı. Sasun, Muş və Vanda çarpışmalar olmuşdu.

Qafqaz və İran daşnakları insan, silah və sursatla Türkiyədəki bandalara kömək edirdilər. Qom, Zovasar, Apaqana, Qomer, Qurana, Samiram bölgələrində şiddətli vuruşmalar olmuş, iki tərəf də ağır itkilər vermişdi. Nəticədə qatil üsyançılar gəldikləri yerə qaçmış, ortada zavallı türk və erməni kəndliləri müsibətlərə düçar olmuşdular.

1904-cü ildə Sofiyada Daşnaksütyun konqresində İstanbul və İzmirdə fəaliyyətə keçmək qərara alınmışdı.

İzmirin bir çox rəsmi və xüsusi binalarında, banklarda təxribat üçün plan hazırlanmışdı.

İstanbulda toplanan bəzi anarxistlər də böyük hazırlıq görürdülər. Polyak kəndində təcrübələr aparırdılar.

Padşaha tapança ilə sui-qəsd təşəbbüsü onun Çırağan sarayına adi yolla deyil, sarayın bağçasından getməsi səbəbindən baş tutmamışdı.

Ondan sonra padşahın cümə səlamlığı mərasimi çox





dəqiq öyrənilmiş, vaxtı və məsafəsi təyin edilmişdi.

Xüsusi surətdə hazırlanmış bir faytonun içinə 120 kq, melinit və bunu partladacaq 1 dəqiqə 42 saniyə müddətli bir bomba qoyulmuşdu; bunun da təcrübəsi kağız fabrikində sınaqdan keçirilmişdi.

21 iyul 1905-ci il cümə günü, səlamlıq təntənəsindən sonra məscidin qarşısında bu bomba partladılmışdı. Lakin padşah məsciddən çıxdıqdan sonra, adətinin əksinə olaraq ayaqüstü şeyxülislamla bir qədər söhbət etmiş və bu səbəbdən bombanın partlaması ona zərər verməmişdi. Lakin çoxsaylı günahsız insanlar həlak olmuşdular.

Bu sui-qəsdi Xristofor Mikaslyan, Vram Şabuh Kəndiryan, belçikalı Erdar Joris və arvadı Silvio Riççi (Köse Aristidi), alman Lipa Rips, Artaş Xaçik, Kaptanyan, Konstantin Qəbulyan, Mari Zayi, Hambarsum Ağacanyan, Kris Fənərçiyan, Karlo Yuvanoviç və bir sıra yerli və xarici macərapərəst hazırlamış, lakin müvəffəq olmamışlar. İstanbul və İzmirdə aparılan bir çox təhqiqatlar vasitəsilə İzmir hadisələri də aşkara çıxarılmış, lakin nəticəsiz qalmışdır; mühakimənin sonunda sui-qəsdin əsas icraçısı Joris ölümə məhkum edilmiş, lakin padşah tərəfindən əfv edilmişdir (istefada olan polkovnik Hüsaməddin Ərtürk «İki dövrün pərdə arxası» əsərində bu sui-qəsdin 1897-ci ildə II Əbdülhəmiddən yəhudilər üçün Fələstində yurd istəyən və bundan ötrü milyonlarla qızıl pul təklif edən sionist təşkilatının qurucusu Teodor Herzl və Sultan tərəfindən qovulduqdan sonra İstanbuldakı hamambaşı, həmçinin erməni komitəçiləri ilə sionistlər tərəfindən edildiyini yazmışdır).

Bundan sonra, 1909-cu ilə qədər Türkiyədə böyük bir qarşıdurma olmamış, sadəcə Qafqazdakı türklərlə ermənilər arasında mücadilələr davam etmişdir.

1905-ci ilin fevralında Bakıda bir qarşıdurmada vuruşmalar dörd gün davam etmişdir. Həmin ilin may və avqust aylarında bu hadisə təkrar olunmuşdur.

Bundan əlavə, Qarabağda, Şuşa və Gəncədə də vuruş-

malar olmuş, azərbaycanlı evləri yandırılmışdır. Bu hadisələr zamanı yüzlərlə azərbaycanlı və erməni həlak olmuşdu.

1905-ci ilin noyabr ayında Tiflisdə, daha mütəşəkkil hazırlıqla ermənilər azərbaycanlılara basqın etmiş, lakin bu dəfə arzularına çatmamış və axırda sülhə razılaşmışdılar.

Türkiyədə isə bu illərdə vuruşmalar olmamış, ermənilər də digər azlıqlar kimi, «Gənc türklər»lə birləşib məşrutənin elan olunması üçün çalışmışlar. 1902 və 1907-ci illər konqresləri belə şəraitdə müştərək həyata keçirilmişdir.

1908-ci ildə İkinci məşrutənin elan olunması «Gənc türklər» və onlarla bərabər çalışmış azsaylı xalqların, o cümlədən ermənilərin də birgə fəaliyyətləri nəticəsində olmuşdu.

Məşrutənin bütün imperatorluq üçün yeni bir həyatın və inkişafın başlanğıcı olacağı düşünülürdü.

Bu böyük nailiyyəti qeyd etmək üçün Bəyoğlu erməni kilsəsində düzəldilmiş mərasimdə hiçak komitəsinin rəhbərlərindən Sabahgülyan bir nitq söyləmiş və «Osmanlı məşrutəsi elan edildiyindən, biz hiçaklar istiqamətimizi dəyişir, inqilabi fikirlərimizdən əl çəkir və fəaliyyətimizi məmləkətin inkişafına sərf edirik» demişdi. Daşnaklar da bütün qüvvələriylə məşrutəni müdafiə etməyə çalışacaqlarını, imperatorluğa bağlı bütün xalqların bir məqsədə doğru hərəkət etmələri üçün «Gənc türklər»lə birlikdə işləyəcəklərini deyirdilər.

Bu vəziyyətdən istifadə edərək illər boyu imperatorluqdan kənarda yaşamağa məcbur olmuş çoxsaylı müsəlmanlar, xristianlar Türkiyəyə qayıtmışdılar.

Bu zaman, 1896-cı il üsyanlarında ölənlərin xatirələrini yad etmək üçün qəbiristanlıqda toplaşanlar arasında çoxsaylı türklər də olmuş, keçən faciəli günlərin hadisələrində ölənlərin xatirəsinə nitqlər söyləmişlər.

Qüdsdən Türkiyəyə qayıdan keçmiş baş keşiş İzmirliyanı qarşılayanlar arasında türklər də olmuşlar.

Məşrutə məclisinə əvvəlcə adlarını yazdığımız bir çox erməni deputatları da gəlmişdilər. Bunlardan Ərzurum deputatı Qaragin Basdırmaçıyan Qafqaza gedərkən Batumda





ruslar tərəfindən həbs edilmişdi. Türkiyə hökuməti dərhal bu məsələyə müdaxilə edərək deputatını həbsdən azad etdirmişdi (sonradan bu adam, Birinci dünya müharibəsi dövründəki üsyanları idarə edən və türklərə qarşı ən böyük zülmlər edən bandalardan birinin rəisi olacaqdır).

Türkiyədə bu vəziyyət davam edərkən, Rusiyada ermənilərə qarşı şiddətli bir mücadilə başlanmışdı. Daşnaksütyun komitəsi bu xüsusda nəşr etdiyi bəyannamədə vəziyyətdən yanıqlı şəkildə şikayət edirdi:

«İllərdən bəri arası kəsilməyən erməni inqilablarına səhnə olan Qafqaz bu gün zülmkar despotun müdhiş qüvvəsi altında inildəməkdədir. Ermənilərin ən gözəl, seçilmiş nəsli iki ildir rus çarının həbsxanalarında əzab çəkib çürüyür...Müəllim, şair, tacir, sənətkar, məmur və işçi, komitəçi, adi vətəndaş hamısı həbsxanaların divarları arasında inildəyirlər».

Daşnaksütyunun baş idarəsindən bir nəfər də öz əsərində Rusiyadakı ermənilərin ağır vəziyyətini bildirdikdən sonra:

«Osmanlı dövlətinin həbsxanalarında siyasi məhbus yoxdur. Rusiyada isə elə bir həbsxana yoxdur ki, boş olsun. Qafqaz erməniləri həbsdən, işgəncədən, Sibirdən qurtulmaq üçün İstanbula, Osmanlı ölkəsinə pənah gətirirlər» demişdir.

Bu vəziyyət qarşısında yeni katalikos seçilən İzmirliyan Peterburqa çarın yanına gedərək, Qafqazda həbsxanalarda olan ermənilərin azad olunmasını xahiş etmişdi. Çar bunu vəd etməsinə baxmayaraq, vədinə əməl etməmişdi. Komitələr Qafqaz ermənilərinin Çar Rusiyasının zülmündən qurtarmaq üçün fəaliyyətə başladılar. Dünyanın bir çox yerlərində rus zülmünə qarşı nümayişlər keçirdilər.

Bu həqiqətlərə qarşı, Osmanlı imperatorluğunda məşrutənin elanı ilə əlaqədar bütün xalqların səmimi dolanmaları və dünyanın bu bölgəsində vəziyyətin düzəlməsi ehtimalı bu vəziyyətdən razı qalmayan xariciləri qorxutdu. Və hamısı birdən yenə də düşmənçilik təbliğatı, təhrik və təşviqat

fəaliyyətinə başladılar. Bunun nəticəsi də bir il sonra göründü. Bir il əvvəl Rusiyadakı erməniləri zülmdən qurtarmaq üçün çara qarşı mücadilə edən komitələr bir il sonra siyasətlərini dəyişdilər və çarın ağuşuna girib, yenə Osmanlı imperatorluğuna qarşı cəbhə yaratdılar.

1909-cu ilin mart ayının 27-də Adana üsyanı alovlandı.

Ermənilərin Kilikiya üzərindəki əməlləri və bu məqsədlə etdikləri çalışmalar öz folklorlarında şeirlərlə yazılı olaraq qalır.

Çar Rusiyası da Aralıq dənizində özləri üçün bir qapı əldə etmək üçün erməniləri təhrik edirdilər. Berlin konqresi ərəfəsində erməni mənşəli rus generalı Loris-Melikov, yepiskop Xorsi Narbəyə yazdığı bir məktubda:

«Qafqazda sizin üçün yer yoxdur. Siz aşağı (cənub) üçün çalışın» deyirdi.

Bu məqsəd ilə vaxtaşırı Kilikiyanın müxtəlif yerlərində, Adana, Maraş, Xaçın və Zeytunda erməni çoxluğu yaratmağa çalışsalar da, heç bir zaman buna müvəffəq olmamışlar. Yepiskop Muşeğ Qahirədə 1909-cu ildə erməncə «hər erməni evinə qeydiyyat aparmadan 5-6 ailə yerləşdirildiyini, təkcə 1903-09-cu illər arasında Adanada erməni əhalisi sayının 40 faiz artırıldığını, komitələrin bu bölgədə silahlanmağa böyük əhəmiyyət verdiklərini, şəxsən özünün və bir çox başqa ermənin kəndbəkənd gəzərək xalqı təhrik etdiklərini və bütün bu fəaliyyətlərini məşrutəni qorumaq məqsədilə etdiklərini» yazmışdır.

Amerikalı missioner Qrilman tərəfindən «Nyu-York Tayms» qəzetində 23 oktyabr 1909-cu ildə dərc edilmiş və erməni qəzeti «Qoşnak»da təkrar çap olunmuş bir yazıda:

«Adana və Mərsində sərsəri hisslərlə hərəkət edən bir sıra ermənin qədim xalq şərqiləri oxuyaraq gəzdikləri doğrudur. Təcrübəsiz və gənc yepiskop Muşeğin Adana düzənliyində kəndlərdə gəzərək ermənilərə az yemək yemələrini, geyim və əşyalarını satıb silah almalarını tövsiyə etdiyini, başına tac qoyaraq şəkil çəkdirdiyini və hər silah üçün





müəyyən məbləğ pul alaraq, Adana sahillərinə silah çıxartdığı da doğrudur. 200 silahlı ermənin müsəlmanları öldürməyə and içdikləri də doğrudur» göstərilmişdir.

Yepiskop Muşeğ vəziyyəti istədiyi hala gətirdikdən sonra, bir bəhanə ilə 4 martda Misirə getmiş və 27 mart 1909-cu ilin cümə günü ermənilər tərəfindən iki türkün öldürülməsi ilə Adana üsyanı başlamışdı.

Üsyan hərəkatı sürətlə genişlənmiş və əsgər yardımı gələncəyə qədər bir çox türk və erməni öldürülmüşdü. Əsgərlərin müdaxiləsi ancaq aprelin birində mümkün olmuş və bu üsyan üç günə yatırılsa da, sonrakı günlərdə də vuruşmalar olmuşdur.

Bundan sonra ermənilərin fəryadları yenə də bütün dünyaya səs salmışdır.

Onların iddiaları bu idi:

Adanalı türklər məşrutəni mühafizə etməyə çalışan erməniləri öldürmüş və Adananı, yəni onların məmləkətlərini yandırmış və dağıtmışlar.

Çox qəribə məntiqdir, deyilmi? (224a)

### 6.3. XIX əsrin axırı XX əsrin əvvəllərində Osmanlı Türkiyəsinə qarşı böyük dövlətlərin xarici siyasətində erməni məsələsi

**20 iyun 1890-cı il.** Ərzurum şəhərindəki kilsəyə və Sanasaryan məktəbinə çoxlu silah yığmış ermənilər asayişi bərqərar etməyə gəlmiş əsgərlərə atəş açmışlar. İki əsgər, bir zabit ağır yaralanmış, bir polis işçisi isə vəhşicəsinə öldürülmüşdür.

**15 iyul 1890-cı** il. İstanbuldakı Kumkapı kilsəsinə yığılmış erməni quldur dəstəsinin üzvləri patriarx (kilsənin başçısı) Aşıkyanın otağına girib, onu zorla kilsədən bayıra çıxarmış və faytona mindirib qaçmışlar. Hadisə yerinə tələsmiş əsgərlərlə quldurlar arasında atışma baş vermişdir. 16 əsgər

həlak olmuşdur.

**1893-cü il.** Yozqatda qiyam etmiş ermənilər qiyamda iştirak etməkdən imtina edən Boğazkaya kəndinin ermənilərini öldürmüşlər. Talas kəndinin sakini, aşpaz oğlu Dot və Mihran qiyamçılara qoşulmaq istəməyən zərgər Haçonu qətlə yetirmişlər. Erməni quldur dəstəsinin üzvü Toros Yavokyan və onun dörd həmkarı mədəndən Yozqata hərəkət edən poçt arabasının sürücüsünü və keşikçini öldürərək, 170 ədəd qızıl sikkə və xeyli pul ələ keçirmişlər.

**İyul 1894-cü il.** Qafqazlı Kirkor və Van şəhərinin sakini, keçmiş Vaprtanın başçılığı altında erməni quldur dəstəsi Osmanlı imperiyası ilə İran arasındakı sərhəddə yerləşən Hanazur yaşayış məntəqəsinə hücum etmişlər. Nəticədə Mazrik tayfasından çoxlu kişi, qadın və uşaq həlak olmuşlar.

**İyul 1894-cü il.** Hamparsum Boyacyanın başçılıq etdiyi erməni quldur dəstəsi Muş şəhərinin yaxınlığında yaşayan Bikrəm və Zadyan tayfalarına hücum etmişlər. Ömər Ağanın qardaşı oğlu Hacının qarnını yırtıb, tonqalda yandırmışlar. Cevizlidərə kəndində üç müsəlman ailəsinin qadın və qızlarını zorladıqdan sonra öldürmüşlər.Ermənilər, həmçinin qoşuluqda yaşayan tayfaların 30-dan çox üzvünə ölənədək işgəncə vermişlər.

**4 avqust 1894-cü il.** Tokatdan İstanbula hərəkət edən poçt arabası Köməç kəndi yaxınılığındakı körpünü keçərkən, Armanak Çakıcyan, Sərkis Kalostyan, Kasbar Kalostyan, Nişan Keşisiyan, Ovadis Bezirqanyan, Resler Sərkis və Leon Melkuryandan ibarət erməni quldur dəstəsinin hücumuna məruz qalmışdır. Quldurlar sürücü Mehmet Əfəndinin başını kəsərək və sümüklərini sındıraraq qətlə yetirmişlər.

**16 sentyabr 1895-ci il.** Zeytun kəndindəki (indiki Süleymanlı) qiyam zamanı 50 zabit, şəhərin komendantı və 600 əsgər ermənilər tərəfindən əsir alınmış və sonra erməni qadınlarının gözləri önündə qətlə yetirilmişlər.





**26 seyntyabr 1895-ci il.** İstanbuldan gəlmiş erməni quldurları Trabzon şəhərindəki Şərq Meydanında dinc əhaliyə atəş açmışlar. Nəticədə Rəhmi adlı əsgər və 21 nəfər mülki Türk vətəndaşı həlak olmuşdur.

**30 sentyabr 1895-ci il.** İstanbul kilsəsinə yığılmış erməni quldur dəstələrinin başçıları mindən çox erməni ilə birlikdə İstanbulun Babia - Ali adlanan hissəsinə doğru yürüşə başlamışlar. Yolüstü ermənilər jandarmeriya mayoru Sərvəti balta ilə doğrayaraq, vəhşicəsinə öldürmüşlər. Qatillər, həmçinin dinc əhaliyə atəş açaraq, onların çoxunu qətlə yetirmişlər.

**9 oktyabr 1895-ci il.** Erməni terrorçuları Ərzincan şəhərindəki bazar meydanında müsəlman ruhanini və onun ətrafına yığışmış bir neçə ibadətçini vəhşicəsinə öldürmüşlər.

**15 oktyabr 1895-ci il.** «Hnçak» adlı terrorçu dəstənin üzvləri Soğucak kəndinin yaxınlığında onlarla əməkdaşlıq etmək istəməyən erməni keşişi Passihi edam etmişlər.

**18 oktyabr 1895-ci il.** Evlərdə mövqe tutmuş ermənilər əsgərlərə atəş açaraq, onlardan 15-ni öldürmüşlər. Hınısda böyük hörmət sahibi olan Şeyx Haydar Əfəndi ermənilər tərəfindən parça-parça doğranaraq, vəhşicəsinə qətlə yetirilmişdir.

**20 oktyabr 1895-ci il.** Türk ordusunun 40-cı nizami polkunun leytenantı Kilisli Hasan Ağa və onun ailəsi Haçın kəndinin 15 kilometliyində yerləşən Alayçayı kəndində Fərənəz, Zeytun və Alabaş kəndlərindən gəlmiş silahı ermənilərin hücumuna məruz qalaraq öldürülmüşlər.

**21 oktyabr 1895-ci il** Ermənilər Korel kəndinə basqın edib, 57 ev yandırmışlar. Onlar, həmçinin Çapanoğlu Hüsnünü diri-diri yandırmış və Karabacak Osmanı öldürmüşlər. Daha sonra ermənilər türk kəndi Çukurhicara hücum edərək, 150 kişi, 40 qadın və 95 uşağı vəhşicəsinə öldürmüş, 180 ev yandırmışlar.

**6 Yanvar 1896-cı il.** Van şəhərində erməni keşişi Boqos bəzi qiyamçı ermənilərin haqsız əməllərinin qarşısını almaq

istədiyi zaman erməni quldurları tərəfindən öldürülmüşdür.

**12 may 1896-cı il.** Çatak şəhərinin yaxınlığında yaşayan Artuş tayfasının Giray şaxəsinin 4 üzvü ermənilər tərəfindən öldürülmüşdür. Meyitlər parça-parça doğranmış, ürəkləri və beyinləri isə çıxarlmışdır.

**14 avqust 1896-cı il.** «Hnçak» və «Daşnak» adlı erməni quldur dəstələrinə mənsub 23 erməni terrorçu İstanbuldakı «Osmanlı Bankı»nın binasını zəbt edərək, yandarmeriya rəisini vəhşicəsinə öldürmüşlər. Sonra isə bankdan atış açaraq, jandarmeriya leytenantı Mehmeti, serjant Hasanı, növbətçi İsmaili və Tinas adlı bir yunanı da öldürmüşlər, bu bankda işləyən iki fransız mühasibini isə yaralamışlar.

İstanbuldakı Aleppo bazarının yanından keçən əsgərlərə ermənilərin bomba atması nəticəsində bir əsgər və bir polis nəfəri həlak olmuş, 27 əsgər və 2 polis komissarı isə yaralanmışdır. Bu hadisə zamanı yaralanlar arasında 24 nəfər mülki şəxs də olmuşdur. Həmin gün Kasımpaşada erməni terrorçuları silahsız camaata hücum etmişlər. Nəticədə 23 türk həlak olmuş, 40 nəfər yaralanmışdır.

**Noyabr 1896-cı il.** Bazar günü Van şəhərində gecə saat 3.30-da erməni keşişi Der Komidar xəstəxanaya aparılmaq bəhansilə, evdən tənha küçəyə çıxarılmış və orada «Hnçak» quldur təşkilatının üzvləri tərəfindən öldürülmüşdür.

**21 iyul 1905-ci il.** «Daşnak»quldur dəstəsinin üzvləri Osmanlı İmperatoru İkinci Əbdülhəmidin karetini partlatmışlar. Nəticədə 26 nəfər ölmüş, 58 nəfər yaralanmışdır.

**9 aprel 1909-cu il.** Adana şəhərində erməni quldurları iki cavan və bir ahıl türkü öldürmüşlər. Daha sonra silahlı ermənilər dinc əhaliyə atəş açmış və 100-dən çox türkü qətlə yetirmişlər.

**Oktyabr 1909-cu il.** Adanada Kozan yepiskop Muşeqin başçılığı altında 200 nəfər silahlı erməni quluqçu Adananın bütün müsəlman əhalisini öldürməyə and içmişlər. (Vəliyev D. və b. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada. Hadisələr və faktların xronikası. Bakı, «Elm» nəşriyyatı, 1994. 181 səh.)





**21 fevral 1914-cü il.**Türkiyənin Qars və Ərdəhan şəhərlərində Türkiyə parlamentinin deputatı, "Qnçaq" təşkilatının üzvü Stepan Ter-Danielyanın rəhbərliyi ilə 30 minədək türk qətlə yetirilmiş, körpələr odda yandırılmışlar.

**Fevral 1915-ci il.** Haskayda Erməni çeteleriylə çarpışmada 200 Türk qətlə yetirilmişdir.

**Aprel 1915-ci il.** Vanda Köyere basqınında 120 türk öldürülmüşdür.

**1915-ci ildə** Vanda Bazı köy əhalisindən 150 nəfər qətlə yetirilmişdir.

**1915-ci ildə** Bitlisdə rus, erməni və kazak saldırısında 16000 türk qətlə yetirilmişdir.

**08 may 1915-ci ildə** Bitlisdə Hudud köylerinə təcavüz sırasında 40 minədək türk qətlə yetirilmişdir.

**09 may 1915-ci ildə** Bitlisdə Çeşitli köylerdə 123 türk qətlə yerilirmişdir.

**1915-ci ildə** Vanda Çeşitli köylerde 44 türk qətlə yetirilmişdir.

**Fevral 1915-ci il.** Rus qoşununun Van şəhərini tez zəbt etməsi nəticəsində ermənilər qiyam qaldırmış, türk kişilərinin cəbhədə olduğundan istifadə edərək, kəndlərə hücum edib qadın və uşaqları qırmışlar. Vanın Müsəlman məhəlləsini yandırmışlar.

**08 may 1916-cı ildə** Tercanda Köylere erməni saldırısında 563 türk qətlə yetirilmişdir.

**08 may 1916-cı ildə** Van və Tatvanda 1600 türk qətlə yetirilmişdir.

**22 may 1916-cı ildə** Köprüköy və Vanda 200 türk qətlə yetirilmişdir.

**22 may 1916-cı ildə** Vanda rus və ermənilər tərəfindən 15000 türk qətlə yetirilmişdir.

**22 may 1916-cı ildə** Vanda yeməkdən zəhərlənən 8000 müsəlmanlar ölmüşdür.

**22 may 1916-cı ildə** Vanda Hoşabda 80000 nəfər qətlə

yetirilmişdir.

**22 may 1916-ı ildə** Van, Ergel və Atyanda 15000 nəfər qətlə yetirilmişdir.

**23 may 1916-cı ildə** Ofda Təcavüz edilərək 5 qadın öldürülmüşdür.

**23 may 1916-cı ildə** Trabzonda Bazi köylede 2086 nəfər qətlə yetirilmişdir.

**23 may 1916-cı ildə** Vanda Seyl köyündə 300 Müsəlman öldürülmüşdür.

**11 may 1916-cı ildə** Van və köylerində 44233 nəfər qətlə yetirilmişdir

**11 may 1916-cı ildə** Malazgirtdə 20000 nəfər qətlə yetirilmişdir.

**1iyun 1916-cı ildə** Bitlis işğal sırasında 12 türk zülmlə öldürülmüşdür.

**01 aprel 1916-cı ildə** Van və Reşadiyedə Aşnak karyesində 15 türk vətəndaşı zülümlə öldürülmüşdür.

**06 iyun 1916-cı ildə** Van və Abbasağa köyündə 14 nəfər işgəncə ilə öldürülmüşdür.

**12 fevral 1918-ci il.** Türkiyənin Ərzurum şəhər dəmiryol stansiyasında erməni silahlıları 10 nəfər günahsız turkü güllələmişlər.

**17 fevral 1918-ci il.** Türkiyənin Tərəköy kənd sakinləri cinsindən və yaşından asılı olmayaraq, tamamilə Andronikin başçılığı ilə qılıncdan keçirilmişlər.

**20 fevral 1918-ci il.** Ərzurumda ermənilər 270 türkü Yakutiya qarnizonunun hamamına doldurub öldürmüşlər.

**25 fevral 1918-ci il.** Ərzurum dəmiryol stansiyasında erməni quldurları 10 türkü qətlə yetirmişlər.

**5 fevral 1919-cu il.** Saqqallı silahlı ermənilər Abbulluq kəndinə daxil olub, 25 uşağı, 15 qadını, 50 kişini vəhşicəsinə öldürmüş, Abdulyan kəndində isə 144 evi yandırıb, 560 kişini, 15 qadını, 25 uşağı, Gilanı-Turani kəndində 10 kişini, 1 qadını və 1 uşağı qətlə yetirərək yandırmışlar.

**6 fevral 1919-cu il.** Erməni quldurları Mehman kəndinə





hücum edib, 29 kişini, 10 qadını, 12 uşağı öldürmuş, 37 evi yandırmışlar.

**7 fevral 1919-cu il.** Kelantı kəndinə hücum edən erməni quldurları 15 kişini, 3 qadını və 5 uşağı qətlə yetirmiş, meyitləri təhqir etmişlər.

**8 fevral 1919-cu il.** Erməni başkəsənləri Qaramlı kəndində "Daşnaksütyun" təşkilatının rəhbərliyi ilə 15 uşaq və 36 qadını qətlə yetirmiş, 80 nəfəri diri-diri torpağa basdırmışlar.

**2 fevral 1920-ci il.** Türkiyənin Şuraqəl şəhərinə basqın edən erməni quldurları 1350 nəfəri qətlə yetirmişlər. Zaruşat şəhərində isə 2150 nəfər qətlə yetirilmiş, suda boğulmuşdur.

**6-7 fevral 1920-ci il.** Silahlı ermənilər qəfildən Qarğabazar kəndinə hücum edib 26 uşaq, 34 qadın, 13 kişini öldürmüş, 38 kişi və 15 qadını girov aparmış, evləri qarət edərək yandırmışlar. Gəncə qəzasının Şişqaya, Sadarağac və Hacı Qəriblər kəndləri talan edilmişdir. Dağlara qaçanların 30 nəfəri soyuqdan donub ölmüşdür. (286).

# VII FƏSİL

## I DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI VƏ ANTANTA DÖVLƏTLƏRİNİN TÜRKİYƏ SİYASƏTİNDƏ ERMƏNİ MƏSƏLƏSİ

### 7.1. Qafqazın işğalı

Birinci dünya müharibəsinin əvvəlində türk ordusunu dəyərincə qiymətləndirə bilmədiklərini müttəfiqlər Çanaqqala məğlubiyyətindən sonra dərk edə bilmişdilər. Müttəfiqlərin Rusiyaya kömək etməmələri nəticəsində təklənmiş Çar Rusiyasının çətin vəziyyətə düşməsinin və inqilabın (Oktyabr inqilabı) müvəffəqiyyətinin əsas səbəbi müttəfiqlərin Çanaqqaladakı məğlubiyyəti olmuşdur.

İnqilab nəticəsində Rusiyanın qərb cəbhəsində yerləşmiş ordusunda başlayan pozuculuq Qafqaz cəbhəsində də özünü göstərmiş, cəbhədəki rus qüvvələri tutduğu yerləri erməni və gürcü qüvvələrinin ixtiyarına buraxaraq, geri çəkilmişdilər.

Bu zaman erməni birliklərinin işğal etdikləri şəhər, qəsəbə və kəndlərdəki türk əhalisinə etdikləri zülm, törətdikləri qırğınlar və insanlıqdan kənar vəhşiliklər haqqında bu gün belə həyəcansız yaza bilmək, oxuya bilmək mümkün deyildir.

Tarixi məlumatlar ermənilərin onlara vəd edilən bölgədə müstəqil Ermənistan dövlətini qurmaq üçün bölgədəki müsəlmanları tamamilə məhv etmək məqsədini güddüklərini aşkar edir.

Rusiya (RSFSR, - redaksiyadan) Xalq Komissarları Soveti də 13 yanvar 1918-ci ildə Türkiyədə qurulacaq erməni dövləti haqqında qərar vermişdi.

Üç türk korpusu bu qərarın həyata keçirilməsinə mane olmaq üçün sürətlə hərəkətə keçmişdi. 13 fevral 1918-ci ildə,





Ərzincan azad edildiyi zaman türk əsgərləri dünya tarixində görünməmiş mənfur bir vəhşiliyin şahidi olmuşdular. Sağ qalmış çox az sayda türk qadın, uşaq və qocalarını yandırmaq üçün evlərə doldurmuş, lakin türk ordusunun qışa, qara, ermənilərin güclü müqavimətinə baxmayaraq sürətlə irəliləyərək şəhəri almaları üzündən, ermənilər bu vəhşiliyi həyata keçirməyə macal tapmayaraq qaçmışdılar.

Türk qüvvələri tərəfindən əsir götürülmüş ərzincanlı bir erməni Tiqran Papazyan: «3-5 gün də keçsəydi, komitələrin aldıqları göstərişə əsasən Ərzincanı tamamilə yandırıb, bütün müsəlmanları və əsir əsgərləri öldürəcəklərini, lakin buna vaxt tapmadıqlarını» soyuqqanlıqla etiraf etmişdi.

Papazyanın bu etirafı yalandır. Çünki komitəçilər bu istəklərini geniş miqyasda həyata keçirmişdilər.Türk ordusu Ərzincana girdiyi zaman sağ qalan türklərin sayı çox az idi.

Rus podpolkovniki Tverdoxlebov öz məlumatında:

«Ərzincandan Ərzuruma çəkilməkdə olan erməni bandaları yollardakı bütün müsəlman kəndlərini və sakinlərini məhv etmişlər...

Ermənilər Ərzincanın xariclə əlaqə imkanlarını bütünlüklə kəsmiş və bundan sonra böyük sayda əhalini evlərində yandırmışlar...

Digərləri kilsəyə doldurularaq yandırılmışdı. Bundan başqa, bombalarla yeni cümə məscidini və bələdiyyə binasını uçurtmuşlar. Ərzincan ərazisində ermənilər 500 müsəlmanı əl və ayaqlarını bağlayaraq öldürmüşlər» deyərək həqiqəti söyləmişdi.

**3 mart 1918-ci ildə** ruslarla bağlanmış Brest-Litovsk sazişinə əsasən, 1877-ci il müharibəsində zərərin ödənişi kimi Rusiyaya verilən şərq vilayətləri Türkiyəyə qaytarılacaq, hüdudlarda, bölgədə yaşayan xalqın arzusuna görə plebisit təyin ediləcəkdi. Lakin rus inqilabından sonra Qafqazda qurulan Federativ Qafqaz dövləti Brest-Litovsk sazişini qəbul etmədi, Osmanlı dövləti isə bu sazişə görə Qars-Ərdəhan və Batumun dərhal azad edilməsini tələb etdi.

Hər iki tərəfin nümayəndələri Trabzonda toplandılar. Türk ordusunun belə sürətli hərəkəti qarşısında general Andronikin komandanlığındakı erməni qüvvələri şərq bölgəsində yaşayan türk əhalisini öldürərək, plebisitdə onların çoxluq təşkil etməməsi üçün əllərindən gələni edirdilər.

Lakin türk ordusu da irəlilədikcə əllərinə keçən silah, sursat, qida və geyim ehtiyatlarından istifadə edərək hərəkəti daha da sürətləndirmiş və 11 martda İlıcanı, 22 martda Ərzurumu azad etmişdi. Sovet hökuməti Brest-Litovsk sazişini qəbul etmişdi.

Türk ordusunun hərbi əməliyyatları davam etmiş, 2 apreldə Batum, 3 apreldə Sarıqamış, 25 apreldə Qars azad edilmişdi. 15 mayda Gümrü azad edildikdən sonra ermənilər sülh müqaviləsi bağlayaraq, İrəvan və Eçmiədzinin türk qüvvələri tərəfindən işğalının qarşısını aldılar.

13 apreldə Federativ Qafqaz dövləti ruslardan ayrılmış, 27 aprel 1918-ci ildə Xalq Komissarları Soveti Lenin və Stalinin imzası ilə yeni bir qərar çıxararaq İstanbulun ruslara verilməsi və Türkiyədə Ermənistan dövlətinin qurulması haqqındakı saziş və qərarı qüvvədən düşmüş hesab etdiklərini bildirməklə, Rusiya müsəlmanlarını həmrəyliyə çağırmışdılar.

11 may 1918-ci ildə Osmanlı dövləti və Federativ Qafqaz dövləti nümayəndələri Batumda görüşdülər. Lakin bu dövləti təşkil edən millətlərin bir-birilə yaxınlıqları mümkün deyildi. Belə ki, 26 mayda Gürcüstan, 28 mayda Azərbaycan və Ermənistan müstəqilliklərini elan edərək, demokratik cümhuriyyət oldular.

Ermənilərə Göyçə gölü ətrafında 10.000 km $^{2}$–lik ərazi verilməsi şərtilə, 3 iyun 1918-ci ildə Batum müqaviləsi imzalandı.

Bundan sonra Qafqazı işğal edən ingilis qüvvələrilə müharibə başlamışdı. Türk qüvvələri 12 iyunda Xoy, 31 iyulda Urmiyə, 18 avqustda Təbriz və 15 sentyabrda Bakını azad etmişdi.





Lakin müharibənin əleyhimizə olan başlıca səbəbləri və müttəfiqlərimizin sülh tələbi qarşısında 30 oktyabr 1918-ci ildə Mudros sülh müqaviləsi imzalanmışdı.

Bu sülh müqaviləsinin tələblərinə əsasən türk ordusuna əvvəlcə İranı, daha sonra Qafqazı tərk etməsi və 1914-cü il sərhədlərinə çəkilməsi əmri verilmişdi.

## 7.2. Mudros sülhü dövrü

Əvvəlki söhbətlərimizdə Birinci dünya müharibəsi dövründə türk-erməni münasibətləri, üsyanlar, köçürmə qanunu və bunların nəticəsi haqqında qısa məlumat verməyə çalışdıq. İndi də bu müharibənin sonunda Mudros sülh müqaviləsi ilə başlayan siyasi və hərbi şərtlər altında keçən türk-erməni münasibətləri haqqında qısa məlumat verməyə çalışacağıq.

30 oktyabr 1918-ci ildə bağlanmış Mudros sülh müqaviləsinə görə türk ordusu cənub-qərbi İranı və Qafqazı tərk etdiyi zaman, artıq Qafqazda müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətləri mövcud idi. Ayrıca Batum, Ahısxa, Ərdəhan bölgəsində də Acar Şura hökuməti qurulmuşdu.

Türk ordusunun 1914-cü il sərhədlərinə çəkilməsi vaxtı gözlənilən erməni hücum və vəhşiliklərinə qarşı mal və canlarını qorumaq zəruriyyətində qalan müsəlman və türk çoxluğunun yaşadığı yerlərdəki xalq dərhal ayrı-ayrı ərazi şura idarələri qurdular. Bunlardan ən əhəmiyyətliləri: mərkəzi Qarsda olan Şimali-Qərbi Qafqaz Müvəqqəti Hökuməti ilə Naxçıvan Şura hökuməti idi. Türk ordusu bu yerləri tərk etdikcə, ermənilər Gümrü və Eçmiədzin bölgələrini, Arpaçayı, Arazboyu əraziləri və İqdır bölgəsini sərhədlərimizə yaxın yerlərinə qədər işğal etdilər.

1914-1918-ci illərdə Birinci dünya müharibəsindən müttəfiqlərilə birlikdə məğlub çıxan Osmanlı imperatorluğunun

parçalanması və bölüşdürülməsi Antanta dövlətləri arasında müharibənin qurtarması zamanı qərara alınmış, qanuniləşdirilməsi isə Parisdə toplanan Sülh konfransının öhdəsinə buraxılmışdı.

Antanta orduları sıralarında türk ordusuna qarşı vuruşduqlarını və qan tökdüklərini iddia edən ermənilər, Osmanlı imperatorluğunun mirasından pay almaq və «Böyük Ermənistan» qurmaq arzusu ilə Paris Sülh konfransında rəsmən iştirak etdilər.

Ən əvvəl 26 fevral 1919-cu ildə milli erməni heyətinin başçısı Poğos Nubar, ondan sonra da Ermənistan Cümhuriyyətinin naziri A.Aharunyan ermənilərin tələblərini irəli sürdülər. Bu, Qafqazdan Aralıq dənizinə qədər uzanan, Anadolunun yarısı qədər bir ərazidə «Böyük Ermənistan» qurmaq arzusundan irəli gələn tələb idi.

Eçmiədzin katolikosluğu tərəfindən Antanta dövlətləri yanında vəkil edilmiş Poğos Nubar 26 fevral 1919-cu ildə yekun olaraq bunları demişdi: «...erməni könüllülərinin fransız qüvvələrinin yarısını təşkil etdiyinin, Qafqazda Rusiya imperatorluğu ordusunda 150.000 erməni olduğunun və 40.000 erməni könüllülərinin Nazarbekov komitəsində erməni vilayətlərinin qurtulmasında iştirak etdiklərinin... Türk ordusuna qarşı vuruşaraq, 6 vilayətin, Kilikiyanın və Maraş sancağının türk boyunduruğundan azad edilib Antantanın himayəsinə verdiklərinin...müqabilində müstəqil Ermənistan qurulmasını istəyirik».

Belə iddialarla Ermənistan Cümhuriyyətinin naziri də çıxış edərək bayağı tələblər irəli sürmüş, buna əlavə olaraq da, erməni Patriarxiyası da Paris konfransına bir memorandumla müraciət edərək, erməni əhalisinin sayı haqqında uydurma məlumat vermiş, 1882-ci ildə Türkiyədə 2.600.000 erməninin mövcud olduğunu, 1912-ci ildə isə bu rəqəmin 2.100.000 qədər azaldığını söyləmişdi.

Tamamilə uydurma olan bu rəqəmlərə və iddialara qarşı Osmanlı hökumətinin də öz mövqeyi və dəlilləri var idi.





1919-cu ilin 12 fevralında baş nazir Tevfik paşanın böyük dövlətlərə verdiyi notada deyilirdi:

«Bəzi erməni dairələrində irəli sürülən və Qafqazdan Kilikiyaya qədər uzanan Böyük Ermənistanın qurulması ağlasığmaz və qeyri-mümkün bir xəyaldır.

Bu ərazidə yaşayan 5 milyondan çox müsəlmanı bir neçə yüz min ermənininin ixtiyarına tabe etmək gələcəkdə qarışıqlıqlara, çarpışmalara səbəb olacaqdır...Rus komandanlığının məlumatlarının isbat etdiyi həqiqətlərə istinad edərək, köçürmədən əvvəl rus ordusu şərq vilayətlərini istila etdikdən sonra erməni bandaları həmin ərazidə yaşayan müsəlmanlardan 1.000.000-dan çoxunu vəhşicəsinə öldürmüşlər.

Bütün məmləkət rus orduları və xüsusilə erməni bandaları tərəfindən son dərəcə əzab-əziyyətə düçar olmuşlar və bu gün uçurulub yandırılmamış və talana məruz qalmamış bir qəsəbə və kənd qalmayıb. Erməni hissələri Qafqazda işğal etdikləri yerlərdə müsəlmanlara qarşı bu çirkin hərəkətlərini davam etdirməkdədirlər.

Əhalisinin əksəriyyəti müsəlman olan vilayətlərdə Osmanlı idarəsi altında suveren və azlıq haqlarının saxlanılması və müdafiəsi təmin olunacaqdır. Bu təqdirdə vilayətin əhalisindən olan bütün müsəlman və ermənilər yenidən oralarda yerləşə biləcəklər.

Qafqaz Ermənistan Cümhuriyyətinin genişləndirilməsi ancaq Türkiyədən Qafqaz torpaqlarına qaçmış və Osmanlı hökuməti tərəfindən Birinci dünya müharibəsinin əvvəlində Zor sancağına köçürdülmüş ermənilərin yerləşib-yaşayacaqları qədər olmalıdır. Bu təqdirdə Ermənistan Cümhuriyyətinin köhnə və yeni torpaqlarında yaşayan müsəlmanlar Osmanlı hökumətinin səlahiyyəti altındakı torpaqlara yerləşdiriləcəklər. Osmanlı hökuməti bu iki təklifdən ikincisini məqsədəuyğun hesab edir».

Lakin Osmanlı hökumətinin təklifi qəbul olunmamış və sülh sazişi bağlanmamışdı.

Çünki, əsas məqsəd Türkiyəni parçalamaq idi. İngiltərə

və Fransa başqa müsəlman millətlərinə örnək olacaq bir Türkiyəni görmək istəmirdilər. Qurmaq istədikləri planla bu məqsədlərini həyata keçirməyə çalışırdılar. Ancaq bunun üçün əlverişli imkanlar əldə edə bilmədilər. Ermənilər tərəfindən edilən müraciətləri tədqiq etmək üçün İngiltərə, Fransa və Yunanıstan nümayəndələri toplandılar. Erməni nümayəndələri Poğos Nübar, Aharunyan və keşiş Zaven də bu məclisdə iştirak edirdilər.

İngilislər ermənilərin istəklərini müdafiə etməklə yanaşı, türk torpaqlarından onlara veriləcək yerləri kiçildərək belə bir qərar qəbul etmişdilər:

Van vilayəti (Hakkari istisna olmaqla), Bitlis vilayəti (Siirt istisna olmaqla), Diyarbəkir vilayəti (Palu istisna olmaqla) və Ərzurum vilayəti (Ərzincan istisna olmaqla) ilə dənizdən çıxış yolu kimi Trabzon vilayətinin Rizə sancağı.

İstisna kimi göstərilən torpaqlarda da ayrıca bir «Kürdüstan dövləti» qurmaq arzusunu güdürdülər. Bununla belə bu qərar erməniləri razı salmamışdı. Belə ki, İrəvanda toplanan Erməni Milli Şurası İngiltərəyə qarşı çox sərt bir tənqidlə çıxış etmişdi.

Beləliklə, Şərqi Anadoluda bir Ermənistan qurulması və onun sərhədləri məsələsi bu yığıncaqda həll edilmədikdə, bu işin həlli ABŞ-ın o zamankı prezidenti Vilsona həvalə olundu.

Prezident Vilson Ermənistan üçün daha böyük ərazi ayrılmasını layihələşdirsə də, bu iş baş tutmamışdı. Çünki Amerika generalı Harburtun başçılıq etdiyi heyət 1919-cu ilin sentyabr və oktyabr aylarında bütün Şərqi Anadolunu gəzmiş, lakin heç bir yerdə ermənilərin toplum halında yaşadıqlarına təsadüf etməmişdi.

Ermənilərin o zamana qədər bəhanə etdikləri qırğınlardan da heç bir iz yox idi. Əksinə, ermənilər İrəvan və Qars bölgələrində yenidən geniş qətllər və köçürtmə fəaliyyətinə başlamışdılar. General Harburt Ərzurumda apardığı yoxlamalar zamanı ermənilərin şəhərin ancaq onda biri qədər kiçik bir məhəlləsində yaşadıqlarından və ona müvafiq kiçik bir qəbiristanlıqdan başqa erməni iddiasına haqq verəcək bir izlə rastlaşmamışdı.





Ərzurumda Ərzurum və erməni tarixi haqqında verilən izahatı dinləyən general Harburtun heyətini bələdiyyə rəisi Zakir bəy pəncərə qarşısına çağıraraq iki böyük məzarlıqlar (Gəz və Kavak) göstərərək:

- «Bunlar türk qəbiristanlıqlarıdır, şəhərin başqa yerlərində bunlardan on qat çox türk qəbiristanlıqları da var. İndi yaxşı baxın. Orada ətrafı hasarlanmış kiçik bir qəbiristanlıq var. O, erməni qəbiristanlığıdır. İndi ermənilərinmi, türklərinmi çox qırıldığı sizə aydın oldumu?

Ermənilər öz ölülərini yemədilər ki» demişdi.

General Harburt həm aldığı cavab, həm də getdiyi yerlərdə gördüyü həqiqətlər çərçivəsində Amerika senatına verdiyi 16.10.1919-cu il tarixli məlumatında gördüklərini və daha əvvəl türklər əleyhinə verilən məlumatları aydınlaşdırdıqdan sonra: «Qara dənizdən İrana qədər ərazini gəzdik. Lakin erməni məlumatlarını təsdiq edəcək heç bir şey tapmadıq» demişdi.

Bu səbəbdən də Amerika daha ermənilərə mandat verməyi imkansız hesab etmişdi. İstər London, istərsə prezident Vilson tərəfindən aparılmış tədqiqatlar və verilmiş qərarları nəzərə almadan Qərbin dövlət nümayəndələri ermənilərin təbliğatı və Avropa qəzetlərinin bəzi əsassız yazılarına istinad edərək, qərar verə bilməyəcəklərini göstərmişdilər.

Bundan əvvəl də bildirdiyimiz kimi, türklər bu torpaqların heç birisini ermənilərdən almamışdılar. Üstəlik, türklər bu torpaqları aldıqları zaman, dağınıq, parçalanmış, müxtəlif dövlətlər və bəyliklərin itaətində müşkül vəziyyətdə olan erməniləri onların zülmündən qurtarmış və 600 il rahat və əmin-amanlıq içərisində inkişaf etməyə şərait yaratmışdılar. Heç bir yerdə və heç bir zaman erməni əhalisi əksəriyyət təşkil etməmişdir. Qeyd etdiyimiz kimi, dava Türkiyənin

parçalanması davası idi.

Ermənilərin Kilikiya haqqındakı istəklərinə qarşı Fransa nümayəndələri İskəndərun və Kilikiya ilə bağlı Fransanın tarixi rol oynadığını göstərmiş və onun bu hüququnun tanınmasını tələb etmişdilər. Bununla yanaşı onlar erməniləri əzizləməkdən də geri qalmırdılar.

6 iyul 1920-ci ildə Osmanlı hökumətinə Fransa baş naziri və xarici işlər naziri A.Milyeran cavab olaraq bunları demişdi:

«Müttəfiqlər Türkiyənin başqa millətlər üzərində hegemonluğuna artıq son qoymağı qərara almışlar... Son 20 ildə ermənilər eşidilməmiş vəhşiliklərlə öldürülmüşlər... ağlasığmaz 800 min kişi, qadın, uşaq öldürülmüş və 200 min yunan və erməni vətənlərindən sürgün edilmişlər. Bu səbəbdən müttəfiq dövlətlər türk çoxluğu olmayan əraziləri türk nəzarətindən qurtarmağı qərara almışlar...»

Fransızın dediyi 800 min ermənінin öldürülməsi faktı eynilə Osmanlı sədrəzəmi (baş nazir) damad Fərid paşanın heç bir faktla əsaslandırılmamış, yalnız əvvəlki hökumətə qara yaxmaq məqsədi ilə Osmanlı Böyük Məclisində etdiyi rəsmi məlumata əsaslanır və Osmanlı baş nazirinin bu məlumatı indi Fransa baş naziri tərəfindən sənəd kimi istifadə olunurdu.

Bir türk baş naziri ki, özündən əvvəlki iqtidarı pisləmək üçün ermənilərin və onları müdafiə edən xaricilərin göstərdikləri rəqəmdən daha artıq ermənінin öldürüldüyünü deməkdən çəkinməmiş və düşmən dəyirmanına su tökdüyünü düşünməmişdir...

...Damad Fərid paşa istiqlal müharibəsi dövründə bundan da böyük səhvlər etmiş və nəhayət məmləkətə xəyanət dərəcəsinə çatmışdır.

Bu dövrdə bir tərəfdən müzakirələr davam edərkən, digər tərəfdən şərq hüdudlarında ermənilər toplanaraq güc yığır və vaxtaşırı türk kəndlərinə basqınlar edirdilər.

Bu əsnada da müttəfiqlərin yardımı ilə yunan ordusu





İzmirə çıxarılmışdı. Qafqazda qurulmuş erməni dövləti isə bolşevik ordularına qarşı döyüşən Denikin ordusuna tərəfdar çıxır və yeni qurulmuş bolşevik Rusiyasına qarşı bir cəbhə açmış kimi görünürdü.

Lakin müstəqil erməni dövlətinin ən zəif cəhəti işğal etdiyi bölgədə, hətta İrəvanda azlıq təşkil etməsi idi. Çar Rusiyasının 1914-cü il statistikasına görə, Qarsda əhalinin yalnız yüzdə iyirmi beşini ermənilər təşkil edirdilər. İrəvanda da eyni ilə yüzdə iyirmi beşini ermənilər, yüzdə altmış altısını müsəlmanlar təşkil edirdilər. Naxçıvanda isə türk-müsəlman əhalisinin sayı yüzdə səksən ikini təşkil edirdi. Qars, Ərdəhan və Batum sancaqlarında 1918-ci ilin iyul ayında keçirilmiş plebisitdə 28.000 xristian, 300.000 türk-müsəlman iştirak etmişdi.

Gümrü, İrəvan və Göycə gölündən şərqdəki bölgədə ermənilərin sıxlığını saxlamaq yalnız sonradan Türkiyədən köçən 200 minə qədər ermənінin oradan qovulmuş müsəlmanların yaşadıqları kəndlərə yerləşdirilməsi sayəsində mümkün olmuşdu. Təbiidir ki, bu vəziyyətin qarşısında daşnakların bütün səyləri bu bölgədə erməni sıxlığını saxlamaq üçün müsəlman qırğınını davam etdirməkdən ibarət olmuşdu.

Mudros sülhü, Londonun və Vilsonun qərarları ermənilərə verilməsi nəzərdə tutulan Şərqi Anadolu vilayətlərində əksəriyyəti təşkil edən türklərin güclü narazılığı ilə qarşılanmışdı. Türklərin işğal etmiş olduğu vilayətləri tərk edib 1914-cü il sərhədlərinə çəkilmələrindən sonra, ingilislər Qars və onun ətrafını ermənilərə təslim etmişdilər.

Bununla yanaşı, Ərzurumda müttəfiqlərin hökumətlərini məlumatla təmin edən ingilis podpolkovniki Roulinson 15-ci korpusun silahlarını sülh qanunlarına əsasən toplamağa çalışırdı.

Bu ikitərəfli çalışmalar bir gün ermənilərin ingilislər tərəfindən Ərzuruma da gətiriləcəyi ehtimalını yaratmışdı. Erməni istilasının nə demək olduğunu çox acı bir şəkildə

yaşamış xalq, bir də belə bir istilaya məruz qalmamaq üçün mücadilədən başqa çarə olmadığını anlamışdı. Bu düşüncə tərzi, məmləkəti ermənilərdən qorumaq üçün dəyərli bir mənəvi qüvvə mənbəyi olmuşdu.

Ermənilərə kömək etmək istəyən ingilislər müttəfiqlərin göstərişlərinə əsaslanaraq, türk ordusunun əlindəki silahları, sursat anbarlarını və topların çaxmaqlarını yığıb Qafqaza aparmağa başlamışdılar. Xalq buna mane olmaq üçün əsgərlərlə birlikdə qatarlara hücum edib yığılmış silahları geri alaraq dağlara aparmışlar. Daha sonra bu silahlar ordunun və xalqın silahlandırılması üçün istifadə edilmişdir.

İngilis podpolkovniki Roulinson bu barədə Kazım Qarabəkir paşaya yazdığı sərt bir etiraz məktubuna lazımi şəkildə cavab almışdı. Silahlar isə ingilislərə qaytarılmamışdı.

Vəziyyətin getdikcə daha da pisləşdiyini görən ingilislər, bu zaman kürdlərlə əlaqəyə girib, ermənilərdən başqa türklərə qarşı yeni bir qüvvə də çıxarmaq istəmişdilər, lakin rus-erməni istilasının nə olduğunu əvvəlcədən görmüş kürd bəyləri və qəbilələri buna razılıq verməyərək türklərlə birlikdə mübarizə etmək qərarına gəlmişdilər.

Bu zaman bütün Anadoluda mili şüur və işğala qarşı müqavimət arzusu canlanmış, Birinci dünya müharibəsi zamanı döyüş qabiliyyətini, silah və sursatını itirmiş, dağılmış kiçik türk ordusu hər gün İstanbuldan və başqa yerlərdən Ankarada toplanan qüvvətli bir zabitlər bölüyünün bacarığı sayəsində qısa zamanda təşkilati bir hala gətirilmişdi.

15 korpus komandanlığı 15 iyun 1920-ci ildən etibarən Şərq cəbhəsi komandanlığı adını almış və hücuma hazırlanmışdı. Lakin bu zaman Rusiya Sovet Cümhuriyyəti xarici işlər komissarı Çiçerinin imzası ilə Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal paşaya yazılmış bir məktub bu hücumun bir müddət təxirə salınmasına səbəb olmuşdu.

Sovet hökuməti bu məktub ilə «türklərə iş birliyi, silah və pul ilə kömək edəcəklərini və Türkiyə sərhədləri məsələsinin Türkiyənin istədiyi şəkildə, sülh yolu ilə həllinin mümkün olduğunu» bildirərək, hücumun bir müddət gecikdirilməsini xahiş etmişdi. Vəziyyət Nazirlər Şurasında müzakirə edilmiş və ruslarla keçiriləcək görüşlərə qədər hücumun təxirə salınması qərara alınmışdı.





Bu dövrdə Qafqazda böyük hadisələr baş verirdi. Bir tərəfdən ingilislər ayrı-ayrı yerləri işğal edir, digər tərəfdən də bolşevik rus hərbi hissələri Qafqazda qurulmuş dövlətləri bir-bir öz hakimiyyətləri altına alırdı. Bu zaman Sovet hökuməti Gürcüstan və Ermənistanla sülh danışığı və dostluq müqaviləsi bağlamaq üçün fəaliyyətə başlamışdı.

İngilislərə gəlincə, onlar gürcü və erməni silahlı qüvvələrinin köməyilə rus bolşeviklərinin Qafqazı zəbt etmələrinin qarşısını ala bilməyəcəklərini anlayaraq, geri çəkilmək məcburiyyətində qalmışdılar.

Ermənilər isə bir tərəfdən bolşeviklər, digər tərəfdən də bölgədəki türk qüvvələri, xüsusilə türk əhalisi ilə daim döyüş vəziyyətində idilər.

Bu zaman Ankara hökuməti Moskva ilə təmasa girərək Şərq cəbhəsində vəziyyəti düzəltmək istəyirdi. Bunun üçün bir türk nümayəndə heyəti Moskvaya getmişdi.

Türklərdən əvvəl Moskvaya erməni nümayəndə heyəti də üz tutmuş və ruslarla onların arasında müqavilə imzalanmışdı.

Moskvada türk nümayəndə heyəti ilə aparılan danışıqlarda ruslar Muş və Bitlis vilayətlərinin ermənilərə verilməsini təklif etmişdilər, lakin Böyük Millət Məclisi hökuməti bu təklifi qəbul etməyərək Şərq cəbhəsi rəhbərliyindən cəbhədəki vəziyyət haqqında məlumat verməsini tələb etmişdi.

13 sentyabr 1920-ci ildə Oltu bölgəsindəki ermənilər türk qüvvələrinə hücum etmişdilər. Bütün bu hadisələrlə əlaqədar, Böyük Millət Məclisi hökumətinin 20 sentyabr 1920-ci il tarixli qərarı əsasında Şərq cəbhəsində bütün sərhəd boyu hücuma keçmək və erməni məsələsini birdəfəlik həll etmək qərarı verilmişdi.

Mudros müqaviləsinin müddəalarına görə, işğal edilmiş cənub və cənub-şərq Anadolu bölgəsi də qısa bir zamanda ehtirasların qızışdığı yerə çevrilmişdi. Türk, ərəb, kürd, çərkəz, erməni, suriyalı, kəldani və bir qədər də avropalının yaşadıqları bu bölgədə, böyük bir əksəriyyəti təşkil edən türklərin haqları və səlahiyyətləri əllərindən alındığından, digər xalqların hər biri ayrı-ayrı təmənnalar, istəklər arzusunda idilər. Bir türk vətəni olan bu bölgə, sanki, silaha söykənən bir hüquqi qayda-qanunun yaradılmasını istəyirdi.

Bu hadisələrlə əlaqədar Amerikadan Adanaya müxtəlif din, dil və irqlərə mənsub xalqların nümayəndələrini toplayaraq Adananın idarəsi haqqında onların fikirlərini öyrənmək üçün nümayəndə heyəti göndərilmişdi. Bu sorğudan belə bir nəticə alınmışdı:

1. Türk nümayəndələri Adananın Türkiyə Cümhuriyyətində saxlanmasını istədilər.

2. Ortodoks və katolik ermənilər Fransa himayəsində bir Ermənistan qurulmasını tələb etdilər.

3. Ərəblər Kilikiyanın Fransa himayəsində Suriyaya birləşdirilməsi təklifini irəli sürdülərsə də, komissiya başçısı:

- Suriyalılar Fransanı istəmirlər, bu halda nə edəcəksiniz? dedikdə,

Ərəblər Kilikiyada erməni hakimiyyətinə razı olmadıqlarını bildirdilər.

4. Pravoslav yunanlar və latınlar (Türkiyədə yaşayan katolik yunanlar özlərini belə adlandırırlar) Fransa hegemonluğunu istədilər.

5. Livanlı katoliklər Suriyaya və kəldanilər Fransaya üstünlük verirdilər.

Komissiya Kilikiya və Ermənistan üzərində amerikalıların imtiyaz haqqının tanınmasını qərarlaşdırdı. Lakin prezident Vilsonun və Amerika bankirlərinin razılığına baxmayaraq, Amerika Konqresi bu təklifi rədd etdi.

Bu bölgədə müsəlmanlar əhalinin 70 faizini, ermənilər 20 faizini, yunanlar və digər ünsürlər 6-7 faizini təşkil edirdi.





Bu vəziyyətə görə bir plebisit aparılsaydı, türk idarəsini istəyənlərin üstün gələcəyi şübhəsiz idi. Lakin buna heç lüzum yox idi. Türk millətinin əlindən zorla alınmış vətənin ayrılmaz bir hissəsinin gələcəyi haqqında qərar verməyə heç bir millətin, dövlətin haqqı ola bilməz.

Fransızlar Suriya və Adana bölgələrini işğal etdikdən sonra, Adanakı türk qüvvələri tərəfindən çox ağır vəziyyətə salınmışdılar. Maraşda və Urfada məğlub olan fransızlar buralardan geri çəkilmək məcburiyyətində qalmışdılar. Antepdə çox ciddi müqavimətə rast gəldilər. Toroslar və Adana düzənliyində Qüvvəyi Milliyyənin hücumları fransızları ağır itkilərə uğratmış və Pozantıda əhatəyə alınmış fransız batalyonu bütünlüklə əsir alınmışdı.

Əsasən Birinci dünya müharibəsinin ən ağır yükünü daşımış və müharibədən usanmış fransız xalqı müharibəyə zidd əhvali-ruhiyyəyə düşmüşdü.

Fransızlar ingilisləri öz məqsədlərinə müvafiq vəziyyət almalarına məcbur etmək üçün yenicə yaradılmış Türkiyə Millət Məclisi Hökuməti ilə təmas və görüşmənin gərəkliyini anlamışdılar.

Bu səbəbdən fransızlar 1920-ci ilin may ayının əvvəllərində Türkiyə Milli Hökuməti ilə görüş və danışıqlar üçün yollar axtarmağa başladılar. Əvvəlcə Ankaraya İstanbuldan bir mayor ilə bir mülki məmur gəldi. Bunlara köhnə Van millət vəkili Heydər bəy də qoşulmuşdu. Bu görüşlərdə əsaslı bir nəticə əldə edilmədi. May ayının sonlarında general Quro adından fransız heyəti Ankaraya gəldi və iyirmi günlük bir danışıqlar aparıldı. Danışıqlar zamanı döyüş hazırlıqları davam etdirilirdi. Suriyanın sahil hissələri ilə Adana bölgəsi və Anadolunun cənubunu işğal etmiş fransızlar hələ Suriyanın işğalını başa çatdırmamışdılar. Şamda Feysəlin idarəsi altında müstəqil bir Suriya krallığı var idi. Hələb, Həma, Homs kimi şəhərlər də bu hökumətin idarəsi altında idilər. Sonradan fransızlar Suriyanı tamamilə işğal etmiş və kral Feysəl Avropaya qaçmışdı.

Danışıqlar zamanı fransızların Adana bölgəsində güddükləri məqsədlər:

İstanbul hökumətinə namizədliklərini qəbul etdirdikləri vali və məmurlar vasitəsi ilə xalq milli hərəkatını dayandırmaq, ermənilərlə birlikdə xalqı əsarət altında saxlamaq, işgəncələrin tətbiqinə icazə vermək, işğal olunmuş yerlərin əhalisindən onların fransız idarəsini istədiklərinə dair razılıq almaq, əsir aldıqları türkləri padşah və ya xəlifəyə düşmən kimi qələmə verib bir çoxlarını edam etdirmək.

Bu əsnada milli qüvvələr də təşkilatlanmanı başa çatdırmaq üzrə idilər.

## 7.3. Türk istiqlal müharibəsində Türk-Erməni münasibətləri

28 sentyabr 1920-ci ildə səhər bütün cəbhə boyunca hücuma başlayan və sürətlə irəliləyən türk qüvvələri qarşısında ermənilər yenə köhnə taktikalarına əl ataraq, bütün dünyaya türklərin erməniləri yenidən məhv etmək məqsədilə hücuma keçdiklərini yayıb, fəryada başlamışdılar.

Hücum başlanmışdı. Hərəkətin durmadan davam etdirilməsi haqqındakı Şərq cəbhəsi komandanlığının təklifini Türkiyə Böyük Millət Məclisi qəbul etmişdi.

Qars qalası həm öz təbii quruluşu, həm də ruslar tərəfindən tikilmiş çox güclü müdafiə istehkamı olduğundan asanlıqla alına biləcək yer deyildi. Bölgədə olduqca qüvvətli erməni birlikləri var idi.

Ermənilərin həm möhkəmləndirilmiş mövqedə yerləşməsi, həm də say çoxluğu və silah üstünlüyünə sahib olmaları müqabilində, qoşun birləşmələrinin arzu və idarə üstünlüyü ilə bərabər bilik, qayda-qanun və vicdan gücünə güvənən Şərq cəbhəsi komandanlığı Qars qalasını strateji bir manevr ilə təslim etmək üçün əks-hücuma keçdi.

Bu plan müvəffəqiyyətlə nəticələnmiş, erməni qüvvələri





mövqeyi tərk edib, Gümrü istiqamətində geri çəkilmişdilər.

Türk orduları Qarsa girdikləri zaman, oradakı yetim erməni uşaqlarını himayə edən Amerika təşkilatının başçısı Edvard Foks İstanbuldakı Amerika nümayəndəsi admiral Bristola bu teleqramı göndərmişdi:

«Qarsdakı bütün amerikalılar yaxşıdırlar. Türk ordusu bizdən kömək və himayələrini əsirgəmir. Təşkilatı əvvəlki kimi idarə etməyimizə icazə verilmişdir. Türk əsgərləri qayda-qanunu mühafizə edirlər. Qırğın olmamışdır».

Qars və bölgəni geri alan türk ordusunun oradakı bütün erməniləri öldürdüyü haqqında dünya xalqlarını aldadanlara bu teleqramdan daha gözəl bir cavab ola bilərmi?

3 noyabr 1920-ci ildə Gümrü istiqamətində türk ordusu hücumu davam etdirdi. Ermənilər artıq vəziyyətin çıxılmazlığını görüb bütün sülh şərtlərini qəbul edərək, Gümrüdə sülh müqaviləsi bağlamaq üçün görüşməyi təklif etdilər. Müqavilə 3 dekabr 1920-ci ildə imzalandı. Müqaviləyə görə Qars vilayəti, İqdır və Duzluca Türkiyə himayəsinə verilmiş və sərhəd kimi indiki Türkiyə Cümhuriyyəti ilə Sovetlər arasındakı sərhəd təsdiq edilmişdi. Lakin bu müqavilədən bir gün sonra Rusiyanın səyi ilə Sovet Ermənistanı hökuməti qurulmuş, daşnak üsuli-idarəsi ləğv edilmişdi. Bu səbəbdən, Gümrü müqaviləsi qüvvəsini itirmişdi. Əvəzində, əvvəlcə Sovet Rusiyası ilə Moskva müqaviləsi, daha sonra Qarsda Türkiyə ilə Zaqafqaziya respublikaları arasında (Rusiyanın iştirakı ilə) Qars müqaviləsi (13 oktyabr 1921) bağlandı.

Bundan sonra da Qafqazda sülh təmin olunmadı. Türkiyədən Qafqaza getmiş ermənilər, Andronikin başçılığı altında türklərə divan tutub, zülm etməkdən çəkinmədilər.

## 7.4. Sevr Sülh müqaviləsi

10 avqust 1920-ci ildə Sevr sülh müqaviləsi Osmanlı hökuməti tərəfindən qəbul olunmuşdu.

Bu müqavilə Osmanlı imperatorluğunun parçalanması

mahiyyətini daşıyırdı. İmperatorluq bölünmüş, dağıdılmış və imperatorluğun əsas xalqı olan, o torpaqları əsrlərcə qılınclarının və ədalətli idarələrinin haqqı olaraq fəth etmiş türklərə, demək olar ki, heç bir hüquq verilməmişdi.

Müqaviləyə görə, tarixində heç bir gün də olsa sahib olmadığı Qara dəniz sahilləri və əhalisinin ancaq 4,5%-i erməni olan Trabzon belə ermənilərə verilmişdi.

Bu cür ədalətsiz qərar qəbul oluna bilərdimi?

Bir çox bitərəf xarici yazarların və ermənilərin özlərinin əsərlərində Türkiyədə ermənilərin ümumi sayı 1.200.000 – 1.500.000 arasında göstərilmişdir (erməni baş keşişi isə çox gülünc bir rəqəm – 4 milyon erməni olduğunu göstərmişdi). Əksəriyyəti Anadoluda olmaqla, bu ermənilər bütün Osmanlı ölkəsinə yayılmışdılar.

Məlumatlara görə ermənilərin sayının türklərə görə nisbəti Ərzurumda 23%, Bitlisdə 33%, Vanda 18%, Trabzonda 4,5% olmuşdur. Bu bütün xalqın ancaq 8,7%-dir.

Belə vəziyyətdə Sevr müqaviləsi əlbəttə ki, türklər tərəfindən qəbul olunmamış və onları silaha əl atmağa məcbur etmişdi.

Birinci dünya müharibəsinin qalibləri məğlublar ilə daha insaflı və adil bir sülh yolu tutsaydılar, nə türk istiqlal müharibəsi, nə də ola bilsin ki, İkinci dünya müharibəsi baş verməzdi.

Təbii ki, Osmanlı hökumətinin qəbul etdiyi Sevr müqaviləsini türk milləti qəbul edə bilməzdi və etməzdi.

### 7.5. Lozanna sülh müqaviləsi

Əhali və əhali sıxlığı müqayisəsinə başlamazdan əvvəl, bir neçə cümlə türk-erməni münasibətlərini rəsmiləşdirmiş Lozanna sülh müqaviləsinin gedişinə və bununla bağlı bəzi mülahizələrə həsr edəcəyik.

Yunanların məğlub edilib geriyə, dənizə tökülmələrilə bitmiş türk istiqlal müharibəsi, 1 oktyabr 1922-ci ildə Mudanya müqaviləsi ilə nəticələndi. Tərəflər 28 oktyabr 1922-ci ildə Lozannaya çağırıldılar. Ermənilər də Lozanna sülh konfransında iştirak etmək üçün müraciət edib, bəzi tələblərini irəli sürdülər.





Konfransda bu məsələlər müzakirə olunan zaman, xüsusilə Venizelosun ermənilər haqqında dediyi sözlərin müqabilində Türkiyə nümayəndə heyətinin rəhbəri İsmət paşa bunları demişdi:

«M.Venizelosun bu sözləri həqiqətən təəccüblüdür. Özləri Anadolunu istila etdikləri zaman erməniləri zorla silahlandırıb türklərə qarşı vuruşmağa məcbur etmişlər. Avropadakı erməni liderləri bununla əlaqədar yunan hökumətinə müraciət etmiş, amma onlara əhəmiyyət verilməmişdi. Müharibədən sonra da yunanlar etdikləri vəhşilikləri ermənilərin üstünə atmışlar. Belə ki, dünyada ermənilərin halına acımağa cürət edə biləcək hökumətlərin ən axırıncısı, onların fəlakətə sürüklənməsinə səbəb olan hökumət yunan hökumətidir. Türkiyədəki ermənilərin türklərlə əsrlər boyu bərabər xoşbəxt yaşadıqları kimi, bundan sonra da yaşamaları üçün heç bir manеə yoxdur.

Şərqi Türkiyədə və ya Kilikiyada türk əksəriyyətini təşkil etməyənlər üçün ana vətəndən ayrıla biləcək bir qarış torpaq yoxdur».

Lozannada vəziyyət dəyişmişdi. Türkiyə nümayəndələri əgər Birinci dünya müharibəsində məğlub kimi o müharibənin qalibləri qarşısında olsalar da, əslində 3 il sürən istiqlal müharibəsinin qalibləri idilər. Mühakimələrində hüquqi və tarixi cəhətdən də haqlı idilər.

Böyük dövlətlərə gəlincə, onlar ermənilərdən Birinci dünya müharibəsində öz mənfəətləri üçün istifadə edərək, çoxlu vədlər vermişdilər. Amma indi vəziyyət dəyişmişdi. Daha ermənilər mücadilə edəcək, sülhü təhlükəyə salacaq, yenidən müharibə edəcək vəziyyətdə deyildilər.

Ermənilər bu dəfə də ruslara müraciət etdilər. Lakin vəziyyət hər yerdə eyni idi. Müharibə qurtarmış, əvvəlcə özləri

ermənilərі təhrik və təşviq etmiş dövlətlərin daha ermənilərdən gözləyəcəyi bir şey qalmamışdı.

Nəhayət, 24 iyul 1923-cü ildə Lozanna sülh müqaviləsi imzalandı və bugünkü vəziyyətdə qəbul olundu.

## 7.6. Ermənilərin türklərə qarşı etdikləri xəyanətlər və törətdikləri cinayyətlər

Osmanlı imperiyasını «xəstə adam» adlandıran çarizm və Qərb imperializmi XIX əsrin ikinci yarısında ermənilərdən bir kozır kimi istifadə etməyə başladılar. Türklərin bu çətin vəziyyətindən cəsarətlənən və əsasən siyasi məsələlərdə çox kütbeyin olduqlarını isbat edən ermənilər, «Böyük Ermənistan» yaratmaq üçün layihələr hazırladılar. Həyata keçirilməsi mümkün olmayan layihələr üzündən ermənilər dəfələrlə məğlub olsalar da, yenə heç cür realist ola bilmədilər. 1890-cı ildə ermənilər «Daşnaksütyun» partiyası yaratdılar. Yarandığı gündən Türkiyə torpaqlarında Ermənistan dövləti yaratmaq proqramını hazırlayan «Daşnaksütyun» partiyası 1904-cü ildə Qafqaz Ermənistanını da öz planlarına daxil etdi. Ermənilərin türklərdən istədikləri vilayətlər bunlar idi: Qars, Van, Ərzurum, Xarput, Diyarbəkır, Bitlis, Sivas, Adana və bir də Kilikiyanın cənubu. Erməni «Qnçak» partiyası da eyni xəyallarla yaşayırdı. Bu xəyallarla yaşayan ermənilər Anadolunun cənubuna silahlı basqınlar etdilər.1896-cı ildə Sultan Əbdülhəmid ermənilərin Türkiyə torpaqlarında törətdikləri vəhşiliklərin qarşısını almaq üçün hücuma keçdi və erməniləri geri oturtdu. Təqib nəticəsində bir çox ermənilər qaçaraq Qafqaza sığındılar. Qaçanların ən çoxu Türkiyədə erməni hərəkatının başçıları və erməni xalqını müsəlmanların əleyhinə təhrik edən daşnak və qnçaklar idi. 1905-ci il inqlabı zamanı rus hakim dairələri Qafqaz türklərini inqilabın bəxş etdiyi azadlıq nemətlərindən məhrum etmək üçün belə bir vəziyyətdən istifadə etməyi qərara aldılar. Halbuki, əsrlərlə Qafqazda türklərlə ermənilər bir yerdə dostcasına yaşamış, aralarında mehriban qonşuluq münasibətləri olmuşdu. Hətta, qədim zamanlarda ermənilər xarici düşmənlərin basqınlarına qarşı türklərlə birgə mübarizə aparmışdılar. O ki, qaldı Qafqaza, buradakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər. Ermənistanın mərkəzi sayılan İrəvanda da çoxlu türklər yaşayırdı. Bütün bunlara baxmayaraq, Türkiyədəki məğlubiyyətlərindən dərs almayaraq, Qafqazda olan yüksək vəzifəli rus məmurları tərəfindən silahlandırılan və gizli tapşırıqlar alan ermənilər İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda yaşayan silahsız türklərə, dinc əhaliyə qarşı hücum edib onları öldürməyə, qılıncdan keçirməyə başladılar. Beləliklə onlar türkləri öldürərək bu ərazilərdə çoxluq əldə etmək istəyirdilər. Öldürə bilmədikləri türkləri isə nəyin bahasına olursa-olsun öz torpaqlarından qovurdular. Ermənilərin azəri xalqının başına gətirdikləri vəhşilikləri qələmə almağa çətinlik çəkirəm. Ancaq bitərəf gürcü yazıçısından bir misal gətirmək istəyirəm. Gürcü sosialistlərindən olan Qaribi «Qızıl kitab»ında belə yazır: «Erməni inqilabçılarının, xüsusilə «Daşnaksütyun» partiyasının yaradılmasına qədər Zaqafqaziyada sülh və dostluq hökm sürürdü. Bu ölkədə türklərlə ermənilər arasında olan qanlı qırğınların kölgəsini belə xatırlayan yoxdu. Ermənilər, türklər və gürcülər əsrlərlə bir yerdə yaşadılar, hətta bu müddət ərzində heç kim millətlərarası ədavət görmədi... Daşnaklar gəldilər və sırf ermənilərdən ibarət müstəqil Ermənistan dövləti yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu. Ermənilərin silah oynatmalarına türklər də qarşılıqlı cavab verdilər». (Qaribi. Qızıl kitab, Tiflis, 1921, səh.49)

Gəncə şəhəri Gəncə çayı ilə bölünmüşdür. Şəhərin dağlıq hissəsində ermənilər, düzənlik hissəsində isə türklər yaşayırdı. Türk məhəllələri arasında Noraşel adlı bir erməni məhəlləsi də vardı. Digər türk məhəllələri bunlardır; Ozan, Zərabi, Əttarlar, İmanlı, Dördyol, Sofulu, Səfərabad, Toyuqlu, Böyük Bağban və Bala Bağban.

Ermənilər yaşayan hissədə üç türk məhəlləsi vardı; Mollacəlilli, Çaylı, Hacıməlikli. Ermənilər ən çox bu türk məhəllələrinə hücumlar edirdilər. Hücum zamanı qadınlar, qocalar və uşaqlar Gəncə çayını keçərək, türklər yaşayan məhəllələrə gəlir, kişilər isə ermənilərə qarşı vuruşurdular. Ermənilər (əsasən qadınlar) boş qalan türk evlərini talan etdikdən sonra yandırırdılar. O zaman xalq arasında cəsarət və igidliyi ilə tanınan Tatoğlu Qara silahdaşları ilə ermənilərə qarşı vuruşaraq, onların irəliləməsinə mane olurdu. Ermənilərin təhkiri ilə yaxınlıqdakı kazarmalarda yerləşən rus əsgərlərinin açdığı atəş ilə Tatoğlu Qara öldürülür, yoldaşları onun cənazəsini götürərək, türklər yaşayan əraziyə keçirlər. Qara Tatoğlunun ölümü yerli camaatı çox sarsıdır. Rus əsgərləri, polislər və jandarmalar türklərin qırılmasını kənardan seyr edirdilər. Elə ki, ermənilər türklər tərəfindən sıxışdırılırdı, başlayırdılar onlara kömək etməyə. «Difai» partiyası bu vuruşmanın qarşısını almaqda böyük rol oynayırdı. Gəncədə yerləşən «Cəmiyyəti xeyriyyə» və «Nəşri –maarif» cəmiyyətlərinin binası qərargaha çevrilmiş və Gəncənin ən mötəbər, tədbirli, xalq arasında sözü keçən adamlarından biri olan Ələkbər bəy Rəfibəyli bu hərəkata rəhbər seçilmişdir. (96a).

Əks-hücum gecə, qaranlıq düşəndən sonra başlayacaqdı, erməni kəndləri və məhəllələri dağlıq tərəfdən əhatəyə alınaraq hücuma keçiləcəkdi. Bu hərəkatda əli silah tuta bilən şəhər camaatı və dağlardan enərək köməyə gələn Dəli Alının silahlı dəstəsi Ələkbər bəyin rəhbərliyi altında hücuma keçdilər. Hücum türklərin üstünlüyü ilə davam edirdi. Qarabağ, Bakı və Şamaxı vilayətlərində də döyüş təşəbbüsü türklərin tərəfinə keçir, əks-hücumlar təşkil edilirdi. Rus hökumətinin Qafqazda olan yüksək vəzifəli məmurları artıq silahın geriyə təpdiyini anlamışdılar. Ermənilər təlaşa və çaxnaşmaya düşmüşdülər. Bu zaman baş qubernator Bauer hərbi komandirlərlə, tanınmış gürcü əsilzadələrilə və başqa hörmətli şəxslərlə birlikdə Ələkbər bəyin yanına gələrək, hü-





cumun dayandırılmasını xahiş edirlər. Uzun sürən müzakirədən sonra Ələkbər bəy bəzi döyüşü dayandırmağa söz verdi və verdiyi sözə əməl etdi. Bir neçə gün sonra dağdan enərək vətən qarşısında borcunu yerinə yetirən və türk xalqını erməni qırğınından qurtaran qaçaqlar Dəli Alının rəhbərliyi altında Gəncədən ayrılaraq dağlara çəkildilər. Erməni zülmündən azad olan camaat öz minnətdarlıqlarını bildirdi.

Bundan sonra Tiflisdə, Bakıda, Şuşada, Şamaxıda, Gəncədə Rusiyanın yüksək vəzifəli məmurlarının, mötəbər, tanınmış gürcülərin vasitəsilə türklər və ermənilər arasında barışıq yaratmaq üçün toplantılar keçirildi. Hər iki tərəfdə sakitlik yarandı. Ancaq 1905-ci il inqilabının gətirdiyi həyəcanlar davam edirdi. Yeri gəldikdə bu barədə də söhbət ediləcək. Artıq ermənilərlə türklər arasında barışıq əmələ gəlmişdi, amma erməniləri türklərin əleyhinə təhrik edən çar idarəsinin fitnəsinə qarşı nə kimi tədbirlər görəcəkdi? «Difai» partiyasının rəhbərləri bu məsələni də müzakirə etdilər. Erməniləri türklərə qarşı təhrik edən rus idarəsinin yüksək vəzifəli məmurları «aradan» götürüləcəkdir... Bu, Difai partiyasının qərarı idi.

Şuşada ermənilərin törətdikləri qırğın zamanı onlara köməklik edən general Qoloşanov çarın naibi, eyni zamanda çarın əmisi Qranduk Nikolay Nikolayeviçə pasport vermək üçün Tiflisə gedir. Bu fürsətdən istifadə edən «Difai» partiyasının Şuşadakı təşkilatı tərəfindən xalq arasında igidliyi ilə tanınan Hüsü adlı birisinə Tiflisdə Qoloşanovu öldürmək tapşırılır. Bir həftə keçməmiş bu qərar Tiflisdə yerinə yetirilir. «Diffai» təşkilatı Hüsünün təhlükəsizliyini qorumaq məqsədilə İrana qaçmasına köməklik edir. Gəncə qubernatorunun müşaviri Kreşçinski də Şuşada olduğu zaman ermənilərə köməklik etmişdi. Kreşçinskini öldürmək üçün «Difai» partiyasının Gəncə təşkilatının üzvləri öz aralarında püşk atmışlar və püşk Gəncənin Topal Həsən kəndinin sakini Səmədə düşür. Kreşçinski Gəncədə evinin önündə Səməd tərəfindən öldürülür.Gəncədə həbsxananın imamı olan

müsəlman mollası Mola Atakişi (molla Hədi) rus gizli polisinə xəfiyyəçilik edərək, «Difan» partiyasının bir neçə üzvünü ələ verdiyi üçün partiyanın qərarı ilə öldürülür. Şuşada xalq arasında «dəli sudya» adı ilə tanınan rus hərbi məhkəməsinin prokuroru Lunyakin ermənilərə kömək üçün «Difai»nin Şuşa komitəsinin qərarı ilə «aradan» götürülür. Gəncədəki polis rəisi Bannikov, Tərtərdəki polis rəisi Felikinski eyni səbəblə partiyanın qərarı ilə öldürülürlər. Bu siyahını uzatmaq olar. Bütün bunları Azərbaycanda azadlıq uğrunda mübarizənin başlanğıcı kimi qiymətləndirə bilərik.

«Difai» partiyasının üzvlərinin bəziləri Stolıpinin irtica illərində həbs olunur, bəziləri isə Türküstana sürgün olunurlar. (1908). (96a).

Osmanlı dövlətində ermənilərə çox böyük imtiyazlar verilmişdi. Onlar orduya çağırılmır, yalnız könüllü xidmət edə bilərdilər. Əksər vergilərdən isə azad idilər. Birinci Dünya müharibəsi başlayanda da ermənilər səfərbərlikdən kənarda qaldılar. Osmanlı sultanlığının tapşırığı ilə (sultanın köməkçisi də erməni olub) əhalidən silahlar yığıldı və bütün əli silah tutan kişilər cəbhəyə yollandılar. Artıq üsyanlara başlamaq olardı. Ermənilər dərhal hərəkətə gəldilər. Xüsusən Şərqi Anadoluda türkləri elə dəhşətli qəddarlıqla qırmağa başladılar ki, onu olduğu kimi kimsə təsvir edə bilməyib.

Erməni Milli Konqresinə Daşnaksütyun Partiyasının 1915-ci ildəki hesabatında deyilir: "Bildiyiniz kimi I Dünya müharibəsində Çar Rusiyası hökuməti Türkiyədəki erməniləri silahlı döyüşə hazırlamaq üçün silah almaq, eyni zamanda, müharibə başlayan vaxtda üsyanları təşkil etmək üçün öncə 242900 rubl pul vermişdi. Məqsədi o idi ki, könüllülərimiz Türk ordusuna arxadan sarsıdıcı zərbələr endirəcək, üsyanlar törədəcək, ölkədə qarışıqlıq yaratmağa çalışacaqlar Bu yolla da rusların Osmanlı torpaqlarına girməsi təmin olunacaq. Rusiya ordusu Türkiyə Ermənistanına (Şərqi Anadolunu nəzərdə tuturdu.) sahib olacaqdır". Yüzlərlə belə fakt var. Odur ki, ermənilər arxivlərin açılmasına, həmin sənədlər əsasında məsələni araşdırmağa razı olmurlar.







*Erməni-daşnak silahlı quldur dəstələrinin Anadoluda türklərə qarşı soyqırımı. Toplu şəhid məzarlığı. Ərzurum, Həsənqala kəndi, 1993.*

Qeyd etdik ki, türklərin əli silah tutanı müharibəyə getmişdi. Kəndlərdə ancaq qadın, uşaq, bir də qoca kişilər qalmışdı. Odur ki, silahlı ermənilər heç bir müqavimət görmədən kəndlərə girir, insanları doğrayır, diri-diri yandırırdılar. Həmin dövrdə Osmanlı dövlətinin baş komandanı adından erməni katalikosuna göndərilən məktub da bunu təsdiq edir. Məktubda ermənilərə Osmanlı dövlətində yaradılan şəraitdən, onların xarici təsirlər nəticəsində ağılsızlıqlarından, törətdikləri dəhşətli qətllərdən söhbət açır. Və onların ağılakamala çağırılması tövsiyə olunur. Ancaq bu əbəs idi. Çünki bu terrorçu dəstələr, ilk növbədə, dini rəhbərlərindən tapşırıq almışdılar.

1915-ci il martın 19-da 3-cü ordu komandanlığının Osmanlı Dövlətinin Hərbi Nazirliyinə göndərdiyi teleqramda deyilirdi: "Bizim ordumuz Ərzuruma çatana qədər baş qal-

dırmış erməni quldur daşnak dəstələri iki gün ərzində görünməmiş qətllər törədiblər. İndiyə kimi 2127 türk meyiti dəfn etmişik. Onların hamısı kişilərdir. Cəsədlərin üzərində balta, süngü, güllə yaraları var. Bu cəsədlərin ciyərləri çıxardılmış, gözlərinə ucu sivri oxlar soxulmuşdur".



*1915-1918-ci illərdə Osmanlı imperiyası ərazisində terrorçuluqla məşğul olan erməni dəstələrindən biri*







...Erməni üsyanları, az qala, bütün Türkiyəni bürümüşdü. Şərqi Anadoluda və Ərzurumda isə elə dəhşətli, ətürpədici vəhşiliklər törətmişdilər ki...O zaman bir alman generalı yazırdı: "Ruslar Ərzuruma yaxınlaşanda ermənilər Şərqi Anadoluda sihalı üsyan qaldırdılar. Ermənilər bütün qüvvələri ilə bu xalqı silib-süpürməyə çalışırdılar". (40).

*Soyqırımı şəhid məzarlığından görüntülər (qazıntı zamanı aşkar olunmuşdur). Ərzurum, Tumar kəndi, 1993*



*Soyqırımı şəhid məzarlığından görüntülər (qazıntı zamanı aşkar edilmişdir). Ərzurum, Tumar kəndi, 1893.*

Bundan əvvəl, yuxarıda bildirdiyimiz səbəblər nəticəsində pozulmağa başlayan 600 illik türk-erməni münasibətlərinin sona çatdığı qısa dövrün hekayətinə gəldik.

Bu sətirləri yazarkən və yazımın əsaslarını tədqiq etmək üçün yüzlərlə sənədləri yoxlayıb öyrənərkən keçirdiyim xoşagəlməz üzüntünü bildirmədən söhbətə başlamayacağam.

Bu üzüntümün səbəbi, bütün tarixləri boyu bu və ya başqa bir dövlətin tabeliyində daim əzilən ermənilərin müstəqil olmasalar da, lakin nə irqi, nə də dini siyasət yeritməyən Osmanlı imperatorluğu daxilində 600 il müddətində əldə etdiyi rahat, sakit və daim inkişaf etməkdə olan həyatları

əvəzinə, xaricin bir yığın macərapərəst, azğın komitəçilərin və onlara qoşulmuş erməni din adamları və digərlərinin təbliğatı və köməyi ilə törətdikləri vəhşiliklər ucbatından qazandıqları aqibət və çəkdikləri acılardır.

Təbiidir ki, bu acıları yalnız ermənilər deyil, türklər də çəkdilər. Daha doğrusu, ermənilər türklərə çəkdirmək istədilər. Türklər də olmaqla, hər iki tərəf böyük itkilər verdi. Lakin, qurbanların həqiqi sayı milyonlara çatır ki, bunların da üçdə ikisini türklər, üçdə birini ermənilər təşkil etmişlər.

Bu bölümdə də türk-erməni münasibətlərinin tarixi səhifəsi olan 6-7 illik mücadilə dövrünün ümumi mənzərəsini, səbəblərini və nəticələrini qısaca bildirməyə çalışacağıq.

I dünya müharibəsinin müxtəlif cəbhələrində, ilk gündən müharibənin sonuna qədər xarici orduların tərkibində erməni könüllüləri və əsgərləri də Osmanlı dövlətinə qarşı vuruşmuşlar. Bunu xarici dövlətlər etiraf etdikləri kimi, ermənilər də müharibənin sonunda özlərinə xal qazandırmaq məqsədilə «Biz müttəfiq davasında xidmət etmək üçün qan tökdük» deyərək, Türkiyəyə qarşı vuruşduqlarını etiraf etmişlər.

Əslində Osmanlı orduları cəbhədə döyüşərkən, erməni bandalarının cəbhə arxasında və yurd içindəki dövlət hüquq qanununa görə xəyanət sayılan fəaliyyətləri də, həqiqətən müttəfiq davasına xidmət məqsədilə planlaşdırılmışdı.

Məsələn, rus ordusunda 180.000 erməni əsgəri var idi. Bunun 15 mini Qafqaz cəbhəsində Osmanlı ordusuna qarşı vuruşurdu. Fransızların şərq legionlarında minlərcə erməni vuruşurdu. Hətta Fələstində Amerikadan gəlmiş erməni könüllüləri var idi. Müharibə meydanlarında ələ keçən minlərcə sənəd və məktublardan qeyd olunanların həqiqət olduğu aydın görünür. Bu məktublardan birini eynilə burada göstərirəm:

*Detroyt, 20 noyabr, 1914.*
*Vardar Arutyunyan*
*Bitlis*





Sevimli atam!

Bu son məktubumdur. Belə ki, mən də artıq erməni millәti qarşısında vəzifəmi yerinə yetirmək və türkün başını əzmək üçün erməni könüllülərinə yardıma gedirəm. Türk və almandan intiqam almaq üçün Rusiya, İngiltərə və Fransa qəti qərar vermişlər. Ermənilər xoşbəxt və müstəqil olacaqlar. Əmin olun, xilasımız çox yaxındır.

*Oğlunuz*
*Petros Arutyunyan.*

Şübhəsiz ki, Osmanlı ordusunda da ermənilərdən zabit və sıravilər var idi. İmperatorluq sərhədləri içində, hər yerdə, əsgər olmayan ermənilər özlərini işlə məşğul olan kimi göstərirdilər, lakin komitələrin təzyiq və yardımı ilə sürətlə silahlanmağa çalışırdılar.

Talelərini müttəfiqlərin qalibiyyətinə bağlamış erməni komitəçiləri də Osmanlı imperatorluğunun məğlub olmasını təmin etmək üçün bütün imperatorluq torpaqlarına yayılmış ermənilərdən və Osmanlı ordusunda xidmət edən erməni gənclərindən xeyir görmək yolunu tutmuşdular. Onları təbliğ və təşviq etməklə bərabər, başqa istiqamətlərdə də yardım edirdilər. Ermənilər arasında əlaqələri xarici zabitlər idarə edirdilər.

Rus podpolkovniki Tverdoxlebov öz hökumətinə göndərdiyi raportunda bu barədə açıq yazmışdı: «İngilis və ya fransız Baş hərbi qərargahından erməni inqilab təşkilatını idarə etmək üçün yanvar ayında Ərzincana gəlmiş polkovnik Morel adlı şəxs mövqe komandanıma bir məktub göndərərək kürdlərin Ərzurum və Ərzincan yolu üstündə rus hərbi nəqliyyatına, xüsusilə şəhərə basqın hazırladıqlarını iddia etmişdi. Morel, əhalisi kürdlərə yardım etdiyi üçün Ərzurum-Ərzincan yolu üzərindəki müsəlman kəndlərinin məhv edilməsi üçün əmr verdiyini də əlavə etmişdi».

İllərdən bəri böyük hazırlıqlar aparılırdı. Ermənilərin böyük əksəriyyəti silahlanmışdı. Osmanlı ordusundakı er-

mənilər də dövlətin verdiyi silahı götürüb qaçırdılar. Əlbəttə, bir əsgər kimi bu vəziyyətin dəhşətini başa düşürəm. Lakin bu vəziyyəti anlamaq üçün nə əsgər olmaq, hətta nə kişi olmaq, nə də elmli olmaq lazım deyil. Hər şey gün kimi aydındır.

Türkiyənin ərazisində baş vermiş bütün qanlı olayları ermənilər başlamışlar. Mayevski yazırdı: «Türkləri oradakı vəhşiliklərə görə nə cür günahlandırırlar – günahlandırsınlar, bir şeyi deməliyəm: Türkiyənin ayrı-ayrı şəhərlərində ermənilərlə müsəlmanların toqquşmasına dair şəxsən mənə bəlli olan şeyləri bu inama gətirir ki, qan tökülməsinə hər yerdə yalnız ermənilərin öz təşəbbüsləri ilə başlanmışdır. Trapezund qırğınına da şəhərin küçələrində iki türk generalının – Bağrı paşa və Həmdi paşanın yaralanması səbəb olmuşdur». Ermənilər təkcə türkləri deyil, kürdləri də eyni qəddarlıqla qətilə yetirirdilər. Onlar heç vaxt kürdləri və ləzgiləri türklərdən ayırmırdılar. Hətta türklərə böhtan atmaq üçün öz ermənilərini öldürməkdən belə çəkinmirdilər Türkiyənin Van vilayətindəki vitse konsulu mayor Vilyams 15 may 1896-cı il tarixli raportunda ermənilərin kürdləri qətilə yetirmələri barədə yazırdı: «Çatdırmağı özümə şərəf bilmirəm ki, bu vilayyətdə vəziyyət heç bir cəhətdən qənaətbəxş deyil. Son həftə ərzində erməni inqilabçıları iki dəfə kürdlərin üstünə hücum etmişlər. Birincidə üç kürd öldürülmüş və ikisi yaralanmış, ikincidə iki, ola bilsin, üç kürd öldürülmüşdür. Təsdiqlənmişdir ki, hər iki halda meyitlər dəhşətli dərəcədə təhqir olunub eybəcər hala salınmışdır». O zaman Ərzurumda yerləşən rus artilleriyasının polkovniki Tverdoxlebovun yazdıqlarından aydın olur ki, Türkiyədə öldürülən türklər – öldürən ermənilər olublar: «Bu hadisələrlə eyni vaxtda bizə soraqlar gəlirdi ki, Ərzincanda ermənilər dinc əhalini ən qatı vəhşiliklə qırır və sonra Ərzincana daxil olan türk qoşunlarından qaçırlar. Ordu komandanın məlumatlarına və hadisə yerindən gəlmiş rus zabitlərinin söylədiklərinə görə 800 nəfər türk öldürülmüş, ermənilərdən isə





türklərin özünümüdafiəsi zamanı vur-tut bircə nəfər zərər çəkmişdir. Məlum oldu ki Ərzurum yaxınlığındakı İlicə kəndində də silahsız dinc əhalini qırmışlar».

Arxiv sənədlərindən və şahidlərin xatirələrindən bəlli olur ki, ermənilər təpədən-dırnağa kimi silahlanaraq nizami ordu şəkilində türk kəndlərində, sözün həqiqi mənasında, syqırımı törətmişlər. Rus ordusunda xidmət edən erməni zabitləri də ermənilərə kömək etmişlər. Lipski bu barədə Tverdoxlebova məlumat vermişdir: Tverdoxlebov özü bu hadisəni belə qələmə almışdır: «Mənə bildirdilər ki, kazarmada vətəndaşlardan heç kəs yoxdur. Mən axtarışa başlayan kimi kazarmadakı hamamda gizlədilmiş və dəhşətli dərəcədə qorxmuş 70-dən çox türk tapdım. Tezliklə qısaca istintaq apardım, hamının rəhbər kimi nişan verdiyi əsgəri həbs etdim, saxlanmış türkləri o saat buraxdım». Əermənilərin dinc türk əhalisinə qarşı törətdikləri soyqırımın dəhşətlərini görən ruslar hətta rus ordusunun Ərzurumdan çıxarılmasına çalışırdılar. Onlardan biri də Tverdoxlebov olmuşdur. O yazırdı: «Ermənilərin vəhşiliklərinə qarşı durmağa gücümüz çatmırdı və onların yaramazlıqlarının bir dəqiqə də olsa, bizim adımıza çıxılmasını istəmirdik».

Valli adlı bir tarixçi isə yazırdı: «1915-ci ilin aprelində erməni inqilabçıları Van şəhərini ələ keçirdilər və «Daşnak» partiyasının iki lideri – Aram vəVazelin komandanlığı altında şəhərdə erməni ştabı yaratdılar. Mayın 6-da onlar şəhəri bütün müsəlmanlardan təmizləyərək rus ordusuna təhvil verdilər».

Başqa bir tarixçi – S.Şou yazırdı: «Bitlis – Muş və Qars-Ərzurum istiqaməitlərində irəliləyən rus ordusunu silahlı nizami erməni kolonları müşayiət edir, yollarındakı hər şeyi dağıdır, insanları qırırdılar. Bu zaman bir milyondan artıq müsəlman əhalisi qaçmağa məcbur olmuş, yüz minlərlə adam ermənilər tərəfindən tikə-tikə doğranmışdı».

XX yüzilliyin başlanğıcında yaranmış ağır və qarışıq vəziyyətdən istifadə edərək Türkiyənən ərazisində Rusiyanın

köməyi ilə erməni dövləti yaratmaq idi. Onlar rus silahı ilə din türk əhalisini ona görə vəhşicəsinə qırırdılar ki, həmin ərazilər türklərdən təmizlənsinlər. Tverdoxlebovun yazdığına görə, doktor Zariyevin əlinə bir sənəd düşmüşdü. Onun Ərzuruma gəlməyindən əvvələ aid olan bu sənəddən məlum olur ki, ermənilərin məqsədi Türkiyədə rus zabitlərinin əli ilə «Muxtar Ermənistan» yaratmaqdan başqa bir şey deyilmiş. Rus zabitlərindən bir çoxları ermənilərin hərəkətlərindən şübhələnərək məqsədlərini başa düşürlərmiş. Məhz bu vəziyyəti araşdıran doktor Zavriyev zabitlər arasındakı narazılığın səbəblərini doğru başa düşmüş, onların Türkiyədən qayıtmaq istədiklərini söyləmişdir. Çünki artın rus zabitləri başa düşürdülər ki, «ermənilər nə istəyirlər və rus zabitləri onlara nə üçün lazımdır».

Ermənilərin bu niyyətlərinin Türkiyə ərazisində baş tutmadığını çox-çox sonralar rus şərqşünası İqor Petrov belə dəyərləndirmişdi: «Türkiyə ərazisində özlərinə dövlət qurmaq planları puça çıxandan sonra ermənilər Rusiyanın köməyi ilə bunu Azərbaycan torpaqlarında reallaşdıra biliblər. Paytaxtı qədim Azəraycan şəhəri İrəvan olan Ermənistan Respublikası, uydurmaları nəzərə almasaq, erməni tarixində ilk dövlət qurumu idi».

Fransız tarixçisi Jorj de Malveril yazırdı: «ədalət naminə demək lazımdır ki, bu insan tikələrinə görə türkləri günahlandırmaq olmaz». (154a)

## 7.7. Müasir Türk-Erməni münasibətləri

Türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı erməni terroru. Hadisələrin zamanı, məkanı və xronologiyası.

**27 yanvar 1973-cü il,** ABŞ (Santa-Barbara, Kaliforniya): Türkiyənin Los-Ancelesdəki Baş konsulu Mehmet Baydar və konsul Bahadur Dəmir 78 yaşlı Amerika vətəndaşı,





erməni Qurgen (Qaragin) Yanikyan tərəfindən şəhid edilmişlər.

Uydurma bir bəhanə ilə Santa-Barbaradakı bir otelə dəvət edərək, onları tapança ilə öldürən Yanikyan cinayətdən sonra tutularaq ömürlük həbs cəzasına məhkum edilmişdir. 31 yanvar 1984-cü ildə xəstəlik və qocalığa görə buraxılmış Yanikyan 27 fevral 1984-cü ildə ölmüşdür.

Türk diplomatlarına qarşı ilk terror kimi qiymətləndirilən bu iki nəfərin öldürülməsi sonrakı cinayətlər zəncirini davam etdirəcək və mütəşəkkil erməni terroruna örnək olacaqdır. Bəlkə də bu, planlaşdırılmış terrorun başlanğıcı üçün işarə idi.

**4 aprel 1973-cü il,** Fransa (Paris): Türkiyə Baş konsulluğuna və THY (Türk Hava Yolları) bürosuna qarşı törədilən və maddi zərərə səbəb olan bomba partladılmasını öz üzərinə götürən olmasa da, basqının ermənilər tərəfindən törədildiyi şübhəsizdir.

**26 oktyabr 1973-cü il,** ABŞ, (Nyu-York): Türk İnformasiya Bürosuna bomba paketi ilə təcavüz aktı polis tərəfindən zərərsizləşdirilmişdir. Təcavüz Yanikyanın terroristləri tərəfindən hazırlanmışdı.

**20 yanvar 1975-ci il,** Livan (Beyrut): Dünya Kilsələr Şurası Beyrut bürosunun bombalanmasına qərar verildiyi məlum olmuşdur.

**7 fevral 1975-ci il,** Livan (Beyrut): Türk İnformasiya və Turizm Bürosuna bomba ilə təcavüz zamanı bombanı zərərsizləşdirərkən, partlayışdan livanlı polis nəfəri yaralanmış, təcavüzü erməni terrorçu qrupu ASALA-nın Yanikyan qrupu öz üzərinə götürmüşdür.

**20 fevral 1975-ci il,** Livan (Beyrut): 1 kq-lıq bomba ilə THY (Türk Hava Yolları) bürosuna təcavüz xeyli maddi ziyana səbəb olmuşdur. Təcavüzü ASALA-nın Yanikyan qrupu təşkil etmişdir.

**22 oktyabr 1975-ci il,** Avstriya (Vyana): Türkiyənin Vyanadakı Səlahiyyətli səfiri Daniş Tunalıgil səfirliyə təca-

yüz edən 3 terrorçu tərəfindən şəhid edilmişdir. Təcavüzü ASALA terrorçuları etmiş və qaçmışlar .

**24 oktyabr 1975-ci il,** Fransa (Paris): Türkiyənin Parisdəki Səlahiyyətli səfiri İsmayıl Erezin avtomobilinə atılan güllələrdən səfir Erez və sürücü Talıb Yenər ölmüşlər. ASALA və Erməni Soyqırımı Ədalət Komandası terrorçuları qaçmışlar.

**28 oktyabr 1975-ci il,** Livan (Beyrut): Türkiyə səfirliyinə atılan raket ciddi maddi zərər vurmuşdur. Terror ASALA tərəfindən törədilmişdir.

**16 fevral 1976-cı il,** Livan (Beyrut): Türkiyə səfirliyinin baş katibi Oktar Cirit saat 18.45-də Həmra prospektindəki bir salonda terrorçu tərəfindən tapança ilə öldürülmüşdür. Terrorçu qaçmış, cinayət ASALA tərəfindən təşkil olunmuşdur.

**17 may 1976-cı il,** Federativ Almaniya (Frankfurt, Essen, Köln): bu şəhərlərin konsulluqlarına bomba ilə basqınlar nəticəsində böyük maddi zərər dəymişdir. Basqını heç bir təşkilat öz üzərinə götürməmiş, yalnız anonim telefon vasitəsilə onun ermənilər tərəfindən edildiyi bildirilmişdir.

**28 may 1976-cı il,** İsveçrə (Sürix): Qarantiya bankına və Türkiyə Çalışma Attaşesinə bomba basqınları nəticəsində maddi zərər dəymişdir. Turizm Attaşeliyi bürosuna qoyulmuş bomba zərərsizləşdirilmişdir. Basqınlar Erməni Soyqırımı Ədalət Komandası tərəfindən edilmişdir.

**2 mart 1977-ci il,** Livan (Beyrut): Türkiyə səfirliyinin hərbi attaşesi Bahəddin Qaraqaya ilə idarə attaşesi Elxan Özbabacanın avtomobillərinə bomba atılmış, terroçuların ASALA-dan olduqları üzə çıxmışdır.

**14 may 1977-ci il,** Fransa (Paris): Türkiyə Turizm Bürosuna bomba ilə basqın ciddi maddi zərər vurmuş, basqın Yeni Erməni Müqavimətı təşkilatı tərəfindən edilmişdir.

**29 may 1977-ci il,** İstanbul: İstanbulun türklər tərəfindən fəth edilməsinin 524-cü ildönümündə Atatürk hava limanında və Sirkəçi dəmiryol stansiyasında çox güclü partlayışlar olmuş, 6 nəfər ölmüş, 52 nəfər yaralanmışdır. Ətraf binalarda böyük dağıntılar olmuşdur. Telefonla Frans-Press agentliyinə basqının erməni qrupları tərəfindən edildiyi bildirilmişdir.





**6 iyun 1977-ci il,** İsveçrə (Sürix): Türk əsilli Hüseyn Bülbülün mağazasına bomba atılmış, nəticədə böyük maddi zərər dəymiş, bomba atanın kimliyi məlum olmamışdır.

**9 iyun 1977-ci il,** İtaliya (Roma): Vatikandakı Səlahiyyətli səfir Taha Carımaya saat 13.45 radələrində iqamətgahı qarşısında 2 terrorçu atəş açaraq onu ağır yaralamışlar. Taha Carım həmin gün xəstəxanada ölmüşdür. Terrorçuların Erməni Soyqırımı Ədalət Komandasından olduqları bilinmişdir.

**4 oktyabr 1977-ci il,** ABŞ (Los-Anceles, Kaliforniya): Ermənilər haqqında həqiqəti yazan prof. Stanford Şounun evi qarşısında bomba partladılmışdır. Bombanı 28 May Erməni Qrupunun partlatdığı telefonla bildirilmişdir.

**2 yanvar 1978-ci il,** Belçika (Brüssel): İçində bir türk bankı yerləşən bina bomba ilə dağıdılmışdır. Hadisə yeni Erməni Müqaviməti tərəfindən törədilmişdir.

**3 yanvar 1978-ci il,** İngiltərə (London): Bir türk bankına edilən bomba basqını böyük dağıntıya səbəb olmuşdur. Hadisəni Yeni Erməni Müqaviməti təşkilatı törətmişdir.

**2 iyun 1978-ci il,** İspaniya (Madrid): İspaniyadakı Türkiyənin Səlahiyyətli səfiri Zəki Günəralpın avtomobilinə 3 terrorçu tərəfindən açılan atəşlə səfirin arvadı, xanım Necla Günəralp və təqaüdçü səfir Bəşir Balçıoğlu oradaca ölmüş, sürücü Antonio Torres ağır yaralanmış və xəstəxanada ölmüşdür. Terrorçular qaçmışlar. Hadisə Erməni Soyqırımı Ədalət Komandası tərəfindən törədilmişdir.

**6 dekabr 1978-ci il,** İsveçrə (Cenevrə): Türkiyə səfirliyinə edilən və böyük maddi zərər vuran bomba basqını Yeni Erməni Müqaviməti tərəfindən edilmişdi.

**17 dekabr 1978-ci il,** İsveçrə (Cenevrə): Türkiyə Hava Yolları bürosuna edilmiş bomba basqını nəticəsində böyük

maddi dağıntı olmuşdur. Basqını ASALA təşkil etmişdir.

**8 iyul 1979-cu il,** Fransa (Paris): Türkiyə Hava Yolları əmək müşavirliyi və turizm bürolarına bomba ilə basqını Erməni Soyqırımı Ədalət Komandası etmişdir.

**22 avqust 1979-cu il,** İsveçrə (Cenevrə): Cenevrədəki konsul Niyazi Adalının avtomobilinə bomba atılmış, Adalı təsadüfən xilas olmuş, iki isveçrəli yaralanmışdır, sui-qəsdi ASALA etmişdir.

**27 avqust 1979-cu il,** Federativ Almaniya (Frankfurt): Türkiyə Hava Yolları bürosuna ASALA-nın bomba ilə basqını böyük maddi zərər vurmuşdur.

**4 oktyabr 1979,** Danimarka (Kopenhagen): Türkiyə Hava Yolları bürosu yaxınlığında partladılan bombadan iki danimarkalı yaralanmış, xeyli maddi dağıntı olmuşdur. Terror ASALA tərəfindən həyata keçirilmişdir.

**12 oktyabr 1979-cu il,** Hollandiya (Haaqa): Türkiyə Səlahiyyətli səfirinin 27 yaşındakı oğlu Əhməd Bənlərin avtomobilinə bir terrorçunun açdığı atəşdən Əhməd Bənlər hadisə yerində ölmüş, terrorçu qaçmışdır. Cinayət Erməni Soyqırımı Ədalət Komandası və ASALA tərəfindən törədilmişdir.

**30 oktyabr 1979-cu il,** İtaliya (Milan): Türkiyə Hava Yolları bürosuna ASALA tərəfindən atılan bombadan böyük maddi zərər dəymişdir.

**8 noyabr 1979-cu il,** İtaliya (Roma): Türkiyə səfirliyinin turizm müşavirliyinə ASALA-nın bomba basqını nəticəsində böyük maddi zərər dəymişdir.

Ermənilərin müxtəlif terrorçu təşkilatları tərəfindən bütün dünya ölkələrində türklərə, Türkiyənin diplomatlarına və ayrı-ayrı təşkilatlarına qarşı edilən sui-qəsdlərin, basqınların sayı-hesabı yoxdur.

Bu kitabda sənədləşdirilmiş terror aktlarının hamısını ayrılıqda göstərib, oxucularımızı yormamaq üçün bundan sonrakı hadisələrin yalnız ilini, yerini və sayını göstərməklə kifayətlənəcəyik:





Erməni terrorçuları ən çox onlara həmişə arxa olmuş, onların bəd əməllərinə dəstək vermiş Fransada fəaliyyət göstərmişlər. Belə ki, 1979-82-ci illərdə bu ölkədə erməni terrorçuları 61 hadisə törətmişlər. Bunlardan 1979-2, 1980-9, 1981-9, 1981-22, 1982-6, 1983-9, 1984-3, 1985-2, 1986-8 terror cinayətləri törədilmişdir.

Erməni terrorçularının fəaliyyətinə görə ikinci yerdə Amerika Birləşmiş Ştatları durur. Burada 4 ildə 19 terror əməliyyatı baş vermişdir. Belə ki, 1980-4, 1981-5, 1982-8, 1984-2 hadisə törədilmişdir. İranda 4 ildə 18 terror aktı baş vermişdir: 1980-1, 1981-3, 1983-6, 1984-8. İsveçrə və Livanın hər birində 15 hadisə, müvafiq olaraq 3 və 7 ildə törədilmişdir, İtaliyada 3 ildə 11, Kanadada 2 ildə 7, Belçikada 4 ildə 6, İspaniya və İngiltərədə müvafiq olaraq 2 ildə 5 və İngiltərədə 3 ildə 5, Yunanıstan, Avstriya, Danimarka və Almaniyada hər birində 3, Avstraliyada 2, Niderland, Bolqarıstan, Lüksemburq və Yuqoslaviyanın hər birində 1 terror basqını olmuşdur.

Qeyd: Yuxarıda göstərilən dövrlərdə (1979-1986) ermənilərin müxtəlif adlarla quldur basqınları təşkil edən terrorçu qrupları tərəfindən dünyanın müxtəlif yerlərində türk diplomatlarına, iş adamlarına, turistlərinə, vətəndaşlarına yalnız türk olduqları üçün sui-qəsdlər edilmişdir. Bu dövrdə terrorçu bombalarından, güllələrindən, 84 nəfər şəhid olmuş, 316 nəfər isə müxtəlif dərəcəli xəsarətlər almışlar. Dövlət binalarına, səfirliklərə, turist mərkəzlərinə, nəqliyyat vasitələrinə böyük maddi ziyan vurulmuşdur.

Budur, bütün dünya qarşısında özlərini ziyalı, mədəni yazıq, türklər tərəfindən qırılıb əzilmiş kimi göstərən ermənilər və onların əməllərinin nəticəsi!

## RESUME

In XX century Azerbaijan Republic have gained its independence for the second time and starting from that period and lasting up to nowadays every azerbaijanian feels a pain in heart and carries a grief with a deep condolences inside – genocide committed by armenians towards azerbaijanian, occupation of our lands, armenian fascism and indifferent attitude of the world towards this policy.

What is, in general, genocide? What is the genocide concept under international law and on which bases it could be referred to any period of the history of Azerbaijan?

First of all, let's undestand the meaning of genocide and give its precise definition in modern world lexicon.

As to the accepted meaning of genocide in modern world, genocide is the process of abolishing with intent because of difference in language, religion, ethnic and national belonging. It is accepted that the main term is that the process to be carried out by the government of any country. In general, genocide is a movement with intent to destroy of any people and ethnic group because of national, ethnic, racial or religious belonging.

All these cases that define the movement of genocide is encountered several times in the history of Azerbaijan people in XX century. What is the last aim of Armenian chauvinists in commitment of such a terrible and inhuman action? In order to answer this main question we have to address many times to historical facts. Now it is already the truth that starting from the old times and at any stage of the history, the Armenian used to have a betrayal and enemy position against Azerbaijan and Turkish people.

As mentioned a Russian sciencist Victor Semenov in his "History of Middle Ages", even in XI-XIII centuries the crusade arranged under appeal of Rome Pope against Turkish people for the sake of Jesus saving was guided the armenians. The throng of armenians being a slave for a long





time of such strong countries like Sefevi and Osman Empires have always been looking for the opportunity for their betrayer.

While speaking about the tragedy of genocide committed by fascists against the Jews, by the Serbs against the Muslims in Bosnia-Herzegovina, by Armenians against azeri in Azerbaijan, one remembers the following chronological historical events: in 1905-1907 – during the rule of Russian tsar, 1915-1918-1920 – mainly, the period of Azerbaijan People's Government, 1948-1953 – deportation of Turkish people during USSR period, since 1988 – dissolution of the former USSR and during the period of reformation of independent Azerbaijan Republic, 1992- extermination of Xojali and other places with intent to destroy by Armenian government, all this events could be referred to genocide. Let's pay attention: looking at the history of genocide committed where else known in the history of genocide one could observe such a situation? Almost, nowhere. In fact, Azerbaijan in the history of genocide is an exception. It turns out that the time, actual circumstances, political situation have been changed but the genocide policy of the armenians against the Turkish has not been changed. Sometimes such an opinion arises that this is only the matter of historians to deal with. But in fact, it is not like that. The issue of the genocide is to be investigated by historians, phychologists, lawyers, military authorities and experts of several other fields. The discovered bitter truth is that Azerbaijan within a century has not been ready to overçome the terrible tragedies of genocide. What is the national thought on bloody genocide newly committed? Thus, it means that it is time to step to a new level from the confession of the fact of the genocide.

It is known that in 1948, the "Convention on Genocide" has been adopted by the UN General Assembly. It was signed by the different countries of the world. This convention was signed by the government of Turkey in 1950 and the responsility for that was adopted. Isn't it a time for

Azerbaijan legislative authorities having a great respect to the international law acts, to issue a law to study the history of genocide and the genocide crimes committed against the azerbaijanians?! We can understand how difficult is to achieve the acceptance of the laws on the prevention and punishment of the crime of the genocide in the parliaments of different countries of the world. But there should be a legislative base for this problem in Azerbaijan. It will be very useful to issue a law for the other countries. It is also one of the ways to achieve its goal very rapidly for Azerbaijan having formed recently its diaspora and lobby. We have to confess that the armenians could create "genocide history" out of nothing happened events and make the world population to accept this as a genocide committed against them. But actually we, Turkish people - Anadolu and Azerbaijan turkish people are the victums of the real genocide committed by armenians. Having lived the real genocide of Azerbaijan, we could not prove it to the world community. It is one of our mistakes. We have lost a big time and in the result we have lost. Only now little by little we have managed to persuade the world community to believe that the armenians for hundred years had committed genocide against the azerbaijanians and made them for deportation. Garabakh fighting issue is a vital evidence to this. Acting with a claim of land and trying to get Garabakh, the armenians since old times till the end of XX century turned our land into "training ring". They never wanted to see the integrity of this saint land. On the contrary, trying to divide our land into pieces they lived with such a dream. Having suffered a lot, the native land of Ulu Gorgud never lost its pride. Never bend its knee in front of the enemy.

In spite of all this, the contracts Gulustan (1813) and Turkmenchay (1828) signed are the black spots in the history of Azerbaijan. Russia-Iranian war resulted in signing of the Gulustan contract. Northern Azerbaijan became under occupation of Russia. In 1828-1829, during Russia-Turkish war, Irevan and Nakhchivan khanates have been conquered. Later, the dissolution of Caucasus, the formation of dashnack government (1900), having compromised Irevan for the armenians and at last, giving the souverenity to the armenians lived in the mountain part of Garabakh are the black pages of the history of Azerbaijan.





In the result of bloody crimes of the history, Azerbaijan was divided into South, North, West and all have been isolated from each-other. During the period of great Russian empire tsarism, Azerbaijan became a target from different directions and our religious enemies accomodated the armenians kicked out from Iran, Turkey in the best places of our ancient tukish-oguz land. During the 70 years of Soviet Union regime opened a wide door for the armenians. They dreamed of forming "Great Armenia".

Thus, the dashnaks having found an ophenage in Azerbaijan territory and having eaten the delicious meals from our tables, turned the West Azerbaijan, ancient turkish-oguz land into "Armenia" without turkish people. Starting from the beginning of the century till the years 90th, bringing tragedy to our people managed deportation of everyone. Irevan khanate and the city of Irevan, having an ancient history, known since VII century, developed with prosperity during the Sefevi government, becoming famous as the place of fortresses, mosques, monuments, entirely became in the hands of betrayers... Starting from 1800 the villages of Western Azerbaijan have been conquered one by one, destroyed and renamed. In 1920 the process began to develop very rapidly and ended in mass deportation of azerbaijanian in 1948-1953. In 1988-1990 years the deportation reached its last stage. Addition to this, the armenian declared to the world as if the "poor armenian" live in the situation of a blocade.

At the same time, under the foreseen policy of our national leader Heydar Aliyev, a consequent and active foreign policy of solving the Garabakh problem by peace, to get free of our conquered lands has been worked out. Thus, starting from July 27, 1994 the minister of Defence of Ar-

menia, as well as the commander of Nagorni-Garabakh army, in writing approved to cease the shooting starting from March 12, 1994. Achieving to stop the shooting for such a long-term is the first stage of solving of the problem by peace and is important political step.

The decrees "About mass deportation of azerbaijanian from the historical ethnic land in Armenia SSR in 1948-1953" issued on December 18, 1997 and "About genocide of Azerbaijanian" issued on March 26, 1998 by our national leader Heydar Aliyev are the historical documents for Azerbaijan people and government.

The real legal-political value of Azerbaijan genocide was given by our national leader Heydar Aliyev. The decree signed by our national leader Heydar Aliyev on the eve of 80th anniversary of the March events of 1918, was the first legal-political value given to the actions of armenian nationalists. The decree dated 26 March, 1998, is a program document in the formation of the national memory of our present and future generation.

The book given to the judgement of the readers while paging the tragedic history written with blood of Azerbaijanian and at the same time with the heroism, one becomes a witness of all sufferings, the inhuman wildness, terrors, genocide committed against azerbaijanian by armenians, our historical enemies. It is a debt of every azerbaijanian to learn the bloody history, no matter how difficult it is, to fix in their minds and mainly to make a conclusion out of all goings by not forgetting anything. Many books have been published and several articles have been written with this regard. The authors of these articles, no mattar whether he is a historian or linguist or specialist of any other field, used many documents in order to prove their opinions and tried to generalize from their point of view.

The history of Garabakh formation, the first name of Garabakh, very ancient fortresses, art monuments, the conquer of Western Azerbaijan piece by piece in 1800, division of Azerbaijan into South(Gulustan- 1813), North (Turkmenchay-1828, transfer of armenians to Garabakh) and West (Russian-Turkish was, Irevan and Nakhchivan khanates occupation-1828-1829), the genocide in 1905-1907 committed by armenians against azerbaijanians in Baku, Ganja, Garabakh, Nakhchivan, Shirvan, Zengezur, Irevan, Shusha, Javanshir, Gebrail, Garyagin and in other parts of Azerbaijan, genocide committed by armenians against Turkey and Caucasus Turkish people(1906-1922), genocide with intent committed against our people in 1918-1920 (overturn the of National Government), deportation of more than 150 thousand of azerbaijanians from their own native land, from current Armenia(Irevan) territory to Azerbaijan and other places under instruction of the Soviet Government in 1948-1953, displacement of more than 200 000 azerbaijanian from Armenia in 1988, Sumgayit events (1988), 20th January (1990), genocide in Xojali (1992), tragedies of Shusha (1992), Lachin (1992), Kelbedjer (1993), Agdam (1993), Gebrayil (1993), Fizuli (1993), Gubadli (1993), Zengilan (1993) tragedies, the decree of our national leader Heydar Aliyev "About the genocide against Azerbaijan" and other historical events have been reflected in this book.

Of course, it is impossible to enlighthen widely the history of "Genocide" of azerbaijanian in this small piece of work. Our main aim is to appeal everybody in order not to forget the history of Azerbaijan genocide, to appeal for struggle against indifferent attitude of the universal to this tragedy. We have to remember from the Wholy Koran that every child born in azerbaijanian family should first learn to say "armenians are our enemies", later to say "mother, father", and should brought up with the word "Native land" in their mouth.

*İngilis dilinə tərcümə edən:*
*f.e.f.d, dosent, Lalə Əhmədova*

## ƏDƏBİYYAT:

1.Abbas Səhhət. Seçilmiş əsərləri. II cild, Bakı, 1976.

2.Abbasoğlu S.Ermənilər azərbaycanlıların soyqırımını etiraf edirlər. «İki sahil», 2001. 21 noyabr.

3.Arzumanlı V. 1918-ci il Quba qırğını. «Elturan» jurnalı, № - 1-2. Bakı, 1994.

4.Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı XX əsr). Bakı-1998

5.Azər Ə. Mart faciəsi (17-21 mart, 1918-ci il). «Azadlıq», 1991. 17 yanvar.

6.Azərbaycan EA Xəbərləri (tarixi-fəlsəfə və hüquq ser.), Bakı, 1989, № 4.

7.Azərbaycan tarixi, sənədlər və nəşrlər üzrə. Bakı 1990.

8.Aslan K. 1918-ci ilin mart qırğını. «Səhər», 1998, 28 mart.

9.Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin 10 illiyinə həsr olunmuş elmi-praktik konfrans. Bakı, 2002.

10.Arzumanlı V. Qafqaz İslam Ordusu və Azərbaycanın erməni-rus işğalından təmizlənməsi. «Elturan» jurn. Bakı, 1999, № 1-2, səh. 9

11. Arzumanlı V., N.Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998. səh.81)

12.Azərbaycan Dövlət Tarixi Arxivi, f.1114, siyahı 1, iş, 1054, vərəq 11-12.

13. Azərbaycan Dövlət Tarixi Arxivi, f. 57, siyahı 1, iş 77, vərəq 45-46; f.410, siyahı 1, iş 128, vərəq 68.

14.Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxivi, Əli Bayramov adına klubun fondu, iş 30, vərəq 33.

15.Azərbaycan Dövlət Tarixi Arxivi, f. 57, siyahı 1, iş 445, vərəq 90.

16. Abbasov M. Vətən borcu. Bakı, Şirvannəşr, 1999.

17. Аббасов М.Т., Черный январ. Азернешр. Баку, 1990 287 стр.

18. Abbasov H.M. Şeyxulislam Axund Ağa Əlizadə. Bakı, Hərbi nəşriyyat, 2000.





19. Azərbaycan Kommunist Partiyasının tarixi, Bakı, Azərnəşr, 1958.

20. Azərbaycan tarixi. Ən qədim zamanlardan XX əsrədək. I cild, Azərnəşr, 1994.

20a. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. «Azərbaycan» nəşriyyatı. Bakı, 1996. səh.602-607, 617-624.

21.Azərbaycanlıların soyqımırı haqqında 26 mart 1998-ci il Azərbaycan Respublikası prezidentinin fərmanı. – Tariximizin faciəli səhifələri. Azərbaycan Respublikası Milli Məclisinin nəşri, Bakı, 2000, səh.3-8.

22.Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Bakı, Öyrətmən, 1995.

22a. Arzumanlı V., N.Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998. səh.81

23.Архитектурные памятники Баку, М., 1946.

24.ASE, I-X cildlər.

25.Атешгах или храм огнепоклонников в Сураханах. Древности деревни шихово. Баку, 1925.

26. Axund Hacı Kərbəlayı Soltan Clizadə. Azərbaycan dərvişləri və rövzəxanları. Bakı, «Bozoğuz», «Nicat», 1995.

27.Ашурбейли Сара. История города. Баку, Азенешр, 1992.

28. Aştiyani A.J., Monğol tarixi, səh.569-farsca.

29.Azərbaycan SSR EA Xəbərləri 1989, № 4, s.38.

29a. Azərbaycan SSR EA Xəbərləri, 1971 № 1.

30. «Alik» qəzeti, 16 oktyabr 1962, №22

31.Azərbaycan tarixi şəcərə cəmiyyətinin xəbərləri, 4-cü buraxılış, B., 20 03.

32.Abbasov A., General Mehmandarov, B., 1977.

33.Abdulla Q. "Ölmək istəmirəm". "Əbilov, Zeynalov və oğulları" İstehsalat-ticarət kompaniyası. Bakı, 1999. 127 səh.

34.Азербайджанская ССР Административно-территориалное и деление. Баку, 1968.

35.Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, Bakı, 1963, səh.284".

36.Əzizqızı G. Müharibənin yolları ürəyimdən keçir. «Qızıl şərq» mətbəəsi. Bakı, 2006. 339 səh.
37.Azərbaycan tarixi I-II cildlər, Bakı, 1958-1960.
38.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
39.Алекперов А.К. Исследование по археологии и етнографии Азербайджан-Баку, 1960.
40.Агамалиева Н.,Худиев Р. Азербайджанская Республика (страницы политической истории), Баку, 1994.
41.Асадов С.,Мамедов И. Терроризм: причина и следствие. Баку издательство «Азербайджан». 2004. -248 стр.
42.Azərbaycan SSR-in MDOİA,f.410,s. 2. İ 69, vv. 181-187.
43. Azərbaycan KP MK yanında Partiya tarixi institutunun partiya arxivi, f. 1, s.74 i.10 vv. 12.13.
44. Azərbaycan KP MK yanında Partiya tarixi institutunun partiya arxivi, f. 1, s. 169, i. 249, vv. 33-41, 45.
45.Azərbaycan SSR Ali Sovetinin məlumatları, 1981, maddə 12.
46. Azərbaycan KP MK yanında Partiya tarixi institutunun partiya arxivi, f. 1, s. 169, i. 249, v. 2.
47. Yenə orada, vv. 3-6 a.
48.Azərbaycan tarixi, 7 cilddə, s 5, B., 2001;
49.Azərbaycanın təşəkkülü, yazan E.M.Əhmədliyyə mətbəəçilik
şirkəti, 1918. Türkiyyat İnstitutu kitablığı 5307.
50. "Azərbaycan" qəzeti, 1919, 30 mart.
51 "Azərbaycan" qəzeti, 18 oktyabr 2007-ci il.
52. Azərbaycan KP MK yanında partiya tarixi arxivində saxlanan tərcümeyi-haldan.
53. Aydemir Ş.S., Makedoniydan Orta Asiyaya. Enver paşa, s., 3, İstanbul, 1993;
54. «Azərbaycan» qəzeti, 20.VII..1990.
54a. «Azərbaycan» qəzeti, 10 oktyabr 1991-ci il .
55. «Azərbaycan» qəzeti, 4 aprel 2002.
55a. «Azərbaycan» qəzeti, 19 sentyabr 1992-ci il
56. «Azərbaycan tarixi», 7-ci cilddə, s.,7, Bakı 2003;
57. «Azərbaycan» qəzeti 13 nəşrinin əvvəl 1918.





58. «Azərbaycan tarixi» sənədlər və nəşrlər üzrə, B., 1989, s 221.
58a. «Azərbaycan tarixi» kitabı. Qarabağ salnaməsi.
59. Arzumanlı V., V.Həbiboğlu, K.Muxtarov. 1918-ci il qırğınları, s.18
60. Anahid Terminasiyan. Müasir tarixdə Qafqaz. Səh. 63.
61. «Azəri türk», 1925-ci il, səh.6
62. Azərbaycan Xalq Cümhuriyyəti. Bakı, 1998.
63. Azərbaycan tarixi. V-VI-VII cildlər, Bakı 2000-2003.
64.Azərbaycan Milli Ordusunun yaranması və Azərbaycan istiqlalının qazanılması, Bakı, 1998.
64a. Ali Şıxlinski (Жизнь и деятельность), B., 1975.
65. Bakı Kommunist komissarlarının son günləri. Bakı, 1928, səh.13-14.
66. Bünyadov M., Y.B.Yusifov. (Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək)). Ali məktəblər üçün dərslik.
67. Balayev A., Azərbaycan milli-demokratik hərəkatı, səh.35.
68. Bablyumyan S., «Pokazıvaet Antenna-3». Oçerki. Res. Erevan. 1996. st.91.
69. Bakıxanov A.Gülüstani-İrəm. Bakı, 1951.
70. Bahar Sonam. "Qan gölməçələri". "Yeni Nəsil" nəşriyyatı. Bakı. 2000. 183 səh.
71.Balaev A.Азербайджанское национально-освободительное движение в 1917-1920 гг. Баку, 1990.
72.Бартолд В.В. Место прикаспийских областей в истории мусулманского мира. Баку, 1925.
73. Буниатов З.М. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку, 1964.
74.Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960.
75.Bunyatov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı 1989.

76.Бушев П.П. Историйа посолств и дипломатических отношений русского и иранского государства в 1566-1612 гг. (по русским архивам). М., 1976.
77.Britaniya imperializmi Bakıda və İranda. 1917-1918 (xatirələr), Tiflis, 1925, səh.7,9.
78.Babayev B. Əmircan. Bakı, 1986.
79.Bağırova-Rzayeva Ruqiyyə. Tarzən Mirzə Fərəc haqqında xatirələrim. Bakı, İşıq, 1986.
80.Bakıxanov A.Q. Qolistan-i İran. Bakı, Glm, 1991
81.Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, Azərnəşr, 1970.
82.Бакинский настольный календарь на 1905 г. Баку, 1904.
83.Бакинский спарвочный календарь на 1898 г. Баку, 1896,1897.
250.Бюллетень БК АКП (б) 1, январ-феврал, 1927 года.
84.Брук С.И. Население Мира. Етнодемографический справочник. Ям., Наука, 1986.
85.Bayramov M. Türkün qəbri «Şirvan» qəzeti, 17 aprel 1993-cü il.
86.Bəşirqızı Z. Türkçülüyün fədaisi, «Xalq» qəzeti, 14 oktyabr, 2000.
87.Bünyadov Z. Qırmızı terror, Bakı, 1993.
88.Bünyadov Z. İttiham. «Azərbaycan gəncləri» qəzeti, 1990, 24 may.
89.Bunətov Z. Poçemu Sumqait? (Ситуационный analiz). «İzv».AN i Azerb.SSR (serii istorii, filosofii i prava), 1989, № 2.
90.«Бакински рабочи»,11 апрел 1918
91Bakı şəhər. Hərbi Prokurorluğunun sənədlər qovluğu, 1992-ci ilin istintad materialları: zabit Q.D.Deyçukovun işi üçün arayış.
92. Bakıxanov A. Gülüstani-İrəm. Səh. 80 və 173.
93.Bir nəslin dramı. Ankara, 1996.səh.155.
94.Bəhramov C.Ə. «Buraxılmış bir siyasi səhvin bağışlanılmaz acı nəticələri» əl yazması. 11 səh.





94a.Yenə orada.
95.Bəhramov C.Ə. «Azərbaycanlıların öz tarixi etnik torpaqlarından deportasiya olunmaları, etnik təmizləmə və soyqırıma məruz qalmaları haqqında qısa tarixi» əl yazması. 9 səh.
96.Baxturina A.Ö.. Okrainı Rossiyskoy imperii: qosudarstvennoe upravlenie i natsionalnaya politika v qodı pervoy mirovoy voynı (1914-1917 qq.), Moskva, 2004.
96a.Baykara Hüseyn "Azərbaycan İstiqlal mübarizəsi tarixi". "Azərbaycan Dövlət Nəşriyyatı". Bakı, 1992. 267 səh.
97.Cəfər Qiyasi. Naməlum turk zabitinə xatirə abidəsi. «Zaman» qəzeti, 30 yanvar, 1993.
98.Cəmilzadə H. «Azərbaycanın ilk milli qəhrəmanları». «İşıq». Bakı, 1993, 165 səh.
99.Cəmilzadə H. Azərbaycan polisinin milli qəhrəmanı. Azərbaycan «Bilik» maarifçilik cəmiyyəti, «Bayatı». Bakı, 1993. 32 səh.
100.Сумбатзаде А.С. Историческайа наука в Азербайджане. Баку, 1985.
101.Cəfərov N. Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir. Bakı, 2002.
102.Doç.Dr.Azmi Süslü. Ermeniler ve 1915, tercih olayr. Ankara, 1990, s. VII.
103.Denstervil. Göstərilən əsəri, səh. 281; Y.A.Tokarjevski. Xarici müdaxilə tarixindən, səh. 149-150.
103a.Dəlili H.Ə. Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumat.
104.Etimadüssəltənə. Miratülbəldan, cild 1, səh 185.
105.Erm.MDTA. f.227, iş 395, səh.44.
105.Erməni işləri üzrə komissar V.Avanesovun daşnaklara müraciəti . "Molot", 1919, 2 avqust
106. Erm. SSR M.D.A.F. 114, i 87 v 25.
107. Erm. SSR M.D.A.F. 114, i 87 v 25.
107a.«ELM» qəzeti. 1 yanvar 1992-ci il, № 3).
108. Ermənistan SSR EA-da «Yeni dünya» qəzeti.

4.8.1995, № 21.
108a. E.Quliyev, A.Quliyeva, D.Quliyev «Xocalım sağalmaz yaram mənim» Bakı, 2012. 120 səh.
109.Əliyev İ. "Dağlıq Qarabağ". Tarixi faktlar, hadisələr "Elm nəşriyyatı". Bakı, 1989. 116 səh.
110. Əliyev Ə. Biz əzablı ömür yaşadıq. «Yazıçı» ədəbi nəşrlər evi. Bakı.1994. 63 səh
111.Əiyev Ə. Əlincə yaddaşı. Naxçıvan, 1914-1992, Bakı, 1997.
112.Əliyev C., Budaqov B. Türklər, Azərbaycanlılar, Ermənilər: Tarixi həqiqətlərin soyqırımı. Bakı, 2003. 71 səh.
113.Əliyev M. Qanlı günlərimiz. (1918-1920-ci illər). Bakı, 1993.
114.Əlizadə M. "Milli müdrikliyin Heydər Əliyev zirvəsi". "TC firmasının mətbəəsi". Bakı. 2006. 743 səh.
115.Əlizadə M. "Heydər Əliyev inamı və idrakı". "Bakı universitetinin nəşriyyatı". Bakı. 2006. 227 səh.
116.Ələkbərli Ə. Qərbi Azərbaycan. Vedibasar mahalı. I cild, Bakı, Ağrıdağ, 2000.
117.Əjdər Fərzəli. Müqəddəslik yollarında. «Azərbaycan gəncləri», 1 mart 1994-cü il.
118. Əli Rursəfər. Qacar dövründə yerli Qafqaz hökumətləri, səh. 89.
119.Əiyev H. 31 mart azərbaycanlıların soyqırımı münasibəti ilə Azərbaycan xalqına müraciəti, «Respublika» qəzeti, 2001, 28 mart.
119a.Əliyev Ə. «Göyçədə Zod kəndində ermənilərin törətdikləri soyqırımları». «Xalq» qəzeti. 31 mart 2011-ci il.
120. Məhərrəmov N. «Daşnaksütyun» və Azərbaycan taleyi. Bakı, 1995.
120a.Əhmədova F. Unudulmamalı faciə, «Azərbaycan» qəzeti. 03 mart 2000-ci il).
121. Göyüşov R. «Qarabağın keçmişinə səyahət». Azərbaycan Dövlət Nəşriyyatı. Bakı-1993. 80 səh.
122..Haqverdiyev T.Gədəbəy, Ulu yurdun yaddaşı. Bakı, 1998.





123..Həbiboğlu Vəli. Keşlə və keşləlilər. Bakı, örnək, 1995.
123a.Həbiboğlu Vəli Məcidov. Maştağa, Bakı, 2003, səh. 12-60)
124. Həbiboğlu Vəli. Türk dünyasının qüdrətli hökmdarları, xalqları, sərkərdələri. Bakı, 1996.
125. Həbiboğlu Vəli. Abbasqulu ağa Bakıxanov. Bakı, Gənclik,1993.
126..Həbiboğlu Vəli. Qədim türklərin dünyagörüşü. Bakı, Qartal, 1996
127. Həbiboğlu Vəli.Azərbaycanlıların soyqırımının təşkilatçısı. Bakı, Qartal, 2001.
128..Həsənov Cəmil. Ağ ləkələrin qara kölgəsi. Bakı, Gənclik, 1991.
129..Hüseynova-Sultanova Səmayə. Şərəfli ömür. Bakı, 2001
130..Həsənli Nəriman. Qısa bir ömrün sorağındayam. Bakı, Gənclik, 1995.
131..Həsənli C. 1918-ci ilin martı; Azərbaycanda türk-müsəlman soyqırımı. «Azadlıq» qəzeti, 1998, 31 mart.
132.«Hümmət» qəzeti, 1918, 17 aprel.
133.Həsənova A. Seyfi Sarayinin «Gülüstan» tərcüməsinin dili. Bakı, 2005.
134.Həbiboğlu V. Azərbaycanlıları. soyqırımının təşkilatçısı, Bakı, «Qartal», 2001-ci il, səh. 56, 58, 69, 75,
134a.Həbiboğlu V. «Böyük Ermənistan» yaratmaq xülyası, «Respublika» qəzeti. 3 aprel, 1999.)
135.Hər iki məktub Alban tarixçisi Moisey Kalankatlının «Alban tarixi» əsərindən götürülmüşdür. Bax: əsərin Yerevan nəşri, 1984, səh.149.
136..Həmid bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. 1961.
137..Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı,1988.
138..Həsənov N. İranın ən yeni tarixi (1870-1917). Bakı, 1973.
139.Həsənov Ə. Qarabağ müzakirə olunur.Bakı, 2006.

140. Həsənov H., Umudov V., Paritet qəzeti. № 38 (777). 7-8 aprel 2005-ci il.
140a.Həsənov Həbib. «Silinməz adlar, sağalmaz yaralar». 1997-ci il
141.Xoyski Fətəli xan. Həyat və fəaliyyəti. Bakı 1998, səh. 33.
142.«Xalq» qəzeti. 1 aprel 2004-cü il.
143.Xəmsə – beşlik deməkdir. Adları çəkilən beş mahala – «Xəmsə» Deyirdilər.
144.Xalilov Dj. A. Materialnaya kultura Kafkazskoy Albanii (IV tıs.do i.e-III v. n.e.).Baku, 1985.
145.Хаджи Мурат Ибрагимбейли. Российа и Азербайджане в первой трети XIX века. Москва, 1971.
146.İsmayıl Mahmud. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1993.
147. İsayev Ə. «Azərbaycanın 1905-1906-cı illərin qanlı olayları». (Böyük ədib Məmməd Səid Ordubadinin gözü və sözü ilə). 2 aprel 2007-ci il. № 71 (4588).
148.İbrahimov M.Həqiqət və ədalət naminə.«Odlar yurdu»,1989,№ 16.
149.История Азербайджана. Баку, 1979.
150.Иессен А.А. Из исторического прошлого Милско-Карабахской степи. МИА, 125, М.-Л., 1965, с. 10-35.
151.İbrahimli H., Səməd bəy Mehmandarov, B., 1946.
152. İmanov V. "Xalq" qəzeti. 24.4.2005. 5-ci səh.
153.İstefada olan podpolkovnik Rüştü, Bakı yollarında. Hərbi məcmuə № 93, səh.24-25
154.İsmayıllı B. Azərbaycanda 1918-ci ildə erməni daşnaklarının törətdikləri soyqırımlarının qarşısını xilaskar Osmanlı türkləri almışlar.
154a. «Xalq» qəzeti. İslam Sadıq, şair-publisist. «Soyqırımı türklər yox, ermənilər törətdilər». 29.03.2011-ci il
155.«Yeni Azərbaycan» qəzeti, 31 mart 2000-ci il.
156. İsmayıl M. Azərbaycan tarixi. Bakı, Azərnəşr. 1993. 271 səh.
157. «İzvestiya» qəzeti. 1992.III.18.
158.XVIII əsrin I yarısında erməni-rus münasibətləri, II





cild, II hissə, Yerevan, 1967, səh.204-205.
159.İlkin Qılman. Türk Ordusu Bakıda. Bakı. 2003
159 a.«İstoriçeskie faktı o deənıən arмən na azerbaydjanskoy zemle». Baku, 2003 q.
160.История Азербайджана. Баку, 1994.
161.İHSPA, f.1, siyahı 260, iş 285, vərəq 135.
161a Ибрагимов З. Револйусийа 1905-1907 гг. в Азербайджанэ в первой трети XIX века. Москва, 1971.
162.Jurnal «Şimali Qafqaz». Münhen. 1938, № 55-56.
163. «Kaspi"» qəzeti, 3 yanvar 1906-cı il.
164 «Kaspii» qəzeti, 18 mart 1906-cı il.
165.«Kaspi» qəzeti, 31 mart 1906-cı il.
166. «Kaspi» qəzeti, 10 iyun 1906-cı il.
167.«Kaspi» qəzeti, 18 iyul, 1906-cı il.
168. Kantemir F., Enver paşanın son günləri, İstanbul, 1943.
169. «Kommunist» qəzeti, № 78. 2 dekabr 1920. v.81.
170. Kayabalı J.,və S.Arslanoğlu. İranın Anadoluya uzanan kölgəsi. 1953-1989. Ankara, 1990, səh.281.
171. Yenə orada, f. 1, s. 74, i. 123, v. 88.
172. Yenə orada, f. 1. s. 125, i 107, v. 107.
173. Yenə orada, f. 1, s. 125, i. 107, v. 68
174.Kaçaznuni. Ov."Daşnaksütyun"un daha işi yoxdur?-Tiflis, 1927.Təkrar nəşri. Bakı, 1990, səh.21;
175.Kolesnikova. N.N. Bakıda Sovet hakimiyyəti uğrunda mübarizə tarixindən, səh.71.
176.Киракос Гандзакечи. Историй Армении. Баку, 1946; Москва, 1976.
177.Казиев М.А. Из истории револйучонной борбы бакинского пролетариата. Баку, 1956.
178.Kərbəlayi Rzaəli Nazim. Qəsidələr, Çavuşilər, Növhələr. Bakı, Araz, 1998.
179.Красный Баку, 1925, № 5,7,8,9,10
180.Краткий путеводитель по древности гор.Баку и его районов. Баку, 1925.
181. Kazımov M.D.,Piriyev V.Z. Zeynəddin bin Həm-

dullah Qəzvin, Zeyl-e tarix-e qozide (fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər

182«Kommunist» (Ermənistan KP MK-nın orqanı), 4. 1.1989.

182. «Kaspii», 17 may 1905. №9.

183. Kolesnikova N.N. Bakıda sovet hakimiyyəti uğrunda mübarizə tarixindən, səh.109.

184. "Kommunist" qəzeti, 11 oktyabr 1920-ci il, № 73.

185. "Kommunist" qəzeti,1920, 19 iyul.

186.Karibi. Krasnaya kniqa. Tiflis, 1920-Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1989, № 4, s. 152.

187. QAPPODAR. f.277,s2, i.26, v.1.

188.QAP-PODAR.f.277, s.2, i.26, v.6-arxası.

189. QAPPODAR,f.277, s.2. i.16, v.18.

190. Yenə orada.

191.Qasımov V., Əsgərov R. Mustafa Kamal Atatürk Türkiyə Böyük Millət Məclisinin Banisidir. "MMA"-nın mətbəəsi. Bakı, 2003, 26 səh.

192.Qasımov A. XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri, «Naxçıvan Azərbaycan tarixində» kitabında. Bakı, 1996.

193.Гасанов И.М. Частновладелческие крестйане в Азербайджане в первой половине XIX века. Баку, 1957.

194.Qədir A. Goranboy Qartalları. «İşıq». Bakı, 1994, 139 səh.

195.Quliyev Ə. 1903-cü ildə Bakıda ümumi iyul tətili. Bakı, 1949.

196.Quliyev D. "XX əsrin qan yaddaşı". "Azərbaycan Texniki Universiteti mətbəəsi". Bakı. 1998. 152 səh.

197.Quliyev D. "Şəhid idmançılar". "İşıq" nəşriyyatı. Bakı. 1995. 82 səh.

198.Quliyev Ə.N. Azərbaycan-Rusiya münasibətləri tarixindən (XI-XVIII əsrlərdə). Bakı, 1958.

199.Qumilyov L. Qədim Türklər. M.,

200.Qeybullayev Q.A. Qarabağ (Etnik və siyasi tarixinə dair). Bakı, 1990.





201.Quliyev V. Azərbaycnda erməni zülmü, Bakı, 1964, səh.14.

202.Qiyasi Çəfər. Abşeron boyları, Bakı, Gənclik, 1973.

203.Qılman İlkin. Bakı və bakılılar. Bakı, Zaman, 1998.

204.Quliyev V., və b. Azərbaycan Demokratik Respublikası. «Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi». Bakı, 1992, 162 səh.

205.Qurbanova L., Piriyev M. Azərbaycan-Türkiyə münasibətləri (1920-1922). Sənədlər və materiallar. Bakı, 2002.

206.Qorun K.. «Armyanskoe dosye». Baku, 1993 q.

206a.Qlinka S.H. Ermənilərin Azərbaycana köçürülməsi. «Azərbaycan» nəşriyyatı. Bakı, 1995. 89 səh

207.Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 50 c., s. 81-82

208.Mahmudov Y., (baş redaktor) və b.Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası.I-II cild. «Lider nəşriyyat». Bakı-2004. 903 səh.

208a.Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. «Təhsil» nəşriyyatı. Bakı, 2005. 377 səh.

209. Mirzə Bala. Azərbaycan milli hərəkatı, səh. 132-133.

210.Mircəfər Pişəvəri. Sesilmiş əsərləri, 1965-ci il, səh.398

211.Mirzə Bala. Azərbaycan milli hərəkatı. Səh.129

212. "Mücahid", may-aprel, 1962.

213.Mamedov S.A. İstoriçeskie svyazi azerbaydjanskoqo i armyanskoqo narodov vo vtoroy polavine XVII pervoy treti XVIII v. Baku, 1977.

214.Mahmud İsmayıl. Azərbaycan tarixi. "Azərbaycan ensiklopediyası" nəşriyyatı. Bakı, 1997. 314 səh.

215.Mahmud İsmayıl. Azərbaycan tarixi. "Azərnəşr". Bakı, 1993. 271 səh.

216.Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Azərbaycan Respublikasının Milli Məclisinin Nəşriyyatı. Bakı, 2000. 203 səh.

217.Məmmədov İ "İrəvan dəftəri". "ADİLOĞLU" nəş-

riyyatı. Bakı, 2002. 208 Səh.
218.Məmmədov V. Sədərək şəhidləri. Bakı, 1998.
219.Məmmədov V. Qeyrət qalası. Bakı, 1999.
220.Mahmut E.B. Atatürk İhtilalı. I. Cumhuriyet. Bakı. Çağdaş Matbaacılık ve Yayıncılık Ltd. Şti. 109 səh.
221.Mehdiyev R., Orucov H. "Müstəqilliyimiz əbədidir". Heydər Əliyev. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar müsahibələr. Dördüncü kitab. İyun, 1995- noyabr, 1995 "Azərnəşr".Bakı.1997. 478 səh.
222.Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959.
223.Məmmədzadə. M. B. Azərbaycanın milli hərəkatı. Bakı. 1992. Azərbaycan Cümhuriyyəti (məqalələr məcmuəsi). Bakı, 1998.
224.Милман А. Политический строй Азербайджана в XIX начале XX веков. Баку, 1966.
224a.M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. «Azərbaycan Ensiklopediyası» Nəşriyyatı-Politqrafiya Birliyi. Bakı, 1998. səh. 75-101, 125-141, 152-156.
225.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
225a.Mirzə Adıgözəl bəy, Qarabağnamə, B., 1950.
226.Nərimanov N. K istorii naşey revolyutsii v okrainax. Azərbaycan Respublikası SPİHMDA, f. 609. Siyahı 1. İş 456.
227.Nəsibzadə N. Sərhədlər. –«Elm», 17.V.1989.
228."Наше времйа" газети,1919, 2 апрел.
229.Nemətova M.S. Azərbaycanın epiqrafik abidələri (XVII-XVIII əsrlər).Bakı, 1963.
230.Новоселтсев А.П. Города Азербайджана и Восточной Армении в XVII-XVIII вв. «История СССР»,1959,№ 1.
231.Новоселтсев А.П. Из истории классовой борбы в Азербайджане и Армении XVII-XVIII вв. «Исторические записки» АН СССР, 1960, № 67.





232.Nəvvab M. 1905-1906-cı illərdə erməni – müsəlman davası. Bakı, 1993.
233.Nəsibzadə N. Azərbycan Demokratik Respublikası.Bakı, 1990.
234. Nalbandyan: Ermənistan SSREA-da «Yeni dünya» qəzeti.
4.8.1995 №21.
235.Narodnosti Kafkaza. Petroqrad, 1916.
236. «Hayrenik» (Boston), 1966, №5. səh.35
237.Nəzərli Səfalı. Heydər Əliyev Atatürk haqqında. Bakı, 2003.
238.Nərimanov N. Seçilmiş əsərləri. Bakı, 1973.
238a.Nəbioğlu. Azərbaycanın soyqırımının təşkilatçısı. Bakı, 2001, səh. 46).
238b.Yenə orada.
239.Nəzirli Ş.,Arxivlərin sirri açılır. Bakı, 1999.
240. Nərimanov N. Əsərləri. 2-ci cild, s. 188
241.Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995
241a.Nemanzadə Ö.F. Seçilmiş əsərləri, Bakı, 1992. səh. 96-97.
241b.Yenə orada.
242.Ordubadi M.S. Qanlı illər. Bakı, 1991, səh.44
243.Ordubadi M. Qanlı illər. Bakı, 1991.
244.Присоединение Восточной Армении к России, том I, Ереван, 1972, с.562
244a.Onullahi S.M. Erməni msillətçiləri və İran. «Maarif» nəşriyyatı, Bakı, 2002, səh.51-65.
245. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. «Azərbaycan» jurnalı,
1964-cü il, № 7,8,9).
245a.Rəsulzadə M.Ə..Siyavuş naşeqo veka. O panturanizme, Baku, s.26).
246. RatqauzerY. Bakı Kommunist komissarlarının həbsi və məhvi. Bakı, 1928, səh.29.
247.Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

248. Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, s.38.
249. Rzai Ə.. İranın on min illik tarixi, cild 4, səh.92.
250. «Respublika» qəzeti. 3 may 2007-ci il. İrəvan qədim Azərbaycan şəhəri olmuşdur.
251.Rahid Ulusel. Ulutürklük. Qlabollaşma çağında Milli özünüdərketmə və geostrategiya. Bakı, 2002.
251a. Rüstü. Bakı yollarında. Hərbi məcmuə № 93, səh.78.
251b.Yenə orada.
251c. Yenə orada.
251ç. Yenə orada.
251d. Yenə orada.
252.Süleymanov M., Mehmandarov, B., 2000.
253.Sov.İKP MK yanında MPA, f. 461,s.1. məruzə № 45252, v..1.
254.Sadıqov H. «Ermənilərin 1918-1920-ci illərdə Azərbaycanda törətdikləri qırğınlar həqiqi mənada soyqırım idi». «Azərbaycan» qəzeti. 31 mart 2005-ci il.
255. "Sovet Ermənistanı", 23 sentyabr 1960-cı il, № 190.
256.Semyonov V. «Orta əsrlər tarixi» Moskva, 1975.
257.SSRİ XİN Arxivi, i 56822 v. 90.
258.SSRİ-in Arxivi, i 54882, v.20
259.Süleymanov M., Nuru paşa, Bakı 1999;
260.Sadi Bayram. Qaynaqlara görə Güney-Doğu Anadoluda proto-türk izləri. Türk dunyası araşdırmaları vəqfi.Naziran, 1988.
261.Səməndər R. «Şəhidlər». «Gənclik», Bakı, 1990, 443 səh.
262.Сеидзаде Д. Из истории азербайджанской буржазии в начале XX в. Баку, 1978.
263.Siyasi tarix. "Şur"nəşriyyatı. Bakı, 1995. 158 səh.
264.Süslü. 3.A. Göstərilən əsəri, s.144 (1).
265. Süslü A. Göstərilən əsəri, s.145 (1).
266. Yenə orada (6).
267.Sarabski Hüseynqulu. Köhnə Bakı. Bakı, Yazıçı, 1982.





268.Səlimov (Şağani) T.Q., Abdullayev F.F. Qala və qalalar. Bakı, 1992.
269.Süleymanov Mehman. Azərbaycanda türk şəhidlikləri. Bakı, 2000.
270.Süleymanov Manaf. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərnəşr, 1989.
271.Sabir M.Ə. Hophopnamə, III-c, Bakı, 1965.
271a.Seyid Ağa Axundzadə. Mart hadisəsi 1918-ci və yaxud, Nuru Paşa Ordusunun Bakının işğalı. Bakı, 1919.
272.Suver Akkan. Atatürkü yaşamaq. Bakı, 2003.
273.Şirinoğlu V. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı, sənədlər və materiallar. Bakı, 2001
274.Şeyxzamanlı N., Azərbaycan istiqlal mücadiləsi xatirələri., Bakı 1997.)
275.Şavrov. N.İ. Novaya uqroza russkomu delu v Zakavkaze: predstoyaşaya rasprodaja Muqani inoroçom S.P.b., 1911, s. 59 və
b. Üçüncü dövr
276.Şamaxı qırğını. 1918. «Şirvan» qəzeti, 26 may 1993.
277.Şamaxıda və Bakıda törədilən vəhşiliklərin ifşası kölgədə qalmışdır. 80 il əvvəl, 1918-ci ilin mart qırğınları. «Vətən səsi», 1998, 27 mart.
278.Şaumyan S. Əsərləri I cild, səh.52
279. Tokarjevski Y.A. Bakı bolşevikləri 1918-ci ildə Azərbaycanda alman-türk müdaxiləsinə qarşı mübarizənin təşkilatçılarıdırlar. ÜİK (b) P MK yanında MELİ Azərbaycan filanın əsərləri, Bakı, 1947, 6-cı cild, səh.165 .
280.Tahir Sünbül. Azərbaycan dosyası. Ankara, 1990, səh.95.
281. Tokarjevski Y.A. Bakı bolşevikləri…səh. 182.
282.Türközü N.K.. Osmanli ve sorget belgeleriyle ermeni mesalimi. Ankara, 1983, s.145.
283.Tağıyeva Ş.Ə. XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlərinin vəziyyəti. Bakı, 1969.
284.Tağızadə S.Unudulmaz görüşlər. Bakı, Gənclik, 1977.
284a. «Tarix» qəzeti. 1990, 22 dekabr.

285.Utkan Qocatürk, Atatürk, Bakı, 1991.
286.Vəliyev D. və b. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada. Hadisələr və faktların xronikası. Bakı, «Elm» nəşriyyatı, 1994. 181 səh.
287."Vperyod" qəzeti, 1919, 6 aprel
288.Veliçko V.L. «Kafqaz», S.Peterburq, 1904, səh.56
289.Весь Баку. Городская спарвочная и адресная книга на 1927 г. Баку, 1926.
290.Весь Баку. Адресный и справочный ежегодник. 1923, Баку, 1922.
180.Yusifov Y. «Azərbaycan» adı haqqında yeni mülahizələr.-Azərbaycan onomastikası problemləri, III Bakı, 1990.
291.Yusifov T., Məmmədov C. "Tərtər şəhidləri". "Azərbaycan" nəşriyyatı. Bakı, 1993. 160 s.
292.Yüceer N.,Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, Ankara, 1996;
293.Zubaryev D. Qarabağ əyaləti. Bakı, 1836
294.«Zerkalo» 26 yanvar 2005 q.
295.Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli
Şurası iclaslarının protokolları. Bakı. 2006. səh. 31, 130, 132.





## MÜNDƏRİCAT

Ön söz ........................................................................6

Giriş ........................................................................11

**I. fəsil:** Azərbaycan Respublikası (qısa tarixi oçerk) .........14

**II. fəsil:** Çar Rusiyasının Qafqaz siyasəti və Şimali Azərbaycanın işğalı ........................................................................53

2.1. I. Pyotrun rus xalqına "Vəsiyyətnaməsi" və onun əsas mahiyyəti ........................................................................75

2.2. I-II Rusiya-İran mübaribələri (1804-1813, 1826-1828) Kürəkçay (1805), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrin imzalanması və onların nəticələri ............79

2.3. XIX-XX əsrin əvvəlində Şimali Azərbaycanda çarizmin azərbaycanlılara qarşı deportasiya və etnik təmizləmə siyasəti ........................................................................126

**III fəsil:** Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması və azərbaycanlıların soyqırımı məsələləri dövlət sənədlərində ........................................................................142

3.1.Azərbaycan Xalq Cümhuriyyəti (AXC) (1918-1920) 142

3.2. 31 mart1918-il Şimali Azərbaycanda azərbaycanlıların soyqırımı (1918-1920114) ........ 146

3.3. Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı (1917-1920 203) ........ 259

3.4. Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaranması və onun xilaskarlıq missiyası ........ 280

**IV. fəsil:** Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra azərbaycanlıların soyqırımının davam etdirilməsi ........ 324

4.1. 1920-1953-cü illərdə Sovet hakimiyyətinin antiazərbaycan siyasəti və onun ağır nəticələri ........ 324

4.2. XX əsrin 1950-1990-cı illərində Sovet hakimiyyətinin Azərbaycan etnik siyasəti ........ 346

**V. fəsil:** Azərbaycanın dövlət müstəqilliyinin bərpası və azərbaycanlıların soyqırımı məsələləri Azərbaycan Respublikasının dövlət sənədlərində ........ 379

5.1.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması və azərbaycanlılara qarşı soyqırımı siyasəti. Ermənistanda qərbi azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti . 379

5.2. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası Haqqında Bəyannamə ........ 380





5.3. Xocalı soyqırımı ........ 388

5.4. Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Xocavənd, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının işğalı və Ermənistan Ordusunun dinc əhaliyə qarşı törətdiyi soyqırımı ..... 408

5.5. 18 dekabr 1997-ci il tarixli «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı ........ 440

5.6. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il fərmanı ..... 448

5.7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Mart Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti ........ 454

5.8. Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı ........ 472

5.9. Azərbaycan Respublikası İnsan Hüquqları Üzrə Müvəkkilinin (Ombudsmanın) 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Bəyanatı ........ 480

**VI fəsil:** XIX əsrin sonu və XX əsrin əvvəlində Osmanlı Türkiyəsi, böyük dövlətlərin xarici siyasəti haqqında qondarma «erməni» məsələsi ........ 486

6.1 «Şeyx Əbubalının Osman bəyə (Türk Sultanına): vəsiyyəti. Sənədlər» ........ 486

6.2. Türkiyədə erməni üsyanları ........................................ 486
6.3. XIX əsrin axırı XX əsrin əvvəllərində Osmanlı Türkiyəsinə qarşı böyük dövlətlərin xarici siyasətində erməni məsələsi ........................................ 499

**VII fəsil.** I Dünya müharibəsinin başlanması və Antanta dövlətlərinin Türkiyə siyasətində erməni məsələsi ........ 506
7.1. Qafqazın işğalı ........................................ 506
7.2. Mudros sülhü dövrü ........................................ 509
7.3. Türk istiqlal müharibəsində türk-erməni münasibətləri ........................................ 520
7.4. Sevr sülh müqaviləsi ........................................ 521
7.5. Lozanna sülh müqaviləsi ........................................ 522
7.6. Ermənilərin türklərə qarşı etdikləri xəyanətlər və törətdikləri cinayətlər ........................................ 524
7.7. Müasir türk-erməni münasibətləri ........................................ 536

Xülasə (ingilis dilində) ........................................ 542

Ədəbiyyat ........................................ 548





AZƏRBAYCANLILARA QARŞI ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR (1918-1920-ci illər)




Mübahisəli ərazilər

Kütləvi qırğına ən çox məruz qalan yerlər

Birinci silahlı toqquşma yerləri

| Erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdir və dağıdılmışdır | 1918-1920 |
|---|---|
| Erməni ordusu tərəfindən qətlə yetirilən azərbaycanlılar | 700 000 nəfər |
| Deportasiya edilənlər | 750 000 nəfər |
| Dağıdılmış məktəblər | 263 |
| Tibb müəssisələri | 154 |
| Məscidlər və memarlıq abidələri | 126 |
| Qəbiristanlıq | 380 |
| Talan edilən və dağıdılan Azərbaycan kəndləri | ≈ 1 500 |

*1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Naziri Məhəmməd Həsən Hacınski hökumətə müraciət edərək erməni silahlı dəstələrinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi soyqırımı və onun əmlakının talan olunması ilə bağlı həyata keçirdiyi dəhşətli vəhşilikləri araşdıran Fövqəladə Təhqiqat Komissiyasının yaradılmasının vacib olduğunu bildirir (bax: ARDA. f.1061, siy.1, iş 105, v.1).*

*1918-ci il avqustun 31-də Cümhuriyyət hökumətinin qərarı ilə Fövqəladə Təhqiqat Komissiyası yaradılır (bax: ARDA. f.1061, siy.1, iş 105, v.2).*

*Həm FTK-in, həm də o dövrün mətbuatının topladığı materiallara əsasən: 1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Bakıda 12 min nəfərdən çox, Şamaxıda 8 min nəfərdən çox, Qubada 16 min nəfər, Cənubi Azərbaycanda (Urmiya, Xoy, Səlmas, Makı, Şərafxana, Təbriz və başqa yerlərdə) 130 min nəfərdən çox, Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) 400 min nəfərdən çox azərbaycanlı qəddarlıqla qətlə yetirilmişdir.*

*Ermənilərin təcavüzü nəticəsində 263 məktəb, 154 tibb müəssisəsi, 126 məscid, 380 qəbiristanlıq, ümumilikdə isə təxminən 1500 azərbaycan kəndi talan edilərək dağıdılmışdır.*

AZƏRBAYCANA QARŞI XARİCİ-HƏRBİ MÜDAXİLƏ. AZƏRBAYCAN SSR-in YARADILMASI




1918-1919 — Qırmızı ordunun hücumu
1918 — İngilis qoşunlarının hücumu
1918-1919 — Türk qoşunlarının xilaskarlıq yürüşü
1920 — Rusiyanın Volqa-Xəzər donanması gəmilərinin hərəkəti
1920 — XI Qırmızı ordu hissələrinin hücumu (27-28 aprel 1920-ci il)
Türk qoşunları tərəfindən azad olunmuş şəhərlər
28.IV.1920 — Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması
× — Sovet işğalına qarşı müqavimət hərəkatı
Mübahisəli ərazilər

*Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən rus, ingilis, erməni-daşnak silahlı qüvvələrinin hücumuna məruz qaldı. Müdaxiləçilərin hər biri ayrı-ayrılıqda öz mənafeyi uğrunda müharibə aparırdı.*

*Qırmızı ordu və S.Şaumyanın başçılığı altında olan qoşunlar Azərbaycanın Rusiyaya birləşdirilməsi planının yerinə yetirilməsi məqsədilə Gəncəyə doğru hərəkət edirdilər. Gəncə bu zaman müstəqil Azərbaycan hökumətinin paytaxtı idi. Xilaskar Türk ordusu Qırmızı orduya qarşı vuruşur, bolşeviklərə zərbələr endirirdi.*

*İngilis ordusu Cənubi Azərbaycan ərazisindən Şimali Azərbaycana keçməyə və Bakını zəbt etməyə cəhd edirdi. Şəhər əvvəlcə türk ordusu tərəfindən azad olunmuş, sonra ingilislər tərəfindən işğal edilmişdi.*

*Nəticədə işğalçı rus ordusunun döyüş əməliyyatları və təzyiqi nəticəsində Azərbaycanın milli hökuməti istefa verdi.*

*1920-ci il aprelin 28-də Azərbaycanın şimalında sovet hakimiyyəti elan olundu. Xalqa divan tutuldu.*

*Şimali Azərbaycanda sovet hakimiyyəti 1991-ci ilədək davam etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi yenidən bərpa olundu.*





AZƏRBAYCAN SSR (1920-1922-ci illər)




Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

*1920-ci il aprelin 28-də Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olan 11 389 597 kv. km ərazi sahəsinin guya mübahisəli sayılan 16 590 kv.km-i, həm də mübahisəsiz olan 97 298 kv. km ərazisinin bir hissəsi qonşu respublikalara, xüsusilə Ermənistan Respublikasına verilmişdir.*

*1920-ci il mayında quberniya sistemi ləğv olunmuş, qəza bölgüləri isə saxlanılmışdır.*

*1920-ci il iyulun 28-də XI Qırmızı ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı—İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.*

*1920-ci il dekabrın 2-də RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti İrəvan quberniyasının Zəngəzur qəzasını Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyulunadək erməni-daşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Bizim(?) Qalqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizlənməsi ilə Zəngəzurun qərb və yuxarı hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı. 1921-ci il iyunun 20-də Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.*

*Beləliklə Azərbaycan SSR-in göstərilən əraziləri onunla razılaşdırılmadan Sovet Rusiyası tərəfindən Ermənistan SSR-ə verildi.*

*Azərbaycan SSR XTK-nin 25 oktyabr tarixli arayışına görə keçmiş Zəngəzur qəzasından 405 000 desyatin (4 424,5 kv.km), Qazax qəzasından 379 984 desyatin (4 151,3 kv.km) ərazi Ermənistan SSR-ə verilmişdir.*

*1921-1922-ci illərdə Azərbaycan SSR-in inzibati bölgüsündə 15 qəza, Naxçıvan SSR-ə isə 3 qəza daxil idi.*

(1988-2008)




(1948-1953, 1988-1994)







AZƏRBAYCANLILARA QARŞI ERMƏNİSTANIN APARDIĞI DEPORTASİYA, ETNİK TƏMİZLƏMƏ, SOYQIRIMI SİYASƏTİ və HƏRBİ TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ (1948-53,1988-94)










*Quliyev Etibar Dilqəm oğlu-hüquqşünas*



*Quliyeva Aytən Dilqəm qızı-həkim*



*Quliyev Dilqəm Qasım oğlu – pedaqogika elmləri üzrə fəlsəfə doktoru, professor*

**QULİYEV ETİBAR DİLQƏM oğlu**
**QULİYEVA AYTƏN DİLQƏM qızı**
**QULİYEV DİLQƏM QASIM oğlu**

**AZƏRBAYCAN VƏ ANADOLU TÜRKLƏRİNƏ QARŞI SOYQIRIM**

***TARİXİ HƏQİQƏTLƏR***

**Dizayner:** Kamil Mahmudov
**Kompyüter dizayneri:** Fariz Məhərrəmov
**Texniki redaktor:** Firəddin Nurəddinoğlu
**Operator:** Vüsalə İsgəndərova
**Korrektor:** Aygün Adıgözəlova

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 12.09.2012.
Formatı: 60x84 1/16 Həcmi: 36 ç.v.
Sifariş 6. Tiraj 300.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa görə
heç bir cavabdehlik daşımır!

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Telefon**: 408-86-23; 050-222-40-25



Ач 2012
2341

906